Cild 4 №1 2024
Vol 4 №1 2024
ISSN 2788-8789 (Print)
ISSN 2959-5223 (Online)

**COP29 - AZƏRBAYCAN**
**Xüsusi buraxılış**

# SOSİAL TƏDQİQATLAR

Beynəlxalq elmi-analitik jurnal

# SOCIAL RESEARCH

İnternational scientific-analytical journal



SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

# AZERBAIJAN

**Special issue dedicated to the 29th session of the Conference of the Parties to the United Nations Framework Convention on Climate Change - COP29 - Azerbaijan**



SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

ISSN 2788-8789 (Print)
ISSN 2959-5223 (Online)

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29-Azərbaycana həsr edilmiş

*XÜSUSİ BURAXILIŞ*

Cild 4. № 1. 2024

# SOSİAL TƏDQİQATLAR
# SOCIAL RESEARCH

***Beynəlxalq elmi-analitik jurnal / İnternational scientific-analytical journal***

Bakı - 2024

**Azərbaycan bir ildən az müddət əvvəl beynəlxalq ictimaiyyətin yekdil dəstəyi ilə COP29-a ev sahibliyi etməkdən şərəf duydu.**

Müddətin qısa olmasına baxmayaraq, Azərbaycan COP-un rahat və yüksək səviyyədə keçirilməsi üçün bütün lazımi hazırlıqları həyata keçirməyə nail oldu. Mübaliğəsiz deyə bilərik ki, Bakı COP tədbiri ən möhtəşəm COP-lardən biri kimi tarixə düşəcək.

Biz 80 dövlət və hökumət başçısının, qeydiyyatdan keçmiş 76 mindən çox iştirakçının qatıldığı COP29-un çox yaxşı təşkil olunması ilə bağlı bütün qonaqlardan yüksək qiymət almaqdan qürur duyuruq.

Genişmiqyaslı və planlaşdırılmış böhtan və qarayaxma kampaniyasına baxmayaraq, Azərbaycan iqlim danışıqlarında tarixi nəticələr əldə etməyə müvəffəq oldu.

"Yaşıl dünya naminə həmrəylik" şüarını rəhbər tutan Azərbaycan bitərəf vasitəçi kimi çıxış edərək danışıqların qərəzsiz aparılması üçün bütün imkanları yaratdı. Bütün proses boyu biz inkişaf etməkdə olan ölkələrin, xüsusilə kiçik ada dövlətlərinin və ən az inkişaf etmiş dövlətlərin ehtiyaclarını nəzərə alan nəticə əldə etməyə çağırış etdik, çünki onlar iqlim dəyişmələrinin ağır yükünü daşıyırlar və ekzistensial təhlükə ilə üzləşirlər. Biz, həmçinin müstəmləkə idarəçiliyi ilə daha da ağırlaşan ekoloji problemlərdən əziyyət çəkən xalqlar və regionlar ilə həmrəylik nümayiş etdirdik.

Azərbaycan inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpülərin qurulması üçün səylərini əsirgəmədi və bunun nəticəsində dünya tarixi Bakı nailiyyətinə şahid oldu.

Bakı COP-da İtki və Zərər Fondu tam işlək vəziyyətə gətirildi. Biz, həmçinin karbon bazarına dair çoxdan gözlənilən 6-cı maddənin tam işlək vəziyyətə gətirilməsinə nail olduq.

Ən əsası, Bakı COP 2035-ci ilə qədər inkişaf etməkdə olan ölkələrə 300 milyard ABŞ dolları təmin etmək üçün qarşıya yeni qlobal məqsəd qoyan Yeni Kollektiv Kəmiyyət Məqsədinin (NCQG) şahidi oldu. Bu razılaşma inkişaf etməkdə olan ölkələrə iqlim dəyişmələrinin fəsadları ilə mübarizədə kömək edəcək.

Mən Bakı nailiyyətini çoxtərəfliliyin təntənəsi kimi qiymətləndirirəm. COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir və mən inanıram ki, bu irs gələcək qlobal iqlim fəaliyyətinə müsbət təsir göstərəcək. Mən COP29-a gedən yolda Azərbaycana göstərdikləri dəstəyə görə bütün Tərəflərə, Birləşmiş Millətlər Təşkilatına və UNFCCC-yə minnətdarlığımı bildirirəm.

COP29 Baku Azerbaijan

İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ




*"COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir!"*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

**SOSİAL TƏDQİQATLAR**
*Beynəlxalq elmi-analitik jurnal*

2021-ci ildən nəşr olunur.
**Rüblük nəşr:** Cild 4. № 1/ 2024
**Təsisçi:**
Sosial Tədqiqatlar Mərkəzi
**Təsisçinin hüquqi ünvanı:**
Azərbaycan Respublikası,
Bakı şəhəri, Yasamal rayonu
İsmayıl Qutqaşınlı küç., 18
**Redaksiyanın ünvanı:**
AZ1073, Bakı şəhəri, Yasamal rayonu,
İsmayıl bəy Qutqaşınlı küç., 18.
Tel.: (+994 012) 510-70-78
**www.socialresearchjournal.az**
**office@ socialresearchjournal.az**
"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq şəkildə təsis edilmişdir.
**Reyestr № 4248**
Jurnal Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən “Azərbaycan Respublikasında məqalələrin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısı”na (“Fəlsəfə və sosiologiya”, “Siyasi elmlər”, “İqtisad elmləri”, “Tarix və antropologiya” elm bölmələri üzrə) daxil edilib.
**Tərtibatçı dizayner:** Qurban Cəlilov
**Texniki operator:** Babək Cəfər
**Korrektor:** A.Məmmədov

**SOCIAL RESEARCH**
*İnternational scientific-analytical journal*

First edition date in 2021
**Quarterly:** Vol 4. № 1/2024
**Publisher:**
Social Research Center
**Publishing House:**
Republic of Azerbaijan, Baku,
Yasamal district, 18 Ismayil,
Gutgashinli str.
**Editorial office:**
AZ 1073, Yasamal district,
18 Ismayil Gutgashinli str.
Tel.: (+994 012) 510-70-78
**www.socialresearchjournal.az**
**office@ socialresearchjournal.az**
Established by the Law "On Mass Media" of the Republic of Azerbaijan.
**Registration № 4248**
The journal was included in the list of periodical scientific publications recommended for the publication of articles in the Republic of Azerbaijan by the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan (Philosophy and Sociology, Political Sciences, Economic Sciences, History and Anthropology).
**Designer:** Gurban Jalilov
**Technical operator:** Babek Jafar
**Corrector:** A.Mammadov

Çapa imzalanıb: 11.12.2024
Fiziki çap vərəqi: 49
Sifariş: 54
Tiraj: 500

“MM-S” müəssisəsinin mətbəəsində çap edilmişdir.
**Ünvan:** Azərbaycan Respublikası, AZ 1102, Bakı şəhəri,
Nəsimi rayonu, A.Tağızadə küçəsi, ev 13.

**Telefon:** (+994 12) 431 11 00
(+994 50) 314 09 37

© Sosial Tədqiqatlar Mərkəzi, 2024

## REDAKSİYA ŞURASI

**BAŞ REDAKTOR**
**Zahid Oruc**
*STM İdarə Heyətinin sədri*

**BAŞ REDAKTORUN MÜAVİNİ**
**Tahirə Allahyarova**
*STM İdarə Heyətinin üzvü, fəlsəfə elmləri doktoru, professor*

**MƏSUL KATİB**
**Aqşin Məmmədov**
*STM-in baş məsləhətçisi, filologiya üzrə fəlsəfə doktoru*

## BEYNƏLXALQ REDAKSİYA HEYƏTİ

**Zahid Oruc**
*STM İdarə Heyətinin sədri (Azərbaycan)*

**Rafiq Əliyev**
*AMEA-nın müxbir üzvü, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinın proqram direktoru, "Zadə irsi və süni intellekt" Assosiasiyasının prezidenti (Azərbaycan)*

**Urxan Ələkbərov**
*AMEA-nın akademiki (Azərbaycan)*

**Ağamalı Məmmədov**
*sosiologiya elmləri doktoru, professor, M.V. Lomonosov adına Moskva Dövlət Universiteti Kommunikativ sistemlərin sosiologiyası kafedrasının müdiri (Rusiya)*

**Tahirə Allahyarova**
*fəlsəfə elmləri doktoru, professor, STM İdarə Heyətinin üzvü (Azərbaycan)*

**Şahin Mustafayev**
*Beynəlxalq Türk Akademiyasının prezidenti (Qazaxıstan)*

**Ədalət Muradov**
*iqtisad elmləri doktoru, professor, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru (Azərbaycan)*

## EDITORIAL COUNCIL

**EDITOR IN CHIEF**
**Zahid Oruj**
*Chairman of the Board of the SRC*

**DEPUTY EDITOR IN CHIEF**
**Tahira Allahyarova**
*Board Member of the SRC, Doctor of Philosophical Sciences, Professor*

**EXECUTIVE SECRETARY**
**Agshin Mammadov**
*Chief Consultant of the SRC, Doctor of Philosophy in Philology*

## INTERNATIONAL EDITORIAL BOARD

**Zahid Oruj**
*Chairman of the Board of the Center for Social Research* (Azerbaijan)

**Rafig Aliyev**
*Corresponding member of ANAS, program director of Azerbaijan State University of Oil and Industry, "President of Zade heritage and artificial intelligence" Association* (Azerbaijan)

**Urkhan Alakbarov**
*Academician of ANAS (Azerbaijan)*

**Agamali Mammadov**
*Doctor of Sociological Sciences, Professor, Head of the Department of Sociology of Communicative Systems, Lomonosov Moscow State University (Russia)*

**Tahira Allahyarova**
*Doctor of Philosophical Sciences, Professor, Board Member of the SRC (Azerbaijan)*

**Shahin Mustafayev**
*President of the International Turkish Academy (Kazakhstan)*

**Adalat Muradov**
*Doctor of Economics, Professor, Rector of Azerbaijan State University of Economics (Azerbaijan)*

**İlham Məmmədzadə**
*fəlsəfə elmləri doktoru, professor, AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru (Azərbaycan)*

**Rəfail Həsənov**
*sosiologiya elmləri doktoru, professor, Bakı Dövlət Universitetinin Sosiologiya kafedrasının müdiri (Azərbaycan)*

**Zhang Şuhu**
*Çin Sosial Elmlər Akademiyasının (ÇSEA-CASS) Siyasi Elmlər İnstitutunun direktoru, Çin Xalq Siyasi Məşvərət Konfransının üzvü, professor (Çin Xalq Respublikası)*

**Əbülfəz Süleymanlı**
*sosiologiya elmləri doktoru, professor, Üsküdar Universiteti Sosiologiya kafedrasının müdiri (Türkiyə)*

**Əli Hüseynli**
*hüquq üzrə fəlsəfə doktoru (Azərbaycan)*

**Musa Qasımlı**
*AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor (Azərbaycan)*

**Hüseyn Qaraşov**
*sosiologiya elmləri doktoru, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektoru (Azərbaycan)*

**Hikmət Əlizadə**
*pedaqoji elmlər doktoru, professor (Azərbaycan)*

**Səməd Seyidov**
*psixologiya elmləri doktoru, professor (Azərbaycan)*

**Lyudmila Laxtionova**
*Milli Aviasiya Universitetinin Təhsilin İnkişafı üzrə Tədris və Elm İnstitutunun direktor müavini, iqtisad üzrə fəlsəfə doktoru, dosent (Ukrayna)*

**Ilham Mammadzade**
*Doctor of Philosophical Sciences, Professor, Director of the Institute of Philosophy and Sociology of ANAS (Azerbaijan)*

**Rafail Hasanov**
*Doctor of Sociological Sciences, Professor, Head of the Department of Sociology, Baku State University (Azerbaijan)*

**Zhang Shuhu**
*Director of the Institute of Political Science of the Chinese Academy of Social Sciences (CSEA-CASS), Member of the Chinese People's Political Consultative Conference, Professor (People's Republic of China)*

**Abulfaz Suleymanli**
*Doctor of Social Sciences, Professor, Head of the Department of Sociology, Uskudar University (Turkey)*

**Ali Huseynli**
*Doctor of Philosophy in Law (Azerbaijan)*

**Musa Gasimli**
*Corresponding member of ANAS, Doctor of Historical Sciences, Professor (Azerbaijan)*

**Huseyn Garashov**
*Doctor of Sociological Sciences, Rector of the Azerbaijan Academy of Labor and Social Relations (Azerbaijan)*

**Hikmet Alizade**
*Doctor of Pedagogical Sciences, Professor (Azerbaijan)*

**Samad Seyidov**
*Doctor of Psychological Sciences, Professor (Azerbaijan)*

**Liudmyla Lakhtionova**
*PhD in Economics, Associate Professor, Deputy Director of the Educational and Scientific Institute for ducation Development of National Aviation University (Ukraine)*

| | |
| --- | --- |
| **Vüqar Rəhimzadə**<br>*siyasi elmlər doktoru, professor* | **Vugar Rahimzadeh**<br>*Doctor of Political Sciences, Professor* |
| **Yusif Qasımov**<br>*riyaziyyat elmləri doktoru, Azərbaycan Universitetinin prorektoru* | **Yusif Gasimov**<br>*Doctor of Sciences in Mathematics Azerbaijan University, Vice-rector* |
| **Qızılgül Abbasova**<br>*fəlsəfə elmləri doktoru, professor (Azərbaycan)* | **Gizilgul Abbasova**<br>*Doctor of Philosophical Sciences, Professor (Azerbaijan)* |
| **Dilbadi Qasımov**<br>*hüquq elmləri doktoru, Strasburq Universiteti (Fransa)* | **Dilbadi Gasimov**<br>*Doctor of Juridical Sciences, University of Strasbourg (France)* |
| **Mayis Əliyev**<br>*hüquq elmləri doktoru, Bakı Dövlət Universitetinin professoru (Azərbaycan)* | **Mayis Aliyev**<br>*Doctor of Juridical Sciences, Professor of Baku State University (Azerbaijan)* |
| **Natalya Sosnovskaya**<br>*Belarus Elmlər Akademiyasının Sosiologiya İnstitutunun elmi katibi, sosiologiya üzrə fəlsəfə doktoru (Belarus)* | **Natalia Sosnovskaya**<br>*Scientific secretary of the Institute of Sociology of the Belarusian Academy of Sciences, Doctor of Philosophy in Sociology (Belarus)* |

❖ **COP29 – AZƏRBAYCAN. YAŞIL STRATEGİYA, İQLİM DƏYİŞİKLİYİ, QLOBAL İSTİLƏŞMƏ, İQLİM VƏ İNSAN HÜQUQLARI: ÇAĞIRIŞLAR, VƏZİFƏLƏR**

**Zahid Oruc**
COP-29 AZƏRBAYCAN: REGİONAL VƏ QLOBAL İQLİM TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNƏ DOĞRU YAŞIL KEÇİD STRATEGİYASINDA TARİXİ DÖNÜŞ........15

**Tahirə Allahyarova**
COP-29 AZƏRBAYCAN: İQLİM DƏYİŞİKLİYİ, İQLİM MİQRANTLARI VƏ İNSAN HÜQUQLARI SAHƏSİNDƏ QLOBAL TENDENSİYALAR, PERSPEKTİVLƏR........30

**Rəna Mirzəzadə**
SU GEOSİYASƏTİ, QLOBAL SU BÖHRANI VƏ HİDRODİPLOMATİYA YENİ ELMİ, SİYASİ-HÜQUQİ PARADİQMA KİMİ........56

**Əziz Əliyev**
İQLİM DƏYİŞİKLİYİ VƏ ƏTRAF MÜHİT ETİKASI: YENİ ETİKANIN QLOBAL SİYASİ-NƏZƏRİ ASPEKTLƏRİ FONUNDA........65

**Lala Akbarova**
COP-29: NATIONAL CLIMATE POLICIES AND LEGISLATION IN FIELD OF CLIMATE CHANGE – COMPARATIVE REVIEW IN CONTEXT OF GLOBAL CLIMATE SUMMIT........85

**Qu Hang**
RESEARCH ON SOCIAL WORK INTERVENTION IN WATER QUALITY PROTECTION........101

❖ **ELM. TƏHSİL. TƏDQİQAT VƏ İNKİŞAF**

**Aqşin Məmmədov**
MÜASİR UNİVERSİTET KONSEPSİYASI: TƏHSİL, TƏDQİQAT VƏ İNNOVASİYA EKOSİSTEMİNİN İNKİŞAFI........112

**Нигина Шермухамедова**
ИННОВАЦИОННЫЕ МЕТОДЫ ПРЕПОДАВАНИЯ ФИЛОСОФИИ........129

**Аида Тюкмаева**
ГЕРМЕНЕВТИЧЕСКИЙ ОПЫТ ПОНИМАНИЯ И РЕФЛЕКСИИ ЗНАКОВО-СИМВОЛИЧЕСКИХ СИСТЕМ В ИНТЕРСУБЪЕКТИВНОМ КОНТЕКСТЕ ТОЛКОВАНИЯ........136

**Günay Rüstəmli, Zəhra Zeynalova, Neymət Rüstəmli**
MÜHARİBƏDƏN ƏZİYYƏT ÇƏKMİŞ ŞAGİRDLƏRİN RİFAHININ YÜKSƏLDİLMƏSİNDƏ MƏKTƏBİN ROLU........144

❖ SOSİAL- PSİXOLOJİ MƏSƏLƏLƏR

**Gulshan Aliyeva**
MENTAL HEALTH AWARENESS AMONG AZERBAIJANI SOLDIERS AND IMPORTANCE OF MENTAL HEALTH SERVICES..........................................161

**Şəhrizad İmanova**
HÜQUQ-MÜHAFİZƏ ORQANI İŞÇİLƏRİNDƏ EMOSİONAL İNTELLEKTİN PSİXOLOJİ TƏHLİLİ (polis əməkdaşları nümunəsində)..........................................172

**Жавлонбек Кодиров**
ПРИРОДА СОЦИАЛЬНОГО СОЗНАНИЯ КАК СООТНОШЕНИЕ ТЕЛЕСНОГО ОПЫТА С ЭМПАТИЕЙ...................................................................184

**Məftunə İsmayılova**
MƏİŞƏT ZORAKILIĞINDAN ZƏRƏRÇƏKƏNLƏRƏ YARDIM MODELLƏRİ...........190

❖ GEOSİYASİ ARAŞDIRMALAR

**İlyas Hüseynov**
BEYNƏLXALQ NƏQLİYYAT DƏHLİZLƏRİ KONTEKSTİNDƏ ZƏNGƏZUR DƏHLİZİNİN ƏHƏMİYYƏTİ...............................................................201

**İlkin Əhmədzadə**
BEYNƏLXALQ TERRORİZMLƏ QLOBAL MÜBARİZƏNİN BAŞLANMASI: POLİTOLOJİ TƏHLİL.....................................................................220

**Şəhla Cəlilzadə**
AZƏRBAYCAN İCTİMAİ RƏYİNDƏ AVROPA İTTİFAQI VƏ ÇİNƏ MÜNASİBƏT......235

**Aqil Əhmədov**
ƏHALİNİN “MÜTƏRƏDDİD” MİQRASİYASININ NƏZƏRİ ASPEKTLƏRİ................255

❖ SOSİAL-İQTİSADİ TƏDQİQATLAR

**Maşallah Səfərov**
İŞĞALDAN AZAD EDİLƏN REGİONLARDA MÜŞTƏRƏK BİZNESİN İNKİŞAF PERSPEKTİVLƏRİ.........................................................................271

**Gülnar Orucova, Ülkər İsfəndiyarova, Pərvanə İsmayılova**
AZƏRBAYCANIN TİKİNTİ SEKTORUNUN EKONOMETRİK TƏHLİLİ.....................284

**Айнур Мамедова**
ПРОДОВОЛЬСТВЕННАЯ БЕЗОПАСНОСТЬ И ПОТРЕБИТЕЛЬСКАЯ КУЛЬТУРА В АЗЕРБАЙДЖАНЕ НА ФОНЕ РОСТА МИРОВЫХ ЦЕН НА ПРОДОВОЛЬСТВИЕ...........................................................................301

**Müslümat Allahverdiyeva, Elşən Cəbrayılzadə**
FİRMANIN İMİCİNİN FORMALAŞMASINDA İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏRIN ROLU........321

**Rafiq Rzayev**
İNNOVASİYALAR ÜÇÜN ƏLVERİŞLİ İNVESTİSİYA MÜHİTİNİN YARADILMASI........332

**❖ SOSİAL MEDİA, İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ MƏSƏLƏLƏRİ**

**Pərvanə İbrahimova**
TÜRKİYƏ-AZƏRBAYCAN ORTAQ MEDİA PLATFORMASININ YARADILMASINI ZƏRURİ EDƏN AMİLLƏR........343

**Sabir Məmmədli**
BOLQARISTAN TÜRKLƏRİNİN MƏTBUATI MİLLİ MÜBARİZƏNİN APARICI VASİTƏSİ KİMİ (1944-2010-cu illər)........355

**Fidan ƏLİYEVA**
DƏYİŞƏN MEDİA MÜHİTİNDƏ YENİ MEYİLLƏR........367

**❖ YENİ NƏŞRLƏR, RƏYLƏR**

**Ariz Gözəlov**
"SOSİAL OPTİKADA YENİ HƏDƏF" KİTABINA RƏY........378

**❖ BEYNƏLXALQ TƏDBİRLƏR, ELMİ ƏMƏKDAŞLIQ**

COP29 ÇƏRÇİVƏSİNDƏ AZƏRBAYCAN VƏ QƏTƏRİN BİRGƏ FƏALİYYƏTİNƏ HƏSR OLUNMUŞ TƏDBİR KEÇİRİLİB........384

SOSİAL TƏDQİQATLAR MƏRKƏZİNDƏ “COP29 - YAŞIL STRATEGİYA, İQLİM DƏYİŞİKLİYİ VƏ SOSİAL ELMLƏR: ÇAĞIRIŞLAR, VƏZİFƏLƏR” MÖVZUSUNDA DƏYİRMİ MASA KEÇİRİLİB........ 386

SOSİAL TƏDQİQATLAR MƏRKƏZİNİN NÜMAYƏNDƏSİ XXV ÜMUMDÜNYA FƏLSƏFƏ KONQRESİNDƏ MƏRUZƏÇİ VƏ DƏYİRMİ MASA TƏŞKİLATÇISI KİMİ İŞTİRAK EDİB........388

❖ **COP29 – AZERBAIJAN. GREEN STRATEGY, CLIMATE CHANGE, GLOBAL WARMING, CLIMATE AND HUMAN RIGHTS: CHALLENGES, TASKS**

**Zahid Oruj**
COP-29 AZERBAIJAN: HISTORIC TURNING POINT INGREEN TRANSITION STRATEGY TO ENSURE REGIONAL AND GLOBAL CLIMATE SECURITY..........15

**Tahira Allahyarova**
COP-29 AZERBAIJAN: CLIMATE CHANGE, CLIMATE MIGRATION AND HUMAN RIGHTS - GLOBAL TRENDS, REALITY AND PROSPECTS..........30

**Rena Mirzezadeh**
THE GEOPOLITICS OF WATER, GLOBAL WATER CRISIS AND HYDRODIPLOMACY AS A NEW SCIENTIFIC-POLITICAL AND LEGAL PARADIGM..........56

**Aziz Aliyev**
CLIMATE CHANGE AND ENVIRONMENTAL ETHICS: GLOBAL POLITICAL AND THEORETICAL PERSPECTIVES ON NEW ETHICAL FRAMEWORK..........65

**Lala Akbarova**
COP-29: NATIONAL CLIMATE POLICIES AND LEGISLATION IN FIELD OF CLIMATE CHANGE – COMPARATIVE REVIEW IN CONTEXT OF GLOBAL CLIMATE SUMMIT..........85

**Qu Hang**
RESEARCH ON SOCIAL WORK INTERVENTION IN WATER QUALITY PROTECTION..........101

❖ **SCIENCE. EDUCATION. RESEARCH AND DEVELOPMENT**

**Agshin Mammadov**
CONCEPT OF A MODERN UNIVERSITY: DEVELOPMENT OF ECOSYSTEM OF EDUCATION, RESEARCH AND INNOVATION..........112

**Nigina Shermukhamedova**
INNOVATIVE METHODS OF TEACHING PHILOSOPHY..........129

**Aida Tyukmaeva**
HERMENEUTIC EXPERIENCE OF UNDERSTANDING AND REFLECTION OF SIGN-SYMBOLIC SYSTEMS IN THE INTERSUBJECTIVE CONTEXT OF INTERPRETATION..........136

**Gunay Rustamli, Zahra Zeynalova, Neymat Rustamli**
SCHOOLS' ROLE IN ENHANCING WELL-BEING
OF WAR-AFFECTED STUDENTS....................................................................144

❖ **SOCIAL-PSYCHOLOGICAL ISSUES**

**Gulshan Aliyeva**
MENTAL HEALTH AWARENESS AMONG AZERBAIJANI SOLDIERS
AND IMPORTANCE OF MENTAL HEALTH SERVICES..........................................161

**Shahrizad Imanova**
PSYCHOLOGICAL ANALYSIS OF EMOTIONAL INTELLIGENCE IN LAW
ENFORCEMENT OFFICERS (CASE STUDY: POLICE OFFICERS)......................172

**Javlonbek Kodirov**
NATURE OF SOCIAL CONSCIOUSNESS AS A RELATIONSHIP
BETWEEN BODY EXPERIENCE AND EMPATHY..................................................184

**Maftuna Ismayilova**
MODELS OF ASSISTANCE TO VICTIMS OF DOMESTIC VIOLENCE..................190

❖ **GEOPOLITICAL RESEARCH**

**Ilyas Huseynov**
SIGNIFICANCE OF ZANGEZUR CORRIDOR IN CONTEXT
OF INTERNATIONAL TRANSPORT CORRIDORS................................................201

**Ilkin Ahmedzade**
LAUNCHING GLOBAL FIGHT AGAINST INTERNATIONAL
TERRORISM: POLITICAL ANALYSIS....................................................................220

**Shahla Jalilzadeh**
AZERBAIJANI PUBLIC OPINION ON EUROPEAN UNION AND CHINA................235

**Agil Ahmadov**
THEORETICAL ASPECTS OF PENDULUM MIGRATION......................................255

❖ **SOCIO-ECONOMIC RESEARCH**

**Mashallah Safarov**
DEVELOPMENT PERSPECTIVES OF JOINT BUSINESS
IN REGIONS LIBERATED FROM ARMENIAN OCCUPATION................................271

**Gulnar Orujova, Ulkar Isfandiyarova, Parvana Ismayilova**
ECONOMETRIC ANALYSIS OF CONSTRUCTION SECTOR IN AZERBAIJAN......284

**Aynur Mammadova**
FOOD SECURITY AND CONSUMER CULTURE IN AZERBAIJAN
AMID RISING GLOBAL FOOD PRICES................................................................301

**Muslimat Allahverdiyeva, Elshan Jabrayilzada**
ROLE OF PUBLIC RELATIONS IN SHAPING A COMPANY'S IMAGE....................321

**Rafig Rzayev**
ESTABLISHMENT OF FAVORABLE ENVIRONMENT
FOR INNOVATION AND INVESTMENT...................................................................332

**❖ SOCIAL MEDIA, INFORMATION SECURITY ISSUES**

**Parvana Ibrahimova**
FACTORS UNDERPINNING CREATION OF TURKISH-AZERBAIJANI
JOINT MEDIA PLATFORM.........................................................................................343

**Sabir Mammadli**
BULGARIAN TURKS' PRESS AS CRUCIAL INSTRUMENT
IN NATIONAL STRUGGLE (1944-2010)................................................................355

**Fidan Aliyeva**
EMERGING TRENDS IN TRANSFORMING MEDIA LANDSCAPE........................367

**❖ NEW PUBLICATIONS, REVIEWS**

**Ariz Gozalov**
REVIEW OF THE BOOK "A NEW GOAL IN SOCIAL OPTICS"...............................378

**❖ INTERNATIONAL EVENTS, SCIENTIFIC COOPERATION**

AN EVENT DEDICATED TO THE JOINT ACTIVITIES OF AZERBAIJAN
AND QATAR WAS HELD WITHIN THE FRAMEWORK OF COP29........................384

A ROUNDTABLE DISCUSSION ON THE TOPIC "COP29 - GREEN
STRATEGY, CLIMATE CHANGE AND SOCIAL SCIENCES: CHALLENGES,
TASKS" WAS HELD AT THE CENTER FOR SOCIAL RESEARCH........................386

A REPRESENTATİVE OF THE CENTER FOR SOCİAL RESEARCH
PARTİCİPATED İN THE 25TH WORLD CONGRESS OF PHİLOSOPHY
AS A SPEAKER AND ROUND TABLE ORGANİZER..............................................388




# COP29 – AZƏRBAYCAN. YAŞIL STRATEGİYA, İQLİM DƏYİŞİKLİYİ, QLOBAL İSTİLƏŞMƏ, İQLİM VƏ İNSAN HÜQUQLARI:
ÇAĞIRIŞLAR, VƏZİFƏLƏR

# COP29 – AZERBAIJAN. GREEN STRATEGY, CLIMATE CHANGE, GLOBAL WARMING, CLIMATE AND HUMAN RIGHTS:
CHALLENGES, TASKS

# COP-29 AZƏRBAYCAN: REGİONAL VƏ QLOBAL İQLİM TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNƏ DOĞRU YAŞIL KEÇİD STRATEGİYASINDA TARİXİ DÖNÜŞ

**Zahid ORUC**
*Sosial Tədqiqatlar Mərkəzi İdarə Heyətinin sədri*
*E-mail: zahidoruc@gmail.com*
*(Bakı, Azərbaycan)*

**Xülasə.** Məqalədə ilk dəfə olaraq BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında - COP29-da Azərbaycanda iqlim tədqiqatları kontekstində "iqlim təhlükəsizliyi" məsələsi təhlil edilir. Qeyd edilir ki, COP29 konfransında bu məsələ iqlim diplomatiyasının mərkəzində dayanır.

İqlim dəyişikliyi və ətraf mühitin deqradasiyası hər bir ölkə və dünya üçün real təhlükə yaradır. Bu çətinlikləri aradan qaldırmaq üçün o, yeni inkişaf strategiyasını "yaşıl keçid" kimi müəyyənləşdirir.

Məqalədə qeyd olunur ki, Azərbaycan bərpa olunan enerji mənbələri üzrə yüksək potensiala malik, iqlim dəyişikliyi ilə mübarizədə fəal iştirak edən ölkələrdən biridir. COP29-da Azərbaycan yaşıl enerjiyə keçidlə bağlı öz təşəbbüslərini dünya ictimaiyyətinə təqdim edib.

COP29-dan sonrakı tədqiqatlar üçün qarşıda duran mühüm vəzifələrdən biri iqlim dəyişikliyinin çoxşaxəli aspektlərini araşdırmaq və elmi leksikonumuza bir çox yeni terminləri daxil etməkdir. "İqlim təhlükəsizliyi" strateji əhəmiyyət kəsb edən anlayışlardan biridir və bununla da yenidir.

**Açar sözlər:** COP29, Azərbaycan, yaşıl keçid, iqlim təhlükəsizliyi, strategiya, iqlim riskləri, iqlim diplomatiyası, Milli Müəyyən Edilmiş Töhfələr, qlobal enerji təhlükəsizliyi

## Giriş

*“COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir və bu irs gələcək qlobal iqlim fəaliyyətinə müsbət təsir göstərəcək. Azərbaycan iqlim danışıqlarında tarixi nəticələr əldə etməyə müvəffəq oldu. İnkişaf etmiş və etməkdə olan ölkələr arasında körpülərin qurulması üçün səylərini əsirgəmədi və nəticədə dünya tarixi Bakı nailiyyətinin şahidi oldu”.*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti [1]**

Prezident İlham Əliyevin andiçmə mərasimində bəyan etdiyi “Yeni Dövr” idealının hədəflədiyi milli inkişaf strategiyası Azərbaycanı yeni zəfərlərə doğru aparır. Müstəqil dövlətçiliyinin 2024-cü ilində yeni tarixi mərhələyə qədəm qoyan ölkəmiz dünyanın ən nəhəng tədbirlərindən biri hesab edilən qlobal iqlim konfransına - COP29-a ev sahibliyi kimi diplomatik zəfər qazandı. Dünya birliyini yalnız konfrans günlərində deyil, bütün il boyu “Yaşıl dünya naminə həmrəylik”, iqlim dəyişmələri ilə mübarizədə səfərbərliyə çağırdı.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 iqlim diplomatiyasının tarixinə qızıl hərflərlə yazılacaq uğurlarla başa çatdı. Paytaxtımız Bakının adı ilə qəbul edilən iqlim qərarları dünya tarixinə düşdü, “Bakı dönüşü, sıçrayışı” (“Baku Breakthrough”) adını aldı. “Bu uğurların gerçək mahiyyətini biz də, bütün dünya da cəmi bir il sonra və daha sonra keçiriləcək COP konfranslarının nəticələri ilə müqayisə edəndə dönə-dönə yenidən dərk edəcəyik. COP 29-da həyata keçirilən qlobal fəaliyyətin nəticələri hazırda bütün dünyada müzakirə edilir. COP29 BMT qurumlarını, beynəlxalq təşkilatları, çoxtərəfli inkişaf banklarını, iqlim fondlarını, özəl sektoru, vətəndaş cəmiyyətini, əsas koalisiyaları, Azərbaycanın çoxsaylı tərəfdaşlarını, strateji müttəfiqləri və digər maraqlı tərəfləri, həmçinin COP Sədrlikləri və Tərəfləri bir araya gətirdi. 10-dan çox beynəlxalq əhəmiyyətli qərar qəbul edildi: Bakı Maliyyə Məqsədi, Bakı Adaptasiya Yol Xəritəsi, İqlim Maliyyəsi, İnvestisiya və Ticarət üzrə Bakı Təşəbbüsü, İqlim davamlılığı üçün İnsan İnkişafı üzrə Bakı Təşəbbüsü, Fermerlər üçün Bakı Harmoniya İqlim Təşəbbüsü, İqlim və Səhiyyə üzrə Davamlılıq Koalisiyası təsis edildi. Bununla yanaşı, 10 illik Yenilənmiş Gender üzrə Lima İş Proqramı, enerji üzrə öhdəliklər, COP29 Yaşıl Rəqəmsal Fəaliyyət Bəyanatı, Üzvi Tullantılardan Metanın Azaldılmasına dair Bakı Bəyannaməsi, Davamlı və Sağlam Şəhərlər üçün Çoxsahəli Fəaliyyət Yollarına dair Bakı Bəyannaməsi, İqlim Fəaliyyəti naminə COP29 Bəyannaməsi və s. mühüm qərarlar, qlobal təşəbbüs və çağırışların perspektivlər üçün əhəmiyyəti isə hələ onillərlə təhlil və tədqiq ediləcək.

COP-29 Azərbaycan konfransının lokal, regional və qlobal iqlim təhlükəsizliyinin təmin edilməsi, “yaşıl tranzit” strategiyasının gerçəkləşdirilməsi yönündə tarixi əhəmiyyətinə dair elmi tədqiqatlara, ətraflı araşdırmaların aparılmasına, layihələrin həyata keçirilməsinə ehtiyac var. Bu məqalədə sözügedən məsələlərdən, elmi, siyasi, hüquqi və ictimai leksikonumuza yeni daxil olan çoxsaylı iqlim terminologiyaları sırasında prioritet hesab edilən “iqlim təhlükəsizliyi”, onun təmin edilməsi yönündə COP29 Azərbaycan tədbirinin əhəmiyyəti mövzusundan ilk dəfə bəhs edilir.

### 1. COP29 - Azərbaycanın son onilliklərdə başladığı yaşıl keçid strategiyasına doğru tarixi addım

1995-ci ildən başlayaraq hər il keçirilən Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (UNFCCC) və Paris Sazişini imzalayan Tərəflərin Konfansının (COP) keçirilməsində əsas məqsəd dünyada iqlim dəyişikliyi ilə mübarizəni davamlı etmək, irəliləyişləri qiymətləndirməkdir. Ali məqsədi iqlim sisteminə insanlar tərəfindən edilən antropogen mənbəli və təhlükəli hesab edilən bütün müdaxilələrin qarşısını almaqdır.

İqlim dəyişikliyi və ətraf mühitin deqradasiyası hər bir ölkə və dünya üçün ekzistensial təhlükədir. Bu çətinliklərin öhdəsindən gəlmək üçün yeni inkişaf strategiyası yaşıl keçid kimi müəyyən edilir. Hazırda mövcud

istehsal və istehlak nümunələri qeyri-davamlıdır və davamlı inkişafa doğru hərəkət etmək üçün hərtərəfli yeni fəaliyyət tələb olunur. İnteqral, sistemli yanaşma sosial-iqtisadi inkişaf və ekoloji məqsədlərə nail olmaq üçün bu sahələrdə siyasətin bir-birini tamamlamasını şərtləndirən yaşıl iqtisadiyyata keçidi zərurətə çevirir. Yaşıl artıma keçid mərhələli şəkildə mümkündür. Bu da öz növbəsində yaşıl keçid mərhələsini nəzərdə tutur. "Yaşıl keçid - yaxın 20-30 ildə iqlimi neytrallaşdırmaq, yaşıl texnologiya vasitəsilə iqtisadiyyatı artırmaq, davamlı inkişaf edən sənaye və nəqliyyat yaratmaq və atmosferin çirklənməsini azaltmaqla, iqlim və ətraf mühitdəki problemləri fürsətlərə çevirməyə yönəlik keçid mərhələsidir. Bu, iqlim dəyişikliyinin, ekoloji təsirlərin azaldılması və daha davamlı gələcəyin təşviqi məqsədilə resurs tutumlu və ətraf mühiti çirkləndirən istehsal təcrübələrindən daha davamlı və ekoloji cəhətdən təmiz alternativlərə keçidi əhatə edən keçid mərhələsini nəzərdə tutur" [15].

Azərbaycan dövləti yaşıl keçidi yalnız BMT-nin İqlim Dəyişikliyi Konvensiyasının Tərəf ölkəsi olduğu üçün dəstəkləmir. Reallıqda son onillərdə yaşıl enerji və iqtisadi artıma keçid məqsədlərinə nail olmağa töhfə verən islahatların hazırlanması və həyata keçirilməsi ölkəmizin strateji siyasi kursudur. Ölkəmizdə COP29-dan əvvəl də yaşıl siyasətin həyata keçirilməsi üçün lazım olan aidiyyəti mexanizmlərin hazırlanmasına, mərkəzi və yerli idarəetmə strukturlarında zəruri proseslərin yaradılmasına başlanılıb.

Yaşıl keçidlər sosial-iqtisadi sistemlərin planetar ekoloji sərhədlər daxilində mühafizəsini təmin etməklə yanaşı, yeni dayanıqlı iqtisadi model vasitəsilə rifahın və firavanlığın artmasına da imkan verir.

Söhbət təkcə alternativ enerjiyə keçiddən, neftə və qaza, daş kömür və tükənən digər yanacaq növlərinə tələbatı azaltmaqdan, karbon emissiyalarını sıfıra endirməkdən getmir, ilk növbədə, ölkəmizdə sənaye üsulu ilə çıxarmağa başladığımız 278 illik neftin inhisarından çıxmaqdan, iki dünya müharibəsi, o cümlədən birinci və ikinci Qarabağ savaşlarının taleyində müstəsna rol oynayan bir resursdan tamamilə fərqli digərinə - yaşıl enerjiyə keçiddən gedir.

Əslində Azərbaycanda yaşıl tranzit Prezident İlham Əliyevin rəhbərliy ilə çoxdan başlayıb və dövlət başçısının xüsusilə də 2010-cu ildən sonrakı çıxışlarına, o cümlədən qərarlarına baxdıqda, "Bərpa olunan enerji mənbələrindən enerjinin istehsalının təşviqi üçün dəstək mexanizmləri"nin əsas dövlət kursunun mühüm bir sahəsinin məhz bərpa olunan enerjiyə yönəldiyini görərik [5; 6].

22 sentyabr 2020-ci il tarixində Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji

Mənbələri Dövlət Agentliyi yaradılıb və Agentliyin Əsasnaməsi təsdiq edilib [2]. Dövlətimizin Qarabağ savaşından sonra qlobal ekoloji tədbirin keçirilməsinə nail olması böyük siyasi uğur olmaqla yanaşı, həm də yaşıl tranzitlə bağlı ölkəmizin siyasətidir. Yeni mərhələdə qeyri-neftsiz eraya keçid, son iki yüz ildə bütün lokal və qlobal savaşların əsas səbəblərindən biri, həmçinin hərbi mühərrikləri hərəkətə gətirən vasitə əvəzinə smart və 4-5-ci nəsil texnologiyalar, süni intellekt məhsulları və yaşıl enerji təkcə yeraltı sərvətləri qorumağa deyil, həm də dünyanın son 300 illik taleyini dəyişdirə bilər. Artıq günəş, külək və s. təkcə təbiət-kainat hadisəsi deyil, həm də tükənməz enerji mənbəyi, transformasiyası və ekoloji inqilabın əsas nüvəsi statusundadır.

Başa çatmaqda olan 2024-cü il COP29, COP16 biomüxtəliflik və COP16 səhralaşma tədbirləri ilə tarixə qovuşacaq. Bununla yanaşı, iqlim dəyişikliyi üzrə COP miqyas, məqsədlər və çoxşaxəli vəzifələr baxımından müstəsna tədbir sayılır.

Qeyd edildiyi kimi, Azərbaycan iqlim dəyişikliyi ilə mübarizəyə önəm verən ölkələrdən biri kimi bütün saziş və konvensiyalara qoşulub. Enerji resursları ilə zəngin olmasına rəğmən Azərbaycanda bərpa olunan enerji mənbələrindən istifadə hər zaman diqqət mərkəzində olub. Dövlət enerji təhlükəsizliyi siyasətinin təməl hədəflərindən biri də ölkəmizdə bərpa olunan enerji mənbələrindən istifadənin gücləndirilməsindən ibarətdir. COP29-un prezidenti Muxtar Babayev VI Ümumdünya Forumu çərçivəsində “Yaşıl gələcəyə davamlı yol: COP29 və sonrakı dövr üçün birgə fəaliyyət” mövzusunda keçirilən toplantıda bildirib: “Azərbaycan hazırda dünyanın prioritet kimi qəbul etdiyi “yaşıl keçid”in əsas iştirakçılarından biridir. Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri “Təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi” kimi müəyyən edilib. Bu prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır. Bu gün iqtisadi cəhətdən dayanıqlı, təmiz və sağlam gələcəyə keçid ən aktual çağırışlardan biridir. Eyni zamanda bir cəmiyyət olaraq qarşımızda duran böyük məsuliyyətdir. Ölkəmizin iqlim dəyişikliyi məqsədlərinin qlobal çağırışlarla sıx uzlaşması artıq bizim üçün müəyyən təcrübə yaradıb. Böyük enerji şirkətləri ilə icra etdiyimiz “yaşıl layihə"lər ölkəmizin "təmiz enerji" ölkəsinə transformasiyasına, ekoloji tarazlığı dəstəkləyən investisiyaların təşviqinə hesablanıb” [7].

COP29-da Azərbaycan qlobal birliyə “yaşıl” enerjiyə keçidlə bağlı təşəbbüslərini təqdim etdi. Məlum oldu ki, COP-29 fosil yanacaqlara qlobal asılılığın azaldılması və bərpa olunan enerjinin tətbiqinin genişləndirilməsinə xüsusi diqqət yetirməklə enerji keçid gündəliyinin irəlilədilməsinə diqqət yetirəcək. Əsas məqsədlərə kömürün mərhələli şəkildə dayandırılması və yaşıl hidrogen bazarlarının inkişafı üçün xüsusi vaxt qrafiklərinin yaradılması daxildir ki, bunların hər ikisi Paris Sazişinin hədəflərinə çatmaq üçün vacibdir. COP29 həmçinin, xüsusilə qalıq yanacaqlardan çox asılı olan iqtisadiyyatlar üçün enerji təhlükəsizliyi problemlərini həll edəcək və təsirə məruz qalmış icmalar üçün ədalətli keçidi təmin edən siyasətləri dəstəkləyəcək. Bu təşəbbüsləri irəli sürməklə, COP29 uzunmüddətli iqlim məqsədlərinə uyğun gələn davamlı, dayanıqlı enerji sistemləri yaratmağa çalışır.

“Yaşıl keçid həm də “ədalətli keçid” (“just transition”) deməkdir. “Ədalətli keçid” anlayışı ekoloji və sosial böhranlar arasında əlaqənin dərk edilməsini nəzər-

də tutur. Dekarbonizasiya və yaşıl enerji mənbələrinə keçidin insanların rifahının yaxşılaşması ilə ziddiyyət təşkil etməməsi üçün iqtisadiyyatların dekarbonizasiya proseslərində işçilərin və həssas təbəqələrin maraqları nəzərə alınır. Yerli maraqlı tərəflərlə (dövlətlər, dövlət və özəl şirkətlər, maliyyə institutları, QHT-lər və vətəndaş cəmiyyəti) tərəfdaşlıqda inklüziv, ədalətli və davamlı enerji keçidini təşviq etmək üçün bütün maliyyə alətləri işə salınır: ədalətli planlaşdıma və idarəetmə üçün inklüziv yanaşmanın qəbul edilməsi, proaktiv və qoruyucu (protektiv) dövlət siyasətinin həyata keçirilməsi, ev təsərrüfatlarına və yerli hakimiyyət orqanlarına dəstək verərkən layiqli iş yerlərinin yaradılması" [4].

İqlim dəyişmələri ilə mübarizəyə fəal qoşulan Azərbaycan bərpa olunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdəndir. Ölkəmizin bərpa olunan enerji mənbələrinin texniki potensialı quruda 135 QVt, dənizdə 157 QVt-dır. Bərpa olunan enerji mənbələrinin iqtisadi potensialı 27 QVt, o cümlədən külək enerjisi üzrə 3000 MVt, günəş enerjisi üzrə 23000 MVt, bioenerji potensialı 380 MVt, dağ çaylarının potensialı 520 MVt həcmində qiymətləndirilir. Hidroenerji gücü 1301,8 MVt (35 ədəd stansiya, 24-ü kiçik su elektrik stansiyası), külək enerjisi gücü 66,4 MVt (8 stansiya, 3-ü hibrid), bioenerji gücü 37.7 MVt (2 stansiya, 1-i hibrid), günəş enerjisi gücü 281,9 MVt (13 stansiya, 3-ü hibrid) təşkil edir. 2023-cü il ərzində respublikada elektrik enerjisinin istehsalı 29,3 milyard kVt·st təşkil edib. Bu dövrdə elektrik enerjisinin istehsalı SES-lərdə 1757,2 mln. kVt·st, digər mənbələr (KES, GES və BMTYZ) üzrə isə 359 mln. kVt·st olub. İl ərzində külək elektrik stansiyalarında 56,6 mln. kVt·st, günəş elektrik stansiyalarında 79,4 mln. kVt·st, Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda 223 mln. kVt·st elektrik enerjisi istehsal edilib. Bərpa olunan enerji mənbələri hesabına istehsal olunmuş elektrik enerjisi ümumi istehsalın təqribən 7%-ni təşkil edib. 2020-ci ildən Masdar, ACWA Power, bp, Fortescue Future Industries, China Gezhouba Group Overseas Investment, Total Energies, Nobel Energy, A-Z Czech Engineering və Baltech şirkətləri ilə bərpa olunan enerji layihələri ilə bağlı əməkdaşlığa başlanılıb. 3 may 2021-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "Yaşıl Enerji Zonası"nın yaradılması ilə bağlı tədbirlər haqqında" sərəncam imzalanıb. Ölkəmizin işğaldan azad edilmiş torpaqları "yaşıl enerji" zonası elan edilib. Bu ərazilərin 2050-ci ilədək "Netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulur. Azərbaycan Respublikasında hidrogen istehsalı və istifadəsi ilə bağlı araşdırmaların aparılması və təkliflərin hazırlanması məqsədilə Energetika Nazirliyinin həmsədirliyi ilə aidiyyəti qurumların nümayəndələrindən ibarət İşçi qrup yaradılıb [3].

COP29 çərçivəsində İqtisadiyyat Nazirliyinin və Harvard Universitetinin "Growth Lab" Beynəlxalq İnkişaf Mərkəzi [12] arasında əməkdaşlıq əsasında hazırlanmış qlobal "Yaşıl artım portalı"nın təqdimatı keçirilib. "Yaşıl artım portalı"nın yaşıl texnologiya üzrə təchizat zəncirləri və texnoloji həllərin sistemləşdirilməsi vasitəsilə yaşıl keçidin iqtisadi faydalarını maksimum dərəcədə artırmağı hədəflədiyi qeyd olunub. "Yaşıl artım portalı" ölkələrə və investorlara "yaşıl" keçid strategiyalarını təkmilləşdirməyə kömək məqsədilə reallaşdırılır. Harvard Universitetinin Beynəlxalq İnkişaf Mərkəzinin təsisçisi və direktoru, professor Rikardo Hausmanın rəhbərliyi ilə yaradılan interaktiv alət "yaşıl" dəyər zənciri üzrə tədqiqat

məlumatlarını əhatə edir: “Yaşıl artım portalı” karbonsuzlaşmaya xidmət edən yeni sənaye sahələrinin, yeni bazarların və inkişaf istiqamətlərinin formalaşmasını stimullaşdıracaq. Karbonsuz iqtisadiyyat üçün təchizatçı olmaq “yaşıl” artıma və qlobal emissiyaların azalmasına töhfə verəcək [11].

Habelə,“Bakı Adaptasiya Yol Xəritəsi”nin yaradılması da bu istiqamətdə önəmli qərarlardandır. Bütün bunlar qlobal istixana qazı emissiyalarında payı cəmi 0,1 faiz təşkil edən Azərbaycanın dünyaya nümunəvi ölkə kimi kiçik emissiya payına sahib dövlətlərin iqlim dəyişmələri ilə mübarizəyə böyük töhfələr verə biləcəyini təsdiq edir.

## 2. İqlim təhlükəsizliyi nədir?

COP20 sonrası tədqiqat sahəsində görüləcək mümüm işlərdən biri də iqlim mövzusunun çoxşaxəli istiqamətlərinin araşdırılması, elm və təhsil sahəsində öyrənilməsi, bir çox yen terminlərin elmi leksikonumuza gətirilməsidir. “İqlim təhlükəsizliyi" bu sırada yeni olmaqla yanaşı, strateji əhəmiyyətə malik anlayışlardandır. Azərbaycanda bu sahədə tədqiqatlar hələlik yox dərəcəsindədir.

“İqlim təhlükəsizliyi" iqlim dəyişikliyi şəraitində əhalinin və dövlətlərin təhlükəsizliyini, o cümlədən ətraf mühitin qorunmasını təmin edən konsepsiyadır. "İqlim təhlükəsizliyi" konsepsiyası - iqlim dəyişikliyi insanların və xalqların təhlükəsizliyi üçün ciddi nəticələrə malik olmasını diqqət mərkəzinə gətirir. Məsələn, dəniz səviyyəsinin qalxması sahilyanı daşqınlara və insanların kütləvi şəkildə yerdəyişməsinə, münaqişələrə və ictimai-siyasi qeyri-sabitliyə, sosial partlayışlara səbəb ola bilər. Qasırğalar, daşqınlar və quraqlıq kimi ekstremal hava hadisələri də infrastrukturun dağılmasına, kənd təsərrüfatı məhsuldarlığının azalmasına və ictimai təhlükəsizliyə təhdidlərə səbəb ola bilər” [9].

Mövzuya həs edilmiş tədqiqatlar göstərir ki, iqlim dəyişikliyinin insan təhlükəsizliyinə təsir edəcəyi vəziyyətlər çoxsaylıdır. İqlim təhlükəsizliyi iqlim böhranının sülh və təhlükəsizliyə birbaşa və dolayı təsirlərini nəzərdə tutur, iqlim dəyişikliyi təhdidlərin çoxsayı səbəb və gücləndiricisi-multiplikatoru kimi çıxış edir. İqlim dəyişikliyinin nəticələri insan təhlükəsizliyinin bütün sahələrinə - iqtisadiyyata, ərzaq təhlükəsizliyinə, sağlamlığa, ətraf mühitə, şəxsi, icma və siyasi rifaha təsir edir. İqlim əsaslı qaçqın və miqrantlar da daxil olmaqla, həssas vəziyyətli icmalara qeyri-mütənasib təsir göstərməklə sülhün və davamlı inkişaf səylərinə maneə yaratmaqla münaqişələrin alovlanmasına səbəb ola bilər. Qlobal istiləşmə prosesləri, ətraf mühitin dəyişməsi və hava şəraitinin dəyişməsi artıq milli inkişaf ehtiyaclarını ödəyə bilməyən ölkələrə əlavə təzyiqlər yaradır. Sosial-iqtisadi münasibətlərdəki kövrəkliyi, marjinallaşma və təcrid hissini dərinləşdirir və bununla da siyasi narazılıqları artırır. Münaqişələrdən təsirlənən dövlətlərdə bu dinamika gərginliyi gücləndirir, xüsusən də milli və yerli siyasətlər mövcud gərginliyin səbəblərini aradan qaldıra bilmədikdə və təbii ehtiyatların tükəndiyi, ən həssas və təcrid olunmuş qruplarla yerli vasitəçilik və mübahisələrin həlli mexanizmlərini həyata keçirmədikdə ənənəvi yaşayış tərzi və vasitələri tədricən məhv edilir.

Gözlənilməz yağıntılar və ekstremal hava hadisələri qida və su uğrunda rəqabətə səbəb ola bilər. Kənd təsərrüfatı istehsalının azalması əhalinin böyük təbəqələrinin gəlirlərinin itirilməsinə səbəb ola bilər. Quraqlıqlar, daşqınlar, tufanlar və dəniz səviyyəsinin qalxması artıq hər il 20 milyondan çox insanı evlərini tərk etməyə və ölkədaxili digər bölgələrə köçməyə məcbur edir.

İqlim təhlükəsizliyi xüsusən də zəif və münaqişələrdən təsirlənən ölkələrdə aktualdır. İqlim dəyişikliyi təbii sərvətlər üzərində rəqabətin artması, sosial böhranlar, ekoloji miqrantlar və s. kimi kaskad təsirlərlə qida, su və yaşayış vasitələrinin çatışmazlığını gücləndirə bilər. Bir ölkədə və ya regionda gərginliyin, münaqişənin və qeyri-sabitliyin artmasına səbəb ola bilər.

Münaqişənin artıq mövcud olduğu şəraitdə iqlim dəyişikliyinin təsirləri onu daha da gücləndirə və ya uzada bilər ki, bu da sülhə nail olmağı və onu davam etdirməyi çətinləşdirir. Münaqişə öz növbəsində ya enerji, su və kənd təsərrüfatı ehtiyatlarının aktiv şəkildə məhv edilməsi, ya da yumşaldılma və uyğunlaşma müdaxilələrini gecikdirmək və yaxud bloklamaq yolu ilə iqlim fəaliyyətinə maneə törədə bilər. İqlim dəyişikliyi resurs qıtlığını artırdığına və mövcud çoxsaylı sosial, iqtisadi və ekoloji problemləri daha da kəskinləşdirdiyinə görə təhlükə multiplikatoru (dəfələrlə gücləndirici) adlandırılır [18].

İqlim təhlükəsizliyi ilə bağlı proqnozlar daha böyük təhdidlərdən xəbər verir. Təhlillər göstərir ki, 2030-cu ilə qədər iqlim dəyişikliyi səbəbindən daha 130 milyon insan yoxsulluğa düçar ola bilər. Bu da təkcə ərzaq və su təhlükəsizliyi daxil olmaqla, mövcud təhdidləri deyil, həm də sosial-iqtisadi durumu və siyasi sabitliyi poza bilər. Müxtəlif ölkələrdə mövcud olan fərqli durum və kövrək parametrlələ əlaqəli şəkildə bu təsirlər təhlükəsizlik problemlərini kəskinləşdirə bilər. Bundan əlavə, iqlimlə bağlı təhlükəsizlik riskləri çox vaxt cəmiyyətin həssas təbəqələrinə - uşaqlara, qadınlara, əlilllərə, yaşlı təbəqəyə və s. qeyri-mütənasib səviyyədə ağır təsir göstərir.

Buna görə də, iqlim dəyişikliyinə cavab tədbirləri sırasında münaqişələrin qarşısının alınması və sülhyaratma fəaliyyətləri paralel şəkildə həyata keçirilməlidir. İqlim dəyişmələrinin tənzimlənməsinə sərmayə qoymaq münaqişədən əziyyət çəkən bölgələrdə çox vacibdir və doğru tətbiq edildikdə əməkdaşlığı gücləndirmək, etimadı bərpa etmək yönündə mühüm fürsət ola bilər [19].

Yenidənqurma səylərində bərpa olunan mənbələrin və təmiz texnologiyaların seçilməsi də davamlılığı gücləndirir və sonrakı mərhələdə yenidən təchiz etmək üçün baha başa gələn səylərin qarşısını alır.

**Ümumiləşdirməyə çalışsaq:**

1. İqlim dəyişikliyi torpaq və su uğrunda rəqabətin artmasına səbəb olur.
2. İqlim dəyişikliyi ərzaq təhlükəsizliyinə və təminatına təhdidlər yaradır.
3. İqlim dəyişikliyi qida istehsalına təsir edir və aclığı artırır.
4. İqlim dəyişikliyi yoxsulluğu və bərabərsizliyi dərinləşdirir.
5. İqlim dəyişikliyi ailələr, qadınlar və qızlar üçün təhlükəsizlik risklərini artırır [20].

**İqlim təhlükəsizliyinə risklər (iqlim riskləri) də geniş mövzudur. Onlardan bəzilərini qeyd edə bilərik:**

Məhdud resurslar üzərində rəqabət. İqlim dəyişikliyi təbii ehtiyatlara əlçatanlığı çətinləşdirir, əhali öz dolanışıq vasitələrinin və yaşam strategiyalarının asılı olduğu resursların paylanmasında böhran yaşayır. Bu isə öz növbəsində məhdud resurslar üzərində daha böyük rəqabət, sosial gərginlik və mübahisələrin artması ilə nəticələnir.

Son illərdə zəlzələ, qasırğa və s. təbii fəlakətlər, qlobal miqyasda münaqişələr, pandemiya, kəskinləşən ekstremal hava şəraiti səbəbindən ərzaq təhlükəsizliyi rekord səviyyəyə çatıb. 2022-ci ildə 58 ölkədə 260 milyona yaxın insan kəskin qida çatışmazlığı, 35 milyon insan isə tam aclıqla üzləşib.

Münaqişə təsirinə məruz qalan ölkələrdə təsir güclənir, çünki insanlar artıq daha çox çətinliyə dözmək üçün məhdud imkanlarla humanitar yardıma

ehtiyac duyurlar. Afrika Buynuzu boyunca 2022-ci ildə 20,9 milyon insan yaxın tarixdəki ən uzun və ən şiddətli quraqlıq səbəbindən yüksək dərəcədə qida çatışmazlığı ilə üzləşdi. Təkcə Keniya və Somalidə, demək olar ki, 3 milyon insan fövqəladə səviyyədə ərzaq təhlükəsizliyi ilə üzləşib [16].

**Kütləvi köçkünlük, qaçqınlıq.** Proqozlara görə, 2050-ci ilə qədər iqlim dəyişikliyi dünyanın 6 regionunda 216 milyon insanı öz ölkələrindən köçməyə məcbur edə bilər. Su qıtlığı, aşağı məhsuldarlıq və dəniz səviyyəsinin yüksəlməsi növbəti yarım əsr üçün iqlim dəyişikliyinin trayektoriyasını formalaşdıracaq, məcburi yerdəyişməni sürətləndirəcək, eyni zamanda mövcud gərginliyi gücləndirəcək və ya yenilərini yaradacaq.

**Məhrumiyyət və qütbləşmə**. Qlobal miqyasda hər 7 nəfərdən 6-sı özünü məhrumiyyətdə hiss edir. Bunu qismən iqlim dəyişikliyinin təsiri ilə izah etmək olar. İqlim dəyişikliyi bərabərsizlikləri pisləşdirə, həssas icmalara qeyri-mütənasib şəkildə təsir göstərə və sosial şikayətləri gücləndirə bilər. Yaşayış vasitələrinin pozulması, resurslarla bağlı mübahisələr və yerdəyişmə mövcud gərginliyi gücləndirə və qeyri-sabitliyə səbəb ola bilər [8].

Üstəlik, məhrumiyyət siyasi qütbləşmə və ekstremizmlə əlaqələndirilir. Qlobal Sülh İndeksinə (2022) görə, son 14 ildən 11-də siyasi qeyri-sabitlik, zorakı ekstremizm, gərgin qonşuluq münasibətləri sərhədlər daxilində və sərhəddənkənar köçkünlükləri ağırlaşdırıb [13].

Tədqiqatlara görə, ən ciddi iqlim riskləri və münaqişələr iqlim dəyişikliyinə həssas və daha az adaptasiya qabiliyyətinə malik olan yoxsul ölkələrdə gözlənilir, varlı ölkələr də belə təhlükələrdən sığortalanmayıb. İqlim dəyişikliyi varlılar və yoxsullar arasında bərabərsizliyi artırdıqca, genişmiqyaslı miqrasiya üçün təzyiq regional və qlobal miqyasda daha da arta bilər. Dünyanın ən çox zərər çəkmiş regionlarında münaqişələr qaçqın axınları, etnik qarşıdurma, ekoloji resursların qanunsuz istismarı və ya silah ixracı vasitəsilə qonşu dövlətlərə yayıla bilər.

Bu cür genişlənən təsirlər bütün regionlarda sabitliyi poza, qlobal və regional idarəetmə strukturlarını həddən artıq genişləndirərək böhranın coğrafi miqyasını görünməmiş həddə çatdıra bilər. 2005-ci ildə Katrina qasırğasının dağıdıcı təsiri və 2003-cü ildə Avropada kəskin istiləşmə dalğası göstərdi ki, təkcə yoxsul ölkələr iqlim dəyişikliyinə həssas deyil, həm də dünyanın ən zəngin dövlətləri də kəskin hava hadisələrindən ciddi şəkildə təsirlənə bilər. İnkişaf etmiş ölkələr mümkün iqtisadi təsirləri və miqrasiya təzyiqlərini görməməzlikdən gələ bilməzlər, xüsusilə təsirlərə məruz qalan regionlarda iqlimlə bağlı münaqişələrə cəlb oluna bilərlər. Bundan əlavə, iqlim dəyişikliyi böyük güclər arasında resurs rəqabətini artıra (məsələn, Arktikada), əlavə risk və münaqişə potensialı (məsələn, nüvə enerjisi, bioenerji, geo-mühəndisliyin genişləndirilməsi) ilə bağlı geosiyasi strategiyalara təkan verə bilər. Mümkün münaqişələrin qarşısını almaq və ya onları idarə etmək məqsədilə iqlim dəyişikliyi risklərinə qarşı təhlükəsizlik icması yaratmaq üçün inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında institutları və əməkdaşlığı gücləndirməyə yönəlmiş qabaqlayıcı iqlim siyasəti tətbiq oluna bilər.

Yeni əməkdaşlıq yanaşmalarının və institusional çərçivələrin inkişafı iqlim təhlükəsizliyini artırmaq üçün həm iqlim, həm də təhlükəsizlik siyasətinin həllərini birləşdirən regional və qlobal idarəetmə strukturları üçün problemdir. Adaptiv idarəetmə zəlzələ risklərinin qarşısını almaq, təbii və sosial sistemlərin iqlim dəyişikliyinin yaratdığı

mürəkkəb mühitə uyğunlaşmasına imkan vermək üçün iqlim dəyişikliyindən tutmuş insan etibarsızlığına, sosial qeyri-sabitliyə və şiddətli qarşıdurmaya qədər səbəb zəncirləri boyunca bir çox qərar nöqtələrinə təsir etməyə çalışır. Yerli səviyyədən qlobal səviyyəyə qədər idarəçiliyə agent əsaslı yanaşmalar dəyişən şərtlərə cavab verən, natamam bilik, məkan və zaman çərçivəsində yenilənmiş məlumat əsasında xüsusi qərar qaydalarına uyğun hərəkət edən real dünya agentlərini təmsil etmək üçün istifadə edilə bilər. Onlar həmçinin yerli və qlobal agentlər arasında çoxsəviyyəli qərar qəbuletmə prosesini və ictimai strukturların formalaşmasına və parçalanmasına səbəb olan fərdi və kollektiv fəaliyyət arasında keçidi idarə etmək üçün uyğundur. Qlobal və regional idarəetmə strukturlarını simulyasiya edən belə bir çərçivə münaqişədən əməkdaşlığa keçid üçün tələb olunan şərtləri təhlil etmək üçün adekvatdır. Bu töhfə iqlimin insan təhlükəsizliyinə, ictimai sabitliyə və yüksək riskli qaynar iqlim nöqtələrində şiddətli münaqişəyə təsirlərinin inteqrasiya olunmuş qiymətləndirilməsi üçün çərçivə təmin edir. İqlim dəyişikliyi ilə üzləşən cəmiyyətləri gücləndirməyə kömək edən elm əsaslı inteqrasiya olunmuş strategiyaların və həllərin hazırlanması hazırda diqqət mərkəzindədir.

Həmin tədqiqatların birində iqlim dəyişikliyi, ətraf mühitdə yaranan gərginlik, insan ehtiyacları və sosial nəticələr arasında səbəb-nəticə əlaqələri göstərilir. İqlim sistemindəki dəyişikliklər, məsələn, temperaturun və yağıntının kəskin dəyişməsi ətraf mühit sistemlərinə və təbii ehtiyatlara birbaşa təsir göstərir.

**İqlim dəyişikliyi, ətraf mühitə təsirlər, insan ehtiyacları və sosial təsirlər arasında səbəb-nəticə əlaqələri**




**Mənbə: [14]**

### 3. İqlim təhlükəsizliyi yaşıl enerjiyə “ədalətli keçidin” reallaşdırılmasını diktə edir

İqlim dəyişmələri ilə mübarizə prosesləri də müəyyən təkamül proseslərindən keçib, məzmun, məqsəd və mahiyyətcə dəyişib. Tədqiqatçılar geosiyasi gərginliklər fonunda yaşıl enerjiyə keçidin mürəkkəbliklərini geniş araşdırmaqdadırlar. “İqlim və enerji təhlükəsizliyi əl-ələ yürüməlidir” adlı tədqiqatda qeyd edilir ki, bir neçə il əvvəl, bol enerji ehtiyatları dövründə dünyanın diqqəti xalis sıfır karbon emissiyasına nail olmaq üçün qalıq yanacaq istifadəsinin məhdudlaşdırılmasına yönəlmişdi. Bu gün prioritetlər Rusiyanın Ukraynaya müdaxiləsindən sonra enerji qıtlığı, tədarük təhlükələri və qiymət artımları fonunda dəyişib. Əlverişli və etibarlı enerji təmin etmək üçün mübarizə iqlim fəaliyyətinə təhlükə yarada bilər. Dövlətlər və onların liderləri təcili enerji ehtiyacları ilə uzunmüddətli yaşıl hədəflər arasındakı boşluğu, həssas əlaqələri necə idarə edirlər?

Beynəlxalq Valyuta Fondunun “Maliyyə və inkişaf” adlı nəşrində Beynəlxalq Enerji Agentliyinin rəhbəri Fatih Birol qeyd edir ki, dünyanın enerji təhlükəsizliyi və iqlim tədbirləri arasında seçim etmək kimi düşüncələr yanlışdır. Mövcud böhrandan qalıq yanacaqlardan asılılığı dərinləşdirmək üçün bəhanə kimi istifadə etməməklə paralel olaraq, neft və qazdan asılılığı azaltmaq üçün təmiz enerjiyə, o cümlədən enerji səmərəliliyi, bərpa olunan enerji mənbələri, elektrikləşdirmə və bir sıra təmiz yanacaq növlərinə daha çox sərmayə qoyulması siyasətini dəstəkləmək daha məqbuldur. Enerji məsələləri üzrə digər tədqiqatçı hesab edir ki, enerji keçidi son dərəcə diqqətli digər prioritetlərlə mübarizə aparan inkişaf etməkdə olan ölkələrdə iqtisadi böhranlara səbəb olacaqsa, yaşıl keçid, iqlim dəyişmələri ilə mübarizə ictimai dəstəyi itirə bilər. Tədqiqat çox vaxt təhlildən üstün olur” [10].

### Nəticə: Azərbaycanın yaşıl keçid strategiyası həm də elm, tədqiqat və maarifləndirmə sahələrində iqlim mövzusu ilə bağlı yeni mərhələnin başlanğıcı deməkdir

Təhlildən göründüyü kimi, iqlim dəyişikliyi bir çox ölkələr tərəfindən milli təhlükəsizlik problemi olmaqla yanaşı, həm də müxtəlif növ münaqişələrin və təhlükəsizlik risklərinin səbəblərini gücləndirən amil kimi tanınır. BMT-nin iqlim dəyişikliyi ilə bağlı hesabatında göstərilir ki, iqlim təhlükəsizliyinin həll edilməsi yönündə tədbirlər münaqişələrin qarşısının alınması və sülhyaratma fəaliyyətləri ilə ahəng təşkil etməlidir. İqlim fəaliyyətinə investisiyalar münaqişəli və münaqişə sonrası şəraitdə vacibdir. İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Panelin (IPCC) Altıncı Qiymətləndirmə Hesabatında qeyd edilir ki, iqlim həlləri iqlim dəyişikliyinə həssas olan münaqişələrə meyilli regionlarda taleyüklü əhəmiyyətə malikdir [17].

Azərbaycan otuz ildən çox işğal altında qalan, təbiəti viran qoyulan torpaqları azad etməklə, nəinki regionun, bütövlükdə dünyanın iqlim və ekoloji təhlüksizliyinə misilsiz töhfə verib. Bu baxımdan, Ermənistanın torpaqlarımızı 3 onillik boyu talan edən, viran qoyan ekofaşizm siyasətinin araşdırılması və təbliği, ekoloji cinayətlərlə bağlı gerçəklərin çatdırılması iqlim kontekstində qarşıda duran ən mühüm vəzifədir. Ermənistanın hərbi/müharibə cinayətlərini törədən ölkə imicinə daha biri - ekoloji cinayətkar ölkə imicinin tanıdılması yönündə fəaliyyət başlayıb.

Daha bir vacib sahə - Ermənistanın təbiətimizə və xalqımıza qarşı apardığı

mina terrorudur. Mina təhlükəsi təkcə azad torpaqlara qayıdışı çətinləşdirmir, həm də yararlı və münbit torpaqların zəngin fauna və florasını məhv edir. Mina problemi Ermənistanın xalqımızın fundamental insan haqlarına vurduğu zərbələrin davamıdır. 30 illik işğal dövründə Qarabağda törədilən gerçək "ekofaşizm" siyasətinin dünyaya tanıdılması, dəymiş ziyanın ödənilməsi və cinayətkarların məsuliyyətə cəlb edilməsi ən prioritet məsələlərdəndir. Beynəlxalq ekoloji hüquq və cinayətlərlə bağlı təşkilatlarla münasibətlərin qurulması, trendlərin izlənilməsi, ekoloji profilli sosial şəbəkə hesablarının yaradılması, fəallığı da gündəmdə durur.

Ermənilərin "kütləvi, məcburi köç", dırnaqarası "etnik təmizləmə", "humanitar fəlakət" şüarı ətrafında dezinformasiya hücumu qurmaq cəhdlərinin ifşası məhz iqlim və ekoloji cinayətlərlə dəf edilə bilər.

1846-cı ildən bəri ölkəmizdə çıxarılan neftin ümumi miqdarı 1971-ci ildə 1 milyard ton, 2017-ci ildə böyük təntənə ilə dövlət səviyyəsində qeyd olunan 2 milyard ton olub. Lakin ilin bütün fəsillərində göydə Günəşi və küləyi görən azərbaycanlılar bu tükənməz sərvətdən gərəyincə istifadə edə bilməyiblər. Biz 8 noyabr Zəfər və 20 sentyabr Bütövlük gününə gedən yolun da məhz ekologiya ilə başladığını yaxşı xatırlayırıq. Çünki Qarabağ müharibəsi, 1988-ci ildə Topxana meşəsi ilə başlayan nifaq ocağı 2022-ci ilin 12 dekabr soyuq qış günlərində Xankəndi yoluna xüsusi təyinatla çıxan dinc ekoaksiyaçıların sülh ocağı ilə yekun mərhələsinə çatdı. Bu, təkcə rəmzi və simvolik hadisə deyil, ana təbiətin də ilahi ədaləti idi. Bərpa olunan bütövlük həm də müqəddəs torpaqlarımızın, onun üzərindəki canlı aləmin, atmosferin də azadlğı idi. Ərazilərimizin işğaldan azad olunması Bərdədən Ağdama, Goranboydan Kəlbəcərə, Tərtərdən Xankəndi və Şuşayadək təkcə yolların açılması, çayların və su hövzələrinin qovuşması deyil, eləcə də hava axınlarının, yağışın, küləyin və günəşin bütün ərazi boyunca tam dövr etməsinə səbəb olub.

Ona görə də ölkə rəhbərinin "Yeni Dövrü" ilk növbədə "Yaşıl Azərbaycana" keçid deməkdir. Əgər Ulu öndər Heydər Əliyev 1994-cü ildə "Əsrin neft müqaviləsi"ni imzaladısa, İlham Əliyev yeni yüz ilin "Yaşıl enerji kontraktları"nı həyata keçirir. Əgər biz "Yaşıl enerji"ni qazana bilsək, dənizdə hasilatın azalmasından həyəcan keçirməyəcəyik, Xəzəri dünya ilə birləşdirən kəmərləri alternativ enerji ilə təchiz edə biləcəyik. İndi yalnız neft-qaz müqavilələri ölkəmizin iqtisadi-siyasi təhlükəsizliyinin qarantıdırsa, "Yaşıl enerji" dəhlizini qura bilsək, 2030-cu ilədək "yaşıl artım"a nail olsaq, o zaman Zəngəzur dəhlizi ilə yaşıl enerji ixrac kəmərlərinin çəkilməsi mümkün olacaq. Tam real bir perspektivdə Orta Dəhliz strategiyası öz həllini tapacaq.

Yaşıl eraya keçidin işğaldan azad olunan ərazilərdə həyata keçirilməsi xüsusilə tarixi hadisədir. Azad edilən bölgələrdə günəş enerjisi layihələri üçün Zəngilan, Cəbrayıl, Qubadlı və Füzulinin beynəlxalq şirkətlər tərəfindən qiymətləndirilməsi aparılıb və böyük potensial təsdiqlənib. Laçın rayonunda ümumi gücü 40 meqavatdan artıq olan daha 5 su elektrik stansiyasının tikintisi davam edir. "Ağbulaq" SES-də işlər tamamilə yekunlaşıb. "2024-Yaşıl Dünya İli" çərçivəsində bu 5 su elektrik stansiyasının da istismara verilməsi planlaşdırılır.

Müqayisə üçün Böyük Britaniyanın enerji faizlərinə diqqət yetirək: 2024-cü ildə bu rəqəm 39,5% təşkil edib ki, onun da 29,0%-ni külək, 4,5%-ni günəş enerjisi təşkil edir.

Almaniyada isə son iki ildə müəyyən

azalma templərinə baxmayaraq, alternativ enerji mənbələrinin ümumi enerji balansında payı 42.3% təşkil edib.

2023-cü il aprelin 25-də Bolqarıstana səfəri zamanı bir daha Qərblə enerji əməkdaşlığına xüsusi yer ayıran Prezident demişdir: “Azərbaycanın “yaşıl enerji” ixracının əsas istiqaməti Avropadır. Alternativ enerji sahəsində aparıcı beynəlxalq şirkətlər 25 geqavatdan çox alternativ enerji istehsalı üçün Azərbaycanla müqavilələr və anlaşma memorandumları imzalayıb”.

COP-29 konfransının Azərbaycanda keçirilməsini bütün dünya ölkələrinin dəstəkləməsinə işğal dövründə yerlə-yeksan edilən təbiət, qanunsuz talan edilən resurslar, təbiət abidələrinə qarşı görünməmiş vandalizm aktları, ekosid cinayətlərinin dünya tərəfindən etirafı kimi də yanaşa bilərik.

BMT Baş Assambleyası 2022-ci ildə tarixi qətnamə qəbul edərək “Təmiz və sağlam ətraf mühit təminatını Universal İnsan Hüququ” elan edib. Beləliklə, 161 ölkənin dəstəyi ilə ekoloji insan hüquqları yeni nəsil insan hüquqları ailəsinə daxil edilib. Bu əlamətdar hadisə nümayiş etdirir ki, üzv dövlətlər üçqat ekoloji böhran: 1.iqlim dəyişikliyi, 2.biomüxtəlifliyin yox olması və 3.ətraf mühitin çirklənməsi ilə mübarizə aparmaq üçün ortaq qanuni əsasa malikdirlər. Vətəndaşların sağlamlığına və həyat keyfiyyətinə təsir edən ətraf mühitin vəziyyəti dövlətin prioritetləri sırasındadır. Biz təbii ehtiyatlardan rasional istifadə etməli, ətraf mühiti qorumalı, ətraf mühitin mühafizəsi üçün yeni mexanizmlər tətbiq etməli, təmiz texnologiyaları inkişaf etdirməliyik. Cəmiyyətdə ekoloji mədəniyyətin səviyyəsinin yüksəldilməsinə, ətraf mühitə atılan tullantıların azaldılmasına, biomüxtəlifliyin qorunmasına nail olmalıyıq.

Təhsilin bütün pillələrində – uşaq bağçalarından universitetlərə qədər ekoloji mədəniyyətin formalaşması, ekoloji təhsilin keyfiyyətinin yüksəldilməsi üçün çalışmalıyıq. Sənaye müəssisələrimizə ekoloji nəzarətin gücləndirilməsi, zərərli tullantıların azaldılması, meşə sahələrinin genişləndirilməsi, su ehtiyatlarının səmərəli istifadəsi, mühafizəsi və təmizlənməsinə yönəlmiş yeni “Su Məcəlləsi”nin qəbulu gündəlikdədir. Qısa ifadə edilsə, Azərbaycan ekologiyasının qorunması üçün ən vacib məsələlərdən biri məhz ekoloji şüurun, təbiəti sevən düşüncə ekosisteminin formalaşmasıdır.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

**Azərbaycan dilində:**

1. Azərbaycan Prezidenti: COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir! /24.11.2024/ https://azertag.az/xeber/azerbaycan_prezidenti_cop29_iqlim_diplomatiyasinda_donus_noqtesidir-3300664

2. Azərbaycan Respublikası Energetika Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında və “Azərbaycan Respublikası Energetika Nazirliyinin fəaliyyətinin təmin edilməsi və “Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun və aparatın işçilərinin say həddinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 15 may tarixli 404 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı. /22 sentyabr

2020-ci il/ - https://e-qanun.az/framework/46009

3. Azərbaycanda bərpa olunan enerji mənbələrindən istifadə. /06.03.2024/ - https://minenergy.gov.az/az/alternativ-ve-berpa-olunan-enerji/azerbaycanda-berpa-olunan-enerji-menbelerinden-istifade

4. Azərbaycanın "yaşıl" enerjiyə keçidlə bağlı təşəbbüsləri. - https://cop29.az/az/sustainability/energy-transition-initiatives

5. "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının Qanunu. /31 may 2021-ci il/ - https://e-qanun.az/framework/47842

6. "Energetika haqqında" Azərbaycan Respublikasının Qanunu. /05 dekabr 2023-cü il/ https://president.az/az/articles/view/62391?fbclid=IwAR3eiO9c1Q7dZttPEivT-vJ-3dTqgPc5HxC-VGfsnk5vo-3dUpn2AXV-DQw

7. Muxtar Babayev: "Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi olmaq prioritetlər sırasındadır". /1 may 2024-cü il/ - https://report.az/cop29/muxtar-babayev-temiz-etraf-muhit-ve-yasil-artim-olkesi-olmaq-prioritetler-sirasindadir/

**İngilis dilində:**

8. 2022 Special Report on Human Security. - https://hdr.undp.org/content/2022-special-report-human-security

9. Climate Security Human Mobılıty, Peace, Securıty And Clımate Change. - https://environmentalmigration.iom.int/sites/g/files/tmzbdl1411/files/documents/2024-05/iom-infosheet_climate-security_11052024.pdf

10. Climate Security and Energy Security Must Go Hand-in-Hand. - https://www.imf.org/en/Blogs/Articles/2022/12/01/climate-security-and-energy-security-must-go-hand-in-hand

11. Growth Lab. - https://growthlab.app/greenplexity

12. Harvard's Growth Lab. -https://growthlab.hks.harvard.edu/

13. Institute for Economics & Peace. Global Peace Index 2022. - https://www.economicsandpeace.org/wp-content/uploads/2022/06/GPI-2022-web.pdf

14. Scheffran, Jürgen., Link, Peter., Schilling, Janpeter. Theories and models of the climate-security link 2009/01/01. Theories and models of the climate-security link. - https://www.researchgate.net/publication/ 228417148_Theories_and_models_of_the_climate-security_link

15. Shaping the Green Transitions for a Sustainable and Fair Europe. EU Science Hub. - https://joint-research-centre.ec.europa.eu/jrc-science-and-knowledge-activities/green-transitions_en#:~:text=Green%20transitions% 20foster%20welfare%20and,remain% 20within%20ecological%20planetary%20boundaries

16. Strengthening of the coordination of emergency humanitarian assistance of the United Nations - Report of the Secretary-General. 2023. - https://reliefweb.int/report/world/strengthening-coordination-emergency-humanitarian-assistance-united-nations-report-secretary-general-a7873-e202361-enarruzh#:~:text=Strengthening%20of%20the%20coordination%20of%20emergency%20humanitarian%20assistance%20of%20the%20United%20Nations%20%2D%20Report%20of%20the%20Secretary%2DGeneral%20(A/78/73%2DE/2023/61)%20%5BEN/AR/RU/ZH%5D

17. The Intergovernmental Panel on Climate Change (IPCC).Climate Change 2022: Impacts, Adaptation and Vulnerability. - https://www.ipcc.ch/report/ar6/wg2/

18. What is climate security and why is it important?ExplainersSeptember /1, 2023 Summary/ - https://climatepromise.undp.org/news-and-stories/what-climate-security-and-why-it-important

19. When poverty meets climate change: A critical challenge that demands cross-cutting solutions. - https://blogs.worldbank.org/en/climatechange/when-poverty-meets-climate-change-critical-challenge-demands-cross-cutting-solutions

**Rus dilində:**

20. Пять способов воздействия изменения климата на безопасность человека. - https://www.un.org/ru/climatechange/science/climate-issues/human-security

**Zahid Oruj,**
**Chairman of the Board, Social Research Center**

## COP29 AZERBAİJAN: HİSTORİC TURNİNG POİNT İN GREEN TRANSİTİON STRATEGY TO ENSURE REGİONAL AND GLOBAL CLİMATE SECURİTY

### Abstract

The article examines the topic "COP29 Azerbaijan: Historic Turning Point in the Green Transition Strategy to Ensure Regional and Global Climate Security". The author analyzes the issue of climate security for the first time in the context of climate research in Azerbaijan at the 29th session of the Conference of the Parties to the UN Framework Convention on Climate Change (COP29). He highlights that this issue has become a central focus of climate diplomacy at COP conferences.

Climate change and environmental degradation present a real threat to both individual countries and the global community. To address these challenges, he defines a new development strategy – the green transition.

The article emphasizes that Azerbaijan is one of the countries with significant potential for renewable energy sources and actively involved in the fight against climate change. At COP29, Azerbaijan presented its initiatives to the global community regarding the transition to green energy. One of the key research tasks following COP20 is to explore the multifaceted aspects of climate issues, examine them within the fields of science and education, and introduce new terms into the scientific lexicon. Climate security is one such strategic concept, newly introduced and of great importance.

**Key words:** COP29, Azerbaijan, green transition, climate security, strategy, climate risks, climate diplomacy, Nationally Determined Contributions (NDCs), global energy security.

**Захид Орудж,**
**Председатель правления Центра социальных исследований**

# COP29 В АЗЕРБАЙДЖАНЕ: ИСТОРИЧЕСКИЙ ПОВОРОТ В СТРАТЕГИИ ЗЕЛЕНОГО ПЕРЕХОДА ДЛЯ ОБЕСПЕЧЕНИЯ РЕГИОНАЛЬНОЙ И ГЛОБАЛЬНОЙ КЛИМАТИЧЕСКОЙ БЕЗОПАСНОСТИ

**Резюме**

В статье рассматривается тема «COP29 в Азербайджане: исторический поворот в стратегии зеленого перехода для обеспечения региональной и глобальной климатической безопасности». Автор впервые анализирует понятие «климатической безопасности» в контексте климатических исследований в Азербайджане на 29-й сессии Конференции Сторон Рамочной конвенции ООН об изменении климата (COP29). Автор отмечает, что данная тема находится в центре внимания климатической дипломатии на конференциях COP. Изменение климата и деградация окружающей среды представляют собой реальную угрозу для всех стран и для всего мира. Для преодоления этих вызовов автор предлагает новую стратегию развития - зеленый переход. В статье подчеркивается, что Азербайджан является одной из стран с высоким потенциалом в области возобновляемых источников энергии и активно участвует в борьбе с изменением климата. На COP29 Азербайджан представил мировому сообществу свои инициативы по переходу на «зеленую» энергетику.

Одной из важнейших задач, которую предстоит решить в области климатических исследований после COP29, является изучение многогранных аспектов климатической проблемы, а также ее освоение в сфере науки и образования. Это требует внесения новых терминов в научный лексикон. Концепция «климатической безопасности» представляет собой стратегически важное и новое понятие.

**Ключевые слова:** COP29, Азербайджан, «зеленый» переход, климатическая безопасность, стратегия, климатические риски, климатическая дипломатия, Национально определяемые вклады (NDC), глобальная энергетическая безопасность

# COP-29 AZƏRBAYCAN: İQLİM DƏYİŞİKLİYİ, İQLİM MİQRANTLARI VƏ İNSAN HÜQUQLARI SAHƏSİNDƏ QLOBAL TENDENSİYALAR, PERSPEKTİVLƏR

**Tahirə ALLAHYAROVA**
*Sosial Tədqiqatlar Mərkəzi İdarə Heyətinin üzvü, professor*
*(Bakı, Azərbaycan)*

*E-mail: t.allahyarova@stm.az*
*ORCID: 0000-0001-6491-0757*

**Xülasə.** Məqalədə Azərbaycanda keçirilən qlobal COP29 tədbiri fonunda ilk dəfə iqlim dəyişikliyi və iqlim miqrasiyası, iqlim miqrantları və iqlim dəyişikliyinin insan hüquqları məsələləri araşdırılır. İqlim dəyişikliyinin təsirindən yaranan insan axınının necə adlandırılacağı ilə bağlı terminoloji müzakirələrin, elmi və hüquqi təriflərin son vəziyyəti nəzərdən keçirilir.

Məqalədə qeyd olunur ki, qlobal istiləşmə və iqlim böhranı mövcud bərabərsizlikləri daha da gücləndirir, inkişaf üçün əsas hüquqlara təhlükə yaradır, həyat, mənzil, su və kanalizasiya, qida, sağlamlıq, inkişaf hüquqları da daxil olmaqla hüquqların həyata keçirilməsinə birbaşa və ya dolayı yolla mənfi təsir göstərir. Qeyd olunur ki, iqlimlə bağlı miqrasiya kiçik ada dövlətləri üçün təhlükə yaradır və Azərbaycan COP29-da kiçik ada dövlətləri məsələsini diqqət mərkəzində saxlayıb.

Müəllif 2024-cü ildə iqlim dəyişikliyi ilə bağlı AİHM-də məhkəmə presedentinin yaranmasına, onun insan hüquqları sferasına köçürülməsinə və insan hüquqlarının yeni nəslinin yaradılmasına təkan verilməsinə toxunub. Qeyd olunur ki, alimlər bu yaxınlarda iqlim dəyişikliyinin ciddi nəticələrini, yaxın onilliklərdə milyonlarla insanı evlərini tərk etməyə məcbur edə biləcək təhlükələri proqnozlaşdırıblar. Bununla belə, ixtisaslaşmış beynəlxalq institut və təşkilatlarda, bir sıra dövlətlərdə yaxınlaşan böhranla mübarizə aparmaq üçün siyasi iradə və hüquqi baza çatışmır.

Yer kürəsinin inteqrasiya olunmuş idarəçiliyi üçün daha geniş gündəliyin bir hissəsi olaraq iqlim dəyişikliyinə qlobal uyğunlaşmanı həll etmək üçün sistemli idarəetmə və tənzimləyici siyasət islahatlarına ehtiyac var.

**Açar sözlər:** COP29, Azərbaycan, iqlim dəyişikliyi, iqlim qaçqınları, iqlim miqrantları, insan hüquqları, terminoloji diskussiyalar, hüquqi presedentlər, qlobal tendensiyalar, perspektivlər, AİHM

## Giriş

İqlim dəyişikliyi insan hüquqları ilə çox sıx bağlıdır, çünki bu, təkcə ətraf mühitə deyil, həm də rifah və inkişafa, son nəticədə insanların yaşamına təsir göstərir. İqlim dəyişikliyinin insan hüquqlarına təsiri nisbətən son dövrə təsadüf etsə də, beynəlxalq səviyyədə elmi və ictimai rəydə qəbul edilib.

İqlim böhranının bu gün bəşəriyyət üçün təhlükəli həddə çatması hər bir insanın fundamental hüququnu - yaşamaq hüququnu pozur. BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı siyasətçilərə həm indiki, həm də gələcək nəsillərin gələcəyinin onların fəaliyyətindən birbaşa asılı olduğunu dərk etməyə çağırır. Çünki heç bir ölkə iqlimdə fövqəladə halların nəticələrindən kənarda durmağa qadir deyil. Artıq bu gün təbii fəlakətlər, quraqlıq və daşqınlar nəticəsində insanlar evlərini, dolanışıq mənbələrini itirir, getdikcə daha çox insan qaçqın olmağa məcbur qalır. Bərabərsizlik isə getdikcə daha da dərinləşir.

BMT-nin məlumatına görə, “iqlim dəyişikliyi İkinci Dünya müharibəsindən sonra insan hüquqlarına ən ciddi təhdidlərdən biridir”. Ali Komissarın bəyanatında deyilir ki, "sərhədlər iqlim dəyişikliyini dayandırmayacaq və aqressiv millətçilik və ya qısamüddətli maliyyə maraqlarının diktə etdiyi heç bir tədbir bizi nəinki onun nəticələrindən qoruyacaq, əksinə, iqlim fəlakətini sürətləndirəcək. İqlim ədaləti və insan hüquqları uğrunda mübarizə sadəcə siyasi müzakirə mövzusu deyil. Bu, artıq yaxşı və pis arasında seçim deməkdir” [31].

İqlim dəyişikliyi bütün sahələrdə: mənzil, su və təmiz mühitdə yaşama, qida, sağlamlıq, inkişaf, şəxsi təhlükəsizlik və adekvat həyat səviyyəsi daxil olmaqla, insan hüquqlarının həyata keçirilməsinə birbaşa və ya dolayısı yolla təsirini göstərir. Bundan əlavə, iqlim dəyişikliyinin nəticələri sosial bərabərsizlikləri gücləndirir, cəmiyyətdə həssas təbəqələrə, qruplara və xalqlara qeyri-mütənasib şəkildə təsir göstərir. İqlim dəyişikliyinin qarşısının alınması, ağır nəticələrinin yumşaldılması və ona uyğunlaşmaq üçün effektiv cavab tədbirləri həmrəylik, əməkdaşlıq, şəffaflıq, məlumat əldə etmək, iştirak, bərabərlik, ədalət, hesabatlılıq və “çirkləndirən ödəyir” (polluter-pays) kimi beynəlxalq insan hüquqlarına, ətraf mühit standartlarına və prinsiplərinə əsaslanmalıdır.

Dövlətlər təkcə iqlim təsirlərindən deyil, emissiyaları azaltmaq və ya iqlim dəyişikliyinə uyğunlaşmaq üçün görülən tədbirlərdən yaranan insan hüquqları pozuntularını da qorumaq məsuliyyətinə malikdirlər.

İqlim dəyişikliyinin insan hüquqlarına təsiri son vaxtlar olsa da, beynəlxalq səviyyədə tanınır. 2005-ci ildə İnuitlər İnsan Hüquqları üzrə Amerikalararası Komissiyaya petisiya təqdim edərək, iqlim dəyişikliyinin Arktikanın yerli xalqlarının hüquqlarına dağıdıcı təsir göstərdiyini iddia etdilər. Bu, insan hüquqları və iqlim dəyişikliyi ilə bağlı bir sıra beynəlxalq əlamətlərdən birincisi idi. 2008 və 2014-cü illərdə BMT-nin İnsan Hüquqları Şurası iqlim dəyişikliyinin səbəb olduğu ekoloji dəyişikliklərin insanların öz hüquqlarından istifadə etməsinə təsir göstərəcəyini qəbul etdi [16].

Prezident İlham Əliyev “İqlim dəyişikliyi və insan hüquqları: ombudsmanların və milli insan hüquqları təsisatlarının rolu” mövzusunda təşkil olunan Beynəlxalq Bakı Forumunun iştirakçılarına” müraciətində deyib: *“İqlim dəyişmələri bütün ölkələrin davamlı inkişafına və təhlükəsizliyinə təhdid törədən qlobal problemlərdən biridir. Ancaq iqlim dəyişmələri yalnız dövlətlərin sosial-iqtisadi rifahına deyil, sadə insanların gündəlik həyatlarına və ya-*

*şam tərzlərinə də birbaşa və ya dolayı yolla təsir göstərir, əsas insan hüquqlarının müdafiəsi və təminatı baxımından bir sıra ciddi çətinliklər yaradır. İqlim dəyişmələri və onların fəsadları insanları yaşamaq, sağlamlıq, qida, təmiz su, mənzil və digər hüquqların layiqincə həyata keçirilməsindən məhrum edir, habelə bərabərsizliyi dərinləşdirərək həssas əhali qruplarının hüquqlarının təminatını olduqca mürəkkəbləşdirir. İnanıram ki, Forum iqlim dəyişmələri kontekstində insan hüquqlarının müdafiəsi sahəsində yeni təşəbbüslərin və yanaşmaların irəli sürülməsinə, bu hüquqların təminatına ciddi maneə yaradan hallarla mübarizə istiqamətində ümumi səylərin birləşdirilməsinə töhfə verəcək, ombudsmanlar və milli insan hüquqları təsisatları arasında tərəfdaşlıq münasibətlərinin inkişafına, qarşılıqlı təcrübə və fikir mübadiləsinin aparılmasına geniş imkanlar açacaqdır”* [2].

## 1. İqlim dəyişikliyinin insan hüquqlarına təsiri ilə bağlı ilk hüquqi proseslər, bəzi məhkəmə keysləri

İqlim əsaslı miqrasiya ən çox kiçik ada dövlətləri üçün təhlükələr yaradır. COP 29-da Azərbaycan kiçik ada dövlətləri mövzusunu xüsusi diqqət mərkəzinə gətirdi. Azərbaycan dövləti COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin sammitini keçirdi. Həmin ölkələrin üzləşdiyi çağırışların aradan qaldırılması COP29-da Azərbaycanın göstərdiyi səylərin əsasını təşkil edir. Sammitdə çıxış edən BMT-nin Baş katibi Antonio Quterreş inkişaf etməkdə olan kiçik ada dövlətlərinin böyük ədalətsizliklərlə üzləşdiyini, iqlim dəyişmələrinin, artan qiymətlərin, COVID-19 pandemiyasının bu ölkələrə ciddi ziyan vurduğunu, onların hökumətlərinin çətin vəziyyətdə olduğunu vurğulayaraq deyib: “Siz - kiçik ada dövlətləri nümayiş etdirirsiniz ki, iqlim ambisiyaları özünü necə büruzə verir. Siz cavab tədbirlərini görən ilk tərəfsiniz. Dünya sizi dəstəkləməli, ilk növbədə, temperatur artımının 1,5 dərəcədə saxlanılması üçün yorulmadan çalışmalıdır. Bu, o deməkdir ki, 2030-cu ilə qədər qlobal atılmalar illik əsasla 9 faiz azalacaq. Həmçinin ənənəvi yanacaqdan istifadə sürətlə və ədalətli şəkildə azalacaq, COP28-in nəticəsi təmin ediləcək. Bu, həmçinin o deməkdir ki, hər ölkə 1,5 dərəcəyə uyğun olması üçün COP30-a qədər yeni, iqtisadiyyatı əhatə edən milli iqlim fəaliyyəti planlarını və ya milli səviyyədə müəyyən edilmiş töhfələr sənədini təqdim edəcək” [1].

Kiçik adalara daha çox təsir etsə də, iqlim dəyişikliyinin fəlakətli nəticələri istiqamətində qlobal tendensiya daha böyük, planetar miqyaslı böhrana çevrilə bilər. Bəzi hesablamalara görə, “qarşıdakı cəmi iki onillikdə 200 milyondan çox insan iqlim dəyişikliyinə görə evlərini tərk edə bilər” [22].

Dəniz səviyyəsinin qalxması və iqlim dəyişikliyinin nisbətindən asılı olaraq sözügedən bu rəqəmlər dəfələrlə çox da ola bilər. Bütövlükdə isə ümumən qəbul edilmiş qlobal tendensiya və ssenarilərlə bağlı yekdil rəy mövcuddur: “XXI əsrdə qlobal istiləşmə milyonlarla insanı - əsasən də Asiya və Afrikada – evlərini tərk edib başqa yerlərə köçməyə məcbur edəcək” [27].

“2006-cı ilin avqustunda Maldiv adaları hökuməti dövlətlərin, ətraf mühit və humanitar təşkilatların və Birləşmiş Millətlər Təşkilatı agentliklərinin nümayəndələrinin o vaxta qədər iqlim siyasəti müzakirələrindən kənarda qalan bir məsələ - “iqlim qaçqınlarının qorunması və məskunlaşdırılması” - ilə bağlı görüş təşkil etdi [26]. Dəniz səviyyəsindən cəmi bir neçə metr hündürlükdə yerləşən Maldiv adaları kimi kiçik bir ada dövləti üçün bu sual ölkənin mil-

li təhlükəsizliyinin, hətta milli taleyinin gələcəyini təşkil edir. Bu qisim ada dövlətləri, şübhəsiz ki, qlobal iqlim dəyişikliyindən ilk və ən çox əziyyət çəkənlərdir. Belə ki, bir çox kiçik adalar qarşıdakı bir əsr ərzində yoxa çıxa və ya yaşayış üçün yararsız hala düşə bilər.

İqlim dəyişikliyi artıq bütün dünyada müxtəlif icmalara təsir edir. Banqladeşdə dəniz səviyyəsinin qalxmasından tutmuş Braziliyadakı quraqlığa qədər ekspertlər iqlim dəyişikliyini dövrümüzün ən böyük insan hüquqları problemi adlandırıblar. Bu, nəinki mövcud bərabərsizlikləri gücləndirir, fundamental inkişaf hüququnu təhdid edir, həm də ən yoxsul və ən marginal əhaliyə qeyri-mütənasib şəkildə təsir edir. Aşağıdakı qrafik xüsusi iqlim təsirlərinin bəzi nəticələrini göstərir [23].

İctimaiyyətə geniş məlum olmasa da, nisbətən yeni sahələr olması ilə yanaşı, bir sıra ölkələrdə iqlim sahəsində insan hüquqları ilə bağlı şikayət presedentləri və kommunikasiyalar - keyslər mövcuddur. Onların bəzilərinə qısa nəzər salaq.

İqlim dəyişikliyi və insan hüquqlarına dair Avropa İnsan Hüquqları Konvensiyasının tələblərinin pozulduğu iddia edilən bir sıra yüksək səviyyəli məhkəmə işləri Strasburqdakı Avropa İnsan Hüquqları Məhkəməsində (AİHM) baxılıb və hazırda da baxılmaqdadır. Qeyd edilməlidir ki, yalnız regional-qitə miqyasında deyil, həmçinin bir sıra milli məhkəmələrdə də belə işlərlə bağlı proseslər başlanılıb, qərarlar qəbul edilib. Əksər hallarda, qismən də olsa, Avropa İnsan Hüquqları Konvensiyasına əsaslanaraq, konvensiya hüquqlarını, AİHM-in məhkəmə təcrübəsini, AİHM sisteminin ciddi tələblərini və iqlimlə bağlı qərar qəbul etmənin xüsusiyyətlərini nəzərə alaraq, Avropa İnsan Hüquqları Məhkəməsindən iqlim dəyişikliyi ilə bağlı məhkəmə çəkişmələri üçün forum kimi istifadə ilə bağlı perspektivlər və problemlər müəyyən edilib.

Avropa İnsan Hüquqları Konvensiyasında sağlam ətraf mühitlə bağlı xüsu-

**İqlim dəyişikliyinin təsirləri və bəzi nəticələri (BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığına (OHCHR) Maldiv adaları əsasında edilmiş təqdimat əsasında, 2008-ci il)**



si hüquq olmasa da, AİHM artıq 300-ə yaxın iş üzrə ətraf mühitlə bağlı qərarlar çıxarıb və bu, Avropa Şurasının bir çox üzvünün siyasət və təcrübələrində əhəmiyyətli dəyişikliklərə gətirib çıxarıb [20].

"Təhlükəli sənaye fəaliyyətləri. Öneryıldız Türkiyəyə qarşı" 30 noyabr 2004-cü il (Böyük Palata). Ərizəçinin yaşayış yeri dörd rayon şurasının birgə istifadə etdiyi zibilin ətrafındakı torpaqda icazəsiz tikilmişdir. 1993-cü ilin aprelində ucqarda metan partlayışı baş verdi və tullantı yığından püskürən alov qığılcımları doqquz yaxın qohumunu itirmiş ərizəçiyə məxsus olan ev də daxil olmaqla, ondan aşağıda yerləşən ondan çox evi bürüdü. Ərizəçi xüsusi olaraq şikayət etdi. Ekspert rəyi səlahiyyətlilərin diqqətini bu işə cəlb etsə də, partlayışın qarşısını almaq üçün heç bir tədbir görülməyib. Lakin belə bir partlayışın baş verməsi ehtimalı az deyildi, çünki profilaktik hərəkət etmək lazım idi [15].

Habelə, İtaliyadan digər müraciət - zəhərli tullantıların atılması ilə bağlı " Di Kaprio və digərləri İtaliyaya qarşı" (no. 39742/14) işi olub (2019). ("Dumping of toxic waste. Pending applications. Di Caprio and Others v. Italy"; Rusiyadan "Budaeva və digərləri Rusiyaya qarşı", 12 mart 2008-ci il dağ rayonunda yerləşən Tyrnauz şəhərində sürüşmə ilə bağlı müraciət olub [15].

Türkiyədən ətraf mühit və iqlimlə bağlı müraciət - "Şəxsi və ailə həyatına hörmət hüququ" (Konvensiyanın 8-ci maddəsi): "Arxeoloji ərazini təhdid edən bənd tikintisi Ahunbay və digərləri Türkiyəyə qarşı" 29 yanvar 2019-cu il. Bu işdə beş ərizəçi arxeoloji ərazinin tikintisinin planlaşdırıldığı barədə şikayət edib. 12.000 ildən çox əvvələ aid arxeoloji və mədəni maraq doğuran Hasankeyf arxeoloji sahəsinə təhdidlərlə bağlı məhkəmə işləri [15].

## 2. "İqlim karantinləri" (Climate lockdown) yeni mif, konspirasiya, yoxsa yaxın gələcəyin mümkün mənzərəsi

Son dövrlərdə iqlim karantini, qapanmalar, təcrid və s. ilə bağlı müzakirələr intensiv şəkil alıb. COVID-19 pandemiyasından sonra karantin ifadəsi gündəlik leksikonda adiləşib.

İqlimlə bağlı hesab edilir ki, ümumi rifah naminə əhəmiyyətli, lakin qismən məhdudiyyətlərin tətbiq edilməsi qısa, yaxud uzunmüddətli qapanmalara səbəb ola bilər.

2020-ci ilin noyabrında Qırmızı Xaç Cəmiyyəti bəyan edib ki, iqlim dəyişikliyi COVID-19-dan daha böyük təhlükədir və "eyni reaksiya" ilə qarşılanmalıdır. Yaxud da Bill Qeyts yaxın vaxtlarda iqlim dəyişikliyinin pandemiyadan daha ciddi olacağını iddia edərək onun qarşısını almaq üçün dramatik tədbirlərin hazırlanmasını təklif edib. Paradoksal olsa da, COVID-19 dövründə qapanmalar səbəbindən havaya atılan karbon emissiyalarının əhəmiyyətli dərəcədə azalması da burada xatırladılır.

İqlim karantinləri necə tətbiq edilə bilər? Hesab edilir ki, pandemiya günlərində milyonlarla insan evdən işləyib. Xüsusi karbon vergiləri tətbiq olunarsa, bu, daimi normaya çevrilə bilər. Bu cür vergilər şirkətlərə də tətbiq edilə bilər. Hər bir mənfi iqlim hadisəsinin səbəbi kimi insan amili ortaya çıxdıqca günahkara qarşı getdikcə məhdudlaşdırıcı vasitələrdən istifadə edilə bilər. ABŞ-ın Kaliforniya ştatı on üç ildən sonra benzinlə işləyən avtomobillərin satışını qadağan edəcək. İngiltərə yaxın səkkiz ilə bunu etməyi planlaşdırır. Daxiliyanma mühərriklərinin qadağan edilməsi ilə planetin xilas ediləcəyi barədə mübahisələr isə davam edir [10].

İqlim və insan hüquqları üçün mümkün "iqlim karantinləri" daha bir təhdid

ola bilərmi, əmək qanunvericiliyinə dəyişikliklər mümkündürmü? Bu və digər suallar gündəmi zəbt etməkdə davam edir. Artıq qlobal istiləşmə, anormal temperaturlar “iqlim karantinlərinə” gətirib çıxarır. Belə ki, Hindistan, daha sonra Pakistan ölümcül istilər səbəbindən məktəbləri qismən bağlamağa məcbur olub. Digər ölkələr də nəqliyyatdan istifadəyə qadağalar tətbiq edib, nəticədə əhalinin hərəkəti məhdudlaşdırılıb. Ətraf mühitin mühafizəsi ilə məşğul olan “Novethic” nəşri 27 may 2024-cü ildə dərc edilən “Həddindən artıq temperaturun arxasında gizlənən "iqlim karantini - "kabusdur” adlı məqaləsində “iqlim karantini” ifadəsindən istifadə etməyi təklif edib [12]: “47,8 °C: Bu temperatur bazar ertəsi, mayın 20-də Hindistanın paytaxtı Dehlidə qeydə alınıb. Ertəsi gün səlahiyyətlilər dərhal tədbirlər görüb, məktəblərin yay tətili üçün erkən bağlandığını elan edib. Ölkənin şimalında və mərkəzində yerləşən bir neçə ştat, o cümlədən Pəncab və Racastan da məktəblərin bağlanmasına göstəriş verib. Bir neçə gün sonra Pakistan da oxşar qərar qəbul edib. Pakistanda məktəblilərin yarısı və ya 26 milyon uşaq mövsümi normalardan “altı-səkkiz dərəcə yuxarı” isti hava dalğası ərəfəsində bir həftə məktəbə getməyəcək. Cənub və Cənub-Şərqi Asiyada həddindən artıq istilər səbəbindən bir neçə ölkə məhdudlaşdırıcı tədbirlər görməyə qərar verib. Filippinin paytaxtı Manilada həddindən artıq istilər səbəbindən dərslər dayandırılıb. Banqladeşdə də bəzi məktəblər bir neçə gün bağlanıb. Taylandda da eyni səbəblərə görə səlahiyyətlilər əhaliyə evdə qalmağı tövsiyə edib” [12].

Sözügedən “Novethic” nəşrinə görə, bu tədbirlərin uzunmüddətli nəticələri ilə bağlı hələlik araşdırma aparılmasa da, bu, yeni konsepsiyadır və yeni reallığı əks etdirir. Həmçinin qeyd edilir ki, terminoloji olaraq, insan hüquqları leksikasında iqlim miqrantlarının - daşqınlar və ya əks etdirən mühitin deqradasiyası səbəbindən ənənəvi yaşayış yerlərini tərk etməyə məcbur olan xalqların hüquqları nəzərə alınmır.

Xatırladaq ki, iqlimlə əlaqədar vətəndaşların hərəkətinə məhdudiyyətlər son vaxtlar digər qitələrdə də tətbiq edilib. Məsələn, Kolumbiyada tarixi quraqlıq səbəbindən aprelin 19-u “qeyri-iş günü” elan edilib. Eyni şəkildə, İran hökuməti həddindən artıq istilərin təsirini məhdudlaşdırmaq üçün bu ilin avqust ayında iki gün istirahət tətbiq edib. Fransa hökuməti Əmək Məcəlləsini iqlim dəyişikliyinə uyğunlaşdırmağı planlaşdırır. Qanun kritik istilik şəraitində iş prosesini dərhal dayandırmaq məqsədilə hər bir müəssisə üçün konkret tədbirlər planının və xüsusi prosedurların yaradılmasına imkan verməlidir. Hazırkı Əmək Məcəlləsində bu nəzərdə tutulmayıb.

“İqlim karantinləri”ni sui-qəsd, konspirasiya nəzəriyyələri hesab edən baxışlar da kifayət qədərdir. Bəziləri hətta qapanmaların məqsədinin "qlobal elitaların" əhalini idarə etmək olduğunu, iqlim dəyişikliyi siyasətinin onların azadlıqlarına qarşı yönəldiyini iddia edir [19].

### 3. İqlim qaçqınları, iqlim miqrantları: genişlənməkdə olan yeni reallıq

Dünya iqlim dəyişikliyinə görə kütləvi miqrasiyaya hazırdırmı? 2050-ci ilə qədər iqlim qaçqınlarının sayı 1,2 milyard ola bilər. 2100-cü ilə qədər isə 3 milyarda qədər insanın iqlim dəyişikliyinin təsirləri səbəbindən yerindən-yurdundan didərgin düşəcəyi gözlənilir. Bu, hamımızı maraqlandıran bir mövzudur.

Mütəxəssislərin fikrinə görə, iqlim dəyişikliyi və BMT-nin qaçqın qanunvericiliyi getdikcə artan iqlim miqrasiyası böhranı fonunda qaçqınların mühafizəsi üçün zəif hazırlıqlı görünür. Belə ki,

BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı (BMT QAK) "iqlim əsaslı" sayılmayan milyonlarla qaçqınla məşğul olur. Yeni qlobal tendensiyanı nəzərə alacaq əsaslı qanunverici islahatlar olmadan bu qurumun 20 dəfə daha çox olan qaçqın axınını qoruya və dəstəkləyə biləcəyi şübhəlidir. Çünki BMT-nin hazırkı mandatı yalnız irqi, dini, siyasi əqidəsi və ya etnik mənsubiyyətinə görə bəyan edilmiş təqiblərə görə ölkələrindən qaçqın düşən fərdi siyasi qaçqınları əhatə edir [21].

"İqlim qaçqınları", habelə "iqlim və ya ətraf mühit miqrantları" termini 1985-ci ildən BMT-nin Ətraf Mühit Proqramının (UNEP) eksperti Essam El-Hinnavi tərəfindən tətbiq edilib. El-Hinnavi iqlim qaçqınlarına "nəzərəçarpacaq dərəcədə ekoloji pozuntuya görə ənənəvi yaşayış yerlərini müvəqqəti və ya daimi olaraq tərk etməyə məcbur olmuş insanlar" kimi tərif verdikdən sonra bu termin geniş istifadə olunur. "Daxili Köçkünlüklərin Monitorinqi Mərkəzi"nin (Internal Displacement Monitoring Centre) açıqladığı son statistik məlumatlara görə, "2008-ci ildən bəri dünyada 376 milyondan çox insan daşqınlar, qasırğalar, zəlzələlər və ya quraqlıqlar səbəbindən məcburi köçkün vəziyyətinə düşüb. Təkcə 2022-ci ildə iqlim qaçqınlarının sayı rekord həddə - 32,6 milyon nəfərə çatıb. 2020-ci ildən başlayaraq, təbii fəlakətlər səbəbindən köçkünlərin ümumi sayında əvvəlki on illə müqayisədə hər il orta hesabla 41% artım müşahidə olunur. Artan tendensiya həyəcanverici dərəcədə aşkardır. İqlim dəyişikliyinin aparıcı katalizator kimi genişlənməsi ilə "iqlim qaçqınlarının" sayı artmağa davam edəcək [29].

Bununla yanaşı, tərifin məzmunu ilə bağlı hələ də müzakirələr gedir, onun bəzi məqamları tam əks etdirmədiyi qeyd edilir. Məsələn, 2020-ci ilin noyabr ayında Honduras, Qvatemala və El Salvadoru ikikateqoriyalı qasırğa vurduqda insanlar leysan yağışları və torpaq sürüşmələri nəticəsində evlərini, dolanışıq vasitələrini və təmiz suya çıxış imkanlarını itirdiyi üçün Meksika sərhədindən keçərək ABŞ-a doğru axın etdilər. Bu vəziyyətdə səbəb və nəticə əlaqələri aydın görünür. Öz ölkələrində ekstremal hava şəraitinin yaratdığı əlverişsiz vəziyyətin insanları necə qaçqın düşməyə məcbur etdiyi aşkar görünür. Lakin bəzi tədqiqatçılar hesab edir ki, bu tərif daha çoxsaylı insanlara şamil edilməlidir. Belə ki, "aid olduqları cəmiyyətlərdə ətraf mühitin qısa və ya uzunmüddətli dəyişməsi ilə birbaşa və ya dolayısı ilə əlaqəli ola biləcək iqlim təsirinə məruz qalan hər kəs" iqlim qaçqını sayıla bilər [30].

Qeyd etmək lazım gəlir ki, düzgün istiqamətdə atılan addımlara baxmayaraq, problemə qarşı milli və beynəlxalq siyasi və qanunverici reaksiyalar məhdud olaraq qalır ki, bu da qurbanların etirafı və müdafiəsinə lazımi hüquqi təminatlar vermir. "İqlim qaçqını"nın bu gün üçün dəqiq tərifi yoxdur. Onlar BMT-nin 1951-ci il tarixli "Qaçqınlar haqqında" Konvensiyası ilə əhatə olunmur. Sonuncu yalnız irqi, dini, milli və müəyyən sosial qrupa mənsubiyyəti və ya siyasi əqidəsinə görə təqib olunmaqdan əsaslı qorxusu olan və öz ölkələrində müdafiə axtara bilməyən və ya istəməyən insanları əhatə edir. Bu o deməkdir ki, iqlim hazırda sığınacaq və ya qaçqın statusu axtarmaq üçün səbəb kimi göstərilə bilməz. Baxmayaraq ki, 2018-ci il tarixli "Miqrasiya üzrə Qlobal Saziş"in (2018 Global Compact for Migration) ikinci məqsədi iqlimi miqrasiya üçün potensial səbəb kimi qəbul edilir. Avropa Birliyi "iqlim qaçqınları"nı rəsmən tanımasa da, artan narahatlığını ifadə edib və iqlimlə bağlı təzyiqlərə həssas olan ölkələrdə dayanıqlılığı dəstəkləmək və gücləndirmək üçün tədbirlər görüb [17].

Daha sonra bu mövzuda aparılan digər müzakirələrdə belə bir məqama diqqət cəlb edildi ki, iqlim dəyişikliyi təkcə insanlara və infrastruktura sadəcə qəfil, gözlənilməz zərər verməklə təhlükə yaratmır. Məsələn, Avropa Parlamentinin Tədqiqat Xidməti (European Parliamentary Research Service) hazırladığı brifinqdə bir sıra məsələləri, o cümlədən "iqlim qaçqını"nın müəyyənləşdirilməsi, iqlim dəyişikliyinin insanların yerdəyişməsinin genişlənməsinə təkan verməsi, "iqlim qaçqınları" üçün hüquqi-qanunverici müdafiə boşluqlarının aradan qaldırılması üçün beynəlxalq hüquqi çərçivənin formalaşdırılması, perspektivdə insan hüquqları əsaslı iqlim məhkəmələrinin formatı və s. təhlil edib. Bu həm də cəmiyyətlərin yaşam tərzlərinə, iqtisadiyyatlara tədrici təsir edən, sonda sabitliyi poza biləcək uzunmüddətli təhlükədir. Məsələn, hazırda gedən qəfil deyil, tədrici proseslər nəticəsində dəniz səviyyəsinin qalxması misalında 2100-cü ilə qədər 410 milyona yaxın insan dəniz səviyyəsindən 2 metrdən az və dəniz səviyyəsinin qalxması riski altında olan ərazilərdə yaşayacaq. Bu o deməkdir ki, iqlim təhdidləri bir-biri ilə sıx bağlıdır və bəşəriyyət tədricən domino effektinə səbəb ola biləcək vəziyyətin getdikcə daha da pisləşməsinin fərqində olmalıdır. "Məsələn, bir ölkədə temperaturun yüksəlməsi suyun mövcudluğuna təsir edə, suyun keyfiyyətini azalda bilər. Bu da xəstəliyin yayılmasına, həmçinin gəlirləri və ərzaq ehtiyatlarını azaldacaq məhsul çatışmazlığına səbəb olan quraqlıq ehtimalını artıra bilər. Bütün bunlar potensial olaraq sosial vəziyyətin pisləşməsinə və siyasi sabitliyin pozulmasına gətirib çıxara bilər".

Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının (Federation of Red Cross and Red Crescent Societies (IFRC) məlumatına görə, "2050-ci ilə qədər ətraf mühitdə dəyişikliklərin təsirinə məruz qalan insanların sayının iki dəfə artacağı proqnozlaşdırıldığı halda, ekoloji fəlakətlər səbəbindən milyonlarla insanın hər il dünya miqyasında köçkünlük problemi artıq bu gün düzgün həll edilməlidir" [8].

2016-cı il sentyabrın 19-da BMT Baş Assambleyası Qaçqınlar və Miqrantlar üzrə Nyu-York Bəyannaməsini (New York Declaration for Refugees and Migrants) qəbul etdi. Bu bəyannamədə "qaçqınlar" və "digər miqrantlar" haqqında iki qlobal müqavilənin hazırlanması tələb edildi [24].

Daha sonra, 2018-ci il dekabrın 10-da Mərakeşdə təsdiq edilmiş "Təhlükəsiz, nizamlı və daimi miqrasiya üzrə Qlobal Saziş" (Global Compact for Safe, Orderly and Regular Migration (GCM) 2-ci məqsəd çərçivəsində iqlim dəyişikliyi səbəbindən köçkünlərin təcili vəziyyətini etiraf edir. Elə həmin il Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflərin 24-cü Konfransı (COP24) iqlim dəyişikliyi nəticəsində insanların məcburi köçkünlüyünə toxundu. Qeyd edildi ki, iqlim miqrasiyası beynəlxalq danışıqlarda təkrarlanan mövzu olsa da, indiyədək təsirlənənlərə heç bir rəsmi status və ya hüquqi müdafiə verilməyib [11].

2019-cu ildə COP25 İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Panelin (2019 COP25; Intergovernmental Panel on Climate Change (IPCC) iqlim dəyişikliyi və torpaqla bağlı xüsusi hesabatına əsaslanmaqla, iqlim dəyişikliyinin insan həyatının keyfiyyətinə xələl gətirən nəticələri kimi səhralaşma və artan qlobal ərzaq qıtlığı riskinə toxunulub. Buna əsaslanaraq, Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT) bildirdi ki, artıq həssas əhali qruplarının həyat şəraitini pisləşdirən iqlim dəyişikliyi ilə bağlı nəticələr insan hərəkətliliyinin-miqrant axınlarının sürətlənməsinə təkan verməkdədir [28].

### 3. Avropa İnsan Hüquqları Məhkəməsinin "İsveçrənin iqlim fəaliyyətsizliyi" (Climate İnaction) ilə bağlı tarixi presedent qərarı və iqlim əsaslı insan hüquqlarının təminatına beynəlxalq reaksiya

Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) İsveçrənin iqlim siyasəti ilə bağlı ictimai birliyin 8 il sürən şikayətini təmin edib, özünün tarixində ilk dəfə iqlimi insan haqlarına daxil edib. 2024-cü il aprelin 9-da AİHM-də verilən ilk və tarixi qərarla Ümumdünya İnsan Hüquqları tarixində yeni era başlayıb. AİHM tarixində ilk dəfə olaraq iqlim dəyişikliyi ilə mübarizədə dövlətin fəaliyyətsizliyi ilə bağlı iş üzrə qərar çıxarıb. 16 hakim lehinə və 1 hakim əleyhinə olmaqla AİHM İsveçrənin iqlim siyasəti sahəsində fəaliyyətsizliyi və insan hüquqlarını pozması ilə bağlı hökm verib.

Strasburqdakı məhkəmə bildirib ki, AİHM Konvensiyasının 8-ci maddəsi "iqlim dəyişikliyinin həyat, sağlamlıq, rifah və həyat keyfiyyətinə ciddi mənfi təsirlərindən" dövlət tərəfindən effektiv müdafiə hüququnu əks etdirir. "Pensiyaçı qadınlar iqlim uğrunda" İctimai Birliyi öz ölkələrində ədalətli məhkəmə araşdırması hüququnun pozulmasına məruz qalıb. AİHM İsveçrənin adekvat "iqlim sahəsində fəaliyyətsizliyi"ni ("climate inaction") əsas gətirməklə şikayətçilərin yaşamaq hüququnun Avropa İnsan Hüquqları Konvensiyasının (AİHK) 2-ci maddəsi, şəxsi və ailə həyatına hörmətlə bağlı ümumi hüququ (AİHK-in 8-ci maddəsi, eyni zamanda əqli və fiziki toxunulmazlığı qoruyan) ilə pozulmasını təsdiqləyib. Qərarda o da qeyd edilib ki, rəsmi "Sürix təqaüdçülərin lazımi prosedur hüquqlarını pozub, İsveçrə hüquq sistemi iddiaçılara ədalət mühakiməsinə kifayət qədər çıxışını təmin etməyib. İsveçrənin iqlim dəyişikliyinə reaksiya sahəsində adekvat hüquqi bazanı həyata keçirməsi prosesində bir sıra "kritik boşluqlar" mövcuddur".

Paradoksal olan ilk məqam həm də bu faktdır ki, AİHM eyni gündə iqlim və insan haqları ilə bağlı 3 qərar elan edib. Pensiyaçı qadınlardan fərqli olaraq, 2 digər işi rədd edib.

"Pensiyaçı qadınlar iqlim uğrunda" İctimai Birliyinin 8 il sürən davası nə ilə bağlı olub?

İsveçrəli "Pensiyaçı qadınlar iqlim uğrunda" İctimai Birliyinin (Klima Seniorinnen) orta yaşı 73 olan 2500 isveçrəli qadın üzvü var. Birlik öz ölkəsinə qarşı yaşamaq hüquqlarını pozan iqlim siyasəti yürütməkdə ittiham edən iddianı hələ 2008-ci ildən qaldırıb. Qadınlar yaşları ilə əlaqədar istiyə dözmədiklərinə, habelə iqlim dəyişikliyi ilə bağlı hər il isti günlərin sayı artdığı üçün evdən çıxa bilməyərək xəstəliklərdən əziyyət çəkdiklərinə görə dövlətin məsuliyyət daşıdığını sübut etməyə çalışıblar.

Yerli məhkəmələr iddianın populist xarakter daşıdığını, hüquqlarının məhkəmə işi başlayacaq dərəcədə pozulmadığını əsas gətirərək rədd edib. Uduzan pensiyaçı qadınlar 2020-ci ildə işi AİHM-ə daşıyıb. ("Pensiyaçı qadınlar iqlim uğrunda" İctimai Birliyi İsveçrəyə qarşı" ("Klima Seniorinnen vs Switzerland"). "İqlim pensiyaçıları" öz iddialarını əsaslandırmaq üçün cinslərinə və yaşlarına görə (əksəriyyəti 70 yaşdan yuxarı) getdikcə artan qlobal iqlim dəyişikliyi səbəbindən baş verən, həddən artıq isti hava şəraitində xüsusilə çətin anlar yaşadıqlarına görə məsuliyyətin istixana qazlarını, tullantıları kəskin azaltmaq öhdəliyini yerinə yetirməyən İsveçrə hakimiyyətinin üzərinə düşdüyünü sübut etmək üçün anormal yay istilərində onların yaş qruplarında ölüm nisbətinin artdığını "sübut edən elmi məlumatlar" təqdim ediblər.

### 4. İnsan hüquqları sahəsində tam bir xaos yaradacaq presedent qərara Avropa ölkələrinin reaksiyaları: İsveçrə və Böyük Britaniyada AİHM-dən və Avropa Şurasından çıxmağa çağırışlar başlayıb

**Strasburq**da qəbul edilən qərara reaksiyalar gözlənilməz və görünməmiş miqyas alıb. Burada: 1. konkret dövlətlərin, 2.beynəlxalq insan haqları təşkilatlarının, 3.qlobal ekoloji qurumların, 4.iqlimə dair transmilli təsisatların, nəhayət, 5. müstəqil hüquqşünasların, akademik ekspertlərin rəyləri maraq doğurur.

Strasburq məhkəməsində qəbul edilən tarixi presedent hökmə suveren dövlətlərin reaksiyası daha önəmlidir desək, yanılmarıq.

**İsveçrə**. İlk reaksiya təbii olaraq, İsveçrədən - ölkənin ən böyük siyasi qüvvəsindən - İsveçrə Xalq Partiyasından gəlib. Partiya AİHM-in ölkəni "iqlim dəyişikliyi ilə mübarizə üçün adekvat tədbirlər görməməkdə" ittiham edən qərarını "qalmaqal" adlandırıb. Avropa məhkəmələrində reallıqdan inkar mövqeyinin açıq şəkildə üstünlük təşkil etməsi, Strasburq hakimlərinin İsveçrənin karbon ($CO_2$) emissiyalarının azaldılması yönündə nümunəvi təcrübəsini görməzdən gəldiyini" bəyan edib. Partiya AİHM-in qərarını "suveren ölkənin daxili işlərinə xarici hakimlərin müdaxiləsi" adlandırıb və İsveçrəni Avropa Şurasından çıxmağa çağırıb.

AİHM-in İsveçrəyə təyin edilmiş cəzanın və 80.000 avro təzminatın 3 ay ərzində ödənilməsi ilə bağlı qərarı xüsusilə hiddətlə qarşılanıb. Belə ki, yerli hüquqşünaslar bu qərarın araşdırılmasının hələ uzun müddət çəkəcəyini bildirib.

Böyük Britaniyanın münasibəti daha sərt olub. Belə ki, ölkədə sön dövrdə "Britaniyanın milli təhlükəsizliyi, yoxsa insan haqları?" sualı cəmiyyətdə ən qızğın müzakirə edilən mövzudur. "İqlim işi" *(climate case)* bu müzakirələrə böyük təkan verib. AİHM-in qərarından dərhal sonra İngiltərə parlamenti kemiş Baş nazir Rişi Sunakın iştirakı ilə "Avropa İnsan Haqları Konvensiyası: qalmalı, yoxsa getməli" mövzusu ətrafında debatlara başlayıb. Parlamentdə Mühafizəkarlar Partiyası Britaniyanın AİHM-dən çıxmasını birmənalı tələb edib. Böyük Britaniyanın kemiş daxili işlər naziri Suella Braverman Rişi Sunakın iqlim/yaşıl siyasətlə bağlı mövqeyini bu cür ifadə edib: "Biz planeti xilas etmək üçün Britaniya xalqını müflis edəsi deyilik!"

Beynəlxalq insan haqları təşkilatlarının, qlobal ekoloji qurumların və iqlimə dair transmilli təsisatların münasibəti, məntiqi olaraq müsbət olub. Onlar bu presedent qərardan sonra ölkələrin iqlim siyasətinə daha məsuliyyətli yanaşacaqlarına, 2030-cu ilə qədər real addımlar atılacağına əmin olduqlarını bildiriblər. Sağlam iqlim hüququnun ilk dəfə insan haqları sırasına daxil edilməsini nəinki alqışlayıblar, hətta 40-dan çox yerli insan hüquqları institutunu özündə birləşdirən "Milli İnsan Hüquqları Təşkilatlarının Avropa Şəbəkəsi" (European Network of National Human Rights Institutions; ENHRİ) öz açıqlamasında bildirib ki, məhkəmə gedişində iqlim işi ilə bağlı rəy-komentariya verib. Komentariyada "1.Şəxsi və ailə həyatına hörmət hüququnun pozulması (Konvensiyanın 8-ci maddəsi); 2.Məhkəməyə müraciət etmək hüququnun pozulması (Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndi); 3. Fərdlərin və birliklərin mövqelərinin aydınlaşdırılması" yönündə AİHM-ə kömək edilib.

### 5. İqlim demokratiyası: yuristokratıya, yoxsa AİHM-in qərarına sahə ekspertlərinin mənfi münasibətləri

Hüquqşünasların böyük əksəriyyəti

“qərarın həddən artıq siyasiləşdirildiyini, iqlimin-insan hüquqlarına dəxli olmadığını” hüquqi arqumentlərlə izah edib. Mediada AİHM-in qərarı “cəfəngiyyat, demokratiyaya böyük zərbə” kimi qiymətləndirilib.

Məşhur “Time” nəşri “AİHM hakimlərinin diktəsi” adlı açıq məktub dərc edib, qurumu qərarları siyasiləşdirməkdə, avtoritarlıqda ittiham edib.

Hüquq sahəsində dünyaca məşhur, qərargahı Londonda, filialları isə bir sıra ölkələrdə yerləşən beyin mərkəzi “Legatum Institute Think Tank”-in parlament məsələləri və qanunvericilik üzrə direktoru Fred de Fossard aprelin 10-da “İqlim dəyişikliyi insan hüquqları qanununa aid məsələ deyil” adlı yazısında “iqlim işi qərarını” təfərrüatlı şəkildə hüquqi ekspertiza aspektində arqumentlərlə təhlil edib. O qeyd edib: “Strasburq məhkəməsinin qərarı demokratiyaya birbaşa hücumdir. Biz uzun illərdir ki, Britaniyanın AİHM-ə üzvlüyünün milli təhlükəsizliyimizi təhdid etdiyini müzakirə edirik. Bu son qərar o deməkdir ki, o, indidən belə həm də bizim rifahımızı və demokratiyamızı təhdid edəcək. Məhkəmə indiyə qədərki hüquq müstəvisini - siyasət və iqtisadiyyat müstəvilərinə qədər genişləndirmək iddiasını ortaya qoyub”.

Hüquq ekspertləri AİHM-in qalmaqallı qərarını təhlil edərkən habelə bir neçə ciddi leqal pozuntuya da yol verildiyini bildiriblər:

1.İqlim dəyişikliyi məsələləri demokratik yolla seçilmiş milli hökumətlərə həvalə edilməlidir, məhkəmə bu məsələyə müdaxilə edib;

2. Məhkəmənin qlobal problem sayılan iqlim dəyişikliyi ilə bağlı məsələni milli hökumətlərin - konkret olaraq İsveçrənin öhdəsinə buraxmasını təklif etməsi əslində geriyə addım hesab edilə bilər. Çünki AİHM əslində bu işə qlobal kontekst, beynəlxalq müqavilələr və elmi sübutlar işığında baxmalıdır. Reallıqda hüquqi kolliziya vəziyyəti yaradılıb.

## 6. AİHM-in “İsveçrənin iqlim fəaliyyətsizliyi” (climate inaction) ilə bağlı tarixi qərarının dünya üçün nəticələri

Qərarın müsbət nəticələrilə bağlı onu demək olar ki, məhkəmənin iqlim dəyişikliyi ilə bağlı ilk dəfə qərar qəbul etməsi ekoloji problemlər və fundamental insan hüquqlarının kritik kəsişməsini ortaya qoyur. Qərarla qlobal iqlim böhranı məsələsinə dair məhkəmənin ilk dəfə hüquqi presedent yaratması tarixi olsa da, hələlik sensasiya xarakterli olub qlobal diqqət cəlb etməkdədir.

AİHM-in qərarı unikal olmaqla yanaşı, qlobal qanunvericilik sahəsində onun necə həyata keçiriləcəyi davam edən prosesdir, yaxın illərdə bütün dünya bu prosesi izləyəcək. AİHM-in prezidenti Siofra O'Liari qeyd edib ki, İsveçrə Paris İqlim Sazişinin tələb etdiyi kimi iqlim dəyişikliyi ilə mübarizə üçün kifayət qədər milli tədbirlər görməyib, İsveçrənin iqlim dəyişikliyinə reaksiya sahəsində adekvat hüquqi bazanı həyata keçirməsi prosesində bir sıra “kritik boşluqlar” mövcuddur. Bu fikir əslində bütün ölkələri diqqəti özlərinin iqlim siyasətinə yönəltmək məqsədini güdür.

Qlobal ekoloji və iqlim təşkilatları şəbəkəsinin rəyinə görə, bu qərar bütün Avropa ölkələrinə şamil olunmaqla, onları təcili olaraq öz iqlim siyasətinin hədəflərinə yenidən baxmağa təkan verəcək. Bu, insan haqlarının yeni nəsli aspektində gələcəyə ünvanlanıb. Məhkəmə qərarının ölkələri faydalı qazıntı sənayesini daha tez azaltmağa məcbur edə biləcəyi ehtimal edilir.

Söhbət sadəcə bir qrup yaşlı qadının İsveçrəni passiv iqlim siyasəti yürütməkdə ittiham etməsindən getmir. 9 aprel tarixində qərar çıxarılan hər 3 iqlim

işi üzrə iddialarda, həmçinin 3-cü tərəflərin: hökumətlər, hüquqşünaslar, iqlimşünaslar, QHT-lər və s.-qeyri-adi çoxlu sayda dəstəkçi iddiaları da daxil olub.

Qərara necə münasibət göstərilməsindən asılı olmayaraq, bu məhkəmə çəkişməsi artıq milli və qlobal miqyasda diqqəti iqlim dəyişikliyinin mənfi nəticələrinin ümumilikdə insan hüquqlarına yaratdığı real risklərə yönəldə bilər. AİHM Konvensiyasının 8-ci maddəsində əvvəllər də ekoloji hüquqla bağlı komponent mövcud olub. Lakin regional reallıqlar (milli dövlətlər) onu məhdudlaşdırırdı. Hazırkı qərar lokal hüquq və iqlim mövzusuna qlobal ölçünü əlavə edir. O, iqlimin qorunmasının qlobal bir hadisə olduğunu təsdiqləyib.

İlkin rəylərə əsaslansaq mənfi nəticələr müsbətlərdən daha çoxdur. Qərara xüsusilə suveren dövlətlərin verdiyi reaksiyalara əsasən onun məhkəmənin özü üçün ağır nəticələrə səbəb olacağını deməyə əsas verir. İlk növbədə Avropa İttifaqının 32 ölkəsindəki qanunverici orqanlar və s. təşkilatların fəaliyyətində olduqca ciddi, "seysmik, zəlzələ effektli" nəticələr ortaya çıxa bilər. Qərarla bağlı beynəlxalq miqyasda tanınmış hüquqşünasların rəylərinin əksəriyyəti neqativ məzmunludur. Belə ki, "AİHM-in öz səlahiyyətlərini aşaraq milli suveren qanunvericilik məkanına müdaxilə etməsi "onun özünün sonunu gətirə bilər" kimi qənaətlər üstünlük təşkil edir.

Artıq İsveçrə və Britaniyada hakimiyyətdə olan siyasi qüvvələrin Avropa Şurasından, AİHM-dən çıxmaqla bağlı sərt bəyanatları, mediada müzakirələrin bu vəziyyəti gərginləşdirməsi Qərb siyasi sistemini cənginə alan populizm dalğasını daha da kəskinləşdirməkdədir. AİHM-in 58-ci maddəsində deyilir ki, dövlətlər 6 ay əvvəl xəbərdarlıq etməklə Konvensiyanı "denonsasiya edə", yəni tərk edə bilərlər. Qalmaq və ya getmək qərarı bir tərəfdən demokratiya (yaxud milli suverenlik), digər tərəfdən beynəlxalq hüquq müqaviləsində iştirak arasında seçim deyil, dövlətin suveren hüququdur. Hazırda "getmək, yoxsa qalmaq, AİHM bizim üçün nə edib, onu nə ilə əvəzləyə bilərik?" və s. bu kimi suallar Avropa siyasi gündəmini zəbt etməkdədir.

Tarixdə ilk dəfə iqlim dəyişikliyi ilə bağlı məhkəmə çəkişmələrini insan hüquqları sahəsinə gətirib, yeni nəsil insan haqlarının yaranmasına təkan verilir. Bir ölkənin iqlim dəyişikliyi ilə bağlı fəaliyyətinin göstəricisi olaraq vətəndaşların insan hüquqlarının pozulması kimi mürəkkəb meyar ortaya qoyulub. İsveçrənin iqlim böhranı ilə lazımi dərəcədə mübarizə aparmaması "burada insan hüquqlarının pozulmasına səbəb olub" kimi nəticəyə gəlməklə məhkəmənin düzgün, yoxsa yanlış perspektivlər açması ilə bağlı müzakirələr tam gücü ilə davam edir. İndi bütün Avropa ölkələrində məhkəmələrin bu presedentə əməl etməli olacağı birmənalı deyil. Məhkəmənin İsveçrə hakimiyyətini 3 ay müddətində "Pensiyaçı qadınlar iqlim uğrunda" İctimai Birliyinə 80 min avro təzminat ödəməyi məcburi hesab etməsi də mübahisəlidir. Çünki İctimai Bilrik dəymiş ziyana görə heç bir təzminat iddiası irəli sürməyib.

İsveçrə hökumətinin iddianın populist xarakter daşıdığına görə onu qəbuledilməz hesab etməsinə baxmayaraq, Strasburqda verilən qərar bütün dünyada gələcək məhkəmə proseslərinə təsir göstərə bilər. Hətta bu istiqamətdə ekoaktivistlərin və s. sosial hərəkatların öz dövlətlərinə və başqa ölkələrə qarşı qaldırdığı iddiaları tam bir axın-sel şəklini ala, məhkəmələr bu axın qarşısında aciz qala bilər. Sözügedən məhkəmə işinin 8 il çəkməsi buna misal göstərilir.

Daha dəqiq deyilsə, bu o deməkdir ki, ətraf mühitin mühafizəsi ilə məşğul olan QHT-lər gələcəkdə öz üzvlərinin maraqlarını qorumaq üçün oxşar işlərlə

bağlı kütləvi şəkildə müraciət edə biləcəklər ki, bu da insan haqları sahəsində fərdi işlərə baxılmasını son dərəcə çətinləşdirə bilər.

Məhkəmənin qərarı hüquq elmi sahəsində, nisbətən bu yeni hüquqi arealda açıq qalan suallara aydınlıq gətirmək üçün (iqlim və insan hüquqları problemləri arasında səbəb-nəticə əlaqələrinin xarakterini aydınlaşdırmaq, həmçinin “məqbul risk” dərəcəsini, iqlim məsələləri üzrə ərazi yurisdiksiyası məsələsinin həlli, təzminat məbləğini və s. müəyyən etməklə) gələcək tədqiqatlara, məhkəmə çəkişmələrinə təsir göstərə bilər.

Burada isə Strasburq məhkəməsi proqnoz/ssenari olaraq 2 variantdan birini seçərək gələcək ənənəni müəyyən edə bilər: 1.ya milli məhkəmə proseslərinə və hüquq-mühafizə orqanlarına təsir edə biləcək qərarları təxirə sala bilər; 2.ya da iqlimi insanın fundamental yaşam hüququ ilə eyniləşdirə bilər.

AİHM-in verdiyi qərarın reallaşması yenə də konkret suveren ölkənin - İsveçrənin ixtiyarındadır. Mütəxəssislərin fikrincə, İsveçrə "iqlim fəaliyyətsizliiyi" (climate inaction) ilə bağlı cəzalandırılsa da, bu yanaşma beynəlxalq qurumların bu ölkənin iqlim siyasəti ilə bağlı hesabat və reytinqlərində dəyərləndirmələrinə ziddir. Məhkəmənin “məsuliyyəti əsasən istixana qazlarının tullantılarını kəskin azaltmaq üzrə öhdəliklərini yerinə yetirə bilməyən İsveçrə hakimiyyətinin üzərinə” qoyması mübahisəlidir.

Strasburqda verilən qərarın birbaşa demokratiyaya hücum olması ilə bağlı nüfuzlu hüquqşünas ekspertlərin rəyi də düşündürücü olmaqla yanaşı, bədbin proqnozları daha da möhkəmləndirir. Hüquq ekspertləri hesab edir ki, AİHM İsveçrədə referendumda keçməyən iddianı təsdiqləməklə İsveçrə xalqının iradəsini rədd edib və burada demokratiyanın əlifbası pozulub. Xalqların seçdiyi hökumətlərin, siyasilərin verə biləcəyi qərarları hüquqşünasların verməsi absurddur.

Qeyd edildiyi kimi, məhkəmə 16 lehinə, 1 əleyhinə səs verərək qanuna “canlı alət” kimi yanaşmanı ifrat həddə çatdırıb. 1950-ci illərdə yaradılan "insan hüquqları" anlayışının sonsuz miqyasadək genişləndirilməsi kimi “məhkəmə fəallığı” məqsəd sayıla bilməz. Sitat: “1950-ci ildə heç kimin ağlına belə gələ bilməzdi ki, isti iqlimdə yaşamaq insan hüquqlarının pozulmasıdır. Lakin Strasburqdakı hakimlər bunun belə olduğuna qərar veriblər. Belə davam edərsə, yalnız ekofəalların əl-qolu açıla bilər, bu qərar tutulan hər bir vergini, tikilən hər fabriki və ya hər yeni avtomobili insan hüquqları qanununun predmetinə çevirə bilər. AİHM aprelin 9-da indiyəqədərki, bəlkə də, ən böyük səhvini edib. AİHM əgər bundan sonra mövcud olacaqsa, ancaq cinayət və təqiblərlə məşğul olmalıdır”.

## 7. “İqlim və insan hüquqları" ilə bağlı tarixi qərar və Azərbaycan üçün mümkün perspektivlər

İşğal illərində qanunsuz talançılıq fəaliyyəti ilə məşğul olan, çayları zəhərləyən, dağ-mədən fəaliyyətini vandalizm səviyyəsində həyata keçirən Ermənistanın real ziyanın təzminatını ödəmək əvəzinə saxta “etnik təmizləmə” narrativlərini təbliğ etməsinə qarşı ermənilərin ekosid siyasəti ilə bağlı tədbirlər iqlim dəyişikliyi mövzusunda yenidən nəzərdən keçirilməlidir. Sözügedən məsələlərlə bağlı faktların cəmiyyətə və beynəlxalq birliyə çatdırılması davamlı şəkil almalıdır. Xüsusilə də, COP29-a ev sahibliyi etdiyimiz cari ildə qlobal tədbirin siyasiləşdirilməsi yönündə qarayaxma kampaniyası aparanlar daha da fəallaşıb. Ermənilərin son presedent qərarla bağlı addımlar atacağı istisna edilə bilməz. Dağ-mədən sənayesi-

nin aparıcı sahə olduğu Ermənistanda bu sahənin regionun ekoloji durumuna mənfi təsiri, Metsamor AES-in ətraf mühitə vurduğu öldürücü ziyanla bağlı beynəlxalq hesabatlar, onu iqlim dəyişmələrini sürətləndirməsi ilə bağlı mesajlar verilməsi gündəmə daxil edilməlidir. Bu istiqamətdə önləyici təhlil və təbliğat faydalı olar.

Ölkəmizdə iqlim hüququ və ekoloji hüquqla bağlı kadrlar korpusunun yetişdirilməsi də mühüm məsələlərdəndir. Habelə, hazırda sahibkar və şirkətlərə verilən ekoloji tələblərlə bağlı maarifləndirmə işlərinin aparılması, idxal və ixrac sahəsində ekoloji ekspertiza sahəsində keyfiyyətli fəaliyyətin həyata keçirilməsi yönündə aidiyyətli qurumların koordinasiyalı fəaliyyətini COP29-dan sonra da davam etdirilməsi aktualdır.

Hazırda Avropa/Qərb mediasında ən çox səslənən, iqlim və insan hüquqları ilə bağlı son presedent qərarın “demokratiyaya, suveren dövlətlərin daxili işlərinə müdaxilə və səlahiyyətlərin aşması, xalqın iradəsi ilə seçilən hakimiyyətin verdiyi qərarların AİHM tərəfindən iqnor edilməsi” kimi müddəalar diqqəti cəlb edir. Avropanın aparıcı ölkələrinin AİHM-i tərk etməsi, “insan haqları, yoxsa milli təhlükəsizlik, iqlim siyasəti xalqın rifahına qarşı olmamalıdır” kimi qənaətləri düşündürücü olub, bu qurumun qərarlarının heç də həmişə mütləq ədalət və hüquqa deyil, siyasi amillərə əsaslanmasının göstəricisi kimi izah edilməlidir. Nüfuzlu beynəlxalq hüquqşünasların “Strasburqda hüquqi deyil, artıq siyasi qərarların qəbul edilməsi” ilə bağlı qənaətləri burada əsas arqument kimi çıxış edir.

AİHM-i “etalon, ideal” qurum hesab edən, ümumilikdə, insan haqlarını mücərrəd ritorikaya çevirən bəzi dairələrin bu qərarla bağlı ziddiyyətli fikirləri onların əksinə işləyir. AİHM-də verilən qərəzli qərarlarla üzləşən ölkələrdən biri kimi bu proseslərin izlənilməsi və təhlili gündəmdədir.

Digər əsas qənaətlərdən biri də budur ki, qlobal ekoloji problemlər, iqlim dəyişmələri və insan hüquqları ilə bağlı baş verən proseslər, presedent qərarlar Azərbaycanda xüsusilə diqqət mərkəzində olmalıdır. Məlumdur ki, 2024-cü il aprelin 12-də Haaqada Azərbaycanın iddiası üzrə ilk rəsmi məhkəmə prosesi keçirilib. Torpaqlarımızın 30 illik qeyri-qanuni işğalı zamanı törədilən ətraf mühitin geniş şəkildə dağıdılmasına dair mövcud olan külli miqdarda dəlillər əsasında ilk arbitraj prosesi başladılıb. Azərbaycanın təbiətinin, onun ekoloji mühitinin, təbii resurslarının 30 ildən çox talana məruz qalması, torpaqlarımıza 1 milyondan çox minanın basdırılması başladılan proses və sözügedən məsələlər aspektində araşdırılmasına, yeni presedent qərarın yaratdığı imkanların ekoloji və beynəlxalq hüquq sahəsində mütəxəssislərimiz tərəfindən öyrənilməsi və tətbiqinə ehtiyac var.

Azərbaycanın Qarabağ bölgəsindən etnik təmizləməyə məruz qalmış bir milyona yaxın qaçqın və köçkün tam otuz ildən çox yaşadığı ekosistemdən zorla didərgin salınıb, on illərlə çadır şəhərciklərində yaşamağa məcbur olub. Onlar dünya və ölkəmizin, təbiətin ən gözəl məkanlarından quvulub, ən ağır təbii iqlim şərtlərində, dözülməz isti, yaxud soyuq iqlim şəraitində yaşamağa məcbur olublar. Ermənistanın törətdiyi bu cinayətlərin cavabının sorulması, iqlim dəyişikliyi və insan haqları aspektində gündəmdə saxlanılmalıdır.

## 8. İqlim əsaslı insan axınları: “ekoloji qaçqınlar, iqlim qaçqınları, yoxsa iqlim miqrantları” - elmi və hüquqi terminoloji müzakirələrin durumu

“İqlim qaçqını” anlayışının müəyyənləşdirilməsində problemlər qalmaqda-

dır. Yuxarıda qeyd edildiyi kimi: “İqlim qaçqınları” (environmental refugee) fenomeni 1985-ci ildən, BMT-nin Ətraf Mühit Proqramının (UNEP) eksperti Essam El-Hinnavi “ekoloji qaçqınlar”a tərifi verdikdən sonra ictimai müzakirələrdə yer alıb. El Hunnavinin “Ətraf mühitdə mövcudluqlarını təhlükə altına alan və/və ya həyat keyfiyyətinə ciddi təsir göstərən nəzərəçarpacaq (təbii və/və ya insanlar tərəfindən törədilən) pozuntular səbəbindən ənənəvi yaşayış yerlərini müvəqqəti və ya daimi olaraq tərk etməyə məcbur olan insanlar” tərifi “iqlim qaçqınları” termini üçün də istifadə olunur. Lakin “ekoloji” və “iqlim” arasında praktiki fərqin olub-olmaması qeyri-müəyyən olaraq qalır.

İqlim dəyişikliyi səbəbindən yerdəyişməyə məruz qalanların müdafiəsinin təmin edilməsi sahəsində əsas problemlərdən biri “iqlim qaçqını” termininin müəyyənləşdirilməsi ilə bağlı çətinliklərdə, həmçinin Qaçqınlar Konvensiyası ətrafında mövcud diskursda və “ekoloji qaçqınlar”ın müəyyənləşdirilməsinə dair əvvəlki cəhdlərdədir. 2020-ci ildə Avropa İqtisadi və Sosial Komitəsinin (European Economic and Social Committee - EESC) dinləmələri zamanı Norveç Biznes Məktəbinin və Oslo Universitetinin professoru və tədqiqatçısı İzabel Borges qeyd etmişdir: “Ekoloji cəhətdən köçkün insan dedikdə nəyin nəzərdə tutlduğuna dair dəqiq tərifin olmaması mövcud və potensial iqlim qaçqın axınlarının sayını dəqiq ölçməyin mümkünsüzlüyünə gətirib çıxarıb [9].

Akademik tədqiqatçılar Doçerti və digərlərinin (2009) fikrincə, “iqlim qaçqını” anlayışı “məcburi miqrasiya, müvəqqəti və ya daimi yerdəyişmə, transsərhəd yerdəyişmə, iqlim dəyişikliyinə uyğun pozuntular, qəfil və ya tədrici pozuntular, ümumilikdə, ətraf mühitin qorunmamasında insan amilinin müəyyən edilməsi üçün məqbul standartların müəyyən edilməsi" kimi məqamları əhatə etməlidir [4].

İqlimlə bağlı səbəblərə görə məcburi köçkün olmuş insanları təsvir etmək üçün istifadə edilən bəzi terminlər, adətən, “ekoloji qaçqın, ətraf mühitlə bağlı qaçqın” (environmentally/climate displaced person) termini müxtəlif qeyri-hökumət təşkilatları tərəfindən təqdim olunan mövqe sənədlərində, həmçinin mediada və akademik ədəbiyyatda istifadə edilir. Termin, xüsusilə ətraf mühit dəyişikliyinin müxtəlif növləri və ekoloji səbəbli mobillik arasında fərqləndirmədən əvvəl, mövzuya dair müzakirələrin erkən mərhələləri ilə əlaqələndirilir. Bu anlamda termin “məlumatlılığı artırmaq və yerdəyişmənin məcburi xarakterinə diqqət yetirmək üçün” istifadə edilir.

Qeyd edək ki, iqlim dəyişikliyi səbəbindən qaçqın olan insanları təsvir etmək üçün “qaçqın” termininin və statusunun istifadəsi də tənqidlərə məruz qalıb. Belə ki, bu terminin ilk növbədə 1951-ci il Qaçqınlar Konvensiyası və beynəlxalq qaçqın hüququ kontekstində xüsusi hüquqi məna daşıması əsas gətirilir. BMT-nin müvafiq qurumları və Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT) hesab edir ki, “qaçqın” termininin istifadəsi bu kontekstdə yersiz ola bilər. 1951-ci il Qaçqınlar Konvensiyasında nəzərdə tutulmuş “qaçqınlar” anlayışının əlavə şəxslər kateqoriyasını da əhatə etməklə genişləndirilməsi məqsədəuyğun və ya mümkün hesab edilmir.

“Ətraf mühit miqrantı” termini BMqT tərəfindən də geniş istifadə olunur. Buna baxmayaraq, “miqrant” termini həmişə uyğun hesab olunmaya bilər, çünki bu, köçmək qərarında müəyyən dərəcədə iradə olduğunu göstərir. Populyarlıq qazanan ən son terminlərdən biri “ekoloji/iqlim səbəbindən köçkün şəxslər”dir (climate-displaced persons). Bu termin təsviri xarakter daşıyır – hərəkətlilik spektrinin ən azı bir hissəsinə (yerdəyişdirmə) istinad edir və mütləq idarəet-

mə ilə bağlı məsuliyyəti nəzərdə tutmur. “Köçkün” anlayışının beynəlxalq səviyyədə qəbul edilmiş hüquqi tərifi olmasa da, “məcburi köçkünlər” anlayışı ölkə daxilində köçkünlüklər baş verdikdə aktualdır.

BMT-nin Miqrasiya Agentliyinin (IOM) Miqrasiya, Ətraf Mühit və İqlim Dəyişikliyi (Migration, Environment and Climate Change (MECC) Division at the UN Migration Agency (IOM) bölməsinin rəhbəri Dina İonesko miqrasiya, ətraf mühit və iqlim dəyişikliyi arasında əlaqədən çıxış edərək, “İqlim qaçqını, yoxsa miqrant” sualına cavab verib. Onun fikrinə görə, iqlim miqrantları uzun illər miqrasiya və iqlim müzakirələrində görünməz olub. Buna görə də, BMqT-dəki fəaliyyəti 10 ildən çox müddətdə iqlim və ətraf mühit faktorlarını işıqlandırmaq və iqlim dəyişikliyinin birbaşa və dolayı yolla insanların hərəkətliliyinə təsir etdiyini göstərən sübutlar toplusunun, datanın yaradılmasına yönəlib. Sözügedən kontekstdə mövcud qaçqın statusu ilə paralel iqlimə aid hüquqi statusun bu günə qədər yaradılmaması paradoksal görünə bilər. İqlim dəyişikliyinin və ətraf mühitin deqradasiyasının insanların mobilliyinə necə təsir etdiyinə dair mövcud dəlillərin getdikcə artmasına baxmayaraq, iqlim qaçqınları statusunun müəyyən edilməsinə dair müzakirələrin hazırkı durumu dar və birtərəfli müzakirələrə səbəb olur. İqlim dəyişikliyi və insan hərəkətliliyinin mürəkkəb qarşılıqlı asılılığı fonunda poblemin həlli üçün yalnız qismən həllər təmin edilib.

Media “iqlim qaçqınları” ilə bağlı yeniliklər əldə etməyə çalışır, 10, yaxud 20 ildən sonra nə qədər iqlim qaçqınının olacağına dair proqnozlar tələb edir. Digər tərəfdən isə bunun əksinə olaraq, bəzi simvolik kiçik ada dövlətləri digərləri ilə yanaşı, iqlim qaçqınlarına çevrilmək istəmədiklərini bildirir. Onlar öz evlərində qala bilmək və ya hər şeyi arxada qoymadan ləyaqətlə və müntəzəm kanallarla hərəkət etmək istəyirlər. Məsələn, iqlim dəyişikliyinin mənfi təsirlərinin çobanların miqrasiyasına təsir etdiyi, Monqolustanın Sergelen adlı məkanında yaşayanlara görə, “Otlaqlar olmayanda hərəkətlilik artır. Yazda bir çox miqrant cənubdan şimala köçür. İqlim dəyişikliyinə qalib gəlməyin başqa yolu yoxdur. Bütün insanlar öz heyvanları ilə sağ qalmaq və mal-qaralarını qoruya biləcəkləri yerə gəlmək istəyirlər” və s.

“İqlim qaçqınlarindan deyil, iqlim miqrantlarindan danışmaq” daha məqbul hal ola bilər. “İqlim qaçqınları” obrazı müharibələrdən və münaqişələrdən qaçanların indiki görüntülərini əks etdirdiyi üçün hamıda metaforik şəkildə rezonans doğurur. İqlim dəyişikliyi təhlükəsi ilə biz milyonlarla insanın gələcəkdə qaçqın vəziyyətinə düşəcəyini təsəvvür edirik.

Bununla belə, iqlim dəyişikliyi kontekstində miqrasiya məsələsini “iqlim qaçqınları” statusuna endirmək iqlim dəyişikliyi və ətraf mühitin deqradasiyası kontekstində insan hərəkətliliyini müəyyən edən bir sıra əsas aspektləri tanıya bilmir. Sözügedən aspektlərdən bəziləri aşağıdakı kimidir:

- “İqlim miqrasiyası əsasən ölkədaxilidir: miqrasiya daxili olduqda, köçən insanlar öz dövlətlərinin məsuliyyəti altındadırlar, sərhədləri keçmirlər və üçüncü ölkədən və ya beynəlxalq səviyyədə müdafiə axtarmırlar.
- Miqrasiya həmişə məcburi deyil, xüsusilə də tədrici başlayan proseslər üçün miqrasiya məhdud olsa belə, hələ də seçim məsələsidir, ona görə də ölkələr qaçqınların müdafiəsi deyil, ilk növbədə miqrasiya idarəçiliyi və sazişlər üzərində düşünməlidirlər.
- Ətraf mühit/iqlim səbəblərini, xüsusən humanitar, siyasi, sosial, münaqişə və ya iqtisadi səbəblərdən təcrid

etmək çətindir. Bu, bəzən qeyri-mümkün bir iş ola, uzun və qeyri-real hüquqi prosedurlara səbəb ola bilər.

- İqlim dəyişikliyi ilə bağlı səbəblər üçün xüsusi qaçqın statusunun yaradılması, təəssüf ki, həll yolu kimi axtarılanın əks təsirlərinə səbəb ola bilər: bu, müdafiəyə ehtiyacı olan insanların kateqoriyalarının, xüsusən də iqlim və ətraf mühit amilləri ilə əlaqəni sübut edə bilməyəcək, təhlükə səbəbindən köçən ən yoxsul miqrantların hüquqi çərçivədən xaric edilməsinə səbəb ola bilər.
- 1951-ci il Qaçqınlar Konvensiyasına yenidən baxılması, iqlim amilinin buraya əlavə edilməsi qaçqın statusunu zəiflədə bilər ki, bu da təqiblər və davam edən münaqişələr səbəbindən bu qədər insanın müdafiəyə ehtiyacı olduğu dünyamızın vəziyyətini nəzərə alsaq, faciəvi ola bilər.
- Yeni konvensiya yaratmaq olduqca uzun bir siyasi proses olduğu üçün ölkələrin buna marağı olmaya bilər. Miqrasiya üzrə 2011-ci il Beynəlxalq Dialoqunda və bu yaxınlarda qəbul edilmiş Təhlükəsiz, Nizamlı və Daimi Miqrasiya üzrə Qlobal Sazişdə vurğulandığı kimi, miqrasiya idarəçiliyi və siyasətindən çoxlu cavablar tapıla bilər. Tematik və regional məsləhətləşmələrdən sonra fəlakətlər nəticəsində sərhədləri aşmış insanların müdafiəsindəki boşluqları araşdırmaq üçün başladılan Nansen Təşəbbüsü də yeni statusun yaradılmasını tövsiyə etməkdənsə, bu insanlar üçün miqrasiya siyasətinin "alətlər-həllər dəstini" təklif edən bir sənədl hazırlayıb [13].

Bütün qeyd edilənlərə rəğmən, iqlim dəyişikliyi və köçkünlüyün, yerdəyişməyə dair baxşların mifllər və faktlar kimi fərqləndirilməsi də geniş yayılıb. BMT-nin araşdırmasına görə, iqlim böhranı və yerdəyişmə ilə bağlı beş mif artıq məhv edilib. Belə ki, iqlim böhranı və insanların yerdəyişməsi getdikcə daha çox bir-birinə sıx bağlı olur. Gerçəklik bundan ibarətdir ki, 2022-ci ildə qeydə alınan yeni köçkünlərin yarısından çoxu nəinki iqlimlə bağlı fəlakətlər səbəbindən qeydə alınıb, həm də qaçqınların və məcburi köçkünlərin təxminən 60 faizi hazırda iqlim dəyişikliyinə ən həssas olan ölkələrdə yaşayır [5].

"İqlim qaçqınları" mediada iqlimlə bağlı hadisələrə görə evlərini tərk etmək məcburiyyətində qalan insanları təsvir etmək üçün tez-tez istifadə olunan ifadə olsa da, beynəlxalq hüquqda rəsmi olaraq tanınan termin deyil. Yuxarıda qeyd edildiyi kimi, iqlimlə bağlı yerdəyişmələrin əksəriyyəti ölkələr daxilində baş verir, halbuki 1951-ci il tarixli Qaçqınlar Konvensiyası yalnız təhlükəsizlik tapmaq üçün beynəlxalq sərhədi keçən müharibə, zorakılıq, münaqişə və ya təqiblərdən qaçan şəxsləri müdafiə edir. Yalnız iqlim dəyişikliyi və ya fəlakətlər kontekstində yerdəyişmə 1951-ci il Konvensiyası ilə əhatə olunmasa da, iqlim dəyişikliyi nəticəsində fərdin təqib və ya zorakılıqla üzləşmə riski artdıqda bu tətbiq edilə bilər. Məsələn, 2021-ci ildə Kamerunun şimalında, iqlim dəyişikliyi ilə əlaqədar azalan su ehtiyatları ilə bağlı çobanlar və balıqçılar arasında baş verən zorakılıqdan sonra yüzlərlə insan öldürüldü və on minlərlə insan qonşu Çada qaçdı [7].

Bəzi baxışlara görə isə dünyada iqlim dəyişikliyi ilə bağlı köçkünlüyün qarşısını almaq üçün nəsə etmək artıq çox gecdir. Bununla yanaşı, əks mövqedə olanlar isə hesab edir ki, qlobal istiləşmə davam edir, orta temperatur indi 1800-cü illərin sonunda olduğundan təxminən 1,1°C daha istidir. Lakin qlobal istiləşməni minimuma endirmək və ya emissiyaları azaltmaq, həssas əhalinin dayanıqlılığını artıran və insanların köçürülmə və ya başqa şəkildə mənfi təsirə məruz qalması riskini azaldan uyğunlaşmaya sərmayə qoymaq üçün

hərəkətə keçmək hələ də gec deyil. İnsanlara ekstremal hava şəraitinə daha yaxşı hazırlaşmaqda və dəyişən iqlimə uyğunlaşmaqda kömək etmək mümkündür. Biz, həmçinin yoxsulluq, bərabərsizlik və zorakılıq kimi iqlim dəyişikliyi ilə güclənən köçkünlüyün bəzi digər əsas səbəbləri ilə də mübarizə apara bilərik. Qaçqınlar və məcburi köçkünlər, məsələn, ağac əkmə layihələri, təbliğat kampaniyaları, fəlakətlərə hazırlıq səyləri və kol yanğınları ilə mübarizə vasitəsilə davamlılıq yaratmaq və iqlim dəyişikliyinin təsirlərinə uyğunlaşmaq üçün fəaliyyət göstərənlər arasındadır. 2023-cü ildə Dubayda keçirilən COP28 - BMT-nin İqlim Dəyişikliyi Konfransında Tərəflər bu cür tədbirləri həyata keçirən qaçqınların rəhbərlik etdiyi təşkilatlara daha çox dəstək verməyə və onların iştirakı olmadan müvafiq qərarların qəbul edilməməsinə dair müzakirələrin intensivləşməsinə çağırıb.

Ekstremal hava, artan temperatur və zədələnmiş ekosistemlər milyonlarla iqlim qaçqınının həyatını təhdid edir. İqlim miqrasiyası problemini həll etmək və iqlim dəyişikliyinin "dünyanın unudulmuş qurbanlarına" kömək etmək üçün kollektiv səylər tələb edilir.

İqlim miqrasiyası insanların həyatını məhv edir, daşqınlar, əlverişsiz hava, quraqlıq, səhralaşma, dəniz səviyyəsinin qalxması, habelə əksi - dəniz suyunun çəkilməsi, təmiz içməli suyun olmaması səbəbindən illərlə yaşadığı yaşayış məkanlarından məhrum olmaq, sağ qalmaq üçün ekosistemini tərk etməyə məcbur qalmaq - qlobal istiləşmənin bu gün getdikcə kəskinləşən real mənzərəsidir.

İqlim miqrantları - iqlim böhranının cəbhə xəttində yaşayan milyonlarla iqlim qaçqınları özlərinin günahkar olmadıqları fəlakətlərlə üz-üzə qalır. Tədqiqatçılar, iqlim fəalları isə həyəcan təbili çalır: qarşısı alınmazsa, iqlim dəyişikliyi təhlükəsi qlobal miqyasda artacaq, iqlim miqrantlarının sayı eksponent xətt üzrə yüksələcək.

"Beynəlxalq Köçkünlərin Monitorinqi Mərkəzi"nin (International Displacement Monitoring Centre) məlumatına görə, 2008-2016-cı illər arasında daşqınlar, tufanlar, meşə yanğınları və quraqlıqlar kimi hava şəraiti ilə əlaqədar hadisələr nəticəsində hər il orta hesabla 21,5 milyon insan məcburi köçkün olub. 2022-ci ildə bu rəqəm 32,6 milyona çatıb. Beynəlxalq beyin mərkəzi olan "İqtisadiyyat və Sülh İnstitutu" (The Institute for Economics and Peace (IEP) illik "Ekoloji Təhdidlər Reyestri (ETR)" (Ecological Threat Register (ETR) hazırlayır. Beyin mərkəzi bu rəqəmin daha da artacağını, iqlim dəyişikliyi və təbii fəlakətlər səbəbindən 2050-ci ilə qədər 1,2 milyard insanın öz hazırkı yaşayış yerlərini tərk edəcəyini proqnozlaşdırır. İqlim dəyişikliyi coğrafi sərhəd tanımır və onun insanların həyatına təsirini yumşaltmaq üçün dərhal qlobal kollektiv fəaliyyətə ehtiyac var" [25].

Onu da qeyd edək kki, "İqtisadiyyat və Sülh İnstitutu" özünün hazırladığı "Qlobal Sülh İndeksi" və "Qlobal Terrorizm İndeksi" (Global Peace Index and Global Terrorism Index) kimi hesabatları ilə məşhur olan aparıcı beynəlxalq araşdırma mərkəzidir. İnstitutun 2020-ci ildən başlayaraq hazırladığı "Ekoloji Təhdidlər Reyestri" ölkələrin hazırda üzləşdiyi ekoloji təhlükələri monitorinq edir, 2050-ci ilə qədər proqnozlar verir. Hesabatda ekstremal ekoloji şokların öhdəsindən gəlmək ehtimalı ən az olan ölkələri müəyyən etmək üçün davamlılıq göstəricilərini ətraf mühit məlumatları ilə müqayisəli təhlil edilir.

Beyin mərkəzi COP29 ərəfəsində ekoloji dayanıqlılığa məqsədyönlü investisiyaların ekoloji deqradasiyadan - ifrat yoxsulluqdan, resurs rəqabətindən, məcburi miqrasiyadan münaqişəyə qə-

**Təbii fəlakətlər nəticəsində insanların ölkədaxili köçkün düşməsi**




**Mənbə: [18]**

**İqlim dəyişikliyi səbəbindən 2022-ci ildə dünyada ölkələr üzrə köçkün sayı**




**Mənbə: [6]**

dər olan nəticələrin qarşısının alınmasına necə kömək edə biləcəyini araşdıraraq təqdim edib.

Azərbaycanda 2024-cü ildə 36 nəfər iqlim dəyişməsi səbəbindən ölkədaxili köçkün düşüb [3].

Beynəlxalq Qırmızı Xaç Federasiyasının (IFRC) məlumatına görə, oktyabrın 12-də Hacıqabul rayonunda 36 nəfər daşqınlar səbəbindən evlərini tərk edib. Hacıqabulda təbii fəlakət, Muşov dağından başlayan güclü daşqınlar və intensiv yağıntılar səbəbindən şəhər mərkəzinə elektrik enerjisinin verilişində fasilələr yaranıb. Rayon mərkəzi ilə yanaşı, “Qubalı Baloğlan”, “Pirsaat”, “Udulu”, “Nəvahi”, “Qızılburun” kəndlərində də 300-dən çox təsərrüfat su altında qalıb, güclü leysan nəticəsində Şirvan-Hacıqabul dəmir yolu sel sularına məruz qalıb.

**31 dekabr 2023-cü il tarixinə iqlim səbəbli köçkünlüyün ən yüksək olduğu ölkələr /75.9 milyon qaçqının 7.7. milyonu iqlim dəyişikliyi səsəbindən qaçqın düşüb/**




**Mənbə: [14]**

## NƏTİCƏ:
## Qlobal miqyaslı qərar qəbulunda ləngimələr fonunda perspektivlərə nəzər

Məqalədə COP29 tədbirinə ev sahibliyi edən Azərbaycanda ilk dəfə "iqlim dəyişikliyi və iqlim miqrasiyası, iqlim köçkünləri, insan hüquqları" əsaslı iqlim dəyişikliyi məsələləri tədqiq edilib. Qeyd edilir ki, son dövrdə alimlər iqlim dəyişikliyinin ciddi təsirlərini, milyonlarla insanı yaxın onilliklərdə evlərini tərk etməyə məcbur edə biləcək təhdidləri proqnozlaşdırır. Lakin aidiyyəti beynəlxalq qurumlar və təşkilatlar, bir sıra dövlətlər yaxınlaşan böhranla mübarizə aparmaq üçün kifayət qədər siyasi iradəyə və hüquqi əsaslara malik deyil.

Yer kürəsinin hərtərəfli idarəçiliyinə yönəlmiş daha geniş proqramın bir hissəsi kimi iqlim dəyişikliyinə qlobal uyğunlaşma yönündə idarəçilik və tənzimləmə siyasətində sistemli islahatlara ehtiyac var. Yuxarıda qeyd edildiyi kimi, mümkün islahat variantlarından bəziləri – qaçqınların statusu ilə bağlı 1951-ci il Cenevrə Konvensiyasına əsasən qaçqınların tərifinin genişləndirilməsi və ya BMT Təhlükəsizlik Şurasına öhdəliklərin verilməsi – daha az perspektivlidir və hətta əks-məhsuldar ola bilər. Daha yaxşı həll yolu iqlim qaçqınlarının ehtiyacları üçün xüsusi olaraq hazırlanmış yeni hüquqi alətin – İqlim Qaçqınlarının BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasında tanınması, mühafizəsi və köçürülməsinə dair Protokolun, ayrıca maliyyələşdirmə mexanizmi ilə dəstəklənməsi məqsədəuyğundur. İqlim dəyişikliyinin təsirlərinin geniş proqnozlaşdırılması hazırlıq və planlaşdırma tələb edir və buna imkan verir. Ona görə də bu protokolun fövqəladə hallara cavab tədbirləri və fəlakətlərə yardım baxımından deyil, planlaşdırılmış və təşkil edilmiş könüllü köçürmə proqramlarında tərtib edilməsi çox vacibdir. Ekstremal hava hadisələrinin baş verməsini, adaların və sahilyanı bölgələrin su altında qalmasını gözləməyə ehtiyac yoxdur. Təsirə məruz qalan insanlar üçün prosesi məqbul və dözümlü etmək üçün praktiki və ya iqtisadi səbəblərə görə artan sahil

müdafiəsi vasitəsilə uzun müddət ərzində qoruya bilməyəcəyimiz bütün ərazilər uzunmüddətli köçürmə və reinteqrasiya proqramlarına erkən daxil edilməlidir. Bununla belə, bu, effektiv və müvafiq idarəetmə mexanizmlərinin yaradılması baxımından erkən hərəkətə keçməyi tələb edir. İqlim qaçqınları protokolunun planlaşdırılması və müvafiq institusional parametrlər nizamlı və mütəşəkkil cavablar üçün çox gec ola biləcək tarixə - 2050-ci ilə qədər gözləyə bilməz. Prosesə indi başlanılmalıdır.

Mütəxəssislər xüsusilə ətraf mühitə təsirlərin insan hüquqları pozuntusunu təşkil etməsinin artan etirafını nəzərə alaraq, insan hüquqları üzrə mövcud vəzifələrin iqlim dəyişikliyinə də şamil edilməli olduğunu iddia edirlər. BMT-nin insan hüquqları və ətraf mühit üzrə qurumunun yanaşmasına görə, insan hüquqları və iqlim dəyişikliyinə əlaqəli yanaşılması bir-birini tamamlayır. Bu baxımdan, BMT-nin Tərəflər Konfransı - COP formatı qlobal iqlim platforması kimi olduqca tarixi irəliləyişlərə nail ola bilər. Bəzi nəticələrə nəzər salaq:

**2015 – COP21:** Paris Sazişinin preambulasında iqlim dəyişikliyinin bəşəriyyətin ümumi narahatlığı olduğu qəbul edilib. Buraya miqrantlara istinad da daxildir. Tərəflərdən iqlim dəyişikliyi ilə bağlı tədbirlər görərkən digərləri ilə yanaşı, miqrantlara qarşı öz öhdəliklərinə hörmət etmək, təşviq etmək və nəzərə almaq xahiş edilir. Saziş, həmçinin Varşava Beynəlxalq Mexanizminin (WIM) İcraiyyə Komitəsini yerdəyişmə ilə bağlı işçi qrupu hazırlamağa çağırıb. Tərəflərin Konfransı öz qərarlarında iqlim dəyişikliyinin yerdəyişmənin hərəkətverici qüvvəsi olduğunu qəbul edib (50-ci bənd).

**2017 – COP23:** Almaniyanın Bonn şəhərində keçirilən COP23 platformasını – İqlim və Fəlakət Riskinin Maliyyələşdirilməsi və Sığorta Həlləri üçün Sığorta Qlobal Tərəfdaşlığı – həssas əhaliyə onların bərpasına kömək etməklə iqlim fəlakətlərinin humanitar təsirini azaltmağa çalışıb.

**2018 – COP24:** Polşada (Katovitse) keçirilən COP24 öz qərarında tərəfləri "miqrasiya, yerdəyişmə də daxil olmaqla, insan hərəkətliliyi ilə bağlı genişləndirilmiş əməkdaşlıq və asanlaşdırma yolu ilə strateji iş insan mobilliyi üzərində işi davam etdirməyə" təşviq edib. Həmçinin, insan hərəkətliliyinin (miqrasiya, yerdəyişmə və planlaşdırılanlar daxil olmaqla) anlaşılmasını artırmaq məqsədilə Konvensiya və Paris Sazişinə əsasən müvafiq orqanlar və institusional tədbirlər, proqramlar və platformalar üzrə koordinasiya, ardıcıllıq və əməkdaşlığı gücləndirməyi tövsiyə edib.

**2021 – COP26:** Şotlandiyada (Qlazqo) keçirilən COP müdafiə, xəbərdarlıq sistemləri və davamlı infrastruktur, kənd təsərrüfatı ilə profilaktik çərçivə yaratmağa, iqlim fəlakətləri nəticəsində evlərin, dolanışıq vasitələrinin və insanların itkisinə cavab vermək və bu yolla qarşısının alınmasına çalışılıb.

**2022 – COP27:** Misirin Şarm əl-Şeyx şəhərində keçirilən COP iqlim dəyişikliyi ilə əlaqəli fəlakətlərə ən həssas olan və məcburi köçkünlüyün "itki" forması kimi uğurla tanındığı ölkələr üçün yeni "İtki və Zərər Fondu"nun yaradılması ilə bağlı tarixi razılaşma əldə edib. Tədbirdə həmçinin İqlim Mobilliyi Pavilyonunun – İqlim Mobilliyi üzrə Qlobal Mərkəzin siyasət həlləri ilə bağlı müzakirələrə həsr olunmuş forumun açılışı olub.

**2024 – COP29 Azərbaycan.** "COP29-da İqlim Miqrasiyası": İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Panelin (Intergovernmental Panel on Climate Change (IPCC) 2023-cü il üçün Altıncı Qiymətləndirmə Hesabatına uyğun olaraq, "adaptivlik qabiliyyətinin artırılması məcburi miqrasiya və hərəkətsizliklə bağlı risklərin minimuma endirilməsi,

beynəlxalq, regional, milli və yerli səviyyələrdə siyasət və proqram xarakterli fəaliyyət vasitəsilə iqlim dəyişikliyi kontekstində insan hərəkətliliyinə dair Paris Sazişinin, Təhlükəsiz, Nizamlı və Daimi Miqrasiya üzrə Qlobal Sazişin, Fəlakət Riskinin Azaldılması üzrə Sendai Çərçivəsinin və Davamlı İnkişaf üçün 2030 Gündəliyinin həyata keçirilməsinə uyğun olaraq:

COP29-Azərbaycan ərəfəsində BMqT UNFCCC Tərəflərini aşağıdakıları həyata keçirməyə çağırır:

- Uyğunlaşma üzrə Qlobal Məqsəd və Milli Uyğunlaşma Planları”(NAP) vasitəsilə fərdlər, icmalar və hökumətlər tərəfindən insanların mobilliyi ilə bağlı təhlükəsiz, səlahiyyətli və məlumatlı qərarlar qəbul etmək üçün planlaşdırılma və maliyyələşdirilməsini sürətləndirmək;
- İqlimə davamlı inkişafı gücləndirən və insanlara öz mənşə ərazilərində ləyaqət və təhlükəsizlik şəraitində qalmaq seçimini təklif edən risklərin azaldılması, erkən xəbərdarlıq və erkən fəaliyyət tədbirlərinə üstünlük vermək;
- İnsanların davamlılığını gücləndirmək və hökumətlərin miqrasiya vasitəsilə öz inkişaf və iqlim prioritetlərini həyata keçirmələri üçün müntəzəm miqrasiya yollarını asanlaşdırmaq;
- İnnovativ və miqyaslana bilən iqlim fəaliyyət həllərini sürətləndirmək və ən həssas icmalara iqlim maliyyəsinin çıxışını təmin etmək.
- İtki və zərər landşaftında insan hərəkətliliyinə dair öhdəlikləri yerinə yetirmək.
- İqlim dəyişikliyinin təsirlərinə ən həssas olan ölkələr və insanlarla həmrəyliyi gücləndirin. Bütün cəmiyyətin inklüziv səfərbərliyini gücləndirmək.
- İqlim dəyişikliyi və insan hərəkətliliyi ilə bağlı qərar qəbuletmə proseslərinin bir hissəsi kimi ictimai aktorları və özəl tərəfdaşları, akademik dairələri, vətəndaş cəmiyyətlərini, qadınları, gəncləri, yerli xalqları, miqrantları, diasporları, köçkünləri və təsirə məruz qalmış icmaları bir araya gətirin. Miqrasiya idarəçiliyinə və iqlim fəaliyyətinə insan hüquqlarının, uşağa həssas və genderə cavab verən yanaşmaların mərkəziliyini təşviq etmək.

Beləliklə, dövlətlər təkcə iqlim təsirlərindən deyil, emissiyaları azaltmaq və ya iqlim dəyişikliyinə uyğunlaşmaq üçün görülən tədbirlərdən də yaranan insan hüquqları pozuntularını qorumaq məsuliyyətinə malikdir. Bu o deməkdir ki, emissiyaları azaltmaq üçün görüləcək hər hansı tədbir (məsələn, kömür hasilatının dayandırılması və ya su elektrik stansiyalarının tikintisi) insan hüquqlarını pozmamalı və müxtəlif beynəlxalq rejimlər arasında uyğunluq olmalıdır.

Status-kvo davam etsə də, kömür hasilatı, nəqli, ixracı, yandırılması və s. hallar insan hüquqlarının kobud şəkildə pozulmasını artırmaqda davam edəcək. Bu, təkcə hasilatı və ya nəqliyyat sahələrinin yaxınlığında yaşayan insanların həyatında deyil, qalıq yanacağın dağıdıcı təsirlərinə həssas olanlar tərəfindən də hiss olunacaq.

Dünya liderlərinin orta qlobal temperaturu 2˚C-dən aşağı saxlamağa dair iqlim sazişini imzalaması nikbinliyə əsaslar versə də, görülməli olduqca çoxlu işlər var. İnsan hüquqları və iqlim dəyişikliyi üzrə beynəlxalq təşkilatlar BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasına üzv olan dövlətlərə yeni sazişlərə insan hüquqları üzrə öhdəlikləri daxil etməyə çağırışlar edib. Bu reallaşarsa, iqlim dəyişikliyinə ictimai həssaslıq güclənə, müxtəlif beynəlxalq rejimlər arasında uyğunluq yarana, hasilat sənayesinin hələlik davam etdiyi şəraitdə insan hüquqlarının qorunması təmin edilə bilər.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

**Azərbaycan dilində:**

1. COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin Sammiti keçirilib. /13 noyabr 2024/ - https://president.az/az/articles/view/67299

2. "İqlim dəyişikliyi və insan hüquqları: ombudsmanların və milli insan hüquqları təsisatlarının rolu" mövzusunda təşkil olunan Beynəlxalq Bakı Forumunun iştirakçılarına. /02 oktyabr 2024/ - https://president.az/az/articles/view/66978

**İngilis dilində:**

3. Azerbaijan. Displacement Data. - https://www.internal-displacement.org/countries/azerbaijan/

4. Bonnie Docherty & Tyler Giannini, Symposium: Confronting a Rising Tide: A Proposal for a Climate Refugee Treaty, 33 Harvard EVITL L. Rev. 349, 372, 385 (2009).

5. Climate change and displacement: the myths and the facts. - https://www.unhcr.org/news/stories/climate-change-and-displacement-myths-and-facts

6. Climate Change and Human Mobility. - https://www.migrationdataportal.org/climate-mobility-spotlight

7. Climate change fuels clashes in Cameroon that force thousands to flee. - https://www.unhcr.org/news/stories/climate-change-fuels-clashes-cameroon-force-thousands-flee

8. Climate crisis. - https://www.ifrc.org/happening-now/advocacy-hub/climate-crisis

9. Climate refugees account for more than a half of all migrants but enjoy little protection. - https://www.eesc.europa.eu/en/news-media/news/climate-refugees-account-more-half-all-migrants-enjoy-little-protection

10. Coming soon: Climate lockdowns? /02.02.22/ - https://thehill.com/opinion/finance/592011-coming-soon-climate-lockdowns/

11. COP24 Addresses Climate Change Migration Ahead Of UN Migration Pact Meeting In Marrakech. - https://unfccc.int/news/cop24-addresses-climate-change-migration-ahead-of-un-migration-pact-meeting-in-marrakech

12. Derrière les températures extrêmes, le spectre du "confinement climatique" /Publié le 27 mai 2024/ - https://www.novethic.fr/environnement/climat/temperatures-extremes-le-confinement-climatique-est-une-solution-durgence

13. Dina Ionesco. Let's Talk About Climate Migrants, Not Climate Refugees. - https://www.un.org/sustainabledevelopment/blog/2019/06/lets-talk-about-climate-migrants-not-climate-refugees/

14. Displacement, disasters and climate change. - https://www.internal-displacement.org/focus-areas/Displacement-disasters-and-climate-change/

15. Environment and the European Convention on Human Rights /April 2024/. Right to life (Article 2 of the Convention). Dangerous industrial activities: Öneryıldız v. Turkey. /30 November 2004 (Grand Chamber). - https://www.echr.coe.int/documents/d/echr/FSEnvironmentENG

16. Framing Climat -Change as a Human Rights İssue. - https://www.dejusticia.org/en/column/framing-climate-change-as-a-human-rights-issue/

17. Global Compact for Migration (GCM). - https://www.iom.int/global-compact-migration

18. Global Report on Internal Displacement. - https://www.internal-displacement.org/global-report/grid2021/

19. How "Climate lockdowns" conspiracy theories target authorities undertaking climate action. /July 19, 2023/ - https://edmo.eu/publications/how-climate-lockdowns-conspiracy-theories-target-authorities-undertaking-climate-action/

20. Human Rights and Climate Change: What Role for the European Convention on Human Rights? - https://www.coe.int/en/web/portal/-/human-rights-and-climate-change-what-role-for-the-european-convention-on-human-rights-

21. Keane D. The Environmental Causes and Consequences of Migration: A Search for the Meaning of 'Environmental Refugees. // Georgetown International Environmental Law Review 16, no. 2 .2004 p.214–15

22. Myers N. "Environmental Refugees: A Growing Phenomenon of the 21st Century" // Philosophical Transactions: Biological Sciences 357, no. 1420 (2002): 609 and 611

23. Myers N. and Kent J. Environmental Exodus: An Emergent Crisis in the Global Arena. Washington, DC: Climate Institute, 1995.

24. New York Declaration for Refugees and Migrants. - https://www.unhcr.org/what-we-do/protect-human-rights/asylum-and-migration/new-york-declaration-refugees-and-migrants

25. Over one billion people at threat of being displaced by 2050 due to environmental change, conflict and civil unrest. - https://www.economicsandpeace.org/wp-content/uploads/2020/09/Ecological-Threat-Register-Press-Release-27.08-FINAL.pdf

26. Report on the First Meeting on Protocol on Environmental Refugees: Recognition of Environmental Refugees in the 1951 Convention and 1967 Protocol Relating to the Status of Refugees (Male, Maldives, 14–15 August 2006. Republic of the Maldives Ministry of Environment, Energy and Water.

27. Suhrke A. (1994). Environmental Degradation and Population Flows. // Journal of International Affairs 47, no. 2, pp.473-496

28. Summary report on the SBSTA–IPCC special event: Unpacking the new scientific knowledge and key findings in the IPCC Special Report on Climate Change and Land. - https://unfccc.int/sites/default/files/resource/SRCCL%20Summary%20Report_Apr2020.pdf

29. The concept of 'climate refugee' Towards a possible definition. - https://www.europarl.europa.eu/RegData/etudes/BRIE/2021/698753/EPRS_BRI(2021)698753_EN.pdf

30. There could be 1.2 billion climate refugees by 2050. Here's what you need to know. /October 23, 2024/ - https://www.zurich.com/media/magazine/2022/there-could-be-1-2-billion-climate-refugees-by-2050-here-s-what-you-need-to-know

31. Understanding Human Rights and Climate Change. - https://www.ohchr.org/sites/default/files/Documents/Issues/ClimateChange/COP21.pdf

**Tahira Allahyarova**

# COP29 AZERBAIJAN: CLIMATE CHANGE, CLIMATE MIGRATION AND HUMAN RIGHTS - GLOBAL TRENDS, REALITY AND PROSPECTS

## Abstract

This article, set against the backdrop of the global COP29 event in Azerbaijan, explores, for the first time, the interconnected issues of climate change, climate migration, climate refugees, and the human rights challenges these phenomena present.

The article discusses the state of terminological debates and the latest scientific and legal definitions concerning human flows caused by the impacts of climate change, such as environmental refugees, climate refugees, or climate migrants.

It is argued states that global warming and the climate crisis are exacerbating existing inequalities and threatening fundamental human rights, including the right to life, housing, water and sanitation, food, health, development, personal security, and an adequate standard of living. The article also highlights that climate-induced migration poses a significant threat to small island states, with Azerbaijan bringing the issue of small island states to the forefront of attention at COP29.

The author discusses upon the emergence of a judicial precedent in the European Court of Human Rights (ECHR) in 2024 concerning climate change, marking its transition into the realm of human rights and providing momentum for the development of a new generation of human rights. It is noted that scientists have recently predicted severe consequences from climate change, with threats that could force millions of people to leave their homes in the coming decades. However, many international institutions and organizations, as well as some states lack the political will and legal framework to address the approaching crisis.

As part of a broader program aimed at integrated Earth governance, the article calls for systemic reforms in governance and regulatory policy to support global adaptation to climate change.

**Key words:** COP29, Azerbaijan, climate change, climate refugees, climate migrants, human rights, terminological debates, legal precedents, global trends, prospects, ECHR

**Тахира Аллахярова**

# COP29 В АЗЕРБАЙДЖАНЕ: ИЗМЕНЕНИЕ КЛИМАТА, КЛИМАТИЧЕСКАЯ МИГРАЦИЯ И ПРАВА ЧЕЛОВЕКА — МИРОВЫЕ ТЕНДЕНЦИИ, РЕАЛЬНОСТЬ И ПЕРСПЕКТИВЫ

**Резюме**

В статье, на фоне глобального события COP29 в Азербайджане, впервые рассматриваются вопросы изменения климата и климатической миграции, климатических беженцев и правозащитных аспектов изменения климата.

Статья анализирует текущие терминологические дискуссии и новейшие научно-правовые подходы к определению вынужденных климатических переселенцев: «экологические беженцы», «климатические беженцы» или «климатические мигранты».

Кроме того, подчеркивается разрушительное влияние глобального потепления и климатического кризиса на существующее неравенство — угроза фундаментальным правам человека, включая право на развитие. Эти процессы оказывают прямое или косвенное негативное воздействие на реализацию других прав, таких как право на жизнь, жилье, воду и санитарное благополучие, питание, здоровье, личную безопасность и достойный уровень жизни. Особое внимание уделяется угрозе, которую миграция, обусловленная климатом, представляет для малых островных государств. Азербайджан выдвинул проблему этих государств в центр внимания на COP29.

Автор также затрагивает вопрос судебного прецедента, который может быть создан в Европейском суде по правам человека (ЕСПЧ) по вопросу изменения климата в 2024 году, перенеся этот вопрос в правозащитную сферу и давая начало созданию нового поколения прав человека.

Отмечается, что в последнее время ученые прогнозируют серьезные последствия изменения климата, которые могут вынудить миллионы людей покинуть свои дома в ближайшие десятилетия. Однако профильным международным организациям и ряду государств не хватает политической воли и правовой базы для эффективной борьбы с приближающимся кризисом.

В рамках более широкой программы комплексного управления земными системами необходимы реформы в сфере управления и нормативной политики, направленные на глобальную адаптацию к изменению климата.

**Ключевые слова:** COP29, Азербайджан, изменение климата, климатические беженцы, климатические мигранты, права человека, терминологические дискуссии, правовые прецеденты, глобальные тенденции, перспективы, ЕСПЧ

# SU GEOSİYASƏTİ, QLOBAL SU BÖHRANI VƏ HİDRODİPLOMATİYA YENİ ELMİ, SİYASİ-HÜQUQİ PARADİQMA KİMİ

**Rəna MİRZƏZADƏ**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu Siyasətin fəlsəfəsi və sosiologiyası şöbəsinin müdiri, professor (Bakı, Azərbaycan)*

*E-mail: mirrena54@yahoo.com*
*ORCID: 0000-0002-6250-1826*

**Xülasə.** Məqalədə qlobal dünyada su diplomatiyası, bu kontekstdə "su müharibəsi" və "su münaqişəsi"nin tipləri, növləri, ictimai-elmi fikir tarixində problemə münasibət, su çatışmazlığı, su ilə bağlı qanunlar təhlil edilmişdir. Araşdırmada müasir Azərbaycanda su ilə əlaqədar qanunvericilik respublikada problemə münasibət və bu aspektdən irəli gələn məsələlərə geosiyasi hüquqi-nəzər yetirilmişdir. Məqalədə müvafiq elmi ədəbiyyatdan, eləcə də rəsmi sənədlərdən istifadə olunmuşdur. Yekunda məsələyə dair tövsiyə də verilmişdir.

**Açar sözlər:** su diplomatiyası, su müharibəsi, akvabiotəhlükəsizlik, biomüxtəliflik

## Giriş

XXI əsr - IV sənaye inqilabı dövründə innovativ inkişafla yanaşı, yeniliklərə qarşı gərginliklərin də çoxalması, biotexnologiyalar, süni intellekt, hətta bütün canlı genefondun dəyişilməsi, biomüxtəliflik, xüsusilə də insan dəyərinin dəyişikliyi Yer üzndə canlı həyatın bütün parametrlərinin - suyun, torpağın, hətta havanın da qorunması problemlərini diplomatiyada müzakirə predmeti etmişdir. XXI əsrdə yeni biotəhlükəsizlik diplomatik münasibətlərdə – bioakvageosiyasi və biososioiqtisadi zəmində yeni eranın yeni mənzərəsidir.

Diplomatiyanın əsas vəzifəsi və məzmunu dövlətlərin öz xarici siyasətinin məqsədlərinə diplomatik metod və vasitələrlə nail olunmasıdır. “Diplomatiy” termini “xarici siyasət” anlayışının sinonimi kimi də işlənə bilər.

XXI əsr süni intellekt dövrü, canlı və qeyri-canlı həyatın “ağıllı” modifikasiyası, eyni zamanda su diplomatiyası və hidrologiya, həm də siyasi-hüquqi zəmində beynəlxalq akvabiotəhlükəsizlik əlaqələrində də aktualdır. Müxtəlif elmlərin qovşağı istiqamətində, akvatəhlükəsizlik və biomüxtəliflik dəyərləri insanla bahəm flora və faunanın - canlı həyatın da geosiyasi-hüquqi tədqiqi, bu sahələrin elmi-nəzəri öyrənilməsini zəruriləşdirir. Dünyanın yeni düzənində istər silahlı, istər “soyuq” yeni müharibələr bəşəriyyətin maddi və mənəvi nailiyyətlərinin əksər strukturunu dağıdaraq suyun, torpağın, havanın da biotəhlükəsizliyini meydana çıxarmışdır.

## 1. Su diplomatiyası və biomüxtəliflik

Diplomatiyanın tərkib hissəsi kimi "su diplomatiyası" məzmununun konseptual aparatı və onun su sektoruna aid olmasının aydınlaşdırılması ilə aşkar edilə bilər. Əgər “diplomatiyaya dövlətin xarici siyasətinin formalaşması vasitəsidir” tərifi verilirsə, müasir “su diplomatiyası” anlayışı da dövlətin xarici siyasətinin həyata keçirilməsi kimi müəyyən edilir.

Su təsərrüfatı fəaliyyətinin spesifikliyi də dövlət qurumlarına kömək edən su diplomatiyası institutunun yaranmasına səbəb olmuşdur. “Su diplomatiyası” dövlət orqanlarının və müvafiq səlahiyyətli şəxslərin digər dövlətlərlə münasibətlərdə su məsələsi üzrə dövlət və onun vətəndaşlarının maraqlarını təmsil etmək, qorumaq üzrə peşəkar fəaliyyətidir [19].

Biomüxtəliflik termini “bioloji” və “müxtəliflik” anlayışlarının qısa formasıdır. Biomüxtəliflik Yer planetindəki həyatın növ çoxçeşidliliyinin hamısı (bitki, heyvan və s.) onların mühitinə aiddir. Bioloji resurslar üzrə ən vacib element sudur. Bioloji müxtəliflik daha çox həyat atributudur (su aləminin, quş növlərinin, dənli bitkilərin genetik dəyişkənliyi, meşə növləri və s.). Biomüxtəlifliyin siyasi-hüquqi tənzimlənməsi 1992-ci il Beynəlxalq Konvensiyası ilə həyata keçirilir. Burada əsas prinsiplər: 1) bioloji müxtəlifliyin qorunması; 2) bütün bəşəriyyətin ümumi vəzifəsi; 3) davamlı inkişafın tərkib hissəsi olan müvafiq konvensiyadır. Konvensiyanın əsas vəzifəsi bioloji müxtəlifliyin yalnız beynəlxalq əməkdaşlıq yolu ilə xilasının mümkünlüyüdür. Konvensiyada əsas məqsəd: 1) bioloji müxtəlifliyin qorunması; 2) ondan sabit istifadə olunması; 3) əldə olunmuş gəlirdən birlikdə faydalanmaqdır [8].

## 2. Su və mənəviyyat

Bəşər mədəniyyəti və sivilizasiyalarında ölkələrin sanki “sözeşitməz təbiətin” qorunmasını təsbit edən çoxsaylı hüquqi və siyasi-mədəni qanunları mövcuddur. Bütün dinlərdə (islam, xristianlıq, iudaizm, buddizm və s.) Allahın yaratdığı canlı flora və fauna dünyasını qorumaq, təbiət və heyvanlarla birgə həyat tərzi sürmək insanlara təlqin olunur. Dini kitablarda - "Quran"da, “İncil”də, “Tövrat”da, eləcə də peyğəmbərlərin hədis və rəvayətlərində

canlı həyatın biomüxtyəlifliyi, biotəhlükəsizliyi, eləcə də akvatəhlükəsizliyi ilə bağlı çoxlu kəlam və deyimlər var. Səmavi dinlərdə bəzən biomüxtəlifliyin ayrı-ayrı komponentlərinə sitayiş də vardır. Məsələn, hinduizm dinində inək müqəddəsdir, onun qida məhsulu kimi istifadəsi haram sayılırsa, atəşpərəstlərdə akvakultural, yəni bitkidən alınan çörək, su və oda sitayiş var və bütün bunlar müqəddəs hesab olunur, hətta bəzən and yeri də olur (su haqqı, od haqqı, çörək haqqı və s.). Su nəinki dövlətlərin, hətta canlı fauna və flora, eləcə də əsas insanlığın ən ümdə tələbatıdır. Su birləşdirən bir faktordur. Su saflıq rəmzi olduğu kimi, haradasa inam, iman, müqəddəslik daşıyıcısıdır. Adətdir, evdən çıxan, döyüşə yollanan, ağır iş üçün gedənin arxası ilə "Yoluna su səpilsin" deyə su atırlar. Bu inanc da olsa, suyun gərəkliliyinin və sanki hər hansı çətinliyin həllinə kömək edə biləcəyinə inamın rəmzidir. Novruz bayramının dörd çərşənbəsindən biri su çərşənbəsidir.

## 3. Su geosiyasi diplomatiyası

Elmdə yeni istiqamət kimi su geosiyasi diplomatiyasının, biotəhlükəsizliyin, akvamüxtəlifliyin hüquqi akt və qanunlarla tənzimlənməsi də qanuniləşdirilir. Müasir hüquqi-siyasi və ictimai-akvabiotəhlükəsizlik diplomatiyalarının paradiqmaları, o cümlədən su məsələsi də yeni tədqiqat obyekti kimi öyrənilir. Biotəhlükəsizlik torpaq, su, fauna və floraya ziyan vurmadan və vurula biləcək ziyanı aradan qaldırmaqla bağlı olan vəzifələri ehtiva edən prosesdir. Biotəhlükəsizlik məsələlərindən biri də transsərhəd suların akvatəhlükəsizliyi, hidrodiplomatik problemləridir. XXI əsr "Ağıllı su" terminini də meydana çıxarıb. Hətta "intellektual su" anlayışı da yaranmışdır. Biomüxtəliflik, biotəhlükəsizlik müstəvisində insan üçün həyat (su, torpaq, heyvan və bitki həyatı) ilə əlaqəli ən uyğun təhlükəsizlik prinsiplərini təyin edən və araşdıran elmi təhlillərdir.

Biotəhlükəsizlikdə canlı aləmə kultural münasibət, su çatışmazlığı, gen mühəndisliyi, biomüxtəliflik, orqanların transplantasiyası, klonlaşdırma, heyvanların riskli və qeyri-etik eksperimentlərə cəlb edilməsi və s. problemlər hüquqi, siyasi, hətta dini prizmadan yanaşılaraq öyrənilir.

## 4. Problemə ictimai-mədəni və nəzəri fikir kontekstində tarixi ekskurs

Yunan filosofu Aristotelin fəlsəfəsində materiyanı təbiətdə dörd ünsür (od, hava, su və torpaq) təşkil edir. "Həyat hərəkət deməkdir, su da axmayanda iylənər" [10] yazaraq insanlığa qarşı bərabərsizliyi, canlılara olan insan hərəkətini təbii bilir [10], hətta Platon da belə düşünürdü. Azərbaycan klassiklərindən Nizaminin şeirləri, Füzulinin "Meyvələrin söhbəti" əsəri bir növ canlı aləmə münasibətdir. Böyük Nizami demişkən: "Sözün də su kimi lətafəti var; Hər sözü az demək daha xoş olar". Yaxud: "Bir inci saflığı varsa da suda; Artıq içiləndə dərd verir o da" [16, s.49]. Filosof və aqronom Foma Akvinski də təbiətə vəhşi münasibətə və insan-təbiət bağlılığında insanın istismarçı hakimliyinə yönəlik doktrina hazırlamışdı. Bu doktrina isə sonradan Avropada dominant nəzəriyyəyə çevrildi. Sonrakı dövrlərdə də canlıların yaşam məsələsində sudan istifadəyə laqeyd münasibət müşahidə edilirdi. Müəyyən mənada bitki və heyvanların həyatı üçün suyu gərəkli bilsələr də, vacib tələbat kimi hətta içməli suyun istifadəsinə qarşı deyildilər.

Belə bir sual yaranır: Təbiətdə suyun qorunması, mühafizəsi hansı hüquqla, qanunla qorunur? Bəs təbiətin öz hüquqları necə rəsmiləşdirilməlidir? Amerikalı filosoflar - R.Emerson və H.Torro təbiəti insan etikasının və mənəvi inkişafının əsas tərkib hissəsi kimi göstərirlər [7]. Meşə ehtiyatları üzrə alim Gifford Pinçot yazır: "Bütün təbii obyektlər və hadisələrə,

o cümlədən təmiz suya, oduncağa, yemlərə, canlı təbiətə, növlərin müxtəlifliyinə və hətta gözəl landşafta təbii ehtiyatlar kimi baxmaq olar və təbiətin düzgün idarə olunması dedikdə, bu ehtiyatların insanın rifahı naminə səmərəli, uzunmüddətli istifadəsi nəzərdə tutulmalıdır" [20].

H.Torronun "Valden və ya meşədəki həyat" əsəri su sahilində öz əlləri ilə tikdiyi daxmada iki illik tənha yaşamağın real təcrübəsi, su ilə qidalanmaqla təbiət, cəmiyyət və şəhərin səs-küyündən uzaq sadə həyat haqqındadır.

H.Torroya görə: "Göl yerin gözüdür, insan öz təbiətinin dərinliyinin ölçüsünə baxır. Sahildəki ağaclar onun kiprikləri, ətrafdakı meşəlik, təpələr və qayalıqlar onun yuxarı qalxan qaşlarıdır" [21].

R.Emerson hər bir fərdi kainat haqqında öz şəxsi anlayışını inkişaf etdirməyə təşviq etmək istəyirdi. Yəni insanlar Tanrını dərk etməli və təbiətlə birləşməlidirlər. O, təbiətlə insanlar arasında əlaqə tapan daha yaxşı bir həyat tərzi olan suyu əsas götürərək, təsvir etmək istəyir və ümumbəşəri birlik konsepsiyasını irəli sürməyə çalışırdı. R.Emerson su - insan, su - təbiət və Tanrı arasında birbaşa əlaqə görürdü. Emerson üçün təbiət Tanrı deyil, Tanrının ruhunun bədənidir [9].

Amerikan filosof R.Emersonun "Təbiət" essesində təbiətə qeyri-ənənəvi qiymət verən bir ideya olan transsendentalizmin əsası qoyulub. İqlim dəyişiklikləri və qeyri-müəyyənliklə üzləşən dünyada R.Emersonun yazıları sakitləşdirici ola bilər. Belə ki, R.Emerson yazırdı: "Təbiətin hüzurunda insan əsl kədərinə baxmayaraq vəhşi bir həzz alır. Təbiət deyir ki, o, mənim məxluqumdur və bütün kədərlərini aradan qaldırsa, mənimlə sevinəcək" [9].

R.Emerson transsendentalizm fəlsəfəsində Tanrının təbiətdə mövcud olduğuna və təbiəti təhlil etməklə reallığı dərk edə biləcəyinə inanır.

## 5. "Su diplomatiyası"nı aktuallaşdıran səbəblər

Canlı həyatın yaşadığı Yer planetində su vacib yaşam elementidir. Su sülh, barış quruculuğunda güclü bir vasitədir. Buna görə də hidrodiplomatiya ortaq su ehtiyatlarının effektiv, davamlı və ədalətli idarə olunmasını təmin etmək, milli suverenliklə bağlı maraqları tarazlaşdırmaq və eyni zamanda ümumi resursları paylaşan ölkələrlə regional əməkdaşlığı gücləndirmək üçün vasitədir. Hidrodiplomatiya vasitələrinin geniş spektri belədir: 1) Su ilə bağlı birgə platformaların yaradılması və ya dialoq; 2) Su haqqında məlumat mübadiləsinə imkan verən; 3) Ortaq suyun birgə idarə edilməsinə dair razılaşmaya gətirib çıxaran birgə işçi qruplarının təşkili; 4) Su resurslarına dair qarşılıqlı əməkdaşlıq [14].

Hidrodiplomatiyada "mavi sülh" nədir: "Suyun potensial münaqişə mənbəyindən əməkdaşlıq və sülh üçün potensial alətə çevrilməsi Mavi SülhTəşəbbüsü mandatının əsasını təşkil edir. Suyun davamlı regional sosio-iqtisadi inkişafın, sabitliyin və sülhün təminatçısı kimi yerləşdirilməsi, cari və gələcək böhranlara qarşı regional dayanıqlılığın təmini, bütün əhalinin yaşayış vasitələrini, insanların rifahını dəstəkləmək üçün məqbul keyfiyyətdə kifayət qədər suya davamlı çıxışı təmin etmək imkanının olduğu Orta Asiyanı su ehtiyatları ilə təmin etməkdir. Həmçinin sosioiqtisadi inkişafda suyun çirklənməsi və su ilə bağlı xəstəliklərdən, su fəlakətlərindən ekosistemləri sülh və sabitlik şəraitində qorumaqdır" [19].

## 6. "Su müharibələri" və "su münaqişələri": tipləri və növləri

"Su diplomatiyası", "su münaqişələri", "su müharibələri" problemindən bəhs edərkən bu anlayışları birləşdirən "fəlakət diplomatiyası" termininə də nəzər salaq.

Belə ki, “fəlakət diplomatiyası” – quraqlıq diplomatiyası və s. mənaları birləşdirir. Bu aspektdən də “quraqlıq diplomatiyası” nədir? Buna misal olaraq qeyd edək: “Dünyanın ən böyük duzsuzlaşdırıcı ölkələrindən olan İsrail və dünyanın ən çox su çatışmazlığı olan İordaniya arasında 2021-ci ildə imzalanan müqaviləyə görə, İordaniya İsraildən su, əvəzində isə İsrail İordaniyadan günəşdən gələn elektrik enerjisini alır. O dövrdə İordaniya öz tarixində ən ağır quraqlıq dövrünü yaşayırdı” [5].

Bu mənada “su çatışmazlığı”, yaxud “quraqlıq” təkcə ayrı-ayrı şəxslər deyil, millətlər və ölkələr tərəfindən də hiss olunur. Azərbaycan da aşağı axın ölkəsi olaraq bu kimi problemlərlə üzləşir. Bu məsələdə önəmli yol: birincisi, ölkələr arasında strateji anlaşmaya, əməkdaşlığa dair plan olmalıdır; ikincisi, su diplomatiyası bu istiqamətdə vacib sahədir; üçüncüsü, burada yerli icmalar və ya hökumətlərarası əlaqələr də yaradılmalıdır; dördüncüsü, ekspert və müvafiq mütəxəssislərin iştirakı ilə problemlə bağlı layihələr hazırlanıb geniş ictimaiyyətə təqdim edilməlidir; beşincisi, qərarlar, hətta müqavilələr qəbul olunmalıdır və s.

Beynəlxalq ictimaiyyət su təhlükəsizliyi və bundan meydana çıxan geosiyasi münaqişə, gərginlik, hətta belə desək, “soyuq müharibə” şəraitində yeni bir əsrə - “hidrodiplomatiya” mühitinə daxil olmuşdur [15]. Dünyada həm təbii fəlakətlər, həm də insan tərəfindən yaranan gərginliklər su təminatı ilə əlaqədar sosio-iqtisadi problemlər həm lokal, həm regional, həm də beynəlxalq müstəvidə ziddiyyətlərə, ixtilaflara zəmin yarada bilər. 2005-206-cı illərdə BMT Baş Məclisinin prezidenti, 2012-2016-cı illərdə BMT Baş katibinin müavini olmuş Yan Eliasson xəbərdarlıq edib ki: “Su çatışmazlığı şəxsi faciələrə səbəb olur, lakin həm də tədricən beynəlxalq sülh və təhlükəsizlik üçün təhdidə çevrilir. Bu gün hidrodiplomatiyaya tələbat yaranıb: su çatışmazlığı münaqişə mənbəyi əvəzinə, əməkdaşlıq üçün stimul olmalıdır”. BMT-nin məlumatına görə, 2030-cu ildə qlobal miqyasda içməli su çatışmazlığı planet əhalisinin üçdə ikisini əhatə edəcək [6].

Bu kontekstdə “hidrologiya” anlayışına da diqqət yetirək. Hidrologiya – təbii suları, onlarda gedən hadisələri və prosesləri öyrənən elmdir. Hidrologiya su obyektlərinin öyrənmə metodlarının spesifik xüsusiyyətləri ilə əlaqədar “okeanologiya” (okean və dəniz hidrologiyası) və qurunun hidrologiyası (qurunun səth suları), “potamologiya” (çayların hidrologiyası), “limnologiya” (gölşünaslıq) və “qlyasiologiya” (bataqlıqşünaslıq) sahələrini tədqiq edən sahəvi elmlərdir [13].

Su diplomatiyasından bəhs edərkən bir məsələyə də diqqət yönəldək: Akvakultura nədir? Akvakultura (latınca - su, kultus - yetişdirmək, becərmək), yəni su mühitində faydalı orqanizmlərin – yosun, xərçəng, molyuska, balıq və s. yetişdirilməsidir [8; 15].

XXI əsrdə qlobal problemlərin geosiyasətə, geoiqtisadiyyata, beynəlxalq münasibətlərə, geomədəniyyətə təsiri daha da güclənməkdədir. Bu mənada dövlətlərarası münasibətlərdə təbiətin, daha çox da suyun ekoloji çirklənməsi, insan təsiri nəticəsində iqlim dəyişiklikləri, kosmik fəzadan istifadə və s. bu kimi faktorları göstərmək olar. Bu amillər dövlətlərin hətta birinin digərinə təzyiq vasitəsi kimi də əsas geosiyasi alətinə çevrilib.

Bu baxımdan içməli su problemi də dünyanın geosiyasi münasibətlərində çox vacib yeri olan məsələdir. Su çox qiymətli sərvətdir. İnsan bədənində su oksigendən sonra ikinci yeri tutur. Qanın 92 faizini su təşkil edir. Beynin 75, sümüklərin 22 faizi sudur [14]. Yeməksiz 2 ayadək, susuz cəmi bir neçə gün yaşamaq mümkündür.

Beynəlxalq müstəvidə su resurslarından geosiyasi vasitə kimi istifadə "su geodiplomatiyası”, “su müharibəsi, “su

münaqişəsi” kimi anlayışları meydana çıxarmışdır. Hətta belə bir aforizm də var: “Dünyadakı ən güclü su qadınların göz yaşlarıdır”. Təbii ki, bu barış, sülhə ünvanlanan “sevinc göz yaşı” mənasında deyilir. Belə ki, 44 günlük Vətən müharibəsində Ermənistan tərəfindən işğal edilmiş Azərbaycanın təbii su ehtiyatının - Suqovuşanın azad edilməsi “su müharibəsi” idi. Xəzər suları uğrunda da Xəzəryanı dövlətlər arasında daima “soyuq münaqişə” gedir.

XXI əsrdə əhali artımı, qlobal istilik və su siyasəti getdikcə aktuallaşır. Artıq dünyada “su miqrasiyası” da başlayıb. Dünyada artıq elə dövlətlər var ki, ərazisi quraqlıqdır, su ehtiyatları tükənib və ya tükənmək üzrədir. Tədqiqatlara görə, 2030-cu ildə artıq dünyada 500 milyon insan “su qaçqını” olacaqdır.

Qlobal dünyada “su hasarı” məsələsi diplomatik mövzularda əsas yer tutur. Suyun bərabər paylanması məsələsi də XXI əsrdə çox aktualdır. Həmçinin, XXI əsrdə virtual su məsələsi də meydana çıxıb. Bu konsepsiya XX əsrin 90-cı illərində Con Entoni Allan tərəfindən yaradılmışdır. Belə ki, suyun əsas hissəsi istehsal resursları tərəfindən sərf edilir. Artıq su da iqtisadi-ticari diplomatiya vasitəsi olub. Virtual su – təmiz su eksportudur.

Su geosiyasi diplomatiyasında bir amil də kvazimüstəmləkəçilikdir Yəni su hətta icarəyə də verilir.

Ölkələr arasında su münaqişələrinin yaranmasında beynəlxalq hüquqda vahid yanaşma və universal normalar yoxdur. Bu da “su müharibəsi”nin yaranmasında müəyyən rol oynayır.

Bir sıra hadisələrin böhrana çevrilməsi ilə bağlı hətta proqnozlar da göstərirlər. ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin yaydığı "2030-cu ilədək qlobal tendensiyalar: alternativ dünyalar” adlı təhlildə göstərilir ki, 2030-cu ilədək su resursları uğrunda dövlətlərarası qarşılıqlı münasibətlərdə toqquşmaların baş verməsi qaçılmazdır [6].

XX əsrin sonunda artıq dünyada çoxsaylı qaynar nöqtələr meydana çıxmışdır. Bəzən su kontekstində baş verən münaqişələr böyük konfliktə səbəb yaradır. Geosiyasi, dini müxtəliflik, etnik fərqliliklərdən yaranan mühitdə su resursları belə proseslərdə toqquşmaların əsas arqumenti ola bilər. XX əsrdə neftin dünyada oynadığı aparıcı rolu XXI əsrdə su resursu daşıyır. BMT-nin keçmiş Baş katibi Butros Qali hələ 1989-cu ildə ABŞ Konqresində məruzəsində Yaxın Şərqdəki bir növbəti “soyuq müharibə”nin neft uğrunda yox, su üçün aparılacağını qeyd etmişdi. XXI əsrdə “informasiya müharibəsi”ndən danışanda unutmayaq ki, “su müharibəsi” ondan daha çox təhlükəli, həyat dağıdıcıdır.

"Su bəlkə də müharibələr üçün səbəb olmaya bilər, ancaq məqsəd müharibə törətmək olduqda "su vuruşması” bəhanə olmaq üçün kifayətdir. Ehtimal etmək olar ki, qlobal güclərin maraqlarının toqquşduğu XXI əsrdə su toqquşmaları nəinki diplomatik vasitə, hətta geodiplomatik yeni silah hesab ediləcəkdir. Buna görə də dünyada münaqişə yaratmaq istəyən bütün güclərin “su müharibələri”, yəni “yeni soyuq müharibə modeli”nin strategiyaları yaranacaqdır. Məhz bu ölçüdən yanaşdıqda XXI əsrin tarixə "su müharibələri əsri” adı altında düşməsi də yaxın gələcəkdə bir reallıqdır.

BMT Baş Assambleyasının 22 dekabr 1992-ci il tarixində qəbul etdiyi 47/193 nömrəli qətnaməyə əsasən 22 mart tarixi "Ümumdünya su resursları günü" elan edilmişdir [14].

## 7. Azərbaycanda su məsələsinə siyasi-hüquqi baxış

Bəs Azərbaycanda bu problem hüquqi-siyasi anlamda necədir? Azərbaycan Respublikası Konstitusiyasının “Ərazi” adlanan 11-ci maddəsinin II bəndində yazılıb: “Azərbaycan Respublikasının daxili suları, Xəzər dənizinin (gölünün)

Azərbaycan Respublikasına mənsub olan bölməsi, Azərbaycan Respublikasının üzərindəki hava məkanı Azərbaycan Respublikası ərazisinin tərkib hissəsidir" [1; 7]. "Sağlam ətraf mühitdə yaşamaq hüququ" adlanan 39-cu maddənin III bəndində isə bu ifadələr əksini tapıb: "Hər kəs ətraf mühitə, təbii ehtiyatlara qanunla müəyyən edilmiş hədlərdən artıq təhlükə törədə və ya zərər vura bilməz" [1; 16]. Eləcə də "Ətraf mühitin qorunması" adlanan 78-ci maddədə qeyd edilir: "Ətraf mühitin qorunması hər bir şəxsin borcudur" [1; 27].

Azərbaycan Respublikasının Su Məcəlləsində deyilir: "Azərbaycan Respublikasının daxili suları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi Azərbaycan xalqının milli sərvətidir, əhalinin həyat və fəaliyyətinin əsası kimi istifadə edilir və qorunur, flora və faunanın mövcudluğunu təmin edir" [2]. Azərbaycanın transsərhəd çayları qonşu təcavüzkar Ermənistan tərəfindən 30 illik işğal dövründə zəhərli maddələrlə daim çirkləndirilirdi. Bu nöqteyi-nəzərdən aidiyyəti üzrə bütün beynəlxalq təşkilatlara müvafiq arayışlar göndərilsə də, Ermənistanın bu hərəkətinə heç bir reaksiya göstərilmir. Ermənistanın Azərbaycana yönəlik hərəkəti "su münaqişəsi"dir.

Azərbaycanda su ehtiyatlarının inteqrasiyalı idarəsi üzrə Milli Siyasət Dialoqları su ehtiyatlarının idarə edilməsində Avropa İttifaqının Su Çərçivə Direktivinin və BMT Avropa İqtisadi Komissiyasının "Sərhəddən keçən su axımlarının", "Beynəlxalq göllərin mühafizəsi və istifadəsi üzrə" Konvensiyanın, "Su və Sağlamlıq" protokolunun, eləcə də BMT və Aİ-nin digər prinsiplərinə əsaslanan dövlət strategiyasının hazırlanmasına yönəlmişdir. Konvensiyanın iştirakçısı kimi Azərbaycan konvensiya tələblərinin icrasına nail olmaq üçün fəal əməkdaşlıq nümayiş etdirir [2].

Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən "Biomüxtəliflik haqqında Konvensiya" 14 mart 2000-ci il tarixində ratifikasiya edilmiş [8], 2000-ci ilin yanvarında isə Monrealda Bioloji Müxtəliflik Haqqında Konvensiyaya əlavə Protokol qəbul edilmişdir [22]. Bu, BMT-nin Biomüxtəlifliyin qorunması üzrə əsas qurumudur. Azərbaycan 1999-cu ildə bu konvensiyaya qoşulmuşdur. Bu, ətraf mühit hüquqları ilə insan hüquqlarını birləşdirən müqavilədir və xüsusilə də maarifləndirici xarakterlidir. Azərbaycan bu konvensiyalara qoşulduqdan sonra 2001-ci ildə Bioloji Müxtəlifliyin Genetik ehtiyatlar üzrə Dövlət Komissiyası yaradıldı və 2002-ci ildə müvafiq Strategiya və Fəaliyyət Planı hazırlandı. 7 dekabr 2009-cu il tarixində BMT Danimarkanın Kopenhagen şəhərində Biomüxtəlifliyin mühafizəsi və qlobal istiləşmə ilə bağlı İqlim Sammiti keçirdi. Sammitdə 2010-cu il "Beynəlxalq biomüxtəliflik ili" elan edildi. Hər il mayın 22-si "Biomüxtəliflik Günü" kimi Azərbaycanda da qeyd olunur [4].

Yuxarıda qeyd edilən konvensiyaların imzalanması Ulu öndər Heydər Əliyev siyasətinin reallıqları, Prezident İlham Əliyevin davamlı inkişaf strategiyasının əsas xəttidir. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da fəaliyyətində bu siyasətdən irəli gələrək 2019-cu ildə "Nəsimi ili" çərçivəsində ölkədə 650 min ağacın əkilməsi bir nümunədir. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərliyi ilə İDEA təşkilatının "Hərəyə bir ağac!" və "Heyvanları qoruyaq!" kampaniyaları da bu sıradandır. Həmçinin, BƏƏ-nin Dubay şəhərində 2023-cü il dekabrın 4-də keçirilən COP-28 tədbirində "Qadınlar tərəqqiyə liderlik edir: Su və Dayanıqlı İnkişaf Məqsədləri" mövzusunda panel iclasda Heydər Əliyev Fondunun Prezidenti Leyla Əliyeva iştirak etmişdir. Tədbirdə davamlı su idarəçiliyi üçün inklüziv və məlumatlı həllərin təşviqi müzakirə edilmişdir" [11].

## Nəticə

Beləliklə, XXI əsrin geosiyasətində “su diplomatiyası” özünəməxsusluğu ilə yeni soyuq “silahdır”. Dünyanın əksər ölkələrində məhəlli xarakterli “su çatışmazlığı” zaman-zaman özünü büruzə verəcəkdir. Azərbaycan da yaxın qonşu dövlətlərlə “su savaşı” ilə üzləşir.

Dövlətlərarası münasibətlərdə olduğu kimi, Azərbaycanda da rayon-kənd-qəsəbələrarası su çatışmazlığı halları müşahidə edilir və hətta “su davası” da yaranır. Yaxşı olardı ki: a) bələdiyyələrdə “Su əlaqələndirici Şurası” yaradılsın; b) TV-lərdə “Su və həyat” adlı mütəmadi verilişlər hazırlansın; c) Küçə və yollarda “Suyu qoruyaq!” şüarları olan banerlər asılsın və s.

Prezident İlham Əliyev 2024-cü il oktyabrın 10-da “Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya”nı təsdiq edib [17].

COP-29 Bakı Sammitində “İqlim fəaliyyəti üçün təqdimat və əməkdaşlığın sürətləndirilməsi” mövzusunda tədbirin əsas xətti “İqlim dəyişikliyinin və paradiqma dəyişikliklərinin transsərhəd su idarəçiliyinə təsiri” olmuşdur [12].

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası, B., 2016, 72 s.
2. Azərbaycan Respublikasının Su Məcəlləsi. - www.e.qanun.az/frameworl/46940
3. “Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiyanın təsdiq edilməsi haqqında “Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. /10 oktyabr 2024-cü il/ - president.az/az/articles/view/67069
4. Bəşəriyyət “hidrodiplomatiyanı” inkişaf etdirməlidir. - azertag.az/xeber/842. /31.03.2015/
5. Müdrik sözlər aləmində. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1984, 132 s.
6. İqlim dəyişikliyinin transsərhəd su idarəçiliyinə təsiri. /AzərTac, 4 oktyabr 2024
7. Mustafayev Q. və Məmmədov A. Ekoloji lüğət. Bakı: MBM nəşriyyatı, 2007, 348 s.
8. Fəlsəfə ensiklopedik lüğəti. Bakı: Elm, 1997, 520 s.
9. Babaxanov N., Paşayeva N. Təbii fəlakətlərin iqtisadi və sosial-coğrafi öyrənilməsi. Bakı 2004.
10. anl.az/down/xalqqazeti/2012/iyun/108/htm/Xalqqezeti/2012.24 iyun
11. Mirzəzadə R. Heydər Əliyevin təbiətin qorunması siyasəti xanım Mehriban Əliyevanın “yaşıl mədəniyyət” çağırışlarında. // “Azərbaycanda ətraf mühitin sağlamlaşdırılmasında Heydər Əliyevin rolu” elmi-praktiki konfransın materialları. Bakı, 2024
12. Суздалева А., Горюнова С. Мировой кризис водопотребления. Монография. М., 2018. 172 с.
13. Джамалов Р. Современная водная дипломатия. М.: Природа. 2011, № 9. с. 44-51
14. BMT-nin “Bioloji müxtəliflik haqqında” Konvensiyasının təsdiqi haqqında Azərbaycan Respublikasının Qanunu. /14.03.2000/ - e-qanun.az/framywork/646.
15. Atakişiyev B. Beynəlxalq münasibətlər lüğəti. B., 2009, 138 s.
16. Ümumdünya Su Günü.- https://az.wikipedia.org/wiki/Ümumdünya_su_günü
17. Biomüxtəliflik nə deməkdir? Avropa İttifaqının dəstəyi ilə Maxofeet cap evi. Bakı, 2019, s. 8. (24)
18. Торо Г. Жизнь в лесу. М., 2023.

19. Məmmədov O., Xəlilov M. Ekoloqların məlumat kitabı. Bakı: Elm, 2003, 516 s.
20. Azərbaycanda bioloji müxtəlifik. /22.05.2021. AzərTac/
21. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Dubayda COP28 çərçivəsində iqlim dəyişiklikləri üzrə müzakirələrdə iştirak edib. /AzərTac. 04 oktyabr 2023/ - https://azertag.az/xeber/heyder_eliyev_fondunun_vitse_prezidenti_leyla_eliyeva_dubayda_cop28_cherchivesinde_iqlim_deyisiklikleri_uzre_muzakirelerde_istirak_edib-2840583
22. Emerson R. Təbiət. M., 1986.

**Rena Mirzezadeh**

## THE GEOPOLITICS OF WATER, GLOBAL WATER CRISIS AND HYDRODIPLOMACY AS A NEW SCIENTIFIC-POLITICAL AND LEGAL PARADIGM

### Abstract

This article explores the issues of water diplomacy in the global context, examining the concepts of water wars and conflicts, historical perspectives on the problem in public and scientific discourse, and the challenges of water scarcity and water-related laws. It analyzes legislation addressing water issues in modern Azerbaijan, highlighting various perspectives within the Republic and examining these issues from geopolitical and legal standpoints. The study incorporates relevant scientific literature, and official documents. Finally, the article provides recommendations on addressing water-related challenges.

**Key words:** water diplomacy, water conflict, biodiversity, aqua-biosecurity

**Рена Мирзезаде**

## ГЕОПОЛИТИКА ВОДЫ, ГЛОБАЛЬНЫЙ ВОДНЫЙ КРИЗИС И ГИДРОДИПЛОМАТИЯ КАК НОВАЯ НАУЧНО-ПОЛИТИЧЕСКАЯ И ПРАВОВАЯ ПАРАДИГМА

### Резюме

В представленной статье рассматриваются вопросы водной дипломатии в глобальном контексте, дефицита водных ресурсов и законодательства, связанного с их использованием. Исследуются различные виды водных конфликтов. Также в статье анализируется общественно-научное отношение к проблеме.

В исследовании рассматриваются законодательные акты, касающиеся водных ресурсов в современном Азербайджане, а также отношение к этой проблеме в республике и связанные с ней вопросы с геополитической и правовой точек зрения. В статье использованы актуальные научные источники, и официальные документы. В заключении предложены рекомендации по решению данной проблемы.

**Ключевые слова:** водная дипломатия, водные конфликты, аква-и биобезопасность, биоразнообразие

# İQLİM DƏYİŞİKLİYİ VƏ ƏTRAF MÜHİT ETİKASI: YENİ ETİKANIN QLOBAL SİYASİ-NƏZƏRİ ASPEKTLƏRİ FONUNDA

**Əziz ƏLİYEV**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun Siyasətin fəlsəfəsi və sosiologiyası şöbəsinin dissertantı, BDU-nun Beynəlxalq jurnalistika fakültəsinin müəllimi (Bakı, Azərbaycan)*

*E-mail azizalibeyli@stm.az*
*ORCID: 0000-0003-4272-6355*

**Xülasə.** İqlim dəyişiklikləri ətraf mühitin və insanlığın qarşılaşdığı ən ciddi təhdidlərdən biridir. Bu, ekoloji, sosial və iqtisadi aspektləri əhatə edən, inteqrasiya olunmuş əməkdaşlıq tələb edən mürəkkəb bir problem olaraq ortaya çıxır. Qlobal istiləşmə dünyanın müxtəlif regionlarına fərqli formalarda təsir edir. İqlim dəyişikliyinə görə əsas məsuliyyət Qərb ölkələrinin üzərinə düşür. Çünki onların sənaye sistemi və iqtisadi fəaliyyəti sayəsində atmosferdə normadan artıq qazların yığılması baş verir. Buna görə də inkişaf etmiş ölkələr emissiyaların azaldılmasında, maliyyələşmə və texnologiyaların ötürülməsi yolu ilə yardım göstərilməsində aparıcı rol oynamalıdırlar. Bu, Paris Sazişi kimi beynəlxalq müqavilələrdə nəzərdə tutulan ədalətli iqlim siyasətinin əsas komponentləridir.

Azərbaycan iqlim dəyişiklikləri ilə bağlı ciddi çağırışlarla qarşılaşır, məsələn, su ehtiyatlarının azalması və kənd təsərrüfatı üçün optimal şəraitin saxlanılması və s. məsələlərdə, bölgədə iqlim dəyişiklikləri ilə mübarizədə aktiv beynəlxalq təşəbbüslər göstərir. Bu iştirakın bir nümunəsi ölkədə keçiriləcək BMT-nin İqlim dəyişikliyi üzrə Çərçivə Konfransıdır (COP29) ki, bu da Azərbaycana beynəlxalq arenada iqlim dəyişiklikləri ilə bağlı tendensiyaları və liderliyini inkişaf etdirmək üçün platforma təmin edir.

İqlim dəyişiklikləri ilə mübarizənin vacib bir aspekti ədalətdir, o, müxtəlif ölkələrin beynəlxalq məsuliyyət və müasir imkanlarının nəzərə alınmasını tələb edir. İnkişaf etmiş ölkələr iqlim dəyişikliklərinə uyğunlaşma və onların təsirlərinin azaldılması üçün inkişaf etməkdə olan ölkələri kifayət qədər maliyyə dəstəyi ilə təmin etməlidirlər. Bu, yenilənən enerji mənbələrinə investisiya qoyulması, texnologiyalarla təchizedilmə və su mənbələrinin qorunması kimi müdafiə tədbirlərini əhatə edir.

Bundan başqa, iqlim dəyişiklikləri problemi dünya və nəsillərarası ədalət məsələləri ilə əlaqədardır. Bu, insan hüquqlarını, o cümlədən həyat, sağlamlıq, qidalanma və su hüquqlarını əhatə edir. Həssas ictimai qruplar, o cümlədən azgəlirli qruplar və yerli xalqlar tez-tez iqlim dəyişikliklərinin ən ciddi nəticələri ilə bağlı problemlərlə qarşılaşırlar. Onların hüquqlarının müdafiəsi və qərar qəbulunda iştiraklarının təmin edilməsi üçün təcili və xüsusi tədbirlər görülməlidir.

**Açar sözlər:** iqlim dəyişikliyi, ədalət və hesabatlılıq, Paris Sazişi, Azərbaycan, COP29, su təhlükəsizliyi, iqlim maliyyəsi, insan hüquqları, iqlim siyasəti, qlobal və nəsillərarası ədalət, davamlı inkişaf

## Giriş

İqlim dəyişikliyi və ətraf mühit etikası çağdaş qlobal siyasi və nəzəri çərçivədə bəşəriyyətin qarşısında duran ən təcili və mürəkkəb problemlərdən biri olaraq ortaya çıxmaqdadır. İqlim dəyişikliyi çoxşaxəli xarakteri ilə geniş spektrdə etik məsələləri əhatə edir, mövcud mənəvi və siyasi paradiqmalarımızı yenidən dəyərləndirməyə məcbur edir. İqlim dəyişikliyinin təsirləri daha çox aydın olduqca, ədalət və məsuliyyətin ənənəvi sərhədlərini aşan yeni bir etik çərçivənin zəruriliyi heç vaxt bu qədər mühüm olmayıb.

Bu müzakirənin mərkəzində istisnasız olaraq, qlobal ədalət anlayışı dayanır. İqlim dəyişikliyi, səbəbləri və təsirləri dünya miqyasında qeyri-bərabər paylanan qlobal bir hadisəyə çevrilib. Sənayeləşmiş ölkələr verdikləri qərarlara, bəlkə də, artıq həcmlərinə görə mövcud qlobal iqlimin vəziyyətinə dair qeyri-mütənasib bir məsuliyyət daşımaqdadırlar. Belə ki, istixana qazı emissiyalarına minimal töhfə vermiş inkişaf etməkdə olan ölkələr tez-tez ən ağır nəticələrlə üzləşməyə davam edirlər. Bu disbalans tarixi məsuliyyətləri nəzərə alan və ədalətli çıxış yolunu təbliğ edən qlobal ədalətli yanaşmaya təcili ehtiyac olduğunu vurğulayır [21]. Ədalət və məsuliyyət iqlim dəyişikliyinə qlobal cavabın mərkəzində dayanan əsas anlayışlara aid olmaqdadır. Ədalət prinsipi tələb edir ki, iqlim dəyişikliyinin yüngülləşdirilməsi və uyğunlaşma tədbirləri fərqli ölkələrin fərqli imkan və məsuliyyətlərini nəzərə alaraq ədalətli və düzgün olmalıdır. Daha çox maliyyə və texnoloji resurslara malik inkişaf etmiş ölkələr emissiyaların azaldılması, həssas ölkələrə texnologiya transferi və maliyyə yardımı göstərməklə iqlim dəyişikliyinə qarşı mübarizədə liderlik etməyə etik cəhətdən borcludurlar. Məsuliyyət isə beynəlxalq müqavilələr, məsələn, Paris Sazişi çərçivəsində götürülmüş öhdəliklərin konkret tədbirlərlə yerinə yetirilməsini təmin edir və beləliklə, ölkələr arasında inam və əməkdaşlığı gücləndirir [14].

İqlim dəyişikliyi ilə mübarizədə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin rolu fərqli, lakin bir-biri ilə bağlıdır. Tarixən istixana qazı emissiyalarına görə ən çox mənfi mənada töhfə vermiş inkişaf etmiş ölkələr yüngülləşdirmə hallarına görə liderlik etməyə mənəvi olaraq həm də ona görə borcludurlar ki, bu, emissiyaların əhəmiyyətli dərəcədə azaldılmasına, qlobal iqlim fondlarına böyük maliyyə töhfələri kimi məsələlərin davamlı inkişafına dəstək verməlidirlər. Digər tərəfdən, inkişaf etməkdə olan ölkələr iqtisadi inkişafı davam etdirmək və karbon izlərini minimuma endirmək kimi ikiqat çağırışla üzləşirlər. Beynəlxalq əməkdaşlıq isə inklüziv siyasət və ədalətli resurs bölgüsü ilə bu ölkələrin davamlı inkişaf hədəflərinə çatmasına dəstək olmaq üçün zəruri məsələ kimi önə çıxmaqdadır [17].

İqlim dəyişikliyinin insan hüquqları ilə bağlı nəticələri dərin və genişdir. Dəniz səviyyəsinin yüksəlməsi, ekstremal hava hadisələri və kənd təsərrüfatı məhsuldarlığındakı dəyişikliklər kimi iqlim dəyişikliyinin mənfi təsirləri həyat, sağlamlıq, qida və su kimi əsas insan hüquqlarını birbaşa təhdid edir [13]. Ən həssas əhali qrupları, o cümlədən yerli icmalar, aşağı gəlirli qruplar və gələcək nəsillər xüsusilə risk altındadır. İqlim dəyişikliyini insan hüquqları məsələsi kimi tanımaq bu hüquqları aktiv və inklüziv iqlim siyasəti ilə qorumağın etik zəruriliyini vurğulayır. Bu, həmçinin beynəlxalq ictimaiyyəti iqlim tədbirlərində insan hüquqlarına üstünlük verməyə, ən həssas əhali qruplarının qorunmasını təmin etməyə və onların səslərinin eşidilməsini təmin etməyə çağırır [19].

İqlim dəyişikliyi həm də hakimiyyət, idarəetmə və beynəlxalq əlaqələr

məsələləri ilə kəsişərək mahiyyət etibarilə siyasi bir məsələ yaradır. İqlim dəyişikliyinin siyasi ölçüləri beynəlxalq müqavilələrin müzakirəsi, milli siyasətlərin formalaşdırılması və yerli qurumların fəaliyyətinin həyata keçirilməsinə qədərki prosesləri əhatə edir. Effektiv iqlim idarəçiliyi ölkələrin iddialı hədəflər qoymaq, bilik paylaşmaq və bir-birini məsuliyyətə cəlb etmək üçün əməkdaşlıq etdiyi çoxtərəfli bir yanaşma tələb edir. Siyasi iradə və ya onun olmaması iqlim təşəbbüslərinin uğuruna əhəmiyyətli dərəcədə təsir göstərir. Buna görə də siyasi liderlər iqlim tədbirlərini dəstəkləməkdə və iqlim dəyişikliyinin həlli üçün qlobal konsensus yaratmaqda mühüm rol oynayırlar [12].

Elmi və siyasi aspektlərindən başqa, iqlim dəyişikliyi əsasən etik bir məsələdir. Bu, planetə, digər növlərə və gələcək nəsillərə olan məsuliyyətimizlə bağlı dərin suallar doğurur. İqlim dəyişikliyində etik mülahizələr ədalət, ədalətlilik və əmanət olmaq kimi hüquqi və mənəvi prinsipləri əhatə edir. Bu, davamlı həyat tərzlərinə və iqtisadiyyatlara keçidi müdafiə edərək, dəyərlərimizi və davranışlarımızı yenidən düşünməyimizi tələb edir. İqlim dəyişikliyinin etik ölçüsü həmçinin mədəni müxtəlifliyə hörmət edən və davamlı həllərin hazırlanmasında yerli və həm də yeni bilik sistemlərini daxil edən inklüziv bir yanaşmaya tələb doğurur.

İqlim dəyişikliyi bizi planetimizin qayğısına qalmağa, digər canlıların hüquqlarını qorumağa və gələcək nəsillərin ehtiyaclarını nəzərə almağa çağırır. Bu vəzifələri yerinə yetirmək hər birimizin - bütün ölkələrin və bütün cəmiyyətlərin üzərinə düşür.

Belə ölkələrdən biri, heç şübhəsiz, Azərbaycan Respublikasıdır. "İqlim dəyişikliyi və ətraf mühit etikası" mövzusu ilə bağlı müzakirələr Azərbaycanın ev sahibliyi edəcəyi COP29 zirvəsi ilə sıx əlaqəlidir. COP29 iqlim dəyişikliyi ilə mübarizə və ədalətli iqlim tədbirləri istiqamətində beynəlxalq bir platforma olaraq böyük əhəmiyyət daşıyır. Bu tədbir qlobal miqyasda iqlim dəyişikliyinin təsirlərinin aradan qaldırılması üçün yeni siyasətlərin və strategiyaların müzakirə olunacağı bir forum kimi dünyaya xitab edəcək ki, biz onu şərti olaraq “Bakı Bəyannaməsi” kimi toplu öhdəliklərin müəyyən ediləcəyi istinad sənədi olaraq anacağıq. Prezident İlham Əliyevin də dediyi kimi, əsas hədəflərdən biri emissiyaların azaldılması fonunda yaşıl enerjiyə keçiddir: “COP29-un Azərbaycanda keçirilməsi ölkəmizin yaşıl enerjiyə keçid istiqamətində səylərinə və bu sahədə beynəlxalq tərəfdaşlarla əməkdaşlığının daha da inkişafına təkan verəcək” [1].

COP29 zirvəsində müzakirə ediləcək əsas məsələlərdən biri qlobal ədalət və iqlim dəyişikliyi kimi findamental mövzular olacaq. Azərbaycan bu konfransda ev sahibi olaraq, qlobal ədalət və iqlim tədbirlərində məsuliyyətin bölüşdürülməsi mövzularında liderlik etmək və beynəlxalq ictimaiyyətin diqqətini bu məsələlərə yönəltmək üçün bir fürsət əldə edəcək.

İqlim dəyişikliyi ilə bağlı insan hüquqları məsələləri də COP29-un gündəliyində mühüm yer tutacaq. Çünki iqlim dəyişikliyinin mənfi təsirləri xüsusilə həssas əhali qruplarının hüquqlarını təhdid edir. Bu konfransda insan hüquqlarının qorunması və iqlim tədbirlərinin bu hüquqları nəzərə alaraq həyata keçirilməsi istiqamətində yeni strategiyalar və əməkdaşlıq mexanizmləri müzakirə edilməlidir. Nəzər almalıyıq ki, ölkəmizin ərazisinin bir hissəsinin 30 ildən artıq bir dövrdə Ermənistan Respublikasının işğalçı ordusu tərəfindən zəbt edilməsi faktı milyona yaxın soydaşımızın qaçqın və məcburi köçkün düşməsi ilə nəticələnib. Bölgədə təbiətə, yaşayış yerlərinə qarşı ciddi müharibə cinayətləri törədilib, nəticədə yüz minlərlə insanın yaşamaq

hüququ və digər haqları pozulub.

COP29 eyni zamanda iqlim dəyişikliyinin siyasi və etik aspektləri ilə bağlı beynəlxalq bir konsensus yaratmağa xidmət etməlidir. Bu həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrin ortaq məsuliyyətlərini müəyyən etmək və bu məsuliyyətləri bərabər şəkildə paylaşmaq üçün vacibdir. Azərbaycanın bu tədbirdəki rolu qlobal iqlim siyasətinin formalaşmasına və ədalətli bir iqlim idarəçiliyinin qurulmasına mühüm töhfə verəcəkdir.

## 1. İqlim fəaliyyətində bərabərlik və məsuliyyət

İqlim fəaliyyətində bərabərlik və hesabatlılıq iqlim dəyişikliyi ilə mübarizə üzrə qlobal səylərdə davamlı və ədalətli nəticələrə nail olmaq üçün əsasdır. Bu məsələləri əhatə edən dialoq mürəkkəbdir, tarixi emissiyaların keçmişi və gələcək taleyi bu mənada iqtisadi imkanlardakı cari uyğunsuzluqlar və effektiv qlobal idarəçiliyə təcili ehtiyacla bağlıdır.

İqlim danışıqları prosesində bərabərlik iqlim problemlərinin həllinə töhfə vermək kimi bir rakursda ölkələrin müxtəlif imkanlarını və məsuliyyətlərini dərk etməsi deməkdir. Tarixən inkişaf etmiş ölkələrin qlobal istixana qazı emissiyalarına ən çox töhfə verdikləri deyilir, lakin ortada ciddi faktlar mövcuddur. Belə ki, Tuvalu və Maldiv adaları kimi kiçik ada dövlətləri qlobal emissiyalara töhfələri



*Bu infoqrafikaya hər bir ölkənin tonlarla $CO_2$ ekvivalentində karbon izi əsasında rənglərlə kodlanmış dünya xəritəsi daxildir. Bundan əlavə, o, ölkələrin iqlim dəyişikliyinə qarşı bioloji, iqtisadi və sosial həssaslığı nəzərə alınaraq həssaslıq indeksi göstərilir.*

cüzi olsa da, dəniz səviyyəsinin yüksəlməsinə görə ekzistensial təhlükələrlə üzləşirlər. Belə olduqda qlobal birlik dəniz səviyyəsinin artmasına görə yaranan problemləri dövlətlər arasında müzakirə etməkdən yan keçərək, bu cür kiçik resurlu dövlətləri okeanın ortasında da tərk edirlər. Birləşmiş Millətlər Təşkilatının 1992-ci il İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasından irəli gələn "ümumi, lakin fərqli məsuliyyətlər" prinsipi bu yanaşmanı vurğulayır. Sənəddə qeyd edilir ki, bütün dövlətlər iqlim dəyişikliyi ilə məşğul olsalar da, onların hamısı eyni öhdəlikləri daşımır. İnkişaf etmiş ölkələrin tullantıların azaldılmasında və inkişaf etməkdə olan ölkələrə maliyyə və texnoloji dəstək verilməsində liderlik edəcəyi gözlənilir [20]. Bu çərçivə beynəlxalq iqlim siyasətinin çox hissəsini istiqamətləndirdi, lakin hesabatlılığın həyata keçirilməsinə gəldikdə hələ də problem olaraq qalır [15].

İqlim fəaliyyətində hesabatlılıq bütün dövlətlərin öz öhdəliklərinə əməl etməsini təmin etmək deməkdir. Lakin beynəlxalq müqavilələr çərçivəsində icra mexanizmləri çox vaxt zəif olur. 2015-ci il Paris Sazişi ölkələri qlobal cəhd kimi öz milli töhfələrini verməyə təşviq edən daha çevik bir çərçivə kimi əhəmiyyətli dəyişikliyi ortaya çıxartdı. Bu yanaşma ölkələrə iqlimlə bağlı fəaliyyət planlarını öz xüsusi şəraitlərinə uyğunlaşdırmağa imkan verməklə, daha çox iştirakçılığı təşviq etmək məqsədi daşıdı [21].

İqlim maliyyəsi məsələsi ədalət və hesabatlılığın kəsişməsini göstərir. İnkişaf etmiş ölkələr 2020-ci ilə qədər inkişaf etməkdə olan ölkələrə iqlimlə bağlı səylərində kömək etmək üçün hər il 100 milyard dollar sərf etməyi öhdələrinə götürmüşdülər. Bununla belə, faktiki ödənişlər ardıcıl deyildi və çox vaxt vəd edilən məbləğlərdən çox-çox geridə qalırdı [7].

Texnologiyanın ötürülməsi digər vacib sahədir. Qabaqcıl iqtisadiyyatların az inkişaf etmiş ölkələrdə dayanıqlı texnologiyalara dəstək vermək üçün vasitələri və məsuliyyəti var. Bu, təkcə həmin ölkələrə iqlimlə bağlı səylərə kömək etmir, həm də aşağı karbon texnologiyalarına doğru qlobal tərəqqini sürətləndirir. Bununla belə, texnologiyanın ötürülməsi əqli mülkiyyət hüquqları və kommersiya maraqları ilə bağlı məsələlərlə xaos təşkil edir, çox vaxt mühüm texnologiyaların onlara ən çox ehtiyacı olan ölkələr üçün əlçatan olmasında əngəllər yaranır və onların çevik reaksiya sürəti ləngiyir.

İqlim fəaliyyətində ədalət və hesabatlılıq ətrafında diskurs həm də yerli xalqların və yerli icmaların hüquqları da daxil olmaqla daha geniş sosial ədalətsizlik məsələlərini önə çıxarır.

Demək olar ki, sosial qruplar tez-tez Arktikadan Amazona qədər iqlim dəyişikliyinin qurbanları olurlar. Onların iqlim dialoqunda iştirakı çox vacibdir, çünki onlar davamlılıq və uyğunlaşma strategiyalarına töhfə verə biləcək ənənəvi biliklərə və davamlı təcrübələrə malikdirlər. Bu səslərin beynəlxalq forumlarda eşidilməsi və hörmət edilməsinin təmin edilməsi həm ədalətlilik, həm də səmərəlilik məsələsi olsa da, hər keçən gün dünyada əməkdaşlığın yerini qarşıdurmalar və müharibələr almaqdadır.

Biz gələcəyə baxdıqca, ədalətli və hesabatlı şəkildə iqlimlə bağlı fəaliyyətin genişləndirilməsi probleminin daha da gücləndiyini görəcəyik. Qlobal iqlim strategiyalarının uğuru təkcə kağız üzərində götürülmüş öhdəliklərdən deyil, həm də bu öhdəliklərin yerinə yetirilməsini təmin etmək üçün yaradılmış mexanizmlərin şəffaflığından, ədalətliliyindən və möhkəmliyindən asılıdır.

Daha sonra Fərqləndirilmiş Məsuliyyətlər Prinsipi (CBDR prinsipi) qlobal iqlim idarəçiliyinin ədalətliliyini və effektivliyini artırmaq üçün vacib bir mexanizmə çevrilməyə başladı. Bu prinsipin tam həyata keçirilməsi üçün beynəlxalq

əməkdaşlıq, şəffaflıq və hesabatlılıq təmin edilməli idi: CBDR 1992-ci ildə Rio Sammitində təsis edildi və beynəlxalq iqlim sazişlərinin təməl daşına çevrildi. CBDR vurğulayır ki, bütün dövlətlər iqlim dəyişikliyi ilə bağlı cavabdehdirlər, lakin inkişaf etmiş dövlətlər öz tarixi emissiyalarına və daha böyük iqtisadi potensiallarına görə daha böyük məsuliyyət daşıyırlar [20]. Bu prinsipin əsası 1972-ci ildə Stokholm Konfransında atılmış və burada inkişaf etməkdə olan ölkələrin davamlı inkişafı təmin etmək üçün maliyyə və texnoloji dəstəyə ehtiyacı olduğu qəbul edilmişdi [18].

## 2. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin rolu

İnkişaf etmiş ölkələrin iqlim fəaliyyətində rolu təkcə öz emissiyalarını azaltmaq deyil, həm də texnologiya transferi və maliyyə dəstəyi vasitəsilə inkişaf etməkdə olan ölkələrə kömək etməkdir. Bu, inkişaf etməkdə olan ölkələrin inkişaf məqsədlərinə xələl gətirmədən daha təmiz texnologiyalara keçməsinə kömək etmək üçün vacibdir.

Qlobal iqlim fəaliyyəti sahəsində inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin rolları onların iqtisadi tarixləri, imkanları və zəiflikləri ilə aydın şəkildə formalaşır. Qlobal birlik etiraf edir ki, istixana qazlarının tarixən toplanması əsasən bugünkü inkişaf etmiş dövlətlərin sənayeləşməsi nəticəsində baş verib. Bu açıq reallıq iqlim dəyişikliyi ilə mübarizədə məsuliyyət və qabiliyyət haqqında müasir diskursu çərçivəyə salır.

Son əsrlər ərzində güclü iqtisadiyyatları və sənaye fəaliyyətinin daha yüksək səviyyələri ilə xarakterizə olunan inkişaf etmiş ölkələr atmosfer karbon ehtiyatının əsas payçılarıdır. Məsələn, sənaye inqilabının başlanğıcından bəri Amerika Birləşmiş Ştatları və Avropa ölkələri birlikdə atmosferdəki ümumi artıq karbon qazının 50%-dən çoxunu "təşkil ediblər". Qlobal istiləşməyə bu qeyri-mütənasib töhfə problemə ən çox "töhfə" verənlərin onun həllində daha çox məsuliyyət daşıması prinsipini formalaşdırıb.

Spektrin digər tərəfində olan inkişaf etməkdə olan ölkələr istixana qazları emissiyalarına minimal tarixi töhfələrinə baxmayaraq, iqlim dəyişikliyinin ən ciddi təsirləri ilə üzləşirlər. Banqladeş və Mozambik kimi ölkələr siklonlar və daşqınlar kimi iqlimlə əlaqəli dağıdıcı hadisələrə çox həssasdırlar. Bu, onilliklər boyu iqtisadi tərəqqini pozmaq təhlükəsi yaradır.

2015-ci ildə qəbul edilmiş Paris Sazişi bu diferensiallaşdırılmış öhdəliklərin qlobal şəkildə etiraf edilməsinə nümunədir. O, hər bir ölkənin emissiyaların azaldılması öhdəliyini özündə əks etdirən Milli Müəyyən edilmiş töhfələri (NDC) təqdim etdi. İnkişaf etmiş ölkələr tez-tez tullantıların mütləq azaldılmasını vəd etsələr də, inkişaf etməkdə olan ölkələr varlı həmkarlarından maliyyə və texnoloji dəstək almaq şərti ilə tez-tez bəyanatlar səsləndirirlər.

Maliyyə aspekti əsasdır. İnkişaf etməkdə olan ölkələrin iqlim fəaliyyətini dəstəkləmək üçün 2020-ci ilə qədər hər il ən azı 100 milyard dollar səfərbər etmək öhdəliyi, yəni inkişaf etmiş ölkələrin öhdəliyi beynəlxalq iqlim siyasətinin təməl daşıdır. Bununla belə, bu vəsaitlərin axını tez-tez qeyri-şəffaflığına və ödənişin yavaş tempinə görə tənqid olunur. Məsələn, inkişaf etməkdə olan dünyaya adaptasiya və təsirin azaldılması təcrübələrində kömək etmək üçün nəzərdə tutulmuş Yaşıl İqlim Fondu kifayət qədər maliyyələşdirmə və resursların ədalətli bölüşdürülməsi ilə bağlı problemlərlə üzləşir.

Üstəlik, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında texnoloji uçurum dərindir. İnkişaf etmiş ölkələr qabaqcıl bərpa olunan enerji texnologiyalarına, səmərəli sənaye proseslərinə və aşağı karbonlu gələcək üçün vacib

| Country | Historical GHG Emissions (tonnes CO2 equivalent) | Current GHG Emissions (tonnes CO2 equivalent) | GDP per Capita (USD) | Population (millions) | HDI (Human Development Index) |
|---|---|---|---|---|---|
| USA | 400 billion | 5.41 billion | 65,298 | 331 | 0.926 |
| China | 200 billion | 10.06 billion | 10,839 | 1,439 | 0.761 |
| India | 50 billion | 2.65 billion | 2,100 | 1,380 | 0.645 |
| Germany | 90 billion | 0.75 billion | 46,445 | 83 | 0.947 |
| Brazil | 25 billion | 0.5 billion | 6,796 | 212 | 0.765 |
| South Africa | 35 billion | 0.46 billion | 5,236 | 59 | 0.709 |

*Bu cədvəl ölkələrin qlobal emissiyalara töhfələrinin zamanla necə dəyişdiyini əks etdirən həm tarixi, həm də cari istixana qazı emissiyalarını ehtiva edir. Adambaşına düşən ÜDM kimi iqtisadi göstəricilər bu emissiyaların iqtisadi kontekstini başa düşməyə imkan verir, əhali rəqəmləri isə ölkənin ölçüsünə nisbətən miqyasını müəyyən etməyə kömək edir. İnsan İnkişafı İndeksi sosial və iqtisadi inkişafın ölçülməsini təklif edir ki, bu da ölkənin iqlim dəyişikliyinin təsirlərini həll etmək və onlara uyğunlaşmaq qabiliyyətini başa düşmək üçün kritik əhəmiyyət daşıyır.*

olan yaşıl innovasiyalara malikdirlər. Bu texnologiyaların inkişaf etməkdə olan ölkələrə ötürülməsi qlobal iqlim siyasətinin mühüm tərkib hissəsidir. Bununla belə, əqli mülkiyyət hüquqları və texnologiya transferi xərcləri kimi məsələlər əməkdaşlığa mane ola biləcək mübahisəli məqamlar olaraq qalır. İnkişaf etməkdə olan ölkələrin rolu təkcə passiv deyil. Hindistan və Çin kimi dövlətlər bərpa olunan enerji sektorlarını sürətlə inkişaf etdirirlər, Çin günəş panelləri və külək turbinləri istehsalında dünyada liderdir. Onların yanaşmaları qlobal bazarları yenidən formalaşdırır və inkişaf etməkdə olan iqtisadiyyatlarına ənənəvi qalıq yanacaqla idarə olunan böyümə modellərilə necə davrana biləcəkləri məsələsində tərəddüdlər formalaşdırır. Aşağı səviyyədə, xüsusilə inkişaf etməkdə olan ölkələrdə yerli icmaların cəlb edilməsi iqlimlə bağlı fəaliyyətin uğuru üçün çox vacibdir. Yerli bilik sistemləri və ənənəvi təcrübələr çox vaxt yerli ekosistemlərə uyğunlaşdırılmış davamlı həllər təklif edir. Bu yerli həllərin qəbul edilməsi və daha geniş milli və beynəlxalq strategiyalara inteqrasiya effektiv uyğunlaşma və dayanıqlılığın yaradılması üçün getdikcə vacib hesab olunur.

Əslində, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında iqlim fəaliyyətində qarşılıqlı əlaqə məsuliyyətlərin, imkanların və ehtiyacların mürəkkəb rəqsidir. İqlim fəaliyyətində bərabərlik təkcə bərabər töhfələr demək deyil, həm də hər bir ölkənin imkanlarının və tarixi kontekstlərinin qəbul edildiyi və nəzərə alındığı ədalətli töhfələr deməkdir. Dünya irəlilədikcə əməkdaşlıq və qarşılıqlı dəstək ruhu iqlim böhranının effektiv həllində mühüm rol oynayacaq.

İnkişaf etməkdə olan ölkələr iqtisadi inkişaf üçün səy göstərərkən iqlim dəyişikliyi ilə bağlı ikili problemlə üzləşirlər. Buna görə də onların iqlim fəaliyyətindəki rolu mürəkkəbdir, çünki onlar davamlılıq yaratmaq və davamlı inkişaf yollarını qəbul etmək üçün dəstəyə ehtiyac duyurlar.

**Case Study - Çin və Hindistan:** Əsas inkişaf etməkdə olan iqtisadiyyatlar kimi hər iki ölkə iqlim fəaliyyətində

mühüm oyunçulardır. Onların çoxsaylı əhalisi və artan iqtisadiyyatları var, bu da bərpa olunan enerjiyə keçidlərini qlobal səylər üçün kritik edir. Hər iki ölkə bərpa olunan enerji üçün iddialı hədəflər qoyub, lakin kömürdən asılılığın azaldılmasında əhəmiyyətli çətinliklərlə üzləşirlər.

**Maraqlı fakt:** Hindistan 2030-cu ilə qədər 450 GW bərpa olunan enerji gücünə nail olmağı öhdəsinə götürüb ki, bu da onu qlobal miqyasda bərpa olunan enerjinin ən böyük istehsalçılarından birinə çevirəcək.

### 3. İqlim dəyişikliyi insan hüquqları problemi kimi

İqlim dəyişikliyi ekoloji problemlərin sərhədlərini aşır, insan hüquqları sahəsinə dərindən nüfuz edir. Bu mürəkkəb kəsişmə istiləşən planetin yaşamaq, su, yemək və mənzil hüququ da daxil olmaqla fundamental insan hüquqları üçün dərin təsirlərini vurğulayır. Planet istiləşdikcə, dəniz səviyyəsi yüksəldikcə və ekstremal hava hadisələri daha tez-tez şiddətləndikcə insan həyatını təmin etmək üçün tələb olunan təməl elementlər getdikcə daha çox risk altında olur.

İqlim dəyişikliyinin təsirləri daha çox dünyanın ən həssas əhalisi tərəfindən hiss edilir. Banqladeş kimi ölkələrdə milyonlarla insan dəniz səviyyəsindən beş metrdən az olan sahil ərazilərində yaşayır ki, burada dəniz səviyyəsinin cüzi yüksəlməsi belə əhəmiyyətli yerdəyişmələrə səbəb ola bilər. Eynilə, Arktika icmaları öz mühitlərində ənənəvi həyat və yaşayış tərzini təhdid edən dəyişikliklər yaşayırlar, çünki əriyən buz qapaqları və əbədi buzlaqlar asılı olduqları landşaftları dəyişdirir.

"İqlim dəyişikliyi ədalət məsələsidir" – məşhur bir məqalənin sərlövhəsində problemi ən gözəl ifadə edən cümlə yer almaqdadır.

Bəs, "iqlim ədaləti" nədir və nə üçün vacibdir?

İqlim ədaləti iqlim dəyişikliyi ilə bağlı qərarların qəbulu və fəaliyyətin əsasına ədalət və insan hüquqlarının qoyulması deməkdir. Konsepsiya iqlim böhranı ilə bağlı ölkələrin və icmaların daşıdıqları qeyri-bərabər tarixi məsuliyyətə istinad etmək üçün geniş şəkildə istifadə edilmişdir. Bu, atmosferə böyük miqdarda istixana qazları buraxaraq varlanan ölkələrin, sənayelərin, bizneslərin və insanların iqlim dəyişikliyindən təsirlənən ən həssas ölkələrə və icmalara kömək etmək üçün məsuliyyət daşıdığını göstərir.

İqlim ədalətinin bir çox tərəfi var:

**Struktur bərabərsizliklər:** Hətta eyni ölkə daxilində iqlim dəyişikliyinin təsirləri irq, etnik mənsubiyyət, gender və sosial-iqtisadi vəziyyətə əsaslanan struktur bərabərsizliklər səbəbindən qeyri-bərabər şəkildə hiss edilə bilər. Qadınlar iqlim dəyişikliyinin təsirlərindən daha ciddi şəkildə təsirlənirlər, çünki onların uyğunlaşmaq və kəskin dəyişikliklərin öhdəsindən gəlmək üçün daha az resurs əldə etmək imkanı var. Əlilliyi olan insanlar, xüsusilə inkişaf etməkdə olan ölkələrdə sağlamlıqlarına, ərzaq təhlükəsizliyinə, su enerjisinə çıxışa, kanalizasiyaya və yaşayış vasitələrinə təhdidlər də daxil olmaqla, iqlim dəyişikliyinin mənfi təsirləri ilə bağlı artan risk altındadırlar. Dünyanın biomüxtəlifliyinin 80 faizini qoruyan yerli xalqlar həyatları, yaşayış vasitələri və ənənəvi bilikləri üçün artan təhlükə və risklərlə üzləşirlər.

**Sosial-iqtisadi bərabərsizliklər:** İqlim dəyişikliyinin təsirləri və iqlim dəyişikliyinin təsirlərini həll etmək üçün lazım olan resurslar dünya üzrə qeyri-bərabər paylanır. Aşağı gəlirli ölkələr və bu ölkələrdəki həssas əhali iqlimin səbəb olduğu itkilərə və zərərlərə daha çox həssasdır. Qlobal miqyasda adambaşına ən yüksək tullantılara malik olan ev təsərrüfatlarının 10 faizi qlobal məişət istixana qazı emissiyalarının 34-45 faizini, ən aşağı 50 faizi isə 13-15 faizini təşkil edir.

| Human Right | Impact of Climate Change | Examples |
|---|---|---|
| Health | Increased prevalence of heat-related illnesses and climate-sensitive diseases like malaria and dengue. | Heatwaves causing dehydration and heatstroke; expansion of tropical diseases into new regions. |
| Shelter | Loss of homes due to rising sea levels, flooding, and extreme weather events. | Hurricanes and cyclones displacing communities; flooding making homes uninhabitable. |
| Food Security | Reduced agricultural productivity leading to food shortages and increased food prices. | Droughts and changing rainfall patterns affecting crop yields; loss of arable land due to desertification. |

***Cədvəl:*** *İqlim dəyişikliyinin təsirlərinin xüsusi insan hüquqları ilə əlaqələndirilməsi (məsələn, sağlamlıq, sığınacaq, ərzaq təhlükəsizliyi) göstərilir.*

1. Social work can improve the public's awareness of water quality protection. Many people lack sufficient understanding of the seriousness of water quality issues, and may have bad habits such as wasting water and discharging sewage at will in their daily behavior. Social workers can popularize the knowledge and importance of water quality protection to the public and enhance the public's environmental awareness through publicity and education activities, such as holding lectures, distributing publicity materials, and organizing community activities. Let people understand the negative impact of water pollution on health, ecosystems, and economic development, so as to encourage them to consciously take actions such as saving water and reducing pollution emissions in their lives, and form a good atmosphere for the whole society to participate in water quality protection.

2. Social work can promote community participation and cooperation. Water quality protection is not only the responsibility of the government, but also requires the active participation of community residents. Social workers can organize and mobilize community residents to form environmental protection volunteer teams to jointly carry out activities such as water quality monitoring, river cleaning, and water source protection. Through community participation, residents can have a deeper understanding of the local water quality conditions and enhance their sense of responsibility and belonging to the community environment. At the same time, community cooperation can also help integrate resources from all parties, form a joint force, and jointly solve problems encountered in water quality protection. For example, residents can cooperate with other community organizations such as enterprises and schools to jointly promote the implementation of environmental protection measures.

3. Social work helps coordinate the relationship between different interest groups. In the process of water quality protection, multiple interest groups may be involved, such as government departments, enterprises, residents, etc., and their interests may differ or even conflict. Social workers can serve as a neutral third party to build a communication platform to promote dialogue and consultation among all parties. It helps government departments better understand the needs and opinions of residents and formulate more reasonable policies and measures; at the same time, it also assists enterprises to fulfill their social responsibilities and reduce pollution to the water environment while pursuing economic benefits. By coordinating interest relations, contradictions and conflicts can be reduced and the smooth development of water quality protection work can be promoted.

4. Social work's attention to vulnerable groups is also of great significance in water quality protection. Some vulnerable groups, such as poor families, the elderly, and the disabled, may be more susceptible to water quality problems due to economic constraints or their own lack of ability. Social workers can provide support and help to these vulnerable groups, such as assisting them in obtaining safe drinking water resources and solving health problems caused by water pollution. Ensure that

water quality protection work can benefit everyone and achieve social equity and justice.

5. The professional methods and skills of social work can provide effective support for water quality protection. Social workers can use methods such as case work, group work, and community work to provide specific services for different situations and problems. For example, helping individuals and families who suffer from health problems due to water pollution solve practical difficulties through case studies; Organize environmental protection teams to cultivate residents' environmental awareness and behavioral habits; Promote the implementation of environmental protection projects at the community level. Meanwhile, social workers also possess excellent communication, coordination, organization, and resource integration skills, which can play an important role in water quality protection work.

Therefore, there are many reasons for social work to intervene in water quality protection. It can raise public awareness, promote community participation, coordinate interests, pay attention to vulnerable groups, and use professional methods and skills to support water quality protection work. Through the intervention of social work, we can better mobilize social forces to jointly respond to water quality issues, protect our precious water resources, and create good environmental conditions for the sustainable development of mankind. This is why social work intervenes in water quality protection.

## Methods and measures of social work intervention in water quality protection

The intervention methods and measures of social work in water quality protection mainly include the following points:

**1.Community Education and Promotion**

(1) Carry out lectures and training on water quality protection to popularize the hazards of water pollution, the importance of protecting water resources, and water-saving and environmental protection methods in daily life to residents, so as to enhance the public's knowledge and awareness of water quality protection.

(2) Produce promotional posters, brochures, short videos and other promotional materials, and widely disseminate them in the community to enhance the publicity effect.

(3) Organize community activities with water quality protection as the theme, such as environmental knowledge competitions, parent-child environmental activities, etc., to increase residents' participation and enthusiasm.

**2.Promoting public participation**

(1) Establish a volunteer team for community water quality protection, encourage residents to actively participate in activities such as water resource monitoring, river cleaning, and environmental supervision, and enhance their sense of responsibility and participation.

(2) Organize residents to participate in relevant policy formulation and decision-making processes, collect residents' opinions and suggestions, improve the scientific nature and democracy of decision-making, and at the same time let residents better understand the background and significance of policy formulation, so as to better support and cooperate with the implementation of policies.

(3) Carry out supervision activities by community residents on surrounding enterprises, factories, etc., encourage residents to report illegal pollution dis-

charge behaviors in a timely manner, and create an atmosphere of joint supervision by the whole society.

**3.Promote resource integration**

(1) Establish cooperative relationships with government departments, environmental protection organizations, scientific research institutions, etc., integrate resources from all parties, and jointly promote water quality protection work. For example, invite professionals to provide technical guidance and training to residents, and cooperate with government departments to carry out special rectification actions.

(2) Link social resources to obtain financial, material and technical support for water quality protection projects to ensure the smooth implementation of the projects.

(3) Build an information exchange platform to promote experience exchange and sharing in water quality protection among different regions and groups.

**4. Advocate a green lifestyle**

(1) Promote household water-saving measures, such as installing water-saving appliances, rationally utilizing vegetable washing and laundry water, etc., to reduce household water waste.

(2) Encourage residents to reduce the use of phosphorus containing detergents, fertilizers, and pesticides to reduce water pollution

(3) Advocate green travel and reduce indirect pollution of water bodies caused by motor vehicle exhaust emissions.

**5. Strengthen environmental monitoring and assessment**

(1) Assist professional organizations in carrying out water quality monitoring work, timely understand water quality conditions, and provide a basis for formulating targeted protection measures.

(2) Establish a community water quality file to record changes in water quality and the progress of related protection work, so as to evaluate and reflect on the effectiveness of the work.

(3) Based on the monitoring and evaluation results, protection measures will be adjusted and optimized in a timely manner to ensure the effectiveness and sustainability of the work.

**6.Addressing social issues related to water quality**

(1) Pay attention to health problems caused by water pollution, provide psychological support and help to victims, and assist them in safeguarding their own rights and interests.

(2) Provide corresponding consulting and counseling services to residents and businesses that may be affected by the implementation of water resource protection policies to help them solve practical difficulties and reduce social conflicts.

By implementing the above methods and taking a series of effective measures, social work can play a vital role in the field of water quality protection. These efforts can not only significantly enhance the public's environmental awareness, but also effectively enhance their participation, thereby laying a solid foundation for the sustainable use and protection of water resources. In addition, in order to ensure the continuous progress and effectiveness of water quality protection work, we must constantly summarize past experiences and lessons, make necessary adjustments according to the changing actual situation, and be brave in innovation, in order to find more efficient and adaptable protection strategies.

## References


1. 浅谈社会工作者在环境保护中的角色--以我国水资源污染为例,学术期刊，改革与开放,2014(10). || Academic journals. A Brief Discussion on the Role of Social Workers in Environmental Protection - Taking Water Resource Pollution in China as an Example. 2014(10).

2. 浅析搞好水利规划的重要依据,学术期刊,2022. || Academic journals. An analysis of the important basis for doing a good job in water conservancy planning. 2022.

3. 水资源可持续利用浅论,学术期刊,中国水运（下半月）, 2009(5). || Academic journals. A Brief Discussion on Sustainable Utilization of Water Resources, Academic Journal, China Water Transport (Second Half of the Year). 2009 (5).

4. Cordy, Gail E. (March 2001). "A Primer on Water Quality". Reston, VA: U.S. Geological Survey (USGS). FS-027-01.

5. 中国新闻网 https://finance.sina.cn/2024-04-19/detail-inaskrrk7065520.d.html || China News Network. https://finance.sina.cn/2024-04-19/detail-inaskrrk7065520.d.html

6. 宜宾市农业水资源可持续利用研究,学位论文,四川农业大学，2010. || Dissertation. Research on Sustainable Utilization of Agricultural Water Resources in Yibin City, Sichuan Agricultural University. 2010.

7. 郭寅.城市水资源污染治理与环境保护分析[J].环境与发展,2017,29(10):201-202. || Guo Yin. Analysis of Urban Water Resource Pollution Control and Environmental Protection [J]. Environment and Development.2017, 29(10): 201-202.

8. Johnson, D. L.; Ambrose, S. H.; Bassett, T. J.; Bowen, M. L.; Crummey, D. E.; Isaacson, J. S.; Johnson, D. N.; Lamb, P.; Saul, M.; Winter-Nelson, A. E. (1997). "Meanings of Environmental Terms". Journal of Environmental Quality. 26 (3): 581–589. Bibcode:1997JEnvQ..26..581J. doi:10.2134/jeq1997.00472425002600030002x.

9. 养殖户如何管理好池塘水质？学会这三点！肥水无误,老虾农,互联网资源,2021. || Shrimp farmers. "How do farmers manage pond water quality well? Learn these three points! The fat water is accurate!". 2021.

10. 水资源管理与保护,高校学位库, 2023. || University Degree Database, Water Resource Management and Protection, 2023.

11. 姚顺.城市水资源污染治理与保护[J].科技创新与应用，2020(04):142-143. || Yao Shun. Urban Water Resource Pollution Control and Protection [J]. Technological Innovation and Application. 2020(04): 142-143.

12. 周桂林.水资源保护及其可持续利用分析[J].南方农机,2019,50(09):292. || Zhou Guilin. Analysis of Water Resource Protection and Sustainable Utilization [J]. Southern Agricultural Machinery.2019,50(09): 292.

13. 周小利.浅谈水产养殖过程中的水质控制,当代水产，2018. || Zhou Xiaoli. A Brief Discussion on Water Quality Control in Aquaculture Process, Contemporary Water Production. 2018.

**Qu Hang**

**Suyun keyfiyyətini qorumaq üçün sosial iş müdaxiləsinin tədqiqi**

**Xülasə**

Su insan cəmiyyətinin yaşaması və inkişafı üçün əvəzsiz həyat mənbəyidir. Lakin hazırda dünyada suyun keyfiyyəti ilə bağlı ciddi problemlər yaşanır. Suların çirklənməsi və su qıtlığı getdikcə daha çox önə çıxır. Bu isə insan sağlamlığına və ekoloji mühitin tarazlığına ciddi təhlükə yaradır. Bu kontekstdə su keyfiyyətinin mühafizəsində sosial işçilər tərəfdarlar, könüllülər, hüquq müdafiəçiləri, praktiklər rolunu oynayırlar. Sosial işçilər suyun keyfiyyətinin mühafizəsində öz peşəkar üstünlüklərindən istifadə edərək suların keyfiyyətinin mühafizəsi sahəsində sosial problemlərin həlli, su resursları və insan rifahının davamlı istifadəsinə töhfə verirlər.

**Açar sözlər:** sosial iş, suyun keyfiyyəti, qorumaq, sağlamlıq təsiri

**Цюй Хан**

**Исследование вмешательства социальной работы в защиту качества воды**

**Резюме**

Вода является источником жизни и важным ресурсом, необходимым для выживания и развития человеческого общества. Однако в настоящее время мир сталкивается с серьезными проблемами качества воды. Загрязнение воды, нехватка воды и другие явления становятся все более заметными, серьезно угрожая здоровью человека и балансу экологической среды. В этом случае социальные работники играют роль пропагандистов, волонтеров, правозащитников и практиков в области защиты качества воды. Социальные работники используют свои профессиональные преимущества для решения социальных проблем в области охраны качества воды и содействия устойчивому использованию водных ресурсов и благосостоянию людей.

**Ключевые слова:** социальная работа, качество воды,сохранение, воздействие на здоровье

# ELM. TƏHSİL.
# TƏDQİQAT VƏ İNKİŞAF

# SCIENCE. EDUCATION.
# RESEARCH AND DEVELOPMENT

# MÜASİR UNİVERSİTET KONSEPSİYASI: TƏHSİL, TƏDQİQAT VƏ İNNOVASİYA EKOSİSTEMİNİN İNKİŞAFI

**Aqşin MƏMMƏDOV**
*Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi,*
*filologiya üzrə fəlsəfə doktoru*
*(Bakı, Azərbaycan)*

*E-mail: agshin.mammadov76@gmail.com*
*ORCID: 0000-0001-9341-2079*

**Xülasə:** Biliklərə əsaslanan innovativ cəmiyyətin iqtisadiyyatı yüksək ixtisaslı mütəxəssislərin xüsusi çəkisinin artmasını, fasiləsiz təhsil üçün şəraitin yaradılmasını, sosial və iqtisadi dəyişikliklərə uyğunlaşmanı təmin edə bilən innovativ təhsil sistemlərini tələb edir. Qloballaşma dövründə elmtutumlu məhsul və xidmətlərin yaradılmasına əsaslanan rəqabət müasir təhsilin strategiyasını müəyyən edir. Son illər ayrı-ayrı dövlətlər elm və texnologiya siyasəti çərçivəsində tədqiqat universitetlərinin inkişafı istiqamətində addımlar ataraq, müəyyən proqramlar həyata keçirərək və zəruri elmi infrastrukturu inkişaf etdirərək tədqiqat universitetləri vasitəsilə uzunmüddətli perspektivdə sosial-iqtisadi dəyər yaratmağı hədəfləyirlər. Tədqiqat universitetləri innovasiya ekosisteminin inkişafı və transformasiyasında milli-regional səviyyədə mühüm rol oynayır.

Məqalədə tədqiqat universitetlərinin yaranması, əhəmiyyəti və ölkəmizdə bu istiqamətdə mövcud vəziyyət təhlil edilir, müəyyən təkliflər verilir.

**Açar sözlər:** tədqiqat universiteti, təhsil, tədqiqat, innovasiya, beynəlmiləlləşmə, təhsil ifrastrukturu, keyfiyyətli təhsil, tədqiqat mühiti, rəqbətədavamlı kadr potensialı, əmək bazarı, universitet-sənaye/özəl sektor əməkdaşlığı, startap mühiti, elmi nəşrlər, istinadlar

## Giriş

Son 50 ildə bir çox ölkələrdə baş verən struktur dəyişiklikləri universitetlərin öz missiyalarına uyğun olaraq diversifikasiya etməsinə şərait yaratmış və dünyada "tədqiqat universiteti" anlayışı yaranmışdır. Universitetlərin ən mühüm missiyası innovasiyaları dəstəkləyən mühit və klasterlər yaratmaq, bilik istehsal etmək, innovativ və yaradıcı insan resurslarını yetişdirməkdir. XXI əsrdə bilik iqtisadiyyatının mərkəzi institutu tədqiqat universitetləri hesab edilir. Yüksək ixtisaslı akademik heyət, mükəmməl tədqiqat nəticələri, təhsil və təlimdə yüksək keyfiyyət, güclü maliyyə mənbələri, geniş tədqiqat imkanları, milli və beynəlxalq səviyyəli istedadlı tələbələr, akademik azadlıq və s. tədqiqat universitetlərinin müəyyən edilmiş xüsusiyyətləridir [17].

Son illər Azərbaycanda digər sahələrdə olduğu kimi elm və təhsil sahəsində də strateji hədəflərə yönəlik islahatların aparılmasına başlanılıb. Elm və təhsil sahələrinin inteqrasiyasının dərinləşdirilməsi sayəsində Azərbaycan özünün intellektual resurslarından daha səmərəli və məhsuldar istifadə etməyi hədəfləyir. Ölkədə elm və təhsilin inteqrasiyası istiqamətində atılmış mühüm addımlardan biri Prezidentin 28 iyul 2022-ci il tarixli fərmanı ilə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin yaradılması [1] ilə bağlıdır. Prezidentin 22 iyul 2022-ci il tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda isə elmin müxtəlif sahələri üzrə tədqiqatların genişləndirilməsi, kreativ düşüncəli gənclərin elmə cəlb olunması, elm sahəsində rəqabətli maliyyə mexanizminin yaradılması və təhsilin bütün səviyyələrində İKT əsaslı infrastrukturun inkişaf etdirilməsi, rəqəmsal biliklərin dərinləşdirilməsi başlıca vəzifələr kimi qarşıya qoyulub. Digər mühüm hədəflərdən biri də elmi-tədqiqat işlərinin kommersiyalaşdırılmasına ciddi dəstəyin verilməsi və innovativ inkişafın prioritetliyinin təmin edilməsidir. Bu kontekstdə startaplar və investorlar üçün adekvat fiskal imtiyazlar sisteminin hazırlanması və tətbiqi də gözlənilir. "Abşeron vadisi" innovasiya klasterinin yaradılması isə iqtisadiyyatın perspektivli sahələrində innovasiyaların işlənməsini və tətbiqini intensivləşdirəcəkdir [2].

Strategiyada "3.1.5. Elmi tədqiqatların və innovasiyaların inkişafının, elm və təhsilin inteqrasiyasının təmin edilməsi" fəaliyyət istiqaməti üzrə ölkədə tədqiqat potensialı yüksək olan 2 universitetin bazasında 2 tədqiqat universitetinin yaradılması nəzərdə tutulur. Həmin sənəddə qeyd edilir ki, Azərbaycan dövləti postpandemiya və postkonflikt dövründə keyfiyyətcə yeni olan və 2022–2030-cu illəri əhatə edən strateji inkişaf mərhələsinə daxil olur. Bu strateji dövrdə yeni nəsil struktur və institusional islahatlar vasitəsilə iqtisadi artımın müasir və dayanıqlı mənbələrinin hərəkətə gətirilməsi, milli iqtisadiyyatın innovasiya yönümünün və maliyyə dayanıqlılığının daha da gücləndirilməsi, ölkə iqtisadiyyatının qlobal dəyər zəncirinə səmərəli inteqrasiya yolu ilə Azərbaycan dövləti öz qüdrətini daha da artırmaqla, yüksək rifah cəmiyyətinin qurulması istiqamətində yeni hədəfləri gerçəkləşdirmək əzmindədir [2].

Məqalədə dünyada və Azərbaycanda tədqiqat universitetlərinin yaranma zərurətindən bəhs edilir.

## 1. Dünyada tədqiqat universitetləri: tarixi, konsepsiyası və əhəmiyyəti

XIX əsrdə təbii inkişaf kimi modernləşməni yaşayan cəmiyyətlər və dövlətlər üçün ali təhsil müəssisələrinin

müasir universitetlərə çevrilməsi eyni dərəcədə təbii idi. Anqlo-sakson, fransız, holland və şotland modelləri bu təbii inkişafın fərqli nümunələridir. İngilis müstəmləkəçiliyi ilə Şimali Amerika, Hindistan və Avstraliyada anqlo-sakson ali təhsil müəssisələri yaradıldı [30]. 1810-cu ildə Prussiya islahatı zamanı əsası qoyulan Berlin (Humboldt) Universiteti bugünkü müasir universitetlərin ən qabaqcılı hesab olunur. Vilhelm von Humboldt Berlin Universitetini təsis edərkən yazdığı memorandumda müasir universiteti üç prinsipə əsaslanaraq müəyyən edirdi: (i) tədqiqat və təhsilin ayrılmaz vəhdəti; (ii) azadlıq; (iii) akademik özünüidarəetmə [24].

Tədqiqat və təhsilin vəhdətini vurğulayan bu model o dövr üçün yeni bir konsepsiya idi. Bu yanaşma pedaqoqların həm də qabaqcıl tədqiqatçılar olmasını, tədqiqat və təhsil mövzularını seçməkdə qeyri-məhdud sərbəstliyə malik olmasını nəzərdə tuturdu. Bu model çox uğurlu oldu və bütün dünyada qəbul edildi. Rusiyada Sankt-Peterburq Universitetinin (1819), Avstriyada Vyana Universitetinin (1848), ABŞ-da Con Hopkins Universitetinin (1876), Yaponiyada Tokio Universitetinin[1] (1877), Çində Pekin Universitetinin[2] (1898), Osmanlı imperiyasında Darülfünunun (1863-1900) qurulması Humboldt modelinin bütün dünyaya yayılmasının nəticəsidir.

Humboldt modelindən əvvəl Avropada, xüsusilə Almaniyada güclü universitetlər fəaliyyət göstərirdi. Həmin illərdə alman ali təhsil sistemi Amerika təhsil sisteminə çox güclü təsir edirdi. Belə ki, Amerikada 1740-cı ildə əsası qoyulan Pensilvaniya Universitetinin qurucusu Benjamin Franklin 1776-cı ildə Almaniyanın Göttingen Universitetinə səfər edir. O, səfər zamanı universitetin kitabxanasına və təhsil sisteminə heyran qaldığını bildirir.

Göttingen Universiteti 1734-cü ildə baş nazir Gerlaç (Gerlach) Adolf tərəfindən təsis edilib və o dövrdə Avropanın ən görkəmli universiteti hesab olunurdu. Amerikadan Avropaya edilən bu səfərlərin sayı və əhatə dairəsi getdikcə genişləndi. Bu mütəmadi təmaslar və əməkdaşlıq üçün yaradılmış mühit nəticəsində ABŞ Federal Hökuməti 1815-1914-cü illər arasında minlərlə amerikalı tələbəni müxtəlif ali təhsil pillələrində oxumaq üçün Almaniyaya göndərdi. Təhsildə atılan bu strateji addımlar Amerika ali təhsili üçün təməl daşı rolunu oynadı. Sonrakı illərdə yüksək təhsil almış bu heyət öz ölkələrinə qayıtdı və güclü Amerika Akademiyasının yaradılmasında mühüm rol oynadı [38].

Beləliklə, anqlo-sakson universitet modelinin Humboldt modeli ilə qarışıb inkişaf etməsi müstəqilliyini əldə edən və vətəndaş müharibəsini geridə qoyan ABŞ-da baş verdi. Amerika universitetləri müasir alman universitetinin özək strukturunu əsas götürərək yeni universitet konsepsiyasını işləyib hazırladılar. Alman modelində fakültə üzvü sinifdə tələbələrə öz fikirlərinin düzgünlüyünü izah edir, Amerika modeli isə professor-müəllim heyətinin mübahisəli məsələlərdə sinifdə neytral olmasını və müzakirəyə rəhbərlik etməsini təklif edirdi. Digər tərəfdən, alman modeli univer-

[1] Yaponiyada Meiji dövründə (1868-1912) başlayan modernləşmə islahatları zamanı 1877-ci ildə qurulan Tokio Universiteti 1886-cı ildə İmperator Universiteti adını aldı. Bu universitet 1887-ci ildə qurulan Kyoto Universiteti ilə birlikdə müasir imperiya universitetinin ilk ikisi oldu. 1939-cu ilə qədər yeddisi Yaponiyada, ikisi isə o zamanlar Yaponiya imperiyasının sərhədləri daxilində olan Koreya və Tayvanda yaradılmış ümumilikdə doqquz imperiya universiteti Yaponiyanın ilk müasir universitetləri idi. Bu mövzuya dair ətraflı məlumat üçün baxın: [31]

[2] Çindəki müasir universitetin hekayəsi də eyni şəkildə inkişaf etmişdir. Bax: [19; 21]

sitet daxilində geniş akademik müstəqilliyə imkan verir və professor-müəllim heyətini universitetdən kənarda qərəzsiz hərəkət etməyə təşviq edərkən, amerikan universitet modeli professor-müəllim heyətini öz intellektual biliklərini universitetdən kənarda cəmiyyətlə bölüşməyə təşviq edirdi [20; 26].

Göründüyü kimi, müasir "tədqiqat universiteti" konsepsiyası əsasən ABŞ təcrübəsinin məhsuludur. Bu universitetlər tədqiqat yönümlü olsalar da, həm də təhsil prosesini və ictimai faydalı fəaliyyətlərini yüksək səviyyədə davam etdirməyi hədəfləyirlər. Akademik dəyər sıralamasında müstəqil tədqiqat və tənqidi düşünmə bacarıqlarının inkişafına üstünlük verir, akademik strukturlarını və həvəsləndirmə mexanizmlərini bu dəyərlərə uyğun təşkil edirlər.

Dünyanın tədqiqat universitetləri reytinqində ilk 10 universitetin yaranma illəri cədvəl 1-də verilmişdir.

Ölkənin rifah səviyyəsinin yüksəldilməsi, təhsil almaq üçün münbit mühitin və ictimai strukturun yaradılması ali təhsilin əsas vəzifələrindəndir. Müasir universitetlər həm yeni biliklər istehsal edir, həm də bu bilikləri ötürdükləri üçün rəqəmsal dövrün sürətli və inanılmaz təsiri ilə yaratdıqları güclü ekosistemə malik fundamental oxdur. Tədqiqat universitetləri isə bilik əldə etmək, tətbiqi tədqiqatların innovasiyaya çevrilməsi, texnologiyanın kommersiyalaşdırılması, orijinal tədqiqat infrastrukturuna və bu sahələrə həsr olunmuş böyük və ciddi mərkəzlərə malik olmaq, klinik sahə araşdırmaları kimi xüsusiyyətləri ilə ölkələrin firavanlığına və güclü iqtisadiyyatına intensiv və funksional təsir göstərirlər.

Qeyd edildiyi kimi, tədqiqat yönümlü universitetlər digər universitetlərdən bir sıra xüsusiyyətlərinə görə fərqlənirlər. Avropa Tədqiqat Universitetləri Liqası (League of European Research Universities - LERU) tədqiqat universitetləri üçün aşağıdakı tövsiyələri təqdim edir. Tədqiqat universitetləri:

❖ fundamental tədqiqatları dəstəkləməli və aparmalıdır;

❖ bütün akademik səviyyələrdə tədqiqatçılara tədqiqat bütövlüyü və hə-

**Cədvəl 1.**

| Sıra №-si | Təşkilat | Yaranma ili |
|---|---|---|
| **1** | Harvard Universiteti (ABŞ) | 1636 |
| **2** | Kaliforniya Universiteti, Berkli (ABŞ) | 1869 |
| **3** | Stenford Universiteti (ABŞ) | 1891 |
| **4** | Massaçusets Texnologiya İnstitutu (ABŞ) | 1865 |
| **5** | Kembric Universiteti (İngiltərə) | 1209 |
| **6** | Kaliforniya Texnologiya İnstitutu (ABŞ) | 1891 |
| **7** | Prinston Universiteti (ABŞ) | 1746 |
| **8** | Kolumbiya Universiteti (ABŞ) | 1754 |
| **9** | Çikaqo Universiteti (ABŞ) | 1891 |
| **10** | Oksford Universiteti (İngiltərə) | 1096 |

**Mənbə: [23]**

dəfliliyi (research integrity) öyrədilməlidir;

❖ tədqiqat sahəsində yaxşı təcrübəyə dair aydın qanunvericilik işləyib hazırlamalı, bu məsələ ilə bağlı komitələr yaratmalı və hüquqi baza ilə institusional strukturu nəzarətdə saxlamalıdır;

❖ hesabatlı və şəffaf olmalıdır;

❖ tədqiqatçılar üçün aydın, etibarlı, standartlaşdırılmış tədqiqat mədəniyyəti mühiti təqdim etməlidir [22].

Qeyd edək ki, Avropa Tədqiqat Universitetləri Liqası (LERU) hamısı dövlət fondları tərəfindən dəstəklənən 23 universitetdən ibarətdir. 2013-cü ildə universitet birlikləri, o cümlədən LERU, Hefei Bəyannaməsində tədqiqat universitetinin əsas xüsusiyyətlərini qeyd etmişdir [34]. 19-20 may 2022-ci il tarixlərində Hollandiyanın Leyden şəhərində keçirilən LERU-nun 20-ci yubiley konfransında LERU və onun qlobal şəbəkə tərəfdaşları tədqiqat intensivliyi olan universitetlərin dəyərlərini bir daha təsdiqləyən yeni bəyanat yayımladılar. COVID-19 pandemiyası zamanı dünyada tədqiqat universitetlərinin kritik töhfəsi və uğurunun beş səbəbi müəyyən edildi: etimad, müxtəliflik, açıqlıq, akademik idarəetmə və azadlıq. LERU ilə yanaşı, bu yenilənmiş sənədi Amerika Universitetləri Assosiasiyası, Avstraliyanın “Səkkizlik Qrupu”, Kanada U15, Almaniya U15, Yaponiya RU11 və Britaniyanın Russell qrupları da imzalayıb. Beləliklə, tədqiqat universitetlərinin qlobal nümayəndələri Leyden prinsiplərinə sadiqliklərini ifadə ediblər [22].

Leyden prinsipləri aşağıdakı kimi sadalanır:

❖ universitet daxilində həyata keçirilən bütün araşdırmalarda mükəmməliyə can atmaq;

❖ geniş və dərin tədqiqat fəaliyyəti;

❖ xüsusilə doktorantura proqramlarında tədqiqat hazırlığına verilən əhəmiyyət;

❖ bakalavr və magistratura səviyyələrində keyfiyyətli ali təhsil;

❖ tədqiqatda dürüstlük və etik dəyərlər üçün ən yüksək standartların tətbiqi;

❖ akademik azadlıq və məsuliyyət;

❖ fərqli fikirlərə açıq və tolerant olmaq;

❖ öz tədris və tədqiqat prioritetlərini müəyyən etmək hüququ;

❖ yerli və milli icmaları dəstəkləmək, qlobal problemlər üçün həll yolları hazırlamaq;

❖ açıq və şəffaf idarəetmə prinsipləri [22].

Leyden prinsipləri kimi fundamental prinsiplərə əsaslanmasa da, Karneqi Təsnifatı universitetin mühüm keyfiyyətlərinə də diqqəti cəlb edir. Ölçmə üçün geniş istifadə edilən bu təsnifatda universitetlər öz ixtisaslarına görə qruplaşdırılır. “Tədqiqat universitetləri” adlanan klaster üçün tələb olunan keyfiyyətlərdən bəziləri bunlardır: (i) müəssisələrin kitabxanalarının, məlumat əldə etmək kanallarının, laboratoriyalarının və tələbələri üçün həm təhsil, həm də sosial infrastrukturunun mövcudluğu və davamlılığı, (ii) ixtisaslı professor-müəllim heyəti və tədqiqatçılar üçün cəlbedici mərkəz olması, (iii) doktorantura proqramlarının müxtəlifliyi və keyfiyyəti, (iv) doktorantura məzunlarının bütün dünyada iş tapmaq imkanı. ABŞ-da Karneqi Təsnifatında “çox yüksək tədqiqat fəaliyyəti” klasterində 146 universitet yer alır [27].

Son 50 ildə ali təhsilin getdikcə dinamik və çoxşaxəli xarakterini nəzərə alaraq, Amerika Təhsil Şurası və Tədrisin İnkişafı üzrə Karneqi Fondu 2025-ci il Karneqi Təsnifatları üçün təsnifat strukturunu modernləşdirir. 2025-ci il Karneqi Təsnifatlarına 1970-ci illərin əvvəllərində Ali Təhsil üzrə Karneqi Komissiyası tərəfindən tədqiqat proqramını dəstəkləmək üçün hazırlanmış Əsas Təsnifat

kimi tanınan ənənəvi təsnifat çərçivəsinin yenilənməsi nəzərdə tutulur. Əsas Təsnifat ilkin olaraq 1973-cü ildə ictimai istifadə üçün dərc edilib və daha sonra 1976, 1987, 1994, 2000, 2005, 2010, 2015, 2018 və 2021-ci illərdə yenilənib. 2025-ci il yeniləməsi daha çoxölçülü kateqoriyalara keçəcək və vəziyyəti daha yaxşı əks etdirəcək. Əsas Təsnifatdan əlavə, 2025-ci il Karneqi Təsnifatlarına yeni Sosial və İqtisadi Mobillik təsnifatı da daxil ediləcək [16].

Bu kontekstdə əlavə edək ki, tədqiqat universitetləri ilk növbədə dünya üzrə dövlət universitetləridir. ABŞ və Yaponiyada fond universitetləri və tədqiqat universitetləri də var. "QS World University Rankings 2019" məlumatlarına əsasən, dünyada tədqiqat universitetlərinin sayı 1011-dir. Bunların 40%-i Avropada, 26%-i Asiya-Sakit Okean hövzəsində, 18%-i ABŞ və Kanadada, 9%-i Latın Amerikasında, 7%-i isə Yaxın Şərq və Afrikada yerləşir. Müxtəlif ölkələrdə (məsələn, Almaniya, Niderland, İsveç, Fransa, Rusiya, Amerika, Çin, Türkiyə və s.) tədqiqat universitetlərinin inkişafı üçün milli səviyyədə strategiyalar və təşəbbüslər müəyyən edilmişdir [25].

Türkiyədə tədqiqat universitetlərinin yaradılması ilə bağlı ilk mühüm addımlar ölkə prezidentinin 26 sentyabr 2017-ci il tarixli sərəncamından sonra sürətləndi. Türkiyə Ali Təhsil Şurasının (YÖK) həyata keçirdiyi proqramın əsas məqsədi köklü universitetlərin tədqiqat mərkəzlərindəki missiyalarını fərqləndirərək daha qlobal rəqabətədavamlı bir struktur yaratmaq olmuşdur. 10 tədqiqat və 5 namizəd tədqiqat universitetinin müəyyənləşdirilməsi məqsədi daşıyan proqramın birinci mərhələsində universitetlərdən niyyət bəyannamələrini təqdim etmələri tələb edilmişdir. 4 yanvar 2017-ci il tarixində bütün universitetlərə göndərilən bu niyyət bəyanatı dəvət məktubuna 58 universitetdən cavab gəlmişdir. Universitetlərin rəyindən sonra 3 mərhələdən ibarət qiymətləndirmə proqramı hazırlanmışdır.

Birinci mərhələdə müraciət etmiş 58 universitet rəhbərlik tərəfindən müəyyən edilmiş parametrlər üzrə qiymətləndirilmiş və siyahıdakı universitet sayı 25-ə enmişdir. Universitetlərin seçimində istifadə olunan əsas meyar aşağıdakı kimi olmuşdur. Universitetin:

- missiyası, vizyonu və məqsədləri,
- tədqiqat büdcəsi,
- tədqiqatın idarə edilməsi siyasəti və strategiyaları,
- insan resursları və tədqiqat infrastrukturu,

Rəqəmsal məlumatlar:

- elmi nəşrlərin sayı,
- sitatların sayı,
- beynəlxalq əməkdaşlıq nəşrlərinin sayı,
- layihə fondunun məbləği,
- beynəlxalq əməkdaşlıq layihəsi fondunun məbləği,
- patent sənədlərinin sayı,
- doktorantura məzunlarının sayı,
- 100/2000-ə düşən doktorantların sayı [38].

İkinci mərhələdə, ilk qiymətləndirmədə uğur qazanmış 25 universitetdən nümunəsi Rəyasət Heyəti tərəfindən müəyyən edilmiş özünüqiymətləndirmə hesabatı tələb edilmişdir. 2-ci və 3-cü mərhələlər üçün bir komissiya yaradılmışdır. Komissiyanın üzvləri arasında Türkiyə Elmi və Texnoloji Araşdırmalar Şurasının (TÜBİTAK) sədri, Elm, Sənaye və Texnologiya Nazirliyinin nümayəndəsi, İnkişaf Nazirliyinin Sosial Sektorlar Baş İdarəsinin nümayəndəsi və bəzi rektorlar yer almışdır. Bu komissiya 2-ci mərhələdə daxil olan hesabatları qiymətləndirərək 3-cü mərhələdə 19 universitetin iştirakına qərar vermişdir. Üçüncü mərhələdəki qiymətləndirmədə 7 avqust 2017-ci il tarixində 19 universi-

tetin rektorları və onları müşayiət edən universitetin 2 nümayəndəsi ilə üzbəüz müsahibələr aparılmışdır. Bu müsahibələr nəticəsində 10 tədqiqat və 5 namizəd tədqiqat universiteti müəyyən edilmişdir. Bu universitetlər 26 sentyabr 2017-ci il tarixində Türkiyə Prezidenti tərəfindən Rəyasət Heyətinin himayəsi altında keçirilən Akademik Açılış Mərasimində elan edilmişdir. 2018-ci ildə universitetlərin bölünməsi ilə bağlı fərmandan sonra bu siyahıya İstanbul Universiteti-Cərrahpaşa da əlavə edilmiş və tədqiqat universitetlərinin sayı 11-ə yüksəlmişdir (Ankara, Boğaziçi, Qazi, Gebze Teknik, Ərciyəz, İstanbul Teknik, ODTÜ, İstanbul Universiteti Cərrahpaşa, Hacettəpə, İstanbul, İzmir Texnologiya İnstitutu. Namizəd tədqiqat universitetləri: Bursa Uludağ, Çukurova, Ege, Səlçuk və Yıldız Texniki universitetləri) [38].

Beləliklə, tədqiqat universiteti təbii fəaliyyətləri ilə bir bölgədə və ya ölkədə tədqiqat və inkişaf fəaliyyətlərinin əhəmiyyətli bir hissəsini təmin edir. Belə bir universitetin həm də tədqiqat fəaliyyətini həyata keçirəcək, innovativ ideyaları inkişaf etdirəcək, tədqiqat və inkişafı istiqamətləndirəcək və idarə edəcək işçi qüvvəsi nəsilləri yetişdirməsi gözlənilir.

## 2. Tədqiqatların maliyyələşdirilməsi və kadr potensialı: müqayisəli təhlil

Tədqiqat universitetlərinin yaradılması üçün başlıca faktorlardan biri də müvafiq kadrlara və tələb olunan büdcəyə malik olmaqdır. Çünki keyfiyyətli tədqiqat aparmaq rəqbətədavamlı kadr və büdcə ilə düz mütənasibdir.

Elmin inkişafı üçün əsas faktorlardan hesab olunan maliyyə xərcləri və kadr potensialına tələblər dünya üzrə ildənilə artır. Buna görə də elmin inkişafı üçün ən vacib faktor olan elmi kadr potensialının inkişaf etdirilməsi, yeni çağırışlara uyğun mütəxəssislərin hazırlanması və təhsilin keyfiyyət göstəricilərinin artırılması məsələləri aktuallaşır [11; 12].

Dünya Bankının statistik məlumat bazasında [29] dünyada doktorluq proqramı üzrə ən çox məzun olan ölkələr arasında 1-ci yeri ABŞ tutur. Sonrakı yerlərdə Almaniya, Birləşmiş Krallıq, Hindistan, Yaponiya, Fransa, Cənubi Koreya, İspaniya, İtaliya və Avstraliya gəlir.

Dünya Bankının son statistik göstəricilərində [29] hər milyon nəfər əhaliyə düşən tədqiqatçıların sayına görə ilk yeri 7198 nəfər tədqiqatçı sayı ilə Danimarka tutur. Dünya Bankının bu statistik göstəricisində keçmiş SSRİ və qonşu respublikalar arasında Estoniya, Rusiya, Litva nisbətən yüksək göstəriciyə malik ölkələr siyahısındadır.

Azərbaycana gəlincə, Dövlət Statistika Komitəsinin məlumatına əsasən, ölkəmizdə bir milyon əhaliyə düşən tədqiqatçıların sayı 2600 nəfərdir. Azərbaycanda ali təhsillilərin sayı ümumi əhalinin 10%-ni, iqtisadi fəal əhalinin isə 20%-ni təşkil edir. Elmi tədqiqat və işləmələrlə məşğul olan heyət isə iqtisadi fəal əhalinin 0.5%-ni təşkil edir [3].

Ümumilikdə ölkədə, o cümlədən Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) elmi-tədqiqat institutlarında elmi kadrların hazırlanması doktorantura, dissertantura və magistratura (2015-ci ildən etibarən) yolu ilə həyata keçirilir.

2023-cü ilin məlumatına əsasən, ölkədə fəlsəfə doktoru proqramını həyata keçirən müəssisələrin sayı 116 (o cümlədən elmi müəssisə və təşkilatlar – 74; ali təhsil müəssisələri - 42), fəlsəfə doktoru proqramı üzrə təhsil alanların sayı 2562 nəfər (o cümlədən qadınların sayı 1298) olub. Eyni ildə 688 nəfər fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul olub, fəlsəfə doktoru proqramını bitirənlər sayı isə 613 nəfər (o

**Cədvəl 2.**

| | Tədqiqatçılar | | | onlardan elmi dərəcəsi olanlar | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | elmlər doktorları | | | fəlsəfə doktorları | | |
| | cəmi | kişilər | qadınlar | cəmi | kişilər | qadınlar | cəmi | kişilər | qadınlar |
| **Tədqiqatçılar sayı -cəmi, nəfər** | **14 062** | **5 546** | **8 516** | **382** | **1 012** | **370** | **467** | **487** | **2 980** |
| **onlardan:** | | | | | | | | | |
| **30 yaşa qədər** | 1 604 | 580 | 1 024 | 20 | 19 | 1 | 61 | 13 | 48 |
| **30-39 yaşda** | 2 920 | 1 066 | 1 854 | 32 | 20 | 12 | 694 | 256 | 438 |
| **40-49 yaşda** | 2 999 | 868 | 2 131 | 146 | 92 | 54 | 485 | 504 | 981 |
| **50-59 yaşda** | 2 573 | 908 | 1 665 | 241 | 138 | 103 | 302 | 537 | 765 |
| **60-69 yaşda** | 2 547 | 1 318 | 1 229 | 460 | 354 | 106 | 214 | 708 | 506 |
| **70 və yuxarı yaşda** | 1 419 | 806 | 613 | 83 | 389 | 94 | 11 | 469 | 242 |

**Mənbə: [3].**

cümlədən dissertasiya müdafiə etməklə - 20) olub [3].

2023-cü ilin sonuna tədqiqatçı mütəxəssislərin yaş qruplarına və cinsə görə bölgüsü cədvəl 2-dəki kimi olub.

2023-cü ildə elmlər doktoru proqramını həyata keçirən müəssisələrin sayı ölkə üzrə 89 olub. Elmlər doktoru proqramı üzrə təhsil alanların sayı 608 nəfər (o cümlədən qadınlar sayı 353 nəfər) olub. Eyni ildə elmlər doktoru proqramı üzrə 111 nəfər qəbul edilib, elmlər doktoru proqramını bitirənlərin sayı 120 nəfər (o cümlədən dissertasiya müdafiə etməklə - 10) olub [3].

Dünya miqyasında baxdığımızda Çində doktorluq dərəcəsi alan məzunların sayı hər 1000 nəfərə 2,2 nəfərdir; Amerikada hər 1000 nəfərə 1,7; Avropa İttifaqı ölkələrində hər 1000 nəfərə 1,5 nəfər düşür. Türkiyədə bu göstərici hər 1000 nəfərə 0,4 təşkil edir [3].

Dünya ölkələri elmi tədqiqatlara qoyulan sərmayəni ildən-ilə artıraraq inkişaf üçün yeni perspektivlər axtarırlar. Son illər ABŞ, Avropa, Yaponiya və Çin kimi ölkələrlə yanaşı Cənub-Şərqi Asiya ölkələri də elmi tədqiqatlara daha çox vəsait ayırırlar. Dünyada elmin inkişafına ayrılan vəsaitin 23%-i ABŞ-ın, 21%-i Çinin, 13%-i isə Yaponiyanın payına düşür. Dünyanın əsas elm mərkəzləri haqlı olaraq Şimali Amerika, Avropa və Şərqi Asiya ölkələri hesab olunur. Dünya təcrübəsinə əsasən hər bir ölkədə elmi tədqiqatlara ayrılan illik xərclər orta hesabla ÜDM-in 2-4 faizini təşkil etməlidir. Elmi tədqiqatlara ayrılan maliyyə vəsaitinin ÜDM-də xüsusi çəkisinin az olması elmi heyətin, elmi kadr potensialının azalmasına səbəb olur ki, bu da yüksək elmi nəticələrin alınmasına mənfi təsir edir [9].

Dünya təcrübəsi göstərir ki, tədqiqat və inkişaf fəaliyyətlərinə şirkətlər əhəmiyyətli kapital qoyurlar. UNESCO-nun statistikasına görə, tədqiqat və inkişafa qoyulan qlobal xərclər demək olar ki, 1,7 trilyon ABŞ dolları təşkil etməklə rekord həddə çatıb. Xərclərin 80 faizi 10-a yaxın ölkənin (ABŞ, Çin, Yaponiya, Hindistan, Almaniya, Cənubi Koreya, Fransa, Böyük Britaniya, Tayvan, Rusiya) payına düşür. Avropa İttifaqının 2021-ci ildə tədqiqat və inkişafa ayırdığı vəsait 328 milyard avro olub. 2011-2021-ci illər arasında Avropa İttifaqının tədqiqat və inkişaf xərclərinin böyük hissəsi özəl sektorda həyata keçirilib ki, bu da sözügedən xərclərin üzv ölkələrin ümumi daxili məhsulda (ÜDM) payının 2011-2021-ci illər arasında 1,27 faizdən 1,50

faizə yüksəlməsinə səbəb olub [9].

Bəzi ekspertlər elmə ayrılan xərclərin dövlət büdcəsi hesabına deyil, büdcədənkənar vəsait hesabına formalaşdırılmasını və büdcə vəsaitinin minimuma endirilməsini təklif edirlər. Lakin inkişaf etmiş ölkələrdə elmi tədqiqat və işləmələrə ayrılan xərclər ÜDM-in stabil tərkib hissəsi olaraq dövlət xərclərində prioritet təşkil edir. Qeyri-dövlət büdcəsi vəsaitinin həcminin artması istehsalat və biznes maraqlarının artması fonunda baş verir. Məsələn, son illər dünyanın böyük korporasiyaları APPLE, MERCEDES, SONY, SAMSUNG, HUAWEY və digərləri elm sahəsinə böyük yatırımlar edərək ciddi qazanc əldə edir, istedadlı gənclər üçün elm və təhsil sahəsində xüsusi təqaüdlər və mükafatlar təsis edirlər [9].

BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin bir hissəsi olaraq, ölkələr 2030-cu ilə qədər dövlət və özəl tədqiqat və inkişaf xərclərini, eləcə də tədqiqatçıların sayını əhəmiyyətli dərəcədə artırmağı öhdələrinə götürüblər. Bir çox ölkələr elmi-tədqiqat və inkişaf xərcləri üçün milli hədəfləri ÜDM payı kimi müəyyən etməklə həm özəl, həm də dövlət sektoruna daha çox sərmayə qoymağa çalışır [15].

Respublikamızda tədqiqat və inkişaf fəaliyyətləri ilə məşğul olan təşkilatların sayı 2022-ci ildə 131, 2023-cü ildə isə 134 olub. 2023-cü ildə dövlət büdcəsindən elmə çəkilən xərclər 193.6 milyon manat olub. Bu da ümumi daxili məhsula nisbətən 0.16 faiz, dövlət büdcəsinin xərclərinə nisbətən 0.53 faiz olub. 2023-cü ildə tədqiqat və işləmələrə çəkilən ümumi xərclər 225393.6 milyon manat olub. Tədqiqat və işləmələrə çəkilən daxili xərclər 223639.5 milyon manat (ümumi daxili məhsula nisbətən 0,2 faiz) olub. Elmin sahələri üzrə tədqiqat və işləmələrə çəkilən daxili cari xərclər 220354.9 milyon manat (o cümlədən təbiət – 57194; texniki - 65472.9; tibb - 16921.5; kənd təsərrüfatı - 21962.9; ictimai - 20359.6; humanitar - 38444) olub [3].

Yuxarıda qeyd edilən statistik məlumatlardan məlum olur ki, Azərbaycanda tədqiqat və inkişaf fəaliyyətləri üzrə xərclərdə artım müşahidə olunsa da, özəl sektor bu fəaliyyətdə olduqca geridədir. 2020-ci ildə ümumi xərclənən vəsaitin yalnız 3,3 faizi, 2021-ci ildə 2,9 faizi özəl sektorun payına düşüb. Tədqiqat və inkişaf fəaliyyətləri ilə məşğul olan təşkilatların sayında artım müşahidə olunsa da, özəl sektorda bu cür təşkilatlar olduqca azlıq təşkil edir (2020-2021-ci illərdə müvafiq olaraq 3 faiz və 5 faiz) [15].

Avropa Tədqiqat Universitetləri Liqasına (LERU) daxil olan universitetlərin iqtisadiyyata töhfəsi ilə bağlı hazırlanan hesabatda, bu universitetlərin yaratdığı ümumi əlavə dəyərin hər 1 avronun Avropa iqtisadiyyatına verdiyi töhfə 7 avro ümumi əlavə dəyər və 6 iş yeri olaraq ölçülür. Yalnız 2016-cı ildə bu təsirin dəyəri ümumi əlavə dəyərdə 14,5 milyard avroya və 222,800 nəfərin məşğulluğuna uyğun olub [18].

Ümumilikdə universitet fəaliyyətinin dəyərinin rəqəmlə ölçülməsi mübahisəli məsələ olsa da, deyə bilərik ki, universitetlərə köçürülən vəsaitin həcmi (birbaşa və ya ümumi tədqiqat və inkişafa ayrılan paylar çərçivəsində) əlavə dəyərin göstəricisidir [30].

## 3. Tədqiqat universitetləri ilə dünya reytinqlərinə düşmək mümkündürmü?

İlk növbədə qeyd edək ki, ilk dünya universitet reytinqi 2003-cü ildə Çinin Jiao Tong Universiteti tərəfindən tərtib edilib. Dünya Universitetlərinin Akademik Sıralaması (ARWU) adlanan bu araşdırma daha sonra dünyanın müxtə-

lif ölkələrində bir çox qurumlar tərəfindən tərtib edilən reytinqlərlə izlənildi. Əsas dünya reytinqlərinə aşağıdakılar daxildir: The CWTS Leiden Ranking, The Times Higher Education World University Rankings, The Center for World University Rankings (CWUR), National Tayvan University Ranking (NTU), QS World University Rankings və s.

Bu qurumlar tərəfindən aparılan araşdırmaların meyar kimi müəyyən etdiyi məqamlar haqqında təfərrüatlara varmadan qeyd etmək olar ki, təhsilin keyfiyyəti, tələbə məmnuniyyəti, internet səhifəsinin vəziyyəti, nəşrlərin sayı, tələbəyə düşən professor-müəllim heyətinin sayı, məzun olduqdan sonra iş tapmaq imkanları, akademik heyətin aldığı əməkhaqqı və əlavə ödənişlər, nəşrlərin sitat sayı, kampus şəraiti və s. əsas götürülür. Reytiqnlər üzrə bu qiymətləndirmələr hər bir təşkilata görə dəyişir. Buna görə də, məsələn, bir qurumun uğur sıralamasında ilk 500-də olan universitet digər bir qiymətləndirmədə bu çərçivədən kənarda qala bilər. Bu məqam tədqiqatçılar tərəfindən müzakirə edilir və ya tənqid olunur. Buradakı fərqin əsası müxtəlif meyarlardan və ya tədqiqat metodlarından qaynaqlanır. Lakin hər şeyə rəğmən bu reytinqlərin universitetlərə müəyyən mənada təsir etdiyini və onlara motivasiya verdiyini qeyd etmək olar [35].

Universitet seçimləri edərkən bu reytinqlər tələbələrə və onların ailələrinə universitetin yeri və funksiyası haqqında məlumat verir. İş yerləri üçün müraciət edərkən özəl və dövlət qurumları bu reytinqdə universitetləri bitirən tələbələrə üstünlük verə bilər. Eynilə, professor-müəllim heyəti də reytinqin zirvəsində olan universitetləri seçə bilər. Beynəlxalq tələbə mübadiləsi ilə bağlı universitetlər haqqında məlumat əldə edilir və bu reytinqlərdə birinci olan universitetlərlə əməkdaşlıq etmək daha arzuolunan hesab edilir. Bu sıralama müxtəlif beynəlxalq universitetlərlə akademik əməkdaşlıq qurarkən də təsirli ola bilər. Nəhayət, yerli və beynəlxalq ictimaiyyətin bu universitetlər haqqında müsbət rəyinin yüksək olması onları ağıla gələn ilk universitetlər kimi tanıdır.

Uğur sıralamalarında obyektivlik, metodoloji problemlər, meyarlar kimi xüsusiyyətlərə əsaslanan tənqidlər bir kənara qoyulsa, bu reytinqdə yer almaq istəyən universitetlərin nə etməli olduğu məsələsini gündəmə gətirmək daha faydalı olar. İlk növbədə qeyd edilməli olan məqam ondan ibarətdir ki, universitetlər elmi-tədqiqat müəssisəsi kimi ölkəyə töhfə verir. Əslində, ABŞ Ali Təhsil Şurası və Avropadakı müxtəlif təşkilatlar tərəfindən aparılan araşdırmalarda, professor-müəllim heyətinin tədris üçün sərf etdikləri müddətlərin azaldılması, ölkəyə və elmə daha çox töhfə verməleri vurğulanır. Buna əsaslanaraq, bütün dünyada uzun illər əvvəl fəaliyyətə başlayan, lakin son illərdə böyük əhəmiyyət kəsb edən tədqiqat universitetlərinin önə çəkilməsi və bu xüsusiyyətləri sayəsində ixtisas sahələrinin yaradılması hədəflənir.

Universitetlərin dünya uğur sıralamalarına baxdığımızda, Çinin son illərdəki təhsil sahəsində sıçrayışları nəticəsində bu ölkənin bir çox universitetinun qlobal reytinq sıralamalarına daxil olduğu görünür. Çinin ali təhsildə uğur qazanmasının səbəbi tədqiqat universitetlərinə verdiyi önəmlə izah edilir. Bu, Çinin sabiq prezidenti Cianq Zemin tərəfindən 1998-ci il mayın 4-də Pekin Universitetinin yüzillik yubileyində etdiyi çox mühüm nitqlə bağlıdır. Prezident Zemin bu çıxışında Çinin bir neçə universitetinin dünyanın ən yaxşı universitetləri arasında yer almasının vacibliyini vurğulamış və bu mövzuda araşdırmaların aparılmasına göstəriş vermişdir [35].

Prezident Zeminin tapşırığına

əsasən layihə hazırlanıb, ölkənin ən uğurlu 9 universitetinə əlavə büdcə və professor-müəllim heyəti ayrılıb, xaricdən ixtisaslı professor-müəllim heyəti dəvət edilib. Bundan əlavə, hesabat hazırlanaraq doqquz tədqiqat universitetinin dünya reytinqlərində yeri müəyyən edilib və onların ilk 300-500 universitet reytinqində yer aldıqları məlum olub. Üç il ərzində bir komissiya tərəfindən aparılan bu araşdırma daha sonra 2003-cü ildə Jiao Tong (ARWU) adı altında ilk dünya universitetləri reytinqinə çevrilib. Dövlətin dəstəyi və öz səyləri ilə tədqiqat universitetləri sürətlə dünyanın uğurlu universitet reytinqlərində zirvəyə yüksəlib. Sonradan bu doqquz universitetin hamısı dünya reytinqində ilk yüzliyə daxil ola bilib. Məsələn, The Times Higher Education Dünya Universitetlərinin (World University Rankings) 2024-cü il üçün tərtib etdiyi reytindində ilk onluqda ənənəvi olaraq ABŞ və Böyük Briyaniya universitetləri yer tursalar da, Çinin Tsinghua Universiteti 12-ci, Pekin Universiteti isə 14-cü yerdə qərarlaşıb [28].

Çində olduğu kimi, Yaponiya hökuməti də 2008-ci ildə Yaponiya universitetlərinin effektivliyini artırmaq üçün “Qlobal 30” layihəsinə başlamışdır. Bu layihə də tədqiqat universitetlərinə əsaslanır. 2014-cü ildə Yaponiya Top Qlobal Universitet layihəsi üçün 37 universitet müəyyən edib və bu universitetlərə idarəetmə və kurikulum kimi sahələrdə on ilə qədər dövlət dəstəyi göstərib. Rusiya və Cənubi Koreyanın da tədqiqat universitetlərinə əhəmiyyətli vəsait ayıraraq uğur qazandığı məlumdur [35].

“Times Higher Education”nın təhlilinə əsasən, onilliklər ərzində Asiya universitetlərinin sürətli inkişafı dünya ali təhsilində ən vacib hekayələrdən biri olub. Asiya universitetləri reytinqi son buraxılışında bu tərəqqiyə töhfə verən bəzi tendensiyaları yenidən işləyib və özünün təkmilləşdirilmiş metodologiyasında onları aydın şəkildə təqdim edib [14]. “Times Higher Education”nın baş məlumat direktoru Dunkan Ross yüksəksəviyyəli tədqiqat institutlarına yönəldilmiş sərmayədən sonra Çin tədqiqatlarının keyfiyyət və kəmiyyətinin 2022-ci ildə ABŞ-ı üstələdiyini söyləyib. “Çin hökuməti universitetlərə əhəmiyyətli dərəcədə sərmayə qoydu, bu da onların ali təhsil sisteminin tədqiqat hissəsinin transformasiyası ilə nəticələndi. Bir neçə il əvvəl elə bir məqam var idi ki, Çin tədqiqatlarının həcmi ilk dəfə ABŞ tədqiqatlarının həcmini ötdü. Keyfiyyətə nəzər salsanız, Çin tədqiqatlarının orta keyfiyyəti də ABŞ tədqiqatlarının orta keyfiyyətini üstələyib. Bu, ABŞ universitetlərinin hər hansı bir şəkildə pisləşməsi deyil. Onlar təkmilləşirlər, lakin Asiya universitetləri və Çindəki ən yaxşı universitetlərdən bəziləri və ya Sinqapur Milli Universiteti daha sürətlə inkişaf edir. Fakt budur ki, biz həmişəkindən daha irəlidəyik. Universitetlər ümumilikdə yaxşılaşır və bu, dünya üçün yaxşı bir şey olmalıdır" [14].

Azərbaycana gəldikdə isə: ölkəmizdə elmi fəaliyyətin stimullaşdırılması ilə bağlı həyata keçirilən tədbirlər, eyni zamanda, 2015-ci ildə dünyanın tanınmış elmi-analitik informasiya təminatçısı olan “Clarivate Analytics” şirkəti və Təhsil Nazirliyi arasında bağlanmış sazişə əsasən, ölkəmizin ali təhsil müəssisələrinin “Web of Science” elmi məlumat platformasına çıxışının təmin edilməsi ilə başlanan uğurlu əməkdaşlıq öz müsbət nəticələrini verməkdədir. Belə ki, qlobal elmi bazadan istifadə aktivliyinin dinamikasında 2017-ci ildə əvvəlki illə müqayisədə 75 faiz artım, impakt faktorlu jurnallarda çap olunmuş məqalələrin sayında isə son 4 ildə 68 faiz artım qeydə alınmışdır. Nəşr aktivliyinin son 3 ildə artım dinamikasına görə Azər-

baycan regionda birinci yerə çıxmışdır. 2017-ci ildə nəşrlərin sayı 1160 olmaqla son 25 ilin ən yüksək göstəricisi qeydə alınmış, onların, təxminən, 43 faizi ali təhsil müəssisələrinin payına düşmüşdür. Bununla belə, bu sahədə mövcud olan potensial imkanlardan daha səmərəli istifadə istiqamətində səylər daha da gücləndirilməlidir. Sevindirici haldır ki, həmin sazişin davamı olaraq 2018-ci ilin dekabrın 5-də Təhsil Nazirliyi ilə “Clarivate Analytics”şirkəti arasında 2019-2021-ci illəri əhatə edən əməkdaşlığa dair müqavilə imzalanıb. Bu müqavilə mövcud əməkdaşlığın əhatə dairəsinin genişləndirilməsi, “Web of Science @” platformasının rusdilli elmi nəşrlərin bazasına və ölkə üzrə elmi fəaliyyətin əhatəli təhlilinə imkan verən İnCites platformasına çıxışın təmin edilməsini nəzərdə tutur [7].

ким образом, интерсубьективность, в представленном контексте, выступает в качестве интегрального компонента, аккумулирующего внешний феноменологический опыт, недоступный в своей самобытности отдельному Я. Только при построении общей интерпретации в интерсубъективном контексте толкования, представляется возможным обнаружить феноменологическую инаковость восприятия и понимания действительности как объекта герменевтического дискурса. На наш взгляд, представленный подход вполне сообразен феноменологической линии Мерло Понти, усматривающего в данной подходе преобладание солипсических детерминант, пытаясь продемонстрировать действительности средствами существования Другого, задающего его объективность ввиду поливариативности исследовательских призм в системе «Я-Другой-Мир» [10]. Концепция феноменального тела, предложенное Мерло Понти занимает в данном случае магистральную позицию в противовес инструментальной концепции тела Гуссерля, не усматривающего феноменологическую первичность последнего в качестве задающего направление источника.

Поскольку философ уравнивает понятия восприятия и сознания, так как первое в процессе предварительной познавательной деятельности является, одновременно вторым, постольку у нас не существуют индикаторов, указывающих на то, что в конкретном случае признается в качестве идеи, а также материи. Из этого следует, что материя выступает не в контексте чего-то единичного, а в рамках вовлеченности в множественность каузальных связей, где обращается в носитель идеи как такой. Опыт знания и понимания мира, таким образом, разворачивается в рамках аспекта пространственности, где исходная линия закреплена в бинарной оппозиции субъективного и интерсубьективного модуса понимания.

Проводя параллели между взглядами Мерло Понти с концептуальными установками Эдмунда Гуссерля, становится очевидным, что мир обнаруживается не только как феномен индивидуального эго, но и другого трансцендентального, воспринимающего и созерцающего тот же спектр действительности. Важно отметить, что несмотря на постижение и понимание мира первым и вторым не исключает фактор его объективности и единичности, он является чуждым по отношению восприятия Я и Другого, что Гуссерль и обозначает в качестве интерсубъективности. Таким образом, проблема постижение смысла философских текстов в интерсубъективном аспекте понимания отражает соотношение трансцендентально-редуцированного модуса собственного восприятия действительности с Другим, явленного для «Я как нечто чуждое и инаковое» [3]. Например, в отличие от Гуссерля, Гадамер рассматривает интерсубьективный характер понимания в форме диалога, вбирающего в себя представителей различных эпох, что выводит на передний план роль историко-философской и культурологической традиции. Встроенность герменевта в определенный историко-культурологический контекст создает особую герменевтическую ориентацию, раскрывающейся в рамках коммуникативных взаимодействий представителей иной исторической парадигмы.

## ЗАКЛЮЧЕНИЕ

В заключении необходимо констатировать, что картезианская эгоцентрическая призма, содержащая в себе

принципы методологического солипсизма, предвосхитила зарождение феномена интерсубъективности как в рамках онтологической, так и гносеологической проблематики. Осмыслив основные положения картезианского повествовательного образа восприятия и понимания действительности Эдмунд Гуссерль и Жан Поль Сартр ясно предпринимают попытку разрешения данной проблемы, сохраняя базисные установки картезианских представлений. Стремясь преодолеть специфику картезианских положений интерсубьективизма в восприятии и понимания действительности, Мартин Хайдеггер дискредитируют последнее посредством внутренней экспликации онтологических детерминант человеческого бытия, зиждущегося на формуле «ego cogito». Продолжение представленной критики обнаруживается также в философской традиции Гадамера, который в отношении проблемы понимания в контексте его интерсубъективности усматривает в феномене «предпонимания», в котором заключен весь ретроспективный исторический опыт человеческого сознания. На наш взгляд, именно с начала XX века, интерсубьективность как феномен понимания претерпевает серьезные метаморфозы, соприкасаясь с критикой со стороны представителей постмодернизма, где ведущая роль в решении отводится специфике языковых конструкций. Идеи позднего Витгенштейна, в частности отказ от позиции «логического атомизма» как стремления математизации и демаркации понятий в систему строгих единиц измерения логики, кардинально изменили взгляд не проблему интерсубьективности понимания. Жак Деррида, Ричард Рорти и Юрген Хабермас выносят за скобки определяющее значение традиции, что на наш взгляд является чрезвычайно опрометчивым шагом, поскольку воздействие культурного контекста совершенно очевидно усматривается не только в достоверном восприятии и понимания действительности, но и в траектории развития всей западноевропейской цивилизации как таковой.

## ИСПОЛЬЗОВАННАЯ ЛИТЕРАТУРА:

1. Гуссерль Эдмунд. (2010) Картезианские медитации. М.: Академический проект.

2. Гуссерль Эдмунд. (1994) Собрание сочинений. Феноменология внутреннего сознания времени // Издательство: Гнозис ЛОГОС Москва: T. I.

3. Гуссерль Эдмунд. Феноменология: [Статья]; (1913) Идеи к чистой феноменологии и феноменологической философии. Т. 1.

4. Гуссерль Э. (1999) Идеи к чистой феноменологии и феноменологической философии. // ДИК. Т. 1. – Москва.

5. Гуссерль Эдмунд. (2004) Кризис европейских наук и трансцендентальная феноменология. // Издательство: «Владимир Даль». – Москва.

6. Гуссерль Эдмунд. (2001) Картезианские размышления. // Издательство: Наука, Санкт-Петербург.

7. Сартр Ж.-П. (2003) Трансцендентность Эго. Набросок феноменологического описания // Издательство: Логос. № 2.

8. Кузнецов В.Н. (1970) Сартр и экзистенциализм. – Москва.

9. Мерло-Понти М. (1992) Око и дух. Издательство: Искусство. – Москва.

10. Мерло-Понти М. (1999) Феноменология восприятия. СПб.: Наука.

**Aida Tyukmayeva**

## ANLAMAĞIN HERMENEVTİK TƏCRÜBƏSİ VƏ İŞARƏ-SİMVOLİK SİSTEMLƏRİN ƏSASLARI ŞƏRHİN İNTERSUBYEKTİV KONTEKSTİNDƏ

**Xülasə**

Məqalədə müəllif humanitar elmlər sahəsində tədqiqatın əsas aspekti olan şərhin subyektlərarası kontekstində işarə-simvolik sistemlərin dərk edilməsi və əks etdirilməsinin hermenevtik təcrübəsini nəzərdən keçirir. İstifadə olunan şərhə subyektlərarası yanaşma çərçivəsində müxtəlif mədəni və sosial kontekstlərdə məna və işarələr arasında qarşılıqlı təsir proseslərini dərk etməyə yönəlmiş subyektlər arasında əlaqə və ünsiyyətin, onların məna və şərhin birgə qurulmasının əhəmiyyəti nəzərə alınır, həmçinin subyektlərarası münasibətlərin şərhin spesifikliyinə və semantikasına təsiri öyrənilir.

**Açar sözlər:** hermenevtika, anlama, əks, işarə-simvolik sistemlər, subyektlərarası kontekst, şərh, məna, mövzu, ünsiyyət, mətn, kontekst, qavrayış, sosial-mədəni təcrübə

**Aida Tyukmaeva**

## HERMENEUTIC EXPERIENCE OF UNDERSTANDING AND REFLECTION OF SIGN-SYMBOLIC SYSTEMS IN INTERSUBJECTIVE CONTEXT OF INTERPRETATION

**Abstract**

This article examines the hermeneutic experience of understanding and reflecting on sign-symbolic systems within the intersubjective context of interpretation, a critical aspect of research in the humanities. The intersubjective approach to interpretation emphasizes the significance of interaction and communication between subjects, their collaborative construction of meaning, and the interpretation processes that explore the interplay of meaning and signs across diverse cultural and social contexts. Additionally, it considers the impact of intersubjective relations on the specificity and semantics of interpretation.

**Keywords:** hermeneutics, understanding, reflection, sign-symbolic systems, inter-subjective context, interpretation, meaning, subject, communication, text, context, perception, socio-cultural experience

# MÜHARİBƏDƏN ƏZİYYƏT ÇƏKMİŞ ŞAGİRDLƏRİN RİFAHININ YÜKSƏLDİLMƏSİNDƏ MƏKTƏBİN ROLU

**Günay RÜSTƏMLİ,**
*ADA universitetinin magistrantı, Təhsil fakültəsi*
*ID nömrəsi: P000017080*
*E-mail: rustemligunay91@gmail.com*

**Zəhra ZEYNALOVA**
*ADA universitetinin magistrantı, Təhsil fakültəsi*
*ID nömrəsi: P000016932*
*E-mail: goygol_lisey@mail.ru*

**Neymət RÜSTƏMLİ**
*ADA universitetinin magistrantı, Təhsil fakültəsi*
*ID nömrəsi: P000016534*
*E-mail: turksoylu@mail.ru*
*Elmi rəhbər: Dr. Qoşqar Məhərrəmov*

**Xülasə:** Bu layihə Ağdam rayonunun keçmiş cəbhə xəttində yerləşən məktəblərində müharibə nəticəsində travma alan və müharibədən əziyyət çəkmiş IX, X və XI siniflərdə təhsil alan şagirdlərin rifahının artırılmasında məktəbin əhəmiyyəti və rolu ilə bağlı tədqiqatı ətraflı şəkildə təhlil edir. Şagirdlərlə aparılmış bir sorğu əsasında "şagird emosiyaları" və "məktəb mühiti" başlıqları altında təqdim olunan suallar vasitəsilə şagirdlərin sosial, emosional və psixoloji vəziyyəti araşdırılıb. Araşdırmanın nəticələri məktəblər tərəfindən tədris olunan dərslər və digər dərsdənkənar məşğələrlə şagirdlərin mənəvi və intellektual rifahını yüksəldə biləcəyini vurğulayır. Bu dərs və məşğələlər şagirdlərin emosional və sosial inkişafına müsbət təsir edəcək, onların müharibə zamanı yaşadığı stress, qorxu və travmanı unutmasına köməklik göstərəcək. Nəticə və təkliflər köhnə cəbhə xəttində yerləşən bu məktəblərin müharibədən sonrakı dövrdə şagirdlərin rifahını artırmaq üçün beynəlxalq təcrübəyə əsaslanaraq, müxtəlif istiqamətlərdə islahatlar aparılacağını və məktəbin şagirdlər üçün doğma bir məkana çevriləcəyini göstərir.

**Açar sözlər:** silahlı münaqişə, müharibə travmaları, şagird rifahı, məktəbin rolu, Ağdam rayonu

## Giriş

Birləşmiş Millətlər Təşkilatının Uşaq Hüquqları Konvensiyasının [4] müvafiq bəndlərinə əsasən, hər bir uşağın sağlam böyümək, yaşamaq və təhsil almaq hüququ yaşadığı dövlətin əsas öhdəliyidir. Lakin dünyanın bir çox yerlərində təhsilə təsir göstərən silahlı münaqişələr baş verir. Münaqişə bölgəsində təhsil davam etdirilsə də, bu, birbaşa təhsilin keyfiyyətinə mənfi təsir edir. Müharibələr zamanı ya məktəblər dağıdılıb, ya şagirdlər öldürülüb, ya da şagirdlər müharibə səbəbindən yaşadığı ərazini tərk edib, təhsil hüququndan məhrum olunublar [27]. Hər il təxminən 250 milyon uşaq silahlı münaqişələrdən əziyyət çəkir. 75 milyon uşaq isə müharibə və münaqişələr səbəbindən təhsildən uzaq düşür [31]. Münaqişə davam edir və münaqişə sona çatır, nəticədə isə ərazilərə atılan partlayıcılar və silahlar, minalar və bombalar hər il dünyada minlərlə uşağın ölümünə və ya əlilliyə səbəb ola bilir [27]. 30 ildir ki, Azərbaycan və Ermənistan arasında baş verən silahlı münaqişə zamanı sərhədboyu və cəbhəyanı ərazilərdə yüzlərlə məktəbdə minlərlə şagird təhsil alıb. Bu məsələyə təkcə Ağdam regionu aspektindən baxdıqda görünür ki, işğaldan əvvəl Ağdam rayonunda (1993-cü ilə qədər) 99 məktəb, 2966 müəllim, 29478 şagird fəaliyyət göstərib [5]. Lakin rayon ərazisinin 70%-i işğal olunandan sonra, Ağdam rayonunun 20 kəndi 1993-cü ildən cəbhə xəttinə, bu kəndlərdəki məktəblər isə cəbhə xəttindəki təhsil ocağına çevrilib. Məktəblər müharibə zamanı hərbi hissə kimi istifadə olunub. Atəşkəs dövründə isə dəfələrlə atəşkəsin pozulması nəticəsində müəssisələr zərər görüb. 2016-cı il Aprel döyüşlərində və 2020-ci il Vətən müharibəsində Ağdam rayonunun cəbhə xəttində yerləşən Sarıcalı, Qaradağlı, Mahrızlı, Gül Baharlı kəndlərində və Baharlı qəsəbəsində yerləşən məktəblər artilleriya zərbəsi ilə dağıdılıb. Atəşkəs rejiminin pozulması zamanı 34 məktəbli erməni terrorunun və minaların qurbanı olub, onlardan 14-ü həlak olub, 20-si yaralanıb [5].

Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi cəbhə bölgəsinə çevrilən Ağdam rayonunda yuxarıda ifadə edildiyi kimi təhsilin kəmiyyət və keyfiyyət göstəricilərinə mənfi təsir göstərib. Bu təsiri sadəcə fiziki və ya maddi olaraq qəbul etmək doğru olmaz. Belə ki, mənəvi və psixoloji təsirləri uzun müddət qalıcı olmuşdur və olmaqdadır.

**Problem**: Qarabağ münaqişəsi zamanı şagirdlərin təhsildən uzaq qalması, məktəblərin silahlı hücuma məruz qalması onların emosional və psixoloji rifahına mənfi təsir edib. Bu təsirlər nəticəsində şagirdlərin akademik nəticələri zəifləyib, məktəblərdə mənfi davranış göstərənlərin kəmiyyəti artıb. Məktəb isə bu problemlərə həll tapmaqda çətinlik çəkib [29].

**Tədqiqatın məqsədi**: Bu layihənin məqsədi Ağdam rayonunda-köhnə cəbhə xəttində yerləşən kəndlərdə şagirdlərin rifah səviyyəsini öyrənmək, onların rifahında məktəbin rolunu müəyyən etmək və mövcud vəziyyətə uyğun təkliflər verməkdir. Məktəblərdə şagirdlərin rifahının öyrənilməsi üçün bir çox ölkələrdə müxtəlif vaxtlarda tədqiqatlar aparılıb. Təbii ki, coğrafi məkan, zaman, sosial, siyasi və iqtisadi vəziyyət baxımından fərqli nəticələr əldə olunub [12]. Ancaq Azərbaycanda şagirdlərin rifahının öyrənilməsi ilə bağlı əhatəli və data əsaslı tədqiqat işi mövcud deyil. Bu layihə həm müharibədən əziyyət çəkən şagirdlərin rifahını öyrənmək, həm də rifahın yüksəldilməsi üçün təhsilin tərəflərinin nələr edə biləcəyini müəyyən etmək və şagirdlərin müharibə travması səbəbi ilə yaranan problemlərin qarşısının alınması üçün təkliflər irəli sürməkdir.

**Tədqiqat sualı:** Tədqiqat zamanı problemləri müəyyən etmək və qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün aşağıdakı təqiqat suallarından istifadə olunub:

Müharibədən əziyyət çəkmiş şagirdlərin rifah səviyyəsi necədir?

Məktəbdəki hansı amillər şagird rifahına təsir edir?

**Ədəbiyyat icmalı:** Bu bölmədə təqiqat layihəsinin mövusu ilə bağlı əldə olunmuş ədəbiyyatlar təhlil edilib. Belə ki, müxtəlif mənbələrdən - məqalə, kitab, jurnal və hesabatlardan əldə edilmiş məlumatları aşağıdakı başlıqlar şəklində təqdim etmək daha məqsədəuyğun hesab olunub.

**1. Silahlı münaqişə və təhsil:** Müharibələr və silahlı münaqişələr dünyanın müxtəlif bölgələrində insanların yaşamaq və təhsil almaq hüququnu əlindən alır [23]. Bu münaqişələr təhsilə mənfi təsir göstərir, şagird və müəllimlərin ölümü və yaralanması, məktəblərin dağıdılması kimi nəticələrə səbəb olur. UNICEF-in hesabatına görə, Cənubi Sudanda müharibə məktəblərin dağıdılması və talan edilməsi, müəllim və şagirdlərin zorakılığa məruz qalması ilə nəticələnib [19]. Yaxın Şərqdə, Suriyadakı müharibə nəticəsində məktəbyaşlı suriyalı qaçqınların sayı artıb və Türkiyədə təhsil al(a)mayan suriyalı uşaqların 41%-i məktəbdən kənarda qalıb [16]. İraqda isə silahlı qarşıdurmalar təhsildə ciddi problemlərə səbəb olub, bir çox şagird təhsildən yayınıb [19]. Yəməndə müharibə nəticəsində minlərlə məktəb bağlanıb və təhsil infrastrukturu ciddi zərər görüb. Türkiyədə də PKK və digər terror təşkilatlarının fəaliyyəti təhsilə mənfi təsir göstərib [24]. Müharibə və münaqişələr uşaqların təhsil hüquqlarını pozur və humanitar yardım agentlikləri bu sahədə kifayət qədər iş görə bilmir [31]. Ermənistan və Azərbaycan arasındakı münaqişə zamanı da bir çox məktəb dağıdılıb və təhsil infrastrukturu zədələnib [10].

**2. Müharibə travmaları:** Müharibələrin dağıdıcı nəticələri uzun illərdir müşahidə olunan kütləvi travma olaraq qalmaqdadır. Müharibələr yalnız iştirak edən ölkələrə deyil, coğrafi və mədəni əlaqəsi olmayan digər ölkələrə də mənfi təsir göstərə bilir [29]. Ən çox təsirlənənlər isə uşaqlar və yeniyetmələrdir, onlar zorakılığa məruz qalır və yardıma möhtac vəziyyətə düşürlər. Qaçqın uşaqların təhsil səviyyəsi dünya ortalamasından aşağıdır, ibtidai və orta məktəbə davamiyyətləri isə daha da azdır [30]. Cənubi Sudanda vətəndaş müharibəsi zamanı məktəblərə və təhsil işçilərinə ciddi ziyan dəyib, şagirdlər girov götürülüb və zorla döyüşlərə cəlb olunub, məktəbyaşlı qızlar isə cinsi zorakılığa məruz qalıb [23]. Azərbaycanda 44 günlük müharibədən zərər çəkmiş şagirdlərə dəstək üçün müəllimlərə təlimlər keçirilib [1]. Münaqişə bölgələrində uşaqlar təhlükə ilə üz-üzədir və zorakılıq həyat tərzinə çevrilir. Müharibələr emosional və psixoloji problemlərə səbəb olur və uşaqların inkişafına mənfi təsir göstərir [24]. Köçkün uşaqların motivasiyası azalır və uyğunlaşma prosesi çətinləşir [27]. Müharibə zamanı və müharibədən sonra uşaqların və yeniyetmələrin cəmiyyətə qarşı aqressiv davranışları artmaqdadır [29]. Məcburi köçlərin ən çox zərər çəkənləri qadınlar və uşaqlardır. Onlar sosial mühitlərini, ailələrini itirir və psixoloji problemlər yaşayırlar [25]. Müharibədən qaynaqlanan travma və travma sonrası stress pozğunluğu uşaqların akademik və koqnitiv inkişafına mənfi təsir edir. Müharibə kontekstində uşaqların depressiya, narahatlıq və digər psixoloji problemlərlə üzləşməsi geniş müşahidə edilir [25]. Uşaqların sağlamlığı kompleks təsirə məruz qaldıqda, təhsilə çıxışın olmaması onların müdafiəsi və rifahı üçün riskləri artırır. Məktəb davamiyyəti psixoloji və sosial normallıq hissini bərpa etməyə kömək edir və sosial dəstəyi təmin edir [2].

**3. Şagird rifahında məktəbin rolu**: Bayramlı [3] qeyd edir ki, sağlam xarakterə malik şəxsiyyətin formalaşdırılması ailə, məktəb və cəmiyyətin əsas məqsədlərindən biridir. Bu prosesdə məktəbin rolu xüsusilə əhəmiyyətlidir, çünki məktəblər həm baza təhsili təmin edir, həm də sosiallaşma məkanıdır. Məktəblərdə uşaqlar

cəmiyyətin dəyərlərini və mədəni xüsusiyyətlərini öyrənir, sosial bacarıqlarını inkişaf etdirir və gələcəkdə sağlam fərd kimi cəmiyyətə inteqrasiya olunurlar. Məktəblərin şagird rifahını təmin etməsi vacibdir, çünki bu, onların akademik və sosial-emosional inkişafına müsbət təsir göstərir. Aulia (2018) qeyd edir ki, məktəblər təhsil məqsədlərinə xidmət etməlidir, çünki təhsil cəmiyyətlərin iqtisadi, sosial və siyasi inkişafında mühüm rol oynayır [8]. Müasir məktəblər şagirdlərin rifahını artırmaq üçün müəllim və valideyn əməkdaşlığına önəm verir. Ersoy və Kocaman [26] bildirir ki, şagirdlərin rifahı məktəbdə müxtəlif peşəkarlar tərəfindən təmin edilir. Müxtəlif peşə sahiblərinin, xüsusən də sosial işçilərin məktəbdə rolu vacibdir, çünki onlar şagirdlərin rifahını artırmaq üçün müxtəlif dəstək proqramları həyata keçirirlər. Müəllimlərin sosial və emosional bilikləri şagirdlərin psixososial vəziyyətinə müsbət təsir göstərir və onların rifahını yaxşılaşdırır [19]. Məktəblər münaqişə zonalarında və fövqəladə hallarda da şagirdlərin rifahını qorumaq üçün xüsusi proqramlar həyata keçirir [9]. Azərbaycanda cəbhəyanı bölgələrdən olan valideynlər üçün psixi sağlamlıq və psixososial rifah üzrə vebinarlar təşkil olunmuşdur [1]. Bu tədbirlər şagirdlərin psixoloji və emosional sağlamlığının inkişafına yönəlmişdir.

**Metodologiya**: Bu araşdırma Ağdam rayonunun köhnə cəbhə xəttində yerləşən məktəblərində müharibədən təsirlənən şagirdlərin rifahını tədqiq edir. Tədqiqat zamanı  müharibə zonasında - köhnə cəbhə xəttində yerləşən 10 məktəbdə təhsil alan 782 nəfər IX, X və XI sinif şagirdlərinin rifah səviyyəsini müəyyən etmək üçün kəmiyyət metodundan istifadə edilib. Tədqiqat kəmiyyət yanaşmasının təsviri tədqiqat alt üsuluna aiddir. Bu üsul bir fenomenin populyasiyadakı durumu haqqında fikirlər verir, vəziyyəti təsvir edir [6]. Kəmiyyət metodunda tədqiqatçı rəqəmlər və ədədlərlə işləyir [6]. Kəmiyyət yanaşmasını icra edərkən tədqiqatda şagirdlərin rifah səviyyələrini qiymətləndirmək üçün şagirdlər arasında sorğu aparılıb.

**Tapıntılar**: Bu araşdırmanın məqsədi müharibədən əziyyət çəkmiş şagirdlərin rifanının öyrənilməsi idi. Bunun üçün Ağdamın keçmiş cəbhəyanı ərazisində yerləşən, atəşkəs və müharibə zamanı hücuma məruz qalmış 10 kənd məktəbinin IX, X və XI sinfində təhsil alan 782 şagird hədəf qrupu olaraq seçilib. Bu araşdırma layihəsində kəmiyyət metodundan istifadə edildiyi üçün şagirdlər 34 sualdan ibarət anket sorğusunu cavablandırıblar. Şagirdlərdən 716 nəfəri sorğuda iştirak edib. Suallar hədəf qrupuna iki başlıq altında (Şagird emosiyaları; Məktəb mühiti) təqdim edilib.

**1.Şagird emosiyaları**

Bu bölmədə şagirdlərə təqdim olunmuş 18 sual onların hisslərini, emosiyalarını, özlərini necə hiss etmələrini, xoşbəxtlik və həyatdan məmnunluq dərəcəsini müəyyən etmək üçün nəzərdə tutulub. Bununla əlaqədar Beynəlxalq Qiymətləndirməyə (PİSA, 2022) nəzər saldıqda görürük ki, sorğuda iştirak edən azərbaycanlı şagirdlərin 75 faizi məktəbdə özünə asanlıqla dost tapa bildiyini deyib. Eyni sayda şagird isə özünü məktəbinə aid hiss edir. Bu göstəricilər OECD ölkələri üzrə də eyni səviyyədədir. Ancaq azərbaycanlı şagirdlər arasında məktəbdə özünü yalnız (tək) hiss edənlərin göstəricisi 25%-dir. Bu da OECD ölkələri ilə müqayisədə 16% daha yüksəkdir. Bu sorğunun ancaq Bakı məktəbləri arasında keçirildiyini nəzərə alaraq, Ağdam rayonunda müharibədən əziyyət çəkmiş şagirdlərin rifahını öyrənmək üçün bu sorğunun nəticəsində məktəblərə təqdim edilmiş “Müharibədən əziyyət çəkmiş şagirdlərin rifahının yüksəldilməsində istifadə olunan təcrübələr” adlı broşürun faydalı olacağı ehtimal olunur.

**DIAQRAM 1.**
**RESPONDENTLƏRİN TƏHSİL ALDIQLARI SİNİF**




Qrafik 1-ə baxdıqda görürük ki, hədəf seçilmiş 10 məktəbdə təhsil alan 782 nəfər IX, X və XI sinif şagirdindən 716 nəfəri sorğuda iştirak edib. Sorğuda iştirak edən şagirdlərin 40 % -i IX sinif, 30% -i X sinif, 30% -i isə XI sinifdə təhsil alır.

**DIAQRAM 2.**
**CİNS KATEQORİYASI**




Qrafik 2-də sorğuda iştirak edənlərin cins bölgüsünə baxdıqda görə bilərik ki, respondentlərin 56 %-i qadın, 44 % -i isə kişidir.

**DİAQRAM 3.**
**ŞAGİRD EMOSİYALARI**




Qrafik 3-də birinci suala cavab verən şagirdlərin 42%-i həyəcanlı olmadığını, 16%-i bu suala cavab verməkdə qərarsız qaldığını, 42%-i isə özünü həyəcanlı hiss etdiyini bildirib. İkinci sualı cavablandıran şagirdlərin 39 %-i özünü xoşbəxt hiss etmədiyini, 16%-i bu suala cavab verməkdə qərarsız qaldığını, 45%-i isə özünü xoşbəxt hiss etdiyini vurğulayıb. Üçüncü suala cavab verən şagirdlərin 38%-i özünü əzizlənən və qayğı görən hiss etmədiyini, 17%-i bu suala cavab verməkdə qərarsız olduğunu, 45%-i isə özünü əzizlənən və qayğı görən hiss etdiyini bildirib.

**DİAQRAM 4.**
**ŞAGİRD EMOSİYALARI**




4-cü qrafikdə suallar üzrə cavablar aşağıdakı kimi əks olumuşdur. Dördüncü suala cavab verən şagirdlərin 35%-i özünü təhlükəsizlikdə hiss etmədiyini, 15%-i bu suala cavab verməkdə qərarsız qaldığını, 50%-i isə özünü təhlükəsizlikdə hiss etdyini vurğulayıb. Beşinci suala cavab verən şagirdlərin 32%-i özlərini ümidsiz hiss etdiyini, 17%-i bu suala cavab verməkdə çətinlik çəkdiyini, 51%-i isə özünü ümidli hiss etdyini bildirib. Altıncı suala cavab verənlərin 34 %-i özünü qəzəbli hiss etmədiyini, 14%-i bu suala cavab verməkdə tərəddüd etdiyini, 52%-i isə özünü qəzəbli hiss etdiyini bildiribdir.

**DİAQRAM 5.**
**ŞAGİRD EMOSİYALARI**




5-ci qrafikdə yeddinci sualı cavablandırarkən şagirdlərin 37%-i özünü yalnız hiss etmədiyini, 16%-i bu suala cavab verməkdə qərarsız olduğunu, 47%-i isə özünü yalnız hiss etdiyini təsdiq etmişdir. Səkkinizinci sualı cavablayan şagirdlərin 38 %-i özünü kədərli hiss etmədiyini, 15%-i isə bu sualı cavablandırmaqda qərarsız olduğunu, 47%-i isə özünü kədərli hiss etdiyini qeyd edib. Doqquzuncu suala cavab verənlərin 34%-i özünü narahat hiss etmədiyini, 15%-i bu suala cavab verməkdə çətinlik çəkdiyini, 51%-i isə özünü narahat hiss etdiyini vurğulayıb.

**DİAQRAM 6.**
**ŞAGİRD EMOSİYALARI**




6-cı qrafikdə onuncu sualı cavablandıran şagirdlərin 41%-i özünü məyus hiss etmədiyini, 17%-i bu suala cavab verməkdə tərəddüd etdiyini, 42 %-i isə özünü məyus hiss etdiyini bildirib. On birinci sualı cavablandıran şagirdlərin 41%-i xoşagəlməz hadisə olanda özünü ələ almağı bacarmadığını, 15%-i bu sualı cavablandırmaqda çətinlik çəkdiyini, 44%-i isə özünü ələ almağı bacadığını vurğulayıb. On ikinci sualı cavablandıran şagirdlərin 42%-i qorxduğu zaman özünü sakitləşdirməyi bacarmadığını, 12%- i bu sualı cavablandırmaqda tərəddüd etdiyini, 46%-i isə qorxduğu zaman özünü sakitləşdirməyi bacardığını qeyd edib.

**DİAQRAM 7.**
**ŞAGİRD EMOSİYALARI**




7-ci qrafikdən on üçüncü sualı cavablandıran şagirdlərin 48%-i hirsləndiyi zaman özünü ələ almağı bacarmadığını, 14%-i bu suala cavab verməkdə qərarsız qaldığını, 38%-i isə hirslədiyi zaman özünü sakitləşdirməyi bacardığını vurğulayıb. On dördüncü suala cavab verənlərin 36%-i hisslərini idarə etməyi bacarmadığını, 15%-i bu sualı cavablandırmada çətinlik çəkdiyini, 49%-i isə hisslərini idarə etməyi bacardığını qeyd edibdir. On beşinci sualı cavablandıran şagirdlərin 41%-i özünü yaxşı hiss etmədikdə özü ilə motivasiyaedici söhbət apara bilmədiyini, 13% şagird bu suala cavab verməkdə qərarsız olduğunu, 46% şagird isə özünü yaxşı hiss etmədikdən özü ilə motivasiyaedici söhbət aparmağı bacardığını vurğulayıb.

**DİAQRAM 8.**
**ŞAGİRD EMOSİYALARI**




8-ci qrafikdə on altıncı sualı cavablandıran şagirdlərin 42%-i qeyd edib ki, özümü yaxşı hiss etmədikdə dostum və ya rəfiqəmlə söhbət etməyi bacarmıram. 9% şagird bu suala cavab verməkdə qərarsız qaldığını, 49% şagird isə özüünü yaxşı hiss etmədikdə dostu və ya rəfiqəsi ilə söhbət etdiyini bildirib. On yeddinci sualı cavablandıran respondentlərin 37%-i xoşagəlməz fikirlərin qarşısını almağı bacarmadığını vurğulayıb. 19% şagird bu suala cavab verməkdə çətinlik çəkdiyini, 44%-i isə xoşagəlməz fikirlər zamanı bunun qarşısını almağı bacardığını qeyd edib. On səkkizinci sualı cavablandıranların 39%-i baş vermiş hadisə barəsində narahatlığının öhdəsindən gəlməyi bacarmadığını, 19 %-i bu sualı cavablandırmaqda qərarsız olduğunu, 42%-i isə hadisə baş verdikdə narahatlığının öhdəsindən gəlməyi bacardığını vurğulayıb.

## 2. Məktəb mühiti

Məktəbdə və məktəbdənkənar mühitdə şagirdlərin bir-biri ilə əməkdaşlığı, müəllimlər və digər üzvlərlə münasibətlər, məktəbin şagirdlər üçün sevilən, təhlükəsiz bir yer olub-olmadığını 19-34-cü suallar vasitəsilə öyrənmək mümkün olub. Belə ki, sorğunun nəticələri Azərbaycanda keçirilmiş Beynəlxalq Qiymətləndirmənin (PİSA,2022) nəticələri ilə üst-üstə düşür. PİSA sorğusunda iştirak edən azərbaycanlı şagirdlərin 23 %-i bildirib ki, onlar məktəbə gedərkən və məktəbdə özlərini təhlükəsiz hiss etmirlər. Müqayisə üçün bildirək ki, OECD (İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı) ölkələri üzrə eyni göstərici cəmi 8%-dir. Yəni Azərbaycanda qeydə alınan göstərici OECD ölkələri ilə müqayisədə təxminən üç dəfə yüksəkdir.

Azərbaycanla bağlı diqqət çəkən məqamlardan biri də şagirdlərin hətta sinif otağında belə özlərini təhlükəsiz hiss etməmə göstəricisinin yüksək olması ilə bağlıdır. Azərbaycandan sorğuda iştirak edən şagirdlərin 20%-i sinif otaqlarında özlərini təhlükəsiz hiss etmədiyini bildirib. Bu göstərici üzrə sorğuda iştirak ölkələr arasında ən yüksək nəticə Azərbaycanda qeydə alınıb. Sinifdə özünü təhlükəsiz hiss etməyənlərin göstəricisi OECD ölkələri üzrə ortalama 7 %-dir.

Əksər dünya ölkələrində olduğu kimi, bizdə də məktəblər şagirdlərin istək və arzularına deyil, şagirdlər məktəblərin standartlarına uyğunlaşdırılıb [13]. Nəticədə şagirdlərin əksəriyyəti məktəbdə xoşbəxt deyillər, özlərini təhlükəsiz mühitdə hiss etmirlər və ən əsası, dərsə həvəssiz gəlirlər (PİSA, 2022).




9-cu qrafikdə on doqquzuncu sualı cavablandıran şagirdlərin 33%-i məktəbdə ona kömək edə biləcək müəlliminin və ya hansısa birinin olmadığını, 9%-i bu suala cavab verməkdə çətinlik çəkdiyini, 58%-i isə məktəbdə ona kömək edə biləcək şəxslərin olduğunu düşünür. İyirminci suala cavab verən şagirdlərin 34%-i məktəbdə inandığı bir yoldaşının olmadığını, 9%-i bu suala cavab verməkdə çətinlik çəkdiyini, 57%- isə inandığı bir məktəb yoldaşının olduğunu vurğulayıb. İyirmi birinci suala cavab verən şagirdlərin 35%-i məktəbdə özünü yanında arxayın və güvənli hiss edəcəyi bir şəxsin olmadığını, 13%-i bu suala cavab verməkdə çətinlik çəkdiyini, 52%-i isə məktəbdə özünü yanında arxayın və güvəndə hiss edəcəyi bir şəxsin olduğunu düşünür.




10-cu qrafikdə iyirmi ikinci suala cavab verən şagirdlərin 31%-i onun məktəbdə dinləyib ciddi qəbul edən müəllimlərinin olmadığını, 14%-i bu suala cavab verməkdə çətinlik çəkdiyini, 55%-i isə müəllimlərinin onu dinləyib ciddi qəbul etdiyini bildirib. İyirmi üçüncü sualı cavablandıran şagirdlərin 30%-i müəllimlərinin onu olduğu kimi qəbul etmədiyini, 14%-i bu suala cavab verməkdə çətinlik çəkdiyini, 56%-i isə müəllimlərinin onu olduğu kimi qəbul etdiyini qeyd edib. İyirmi dördüncü sualı cavablandıran şagirdlərin 37%-i müəllimlərinə etibar edə bilmədiyini, 17%-i bu suala cavab verməkdə qərarsız olduğunu,46 %-i isə müəllimlərinə etibar etdiyini vurğulayıb.




11-ci qrafikdə iyirmi beşinci sualı cavablandıran şagirdlərin 29 %-i müəllimləri ilə münasibətinin yaxşı olmadığını, 13%-i bu suala cavab verməkdə tərəddüd etdiyini, 58%- i isə müəllimləri ilə münasibətinin yaxşı olduğunu bildirib. İyirmi altıncı sualı cavablandıran şagirdlərin 34%-i müəllimlərin onun qayğısına qalmadığını, 16%-i bu suala cavab verməkdə çətinlik çəkdiyini, 50%-i isə müəllimlərinin onun qayğısına qaldığını qeyd edib. İyirmi yeddinci suala cavab verən şagirdlərin 37%-i müəllimlərinin onun güclü tərəflərini bilmədiyini, 19%-i bu suala cavab verməkdə qərarsız olduğunu, 44%-i isə müəllimlərinin onun güclü tərəfini bildiyini vurğulayıb.




12-ci qrafikdə iyirmi səkkizinci sualı cavablandıran şagirdlərin 35%-i müəllimlərin onun bacarıqlarını qiymətləndirmədiyini, 16%-i bu suala cavab verməkdə qərarsız qaldığını, 49%-i isə müəllimlərinin onun bacarıqlarını qiymətləndirdiyini bildirib. İyirmi doqquzuncu suala cavab verən şagirdlərin 33%-i müəllimlərinin onun bacarıqlarını nümayiş etdirməsinə imkan vermədiyini, 16%-i bu suala cavab verməkdə çətinlik çəkdiyini, 51%-i isə müəllimlərinin ona bacarıqlarını nümayiş etdirməyə imkan yaratdığını qeyd edib. Otuzuncu suala cavab verən şagirdlərin 34%-i məktəbdə özünü təhlükəsizlikdə hiss etmədiyini, 16 %-i bu suala cavab verməkdə çətinlik çəkdiyini, 50%-i isə məktəbdə özünü təhlükəsizlikdə hiss etdiyini bildirib.




13-cü qrafikdə otuz birinci suala cavab verənlərin 31%-i özünü məktəbdə xoşbəxt hiss etmədiyini, 17%-i bu suala cavab verməkdə qərarsız qaldığını, 52%-i isə məktəbdə özünü xoşbəxt hiss etdiyini vurğulayıb. Otuz ikinci sualı cavablandıran şagirdlərin 35%-i məktəbdə fikirlərini rahat şəkildə ifadə edə bilmədiyini, 15%-i bu suala cavab verməkdə qərarsız olduğunu, 50%-i isə məktəbdə fikirlərini rahat şəkildə ifadə edə bildiyini qeyd edib. Otuz üçüncü sualı cavablandıran şagirdlərin 30%-i məktəbdə sinif yoldaşları ilə əməkdaşlıq etmədiyini, 16%-i bu suala cavab verməkdə çətinlik çəkdiyini, 54%-i isə sinif yoldaşları ilə əməkdaşlıq etdiyini bildiribdir. Otuz dördüncü suala cavab verən şagirdlərin 41%-i dərs olmayanda məktəb üçün darıxmadığını, 14%-i bu suala cavab verməkdə qərarsız olduğunu, 45 %-i isə dərs olmayanda məktəb üçün darıxdığını qeyd edib.

## TƏKLİFLƏR

Təhsil cəmiyyətlərin gələcəyinin planlaşdırılması, hazırlanması və ictimai həyatın yenidən qurulmasıdır [23]. Bu günün məktəbi sabahın cəmiyyəti, bu günün məktəblisi isə sabah cəmiyyətin bir fərdidir. İnsanın sosial varlıq olaraq yaşadığı cəmiyyətə, özünə və başqalarına qarşı müəyyən öhdəlikləri var [16]. Bu vəzifələrini dərk etmək, doğmaları ilə yanaşı, başqalarının da qayğısına qalmaq, əvvəlcə ailədə sonra isə məktəbdə aldığı tərbiyə və gördüyü münasibətlə mümkündür [21]. Buna əsasən deyə bilərik ki, müharibədən əziyyət çəkmiş şagirdlərin rifahının yüksəldilməsində ailə ilə bərabər, ən mühüm rolu məktəb oynaya bilər [22]. Ancaq sorğunun nəticəsi onu göstərir ki, istər “şagird emosiyaları”, istərsə də “məktəb mühiti” ilə bağlı sualları cavablandıran şagirdlərin ən azı 50%-i hələ də müharibənin yaratdığı travmaları, pisxoloji və emosianal problemləri yaşamaqdadır. Ən pisi də odur ki, həmin şagirdlər bu problemlərdən xilas olmaq üçün məktəbdə müəllimlərindən, psixoloqdan və məktəb yoldaşlarından lazımi dəstəyi ala bilmir. Aşağıdakı strategiyaları təcrübə zamanı istifadə etmək və sinifdə məhsuldar atmosferin olması üçün innovativ metod və yanaşmaları tətbiq etmək lazımdır [32].

**1.Məktəbdə dəstəkləyici mühitin yaradılması:** Hər şagirdin fərqli gücü, ehtiyacları və tələbləri var. Bu fərqlilikləri qəbul edib, buna uyğun fərqli öyrənmə üsullarına müraciət edilməlidir. Buna görə də məktəb rəhbərliyi, müəllimlər, sinif rəhbərləri və pisxoloqları şagirdlə-

rin özlərini rahat və təhlükəsiz hiss etmələri üçün səmimi və dəstəkləyici bir sinif mühiti yaratmağa çalışmalıdırlar. Buraya sosial, emosional, psixoloji və akademik dəstəyi inkişaf etdirmək, hər bir şagirdin uğurunu təqdir etmək və fərdi yanaşmaq daxildir [1].

**2.Tədris prosesinə valideynlərin cəlb edilməsi:** Məktəb şagirdlərə dəstək olmaq və onlara travma, psixoloji gərginliklərin öhdəsindən gəlməkdə kömək etmək üçün şagirdlərin valideynləri ilə birlikdə çalışmalıdır. Sinifdə nizamlı və səmərəli dərs prosesinin gedişatı üçün müəllimin bəzən qaydaları yumşaltması lazım gəlir [12].

**3.Məktəbdə fiziki və emosianal fəaliyyət:** Məktəbdə fiziki və emosional fəaliyyətlər şagirdlərin rifahının yüksəldilməsi üçün əhəmiyyətli rol oynayır [14]. Müntəzəm fiziki fəaliyyətlə məşğul olan şagirdlər, adətən, stressin öhdəsindən daha yaxşı gələ bilirlər. Müəllimlər tərəfindən şagirdlər məktəb saatlarında və ya dərsdən sonra məktəbdaxili, rayon və regional idman yarışlarına, intelektual, sosial müsabiqələrə, debatlara və ya digər fiziki fəaliyyətlərə cəlb edilə bilər [27].

**4.Məktəb şagirdlərin əyləncə və sosiallaşma məkanı kimi:** Məlumdir ki, müharibədən əziyyət çəkən şagirdlərin yaşadığı Agdam rayonunun kəndlərində məktəbdən başqa, şagirdlərin bir-biri ilə ünsiyyət quracağı bir yer, əyləncə mərkəzi, oyun salonu, istirahət parkı və digər sosial infastrukturlar yoxdur. Məktəb tərəfindən teatr, konsert, sərgi və s. kimi mədəni və sosial tədbirlər təşkil edilməli, bu tədbirlər şagirdlərin mədəniyyət və incəsənətə maraq göstərməsinə, yeni insanlarla tanış olmalarına və sosial bacarıqlarını inkişaf etdirmələrinə kömək edəcəkdir. Buna əsasən deyə bilərik ki, məktəbdə şagirdlərə əyləncə və sosiallaşma məkanı yaratmaq onların ruh sağlamlığını və sosial bacarıqlarını inkişaf etdirmək üçün çox əhəmiyyətlidir [18].

**5.Şagirdlərə stressin idarə edilməsi bacarıqlarının öyrədilməsi:** Şagirdlərə stressi idarə etmək üçün bacarıqların öyrədilməsi onların rifahının və öyrənmə vərdişlərinin inkişafı üçün əhəmiyyətli bir addımdır [32]. Dünyada baş verən təbii fəlakət, pandemiya və müharibələr insanlar arasında psixoloji gərginliyə səbəb olur. Bu gərginlik şəxsiyyətlərarası münasibətlərin pozulmasına, ailədaxili münaqişələrin artmasına, uşaq və yeniyetmələrdə stressin, qorxunun dərinləşməsinə gətirib çıxarır. Sadalanan problemlərin aradan qaldırılması üçün ehtiyaca uyğun psixo-sosial dəstəyin göstərilməsi araşdırmalara görə uğurlu çıxış yoludur [32].

**6.Məktəb əməkdaşlığın təməlidir:** Məktəb əməkdaşlığı rəhbərlik, müəllim və şagirdlər arasında tərəfdaşlığa, gözəl anlaşmağa və birlikdə işləmə qabiliyyətinə əsaslanır. Bunun üçün müəllimlər şagirdlərin təcrübələrini, problemlərini və streslərini bölüşmək üçün qrup müzakirələri təşkil edə bilərlər [14].

**7.Qərarların qəbulunda şagirdlərin iştirakı:** Müəllimlər dərsin hansı metod və üsulla təşklini, layihələrin seçilməsini, tədqiqat mövzularının müəyyən edilməsini və ya qiymətləndirmə metodlarının seçilməsi kimi qərarların qəbuluna şagirdləri cəlb edə bilər və şagirdləri növbəti layihənin mövzusuna səs verməyə dəvət edə və ya yekun işin təqdim edilməsi üçün bir neçə format təklif edə bilərlər [14].

**8.Şagirdlərdə özünəinam və güclü tərəflərin dərk edilməsi:** Müəllimlər şagirdlərə öz güclü tərəflərini tapmaqda kömək etmək üçün mütləq müxtəlif vasitələrdən istifadə etməlidir. Özünəinam öz dəyərini və potensialını dərk etmək deməkdir. Bu, şagirdlərin öz bacarıqları, maraqları və məqsədləri haqqında biliklərini artırmağa kömək edir. Bu zaman müvəffəqiyyətə çatmaq və hədəflərə

nail olmaq asanlaşır [20].

**9.Məktəbdə seminar və master-klassların keçirilməsi:** Məktəb rəhbərləri uğurlu rol modelləri və rifah sahəsində mütəxəssisləri seminarlar və master-klasslar keçirmək üçün dəvət edə bilərlər [2]. Seminarlar və master-klassların keçirilməsi müəllimlərin şagirdlərin psixoloji sağlamlığını dəstəkləmək, akademik nailiyyətlərini artırmaq, uğurlu rol modelləri ilə təmas qurmaq və rifah sahəsində mütəxəssislərdən dərslər almaq üçün effektiv bir yoldur [1].

**10.İmtahan stressinə qarşı mübarizə strategiyası:** Pozitiv düşüncələr və özəl sözlərlə dəstəklənmək, ailə üzvlərindən və müəllimlərindən dəstək almaq imtahan stressinə qarşı mübarizədə əhəmiyyətli rol oynayır [13]. Müəllimlər və valideynlər yaxşı bilir ki, bölgədə yaşayan şagirdlərin müharibə ilə bağlı ciddi travmaları var. Bunun üzərinə ali məktəbə hazırlığın, buraxılış və qəbul imtahanlarının stressi gəldikdə həmin şagirdlərin hansı vəziyyətdə olduğunu təsəvvür etmək o qədər də çətin deyil. Hər bir müəllim şagirdlərə hazırlıq, vaxtın idarə edilməsi, istirahət və həmyaşıdlarına dəstək də daxil olmaqla, imtahan stressinin öhdəsindən gəlmək strategiyalarını inkişaf etdirməyə kömək edə bilər [14].

**11.Məktəb idarəçilərinin və müəllimlərin təlimlərə cəlb olunması:** Məktəb idarəçiləri və müəllimləri şagirdlərdə yaranmış müharibə travması, stressləri və diqqət problemləri ilə mübarizə aparmaq üçün təlimlərə cəlb edilməlidir. Bu təlimlər məktəb rəhbərliyinə və müəllimlərə şagirdlərə dəstək olmaq, mənəvi və psixoloji yardım etmək üçün necə kömək edə biləcəyi barədə fərdi və kollektiv təcrübələr təqdim edəcəkdir. Bu, şagirdlərin yaxşı təhsil almaları və psixoloji olaraq sağlam olmaları, məktəbdə özlərini təhlükəsiz mühitdə hiss etmələri və güvən yaratmaq üçün əhəmiyyətli bir addımdır [1].

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

**Azərbaycan dilində:**

1. Azərbaycan Respublikasının Təhsil İnstitutu. (2021, aprel-may). Fövqəladə vəziyyət şəraitində uşaqlara və yeniyetmələrə məktəb əsaslı psixososial dəstəyin göstərilməsi. -https://www.arti.edu.az/nodupload/editor/files/Hesabat%20(Aprel-may%202021).pdf

2. Babayeva, Ü., Ömərova, N. (2022). Azərbaycanda məktəbəsaslı psixososial dəstək proqramı. - https://www.muallim.edu.az/news.php?id=21432

3. Bayramlı, R. (2023). Şəxsiyyətin formalaşmasında məktəbin rolu. // "Füyuzat" dərgisi. -https://fuyuzat.az/sexsiyyetin-formalasmasinda-mektebin-rolu

4. BMT. (1990). Uşaq Hüquqları Konvensiyası. - https://www.coe.int/az/web/compass/convention-on-the-rights-of-the-child

5. İbrahimova, L. (2022, oktyabr 25-26). Kiçik ürəklərin böyük dərdləri. - https://525.az/news/204130-kicik-ureklerin-boyuk-derdleri

6. Şahbazov, İ. (2019). Tədqiqat metdoları: Sosial elmlər və biznes araşdırmaları. Bakı: TEAS Press Nəşriyyat evi.

7. Şükürbəyli, İ., Faiqoğlu, N. (2016). Qətl edilmiş uşaqlar. Bakı: Aspoliqraf nəşriyyatı.

**İngilis dilində:**

8. Aulia, F. (2018). Improving student well-being in school. Proceeding of Conference of Mental Health, Neuroscience, and Cyberpsychology, October 14-15, Pa-

dang, Indonesia. - https://doi.org/10.32698/25275

9. Baker, J. A., Kamphaus, R. W., Horne, A., & Winsor, A. P. (2006). Evidence for population-based perspectives on children's behavioral adjustment and needs for service delivery in schools. School Psychology Review, 35, 31-46.

10. GCPEA. (2022). Education under attack. - https://protectingeducation.org/wp-content/uploads/eua_2022_azerbaijan.pdf

11. ICRC. (2021). Nagorno-Karabakh conflict: Building mental health. - https://www.icrc.org/en/document/nagorno-karabakh-conflict-mental-health-resilience-communities

12. Jordans, M., Broek, M., Brown, F., Coetzee, A., Ellermeijer, R., Hartog, K., Steen, F., & Kenneth, E. (2018). Children affected by war: Towards an evidence based care system. In Mental Health of Refugee and Conflict-Affected Populations (pp. 261-281). - https://doi.org/10.1007/978-3-319-97046-2_13

13. Kinley, S., Wangmo, S., & Dorji, D. (2020). Impact of classroom wellbeing on student learning: Bhutanese students' perceptions. Journal of the International Society for Teacher Education, 24(2).

14. Liu, W., Mei, J., Tian, L., & Huebner, E. S. (2016). Age and gender differences in the relation between school-related social support and well-being in school among students. Social Indicator Research. - https://doi.org/10.1007/s11205-015-0873-1

15. Moulton, S., & Gehlbach, H. (2021, March 1). Panoram well-being survey. New York, USA.

16. Muthanna, A., Almahfali, M., & Haider, A. (2022). The interaction of war impacts on education: Experiences of school teachers and leaders. Journal of Educational Sciences, 12 (10), 1-15. -https://doi.org/10.3390/educsci12100719

17. Programme for International Student Assessment (PISA). (2022). Baku (Azerbaijan) student performance. - https://www.oecd.org/publication/pisa-2022-results/country-notes/baku-azerbaijan-20c688c8/

18. Tian, L., Du, M., & Huebner, E. S. (2014). Effects of gratitude on elementary school students' subjective well-being in schools: The mediating role of prosocial behavior. Social Indicator Research, 122 (3), 887-904. https://doi.org/10.1007/s11205-014-0712-9

19. UNICEF. (2015). Syria Education Sector Analysis: The effects of the crisis on education in areas controlled by the government of Syria, 2010–2015.

20. Vranda, M. N. (2015). Promotion of mental health and well-being of adolescents in schools: A NIMHANS model. J Psychiatry, 18, 303.

**Türk dilində:**

21. Alemin, E., & Bekce, F. Ö. Ç. (2021). Suriyeli göçmen çocukların eğitim gereksinimleri ve okula uyum süreçlerinde karşılaştıkları güçlükler. Disiplinlerarası Çocuk Hakları Araştırmaları Dergisi, (2), 55-72.

22. Aydoğan, O. B., & Uyğur, U. E. (2017). II Dünya savaşı sonrası İngiltere'de toplumsal hayat, sınıf sistemi ve yabancılaşma. AÜDTCF, Antropoloji Dergisi, 33, 109-121. https://doi.org/10.1501/antro_0000000343

23. Baran, M. A. (2021). Güney Sudan Cumhuriyeti'nde iç savaşın eğitime etkileri. Uluslararası Liderlik Çalışmaları Dergisi: Kuram ve Uygulama, 4 (1), 51-61.

24. Bilgin, R. (2014). Çatışma ve şiddet ortamında böyüyən çocukların sorunu. Fırat Üniversitesi Sosyal Bilimler Dergisi, 24 (1), 135-151. https://doi.org/10.18069/fusbed.51605

25. Eroğlu, M. (2020). Etnik kimlik, savaş ve göç olgularının çocuklar və ergenler

üzərindəki psixolojik etkileri. Uluslararası Sosyal Bilgilerde Yeni Yaklaşımlar Dergisi, 4 (1), 94-105. https://doi.org/10.38015/sbyy.721964

26. Ersoy, A. F., & Kocaman, F. (2021). Öğrenci refahına yönelik çalışmalarda okul sosyal hizmet uzmanları ve öğretmenlerin yetki sınırları. Uluslararası Türk Kültür Coğrafyasında Sosyal Bilimler Dergisi, 6 (1), 79-92.

27. Gencer, T. E. (2017). Göç ve eğitim ilişkisi üzərinə bir değerlendirme: Suriyeli çocukların eğitim gereksinimi ve okullaşma süreçlerinde karşılaştıkları güçlükler. Uluslararası Sosyal Araştırmalar Dergisi, 10, 839-851. http://dx.doi.org/10.17719/jisr.20175434652

28. İncekar, M. Ç., & Yıldız, S. (2022). Savaştan etkilenen çocukların sağlık sorunları: Sistematik derleme. Yüksek İhtisas Üniversitesi Sağlık Bilimleri Dergisi, 3, 62-68. https://doi.org/10.51261/yiu.2022.00049

29. Karakoç, S. (2022). Savaşın çocuklar üzerinde etkisi. Klinik Psikiyatri Dergisi, 25, 3-4. http://doi.org/10.5505/kpd.2022.03323

30. Kılıç, G., & Özkor, D. (2019). Sureyli çocukların eğitimi araştırma raporu. Mavi Kalem Sosyal Yardımlaşma ve Dayanışma Derneği, 5, 1-65.

31. Maya Vakfı. (2019). Travmaya duyarlı okul programı. https://www.mayavakfi.org/wp-content/uploads/2020/09/FINAL_Maya-Vakfi_Travmaya-Duyarli-Okul-Programi_RAPOR.pdf

32. Sezgin, F., & Tınmaz, A. (2017). Okulun sosyal sorumluluk rolü hakkında okul müdürü, sınıf ve sosyal bilgiler öğretmenlerinin görüşleri. TÜBAV Bilim Dergisi, 10 (2), 77-92.

**Gunay Rustamli, Zahra Zeynalova,**
**Neymat Rustamli**

## SCHOOLS' ROLE IN ENHANCING WELL-BEING OF WAR-AFFECTED STUDENTS

### Abstract

This capstone project thoroughly examines the role of secondary schools in improving the well-being of high school students who have experienced trauma and hardship due to war, particularly in schools located in the former frontline areas of the Aghdam region. Based on a survey conducted with students, the social, emotional, and psychological well-being of students is explored under the topics of "student emotions" and "school environment."

The research findings emphasize that both academic and extracurricular activities offered by schools can significantly enhance students' emotional and intellectual well-being. These activities play a crucial role in supporting students' emotional and social development, helping them cope with the stress, fear, and trauma experienced during the war. The results and recommendations suggest that, drawing on international experience, various improvements can be made to further support the well-being of students in these schools, transforming them into nurturing environments.

**Keywords:** armed conflict, war trauma, student well-being, role of school, Aghdam region

**Гюнай Рустамли, Захра Зейналова,**
**Неймата Рустамли**

# РОЛЬ ОБРАЗОВАТЕЛЬНЫХ УЧРЕЖДЕНИЙ В УЛУЧШЕНИИ БЛАГОПОЛУЧИЯ УЧАЩИХСЯ, ПОСТРАДАВШИХ ОТ ВОЙНЫ

**Резюме**

Данный исследовательский проект детально анализирует важность и роль средних школ в улучшении благополучия учащихся IX, X и XI классов, которые пережили травмы в результате войны, в учебных заведениях, расположенных на бывшей линии фронта в Агдамском районе. На основе опроса, проведенного среди школьников, изучаются их социальное, эмоциональное и психологическое состояние в рамках тем «эмоции учащихся» и «школьная среда».

Результаты исследования подчеркивают, что занятия и внеклассные мероприятия, предлагаемые школами, могут существенно улучшить духовное и интеллектуальное благополучие учащихся. Эти мероприятия оказывают положительное влияние на эмоциональное и социальное развитие школьников, помогая им преодолеть стресс, страх и травмы, полученные во время войны. В исследовании представлены предложения по внедрению улучшений на основе международного опыта, направленных на повышение благополучия учащихся в школах на бывшей линии фронта, чтобы создать благоприятную среду для их развития.

**Ключевые слова:** вооруженный конфликт, военная травма, благополучие учащихся, роль школы, Агдамский регион

# SOSİAL-PSİXOLOJİ MƏSƏLƏLƏR

# SOCIAL-PSYCHOLOGICAL ISSUES

# MENTAL HEALTH AWARENESS AMONG AZERBAIJANI SOLDIERS AND IMPORTANCE OF MENTAL HEALTH SERVICES

**Gulshan ALIYEVA**
*PhD candidate in geriatric psychology,*
*Department of psychology, Khazar University*
*(Baku, Azerbaijan)*
*E-mail: gulshan.aliyeva@khazar.org*
*gulshen.kovser@gmail.com*
*ORCID: 0000-0001-9771-1156*

**Abstract.** The process of building an army in independent Azerbaijan reached a completely new stage under the leadership of President Ilham Aliyev. Through the unwavering attention and care of Commander-in-Chief, who successfully continued and enhanced the army-building policies initiated by the Great Leader Heydar Aliyev, significant progress has been made. This includes increasing the professionalism of military personnel, enhancing their morale and psychological preparedness, and equipping the Armed Forces with state-of-the-art weaponry and technology. These efforts have rapidly transformed Azerbaijan's Armed Forces into the most powerful army in the region. It is no coincidence that in a 2021 report by the prestigious "Global Fire Power" center, based on 55 indicators, the Azerbaijani Army was ranked first in the South Caucasus and among the top fifty armies globally (2021).

Azerbaijan is home to military high schools, academies, and universities where education, knowledge enhancement, and professional development are prioritized. The physical and mental well-being of soldiers is also a central focus of the state's military policy. Despite these advancements, there has been no systematic analysis of mental health services in the military, nor comprehensive studies assessing the impact of mental health challenges.

**Objective:** The objective of the study is to assess the prevalence and impact of stress among military personnel serving in specialized units within the Guard Regiment.

**Design, setting and participants:** This population-based descriptive study involved a cohort of 117 military personnel who completed the Perceived Stress Scale. The study was conducted in Baku between February and July 2024.

**Main outcome:** The study evaluated the prevalence of stress disorders (SD) and stress management skills among military personnel. Additionally, recommendations were provided for enhancing awareness and improving mental health literacy.

**Acknowledgment:** The author expresses deep gratitude to the military personnel who participated in this research and to the staff who provided invaluable assistance in conducting the study.

**Keywords:** military service, mental health of soldiers, stress disorder, perceived stress, coping skills

## LITERATURE REVIEW

Stress disorders (SD) and post-traumatic stress disorder (PTSD) among military personnel have been documented globally, particularly in regions where wars and military conflicts occur.

Soldiers and military personnel are among the most vulnerable populations for exposure to traumatic events and the subsequent development of stress-related disorders [Prigerson, Maciejewski, & Rosenheck, 2001; Schlenger et al., 2002]. Moreover, numerous studies have highlighted the emergence of a new generation of veterans experiencing elevated levels of stress, PTSD, and related mental health issues [Hoge, Auchterlonie, & Milliken, 2006; Hoge et al., 2004]. This underscores the urgent need to assess the mental health of soldiers and implement effective treatment programs for military-related stress disorders and potential PTSD.

One of the significant barriers to addressing mental health issues among military personnel is stigma. Stigma, coupled with organizational obstacles, often deters soldiers from seeking psychological support. A study by Paul Y. Kim and colleagues examined mental health issues among soldiers deployed to Afghanistan and Iraq.

The researchers explored factors such as stigma, organizational barriers, negative attitudes toward treatment, and the likelihood of seeking help for psychological problems. Their findings revealed that negative perceptions of mental health issues significantly influenced soldiers' reluctance to pursue treatment.

Regionda kommunikasiyaların, yolların açılması, eyni zamanda, yeni nəqliyyat-kommunikasiya infrastrukturunun yaradılması Azərbaycan dövlətinin strateji prioritetləri sırasındadır. 2021-ci ilin fevralın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoymuşdur. Qeyd edək ki, uzunluğu 100 kilometr olan bu dəmir yolu xəttinin strateji əhəmiyyəti olduqca böyükdür. Çünki bu nəqliyyat infrastrukturu Azərbaycan vətəndaşlarının azad olunmuş torpaqlara gediş-gəlişinin təminatında əhəmiyyətli rol oynayacaq və ən mühüm məsələ Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa dəmir yolu nəqliyyat əlaqəsinin yaranmasına böyük töhfə verəcək. Dövlət başçısı öz çıxışında bildirmişdir ki, uzun fasilədən sonra Azərbaycan və onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası dəmir yolu ilə bir-birinə bağlanacaq və beləliklə, bizim həm strateji, həm iqtisadi, həm də siyasi məqsədlərimiz həyata keçiriləcək. “Bölgəmizin uzunmüddətli inkişafı, sabitliyin təmin edilməsi və müharibə risklərinin sıfıra endirilməsi üçün bölgədə nəqliyyat layihələrinin xüsusi rolu vardır və burada iştirak edən bütün ölkələr ancaq xeyir götürəcək, fayda götürəcək. Azərbaycan Naxçıvanla, Türkiyə ilə birləşir. Eyni zamanda, Rusiyadan Ermənistana dəmir yolu xətti açıla bilər. Bu xətt yalnız Azərbaycan ərazisindən keçə bilər. Həmçinin Rusiya ilə İran arasında Naxçıvan ərazisi ilə dəmir yolu bağlantısı olacaq” [21]. Layihə nəticəsində İran ilə Ermənistan və Türkiyə ilə Rusiya arasında dəmir yolu bağlantısı olacaq. Əsas məqsəd bütün bölgə ölkələrinin yeni formalaşacaq nəqliyyat əlaqəsindən xeyir götürməsidir.

Horadiz-Ağbənd dəmir yolu xətti 1993-cü ildə Ermənistan silahlı birləşmələri tərəfindən torpaqlarımızın işğal edilməsindən sonra dağıdılmış və fəaliyyətini dayandırmışdı. 27 ildir ki, qatarların son dayanacağı Füzuli rayonunun Horadiz stansiyasıdır. Lakin düşmən üzərində qazandığımız qələbə ilə bu yol da aydınlığa çıxır.

## 1. Nəqliyyat dəhlizlərinin rolunun artması

Hazırda dünyada gedən mühüm proseslər, geosiyasi dəyişikliklər yükdaşımaların, logistik bağlantıların və nəqliyyat dəhlizlərinin əhəmiyyətini büruzə verir. Beynəlxalq əməkdaşlığın inkişafı və sənaye əməkdaşlığının dərinləşməsi şəraitində beynəlxalq nəqliyyat dəhlizləri şəbəkəsinin formalaşdırılması mərkəzi rol oynayır. Dövlətlərarası nəqliyyat-iqti-

sadi, mədəni və digər əlaqələrin genişləndirilməsi, vahid texniki parametrlərə malik və milli nəqliyyat sistemlərinin dünya nəqliyyat sisteminə inteqrasiyasının əsası kimi vahid nəqliyyat texnologiyasının tətbiqini təmin edən beynəlxalq nəqliyyat infrastrukturunun yaradılması ilə bağlı nəqliyyat problemlərinin həllində onlara xüsusi yer verilir.

Hazırda getdikcə aydınlaşır ki, nəqliyyat və logistika geosiyasəti dövlətlərin siyasi doktrinasının geosiyasət və geoiqtisadiyyat kimi mühüm tərkib hissəsidir. Logistika, bəlkə də, müəyyən iqtisadi və siyasi qərarların qəbul edilməsinin iqtisadi məqsədəuyğunluğunda əsas amildir və beynəlxalq nəqliyyat dəhlizləri inteqrasiyanın inkişafı üçün mühüm hərəkətverici qüvvəyə çevrilir [31].

## 2. Yeni geosiyasi konfiqurasiya və nəqliyyat əlaqələrinin şaxələndirilməsinin əhəmiyyəti

Yeni əməkdaşlıq konfiqurasiyasının yaradılması və onun funksionallığının təmin edilməsi Cənubi Qafqazda sabitliyin mühüm şərtlərindən biridir. Azərbaycan da məhz bu mövqedən çıxış edir. Perspektivdə sözügedən dəmir yolu infrastrukturu Naxçıvandan keçməklə Türkiyəyə qədər uzanacaq və beləliklə, Azərbaycanı Türkiyə ilə birləşdirən ikinci dəmir yolu şəbəkəsi yaradılacaq. Xatırladaq ki, bundan əvvəl Azərbaycanın moderatorluğu ilə inşa olunan Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu istismara verilib. BTQ-nin inşası ilə tarixdə ilk dəfə Azərbaycan və Türkiyə dəmir yolu xətti ilə birləşdi. Beləliklə, Bakı-Tbilisi-Qars dəmir yolundan sonra bölgədə ikinci dəmir yolunun çəkilməsi çox mühüm strateji əhəmiyyətə malikdir. Dövlət başçısının vurğuladığı kimi Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsi tarixi nailiyyət idi. "İndi isə ikinci dəmir yolu çəkiləcək və eyni zamanda, bu yoldan bütün bölgə ölkələri istifadə edə bilərlər. Bölgə ölkələri bu yolun tikintisinə də böyük maraqla yanaşırlar. Demək olar ki, bizim bölgəmizdə yerləşən ölkələr bu layihəyə öz müsbət qiymətini vermişlər".

Bölgə ölkələri nəqliyyat əlaqəsinin bərpasına, avtomobil və dəmir yolunun tikintisinə də böyük maraqla yanaşırlar. Yeni geosiyasi konfiqurasiyada Naxçıvan Muxtar Respublikasının bölgə üçün siyasi, iqtisadi və təhlükəsizlik nöqteyi-nəzərdən əhəmiyyəti bir qədər də artır. Bəzi yerli və xarici ekspertlər Naxçıvan Muxtar Respublikasının nəqliyyat qovşağına çevriləcəyi ilə bağlı müxtəlif proqnozlar verirlər.

Onu da əlavə edək ki, 2023-cü ilin sentyabrın 25-də Azərbaycan və Türkiyə prezidentlərinin Naxçıvanda keçirilən görüşü strateji əhəmiyyətli mövzular arasında Zəngəzur dəhlizinin açılması məsələsini də ictimai gündəmə gətirib. Görüşdən sonra prezidentlər mətbuata birgə bəyanatla çıxış ediblər. Prezident İlham Əliyev bildirib ki, "Azərbaycanı Naxçıvan və Türkiyə ilə birləşdirən dəmir yolunun inşası da uğurla gedir. Azərbaycan ərazisində işlər böyük ehtimalla 2024-cü ilin sonunda başa çatmalıdır".

Həmçinin Prezident Naxçıvanın tarixi ədalətsizlik nəticəsində blokaya düşməsinin səbəblərini vurğulayıb: "Əfsuslar olsun ki, 1920-ci ildə sovet hakimiyyəti tərəfindən Qərbi Zəngəzur Azərbaycandan ayrılmışdır və beləliklə, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında coğrafi bağlantı kəsilmişdir. Ermənistan Azərbaycana qarşı işğalçılıq siyasətini aparmağa başlayanda Naxçıvana qarşı da onların ərazi iddiaları var idi. Burada da şiddətli döyüşlər gedirdi və məhz o vaxt Azərbaycanın böyük oğlu Heydər Əliyevin rəhbərliyi ilə, - o zaman o, Naxçıvanın başçısı idi, - Naxçıvan düşməni yerinə oturtdu və öz ərazisini qoruya bildi".

Prezident R.T.Ərdoğan da Naxçıvanın tarixən strateji əhəmiyyəti ilə iki ölkə ara-

sında xüsusi yerə sahib olduğunu vurğulamışdır: "Naxçıvan bu gün də iqtisadiyyat, nəqliyyat və enerji xətləri baxımından böyük potensiala malikdir. Regional nəqliyyat xətlərinin yaradılması ilə birlikdə bu potensialı tam mənasında həyata keçirmək imkanına sahib olacağıq" [10].

### 3. "Qədim İpək Yolu"nun bərpasına dair beynəlxalq konfransın keçirilməsi

Əvvəlcə ölkəmizin nəqliyyat-kommunikasiya potensialının genişləndirilməsi və görülmüş işlərə qısaca nəzər salaq. 1998-ci ildə Bakı şəhərində qədim ticarət marşrutunu yenidən bərpa etmək və cəlb olunan ölkələr ilə gələcək əməkdaşlıq imkanlarının əsaslarını qoymaq üçün "Qədim İpək Yolu" adlı beynəlxalq konfrans keçirilmişdir. Qədim İpək Yolundan istifadə edən tacirlərin Avropa ilə Asiya arasında səyahəti aylar və bəzən illər boyu davam edirdi və Mərkəzi Avrasiya mərkəzləri kritik regional logistika və paylama mərkəzləri rolunu oynayırdı. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci il sentyabrın 7-8-də Bakı şəhərində 9 ölkənin (Azərbaycan, Türkiyə, Gürcüstan, Ukrayna, Moldova, Rumıniya, Bolqarıstan, Özbəkistan, Qırğızıstan) dövlət başçısı, 13 beynəlxalq təşkilatın və 32 dövlətin nümayəndə heyətinin iştirakı ilə tarixi İpək Yolunun bərpasına həsr olunmuş beynəlxalq konfrans keçirilmişdir. Bu konfransın yekununda Avropa İttifaqının TRASEKA proqramı əsasında "Avropa−Qafqaz−Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş" imzalandı və Bakı Bəyannaməsi qəbul edildi.

Əsas Çoxtərəfli Sazişin müddəalarına uyğun olaraq, TRASEKA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin Bakı şəhərində yerləşdirilməsi qərara alındı və 2001-ci il fevralın 21-də rəsmi açılışı oldu. Beləliklə, Azərbaycan tarixi İpək Yolunun bərpa edilməsinə öz töhfəsini verməklə, əsas inkişaf trayektoriyasının müəyyənləşdirilməsində mühüm rol oynadı.

Digər tərəfdən, Azərbaycan Çinin təşəbbüsü ilə gerçəkləşən "İpək Yolu İqtisadi Kəməri" layihəsinin iştirakçısıdır. 2015-ci ilin dekabrında Prezident İlham Əliyevin Çinə dövlət səfəri çərçivəsində Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqi haqqında Anlaşma Memorandumu" imzalandı [2].

Azərbaycanın Baş naziri Əli Əsədov 2023-cü ilin oktyabrın 26-da baş tutan 4-cü Tbilisi İpək Yolu Forumunun açılış mərasimindəki çıxışında Azərbaycanın geniş nəqliyyat imkanları, həmçinin ölkəmizin Böyük İpək Yolunun bərpa edilməsi konsepsiyasının reallaşdırılmasında lap əvvəldən tərəfdaş dövlətlərlə birlikdə yüksək fəallıq nümayiş etdirdiyini diqqətə çatdırıb. Baş nazir vurğulayıb ki, Azərbaycan və Gürcüstan tarixən Avropa ilə Asiya arasında iqtisadi-ticari əlaqələrdə oynadıqları körpü rolunu bu gün də davam etdirməkdədir [11].

### 4.Çin ilə Aİ arasında iqtisadi dövriyyə

Çin və Aİ ölkələri arasında qlobal ticarətin həcmi son 5 ildə sabit artım nümayiş etdirib. Belə ki, 2016-cı ildəki 441,5 milyard avrodan bu rəqəm 2020-ci ildə təxminən 23% artaraq 586 milyard avroya çatıb. Eyni zamanda, ticarətin strukturunda yüksək əlavə dəyərə malik sənaye malları üstünlük təşkil edir və demək olar ki, 97%-ni təşkil edir.

Dünya ticarətində Çin və Aİ ölkələrinin ümumi bazar payı təqribən 31%-dir. Çin və Aİ ölkələri arasında yükdaşımalarının həcminin dinamikasında da artım hiss olunur. 2016-cı ildəki 108,6 milyon tondan 2020-ci ildə 116,9 milyon tona qədər artım (+7%) cüzi də olsa əhəmiy-

yətli hesab oluna bilər [32].

Konteyner daşımaları baxımından Aİ ölkələri və Çinin göstəriciləri yüklərin konteynerləşdirilməsinin artması istiqamətində qlobal tendensiyanı əks etdirir. Bəzi qiymətləndirmələrə görə, Aİ ölkələrində konteynerləşmə səviyyəsi Çini (5-10%) əhəmiyyətli dərəcədə üstələyir və 20-41%-ə çatır. Beləliklə, 2019-cu ilin sonunda konteyner daşımalarının həcmi Aİ-də 2016-cı ildən 2019-cu ilə qədər orta illik artımla 4% olmaqla 115,3 milyon TEU, Çində isə 242 milyon TEU (ildə +7%) təşkil edib.

Aİ ölkələrində və Çində konteynerləşmə səviyyəsinin ümumi artımı əvvəllər hava və dəniz yolu ilə göndərilən yüklərin dəmir yolu ilə daşınmasına keçidlə bağlıdır. Bu, koronavirus pandemiyası səbəbindən sərhədlərini bağlayan ilk ölkələrdən biri olan Çin ilə hava nəqliyyatının dayandırılması, habelə dəniz nəqliyyatı üçün daha yüksək qiymətlər və daha uzun çatdırılma müddətləri səbəbindən baş verdi. Nəticədə, böhran şəraitində dəmir yolu nəqliyyatı digər nəqliyyat növlərinə nisbətən daha ucuz və sürətli alternativə çevrildi.

Qlobal böhrandan sonra dünya iqtisadiyyatının yenidən qurulması, Avropa İttifaqının vahid nəqliyyat məkanının yeni mərhələsinə keçməsi dəmir yolu nəqliyyatına tələbatın strukturuna və həcminə, eləcə də bütün nəqliyyat bazarının işinə əhəmiyyətli dərəcədə təsir etdi.

## 5. Beynəlxalq nəqliyyat dəhlizləri: böhranlar və yeni yaranan fürsətlər

Beynəlxalq nəqliyyat dəhlizləri (BNQ) sərnişinlərin və yüklərin, o cümlədən hava, dəniz, dəmir yolu və avtomobil kommunikasiyalarının daşınması üçün multimodal marşrutlardır. Nəqliyyat dəhlizləri qlobal logistika bazarının bütün iştirakçıları üçün proqnozlaşdırıla bilən və şəffaf marşrutlar yaratmaq üçün nəzərdə tutulub.

Tarixən ən mühüm istiqamət Şərq və Qərb - Çin və Avropa ölkələri arasında hərəkət idi, lakin zaman keçdikcə Şimal və Cənub arasında digər marşrutlar da inkişaf etməyə başladı. Müasir nəqliyyat dəhlizlərinin birbaşa logistik cəhətdən əlaqəli marşrutları yoxdur və daha çox formal olaraq bir neçə nəqliyyat növünün ayrı-ayrı marşrutlarını birləşdirir. Çin və Aİ arasında ən populyar yük marşrutu Süveyş kanalından keçən dəniz yoludur. Bu marşrut logistika xərclərini azaltmağa imkan verir, lakin daşınma müddətini əhəmiyyətli dərəcədə artırır. Bir tərəfə təxminən 40-45 gün ərzində yüklərin daşınması baş verir. Bununla belə, bu marşrut üzrə yük axınlarının artımı infrastrukturun inkişaf tempini xeyli üstələyir. Belə ki, 2021-ci ilin mart ayında 224 min ton yükgötürmə qabiliyyətinə malik 400 metrlik Ever Given konteyner gəmisi Çindən Niderlanda gedərkən Süveyş kanalının 151-ci kilometrində quruya çırpılaraq, demək olar ki, bir həftə kanal boyunca nəqliyyatın hərəkətini dayandırdı. Gecikmə vaxtının qeyri-müəyyənliyi səbəbindən yükgöndərənlər Afrikadan yan keçərək marşrutu 8 min km və çatdırılma müddətini 10-12 gün artıran alternativ marşrutdan istifadə etməyə məcbur oldular.

Dünya ticarətinin 12%-i, təxminən bir milyon barel neft və mayeləşdirilmiş təbii qazın təxminən 8%-i hər gün Süveyş kanalından keçir. Süveyş kanalından keçilməz vəziyyətdə qalan Ever Given meqakonteyner gəmisi, “Lloyd's List”-in məlumatına görə, hər gün təxminən 9,6 milyard dollar (7 milyard funt sterlinq) dəyərində malın keçidini saxlayırdı. Bu, saatda 400 milyon dollara və 3,3 milyon ton yükə və ya dəqiqədə 6,7 milyon dollara bərabərdir. Digər tərəfdən, “Moody's”-in məlumatına görə, pandemiyadan əvvəl Süveyş kanalından keçən ticarət Misirin ÜDM-nin 2%-ni təşkil edirdi [38].

Bu gün dünyada davam edən müharibələr, terror hücumları da dünya ticarətinə və yüklərin daşınmasına mənfi təsir göstərir. Rusiya-Ukrayna müharibəsi səbəbindən Rusiya üzərindən Avropaya gələn bütün yüklərin alternativ marşrutla əvəzlənməsi, diversifikasiya yolları axtarılır.

Aİ-nin Ukrayna ilə həmrəyliyi müstəvisində Rusiyaya qarşı çoxsaylı iqtisadi sanksiyalar tətbiq edilib və məhdudlaşdırıcı tədbirlər görülüb. Rusiya sənayesinin əsas malları əldə etmək imkanlarını məhdudlaşdırmaq və onun yol, aviasiya və dəniz sənayesini zəiflətmək üçün Aİ qadağanedici addımları Rusiyanın bütün nəqliyyat sahəsini əhatə edib [33].

Rusiya ilə Ukrayna arasında davam edən müharibə səbəbindən regionda baş verən geosiyasi proseslər Şərqlə Qərb arasında tranzit yükdaşımalarından da yan keçməyib. Qərbin Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalar nəticəsində Şərqlə Qərb arasında Rusiyanın ərazisindən keçən ənənəvi marşrutlarda ciddi problemlər yaşanıb. Başqa sözlə, sanksiyalara görə, yüklərin bu ölkənin ərazisindən daşınması çətinləşib. Bu səbəbdən son vaxtlar Azərbaycan ərazisindən keçən dəhlizlər vasitəsilə tranzit yükdaşımaların həcmində kəskin artımlar müşahidə olunub. Belə ki, 2021-ci illə müqayisədə 2022-ci ildə respublikamızın ərazisindən keçən dəmir yolu, dəniz və avtomobil yolları ilə tranzit yükdaşımaların ümumi həcmi 75 faiz artaraq 10,7 milyon tona çatıb [28].

Digər tərəfdən, Yəmən husiləri 2023-cü ilin payızından bəri ABŞ və Britaniya gəmilərinə, eləcə də İsraillə əlaqəli olduğuna inandıqları gəmilərə hücum edir. Vaşinqton və London beynəlxalq koalisiyanın dəstəyi ilə Yəməndəki husi hədəflərini vurmaqla cavab verir.

Ümumilikdə Qırmızı dəniz marşrutları qlobal ticarətin təxminən 12 faizini və Asiya ilə Avropa arasında ticarətin 40 faizini təşkil edir, beləliklə, fasilələrin davam etməsi Avropanın strateji maraqlarını təhdid edir [39].

Qeyd edək ki, Babül-Məndəb boğazından gündə 7 milyon barel neft və neft məhsulları keçir. Alternativ marşrutlar üzrə yükdaşımalar 2 həftə daha çox vaxt aparır [34].

Avrasiya qitəsində dəmir yollarının uzunluğu 500 min km-dən artıqdır, hər il 3 milyon vaqon və 80 min lokomotiv istismar olunur, 7 milyarda qədər yük və 13 milyard sərnişin daşınır [29].

Belə olan halda, təhlükəsizlik və iqtisadi səmərəlilik nöqteyi-nəzərdən Orta Dəhlizin aktuallığı bir qədər də artır. Transxəzər Şərq-Qərb Beynəlxalq Nəqliyyat Dəhlizi (Orta Dəhliz) Çin Xalq Respublikasını Mərkəzi Asiya, Qafqaz, Türkiyə vasitəsilə Avropa İttifaqı ilə birləşdirən və Şimal marşrutuna (Çin-Qazaxıstan-Rusiya-Belarus-Avropa), eləcə də Süveyş kanalı vasitəsilə dəniz yoluna alternativ olan multimodal nəqliyyat dəhlizidir. Orta Dəhliz əsas etibarilə dəmir yolundan (4256 km) və dənizdən keçən hissədən (508 km) ibarətdir və Çin-Qazaxıstan sərhədindən başlayaraq, Qazaxıstandan keçməklə Xəzər dənizi vasitəsilə Azərbaycan və Gürcüstanadək davam edir. Gürcüstandan isə bu dəhliz iki istiqamətdə − Türkiyə vasitəsilə Avropaya, Qara dəniz vasitəsilə isə Ukrayna, Rumıniya və Bolqarıstana qədər uzanır.

## 6. Orta dəhlizin aktuallaşması və Azərbaycanın təşəbbüsləri

Avropa və Asiya arasında əlverişli coğrafi mövqedə yerləşən Azərbaycan ölkə ərazisindən keçən Orta Dəhlizin rəqabət qabiliyyətliliyinin artırılması istiqamətində bir sıra layihələr həyata keçirib. 2007-ci il fevralın 7-də Tbilisidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Avrasiyanın nəqliyyat xəritəsinin önəmli hissəsi

olan Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinə dair Saziş imzalanıb. Elə həmin ilin noyabrında Gürcüstanın Marabda məntəqəsində dəmir yolu xəttinin təməli qoyulub. 2008-ci ilin iyulunda isə Qars şəhərində Qars-Gürcüstan sərhədi hissəsinin tikintisinin təməlqoyma mərasimi keçirilib. Ümumi uzunluğu təxminən 850 kilometr olan Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin 504 kilometrlik hissəsi Azərbaycanın ərazisinə düşür. Dəmir yolu xəttinin 263 kilometri Gürcüstan, 79 kilometri isə Türkiyə ərazisindən keçir [1].

2017-ci il oktyabrın 30-da istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu Orta Dəhlizin bir hissəsi kimi Şərqlə Qərb arasında nəqliyyat bağlantısını təmin etməklə, qədim İpək Yolunun polad magistrallar üzərində bərpasıdır.

Bakı-Tbilisi-Qars dəmir yolu Çindən Avropaya yüklərin Orta Dəhliz ilə çatdırılması müddətinin dəniz daşımalarına nisbətən iki dəfədən çox azaldılmasına imkan yaradır. Regionda sabitliyə və təhlükəsizliyə xidmət edən Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin yükaşırma qabiliyyətinin artırılması xarici ticarət əlaqələrinin dərinləşməsi və iqtisadi inkişaf baxımından böyük imkanlar vəd edir.

Bu layihənin tarixi İpək Yolu üzərində həyata keçirilməsi onun region ölkələri üçün cəlbediciliyini artırır, eyni zamanda, Mərkəzi Asiya ölkələrinin − Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tacikistanın, həmçinin Əfqanıstanın Avropa və dünya bazarlarına çıxışını asanlaşdırır, ticarət əlaqələrinin inkişafında və qlobal iqtisadiyyata inteqrasiyasının dərinləşməsində mühüm əhəmiyyət daşıyır. Bakı-Tbilisi-Qars layihəsinin əsas üstünlüklərindən biri də odur ki, Azərbaycan Gürcüstan ərazisindən keçməklə Türkiyə ilə birbaşa dəmir yolu əlaqəsinə sahib olur. Bu isə ölkələr arasında münasibətlərin daha da möhkəmlənməsinə xidmət edir.

Güclü infrastruktura malik olan Azərbaycan nəqliyyat şəbəkələrinin inkişafına böyük sərmayə qoyaraq bu strateji üstünlüyünü daha da möhkəmləndirməklə mühüm nəqliyyat qovşağına çevrilir. Azərbaycanın tranzit və nəqliyyat-logistika imkanlarının davamlı inkişaf etdirilməsi məqsədilə 2018-ci ildə Qaradağ rayonunun Ələt qəsəbəsində ölkənin əsas dəmir yolları və avtomobil yolları şəbəkəsinin kəsişdiyi ərazidə yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı istifadəyə verilib [25].

Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Xəzər dənizi regionunda dəniz ticarətini asanlaşdıran və Azərbaycanın logistik imkanlarını artıran əsas yükdaşıma mərkəzinə çevrilib. O, ölkəmizin ərazisindən keçən Şərq-Qərb Beynəlxalq Nəqliyyat Dəhlizinin tam gücü ilə işləməsinə əlverişli imkanlar yaratmışdır.

Bakının Qaradağ rayonunun Ələt qəsəbəsində yaradılmış Ələt Azad İqtisadi Zonası Azərbaycanın Avropa-Asiya logistika zəncirlərində aparıcı rolunu gücləndirir [17]. Ələt Azad İqtisadi Zonasının yaradılmasında əsas məqsəd yüksək əlavə dəyərli və ixracyönümlü istehsalı təmin etmək, innovativ texnologiyalardan istifadə edərək xidmətlər göstərən investorları cəlb etmək, bu əsasda milli iqtisadiyyatın dayanıqlı inkişafına və ölkədə məşğulluğun artmasına töhfə verməkdir. O, beynəlxalq yükdaşımalarda mühüm rol oynamaqla yanaşı, ölkənin regional ticarət qovşağına çevrilmək perspektivini dəstəkləyir və yerli istehsalın təşviqini, habelə “Made in Azerbaijan” brendinin dünyada tanınmasını təmin edir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda qeyri-neft sektorunun inkişafının təmin olunması, iqtisadiyyatın müxtəlif sahələrinin şaxələndirilməsi, ölkəmizin ixrac potensialının artırılması, xarici investisiyanın cəlb edilməsi, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində çox va-

cib layihələr icra olunub. Pandemiyanın dünyada yaratdığı böyük iqtisadi və maliyyə çətinliklərinə baxmayaraq, Azərbaycanda bu proseslər uğurla davam edir. Ələt Azad İqtisadi Zonasının yaradılması bunun bariz nümunəsidir. Bu layihənin icrası Azərbaycana böyük iqtisadi dividendlər qazandırmaqla yanaşı, ölkəmizin regionda mövqelərini daha da gücləndirəcək, Şərq-Qərb və Şimal-Cənub tranzit-nəqliyyat dəhlizlərində mühüm rolu olan respublikamızın strateji əhəmiyyətini daha da artıracaq. Bu iqtisadi zonanın yaradılması dövlət gəlirlərinin və büdcəyə daxil olan vəsaitin artmasına, yeni investisiyaların cəlb edilməsinə şərait yaradacaq [19].

Bununla yanaşı, işğaldan azad edilmiş ərazilərdə yeni nəqliyyat-kommunikasiya infrastrukturunun qurulması üçün həyata keçirilən iri layihələr həmin ərazilərin beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevirməsinə və burada Orta Dəhlizin inkişafına əlverişli şərait yaradır.

Digər tərəfdən, Orta Dəhlizin səmərəliliyinin artırılması üçün Azərbaycan və Qazaxıstan tərəfindən müvafiq addımlar atılır. 2024-cü il martın 11-də Çinin Sian terminalından Bakının Abşeron stansiyasına konteyner qatarının gəlişi mərasimini Prezident İlham Əliyev və Prezident Kasım-Jomart Tokayev videobağlantı ilə izləyiblər. Qeyd edək ki, konteyner qatarının Çinin Sian şəhərində istismara verilmiş Qazaxıstana məxsus Nəqliyyat-Logistika Mərkəzi tərəfindən yola salınması Orta Dəhlizin bütün iştirakçıları üçün böyük əhəmiyyət kəsb edir. Altmış bir konteynerdən ibarət qatar uzunluğu 7 min kilometr olan marşrutu (Siandakı Qazaxıstan terminalı-Aktau-Abşeron stansiyası) 11 günə qət edib. Multimodal daşıma zamanı konteynerlər Qazaxıstan limanında yenidən yüklənərək Xəzər dənizi ilə Bakı Beynəlxalq Dəniz Ticarət Limanına, oradan isə Abşeron stansiyasına çatdırılıb.

Orta Dəhlizin inkişaf etdirilməsi və yeni yüklərin cəlb edilməsi baxımından bu günlərdə Çində fəaliyyətə başlamış Qazaxıstanın Nəqliyyat-Logistika Mərkəzi marşrut üzrə yükdaşımaların həcminin əhəmiyyətli dərəcədə artırılmasına hədəflənib. İlkin razılaşmaya əsasən, bu Mərkəz vasitəsilə Azərbaycana ayda 10 konteyner qatarın yola salınması planlaşdırılır.

Bununla yanaşı, Orta Dəhlizin inkişafı üçün birbaşa istehlakçılara yönəlmiş rəqəmsal DTC platforması yaradılıb, Azərbaycan və Qazaxıstan dəmir yolları "Track and Trace" ("Təqib və İzləmə") funksiyası vasitəsilə real vaxt rejimində marşrut boyunca yüklərin izlənməsi sisteminə inteqrasiya olunub. Vahid rəqəmsal ekosistemin yaradılması və inkişaf etdirilməsi Orta Dəhlizin şəffaflığını, cəlbediciliyini getdikcə artırır.

Azərbaycan və Qazaxıstan dəmir yolları idarələrinin birgə səyləri sayəsində 2024-cü ildə yükdaşımaların həcminin əhəmiyyətli dərəcədə artırılması planlaşdırılır. 2024-cü ilin yanvar-fevral aylarında "Qazaxıstan Dəmir Yolları" Səhmdar Cəmiyyəti ilə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti arasında yükdaşımaların həcmi 2023-cü ilin eyni dövrü ilə müqayisədə 25 faiz artaraq 539,5 min ton təşkil edib. Xatırladaq ki, əvvəllər Çindən Orta Dəhliz vasitəsilə yüklərin Qara dəniz limanlarına çatdırılması təxminən 53 gün çəkirdisə, hazırda bu müddət 18 gün təşkil edir [9].

## 7. Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması

Qeyd edək ki, İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni dəmir yolu, avtomobil

yolu əlaqəsinin, eləcə də rabitə və enerji təminatı xətlərinin tikintisi üçün infrastruktur yaradılır. Bu əsasda 2022-ci il martın 11-də “Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu” imzalanıb [4].

Sözügedən Anlaşma Memorandumu çərçivəsində 2023-cü il oktyabrın 6-da Zəngilanda avtomobil körpüsü və sərhəd-gömrük infrastrukturunun inşası, ərazidə sahilbərkitmə tədbirləri layihələrinin təməlqoyma mərasimi keçirilib və tikinti işlərinə başlanılıb.

## 8. Çinin qlobal infrastrukturla bağlı planlarına qarşı yeni koalisiyanın formalaşması

“Global Infrastructure Outlook”un məlumatına görə, Çinin 2016-cı ildən 2040-cı ilə qədər uzunmüddətli dövr üçün dəmir yolları, limanlar və avtomobil yollarının inkişafına ümumi investisiyası təxminən 16,2 trilyon dollar təşkil edə bilər. Bunun 62,6 faizi avtomobil yollarının, 33,7 faizi dəmir yolu infrastrukturunun, 3,7 faizi isə limanların payına düşür [36]. Müqayisə üçün Almaniyanın bu sahədə fəaliyyətinə də nəzər salaq. Almaniyada 2016-2040-cı illər üçün dəmir yolu və dəniz infrastrukturu arasında investisiyaların nisbəti 2%-ə qarşı 98% təşkil edir və dövr üçün ümumi həcmi müvafiq olaraq 1,5 trilyon və 23,4 milyard dollar təşkil edəcək. Ölkənin nəqliyyatına qoyulan investisiyaların illik həcmi 78,5 milyard dollar, o cümlədən dəmir yollarına 58,4 milyard dollar, limanlara isə 0,9 milyard dollar həcmində qiymətləndirilir.

Eyni zamanda, Almaniyada 2016-2040-cı illər üçün hava limanları istisna olmaqla, nəqliyyat sənayesinə qoyulan investisiyaların ümumi həcmi təxminən 2 trilyon ABŞ dolları təşkil edəcək ki, bunun da 74,4 faizi dəmir yolları, 24,4 faizi avtomobil yolları, təxminən 1,2 faizi liman infrastrukturunun payına düşür [37].

2023-cü ilin oktyabr ayında Yeni Dehlidə keçirilən G20-nin sammitində elan edilən iddialı dəmir yolu və dəniz nəqliyyatı layihəsi Çinin iqtisadi təsirinə meydan oxumaq kimi qəbul edildi. Hindistan, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, İordaniya, İsrail və Avropa İttifaqının daxil olacağı dəhliz ticarəti artırmağa, enerji resurslarını çatdırmağa və rəqəmsal əlaqəni yaxşılaşdırmağa kömək edəcək. Böyük coğrafiyanı əhatə edəcək dəhliz ilə bağlı “Bu, böyük bir işdir. Bu, həqiqətən də böyük bir işdir” deyən Bayden, Vaşinqtonu G20 qrupunda inkişaf etməkdə olan ölkələr üçün alternativ tərəfdaş və investor kimi təqdim edərək, "Bir kəmər, bir yol” təşəbbüsü çərçivəsində Çinin qlobal infrastrukturla bağlı planlarına qarşı çıxmağa çalışır [35].

İsrailin son illər ərzində ərəb dünyası ilə yaxınlaşmasından sonra, 2023-cü ilin 7 oktyabr tarixində Həmasın başçılıq etdiyi fələstinli silahlı qruplar tərəfindən Qəzza zolağından İsrailə qarşı başladılmış genişmiqyaslı hücum əməliyyatları (“Əl-Əqsa fırtınası”) ilə başlayan müharibə bu layihənin gələcəyini sual altında qoyur.

## 9. Azərbaycanın tranzit potensialı

Azərbaycan tranzit potensialını artırmaq və özünü mühüm logistika mərkəzlərindən biri kimi göstərmək üçün beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafında fəal iştirak edir. Azərbaycanın beynəlxalq daşımalarda dəmir yolu daşımaları 2019-cu ildəki 40,6 min TEU-dan 2020-ci ildə 75% artaraq 71,2 min TEU-ya çatıb.

2019-cu ildə beynəlxalq daşımalarda multimodal konteyner daşımalarını inki-

şaf etdirmək məqsədilə Azərbaycan, Türkiyə və Asiya arasında tranzit konteyner yüklərinin daşınması üçün Xəzər dənizində Bakı və Türkmənbaşı (Türkmənistan) limanlarını birləşdirən müntəzəm fider xidməti istifadəyə verilib. Bu gün Xəzər vasitəsilə reallaşdırılan dəniz nəqliyyatı Şimal-Cənub və Şərq-Qərb dəhlizlərinin mühüm seqmentini təşkil edir. Qürurverici haldır ki, Azərbaycan 200-dən çox gəmi ilə Xəzərdə ən böyük daşıma donanmasına malikdir. Bu donanma vasitəsilə həm respublikamızın, həm sahilyanı dövlətlərin, eləcə də digər regionlardan olan sifarişçilərin yükləri etibarlı şəkildə təyinat yerinə çatdırılır. Eyni zamanda, hazırda Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi Xəzər dənizində yeganə bərə operatorudur. Qurumun bərələri Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə yükdaşıma zəncirinin mühüm həlqəsi olmaqla, Xəzərin Şərq və Qərb sahillərindəki dəmir yollarını dəniz üzərində birləşdirir, Azərbaycan ərazisindən tranzit yüklərin daşınmasına, ölkənin əlverişli coğrafi mövqeyinin və tranzit potensialının reallaşdırılmasına xidmət edir.

Orta Dəhlizin yeni bir qolu olan Bakı−Naxçıvan−Qars dəmir yolu etibarlı ticarət marşrutu kimi regional əməkdaşlığın dərinləşməsinə və həyat şəraitinin yüksəlməsinə xidmət edəcəkdir. 2023-cü il sentyabrın 25-də Azərbaycan Respublikası və Türkiyə Respublikası dövlət başçılarının iştirakı ilə keçirilən görüş zamanı Qars−Naxçıvan yeni dəmir yolu xəttinin tikintisinə dair Niyyət Protokolu imzalanmışdır [23]. Tikilməsi planlaşdırılan dəmir yolu xəttinin uzunluğu 224 kilometr olacaq və Türkiyə tərəfi onu 5 il ərzində istifadəyə verməyi planlaşdırır. Sözügedən layihə həm Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında bağlantı, həm də yüklərin Avropaya daşınması istiqamətində tarixi əhəmiyyətli layihə olacaqdır.

Ölkəmiz Orta Dəhlizin təşviqi məqsədilə dəhliz boyu ölkələrlə sıx əməkdaşlıq həyata keçirir. Qeyd edək ki, 2022-ci il noyabrın 22-də Azərbaycan, Qazaxıstan, Türkiyə və Gürcüstan arasında Orta Dəhlizin inkişafı üzrə 2022−2027-ci illəri əhatə edən Yol Xəritəsi imzalanıb.

2023-cü il noyabrın 23-də təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024−2026-cı illər üçün Fəaliyyət Plan”ı ölkəmizin tranzit potensialından daha səmərəli istifadəyə imkanlar yaradır [6].

## 10. Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin perspektivləri

Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi istiqamətində ölkəmizdə görülən işlərə də nəzər salsaq, nəqliyyat-kommunikasiya sahəsində qarşımızdakı mənzərə daha aydın olar və tədqiqatımız haqqında daha dolğun təsəvvür formalaşar. Bizim üçün Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin öyrənilməsi bir sıra aspektlərdən əhəmiyyətlidir. Ermənistanın baş naziri Nikol Paşinyanın irəli sürdüyü utopik “Sülh kəsişməsi” layihəsində “Şimal-Cənub” marşrutuna daha çox diqqət ayrılır.

“Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizi haqqında Razılaşma Rusiya, İran və Hindistan arasında imzalanıb və 2002-ci il mayın 21-dən qüvvəyə minib [30]. Azərbaycan “Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizi haqqında Saziş”ə 2005-ci ildə qoşulub.

Adıçəkilən nəqliyyat dəhlizi Hindistan, Pakistan, İran, Azərbaycan, Rusiya və Şimali Avropa ölkələrini birləşdirəcək. Azərbaycanın həm Rusiya, həm İranla quru sərhədinə malik olması üçtərəfli regional əməkdaşlığın inkişafına əhəmiyyətli təsir göstərir. Bununla Azərbaycan hər iki transkontinental dəhlizin kəsişmə-

sində, Avrasiya coğrafiyasının mərkəzində mühüm nəqliyyat-logistika qovşağına çevrilir.

Avrasiya materikinin şimal və cənub hissələri arasında mühüm rolu olan nəqliyyat-logistika dəhlizinin Azərbaycan ərazisindən keçən hissəsində infrastruktur əhəmiyyətli dərəcədə müasirləşdirilib. Bakı Dəniz Ticarət Limanının yükaşırma qabiliyyəti artırılıb, Ələt-Astara avtomobil yolu yenidən qurulub, İran ilə Azərbaycan arasında yeni dəmir yolu körpüsü tikilib. Bu da ölkəmizin tranzit rolunun xeyli artmasına və onun beynəlxalq status qazanmasına səbəb olub.

Ölkəmiz "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin yaradılmasında fəal rol oynayır. "Şimal-Cənub" Nəqliyyat Dəhlizinin Azərbaycan ərazisindən keçən dəmir yolu xəttinin uzunluğu 511 kilometrdir. Bu dəhlizin önəmli hissəsi olan Azərbaycan-Rusiya sərhədindən Azərbaycan-İran sərhədinə qədər dəmir yolu istismara tam hazır vəziyyətə gətirilib. "Şimal-Cənub" Nəqliyyat Dəhlizinin inkişaf etdirilməsi məqsədilə 2022-ci il sentyabrın 9-da Bakıda üçtərəfli görüş keçirilib və yekunda Bakı Bəyannaməsi imzalanıb. Sənədə əsasən, tərəflər (Azərbaycan, Rusiya və İran) Şimal və Cənub dəhlizi üzrə yükdaşımaların 15 milyon tona çatdırılması üçün müvafiq tədbirlər görəcəklər [26].

2023-cü il mayın 17-də Kazan Forumu çərçivəsində dəhlizin çatışmayan seqmenti olan Rəşt−Astara dəmir yolu xəttinin tikintisinin Rusiya tərəfindən maliyyələşdirilməsi ilə bağlı Rusiya Federasiyası və İran İslam Respublikası arasında kredit sazişi imzalanıb [13]. Layihə həm Avropaya, həm də Rusiya ilə Fars körfəzi ölkələri arasında malların sürətli və maneəsiz tranzitini təmin edəcək. Sankt-Peterburqdan Mumbaya malların çatdırılması Süveyş kanalı vasitəsilə ənənəvi marşrutlar üzrə 30-45 gün əvəzinə təxminən 10 gün çəkəcək. Dəmir yolu ilə tranzit yüklərin ümumi həcmi ən azı 15 milyon ton təşkil edəcək [27].

Gələcəkdə Şimal-Cənub və Bakı-Tbilisi-Qars nəqliyyat dəhlizlərinin inteqrasiyası nəzərdə tutulur. Azərbaycan hər iki layihədə fəal iştirakçıdır. Belə ki, Osmanlı-Horadiz-Ağbənd-Naxçıvan-Qars dəmir yolu xəttinin tikintisi ölkəmizin tranzit qovşaq kimi formalaşmasına və ölkə ərazisindən keçən hər iki nəqliyyat dəhlizinin birləşdirilməsinə imkan yaradacaqdır. Azərbaycanla yanaşı, Gürcüstan, Türkiyə, Avropa ölkələri, Çin, Qazaxıstan və digər Orta Asiya respublikaları bu imkanlardan faydalanacaq.

Göründüyü kimi, Zəngəzur dəhlizi və Orta dəhliz hazırda çox mühüm əhəmiyyətə malik olmaqla yanaşı, həm də nəqliyyat bağlantılarının şaxələndirilməsi layihəsi kimi nəzərdən keçirilir. Cənubi Qafqazda yeni nəqliyyat arteriyalarının və kommunikasiya əlaqələrinin fəaliyyətə başlaması bölgədə sülhü, təhlükəsizliyi və dayanıqlı sabitliyi təşviq edəcəkdir.

## 11. Beynəlxalq nəqliyyat dəhlizlərinin hüquqi aspektləri

Artıq uzun müddətdir ki, vahid nəqliyyat məkanının və vahid nəqliyyat infrastrukturunun yaradılması ideyası milli, dövlətlərarası (ittifaqlar çərçivəsində), kontinental və daha sonra qlobal səviyyədə nəqliyyatın inkişafı ilə bağlı qərarların qəbulu üçün əsas kimi qəbul edilib. Lakin bu ideyanın praktiki həyata keçirilməsi əksər hallarda hələ də milli infrastrukturun inkişafı layihələrinin əlaqələndirilməsi və aşkar hüquqi və iqtisadi texnoloji maneələrin aradan qaldırılması ilə məhdudlaşır. Bu gün nəqliyyat sistemlərinin hələ də inteqrasiyanın birinci mərhələsində olduğunu iddia etmək olar.

Dəmir yolu ilə yükdaşımaları çərçivəsində münasibətləri tənzimləyən iki hüquq sistemi mövcuddur:

- ❖ Malların Beynəlxalq Daşımaları-

na dair Bern Konvensiyası (sonradan Dəmiryolu ilə Beynəlxalq Daşımalar haqqında Konvensiyaya daxil edilmişdir) “Convention relative aux Transport international ferroviaires” (COTIF )

❖ Beynəlxalq yük daşımaları haqqında Saziş (BYDS). Bu da dəmir yolu ilə yüklərin daşınması üçün əmtəə qaiməsi müəyyən edir.

COTIF sənədə qoşulmuş və onu ratifikasiya etmiş dövlətlərin ərazilərinə şamil edilən beynəlxalq müqavilədir. COTİF ərazisində yüklərin beynəlxalq daşınması zamanı dəmir yolu ilə yüklərin daşınması, vaqonların və ayrıca infrastrukturun istifadəsi üzrə xidmət göstərən müxtəlif şirkətlərlə ayrıca müqavilələr bağlanır.

BYDS, öz növbəsində, dəmir yolu nəqliyyatına cavabdeh olan milli nazirliklərin iştirak etdiyi beynəlxalq müqavilədir. COTIF-dən fərqli olaraq, BYDS yüklərin daşınması, vaqonların istifadəsi və dəmir yolu infrastrukturu xidmətlərini ayırmır, çünki bu xidmətlər milli dəmir yolu şirkətləri tərəfindən hərtərəfli şəkildə təqdim olunur.

## 12. “Dəmir Yumruq” əməliyyatının geosiyasi nəticələri

Prezident İlham Əliyevin rəhbərliyi altında keçirilmiş “Dəmir yumruq” əməliyyatı nəticəsində regionda yeni geosiyasi reallıqlar formalaşdı. 44 gün davam edən hərbi əməliyyatlar nəticəsində rəşadətli ordumuz BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirdi. Birinci Qarabağ müharibəsi nəticəsində öz torpaqlarının 20 faizini itirən Azərbaycan Respublikası 1994-cü ildə imzalanmış Bişkek protokolundan sonra BMT Təhlükəsizlik Şurasının işğalçı qüvvələrin qeyd-şərtsiz Azərbaycan torpaqlarından çıxarılmasını nəzərdə tutan qərarlarının icra olunması üçün Ermənistan Respublikası ilə müxtəlif beynəlxalq qurumlar çərçivəsində uzunmüddətli diplomatik danışıqlar apardı. Uzun illər ərzində ATƏT-in Minsk qrupu münaqişənin tənzimlənməsi istiqamətində fəaliyyət göstərsə də, bu, praktiki nəticə vermədi. Beynəlxalq təşkilatların sülh platformaları ilə yanaşı, Azərbaycan region ölkələrinin də münaqişənin həlli istiqamətindəki təşəbbüslərində yaxından iştirak etdi. Lakin uzun illər ərzində aparılan sülh danışıqları heç bir nəticə vermirdi.

2018-ci ildə Ermənistanda hakimiyyətə gələn Nikol Paşinyanın “Qarabağ Ermənistandır və nöqtə” kimi populist bəyanatları, Azərbaycanın işğal olunmuş ərazilərinə ardıcıl qanunsuz səfərləri kimi təxribatçı xarakter daşıyan hərəkətləri və bu təxribatçı əməllərin davamı qismində 2019-cu ilin mart ayında Ermənistanın müdafiə naziri David Tonoyanın ABŞ-da rəsmi səfərdə olarkən “yeni torpaqlar üçün yeni müharibə” çağırışı münaqişənin sülh yolu ilə həlli imkanlarını sarsıtdı.

2020-ci ilin iyul ayında ermənilər Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində əlverişli mövqeləri ələ keçirmək məqsədilə artilleriya atəşindən istifadə edərək hücuma keçməyə cəhd göstərsə də, buna müvəffəq ola bilmədilər [22].

Avqust ayında təmas xəttinin Goranboy rayonu istiqamətində Ermənistan Silahlı Qüvvələrinin diversiya-kəşfiyyat qrupu təxribat törətməyə cəhd göstərdi, lakin görülən tədbirlər nəticəsində diversiya qrupu itki verərək geri çəkildi və qrupun komandiri baş leytenant Qurgin Alberyan əsir götürüldü [3].

Birbaşa hərbi təxribatlarla yanaşı, Ermənistan tərəfindən beynəlxalq hüquqi prinsiplərə zidd olaraq, Azərbaycan Respublikasının işğal altındakı ərazilərinə çox sayda YPG, PKK terrorçularının, o cümlədən Beyrut limanında baş tutan partlayışlardan sonra minlərlə Livan ermənilərinin köçürülməsi münaqişəni daha da alovlandırdı. Situasiyanın gərginliyi 2020-ci ilin avqust ayının sonların-

da Ermənistan baş nazirinin həyat yoldaşı Anna Hakobyanın Azərbaycanın işğal altındakı ərazilərində qeyri-leqal olaraq təşkil olunmuş hərbi təlimdə iştirakını ictimailəşdirməsi ilə pik həddə çatdı [15]. Ermənistan tərəfinin bu qəbildən olan səmərəsiz və təhrikedici bəyanatları və hərəkətləri danışıqlar prosesindən tamamilə imtina edilməsi anlamına gəlirdi.

2020-ci il sentyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında videoformatda etdiyi çıxışında Ermənistanın son təxribatları nəticəsində azərbaycanlı hərbçilərin və mülki vətəndaşın həlak olması, habelə mülki infrastruktura vurulan ciddi ziyan qeyd olunub. O cümlədən, Azərbaycan Prezidenti iyulun 17-dən etibarən sentyabr ayına qədər hərbi yük təyyarələri ilə Ermənistana min tondan artıq hərbi avadanlığın daşındığını bildirib [12].

2020-ci il sentyabrın 27-də Ermənistan Silahlı Qüvvələrinin atəşkəs rejimini kobud şəkildə pozmasına cavab olaraq həmin gün Azərbaycan Silahlı Qüvvələri erməni təxribatlarının qarşısını almaq üçün əks-həmlə əməliyyatlarına başladı [14] və respublika ərazisində hərbi vəziyyət elan olundu. Sentyabrın 28-də ölkədə qismən səfərbərlik elan edildi [5].

Azərbaycan Ordusunun sarsıdıcı zərbələri qarşısında duruş gətirə bilməyən işğalçı ölkənin ordusunun müdafiə səddi qısa zaman ərzində yarıldı. Başlanğıcda bir sıra kəndləri və strateji yüksəklikləri işğaldan azad edən ordumuz oktyabrın 4-də Cəbrayılı, oktyabrın 17-də Füzulini, oktyabrın 20-də Zəngilanı, oktyabrın 25-də Qubadlını və noyabrın 8-də Şuşa şəhərini işğaldan azad etdi. Döyüşlərin gedişi zamanı ümumilikdə uzun illər işğal altında olmuş 300-dək yaşayış məntəqəsi, o cümlədən Tərtər, Xocavənd və Xocalı rayonlarının böyük bir hissəsi döyüş meydanında azad edildi.

2020-ci ilin noyabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin tərəfindən imzalanmış üçtərəfli atəşkəs bəyanatının 9-cu bəndinə görə, bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir, Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Bununla yanaşı, nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək.

Naxçıvan Muxtar Respublikasının Azərbaycanın əsas hissəsi ilə əlaqəsinin yaradılması haqqında bəndin bəyanatda təsbit edilməsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təkidli tələbi və siyasi iradəsi sayəsində mümkün oldu. 2020-ci ilin noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciəti zamanı bildirdi ki, Naxçıvan Muxtar Respublikasını Azərbaycanla, Azərbaycanın əsas hissəsi ilə quru yollarla birləşdirmə istiqamətində tarixi addım atıldı. "Mənfur düşmən 1990-cı illərin əvvəllərində və ondan da bir qədər əvvəl Naxçıvanı faktiki olaraq mühasirəyə almışdı. Bütün kommunikasiya xətləri kəsildi, - çünki o vaxt Azərbaycanın əsas hissəsindən oraya enerji resursları ötürülürdü, - faktiki olaraq Naxçıvan Muxtar Respublikası çox ağır vəziyyətdə qalmışdı. Eyni zamanda, Ermənistan ərazisindən oraya hücumlar da edilirdi" [20]. Xüsusilə vurğulamaq lazımdır ki, məhz Ulu öndər Heydər Əliyevin

cəsarəti və fəaliyyəti nəticəsində Naxçıvan işğal altına düşmədi. Erməni vandallarının belə planları da var idi.

### 13. Regionda iqtisadi və nəqliyyat əlaqələrinin bərpası üzrə yaradılan İşçi Qrupun fəaliyyəti

Bununla yanaşı qeyd edək ki, 10 noyabr tarixində imzalanmış bəyanatdan sonra iqtisadi və nəqliyyat əlaqələrinin blokadadan çıxarılması istiqamətində ardıcıl və prinsipial fəaliyyət həyata keçirilmişdir. 11 yanvar 2021-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin iştirakı ilə Moskvada keçirilən görüşdə növbəti bəyanat imzalanmışdır [7]. Bəyanata əsasən regionda bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpasının reallaşdırılmasından irəli gələn işlərin əsas istiqamətlərinin siyahısı formalaşdırılacaq, prioritet qismində dəmir yolu və avtomobil yolları müəyyən ediləcək. Eyni zamanda, İşçi qrupunun həmsədrləri bu istiqamətlər üzrə tərəflərin səlahiyyətli hakimiyyət orqanları və təşkilatlarının vəzifəli şəxslərindən ibarət ekspert yarımqruplarının tərkibini təsdiq edəcəklər. Azərbaycan Respublikası və Ermənistan Respublikası ərazisindən həyata keçirilən beynəlxalq daşımaların, həmçinin Azərbaycan Respublikası və Ermənistan Respublikası tərəfindən həyata keçirilən, yerinə yetirilməsi zamanı Azərbaycan Respublikasının və Ermənistan Respublikasının ərazilərinin kəsişməsi tələb olunan daşımaların təşkili, yerinə yetirilməsi və təhlükəsizliyinin təmin edilməsi üçün zəruri olan yeni nəqliyyat infrastrukturu obyektlərinin bərpasını və tikilməsini nəzərdə tutan tədbirlərin siyahısını və reallaşdırılması qrafikini Tərəflərin yüksək səviyyədə təsdiqləməsi üçün təqdim edəcək.

Daha sonra 11 yanvar 2021-ci il tarixində imzalanmış bəyanatın 1-ci bəndində qeyd olunmuş İşçi qrupu Moskvada Cənubi Qafqazda nəqliyyat kommunikasiyalarının inşasının müzakirə edilməsi üçün Azərbaycan, Rusiya və Ermənistan baş nazirlərinin müavinlərinin üçtərəfli görüşü keçirilmişdir. 2021-ci ilin yanvarın 30-da keçirilmiş görüşdə Azərbaycan tərəfindən Şahin Mustafayev, Rusiyadan Aleksey Overçuk, Ermənistandan isə Mher Qriqoryan iştirak etmişdir. Üçtərəfli işçi qrupun iclası zamanı Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası baş nazirinin və Rusiya Federasiyası Prezidentinin 10 noyabr 2020-ci il tarixli Bəyanatının 9-cu bəndinin icrasından irəli gələn birgə əsas işin istiqamətləri, habelə 11 yanvar 2021-ci il tarixli Bəyanatın 2, 3, 4-cü bəndləri müzakirə edilmişdir [16].

2021-ci ilin fevralın 12-də isə Azərbaycan, Rusiya və Ermənistan baş nazirlərinin müavinlərinin videoformatda görüşü keçirilmişdir. İclasda Qarabağ və onun ətrafında təhlükəsizlik, həmçinin bölgədəki kommunikasiya xətlərinin açılması məsələləri müzakirə edilmişdir [8].

Horadiz-Ağbənd dəmir yolunun reallaşması bütün regionun inkişafına töhfə verəcək. Zəngəzur dəhlizinin əsas elementlərindən biri olacaq bu dəmir yolu xəttinin qurulması ilə Bakı-Tbilisi-Qarsdan sonra Azərbaycanı Türkiyə ilə birləşdirən ikinci dəmir yolu şəbəkəsi yaranacaq. Artıq dəmir yolunun inşası ilə bağlı işlər sürətlə davam etməkdədir. Hazırda Horadizdən başlayaraq Zəngilan rayonunun Ağbənd qəsəbəsinədək uzanan dəmir yolu xətti yenidən tikilir. Qeyd edək ki, Horadiz-Ağbənd dəmir yolu xəttinin ox üzrə uzunluğu 110,4 kilometrə bərabərdir. Birxətli dəmir yolu 8 stansiyadan ibarət olacaq, həmçinin layihə çərçivəsində ümumilikdə 300-dən artıq süni mühəndis qurğusunun tikintisi planlaşdırılır. Qeyd edək ki, sovet dövründə

dəmir yolu xətti fəaliyyət göstərirdi. Horadiz stansiyası ilə yanaşı, digər yeddi stansiya - Mərcanlı, Mahmudlu, Soltanlı, Qumlaq, Mincivan, Bartaz və Ağbənd stansiyaları tamamilə yenidən tikiləcək. Dəmir yolu xətti bütövlükdə dron vasitəsilə topoqrafik plana alınıb, konseptual planı hazırlanıb. Hazırda minalardan təmizlənmiş 40 kilometrlik hissəsində torpaq yatağının hazırlanması, həmçinin süni qurğuların tikintisi həyata keçirilir. Artıq 21 kilometrlik hissədə torpaq yatağı hazırlanıb, qaya daşı və çınqıl materialları tökülüb. 3 kilometr hissədə relslər qoyulub. Eyni zamanda, süni qurğuların, o cümlədən körpü və dəmir-beton boruların tikintisi aparılır. Horadiz-Ağbənd dəmir yolu xəttinin yenidən qurulması işləri tamamlanmaq üzrədir. Böyük strateji əhəmiyyəti olan Horadiz-Ağbənd dəmir yolu xəttinin inşası işğaldan azad edilmiş ərazilərimizin iqtisadi potensialına böyük töhfə verəcək. Dəmir yolu işğaldan azad edilmiş torpaqlara həm vətəndaşların gediş-gəlişi, həm də yüklərin daşınması üçün böyük əhəmiyyətə malik olacaq. Bununla da Azərbaycan və onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası dəmir yolu ilə bir-birinə bağlanacaq və beləliklə, ölkəmizin strateji, iqtisadi və siyasi məqsədləri həyata keçiriləcək.

## Nəticə

Son illərdə Cənubi Qafqazda baş verən dinamika regionda adi güc balansını dəyişib. Qarabağ münaqişəsinin Rusiyanın vasitəçiliyi ilə həlli ilə bağlı üçtərəfli bəyanatın imzalanması bir tərəfdən yeni imkanlar açdı, digər tərəfdən bəzi regional və qeyri-regional ölkələr üçün yeni risklər yaratdı (bunların arasında ilk növbədə Fransa, İran və Hindistanı ayırmaq lazımdır).

Təbii ki, yeni imkanlar dedikdə, ilk növbədə, iqtisadi inkişaf və nəqliyyat-logistika layihələrinin həyata keçirilməsi yolu ilə qlobal qarşılıqlı fəaliyyətin yeni səviyyəsinə çıxmaq nəzərdə tutulur. Mövcud geosiyasi şəraitdə, Qırmızı dənizdəki böhran dəniz yük daşımaları üçün bir problem halına gəldikdə, Qarabağ münaqişəsi başa çatdıqdan sonra "çeşidi" xeyli genişlənmiş quru marşrutlarına keçid məsələsi aktuallaşdı. Əgər əvvəllər Hindistan, İran, Ermənistan, Gürcüstan ərazisindən keçən və Qara dənizə, oradan da Avropaya çıxan "Cənub dəhlizi" və ya "Fars körfəzi - Qara dəniz" dəhlizinin Azərbaycan və Ermənistanın döyüş apardığı zonanın bloklanması səbəbindən rəqibləri yox idisə, indi vəziyyət tamamilə fərqlidir. Bakı və İrəvanın Azərbaycanla Naxçıvanı birləşdirməyi nəzərdə tutan nəqliyyat xətti ilə bağlı maddəni sülh sazişi layihəsindən çıxarması da göstərir ki, Zəngəzur dəhlizinin açılması sülh müqaviləsinin imzalanmasından sonrakı mərhələdə danışıqlar mövzusu olacaqdır.

Aparılan tədqiqat da göstərir ki, müasir dövrdə beynəlxalq nəqliyyat dəhlizlərinin mühüm əhəmiyyəti vardır. Dünyada davam edən müharibələr, dağıdıcı fəlakətlər, humanitar böhranlar nəqliyyat dəhlizlərinin işində ləngimələrə və problemlərə yol açır. Bu baxımdan nəqliyyat axınlarının diversifikasiyasına ehtiyac hiss olunmaqdadır. Məhz buna görə Zəngəzur dəhlizinin açılması həm Cənubi Qafqazda sülhün dayanıqlı olmasına, həm də böyük coğrafiyada əməkdaşlığa, tərəqqiyə və xalqların rifah halının yüksəlməsinə, dövlətlərarası münasibətin yaxınlaşmasına səbəb olacaqdır.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

**Azərbaycan dilində:**

1. Azərbaycan – Avrasiyanın nəqliyyat qovşağı // "Diaspor.gov.az", URL: https://diaspor.gov.az/az/page/azerbaycan-avrasiyanin-neqliyyat-qovsagi-12
2. Azərbaycan-Çin sənədlərinin imzalanması mərasimi olub // "President.az", 10.12.2015 URL: https://president.az/az/articles/view/17137/print
3. Azərbaycan Ermənistan silahlı qüvvələri diversiya-kəşfiyyat qrupunun komandiri əsir götürülüb // "Trt.net.tr", 24.08.2022 URL: https://www.trt.net.tr/azerbaycan/turk-dunyasi/2020/08/24/az-rbaycan-erm-nistan-silahli-quvv-l-ri-diversiya-k-sfiyyat-qrupunun-komandiri-sir-goturulub-1477795
4. "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı // "President.az", 05.04.2021 URL: https://president.az/az/articles/view/55727
5. Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // "President.az", 28.09.2020 URL: https://president.az/az/articles/view/41026
6. Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024−2026-cı illər üçün FƏALİYYƏT PLANI // 23.11.2023 URL: https://president.az/az/articles/view/62315
7. Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası baş nazirinin və Rusiya Federasiyası Prezidentinin bəyanatı // "President.az", 11.01.2021. URL: https://president.az/articles/50070
8. Azərbaycan, Rusiya və Ermənistan baş nazirlərinin müavinləri görüşüb // "Report.az", 12.02.2021. URL: https://report.az/qarabag/azerbaycan-rusiya-ve-ermenistan-bas-nazirlerinin-muavinleri-gorusub/
9. Azərbaycan və Qazaxıstan prezidentləri Çinin Sian terminalından Bakının Abşeron stansiyasına konteyner qatarının gəlişi mərasimini videobağlantı ilə izləyiblər // "AzərTAc", 11.03.2024 URL: https://azertag.az/xeber/azerbaycan_ve_qazaxistan_prezidentleri_chinin_sian_terminalindan_bakinin_abseron_stansiyasina_konteyner_qatarinin_gelisi_merasimini_videobaglanti_ile_izleyibler__yenilenib_video-2945891
10. Azərbaycan və Türkiyə prezidentləri mətbuata birgə bəyanatlarla çıxış ediblər // "Apa.az", 25.09.2023 URL: https://apa.az/az/resmi-xeber/azerbaycan-ve-turkiye-prezidentleri-metbuata-birge-beyanatlarla-cixis-edibler-video-yenilenib-787440
11. Baş nazir Əli Əsədov 4-cü Tbilisi İpək Yolu Forumunun açılış mərasimində çıxış edib // "Nazirlər Kabineti", 26.10.2023 URL: https://nk.gov.az/az/xeberler/matbuat-xidmatinin-malumati/bas-nazir-eli-esedov-4-cu-tbilisi-ipek-yolu-forumu-2992
12. BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında İlham Əliyevin nitqi // "President.az", 24.09.2022 URL: https://president.az/az/articles/view/42794
13. Dünya Sakit. İran Rəşt-Astara dəmir yolunun tikintisini Rusiyaya verdi // "Musavat.com", URL: https://www.musavat.com/news/iran-rest-astara-demir-yolunun-tikintisini-rusiyaya-verdi-ilginc-gelisme_978093.html
14. Ermənistan-Azərbaycan münaqişəsi // "President.az", URL: https://president.az/

az/pages/view/azerbaijan/karabakh

15. Ermənistanın birinci ledisi Dağlıq Qarabağda hərbi təlim keçib // "BBC.com", 02.09.2022 URL: https://www.bbc.com/azeri/azerbaijan-54000674

16. Əkbərov, F. Moskvada Azərbaycan, Rusiya və Ermənistan baş nazirlərinin müavinlərinin üçtərəfli görüşü keçirilib // "Apa.az", 30.01.2021. URL: https://apa.az/az/xarici_siyaset/Moskvada-Azrbaycan-Rusiya-v-Ermnistan-Bas-nazirlrinin-muavinlrinin-ustrfli-gorusu-kecirilib-627108

17. Ələt azad iqtisadi zonasının yaradılması və fəaliyyətinin təşkili haqqında Azərbaycan Respublikası Fərmanı №1032 // "E-qanun.az", 22.05.2020 URL: https://e-qanun.az/framework/45103

18. Feyizli, M. Böyük İpək Yolu: Keçmişdən gələcəyə... // "Yeni Azərbaycan", 28.10.2023 URL: https://www.yeniazerbaycan.com/Iqtisadiyyat_e92334_az.html

19. İlham Əliyev Ələt Azad İqtisadi Zonasının təməlini qoyub, Azərbaycan Televiziyasına müsahibə verib // "President.az", 01.07.2021 URL: https://president.az/az/articles/view/52363

20. İlham Əliyev xalqa müraciət edib // "President.az", 10.11.2020. URL: https://president.az/articles/45924

21. İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında olublar // "President.az", 14.02.2021. URL: https://president.az/articles/50632

22. Qərib, S. Tovuz döyüşlərindən 2 il ötür // "Report.az", 12.07.2022 URL: https://report.az/herbi-xeberler/tovuz-doyuslerinden-2-il-otur/

23. Naxçıvanda Azərbaycan-Türkiyə sənədlərinin imzalanma mərasimi keçirilib // "Report.az", 25.09.2023 URL: https://report.az/xarici-siyaset/naxcivanda-azerbaycan-turkiye-senedlerinin-imzalanma-merasimi-kecirilib/

24. Prezident İlham Əliyev: Azərbaycan və onun ayrılmaz hissəsi olan Naxçıvan dəmir yolu ilə bir-birinə bağlanacaq // "AzərTAc", 15.02.2021 URL: https://azertag.az/xeber/Prezident_Ilham_Aliyev_Azerbaycan_ve_onun_ayrilmaz_hissesi_olan_Naxchivan_demir_yolu_ile_bir_birine_baglanacaq_VIDEO-1712469

25. Prezident İlham Əliyev Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin açılışında iştirak edib // "Azərtac", 14.05.2018 URL: https://azertag.az/xeber/prezident_ilham_eliyev_baki_beynelxalq_deniz_ticaret_limani_kompleksinin_achilisinda_istirak_edib_yenilenib_2-1162432

26. "Şimal−Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi // "President.az", URL: https://president.az/az/pages/view/azerbaijan/silkroad

27. Şimal-Cənub dəhlizi üzrə yük dövriyyəsi 2025-ci ilə kimi ikiqat artacaq // "AzərTAc", 18.05.2023 URL: https://azertag.az/xeber/simal_cenub_dehlizi_uzre_yuk_dovriyyesi_2025_ci_ile_kimi_ikiqat_artacaq-2621744

28. Yusifov, F. Azərbaycan regionun nəqliyyat habına çevrilir // "Xalq qəzeti", 26.11.2023 URL: https://xalqqazeti.az/az/iqtisadiyyat/150194-azerbaycan-regionun-neqliyyat-habina-cevrilir

**Rus dilində:**

29. Дмитриев. М.Э. Пространство 1520: перспективы интеграции // "Транспорт Российской Федераци", №5 (42) 2012, Москва с. 8

30. Мамедова Н.М. Международный транспортный коридор «Север - Юг» как современный аналог Великого Волжского пути // Восточная аналитика. №3. 2018.

с. 149–156.

31. Мартынова Е. Международные транспортные коридоры как фактор формирования Большого Евразийского партнерства. Россия и новые государства Евразии, 2023, № III (LX), с. 69. URL: https://doi.org/10.20542/2073-4786-2023-3-68-77

32. Международные транспортные коридоры. РЖД-Инвест / (Инфраструктура, Инвестиции, Инновации) // Подготовлен специально к форуму «PRO//Движение.1520», который был перенесен в связи с текущей эпидемиологической ситуацией на 2022 год. с. 6

33. Санкции в транспортной отрасли // URL: https://eu-solidarity-ukraine.ec.europa.eu/eu-sanctions-against-russia-following-invasion-ukraine/sanctions-transport_ru

34. Хуситы атаковали британский корабль в Аденском заливе // "RBK.com", 19.02.2024 URL: https://www.rbc.ru/rbcfreenews/65d300119a794726a24fd95c

**İngilis dilində:**

35. G20 summit: Transport project to link India to Middle East, Europe unveiled // "Aljazeera", 09.10.2023 URL: https://www.aljazeera.com/news/2023/9/9/g20-summit-transport-project-to-link-india-to-middle-east-europe-unveiled#:~:text=It%20aims%20to%20link%20Middle,times%2C%20costs%20and%20fuel%20use

36. Global İnfrastructure Outlook. İnvestment estimates. China. // URL: https://outlook.gihub.org/countries/China

37. Global İnfrastructure Outlook. İnvestment estimates. Germany. // URL: https://outlook.gihub.org/countries/Germany

38. Mary-Ann Russon. The cost of the Suez Canal blockage // "BBC.com", 29.03.2021 URL: https://www.bbc.com/news/business-56559073

39. Selin Uysal. The EU's New Red Sea Naval Mission: Implications and Challenges // The Washington Institute for Near East Policy, 16.02.2024 URL: https://www.washingtoninstitute.org/policy-analysis/eus-new-red-sea-naval-mission-implications-and-challenges

**Ilyas Huseynov**

## SIGNIFICANCE OF ZANGEZUR CORRIDOR IN CONTEXT OF INTERNATIONAL TRANSPORT CORRIDORS

### Abstract

This article examines the importance of the Zangezur Corridor in the context of international transport corridors. It highlights the growing significance of such corridors in contemporary times, with global power centers striving to control transport flows.

Following the Patriotic War (Second Karabakh War) and the anti-terror operation, Azerbaijan, leveraging its geostrategic position, has fostered cooperation between the South Caucasus and Central Asia, aiming to capitalize on the vast potential for transport and communication links. Additionally, collaboration between East and West in energy and transport sectors is essential for promoting peace, security, stability, and sustainable development across a broad region.

The article argues that, after the Patriotic War, new opportunities for development and progress have emerged in the South Caucasus, with the "3+3" format

facilitating regional consultations. In this context, the opening of the Zangezur Corridor will further strengthen the region's security architecture.

The author also illustrates, through examples and facts, how sanctions and restrictions imposed on Russia due to the Russian-Ukrainian war, as well as conflicts in the Middle East, have disrupted supply chains, including attacks on merchant ships and delays in logistics. These factors have increased the importance of the Middle Corridor and the Zangezur Corridor, which are crucial for connecting Central Asia and the South Caucasus.

**Keywords:** transport corridors, Zangezur Corridor, East-West transport links, transport-communication links, transport arteries, Nakhchivan Autonomous Republic, Iran, Armenia, Türkiye, Middle Corridor, China, Belt and Road Initiative

**Ильяс Гусейнов**

## ЗНАЧЕНИЕ ЗАНГЕЗУРСКОГО КОРИДОРА В КОНТЕКСТЕ МЕЖДУНАРОДНЫХ ТРАНСПОРТНЫХ КОРИДОРОВ

### Резюме

В статье рассматривается роль Зангезурского коридора в системе международных транспортных коридоров (МТК). В современную эпоху значение международных транспортных маршрутов значительно возросло, и глобальные центры силы стремятся контролировать ключевые транспортные потоки.

Азербайджан, восстановивший свою территориальную целостность и суверенитет после Отечественной войны и антитеррористической операции, активно использует свои геостратегические преимущества для укрепления сотрудничества между Южным Кавказом и Центральной Азией. Особое внимание уделяется раскрытию потенциала транспортно-коммуникационных связей. Кроме того, развитие сотрудничества между Востоком и Западом в энергетической и транспортной сферах способствует установлению мира, безопасности, стабильности и устойчивого развития в обширном регионе.

Автор отмечает, что после Отечественной войны на Южном Кавказе появились благоприятные условия для развития, а формат взаимодействия «3+3» создает основу для региональных консультаций. В этом контексте открытие Зангезурского коридора может укрепить архитектуру безопасности региона.

В статье также анализируются последствия санкций против России, введенных в результате российско-украинской войны, а также влияние конфликтов на Ближнем Востоке на логистику и глобальные цепочки поставок. Разрыв этих цепочек, атаки на торговые суда и задержки в логистике усилили значение Срединного и Зангезурского коридоров как важнейших маршрутов между Центральной Азией и Южным Кавказом.

**Ключевые слова:** транспортные коридоры, Зангезурский коридор, транспортные связи Восток-Запад, транспортно-коммуникационные связи, транспортные артерии, Нахичеванская Автономная Республика, Иран, Армения, Турция, Средний коридор, Китай, инициатива «Один пояс и один путь»

# BEYNƏLXALQ TERRORİZMLƏ QLOBAL MÜBARİZƏNİN BAŞLANMASI: POLİTOLOJİ TƏHLİL

**İlkin ƏHMƏDZADƏ**
*Bakı Dövlət Universitetinin*
*Beynəlxalq münasibətlər kafedrasının doktorantı*
*(Bakı, Azərbaycan)*

*E-mail: dipomatd325@gmail.com*
*ORCID: 0009-0000-3186-6497*
*UOT-327*

**Xülasə.** XXI əsrin əvvəllərində dünya nizamına ciddi təsir göstərən amillər sırasında ABŞ-da 2001-ci il sentyabrın 11-də baş verən terror hadisələri mühüm əhəmiyyətə malikdir. Süni şəkildə və ya qəsdən törədilməsindən, habelə geosiyasi nəticələrindən asılı olmayaraq 11 sentyabr terroru ilə bağlı diskussiyalar səngimir, tədqiqatların aparılması davamlı xarakter daşıyır. Təsadüfi deyildir ki, 11 sentyabr terroruna qarşı sistemli, məqsədyönlü və kollektiv şəkildə həyata keçirilən mübarizə epoxanın başlanğıcı kimi qeyd edilir. ABŞ-ın beynəlxalq terrorizmə qarşı mübarizə adı altında apardığı işğalçılıq mübarizəsi onun dünya hegemonluğuna nail olmasına hədəflənmişdir. Məqalədə milli, türk və rusiyalı müəlliflərin tədqiqatlarına, habelə kütləvi informasiya vasitələrinin materiallarına əsasən 2001-ci ildən sonra yaranmış beynəlxalq vəziyyət təhlil edilir, ABŞ-ın hegemonluq siyasətinin şəciyyəsi verilir və BMT-nin antiterror koalisiyasının yaradılması sahəsində apardığı mübarizə elmi-praktiki baxımdan təhlil edilir.

**Açar sözlər:** ABŞ, BMT, 11 sentyabr 2001-ci il, Yaxın Şərq, islam faktoru, hegemonluq, beynəlxalq terrorizm, antiterror, enerji maraqları, dünya nizamı, siyasi fikir, geosiyasi rəqabət

## GİRİŞ

Dünya birliyinin beynəlxalq terrorizmlə mübarizəyə məqsədyönlü, kompleks və qismən kollektiv şəkildə başlaması başa vurduğumuz yüzilliyin sonlarında yaranmış beynəlxalq vəziyyətlə bağlı idi. Məlum olduğu kimi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev həm erməni terrorçuluğunun praktikasına əsasən, həm də güclənməkdə olan terrorizm təhlükəsinin fəsadlarını irəlicədən proqnozlaşdıraraq hələ 1999-cu il iyunun 18-də "Terrorçuluğa qarşı mübarizə haqqında" Qanunu imzalamaqla beynəlxalq münasibətləri hədələyən bu təhlükə ilə bağlı Bakıdan dünya birliyinə çağırış etmişdi. Hələ keçən əsrin sonlarında baş vermiş məlum hadisələrdən, dünya sosializm sisteminin dağılmasından və SSRİ-nin süqutundan sonra qlobal gücə çevrilən Amerika Birləşmiş Ştatları təkqütblü dünya nizamının formalaşması, hegemonluğunun dünyaya qəbul etdirilməsi üçün tədricən onilliklər boyu hazırladığı layihələri reallaşdırmaq üçün məqam axtarırdı. Belə imkan 2001-ci il 11 sentyabr hadisələrindən sonra yarandı. Qlobal hegemonluğun dünyaya qəbul etdirilməsinin kifayət qədər çətinliyi elə bir strateji konsepsiyanın hazırlanmasını tələb edirdi ki, onun reallaşdırılması dövlətlərin ABŞ-ın ətrafında birləşməsini mümkün etsin ki, Vaşinqtonda baş vermiş 11 sentyabr terror hadisələri müəyyən müddət üçün buna imkan verdi.

Mövcud politoloji fikirə görə, ABŞ-da 11 sentyabr terror aktları "soyuq müharibə"yə və onun doğurduğu qloballaşmaya reaksiya olaraq onun rəmzi olan strukturlara qarşı qloballaşmanın öncülü olan bir ölkədə həyata keçirilməsini təsadüfi hesab etmək olmaz. 11 sentyabr hücumlarının ABŞ-ın simvolu olan Dünya Ticarət Mərkəzinə və hərbi gücünün simvolu olan Pentaqona qarşı yönəldilməsi kifayət qədər incə ştrixlərə malikdir. Bununla belə, 11 sentyabrı dünya nizamı tarixinin dönüş nöqtəsi hesab etmək üçün kifayət qədər tutarlı faktorlar, eyni zamanda sual doğuran bir xeyli məqamlar mövcuddur. Bu hücumlar nə adi terror aktı, nə də hər hansı dəhşət şousu idi, baxmayaraq ki, 11 sentyabr hadisələrindən sonra ABŞ-ın başçılıq etdiyi antiterror koalisiyası ölkələri terrorizmdən müdafiə olunmaq və onu önləmək üçün birləşmiş, bəşəriyyətin fundamental hüquq və azadlıqlarını məhdudlaşdırmağı hədəfləyən yanlış təcrübəyə getmişdilər [6, s.26-27].

## Əsas mətn:
## 1. Beynəlxalq terrorizmlə mübarizə adı altında ABŞ-ın xarici siyasət xəttinin prioritetləri

ABŞ-ın terrora qarşı mübarizəyə başlamasını keçən əsrin 80-ci illərinin əvvəllərinə təsadüf etdiyini qeyd edən müəlliflər 11 sentyabr hadisələrini müxtəlif mövqelərdən qiymətləndirirdilər. Məlum olduğu kimi, ABŞ Prezidenti R.Reyqan nəinki İraqı və İranı, habelə Şimali Koreyanı da "şər üçbucağı"na aid etmiş və bu ölkələrin adlarını terroru dəstəkləyən ölkələrin siyahısına salmışdı. ABŞ-ın Liviyanı terrorizmi himayə etməkdə təqsirləndirməsi Liviyanın qeyri-kapitalist yolu seçməsi və Liviya müxalifətinə qarşı apardığı mübarizə ilə sıx bağlı idi. Belə ki, 1980-ci ilin aprelində Liviya Prezidenti M.Qəddafi liviyalı siyasi mühacirlərin vətənə qayıtmalarını tələb etdi və qısa müddətə Qərbi Avropada və Yaxın Şərqdə 20 liviyalı dissident öldürüldü. 1981-ci ilin mayında R.Reyqan Vaşinqtondakı Liviya səfirliyinin bağlanmasını tələb etdikdən sonra M.Qəddafi ABŞ prezidentinin öldürülməsinə hazırlaşmağa dair əmr verdi. Liviyanın ərazi suları amerikanlar üçün bağlandı. ABŞ-ın Aralıq

dənizindəki 6-cı donanması 1981-ci ilin avqustunda Liviyaya qarşı hərbi əməliyyata başladı, cavabında Liviya radikalları Qərbi Avropada bir neçə terror aktı törətdilər. ABŞ və İngiltərə aviasiyasının Tripoliyə havadan endirdiyi zərbələr də gözlənilən nəticəni vermədi, baxmayaraq ki, 1986-cı ilin aprelində M.Qəddafinin komanda məntəqələri bombardman edildiyi zaman iki oğlu yaralandı, qızı isə həlak oldu [5, s.78]. Bununla belə, Liviyanı götürdüyü strateji xətdən və SSRİ ilə əməkdaşlıqdan nəinki çəkindirmək mümkün olmadı, əksinə, Liviya-SSRİ münasibətləri daha da istiləşərək strateji partnyorluğa çevrildi.

ABŞ əslində terrorizmə qarşı mübarizəni özünəməxsus qaydada, daha dəqiq desək, dövlət terrorizmi yolu ilə aparırdı. Buna ən bariz nümunə kimi 1985-ci ilin iyununda Fələstindəki qırğınlara etiraz olaraq Romadan Afinaya uçan təyyarənin qaçırılmasına Ağ ev tərəfindən cavab tədbirlərini göstərmək olar. Bu hadisədən sonra ABŞ-ın müdafiə naziri K.Vaynberqer bəyan etmişdi ki, bu, müharibə idi və bu hərəkətdən sonra həqiqi müharibə başladı. Məhz R.Reyqanın prezidentliyi dövründə ABŞ-da terrorizm daim istifadə olunan terminə və cəza üsuluna çevrildi və "demokratiyaya qarşı fəaliyyət" anlayışı kimi istifadə olunmağa başladı. NATO-nun 1990-cı ildə keçirilən London sammitində beynəlxalq terrorizm "soyuq müharibə"dən sonra istifadə edilən ən mühüm təhlükələrdən biri mənasını qazandı. Bununla belə, 1990-cı illərin ortalarına qədər ABŞ ictimaiyyəti üçün terror dövlətin xaricdə yerləşən diplomatik və ya hərbi obyektləri üçün təhlükə kimi görülürdü.

Beynəlxalq terrorizmlə mübarizəyə daha ciddi şəkildə əhəmiyyət verilməsi ona gətirib çıxardı ki, ABŞ bu mübarizəni daha səmərəli etmək üçün belə mübarizəni aparan dövlətləri maliyyələşdirməyə başlamaqla onları bu mübarizəyə qoşulmağa nail oldu. Bu məqsədlə 1976-1977-ci illərdə baş verən terror hadisələri ilə əlaqədar həmin ildə ABŞ-ın etdiyi bütün yardımların 68 faizi Argentinanın, Braziliyanın və Çilinin payına düşmüşdü. 1979-cu ildə Latın Amerikası ölkələrinə hərbi yardım üçün 32,1 milyon dollar, 1980-ci ildə 38,7 milyon dollar vəsait ayrılmışdı [15, s.416-417]. Nikaraqua xalqının qələbəsindən sonra ABŞ Mərkəzi Amerika ölkələrinə yardımı artırmağa çağırmışdı ki, sosial irəliləyişlərə müqavimət göstərməyə, o cümlədən Nikaraquada bu cür irəliləyişlərə müqavimət göstərməyə qabil olanların mövqeyi möhkəmləndirilsin. ABŞ Dövlət katibinin Amerika qitəsi işləri üzrə köməkçisi açıq şəkildə etiraf etmişdi ki, bu hökumətlərin təhlükəsizliyini təmin etmək məqsədilə göstərilən yardımlar bizim saysız-hesabsız və müxtəlif mənafelərimizin möhkəmləndirilməsi üçün ən mühüm vasitədir [16, s.124-126]. ABŞ əslində bununla gələcək üçün planlaşdırdığı hegemonluğun yollarını təmizləyirdi.

Azərbaycanlı müəlliflərdən E.Qələndərova yazırdı ki, terrorizm müasir dövrün ən təhlükəli, çətin proqnozlaşdırılan və getdikcə daha müxtəlif formalar əldə edən, daha hədələyici miqyaslar alan təzahürlərdən biridir. Terror aktları insan tələfatı ilə nəticələnir, böyük insan kütlələrinə güclü psixoloji təzyiq göstərir, yenidən bərpası bəzən mümkün olmayan maddi və mənəvi dəyərləri məhv edir, dövlətlər arasında nifaq salır, müharibələrə, sosial və milli qruplar arasında inamsızlığın və nifrətin yaranmasına səbəb olur. Son əsr boyunca terrorizm bir hadisə kimi təzahürünü əhəmiyyətli dərəcədə dəyişmişdir [4, s.103]. Qeyd edilənlər bütün incəliyi ilə 2001-ci il 11 sentyabr terror hadisələrində özünü nümayiş etdirmişdi

Məlum olduğu kimi, XX əsrin 90-

cı illərində terror hadisələrinin əsasən Yaxın Şərq regionunda, xüsusilə İraqda, Suriyada, Fələstində, Yəməndə və s. ölkələrində baş verməsini bu dövrə aid statistika da əyani olaraq göstərir. Bu dünya imperializminin neomüstəmləkəçilik siyasətinə qarşı mübarizənin geniş yayılmış forması hesab edilir. Belə ki, İraqda, Yəməndə, Suriyada, Somalidə, Tanzaniyada, Keniyada və s. ölkələrdə baş verən terror aktlarında adı çəkilən çoxsaylı terrorçuların içərisində Usamə bin Ladenin də adına rast gəlinirdi. ABŞ-dakı Dünya Ticarət Mərkəzinə və Pentaqona edilən hücumlarla bağlı cəmi iki gün sonra U.bin Ladenin adının çəkilməsi elmi-siyasi fikirdə bu günə qədər müzakirə edilən çoxsaylı suallar doğurdu. Bu şəxsin və onun rəhbərlik etdiyi Əl-Qaida təşkilatının başlıca hədəfləri qərbyönümlü hesab etdikləri hökumətləri aradan qaldırmaq və müqəddəs yerləri kafirlərin əlindən xilas etmək idi [21].

Yeni minilliyin əvvəllərindən etibarən ABŞ-ın hegemonluq ambisiyalarının xüsusilə güclənməsi onun həm daxili, həm də xarici siyasətində açıq şəkildə müşahidə olunurdu. Bu baxımdan önəmil fakt ondan ibarət idi ki, ABŞ-da 2000-ci il prezident seçkilərində qalib gələn C.Buşun əhatəsi əsasən mühüm şirkətlərin menecerləri, ya da kəşfiyyat orqanlarında böyük vəzifələr tutan şəxslər idilər. Bu C.Buşa imkan verirdi ki, ata C.Buşun edə bilmədiyini etmək üçün fəaliyyətə başlasın. Bunun üçün ABŞ-ı bütün dünyaya təcavüzün qurbanı kimi təqdim etmək və ekiz qüllələri qurban vermək lazım gəlirdi. Təsadüfi deyildi ki, 11 sentyabr hadisəsindən sonra bu günədək baş verənlər və güdülən məqsədlərlə bağlı müzakirələr dünya kütləvi infarmasiya vasitələrində, qərb, rus, türiyəli müəlliflərin tədqiqatlarında davam etməkdədir. Bu müzakirələrin araşdırılması Amerikanın hadisələrdən sonra bəyan etdiyi antiterror strategiyasını və onun uzağagedən nəticələrini anlamaq üçün vacibdir.

Beynəlxalq terror təşkilatlarının başçıları, o cümlədən, "Əl-Qaidə" terror təşkilatının rəhbəri Usamə bin Laden 11 sentyabr hadisələrindən xeyli əvvəl, 1998-ci ildə ABŞ-ın islam dünyasına qarşı yeritdiyi siyasətə cavab olaraq Qərbə müharibə elan edəndə heç kim bunu ciddi qəbul etməmişdi. Bununla belə, ABŞ kapitalizminin simvolları sayılan binalara edilən qəfil hücumların yaratdığı dəhşətli vəziyyəti BMT tərəfindən anti-terror Bəyannaməsinin meydana gəlməsinə səbəb oldu. Əvvəllər Qərb üçün potensial olaraq xarakterizə edilən terror təhlükəsi 2001-ci ilin 11 sentyabrından sonra reallığa çevrildi. 11 sentyabr hadisələrindən sonra dünyada baş verənlərin, antiterror kampaniyalarının politoloji təhlili ABŞ-ın böyük perspektivlərə malik məkrli niyyətlərinin olduğuna şübhələr yaratdı. Türkiyə, Rusiya, ərəb və Qərb politoloji fikrinin nümayəndələri baş verənlərə münasibətdə fərqli mövqelər səsləndirməyə başladılar ki, bu mövqelər həm obyektiv, həm də qərəzli xarakter daşıyırdı.

## 2. Müasir politoloji fikirdə ABŞ-da 11 sentyabr 2001-ci il terror hadisələrinin mahiyyəti və məqsədlərinin təhlili

Türk müəlliflərindən C.Özdiker, S. Çayçı, B.Dədəoğlu və başqaları 11 sentyabr terror aktının ABŞ-ın özü tərəfindən planlaşdırıldığını və həyata keçirildiyini qeyd edirdilər. Bu müəlliflərə görə, ABŞ Konqresinin 11 sentyabr komissiyasının hesabatı bütövlükdə araşdırıldıqda ABŞ rəhbərliyinin bu hücumların qarşısını asanlıqla ala biləcəyini açıq şəkildə görmək mümkündür. 11 sentyabr hadisələrinin əhəmiyyətini və uzağagedən nəticələrinin böyüklü-

yünü nəzərə alsaq, Əfqanıstan dağlarında yerləşməklə mübarizə aparan kiçik islam döyüşçüləri qrupunun belə bir əməliyyat keçirməsi ehtimalı elə də inandırıcı görünmür. Digər tərəfdən, 11 sentyabr hücumlarının Əfqanıstan dağlarında İslam inqilabçısı rolunu oynayan ABŞ-ın keçmiş MKİ əməkdaşları tərəfindən həyata keçirilməsi də mümkün deyildir. Lakin hadisələrdən dərhal sonra hədəf kimi ABŞ-da baş vermiş terror hadisələrinin səbəbkarı ola biləcək dövlətlərin deyil, Usamə bin Ladenin göstərilməsi terror hadisəsinin sui-qəsd olduğunun və ciddi şəkildə planlaşdırılaraq həyata keçirildiyinin göstəricisidir [14, s.96-98]. Təsadüfi deyildir ki, çox tezliklə digər müəlliflərin də analoji nəticələrə gəldiyini görürük. Baş vermiş terror hadisələrindən sonra ABŞ-ın antiterror koalisiyası yaradaraq terrorizmə qarşı sistemli mübarizəyə başladığını və ya BMT-nin rəhbərliyi altında Antiterror Sisteminin yaradıldığını görmürük, əksinə terrorizmə qarşı mübarizə adı altında özünün qlobal hegemonluğunu yaratmağa çalışdığını müşahidə edirik ki, bunun hansı perspektivlərə gətirəcəyi naməlumdur, məlum olan dünya siyasətində hegemonluğa nail olmaqdır.

Hər hansı terror aktı ilk növbədə onun yaratdığı təhlükələrin nəticələrinin müzakirəsindən başlanır. B.Dədəoğlu və E.Çitlioğlu kimi müəlliflərə görə, ABŞ liderləri Mərkəzi Kəşfiyyat İdarəsi tərəfindən yetişdirilmiş Əl-Qaidə terrorçularının 11 sentyabr hücumundan sonra S.Hantinqtonun “sivilizasiyaların toqquşması” adı altında irəli sürdüyü yeni strategiyasını həyata keçirməyə başlamışdır. Onlar bunu "terrorçuluqla müharibə" adlandırırdılar. Bu müharibənin əsasını qoyan 11 sentyabr hücumlarının ABŞ xəfiyyə orqanlarının xəbəri olmadan həyata keçirilə bilməsi mümkün deyildir. Müəlliflərə görə, əslində Əl-Qaidə ilə bağlı bütün məlumatlar ABŞ kəşfiyyatının əlində idi. Lakin Amerika dərin dövlətinin aparıcı “şahinləri”nin məxfi maraqları ucbatından bu əlaqələr şəbəkəsinin üstü, yəqin ki, heç vaxt açılmayacaqdır. ABŞ-ın simvolları olan binalara hücumları din adına hərəkət etdiyini düşünən bir fanatik deyil, dövlət aparatında Prezident C.Buşu istiqamətləndirməyi bacaran bir qrup dünya nizamına təsir etmək məqsədi ilə həyata keçirmişdir [7, s.29;9, s.5-6].

Toplanmış materialların təhlili göstərir ki, Usamə bin Ladenin terror təşkilatı yaratmaq və inkişaf etdirmək üçün iqtisadi imkanları yetərli olmuşdu. Lakin mənbələrə görə, bu təşkilatın yaranmasında həqiqətən diqqət çəkən başlıca məqam ABŞ-ın onun yaradılmasında olan roludur. ABŞ 1993-cü ildən sonra bir çox qanlı aksiyaların təşkilatçısı kimi göstərdiyi U. bin Ladenin həbsinə uzun müddət order verməmişdi. Onun üçün ilk həbs orderi 1998-ci ildə Liviya məhkəməsi tərəfindən onun iki alman məxfi agentinin qətlində iştirakı sübut edildikdən sonra verilmişdi. Türk tədqiqatçısı E.Soltan qeyd edirdi ki, U. bin Ladendən daha çox ABŞ-ın daxilindəki bir qrup digər qruplarla yüksək səviyyədə əməkdaşlıq edərək 11 sentyabr terror aktlarını həm planlaşdırmış, həm də həyata keçirmişdilər [10, s.30].

Müasir Qərb mətbuatında, habelə tədqiqatlarda beynəlxalq terrorizm fenomeni bir çox hallarda birtərəfli yanaşmaya məruz qalır, ABŞ təcavüzün qurbanı kimi təqdim edilməklə onun bundan sonrakı fəaliyyətlərinə haqq qazandırılır. Qeyd etdiyimiz kimi, 11 sentyabr hücumlarının məntiqi izahı ABŞ-ın gələcəyə istiqamətlənmiş məkrli planları ilə bağlı idi, bu hadisəyə dünyada tək hegemon qalmağa imkan verən bir fürsət kimi baxılırdı. Hücumların necə baş verməsi, ABŞ-ın müdafiə sisteminin imkanları və dəymiş zərərin dərəcəsi birlikdə qiymətləndirildikdə məlum

olur ki, Ağ ev rəhbərliyi bu hücumları müxtəlif məqsədlər üçün təbliğat məqsədilə planlaşdıraraq həyata keçirmişdir. Terrordan xeyli sonra yayılan informasiyalarda həmin gün göydələnlərdə yəhudi mənşəli heç kəsin olmadığı bildirilirdi. ABŞ ictimai fikirdə yaranmış nifrəti Şərqə istiqamətləndirmək üçün informasiya vasitələrində apardığı təbliğatla terrorçuluğa qarşı mübarizədə lazımi dəstəyi qazandı. Terror aktından sonra bütün dünyanın gözü CNN televiziyasında canlı yayımlanan xəbərlərdə idi, ABŞ təbliğat maşını tam gücü ilə işləyirdi. V.Laqur, G.Timoti kimi Qərb müəllifləri islam ölkələrini hədəfə alsalar da, prezident C.Buş bunu müsəlman dünyasına qarşı dini müharibə kimi qələmə vermək fikrini sözdə pisləyirdi. Halbuki, həmin dövrdə enerji qaynaqlarının bol olduğu Orta və Yaxın Şərq coğrafiyasına diqqət yetirərkən görürük ki, burada Rusiya və Çinin nüfuzu daha böyükdür, onların bölgə ölkələri ilə münasibətlərinin yaxınlığı buradakı tarazlıqların əvvəlki dövrlərlə müqayisədə dəyişdiyini göstərirdi. Bunun qarşısını almaq üçün ABŞ-ın, bütövlükdə Qərbin səyləri yetərli olmamışdı. Belə ki, Rusiya və Çinin Yaxın Şərq siyasəti ümumilikdə Qərbin inkişaf etmiş imperialist dövlətlərinin siyasətindən əsaslı şəkildə fərqlənirdi və ərəb ölkələri ilə tərəfdaşlıq və qarşılıqlı faydalı iqtisadi əməkdaşlı üzərində qurulmuşdu [12, s.109-114; 13, s.217-219]. Hazırda BRİKS-in yaradılması və genişləndirilməkdə olduğu dövrdə onunla əməkdaşlıq etməyə çalışan ölkələrin sayı bunun göstəricisidir.

Tədqiqatçılara görə, terrorçuluqda fəaliyyət formaları zamanla dəyişir, bununla birlikdə təşkilati strukturların və üzvlərin ünsiyyətinin də dəyişdiyini müşahidə edirik. Halbuki, çox dağınıq bir quruluşa sahib kimi görünən Əl-Qaidə kimi bəzi təşkilatların diqqətəlayiq bir sistemə sahib olduğunu da görürük. Əl-Qaidə tək bir struktur deyil, bir çox alt qrupları olan və digər təşkilatlar tərəfindən dəstəklənən bir təşkilati quruluşa malikdir. Əl-Qaidə və buna bənzər təşkilatların kimin hansı səviyyələrdə olduğunu və ya bu cür təşkilatların bəzi insanları yönləndirdiyi kimi maskalanan müəyyən subyektlərin olub-olmadığını bilmək mümkünsüzdür. Eynilə, bombardmançıların "Əl-Qaidə" tərəfindən göndərildiyinin düşünülməsi və "partla" əmrinin haradan verilməsi də ciddi suallar doğurur.

ABŞ-da 11 sentyabr hadisələrinə müasir KİV-in, politoloqların, diplomatların, araşdırmaçıların fərqli münasibətinin olması onun nə dərəcədə mürəkkəb və ziddiyyətli fenomen olduğunun göstəricisidir. U. bin Ladenin şəxsiyyətinə yanaşma da kifayət qədər müxtəlifdir. Tədqiqatçılara görə, Usamə bin Laden ABŞ-ın ailə sirridir. Belə ki, tədqiqatçılara görə, Buş ailəsi ilə bin Laden ailəsi arasında çoxşaxəli ticarət əlaqələri ABŞ-la Səudiyyə Ərəbistanı arasındakı əməkdaşlıqdan qat-qat sıxdır. Usamə bin Ladenin qardaşları Qərb universitetlərini bitirdikdən sonra bu ölkələrlə sıx əlaqələr qurarkən bin Laden ərəb (xüsusən də vəhhabi) təhsili alıb və buna uyğun həyat tərzi keçirib. Bununla belə, Buş ailəsi ilə mühüm iş ortaqlığı olan ailəsi ilə əlaqələrini heç vaxt kəsməmiş, əksinə daha da genişləndirmişdi. Deməli, Usamə bin Laden və ətrafındakıların bir çoxu "Əl-Qaidə"-nin komandirləri və döyüşçüləri qismində ABŞ-ın düşmənləri deyil, onun agentləridir [11, s. 122-124]. Belədə, Prezident C.Buşun öz ticarət ortağı və agentini terrorizmdə ittiham etməsi və fiziki cəhətdən məhv etməsinini, Ağ evin sərəncamında olan KİV-ə tətbiq edilən senzuranı necə başa düşmək olar?!

Vaşinqtonda törədilən terror hadisələrindən sonra baş verənlərin təhlili bu terror hadisəsinin həmin dövlətin

kəşfiyyat xidmətinin işi olması nəticəsinə gəlməyə imkan verir. Belə ki, 11 sentyabr hücumlarının arxasında duran əsas siyasi məqsədin Yaxın Şərqdə ABŞ yönümlü ərəb rejimlərini devirmək olduğunu deməyə kifayət qədər tutarlı əsaslar var. Əl-Qaidəyə qarşı mübarizə adı altında ABŞ-ın Əfqanıstana və İraqa girməsini "xüsusi məşq" kimi qiymətləndirmək olar. Yaranmış şəraitdə Əl-Qaidənin mübarizəni davam etdirməsinin ən mühüm səbəbi Qərbə qarşı əzilmiş Şərq coğrafiyasının müqavimətini üzərinə götürməsidir. Bundan əlavə, bölgənin coğrafi quruluşu, siyasi nüfuzunun zəifliyi, bu sahədə kəşfiyyat məlumatlarının əldə edilməsinin çətinliyi kimi faktorlar təşkilatın uzun illər süquta uğradıla bilməməsinin mühüm səbəblərindəndir. ABŞ-ın Yaxın Şərq siyasətinə stimul verən də məhz bu idi.

Nəzərə almaq lazımdır ki, “Əl-Qaidə”nin siyasi bazasını təşkil edən mücahidlər təkcə mədrəsə təlimi keçmiş 2500 nəfərin öz ətrafında yaratdığı 250 min nəfərlik bir silahlı qüvvədən ibarət deyildir, baxmayaraq ki,onlara silahlı təlimlər Pakistan ordusu tərəfindən ABŞ ilə əməkdaşlıq çərçivəsində verilmişdi. Taliban üzvlərinə özlərindən başqa heç kimi müsəlman hesab etməyən vəhhabi zehniyyəti aşılanmışdı. Bu anlayışda Qurandakı ayələrin məcazi mənalarına görə təfsir və tətbiqi prinsipi üstünlük təşkil edir. Əfqanıstanda SSRİ-yə qarşı müharibə zamanı özlərini “vəhhabi” adlandıran Səudiyyə Ərəbistanı qrupları qeyri-müsəlman humanitar yardım təşkilatlarının işinə mane olurdular. Digər mücahid qrupları da islamı dözümsüz şərh edən “vəhhabi” qrupları bəyənmirdilər [8, s.31]. Məhz belə bir şəraitdə Usamə bin Laden ABŞ-ın təkidi ilə 1996-cı ildə Sudanı tərk edərək onu qəbul edən Taliban hərəkatının yerləşdirildiyi Əfqanıstana köçmüşdü. Bu vəziyyət Talibanın bölgədə yeganə gücə çevrilməsinə şərait yaratdı. Mücahidlərdən ibarət kiçik bir ərəb icması islama zidd olmaqda ittiham etdikləri öz ərəb hökumətlərini sərt cihadçılıq siyasəti ilə devirmək və müsəlman ölkələrini müsəlman ölkələrinin hökmranlığından azad etmək məqsədi ilə Əfqanıstanda məskunlaşdılar ki, tədricən onların sosial bazası genişlənməyə başladı.

Artıq sübut olunmuşdur ki, “Əl-Qaidə” terror təşkilatının yaranması və fəaliyyətə başlaması birbaşa xarici dəstəklə bağlı olmuşdur. Onun Yaxın Şərqdə oynadığı ən mühüm rollardan biri bir çox dini qrupların radikallaşması və bu cür qrupların fəaliyyət göstərmədiyi ölkələrdə bu anlayışın çiçəklənməsini təmin etmək olub. Fakt kimi qeyd edək ki, 1995-ci ildə Fransada baş vermiş 8 bomba partlayışından sonra bu hadisə ilə bağlı ələ keçirilən hücumçuların hamısının ABŞ-ın Əfqanıstan və Pakistanda qurduğu partizan düşərgələrində təlim keçdikləri ortaya çıxmışdı. Əl-Qaidənin təkbaşına bir və ya bir neçə dövləti hədəf alması mümkün deyildi. Bununla belə, hədəf demək olar ki, tamamilə ABŞ-ın nəzərdə tutduğu istiqamətlər idi ki, bunlara ABŞ-ın şiddətli cavabları gecikmirdi. ABŞ-ın bu cür reaksiyası isə qəzəbli insanların təşkilat sıralarına qoşulmasına səbəb olurdu. ABŞ əməliyyatları CNN televiziyası tərəfindən müqəddəs azadlıq müharibəsi kimi təsvir edilərkən Əl-Cəzirə televiziyasındakı görüntülərdə ABŞ insan hüquq və azadlıqlarını hədəf alan bir şər kimi xarakterizə edilirdi. CNN televiziyası Əl-Qaidəni terrorun qəddar siması ilə təqdim edərkən, Əl-Cəzirə təşkilatın bəyanatlarını dərc edir və onları haqlı olaraq göstərirdi. Lakin dünya media və agentlik sənayesinin yarıdan çoxu Qərb mərkəzli olduğundan insanların hadisələrə baxışı buna uyğun formalaşırdı [9, s.14-16].

ABŞ politoloji fikri və kütləvi infor-

masiya vasitələrinin 11 sentyabr terror hücumlarından dini fanatizmi qızışdırmaq məqsədilə istifadə etdiyinin bariz göstəricisi kimi "islam fundamentalizmi" anlayışının ortaya atılması və tirajlanmasında görürük. Qərbin sahib olduğu informasiya məkanında islam dininin qaydalarına zidd, hətta az məlumatlı olanlar üçün belə başa düşülməsi çətin olan anlayışlar və fikirlərin səsləndirilməsi terrorla islamın əlaqələndirilməsinə xidmət edirdi. Məqsəd Amerika hakimiyyətinin ictimaiyyətə təqdim etdiyi və müsəlmanların fanatik-terrorçu olması imicini formalaşdırmaq idi. Qərb ideoloji təbliğat mərkəzləri xristianlığın tarixində yer alan dini müharibələri, inkivizasiyanı, soydaşlarına tutulan qanlı divanları, "cadugər ovlarını", "İsa cəmiyyətinin" terror əməllərini görməyərək islam dinini hədəfə götürmüşdülər, halbuki dinimizin tarixində qeyd etdiklərimizin heç biri olmamışdı. "İslam" sözünün mənası “sülh, rifah, təhlükəsizlik” deməkdir. Geniş bir coğrafiyada çox yüksək sivilizasiya və mədəniyyət hökm sürdüyü üçün bu söz əsrlər boyu öz mənasına uyğun yaşamışdır. Heç bir din terroru dəstəkləmir və ya icazə vermir. Çünki bütün dinlər istibdad və zorakılığın təşkilatlanmasına qarşıdır. Zorakılıq zərurət olmadıqca, dini cəhətdən dözümlülük reaksiya formasıdır. İslam tarixində başqa cür düşünənlərə qarşı inkvizisiya oduna atılma nümunəsi yoxdur. İslam sivilizasiyasının yaratdığı geniş tolerantlıq mühitini qəbul edə bilməyən Qərb dövlətləri dünyada zorakılığın və terrorun yayılmasına görə məsuliyyət daşıyırlar. Qeyd edək ki, dini ayrı-seçkilik zəminində nə antiterror koalisiyasını yaratmaq, nə də bu təhlükəyə qarşı mübarizəyə sistemli xarakter vermək mümkün deyildir.

Məlum olduğu kimi, qloballaşma prosesləri dünya tarazlığını pozmaqda, dövlətlərin sərhədlərini mənasızlaşdırmaqda və qarşılıqlı asılılıq münasibətlərini üzə çıxarmaqdadır. Qərbin davamlı şəkildə modernizm ixracı Qərblə Şərq arasında düşmənçiliyi gücləndirdi, beynəlxalq terrorizm isə sosial təhlükəsizliyə ən ciddi təhlükəyə çevrildi. "Soyuq müharibə"nin sona çatması ilə Yaxın Şərq sürətlə qloballaşan dünyada fanatik bir cəmiyyətə çevrilməyə başladı. Qərb politoloji fikri məhz bundan çıxış edərək fanatik müsəlmanların təhlükəli terrorçulara çevrildiyini tirajlamağa başladı. Terrorla mübarizə adı altında ABŞ-ın apardığı “qanunsuz müharibə”yə ən son texnoloji alətlər və silahlarla qarşı çıxmağa çalışan bəzi ölkələr və icmalar da özlərinə məxsus “qanunsuz müharibə” üsulunu işləyib hazırladılar ki, bu, hibrid müharibə idi. Nəticədə İslam kütləvi informasiya vasitələri qlobal terror müharibəsini bir-biri ilə iç-içə olan, mürəkkəb əlaqələr şəbəkəsi ilə dolu və hər iki dinin həqiqətə uyğun olmayan yozumlarından qidalanan qarşıdurma kimi şərh etməyə başladılar ki, belə vəziyyət terrorçuluğa qarşı kollektiv şəkildə aparıla biləcək mübarizəni mümkünsüz edirdi. Yaranmış şəraitdə ABŞ-da 11 sentyabr hadisələri beynəlxalq terrorizmlə mübarizə pərdəsi altında Qərbin uzağagedən niyyətlərinin işinə yaradı. Terrorizmə qarşı mübarizə ABŞ-a iki baxımdan sərfəli idi: birincisi və vacibi antiterror koalisiyasında birləşənlər ABŞ-ın hegemon rolunu qəbul edirdilər, ikincisi isə ABŞ terrorla mübarizə adı altında Yaxın və Orta Şərqi geosiyasi baxımdan öz nüfuz dairəsinə daxil edə və regionun enerji resurslarına sahiblənə bilərdi. SSRİ-nin dağılmasından sonrakı dövrlərdə nə Rusiya, nə də Çin bunun qarşısını almaq gücündə idi. ABŞ-ın niyyətlərindən asılı olmayaraq antiterror koalisiyasının yaradılmasının müsbət cəhəti beynəlxalq təhlükəsizliyə ciddi təhdidə çevrilmiş terrorçuluğa qarşı sistemli mübarizənin əsasının qoyul-

ması idi. Bununla belə, antiterror sistemini gündəmə gətirməyi qeyri-obyektiv hesab edirik.

Müasir tədqiqatçılar ABŞ-ın beynəlxalq terrorizmə qarşı mübarizəsinin başlamasını Sudanda həyata keçirilənlərlə əlaqələndirirlər. Belə ki, ABŞ 1998-ci il avqustun 20-də Sudandakı Al-Şifa dərman fabrikini bombalayaraq dağıtmışdı. Kəşfiyyat məlumatlarına görə, bu fabrik Əl-Qaidə terrorçularını kimyəvi partladıcı maddələr hazırlamaq üçün materialla təchiz edirdi. Ölkənin əsas dərman istehsalının 90 faizini həyata keçirən Al-Şifa fabriki dağıdılandan sonra tətbiq edilən sanksiyalar nəticəsində dərman istehsalını dayandırmışdı. Bu səbəbdən də ökləd ə on minlərlə insan dərman çatışmazlığının qurbanı olmuşdu. Usamə bin Ladenin kimyəvi silah istehsal etdiyi iddiası ilə vurulan Əl-Şifa əczaçılıq fabrikinin xarabalıqlarını araşdıran beynəlxalq müşahidəçilər kəşfiyyat məlumatlarının tamamilə səhv olduğunu və bu fabrikdə yalnız aspirin kimi dərmanların istehsal oluna biləcəyini müəyyən etmişdilər [17]. Sudan ictimaiyyətinin qəzəbi nəinki ölkənin, fikrimizcə, ümumilikdə Yaxın Şərq ölkələrinin radikallaşmasında və ABŞ-a qarşı terrorçuluq əməllərinin genişlənməsində mühüm rol oynadı.

ABŞ-ın nəinki Yaxın Şərqdə, bütövlükdə dünya ölkələrində sonralar da apardığı antiterror mübarizəsi arzu etdiyi nəticələri vermədi. Bu o demək idi ki, 11 sentyabr hücumlarını təşkil edənlər və bundan istifadə etməyə çalışanlar gözləntilərində yanıldılar. Belə ki, ABŞ-a qarşı Əl-Qaidənin çətiri altında birləşərək sivilizasiyalararası toqquşmaya səbəb olacaq bir hərəkəti potensial olaraq hədəfləsələr də, gözlədikləri dəstək elə də gərgin olmayan hərəkətlərdən uzağa getmədi. Ən əsası isə islam ölkələri Əl-Qaidə ilə birlikdə xristianlığa qarşı konflikt strategiyasına keçmədilər, heç ABŞ da dünyadan gözlədiyi dəstəyi ala bilmədi. Sentyabrın 11-dən sonra dövlətlər arasında və dünya mediasında bu terror aktlarının kim tərəfindən törədildiyi deyil, dünyanın bundan sonra hansı formada olacağı müzakirə edilməyə başlandı. Təsadüfi deyildi ki, adi vətəndaşlar belə “ABŞ terroru bəhanə edərək öz xarici siyasət məqsədlərinə nail olmağa qərar verdi” fikrini səsləndirir, Əfqanıstan, İraq, Suriya və Liviyanın təsadüfi olaraq hədəf seçilmədiyini qeyd edirdilər [20].

## 3. ABŞ-ın BMT-nin bayrağı altında antiterror siyasətinin hədəfləri

Məlum olduğu kimi, BMT-nin dinc birgəyaşayış normalarının ali prinsiplərindən olan hər bir üzv dövlətin başqa dövlətdə terror hərəkətlərini təşkil etməkdən, qızışdırmaqdan, belə hərəkətlərə kömək etməkdən və ya onlarda iştirak etməkdən, yaxud öz ərazisi hüdudlarında belə hərəkətlərin törədilməsinə yönəldilmiş təşkilatçılıq fəaliyyətinə rəvac verməkdən çəkinməyə borclu olması prinsipi çağırış kimi səsləndi və Təhlükəsizlik Şurasının 12 sentyabr 1368 saylı qətnaməsində yer aldı. 11 sentyabr hücumlarından dərhal sonra məhz Prezident C.Buşun çağırışı ilə BMT Təhlükəsizlik Şurası ABŞ-ı dəstəkləyən və terrorizmi pisləyən bir sıra sənədlər qəbul etdi. Bu baxımdan həmin qətnamənin 3-cü bəndi mühüm əhəmiyyət kəsb edirdi. Burada dünya birliyinin bütün dövlətləri bu terror hücumlarının icraçılarını, təşkilatçılarını və sponsorlarını ədalət mühakiməsinə təslim etmək üçün təcili surətdə birgə səylər göstərməyə çağırılır və vurğulanırdı ki, bu hərəkətlərin icraçılarına, təşkilatçılarına və sponsorlarına kömək edənlər, onları dəstəkləyənlər, yaxud gizlədənlər buna görə birlik qarşısında məsuliyyət daşıyacaqlar [2]. BMT-nin

elan etdiyi məqsədlərin aliliyinə, humanizminə və insan haqlarının qorunması sahəsində irəli sürdüyü amallara baxmayaraq elmi-politoloji təhlil göstərirdi ki, dövlətlərin məqsəd və mənafelərinin nəinki fərqliliyi, habelə bir-birinə qarşı daban-dabana zidd olması nəinki antiterror sisteminin yaradılmasına imkan verməyəcək, hətta bu təhlükəyə qarşı sistemli və məqsədyönlü mübarizəni mümkünsüz edəcəkdir.

BMT Təhlükəsizlik Şurasının (TŞ) qəbul etdiyi 1368 saylı qətnamə sonrakı proseslərə yol açdı. Belə ki, ABŞ bu qətnamənin qəbuluna nail olmaqla beynəlxalq terrorizmə qarşı kollektiv mübarizənin başlanmasına nail olurdu, baxmayaraq ki, ABŞ-ın başçılığı altında yaradılmaqda olan koalisiyaya 30-a yaxın dövlət qoşulmuşdu. Məxfiliyi saxlamaq məqsədilə C.Buş bu dövlətlərdən yalnız 15-nin adını çəkmişdi. Həmin siyahıda Azərbaycan Respublikası da yer almışdı. Təsadüfi deyildi ki, BMT TŞ-nin 28 sentyabr 2001-ci il tarixli 1373 saylı qətnaməsinə əsasən, beynəlxalq cinayətkarlığın bütün növlərinə, o cümlədən beynəlxalq terrorizmə qarşı mübarizəni məqsədyönlü, əlaqəli və sistemli şəkildə aparmaq üçün Təhlükəsizlik Şurasının Komitəsi təsis edilirdi. Qətnamənin 4-cü bəndinə əsasən, Təhlükəsizlik Şurası beynəlxalq terrorizmlə transmilli mütəşəkkil cinayətkarlıq, qeyri-qanuni narkotiklər, çirkli pulların yuyulması, qanunsuz silah dövriyyəsi, nüvə, kimyəvi, bioloji və digər potensial ölümsaçan materialların qanunsuz daşınmaları arasında sıx əlaqə olduğunu qeyd edərək göstərirdi ki, beynəlxalq təhlükəsizlik üçün ciddi hədə  və meydanoxuma olan terror aktına ümumdünya reaksiyasını gücləndirmək məqsədilə milli, subregional, regional və beynəlxalq səviyyələrdə səylərin əlaqələndirilməsini gücləndirmək vacibdir [2].

Müasir tədqiqatçılar beynəlxalq terrorizmə qarşı sistemli və kollektiv şəkildə aparılan mübarizənin başlanğıcını məhz 1373 saylı qətnamənin qəbulu ilə bağlayırdılar. Qətnamənin 6-cı bəndinə görə, onun həyata keçirilməsinə nəzarəti təmin etmək üçün Şuranın bütün üzvlərindən ibarət olan *(daimi və müvəqqəti üzvlər nəzərdə tutulur* - **müəl**.) Təhlükəsizlik Şurası Komitəsini təsis etməyi qərara alır və bütün dövlətləri özlərinin bu qətnaməni yerinə yetirmək üçün gördükləri tədbirlər barədə həmin komitəyə 1373 saylı qətnamənin qəbulu tarixindən 90 gündən gec olmayaraq məruzə, sonralar isə komitənin təklif edəcəyi cədvələ uyğun olaraq məruzələr təqdim etmək təklif olunurdu [2]. Əslində, ayrı-ayri dövlətlərin mövqeyi və Qərbin təzyiqləri ucbatından qətnamənin həyata keçirilməsinə sabotaj halları özünü açıq şəkildə göstərirdi.

BMT TŞ-nin Antiterror Komitəsi (*Azərbaycan və rus dilindəki qaynaqlarda "əks-terror" və "antiterror" anlayışları eyni mənalarda işlədilir* - **müəl**.) 1373 saylı qətnaməyə əsasən yaradılmışdı. Qətnamədə və sonrakı sənədlərdə Komitənin fəaliyyət mexanizmi və iş prinsipləri müəyyən olunurdu. Komitə 15 üzvdən ibarətdir, 2022-ci ilə qədər ona Rusiyanın nümayəndəsi rəhbərlik etmişdi, Rusiya-Ukrayna müharibəsi başladıqdan sonra Rusiya Komitəyə sədrlikdən imtina etmişdi. 2004-cü ildə isə komitənin işini daha səmərəli etmək üçün onun İcraçı direktorluğu yaradılmışdı. Komitənin fəaliyyətini daha da təkmilləşdirmək məqsədilə 2011-ci il noyabrın 18-də onun Əks-terror Mərkəzi yaradıldı, Mərkəz BMT-nin qlobal antiterror strategiyasını reallaşdıran başlıca orqan idi [18], 2012-ci ildən hal-hazıradək 80 layihə həyata keçirmişdi, hazırda da 40 layihəni reallaşdırmaqdadır [19].

Beynəlxalq terrorizm, etnosiyasi

münaqişələr, lokal müharibələr kimi hadisələr Birləşmiş Millətlər Təşkilatı tərəfindən beynəlxalq sülhü və təhlükəsizliyi təhdid edən təhlükələr kimi tanınırdı. Bununla belə, 11 sentyabr hadisələrindən sonra müşahidə etdiyimiz kimi, kollektiv təhlükəsizlik sistemi ideyası Təhlükəsizlik Şurası tərəfindən deyil, ABŞ tərəfindən həyata keçirilməyə başlamışdı. ABŞ 11 sentyabr hücumlarını cavablandırmaq üçün qanuni müdafiə hüququna malik olduğunu bəyan edərək, Əfqanıstanda və İraqda işğalçılıq siyasətini həyata keçirmişdi. Terrorizmin getdikcə qlobal problemə çevrildiyi bu dövrdə BMT-nin irəli sürdüyü kollektiv təhlükəsizlik sistemi qeyd etdiyimiz məlum səbəblərə görə işləmirdi. BMT üzvlərinin mübarizəsi real siyasət üzərində qurulmuşdu, dövlətlərin geosiyasi və geoiqtisadi maraqları bir-birinə zərər vurmağı hədəfləyirdi. Beynəlxalq münasibətlərdə hüququn gücü yox, gücün hüququ üstünlük qazanmağa başlamışdı. Türk müəlliflərindən S.Çayçıya görə, ABŞ-a qarşı terror təhdidləri edən qrup çox az sayda insandan ibarət ola bilərdu, ancaq çox geniş bir coğrafiyada bu hücumlara ilk reaksiyanın simpatiya şəklində olduğu məlumdur. Terror aktlarının ABŞ-da can və mal itkisinə səbəb olmasına sevinmək və ABŞ-ın buna layiq olduğunu iddia etmək, həqiqətən, bu hücumlardan və nəticələrindən daha pisdir [7].

Məlum olduğu kimi, Vaşinqtonun məkrli niyyətlərinə baxmayaraq 11 sentyab hadisələri ABŞ-ın beynəlxalq nüfuzuna ağır zərbə vurdu. Ağ ev sərt və operativ strateji xətt yeritməklə itirdiklərini bərpa etməyi hədəflədi. ABŞ-ın qisas almaq istəyi insan hüquqları və azadlıqları, müxtəlif dinlərə və irqlərə qarşı dözümlülük kimi prinsipləri “terrorla mübarizə” naminə qurban verilə biləcək dəyərlərə çevirdi. Əslində, həmin dövrdə 11 sentyabr hadisəsinin səbəblərini araşdırmaq və ya ABŞ-ın bu məsələdə zəif tərəflərini müzakirə mövzusuna çevirmək vətənə xəyanətlə eyniləşdirilmişdi. Baş verənlərə belə stereotiplərlə yanaşma elə də tezliklə dəyişmədi. Bu, ilk növbədə beynəlxalq informasiya kanallarını öz ciddi nəzarəti altında saxlayan ABŞ-ın həyata keçirdiyi senzura siyasəti ilə bağlı idi. Məhz buna görə elmi araşdırmada müxtəlif tədqiqatların materialları və nəticələrinə münasibətdə tənqidi yanaşmadan istifadə olunmuş, baş verənlər səbəb-nəticə əlaqəli araşdırılmışdır.

Məlum olduğu kimi, ikiqütblü dünya nizamının mövcud olduğu "soyuq müharibə" dövründə BMT Nizamnaməsinin 4-cü maddəsinə uyğun olaraq beynəlxalq aləmdə təkbaşına hərəkət etmək siyasətində o qədər də maraqlı olmayan ABŞ "soyuq müharibə"nin sona çatması ilə BMT-yə verdiyi əhəmiyyəti və diqqəti arxa plana keçirdi. NATO-nun hərbi və siyasi doktrinaları yeniləndi, Avropa İttifaqı və NATO-nun Şərqə doğru genişlənməsi, coğrafiyasının böyüməsi, postsovet məkanını hədəfləməsi, Rusiya və Çinlə qarşıdurmanın kritik həddə yüksəlməsi ABŞ-ın hegemon olmadığı yeni dünya qaydasının yaranmaqda olduğunu göstərirdi. Təsadüfi deyildi ki, hazırda dünyanın çoxqütblülüyə doğru getməsi artıq hamılıqla etiraf olunmaqda və qəbul edilməkdədir, baxmayaraq ki, Vaşinqton israrla təkqütblülüyü davam etdirməyə çalışır.

Hazırda məlum həqiqətdir ki, ABŞ zaman keçdikcə antiterror fəaliyyətindən uzaqlaşmaqda və bu təhlükəyə qarşı həyata keçirdiyi siyasəti işğalçılıq siyasətinə çevirməkdədir. Belə ki, ABŞ-ın Əfqanıstanda həyata keçirdiyi antiterror siyasətinin İraqda işğalçılıq siyasətinə çevirməsi dünya ölkələrində ilk olaraq demokratiyaya olan ümidlərin itirilməsinə gətirib çıxardı. Əfqanıstanda

anti-terror əməliyyatlarının 20 ili ərzində 1 milyon nəfərdən çox əfqan qətlə yetirildi, İraqın işğalı və Səddam Hüseynin edam olunması, "ərəb baharı" hadisələri nəticəsində Yaxın Şərqin müsəlman ölkələrinin viran qoyulması antiterror strategiyası adı altında ABŞ-ın işğalçılıq siyasətini qanuniləşdirməsi və dünya hegemonluğu niyyətlərini ortaya qoydu. Prof. A.Abbasbəyli təsadüfi olmayaraq qeyd edirdi ki, terrorçuluq və buna bənzər hadisələr çox vaxt məqsədə çatmaqda vasitə olmaqdan başqa bir şey deyildir [1, s. 195-196].

Rusiyalı tədqiqatçılardan V.V.Ustinova, habelə bir sıra Qərb və türk müəlliflərinə görə, BMT-nin Əfqanıstanla bağlı sanksiyasının mahiyyətinə əhəmiyyət verməyən ABŞ-ın Əfqanıstana müdaxiləsinin arxasında duran başlıca məqsədlərdən biri Xəzərdəki karbohidrogen ehtiyatlarına çıxış, İran və Rusiya ilə danışıqlara getmədən bölgədəki enerji resurslarını Qərbə nəql etmək, digəri isə Əfqanıstan vasitəsilə regionda möhkəmlənmək, Çinin Yaxın Şərqə çıxışına və Rusiya ilə yaxınlaşmasına imkan verməməkdir [22, s.361]. ABŞ heç kimin öz ölkəsini onun terror hücumlarına qarşı müdafiə etmək hüququna malik olmadığını bəyan etsə də, özündə “terrorçu olmaq haqqı” görürdü, sadə dildə desək, ABŞ terrora qarşı dövlət terrorizmi yeritmək hüququna malik olduğunu bəyan etdi. Lakin araşdırmalarda 11 sentyabr hücumlarının Üsamə bin Laden tərəfindən törədildiyinə dair inandırıcı sübutların olmaması fonunda ABŞ-ın Əfqanıstanı bombalamasının pərdəarxası məqamları zaman keçdikcə üzə çıxmaqda idi.

## NƏTİCƏ

XXI əsrin əvvəllərindən etibarən ABŞ-ın beynəlxalq aləmdə həyata keçirdiyi zorakılıq və hegemonluq siyasətinin həm ölkə daxilində - ABŞ-da yaşayanlar, həm də ölkə xaricində həyata keçirilən antiterror siyasəti üçün ciddi mənfi təsirləri oldu. Müasir dövrdə dünyada elə bir psixoloji tendensiya formalaşmışdır ki, terrorizmdən sığortalanmaq mümkün deyildir, bu isə insan hüquqları anlayışını təhlükəsizliklə bağlı narahatlıqlar qarşısında əhəmiyyətsiz edirdi. Belə ki, sentyabrın 11-dən sonra bəyanatlar verən ABŞ prezidenti C.Buş terrorla bağlı zorakılıq və antidemokratik fəaliyyətlərə qarşı duran qeyri-hökumət təşkilatlarını, bəzi ölkələri, hətta Cenevrə konvensiyalarını qınamağa başlamışdı. Məhz bunun nəticəsində bütövlükdə dövlətlərarası münasibətlərdə qarşılıqlı inamsızlıq yaranmağa, qütbləşmə dərinləşməyə başlamışdı.

ABŞ-da törədilən terror hadisələri nəinki dünya nizamına, habelə onun Avropadan olan Vaşinqtondan fərqli demokratiya və insan haqları ənənələrinə malik müttəfiqlərinə də mənfi mənada ciddi təsir etdi. Belə ki, Avropa ölkələri də terrora birbaşa zorakılıqla cavab verəcəklərini vurğulamaqla yanaşı, buna uyğun hüquqi tənzimləmələr edəcəklərini də praktiki olaraq həyata keçirməyə başladılar. Digər tərəfdən, xüsusilə Avropa İttifaqında sərhədlərin şəffaflaşdırılması və Şengen məkanının yaradılmasından sonra terrorçular daha rahat yerdəyişmə etmək imkanı qazandılar. Bu ölkələrin demokratik quruluşu, insanların səyahət və məskunlaşma ilə bağlı sərbəstliyi də bu prosesdə mühüm rol oynayırdı. Məhz buna görə, Avropa Parlamenti sərhədlərin açılmasının mənfi nəticələrini anlayaraq sərhəd təhlükəsizliyini artıran və terrora qarşı yeni tədbirləri özündə ehtiva edən antiterror siyasəti yeritməyə başladı, lakin antiterror koalisiyası formalaşdırmaq imkanlarına malik deyildi. Bununla belə, əgər ABŞ 2001-ci il 11 sentyabr terrorundan sonra antiterror hərəkatının və

koalisiyasının mərkəzinə çevrilmişdisə, xüsusilə "ərəb baharı" strategiyasının uğursuzluğundan sonra BMT antiterror koalisiyasının mərkəzinə çevrilməyə və bu təhlükəyə qarşı davamlı və sistemli şəkildə mübarizəyə başladı. Tədqiqat prosesində toplanmış faktiki materialların və sənədlərin təhlili bizə belə nəticəyə gəlməyə imkan verir ki, nəinki antiterror siyasətinin məqsədyönlü, kompleks və kollektiv şəkildə aparılmasına, habelə belə bir sistemin yaradılması ideyasını həyata keçirməyə yalnız Birləşmiş Millətlər Təşkilatı qadirdir.

Təsadüfi deyildir ki, BMT-nin Baş katibi A.Quterreş 2017-ci ilin fevralında BMT-də terrorizmə qarşı yeni idarənin yaradılması təklifi ilə çıxış etmişdi. Onun fikrinə görə, yeni bölmənin rəhbəri terrorçuluğa qarşı mübarizə sahəsində BMT-nin bütün üzvləri adından çıxış etməli idi. A.Quterreş hesab edirdi ki, Əks-terrorizm idarəsinə rəhbərliyini BMT Baş katibinin müavinlərindən birinə həvalə etmək olar. Bu o demək idi ki, İdarənin fəaliyyəti BMT Təhlükəsizlik Şurasının mövcud qurumlarının funksiyaları ilə toqquşmayacaqdır. Baş katib irəli sürdüyü təkliflə əlaqədar “biz bütün BMT sistemi çərçivəsində terrorizmlə mücadiləni prioritet olaraq görməli, habelə missiyamızın zorakı ekstremizmlə mübarizənin qlobal əks-terrorist strategiyaya müvafiq olduğunu göstərməliyik” fikrini səsləndirmişdi. Ümumiyyətlə, qeyd etməyə dəyər ki, 1963-2017-ci illər ərzində beynəlxalq birlik tərəfindən terrorçu hücumlarına qarşı 19 beynəlxalq saziş işlənərək həyata keçirilməyə başlanmışdır. BMT və Beynəlxalq Atom Enerjisi Agentliyinin dəstəyi ilə həyata keçirilən tədbirlər nəticəsində bu siyasət daha da intensiv xarakter almışdı. 2006-cı ilin sentyabrın 8-də BMT Baş Məclisi terrorizmə qarşı qlobal strategiyanı təsdiq etməklə yanaşı, eyni vaxtda “Terrorizmə qarşı tədbirlərin həyata keçirilməsi üzrə hədəf qrupu”nun siyahısını da elan etmişdi. Bu qrupa BMT-nin 38 strukturu və əlaqəli təşkilatlar, o cümlədən Birləşmiş Millətlər Təşkilatının Əks-terrorizm mərkəzi daxildir [3]. Yeni dünya qaydasının formalaşması yolunda əngələ çevrilən beynəlxalq cinayətkarlığın bütün növləri, dünya düzənində hegemonluq, beynəlxalq terrorizm, hibrid müharibələr kimi təhdidlər yalnız dünya birliyinin birgə səyləri ilə aradan qaldırıla bilər.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

**Azərbaycan dilində:**

1. Abbasbəyli A.N. Dünya siyasəti (XX əsrin ikinci yarısı - XXI əsrin əvvəlləri). B.: Nurlar, 2011, 584 s.
2. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 2001-ci il 12 sentyabr tarixli 1368 nömrəli və 2001-ci il 28 sentyabr tarixli 1373 nömrəli qətnamələrinin yerinə yetirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncami. - https://frameworks.e-qanun.az/2/f_2503.html
3. BMT terrorizmə müharibə elan edir. - https://musavat.com/news/bmt-terrorizme-muharibe-elan-edir-icmal_418400.html
4. Qələndərova E.Ş. Terror anlayışı və onun müasir növləri. // "Qanun" jurnalı, 2017, № 1, 9 s.
5. Mustafayeva S.M., Qurbanova Ş.M., Cavadova Z.Ş. ABŞ-ın xarici siyasəti (1945-2010-cu illər).. Bakı, 2011, 301 s.

**Türk dilində:**

6. Akgün B. 11 Eylül Sonrasında Dünya, ABD ve Türkiye. Tablet Kitabevi, Konya, 2006, s. 26-27

7. Çaycı, Sadi, “Terörle Mücadele ve Birleşmiş Milletler”, ASAM, 2 Aralık 2004. - http://www. avsam.org/tr/analizler.asp?ID=10

8. Çitlioğlu E. Terörizmin Yeni Konsepti, Stratejik Analiz, Eylül 2007, s.28-33

9. Dedeoğlu B. Terörizm ve Terörizmle Mücadelenin Paradoksal Olguları, Avrasya Dosyası. // ASAM, Cilt:12, Sayı:3, Ankara, 2006, s. 5-21

10. Elnur, Soltan. 11 Eylül Sonrası AB’nin Teröre Yaklaşımı ve Ortak Dış Politika ve Güvenlik Politikasının Başarısızlığı. // Stratejik Analiz Dergisi, Sayı:20, Aralık 2001, s. 28-37

11. Erol S. Mehmet: Terör Örgütleri, Ed. Haydar Çakmak, Uluslararası İlişkiler: Giriş, Kavram ve Teoriler, Ankara, Platin, 2007, s.113–124

12. George Bruce-Vatson, Timothy. 1992 Sonrası Terörizmle Uluslararası Mücadele, çev.Başak Özger, Silinen Yüzler Karşısında Terör, der. Cemal Güzel, Ayraç Yayınevi, Ankara, 2002, s.189-208

13. Laqueur V. Terörizmin Yorumlanması, çev. İbrahim Yıldız, Silinen Yüzler Karşısında Terör, der. Cemal Güzel, Ayraç Yayınevi, Ankara, 2002, s. 95-141

14. Özdiker C. “Türkiye’de Medya ve Terör”, Türkiye’de Terörizm Dünü, Bugünü, Gelişimi ve Alınması Gereken Tedbirler, Ankara 10-11 Mayıs 2000, Türk Tarih Kurumu Basımevi, Ankara, 2003, s. 89-122

15. Zafer, Hamide. 27 Ocak 1977 Tarihli Terörizmin Önlenmesine Dair Avrupa Sözleşmesinin ve 4 Aralık 1979 Tarihli Dublin Sözleşmesinin Değerlendirilmesi, Yiğit Okur’a Armağan, Galatasaray Üniversitesi, 1998, s. 411-425

**İngilis dilində:**

16. Targ, Harry R. Societal Structure and Revolutionary Terrorism: A Preliminary Investigation, The Politics of Terrorism, edited by Michael Stohl, Marcel Dekker Inc., New York, 1979, s.119-143

**Rus dilində:**

17. Армия Судана: прошлоее и настояшее. - https://russiancouncil.ru/analytics-and-comments/analytics/armiya-sudana-proshloe-i-nastoyashchee/27.09.2018

18. Контртеррористический комитет (КТК) Совета Безопасности ООН. - https://ru.ruwiki.ru/wiki/%D0%9A%D0%BE%D0%BD%D1%82%D1%80%D1%82%D0%B5%D1%80%D1%80%D0%BE%D1%80%D0%B8%D1%81%D1%82%D0%B8%D1%87%D0%B5%D1%81%D0%BA%D0%B8%D0%B9_%D0%BA%

19. Контртеррористический комитет Совета Безопасности Организации Объединенных Наций. - https://translated.turbopages.org/proxy_u/en-ru.ru.f8588928-67023f6a-1f19dd1b-74722d776562/https/en.wikipedia.org/wiki/United_Nations_Security_Council_Counter-Terrorism_Committee

20. США — Ирак: хронология конфликта. - https://zonakz.net/2002/11/14/ssha-irak-xronologiya-konflikta/

21. Террористический акт 11 сентября в США указывает на существование всеобщей опасности на миропорядка. // Независимая газета, 2001, 16 сентябя

22. Устинов В.В. Россия: 10 лет борьбы с международным терроризмом. М.: ЗАО «Олма Медиа Групп», 2008, 544 с. 361

**Ilkin Ahmedzade**

**Launching Global Fight Against International Terrorism: Political Analysis**

**Abstract**

Among the factors that had a significant impact on the world order at the beginning of the 21st century, the terrorist attacks in the United States on September 11, 2001, hold particular importance. Whether they were artificially or intentionally orchestrated, and regardless of their geopolitical consequences, discussions about the September 11 attacks continue, with ongoing research in this area. It is no coincidence that September 11 is marked as the beginning of an era of systematic, purposeful, and collective efforts against international terrorism.

The U.S. war of aggression, disguised as a campaign to combat international terrorism, aims at achieving global hegemony. This article analyzes the international situation post-2001, drawing on research from national, Turkish, and Russian authors, as well as materials from the mass media. It describes the hegemonic policies of the United States and examines the efforts of the United Nations in forming an anti-terrorist coalition from both a scientific and practical perspective.

**Keywords:** USA, UN, September 11, 2001, Middle East, Islamic factor, hegemony, international terrorism, anti-terrorism, energy interests, world order, political opinion, geopolitical competition

**Илькин Ахмедзаде**

**Начало глобальной борьбы с международным терроризмом: политический анализ**

**Резюме**

Одним из факторов, оказавших серьезное влияние на мировой порядок в начале XXI века, стали террористические акты, совершенные в США 11 сентября 2001 года. Независимо от того, был ли этот акт искусственно спровоцирован или стал результатом намеренных действий, а также вне зависимости от геополитических последствий, дискуссии и исследования о терактах 11 сентября продолжаются до сих пор. Террористический акт в США стал началом новой эпохи — эпохи системной, целенаправленной и коллективной борьбы с международным терроризмом.

Агрессивная война США, прикрытая борьбой с международным терроризмом, направлена на достижение глобальной гегемонии. В статье, опираясь на исследования отечественных, турецких и российских авторов, а также материалы средств массовой информации, анализируется международная ситуация пост 2001 года, рассматривается гегемонистская политика США, а также исследуется деятельность ООН по созданию антитеррористической коалиции с научной и практической точек зрения.

**Ключевые слова:** США, ООН, 11 сентября, Ближний Восток, исламский фактор, гегемония, международный терроризм, борьба с терроризмом, энергетические интересы, мировой порядок, политические взгляды, геополитическая конкуренция

# AZƏRBAYCAN İCTİMAİ RƏYİNDƏ AVROPA İTTİFAQI VƏ ÇİNƏ MÜNASİBƏT

**Şəhla CƏLİLZADƏ,**
*Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi*
*(Bakı, Azərbaycan)*

*E-mail: shahla.celilzade@stm.az*
*ORCID ID: 0000-0002-7497-6706*

**Xülasə.** Qloballaşma fərdlərin, o cümlədən toplumların mədəni və ictimai-siyasi düşüncələrinə hakim ideoloji təsirlər göstərərək kimliklərinin daha qlobal bir kimlik içərisində əriməsinə hesablansa da, bununla yanaşı, hazırda fərdlərin, toplumların, dövlətlərin və təşkilatların kimlik, aidiyyatlılıq duyğusu beynəlxalq münasibətlərdə heç vaxt olmadığı qədər həssas bir rol oynamaqdadır.

Bu məqalədə milli kimliyi yaradan və cəmiyyətin, xüsusilə Azərbaycan cəmiyyətinin siyasi düşüncələr toplusunun formalaşmasına təsir edən təbii və kənar faktorlar araşdırılmış, 1991-ci ildə ikiqütblü dünya düzəninin ləğv olunmasından sonra hazırda Rusiya və Çin liderliyində Şərq bloku ilə ABŞ və Aİ liderliyində Qərb bloku arasında yenidən qütbləşmə meyilləri təhlil olunmuş, Azərbaycanın 2020-ci il Vətən müharibəsindən sonra bu qütblər arasında siyasət şəkilləndirməsi izah olunmuş, azərbaycanlıların siyasi düşüncəsində Aİ və Çinə münasibəti formalaşdıran amillər ictimai rəy sorğusu əsasında öyrənilməyə çalışılmışdır.

**Açar sözlər:** milli kimlik, siyasi düşüncə, qütbləşmə, Aİ, Çin, Azərbaycan

## Giriş

1991-ci ildə müstəqilliyini bərpa edən müasir Azərbaycan məhz 2023-cü ilin 20 sentyabrında, 1 günlük antiterror tədbirləri nəticəsində 30 ildən artıq davam edən işğala və separatizmə birdəfəlik son qoyaraq beynəlxalq hüquqla tanınan əraziləri üzərində ali hakimiyyəti tam olaraq təsis etməyə nail oldu. 20 sentybarda Azərbaycan Respublikasının Dövlət Suverenliyi Günü qeyd edildiyi tarixi gündən dünyanın siyasi xəritəsinə baxarkən 200-ə yaxın suveren dövlət görmək olar ki, onların hər birinin özünəməxsus yaranma və milli kimliyinin formalaşma tarixçəsi vardır. Azərbaycan xalqının, yəni əsasən türk-müsəlman toplumunun milli kimliyinin, siyasi düşüncəsinin formalaşması və yaratdığı dövlətçilik tarixi qədim olsa da, müasir beynəlxalq münasibətlər sisteminin bir parçası halına 1918-ci ildə gələn Azərbaycan Respublikası bir neçə tarixi-siyasi formasiyadan (1918-1920-ci illərdə I respublika, 1920-1991-ci illərdə II respublika) keçərək bugünkü halını almışdır. Azərbaycanın geostrateji baxımdan həssas bir nöqtədə yerləşməsi, təbii keçid rolu və zənginlikləri, tarixi-siyasi proseslərin yaratdığı irsə sahiblik – bütün bunlar ölkənin xarici təsirlərlə üz-üzə qalması ilə yanaşı müasir siyasətinin şəkillənməsində rol oynayır. Azərbaycanın xarici siyasət şəkilləndirməsində son 30 ildə ərazi bütövlüyünə hörmət prinsipi ön planda olub. Tarixən Şərq aləminin bir hissəsi olan, SSRİ tərkibində "Şərq" blokunda yer alan Azərbaycan 1991-ci ildən sonra hərbi-siyasi və milli təhlükəsizlik sənədlərində Qərblə, Avro-Atlantik strukturlarla əməkdaşlığı ön plana çıxarsa da, ötən qərinə ərzində enerji təhlükəsizliyi siyasəti çərçivəsində Aİ-nin 10 ölkəsi ilə strateji əməkdaşlıq səviyyəsində münasibətlər təsis olunsa da, özünü Şərqlə Qərb arasında mühüm bağlayıcı ölkə kimi təqdim etmişdir. Bununla yanaşı, keçirilən ictimai rəy sorğularına görə, azərbaycanlılar özünü əsasən Türk dünyasının bir parçası olaraq görməkdə və hazırda gedərək yenidən qütbləşən dünyada "Qərb" blokunun təmsilçisi Aİ ilə müqayisədə "Şərq" blokunun təmsilçisi Çinə daha çox güvən və etibar duymaqdadırlar. Bunu təşviq edən bir sıra amillər vardır ki, bu məqalədə bu amillər araşdırılmışdır.

## 1. Milli kimlik və siyasi düşüncənin formalaşması

Kimlik araşdırmaları ən qədim filosoflardan Sokratın "Özünü tanı!" çağırışından başlayaraq [8], psixoanaliz elminin banisi Ziqmund Freydin ilk dəfə elmə gətirdiyi "etnik-mədəni kimlik" araşdırmalarınadək fəlsəfənin əsas mövzularından biri olmuş [15], Erik Eriksonun "psixososial kimlik" anlayışını inkişaf etdirməsi ilə birlikdə 1960-cı illərdə psixologiyadan sosial elmlərin digər sahələrinə, o cümlədən sosiologiyaya nüfuz etmiş, 1990-cı illərdə isə beynəlxalq münasibətlər nəzəriyyələrinin əsas araşdırma mövzularından birinə çevrilmişdir [19].

"Milli kimlik" anlayışı toplumun fərqli etno-mədəni dəyərlərinin üzərində yer alan birləşdirici, ümumi siyasi dəyər yaradan düşüncələr toplusu olaraq ifadə edilə bilər. Bu gün BMT-yə üzv dövlətlərin 10%-dən azı etnik-homogen millət-dövlətdir. Milli kimlik müxtəlif etnik-dini-irqi kateqoriyalı insanlardan ibarət toplumun içərisindən birgə keçdiyi tarixi-siyasi proseslərin, həmçinin onların üzərində, yəni toplumsal siyasi düşüncənin formalaşdırılması üçün aparılan ideoloji-təbliğat işinin nəticəsi olaraq dəyərləndirilə bilər. Beləliklə, milli kimlik inşa olunan – konstuktivist nəzəri yanaşmanın nəticəsidir [34; 36]. Aleksandr Vendtin banisi olduğu sosial konstruktivizm nəzəriyyəsinə görə, ictimai şüur, o cümlədən toplumun kollektiv siyasi şüurunun dövlət siyasəti

əsasında formalaşdığı iddia olunur [38]. Beləliklə, toplumun siyasi davranışları dövlətin (müəyyən bir dövr üçün) aynası olub [12], o cümlədən sosial-psixoloji yanaşmalar kənar faktorlar ilə birbaşa əlaqəlidir [10].

Kimliyin yaradılan və dəyişdirilə bilən xüsusiyyəti nəzərə alınaraq qeyd etmək olar ki, toplumların daha böyük təhlükəsizlik çətiri altında birləşdirilməsində təbliğat və ideoloji paradigmalar mühüm rol oynayır. Məsələn, Rusiyada 1917-ci ildə ləğv olunan Çarlıq rejiminin yerində hakimiyyəti ələ alan bolşeviklər Sovet üsul-idarəsi ilə rus identikliyinin, o cümlədən "rus avrasiyaçılığının" yeni bir formatını yaratmağa nail olmuşdular [7]. Bunun üçün onlar Qərb imperializminə qarşı Şərqin əzilən xalqlarının təmsilçisi və "qırmızı bayraqdarı" siyasi imicini seçmişdilər. Yaxud, vahid Avropa düşüncəsi tamamilə ideoloji inşa olunmuş bir düşüncədir [30]. Əvvəllər birləşdirici funskiyanın daşıyıcısı olaraq Katolik kilsəsi Avropanı vahid ideya ilə təmin edirdi. Daha sonra dini parçalanma, XIX əsrdə isə bütün Avropanı bürüyən etnik milliyətçilik, nasional sosializm və faşizm ideyaları ilə davam edən bölünmə ərəfəsində ikən "birləşdirici və xilasedici" pan-Avropa ideyası doğdu. Günümüzdə dünyanın mühüm siyasi-iqtisadi və mədəni güc mərkəzlərindən birinə çevrilən Avropa İttifaqı indiki formasını Soyuq Savaşın başa çatması və Almaniyanın birləşməsi sonrası 1992-ci ilin Maastrix sazişi ilə qazansa da [16], 1951-ci ilin "Kömür və Polad Birliyi" və 1957-ci ilin "Avropa Atom Enerjisi Birliyi"nin təməlləri üzərində qurulduğu qeyd oluna bilər. Beləliklə, Aİ çərçivəsində Avropa üçün vahid dəyərlər, hüquq normaları, iqtisadi-siyasi əməkdaşlıq modeli yaradıldı. Bənzər şəkildə Türk Dünyası ideyası Avropa və Asiyanın türk toplumlarını birləşdirən vahid ideoloji-siyasi bir istiqamət olaraq göstərilə bilər. Bu geosiyasi termin xüsusilə SSRİ-nin dağılması sonrası müstəqil türk dövlətləri üçün Türkiyənin "rol model" olaraq qəbul edilməsi və münasibətlərin türk amili üzərindən dərinləşdirilməsini əsas alsa da, türkçülük və turançılıq ideyaları tarixi daha qədimdir.

Azərbaycanda milli intibah XIX əsrin ikinci yarısına təsadüf edir. Məhz bu dövrdə həm Azərbaycan daxilində milli fikir və siyasi düşüncəyə dair müzakirələr canlanmış, tarixi əhəmiyyətli əsərlər meydana gəlmiş, həm də ölkə xaricində Azərbaycan adı səsləndirilməyə başlamışdı. İntibah dövrü Azərbaycanda milli kimlik və özünüdərk ilk dəfə Mirzə Fətəli Axundovla başlamışdır. Alman jurnalı "Magazin für die Literatur des Auslandes"də (1852) "Qafqazın Molyeri" adlandırılan Axundov xalqımızın milli kimliyini Şərq despotizmindən qurtuluşda görür və bizi Qərblə identikləşdirməyə cəhd edirdi [5]. O, Azərbaycanın bilinən ilk sekulyar dövlətçilik tərəfdarı idi. XX əsrdə isə Azərbaycan-türk ictimai-siyasi fikrinin ən görkəmli nümayəndələrindən, türkçülük və pantürkizm ideyalarının təmsilçilərindən olan Əli bəy Hüseynzadə tərəfindən "Turan" şeiri ilə gələcəkdə Azərbaycan dövlətçiliyinin təməl prinsipləri olacaq "Müasirləşmək", "İslamlaşmaq" prinsipi ilə yanaşı "Türkləşmək" prinsipi önə sürülmüşdür. [2; 3] Azərbaycanda tarixən türk-müsəlmanlar çoxluq təşkil etdiyi üçün burada təbii türkçülük, Turançılıq meyilləri qabarıq olub. Türkçülüyün ədəbi və fəlsəfi carçıları 1910-1920-ci illərdə dominant olmuşlarsa da, milli kimliyin türk olaraq adlandırıldığı 1918-1935-ci illər istisna olmaqla maarifçilik və milli intibah dövrünün başlanmasından Sovet dövrünün sonunadək, o cümlədən müstəqilliyin ilk illəri istisna olmaqla, indiyədək milli kimliyin adlandırılmasında "azərbaycançılıq" üstün mövqeyini qorumuşdur. SSRİ-nin təsis olunması Azərbaycan coğrafiyasını Turan/pantürkizm ideologiyasından uzaqlaşdırdı. Məhz Azərbaycanı Türkiyə

təsirindən uzaqlaşdırmaq məqsədilə sovet dövründə “Azərbaycançılığa” üstünlük verilmişdir. Lakin bu ideologiyanı sadəcə Çar Rusiyası, yaxud sovet maraqları ilə əlaqələndirmək yanlış olardı. AXC-nin banisi M.Ə.Rəsulzadə Azərbaycan milləti uğrunda mübarizə aparanları türk irqinə mənsub hesab etsə də, milli kimliyi digər türk qövmlərindən ayırd edərək “azərbaycanlı” adlandırmış və pantürkistlərin yeni yaranacaq dövləti “Qafqaz Türk Respublikası” adlandırma çağırışına baxmayaraq “Azərbaycan Xalq Cumhuriyyəti” adlandırmağa üstünlük vermişdi.

Bununla yanaşı, qeyd etmək lazımdır ki, Osmanlının dağılmağa başladığı dövrdə vüsət qazanan pantürkizm, turançılıq ideologiyasının qayəsi, o cümlədən 15 sentyabr 1918-ci ildə AXC-nin paytaxtı Bakını yadelli işğalçılardan azad edən Qafqaz İslam Ordusunun əsas amalı Turan dövləti yaratmaq idi. Belə ki, Osmanlı komandanları Türk dünyasını əhatə edən xalqların müstəqillik savaşlarına dəstək verərək, daha sonra onların vahid çətir altında birləşdirilməsinə nail olmaq istəyirdi [13; 14]. Lakin Osmanlı dövlətinin süqutu, Türkiyə Cümhuriyyətinin isə fərqli siyasi-ideoloji kursa köklənməsi, bu prosesin inkişafını qarşıdakı 100 il üçün durdurdu. 1991-ci ildə SSRİ süqut etdiyi zaman Türk dünyası ideyası təkrar dirçəlməyə başladı. Türkiyə Cümhuriyyətinin Prezidenti Turqut Özal XXI əsri “Türk əsri” bəyan etmiş, Baş nazir Süleyman Dəmirəl “Adriatikdən Çin səddinə qədər Türk dünyası” ifadəsini gündəmə gətirmiş [9], Azərbaycan Respublikasının Ümummilli lideri, 1993-2003-cü illərdə Prezident olan Heydər Əliyev Türkiyə və Azərbaycana xitabən “Bir millət, iki dövlət” şüarını səsləndirmiş, Prezident İlham Əliyev isə bu siyasəti bir az da irəli apararaq 7 müstəqil türk dövlətinin vahid təşkilati çətir altında daha sıx birləşdirilməsi üçün mühüm işlər görmüşdür. Təsadüfi deyil ki, azərbaycanlıların böyük əksəriyyəti özünü Türk dünyasının bir parçası olaraq görür və hiss edir. Bu, keçirilən ictimai rəy sorğularının nəticələrinə də yansıyır. Məsələn, Sosial Tədqiqatlar Mərkəzinin 14-17 may 2023-cü il tarixlərində 384 respondentlə keçirdiyi sorğunun nəticələrinə görə, əhalinin 83,6%-i özünü türk dövlətlərinə daha yaxın hiss etdiyini bildirmişdi. Sorğu nəticələri göstərir ki, respondentlərin cəmi 2,1%-i özünü Qərb ölkələrinə daha yaxın hiss edir. Bununla yanaşı, 12% respondent islam ölkələri, 8,6% “postsovet ölkələri” cavabını vermişdir [6].

Bu həm Azərbaycanda toplumun yaşadığı tarixi-siyasi proseslərin ardıcıllığında formalaşan təbii bağlılıq olmaqla yanaşı, həm də aparılan dövlət siyasətinin, ictimai-siyasi təbliğatın nəticəsi olaraq qiymətləndirilə bilər. Bununla yanaşı, Türk dünyasının mədəni birlik şəklində formalaşsa da, hərbi-siyasi və iqtisadi blok olaraq hələ ki tam formalaşmadığını nəzərə alaraq Azərbaycanın təhlükəsizlik çətiri axtarışları xarici siyasətin istiqamətlənməsini Şərq-Qərb dilemması qarşısında qoyur.

## 2. Şərq və Qərb blokları arasında yenidən qütbləşmə

Şərq-Qərb qarşıdurmasının ideoloji köklərini axtararkən orta əsrlərdə ərəblər və türklərlə üz-üzə gələn avropalıların xüsusilə “Xaçlı” səfərləri dövrü, o cümlədən Qərb imperializmi və bunun nəticəsi olan kolonializm dövrü xatırlana bilər [11]. Xüsusilə 1917-ci ilin bolşevik inqilabının siyasi terminologiyada və debatlarda Şərq-Qərb ayırımını dərinləşdirmiş olduğunu görürük. 1947-1991-ci illərdə ABŞ-SSRİ arasında “soyuq müharibə” Şərq və Qərb blokları arasında “dəmir pərdə”nin çökməsinə səbəb olmuşdu. Bu dövr pik həddə çatan silah yarışı (o cümlədən nüvə silahı yarışı) ilə xatırlanır. 1991-ci ilədək

"Şərq" blokunu SSRİ-nin rəhbərliyi altında "Varşava Müqaviləsi Təşkilatı", "Qərb" blokunu isə NATO təhlükəsizlik çətiri ilə təmin edirdi [29]. II Dünya müharibəsindən sonra Fukuyamanın adlandırdığı "tarixin sonu"na doğru (yəni SSRİ-nin dağılmasınadək) Şərq və Qərb blokları arasında qütbləşən dünyada bu gün gərginliyin gedərək artdığını müşahidə edirik. 2020-ci illərədək dünyada yaşanan xaotik nizamsızlıq dövründə Çin Şərqin yüksələn gücü olaraq siyasi, iqtisadi və hərbi bloklaşmanın öncülü olmaq potensialı qazanmışdır [21].

Bu gün dövlətlərin beynəlxalq hüquq normaları, yəni BMT nizamnaməsi ilə bütün dövlətlər tərəfindən tanınan coğrafi sərhədlərinin önəmi artmaqdadır. Dövlətlər bu ərazi sərhədlərində hakimiyyətlərini legitimləşdirdikləri dərəcədə suverendirlər. Lakin reallıqda beynəlxalq hüquq bu sərhədlərin qorunmasında yetərsiz qaldığı üçün təşkilatlanmalar, qütbləşmələr və ittifaqlar vacib alət kimi əhəmiyyətini yenidən artırmağa başlamışdır. Məsələn, uzun on illiklər boyu öz "tərəfsizliyini" elan edən Finlandiya və İsveçin müvafiq olaraq 2023 və 2024-cü illərdə NATO-ya qoşulması [20] məhz "özünü müdafiə instinktlərinin" nəticəsi, o cümlədən dünyada qütbləşmə meyillərinin gedərək artması kimi dəyərləndirilə bilər.

Bu gün Qərbin iqtisadi və hərbi-siyasi təhlükəsizlik çətirini formalaşdıran Aİ və NATO ekspertləri, bir çox azad tədqiqatçılar Qərb blokuna qarşı Rusiya və Çindən bəhs etməklə qalmayıb, müharibə ssenariləri üzərində fokuslanmaqdadırlar

**Qrafik 1. 2023-cü ildə ən çox hərbi xərcləri (milyard dollar ilə) olan dövlətlər [33]**



[21; 27; 31]. Artıq ABŞ-ın hərbi strateji sənədləri və doktrinaları Çini çəkindirmək və onun artan gücünü zəiflətmək barədə qeydləri açıq mətnlə bəyan edir.

Çinin hərbi gücünün artması onun hərbi büdcəsi və hərbi-sənaye yeniliklərində ilklərə imza atması ilə qiymətləndirilə bilər. "Soyuq müharibə"nin başa çatdığı 1991-ci ildən bəri Çinin hərbi büdcəsi davamlı olaraq artaraq 2023-cü ildə 224 milyard dollar olub. Bununla yanaşı, qeyd olunmalıdır ki, Çinin hərbi xərcləri 2023-cü il büdcəsində qeyd olunandan daha çox, yəni 296,4 milyard dollar olub. Qrafik 1-də dünyada ən çox hərbi xərcləri olan dövlətləri əks etdirir. Bu qrafikdən göründüyü kimi, ABŞ hələ də siyahıda birinciliyini qorumaqdadır.

ABŞ-dan Rusiya və Çin istiqamətində artan təhdidlər, Qərb blokunun Şərqə doğru yayılması, xüsusilə Rusiya-Ukrayna müharibəsi fonunda yenidən qütbləşmə göstəriciləri Çinin Rusiya ilə birgə hərbi-siyasi, iqtisadi təhlükəsizlik çətirini genişləndirmək marağını artırır. Bu məqsədlə BRICS və Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) alternativ qlobal idarəçilik modeli olaraq rolu gündən-günə artmaqda, özünü Qərbin qarşısında tapan dövlətlərin burada gedərək daha sıx birləşmə tendensiyası müşahidə olunmaqdadır [32].

Yarandıqdan sonrakı 15 ildə BRICS-ə heç bir yeni üzv qatılmasa da, 2024-cü ildə üzvlərin sayı birdən-birə ikiyə qatlanmışdır [4]. Belə ki, 2009-cu ildə 5 üzvlə yaradılan BRİCS-ə 2024-cü ilin yanvarında İran, Misir, Efiopiya və Birləşmiş Ərəb Əmirlikləri qatılmış, Səudiyyə Ərəbistanın da üzvlüyü gündəmə gəlmiş, lakin hələ ki təsdiqlənməmişdir. Argentina da 2023-cü ildə üzvlük niyyətini bəyan etmiş, lakin daha sonra fərqli xarici siyasi kurs seçildiyi üçün (Çindən asılılığın azaldılması məqsədilə) geri çəkilmişdir. Hətta Pakistan da üzvlük üçün müraciət etmişdir. Lakin Hindistanın bu məsələdə mövqeyi birmənalı olmayacaqdır. Çin və Hindistan arasında tarixi rəqabət (1962-ci ildə sərhəd müharibəsi olmuş, Tibet məsələsi indiyədək gündəmdə saxlanır) bu birliyin gələcəyinə uzun müddət kölgə salsa da, görünən odur ki, Hindistan da qlobal manevr imkanlarını qorumaq üçün ABŞ-la nə qədər isti münasibətlər saxlasa da, BRİCS-də üzvlüyü rədd etmir. Belə ki, 2014-cü ildə Hindistan ABŞ-ı "əsas müdafiə tərəfdaşı" olaraq bəyan etmişdir. Bununla belə, BRİCS-in yeni dünya nizamında yeni bir rol almasına Hindistan da dəstək verir. Təbii olaraq, burada aparıcı qüvvə Çindir. Türkiyə və Azərbaycanın da 2024-cü ilin avqustunda üzvlük üçün niyyət bəyanı etməsi BRİCS-in artan gücü və imkanları ilə əlaqədardır. BRİCS hazırda dünya əhalisinin 46%-ni, dünya ÜDM-nin 37,3%-ni, qlobal ixracatın 25%-ni əhatə edir [17; 28]. Yeni üzvlərin qatılması bu təşkilatın coğrafi arealını genişləndirməklə, burada ticarətin və maliyyə nizamlamasının, xüsusilə enerji–neft-qaz sektorunda, həmçinin digər sahələrdə daha da güclənməsi, yeni təhlükəsizlik çətirinin formalaşması və Çinin təsir sferasının genişlənməsi deməkdir. Görünən odur ki, Rusiya-Ukrayna müharibəsi fonunda artan qlobal qütbləşmədə dünya dövlətləri öz tərəflərini seçməlidirlər və bir sıra dövlətlər Qərbin artan təsirini neytrallaşdırmaq üçün BRİCS-ə üzvlüyü seçirlər. Çin təşkilatın genişlənməsində maraqlıdır. Qərblə əməkdaşlıq imkanları olmayan (məsələn, sanksiya altında olan Rusiya və İran kimi) dövlətlər də, o cümlədən Qərblə manevr imkanlarını artırmaq istəyən (Hindistan kimi) dövlətlər də BRİCS-i özləri üçün faydalı platforma hesab edirlər. Çünki burada Qərbin təsis etdiyi ticari-maliyyə strukturlarına alternativlər təqdim olunur. Hətta BRİCS-in dolların maliyyə gücünü sonlandıracağı araşdırılır [22; 26]. Yeni təhlükəsizlik çətirləri dövlətlərin imkanlarını, o cümlədən sanksiyalardan yayınmaq imkanlarını artırır.

## 3. Azərbaycanın postmüharibə dövrü reallıqları

Azərbaycan ötən onillərdə həm Qərb, həm Şərq bloklarının maraqlarının kəsişdiyi, lakin toqquşmadığı əməkdaşlıq platforması yaratmağı bacarıb. Azərbaycanın hər iki blok üçün etibarlı tərəfdaş olduğunu hələ 44 günlük Vətən müharibəsindən əvvəl həyata keçirilən enerji, nəqliyyat-infrastruktur layihələri, həmçinin qlobal inisativlərin Bakıda baş tutması, məsələn, 2019-cu ilin noyabr ayında NATO-Rusiya rəsmilərinin Bakıdakı ikitərəfli görüşü sübut edir. Bu görüş regionun gələcək taleyinin məhz Azərbaycanda həll edildiyini nümayiş etdirir.

Maraqlıdır ki, Azərbaycan Respublikasının 2007-ci ildə qəbul edilən Milli Təhlükəsizlik Konsepsiyasında açıq şəkildə qeyd olunub ki, Azərbaycan özünü Avro-Atlantik, yəni Qərb təhlükəsizlik arxitekturasının ayrılmaz bir halqası olaraq görür. Lakin müstəqilliyin əldə olunmasından ötən illər ərzində Azərbaycanın Qərbə inteqrasiyası baş tutmadı. Buna bir sıra milli-daxili siyasi, o cümlədən xarici, regional amillər səbəb olmuşdusa, eyni zamanda burada Qərbin Azərbayana münasibətdə qərəzli mövqeyinin də rolu vurğulana bilər. Ermənistan isə indiyədək Qərbə əks olan qütbdə - KTMT-də mövcuddur. Ermənistan Baş naziri Paşinyanın de-fakto olaraq Ermənistanın KTMT-də üzvlüyünü 12 iyul 2023-cü il tarixində dondurduğunu elan etməsinə baxmayaraq, ölkə rəsmi olaraq təşkilatı tərk etməyib. Rusiya-Avropa arasındakı gərginlikdə Qərbyönümlü siyasət ilə özləri üçün fayda əldə etməyə, Qərbin bir sıra iqtisadi-siyasi, o cümlədən hərbi mexanizmlərindən (Avropa Sülh Mexanizmi) faydalanmağa çalışan Ermənistan [23] faktiki olaraq Rusiya ilə iqtisadi münasibətlərini nəinki qorumaqda davam edir, hətta ötən dövrdə bir neçə dəfə artırmışdır. Belə ki, Rusiya ilə Ermənistan arasında ticarət dövriyyəsi 2020-ci ildə cəmi 2,3 milyard dollar idisə, 2023-cü ildə bu rəqəm 7,3 milyard dollar olmuş, 2024-cü ilin sonunda isə 14-16 milyard dollar olacağı gözlənilir [40] ki, bu da ümumilikdə Ermənistanın Rusiyaya Qərb sanksiyalarından yayınmaqda dəstək göstərməsi kimi dəyərləndirilir. Lakin 2023-cü ilin noyabrında Avropa Parlamentində qəbul olunan “Rusiya əleyhinə sanksiyaların effektivliyi haqqında” qətnamədə [24] Azərbaycanın adı çəkilir, Azərbaycandan Avropaya ötürülən qazın Rusiyaya aid olması barədə qeyd yer alır. Halbuki, Rusiyanın sanksiyalardan yayınmasında real olaraq iştirak edən Ermənistanın adı bu qətnamədə çəkilmir. Bu isə, təbii olaraq, Azərbaycanda həm dövlət, həm də cəmiyyət səviyyəsində Avropa istitutlarının ölkəmizlə əlaqədar məsələlərə qərəzli yanaşması, ermənipərəst baxışı və ikitirəlilik olaraq qiymətləndirilir.

Avropa institutları və bir sıra dövlətlərinin Ermənistana xüsusilə II Qarabağ müharibəsindən sonra artan dəstəyi isə Azərbaycanın Qərb təsisatları ilə münasibətlərini yenidən dəyərləndirməsinə gətirib çıxarmışdır. Belə ki, bütün azərbaycanlılar üçün müqəddəs 44 günlük Vətən müharibəsindən, yəni 27 sentyabr – 9 noyabr 2020-ci il tarixlərini əhatə edən II Qarabağ müharibəsindən sonra Qərbin ciddi şəkildə Azərbaycana qarşı təşkilatlandığı, Azərbaycan əleyhinə siyasi və sanksiya çağırışları edildiyi, bütün bunların Avropa qanunverici orqanı olan Avropa Parlamenti çərçivəsində dəstəkləndiyi xatırlana bilər. Erməni iddiaları əsasında ATƏT-də (erməni hərbi əsirlərə dair 20 may 2021-ci il [37]), Avropa Parlamentində (Dağlıq Qarabağda mədəni irsin məhv olunmasına dair 10 mart 2022-ci il [25], Azərbaycanın hücumundan sonra Dağ-

lıq Qarabağda vəziyyət və Azərbaycanın Ermənistana qarşı təhdidlərinə dair 5 oktyabr 2023-cü il) və Avropa Şurasında (Ermənistan-Azərbaycan münasibətlərinə Avropa dövlətlərinin baxışına dair 18 oktyabr 2023-cü il [38]) qəbul edilən bəyanatlar, qətnamələr, edilən açıqlamaların hər birində Azərbaycan əleyhinə bir sıra məqamlar, qərəzli baxışlar və çağırışlar yer almaqdadır. Bu baxımdan Avropa Parlamentinin 5 oktyabr tarixli qətnaməsi xüsusi sərtliyi, Azərbaycana qarşı sanksiya çağırışını ifadə etməsi, Aİ ilə Azərbaycan arasında enerji-iqtisadi əlaqələrə yenidən baxılması tələbini irəli sürməsi ilə seçilir. Həmçinin, AŞPA-da Azərbaycan nümayəndə heyətinin fəaliyyətinin 1 yanvar 2024-cü ildən etibarən bir illik dondurulması, 2024-cü ilin may ayında Azərbaycanlı rəsmilərə qarşı (Maqnitski Aktı əsasında) sanksiya çağırışı edən Avropa Parlamenti nümayəndələrinin birgə bəyanatı, 2024-cü ilin sentyabrında konqresmen Adam Şiff tərəfindən ABŞ Konqresinə Azərbaycana sanksiya tətbiq olunmasına dair qanun layihəsinin təqdim olunması xatırlana bilər. Qeyd etmək lazımdır ki, bu sanksiya çağırışı ilk olaraq Erməni Amerikan Komitəsi tərəfindən ABŞ qanunverici sisteminin müzakirəsinə çıxarılmış, məhz qlobal erməni şəbəkəsinin dəstəyi ilə Avropa qanunverici sisteminin müzakirə platformasına daxil olmuşdur [18].

Bununla yanaşı, Azərbaycanın reinteqrasiya siyasətinə mühüm mənəvi zərbələrdən biri Avropa cəbhəsindən gəlməkdədir. Bir sıra Avropa dövlətləri və təşkilatları, xüsusilə Fransa Azərbaycanın sivil reinteqrasiya proqramını diskreditasiya edən, reinteqrasiya siyasətinə təsir edən bəyanatlar verir, Ermənistanın silahlandırılması ilə revanşist qüvvələrin mövqeyinin gücləndirilməsinə dəstək verirlər. Bu, Cənubi Qafqazda münaqişə ocağının sönməsinə qoymayan, gələcəkdə yenidən alovlandırılmasına hesablanan addım kimi Azərbaycan tərəfindən olduqca mənfi qarşılanmaqdadır.

Bütün bunlar siyasət aləmindən ictimai şüura nüfuz edərək Azərbaycan cəmiyyətində Qərbə və onun təmsilçisi olan Aİ-yə qarşı güvənsizlik və neqativ hislərin yaranmasına, "ermənipərəst Avropa" alqısının formalaşmasına səbəb olur. Halbuki, Azərbaycan ayrılıqda 10 Avropa ölkəsi ilə strateji əməkdaşlıq sazişinə malikdir və onların enerji təhlükəsizliyini təmin edir [1]. Lakin Avropanın bu siyasəti fonunda azərbaycanlıların şüurunda mövcud ümumavropa dəyərlərinin qiymətləndirilməsi aşağı düşür, ikili standartların mövcudluğu ilə bağlı ictimai düşüncə meydana çıxır. Bu, Sosial Tədqiqatlar Mərkəzi tərəfindən həyata keçirilən ictimai rəy sorğusunun nəticələrində də öz əksini tapmaqdadır.

Bütün bunlarla yanaşı, qeyd olunmalıdır ki, II Qarabağ müharibəsindəki qələbə və 2023-cü ildə suverenliyinin tam olaraq bərpa olunması Azərbaycanın qlobal məkanda mövqeyinin güclənməsini təmin etmişdir. Azərbaycan həm Şərq-Qərb, həm də Şimal-Cənub dəhlizləri ilə qlobal ticarət imkanlarına qapı açır. Həm ölkə ekspertləri, həm də xarici ekspertlər qeyd edirlər ki, məhz Qarabağdakı qələbə imkan verir ki, regional kommunikasiyalar açılsın və region qlobal keçid imkanları ilə çoxtərəfli əməkdaşlıq platformasına çevrilsin [35]. COP29 kimi qlobal iqlim sammitinin Azərbaycanda keçirilməsinə bütün dünya dövlətlərinin, o cümlədən Ermənistanın razılıq verməsi Azərbaycana olan qlobal etimadın göstəricisi olaraq qiymətləndirilir. Həmçinin Azərbaycanın 15 iyun 2021-ci il tarixindəTürkiyə ilə strateji əməkdaşlıq haqqında Şuşa bəyannaməsini, 2022-ci ilin 22 fevralında Rusiya ilə müttəfiqlik və qarşılıqlı fəaliy-

yəti haqqında Moskva bəyannaməsini, 2022-ci ilin 18 iyulunda Aİ ilə enerji strateji tərəfdaşlığı haqqında bəyannaməni, 2022-ci ilin martında İranla yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Bakıda imzalanmış anlaşma memorandumunu, 2024-cü ilin 3 iyulunda Çin ilə strateji tərəfdaşlığın qurulması haqqında birgə bəyannaməni xatırlatmaq olar. Bu bəyannamənin mətnində Azərbaycanın BRİCS-ə daxil olmaq arzusu ifadə olunur, 20 avqust 2024-cü il tarixində isə bu təşkilata üzvlük üçün rəsmi müraciət ünvanlanıb. Azərbaycan Avropa ilə gələcək enerji əməkdaşlığına davam etməklə yanaşı, siyasi olaraq qonşuları, həmçinin Çin ilə strateji münasibətlərin inkişafı istiqamətində irəliləməkdədir. Bu, gələcəkdə Azərbaycan milli təhlükəsizlik konsepsiyasına da yansıyacaq dərəcədə önəmli bir dəyişiklik olaraq dəyərləndirilə bilər.

## 4. Azərbaycan ictimai rəyində Avropa İttifaqı və Çinə münasibət

Azərbaycan ictimai rəyində Avropa İttifaqı və Çinə münasibəti öyrənmək məqsədilə Sosial Tədqiqatlar Mərkəzinin maddi-texniki dəstəyi ilə vətəndaşlar arasında rəy sorğusu keçirilib. Sorğuda Azərbaycan vətəndaşlarının əsas ictimai-siyasi məlumat mənbələrinin hansılar olduğu, onların Azərbaycanın xarici siyasətinin inkişaf istiqamətlərinə münasibətləri öyrənilib, həmçinin Avropa İttifaqı və Çinə münasibətləri müxtəlif iqtisadi-siyasi-mədəni faktorlar üzrə dəyərləndirilib. Tədqiqatın əhatə etdiyi məsələlər bir neçə əsas vektor üzrə qruplaşdırılaraq nəzərdən keçirilib:

- Azərbaycan vətəndaşlarının ictimai-siyasi məlumat mənbələri;
- Azərbaycanın xarici siyasətinin inkişaf istiqamətlərinə ictimai münasibət;
- Avropa İttifaqı və Çinə ictimai güvən və etibar səviyyəsinin müqayisəsi;
- Avropa İttifaqı və Çinin iqtisadi imkanlarının ictimai rəy əsaslı müqayisəsi.

### 4.1. Tədqiqatın metodologiyası

Tədqiqat kəmiyyət metodologiyası əsasında aparılıb. Seçmə çərçivəsi respondentlərin gender balansı, yaş bölgüsü və təhsil səviyyəsi rəsmi statistikaya uyğun olmaqla müəyyən edilib. Sorğularda yaşı 18 və yuxarı olan 412 respondent iştirak edib.

Sorğunun sahə işi (məlumatların toplanılması) 2024-cü ilin 22–27 iyul tarixləri arasında icra edilib. Məlumatların toplanılması üçün telefon sorğusu üsulundan istifadə olunub.

Sosioloji sorğu Bakı, Abşeron-Xızı, Dağlıq Şirvan, Gəncə-Daşkəsən, Qazax-Tovuz, Lənkəran-Astara, Quba-Xaçmaz, Şəki-Zaqatala, Qarabağ, Mərkəzi Aran, Mil-Muğan və Şirvan-Salyan iqtisadi rayonları olmaqla, ümumilikdə 12 iqtisadi-rayonu əhatə edib. Naxçıvan və Şərqi Zəngəzur iqtisadi rayonları sorğuda əhatə olunmayıb. Daha detallı təhlil məqsədilə qeyd etmək olar ki, sorğu 9 respublika tabeli şəhər, 51 rayon olmaqla, ümumilikdə 60 rayon və şəhəri əhatə edib.

Sorğu anketinə 8 sosial-demoqrafik olmaqla, ümumilikdə 19 sual daxil edilib. Sorğunun hər bir respondentlə orta davametmə müddəti 5 dəqiqə 48 saniyə təşkil edib.

Respondentlərin sayına əsasən nəticələrin xəta əmsalı 95% əminlik intervalında 5% təşkil edib.

Sorğu prosesinin gedişatında sahə işinə nəzarət olunub. Sorğunun nəticələri “SPSS” (Statistical Package for the Social Sciences) proqramı vasitəsilə təhlil edilib.

## 4.2. Respondentlərin məlumatları






## 4.3. Azərbaycan vətəndaşlarının ictimai-siyasi məlumat mənbələri

Azərbaycan vətəndaşlarının ictimai-siyasi mövzulara nə dərəcədə marağının olduğunu öyrənmək, həmçinin onların əsasən hansı təbliğat alətlərinin təsiri altında olduğunu müəyyən etmək üçün respondentlərə ictimai-siyasi xəbərləri əsasən hansı mənbələrdən izlədikləri soruşulub. Sorğu nəticələrinə əsasən respondentlərin cəmi 8,3%-i ictimai-siyasi xəbərləri izləmədiyini qeyd edib. Ölkədə vətəndaşların ictimai-siyasi məlumatları əsasən sosial şəbəkələr və televiziyadan əldə etdiyi məlum olub. Belə ki, respondentlərin 58,3%-i ictimai-siyasi məlumatları əsasən sosial şəbəkələrdən, 54,1%-i isə televiziyadan izlədiyini qeyd edib. İctimai-siyasi xəbərləri internet xəbər saytlarından izləyənlər ümumi respondentlərin 11,9%-ni, radiodan izləyənlər 1,5%-ni, dövlət qurumlarının rəsmi saytlarından izləyənlər 0,5%-ni təşkil edib. 1% respondent məlumatları ətrafdakı insanlardan aldığını, 3,9%-i “digər” cavab variantını qeyd edib.




Azərbaycanda əsas hansı xarici qüvvənin təbliğat imkanlarının güclü olduğunu müəyyən etmək üçün respondentlərə hansı ölkələrə aid mənbələrdən ictimai-siyasi məlumatları izlədiyi soruşulub. Sorğu nəticələrinə görə, böyük çoxluq, yəni 84,9% respondent ictimai-siyasi məlumatları yerli mənbələrdən əldə etdiyini bildirib. Bunun-la yanaşı, respondentlərin mühüm bir hissəsi, yəni 40,7%-i Türkiyəyə aid mənbələri izlədiyini qeyd edib. Rusiyanın informasiya mənbələrini izləyənlər 19%, Avropanın informasiya mənbələrini izləyənlər 11,6%, ABŞ-ın informasiya resurslarından məlu-mat əldə edənlər 6,6% təşkil edib. 3,7% respondent "digər" cavab variantını seçib, 0,3% isə cavab verməyə çətinlik çəkdiyini qeyd edib. Beləliklə, Azərbaycanda yerli və Türkiyə informasiya mənbələrinin daha populyar olduğu aydın olur.




### 4.4. Azərbaycanın xarici siyasətinin inkişaf istiqamətlərinə ictimai münasibət

Azərbaycanın hazırkı xarici siyasətinin əsas inkişaf istiqamətləri, yəni hansı döv-lətlərlə (o cümlədən beynəlxalq təşkilatlarla) əməkdaşlığa yönəldiyi ilə bağlı ictimai rəyi öyrənmək üçün respondentlərə ünvanlanan suala, onların yarısı, yəni 51,3%-i Türkiyə (Türk Dövlətləri Təşkilatı), 20,1%-i Rusiya (MDB və Avrasiya İqtisadi Birliyi), 15,9%-i Avropa (Avropa İttifaqı), 7,9%-i Çin (Şanxay Əməkdaşlıq Təşkilatı), 3,2%-i

ABŞ (NATO) cavabını verib. 25,4% respondent Azərbaycanın bütün tərəflərlə balanslı siyasət apardığını, 4,5%-i isə tərəfsiz xarici siyasət xəttinin (Qoşulmama Hərəkatı) üstün olduğunu qeyd edib. 4,2% respondent “digər”, 7,1%-i isə “cavab verməyə çətinlik çəkirəm” cavab variantlarını seçib.




### 4.5. Avropa İttifaqı və Çinə ictimai güvən və etibar səviyyəsinin müqayisəsi

Azərbaycanlılar üçün Avropa İttifaqı və Çinin nə ifadə etdiyini müəyyən etmək üçün vətəndaşlara bir neçə sual ünvanlanıb.

Respondentlərin 52,7%-i Çini dost, 38%-i qeyri-dost adlandırıb, 9,3%-i bu suala cavab verməyə çətinlik çəkib. Avropa İttifaqını dost hesab edənlər isə daha az, 36,1%-dir. Respondentlərin 53,9%-i Aİ-nin Azərbaycana münasibətdə qeyri-dost davranışlarının olduğunu bildirib, 10%-i isə bu suala cavab verməyə çətinlik çəkib.

İctimai rəydə Aİ və Çin kimi iki əhəmiyyətli gücdən hansının ölkəmiz üçün daha vacib olduğunu müəyyən etmək üçün respondentlərə ünvanlanan suala onların 65,1%-i Çini ölkəmiz üçün vacib, 27,8%-i vacib olmayan hesab etdiyini bildirib, 7,1%-i bu suala cavab verməyə çətinlik çəkib. Aİ-yə münasibətdə isə respondentlərin 65,4%-i onu ölkəmiz üçün vacib, 28%-i vacib olmayan hesab edib, 6,6% respondent bu suala cavab verməyə çətinlik çəkib. Demək olar ki, həm Aİ, həm də Çin Azərbaycan ictimai rəyində eyni dərəcədə əsasən vacib aktor kimi dəyərləndirilir.

Ölkəmizə münasibətdə bu iki gücdən hansının daha ədalətli mövqe sərgilədiyinə dair ictimai münasibəti öyrənmək üçün ünvanlanan suala əsasən, respondentlərin 55,1%-i Çini ölkəmizə münasibətdə ədalətli, 22,9%-i qərəzli hesab edib, 22% respondent bu suala cavab verməyə çətinlik çəkdiyini bildirib. Aİ-nin ölkəmizə münasibətdə qərəzli olduğunu düşünənlər isə daha çoxdur. Belə ki, respondentlərin cəmi 31%-i Aİ-nin ölkəmizə münasibətdə ədalətli olduğunu düşünür. 56,1%-i isə Aİ-nin ölkəmizə münasibətdə qərəzli olduğunu qeyd edib, 12,9% respondent bu suala ca-

vab verməyə çətinlik çəkib.

Respondentlərin 48,5%-i Çini güvənilən ölkə hesab edərkən, Aİ-ni güvənilən hesab edənlər daha az, 34,9%-dir. Halbuki, Çini güvənilməz hesab edən 38% respondent olduğu halda, Aİ-ni güvənilməz hesab edənlər 55,9% təşkil edib.

Beləliklə, biz Azərbaycan ictimai rəyində həm Aİ, həm də Çinin ölkəmiz üçün vacib olduğunu, lakin bununla yanaşı, Çin ilə müqayisədə Aİ-yə güvənin aşağı olduğunu, Aİ-nin ölkəmizə münasibətdə qərəzli mövqeyinin olduğu barədə ictimai rəyin mövcud olduğu qeyd olunub və bu münasibət daha çox respondent tərəfindən "qeyri-dost" davranış olaraq alqılanıb.




## 4.6.Avropa İttifaqı və Çinin iqtisadi imkanlarının ictimai rəy əsaslı müqayisəsi

Azərbaycanın Aİ ilə dərin strateji iqtisadi və enerji münasibətləri, Çin ilə isə artan iqtisadi və strateji-kommunikasiya əlaqələri mövcuddur Bu. qlobal güclərin hər ikisi ilə münasibətlərin inkişafı Azərbaycanın iqtisadi siyasəti baxımından mühüm əhəmiyyət daşıyır. Aİ və Çinin iqtisadi imkanlarının ölkəmiz açısından dəyərləndirilməsi və müqayisəli təhlilin aparılması üçün respondentlərə bir neçə sual ünvanlanıb.

Respondentlərin 65,9%-i Çini qlobal iqtisadi imkanları olan, 19,8%-i isə məhdud iqtisadi imkanları olan güc kimi qeyd edib, 14,4%-i bu suala cavab verməyə çətinlik çəkdiyini bildirib. Avropa İttifaqının iqtisadi imkanlarını dəyərləndirərkən isə respondentlərin 53,2%-i "qlobal imkanları olan", 31,2%-i "məhdud imkanları olan" güc kimi xarakterizə edib, 15,6% respondent bu suala cavab verməyə çətinlik çəkib.

Beləliklə, biz Azərbaycan ictimai rəyində Çinin qlobal iqtisadi imkanlarının daha çox olduğu ilə bağlı düşüncənin olduğunu müşahidə edirik.

Respondentlərin 74,4%-i Çini "yenilikçi", 19,8%-i "təkrarçı" olaraq xarakterizə edib, 5,9%-i bu suala cavab verməyə çətinlik çəkib. Halbuki, Aİ-ni yenilikçi hesab edənlər Çin ilə müqayisədə daha az, yəni 53,2%, təkrarçı hesab edənlər isə Çin ilə müqayisədə daha çox, yəni 32% olub. 14,9% respondent bu suala cavab verməyə çətinlik çəkib.

Respondentlərin 70%-i Çini yüksək inkişaf etmiş texnologiya, 25,1%-i keyfiyyətsiz texnologiya sahibi olduğunu düşündüyünü qeyd edib, 4,9% respondent bu suala cavab verməyə çətinlik çəkib. Lakin respondentlərin cavablarının təhlili göstərir ki,

azərbaycanlılar arasında Aİ-nin texnoloji üstünlüyü ilə bağlı vahid mövqe mövcuddur. Belə ki, respondentlərin 79,5%-i, yəni Çin ilə müqayisədə daha çox hissəsi, Aİ-nin yüksək inkişaf etmiş texnologiyaya sahib olduğunu düşünür, 12,7%-i isə Aİ-ni keyfiyyətsiz texnologiya ilə assosiasiya edib. 7,8% bu suala cavab verməyə çətinlik çəkib.

Bununla yanaşı, qeyd etmək olar ki, Çin azərbaycanlıların ictimai düşüncəsində ənənəvi olaraq "ucuz məhsul", Avropa isə "bahalı məhsul" ilə xarakterizə olunur ki, bu, keçirilən ictimai rəy sorğusunun nəticələrinə də yansıyıb. Belə ki, respondentlərin 80,7%-i Çini "ucuz məhsul", 12,4%-i "bahalı məhsul" ilə assosiasiya edib, 6,8% respondent bu suala cavab verməyə çətinlik çəkib. Lakin Aİ-yə münasibətdə bunun tam tərsi müşahidə olunur. Belə ki, respondentlərin 87,6%-i Aİ-ni "bahalı məhsul", 5,6%-i "ucuz məhsul" ilə assosiasiya edib, 6,8% respoondent isə bu suala cavab verməyə çətinlik çəkib.




## NƏTİCƏ

Milli kimlik və cəmiyyətin siyasi düşüncəsinin formalaşması beynəlxalq münasibətlərdə nəzəri tədqiqatların əsas predmetlərindən biri kimi öz əhəmiyyətini və dinamizmini qorumaqdadır. Milli kimlik və siyasi düşüncə cəmiyyətlərin içərisindən keçdiyi tarixi-siyasi proseslər, sahib olduğu milli-mənəvi dəyərlər, o cümlədən qloballaşma və kənar təsirlər, xüsusilə müxtəlif müstəvilərdə aparılan, müasir informasiya-kommunikasiya texnologiya alətlərinin tətbiqi ilə daha da geniş və sürətli şəkildə yayılan ideoloji-təbliğat işləri fonunda şəkillənməkdədir.

Bu tədqiqat işində Azərbaycan cəmiyyətində siyasi düşüncənin formalaşma prosesinin keçdiyi tarixi-siyasi yola qısa nəzər yetirilərək, xüsusilə 44 günlük Vətən müharibəsi nəticəsində baş verən milli, territorial, mənəvi bütövləşmə və bunun simvoluna çevrilən 20 sentyabr – Dövlət Suverenliyi Gününün siyasi əhəmiyyəti əsas bazis kimi təqdim edilmişdir. Bu tarixi bütövləşməyə əks-mövqe sərgilədiyi üçün Azərbaycanın Avro-Atlantik strukturlarla münasibətlərində 2020-ci ildən bəri yaşanan gərginliyin azərbaycanlıların siyasi düşüncəsinə təsiri, ictimai rəyə hansı formada yansıması tədqiqat

çərçivəsində araşdırılmışdır. Xüsusilə son illərdə yenidən qütbləşmə meyillərinin artması fonunda Azərbaycanın xarici siyasət şəkilləndirməsi təhlil edilmişdir. Bu məqsədlə həm qlobal müstəvidə baş verən siyasi proseslər izlənilmiş, həm də bu fonda Azərbaycan vətəndaşları arasında keçirilən ictimai rəy sorğusunun nəticələri müqayisəli təhlil olunmuşdur.

Keçirilən ictimai rəy sorğusunun nəticələrindən də göründüyü kimi, Qərb institutları, xüsusilə Avropa Şurası, Avropa Parlamenti, AŞPA, ATƏT və s. bu kimi qurumların 44 günlük Vətən müharibəsindən sonra Azərbaycana qarşı sərgilədiyi mövqe, anti-Azərbaycan qətnamə, bəyanat və açıqlamalar Azərbaycan cəmiyyətində kollektiv Qərbi simvolizə edən ümumi obraz olaraq Aİ-yə qarşı güvənsizlik duyğusunun artması, Aİ-nin ölkəmizə qarşı qərəzli olmasına dair ictimai rəyin formalaşması ilə nəticələnmişdir. Bu isə Azərbaycanın 2020-ci ildən sonrakı dövrdə Çinlə yeni strateji münasibətlər qurmasına, xüsusilə iqtisadi olaraq Çinlə əməkdaşlığın faydalı olması barədə ictimai rəy də nəzərə alınaraq, 2020-ci illərdə yenidən qütbləşmə meyilləri sərgiləyən dünyada ölkənin Şərq blokuna yaxınlaşmasında özünü büruzə verməkdədir. Bununla yanaşı, qeyd olunmalıdır ki, Azərbaycanın Vətən müharibəsindən sonrakı siyasəti onun beynəlxalq nüfuzunu artırmaqla yanaşı, Şərq və Qərb arasında strateji keçid, bağlayıcı ölkə olaraq əhəmiyyətini artıracağı gözləntiləri doğurmaqdadır. Həmçinin 2007-ci ildə Azərbaycanın milli təhlükəsizlik konsepsiyasında yer alan Avro-Atlantik strukturlarla bağlı qeydin gələcəkdə redaktə olunacağı ehtimal edilə bilər. Artıq Azərbaycan milli sənədlərində özünü Avro-Atlantik təhlükəsizlik arxitekturasının ayrılmaz bir halqası olaraq deyil, Şərq və Qərb blokları arasında, yəni ŞƏT və Aİ arasında etibarlı bir körpü olaraq təqdim edə bilər. ŞƏT-ə üzvlük Azərbaycanın tamamilə Çin yönümlü siyasi reorioentasiyası sayıla biləcəyinə görə gözlənilmir. Lakin Şərq blokunun gedərək daha çox iqtisadi imkanlar təklif edən BRİCS adlı təşkilatına üzvlük həm Azərbaycan, həm də qardaş ölkə olan Türkiyə üçün yaxın gələcəkdə mümkün görünür. Beləcə Şərq blokunun iqtisadi əməkdaşlıq platformasına üzv olmaqla Azərbaycan və Türkiyə Avropa və Asiya arasında artan qlobal ticarətdə körpü olmağı, balanslı siyasət imkanlarını daha da artırmağı hədəfləyir. Bu, Türkiyənin Qərb blokundan (NATO-dan) ayrılacağı, yaxud Azərbaycanın Qərblə enerji əməkdaşlığını sonlandıracağı anlamına gəlmir. Bu əməkdaşlıq tərəflər üçün qazan-qazan (win-win) durumu yarada, siyasi-iqtisadi imkanlarını daha da inkişaf etdirə, ölkə prestijini və xarici siyasət effektivliyini artıra bilər. Türkiyə və Azərbaycan qardaşlığı və əməkdaşlığının bütün sahələrdə olduğu kimi bu məsələdə də ortaq çalışmalarla davam edəcəyi gözlənilir. Həmçinin xüsusilə qeyd olunmalıdır ki, Azərbaycan Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin əsas kəsişmə nöqtəsidir. Bu baxımdan olduqca strateji bir mövqeyə sahib olan Azərbaycanın Şərq və Qərb arasında strateji keçid ölkə olaraq əhəmiyyətini artıracağı gözləntilər arasındadır.

Nəticə olaraq qeyd etmək lazımdır ki, cəmiyyətin siyasi düşüncəsini və bu düşüncə əsasında ictimai rəyi formalaşdırmaq üçün ideoloji təbliğat alətlərindən istifadə olunması mühüm nəticələr verməkdədir. Məsələn, Avropanın vahid bir orqanizm halına gəlməsində ideoloji təbliğat nə qədər önəmli rol oynamışdırsa, eləcə də azərbaycanlıların milli-siyasi düşüncəsinin fərqli şəkillədirilməsində təbliğat alətlərinin eyni dərəcədə rol oynadığı söylənə bilər. Son olaraq, dövlətlərin siyasi oriyentasiyası onları formalaşdıran toplumun mədəni-siyasi və ideoloji istiqamətləndirilməsini şərtləndirir. Burada həm də sistem təsirləri mühüm rol oynayır.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

**Azərbaycan dilində:**

1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Beynəlxalq Çernobbio Forumunda "Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu" adlı sessiyada çıxış edib. /06 sentyabr 2024/ - https://president.az/az/articles/view/66804

2. Əhmədli, R. (2007). Azərbaycan milli-demokratik dövlətçilik məfkurəsi: türkçülük, müasirlik, islamçılıq. Bakı: Elm

3. Əhmodov, B. (2016). Türkləşmək, müasirləşmək, islamlaşmaq üçlü düsturu kimindir?. - https://turan.info.az/edebiyyat/edebiyyatshunasliq/670-trklmk-masirlmk-islamlamaq-l-dsturu-kimindir-iii-mqal.html

4. Cəlilzadə, Ş. (2024). Bakı Peterburqda mövqeyini qətiləşdirdi – niyə BRİCS?. - https://musavat.com/news/baki-peterburqda-movqeyini-qetilesdirdi-niye-brics-niye-indi_1085625.html

5. Ömərov, V. (2012). M.F. Axundzadənin əsərlərində azərbaycançılıq ideyaları. // "Səs" qəzeti, s. 13. - https://www.anl.az/down/meqale/ses/2012/mart/238090.htm

6. STM, "Azərbaycan cəmiyyəti hansı ölkələrə yaxınlıq hiss edir? – İctimai rəy sorğusu", https://stm.az/az/news/1176/azerbaycan-cemiyyeti-hansi-olkelere-yaxinliq-hiss-edir-ictimai-rey-sorgusu

**Türk dilində:**

7. Cafersoy, N. (2002). "Rus jeopolitik düşüncesinde misyon arayışları", // Avrasya Dosyası, S. 8(4), ss. 51-101.

8. Doğan, A. və Batar, H. (2019). "Siyasal kimlik, hayat tarzı ve siyasal tercih: Malatya seçmeni üzerine bir araştırma", // Selçuk Üniversitesi Sosyal Bilimler Meslek Yüksekokulu Dergisi, S. 22(2), s. 932

9. Doğanay, H. (2011). "Türk Dünyasının Siyasi Sınırları, // Doğu Coğrafya Dergisi, S. 1(1), s. 25

10. Dursun, D. vd. (2018). Siyaset Bilimi, TC Anadolu Üniversitesi Yayını, Eskişehir, s. 93

11. Ersöz, E. və Uslu, D. (2005). "Doğu-Batı karşılaşmasında çatışmaz, karmaşa ve muhtemel bir uzlaşma", // Tiyatro Eleştirmenliği Ve Dramaturji Bölümü Dergisi, S. 7, s. 67-86.

12. Eyidiker, U. (2019). "Siyasal davranış: siyasal katılıma giden yol", // Journal of Social, Humanities and Administrative Sciences, S. 5(18), ss. 704-719.

13. Landau, J. (1999). Pantürkizm, (tər. Mesut Akın), İstanbul, Gündüz Basım Yayım.

14. Parlar, S. (2005). Osmanlı`dan günümüze gizli devlet, İstanbul, Mephisto Basım.

15. Tamer, M. (2014). "Kimliklerin seyrine bir keşif", Folklor Edebiyat, S.20(77), s. 83

16. Tekiner, U. (2020). "The European (Union) Identity: an overview", E-International Relations, https://www.e-ir.info/2020/04/15/the-european-union-identity-an-overview/

**İngilis dilində:**

17. Afota, A. vd. (2024). "Expansion of BRICS: what are the potential consequences for the global economy?", https://www.banque-france.fr/en/publications-and-statistics/publications/expansion-brics-what-are-potential-consequences-global-economy

18. ANCA Policy Memo: Azerbaijan Sanctions Review Act of 2024 (H.R.8141)

https://anca.org/sanctionsbrief/

19. Berenskoetter, F. (2010), "Identity in international relations", The International Studies Encyclopedia, C 6, Wiley-Blackwell, London s. 3595

20. Congressional Research Service (2024). "NATO enlargement to Sweden and Finland", report https://crsreports.congress.gov/product/pdf/IN/IN11949

21. Cordesman, A. (2023). "China`s emergence as a superpower", CSIS report, https://www.csis.org/analysis/chinas-emergence-superpower

22. Dyer, P. (2024). "Can BRICS Really Drop the Dollar?" https://mecouncil.org/blog_posts/can-brics-really-drop-the-dollar/

23. EU Council, (2024). "European Peace Facility: Council adopts the first ever assistance measure in support of the Armenian Armed Forces", https://www.consilium.europa.eu/en/press/press-releases/2024/07/22/european-peace-facility-council-adopts-the-first-ever-assistance-measure-in-support-of-the-armenian-armed-forces/

24. European Parliament resolution of 9 November 2023 on the effectiveness of the EU sanctions on Russia, https://www.europarl.europa.eu/doceo/document/TA-9-2023-0397_EN.html

25. European Parliament resolution of 10 March 2022 on the destruction of cultural heritage in Nagorno-Karabakh (2022/2582(RSP)) https://www.europarl.europa.eu/doceo/document/TA-9-2022-0080_EN.html

26. Greene, R. (2023). "The Difficult Realities of the BRICS' Dedollarization Efforts", https://carnegieendowment.org/research/2023/12/the-difficult-realities-of-the-brics-dedollarization-effortsand-the-renminbis-role?lang=en

27. Heath, T. vd. (2022). "The Return of Great Power War: scenarios of systemic conflict between the United States and China", research report of RAND Corporation. https://www.rand.org/content/dam/rand/pubs/research_reports/RRA800/RRA830-1/RAND_RRA830-1.pdf

28. Jütten, M. (2024). "Expansion of BRICS: A quest for greater global influence?", Briefing of European Parliament, https://www.europarl.europa.eu/RegData/etudes/BRIE/2024/760368/EPRS_BRI(2024)760368_EN.pdf

29. McMahon, R. (2003). Cold War: A very short introduction, Oxford, Oxford University Press.

30. Pagden, A. (2002). "Europe: Conceptualizing a Continent", Cambridge University Press, UK.

31. Pettyjohn, S. (2022). "War with China: five scenarios", Global Politics and Strategy, S. 64(1).

32. Sonboli, N. (2024). "BRICS as an alternative rule maker in global governance", https://valdaiclub.com/a/highlights/brics-as-an-alternative-rule-maker-in-global-world/

33. Statista, "Dünyada ən yüksək hərbi xərcləri olan dövlətlər", https://www.statista.com/statistics/262742/countries-with-the-highest-military-spending/#:~:text=The%20United%20States%20led%20the,dollars%20dedicated%20to%20the%20military

34. Ting, H. (2008). "Social Construction of Nation – A theoretical Exploration", Nationalism and Ethnoc Politics, S. 14, ss. 453-482

35. Wall, de T. (2021). "In the South Caucasus, can new trade routes help overcome a geography of conflict?", https://carnegie-production-assets.s3.amazonaws.com/static/files/de_Waal_South_Caucasus_Connectivity.pdf

36. Zehfuss, M. (2001). "Constructivism and identity: a dangerous liaison", European Journal of International Relations, S. 7(3), ss. 315-348

37. 1314th Plenary Meeting of the Permanent Council https://www.osce.org/permanent-council/488347

38. 1478th meeting of the Committee of Ministers on 18 October 2023 EU statement on Armenia/Azerbaijan https://www.eeas.europa.eu/delegations/council-europe/1478th-meeting-committee-ministers-18-october-2023-eu-statement-armeniaazerbaijan_en?s=51

**Rus dilində:**

39. Морозов В.Е. (2006). Понятие государственной идентичности в современном теоретическом дискурсе. -https://www.perspektivy.info/print.php?ID=36014

40. Рабочий визит Алексея Оверчука в Республику Армения. /13 сентября 2024/ - http://government.ru/news/52691/

**Shahla Jalilzadeh**

## Azerbaijani Public Opinion on European Union and China

### Abstract

Globalization is often seen as a force that blends the identities of individuals and societies into a more global identity by exerting dominant ideological influences on their cultural and socio-political perspectives. However, in the present day, the sense of identity held by individuals, social groups, states, and organizations plays a more crucial role in international relations than ever before.

This article examines the natural and external factors that shape national identity and influence the formation of political thought within society, particularly in Azerbaijan. It explores the re-polarization tendencies between the Eastern bloc, led by Russia and China, and the Western bloc, led by the US and the EU, following the collapse of the bipolar world order in 1991. The article also analyzes Azerbaijan's policy positioning between these blocs after the 2020 Patriotic War (Second Karabakh War). Furthermore, it investigates the factors influencing Azerbaijanis' attitudes towards the EU and China, based on a public opinion poll, and how these factors shape their political thinking.

**Keywords:** national identity, political thought, political polarization, EU, China, Azerbaijan

**Шахла Джалилзаде**

**Общественное мнение о ЕС и Китае в Азербайджане**


## Резюме

Глобализация направлена на формирование более широкой идентичности, оказывая значительное влияние на культурные, социальные и политические взгляды людей и обществ. Тем не менее, в современном мире чувство национальной и социальной идентичности — как на уровне отдельных личностей, так и на уровне государств и организаций — играет более значимую роль в международных отношениях, чем когда-либо прежде.

В статье анализируются внутренние и внешние факторы, определяющие национальную идентичность и влияющие на формирование политических взглядов общества, в частности в Азербайджане. Рассматриваются изменения, произошедшие после завершения биполярного миропорядка в 1991 году, процесс реполяризации между Восточным блоком (во главе с Россией и Китаем) и Западным блоком (во главе с США и ЕС). Также исследуется формирование внешнеполитического курса Азербайджана в условиях конкуренции этих сил после Отечественной войны 2020 года.


**Ключевые слова:** национальная идентичность, политическая мысль, поляризация, ЕС, Китай, Азербайджан

# ƏHALİNİN "MÜTƏRƏDDİD" MİQRASİYASININ NƏZƏRİ ASPEKTLƏRİ

**Aqil ƏHMƏDOV**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun*
*Azərbaycanın beynəlxalq əlaqələr tarixi şöbəsinin*
*aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent*
*(Bakı, Azərbaycan)*

*E-mail: agilahma@gmail.com*
*ORCİD: 0000-0002-9212-5147*

**Xülasə.** Dövlətlərin daxili və xarici siyasətində, milli təhlükəsizliyinin qorunmasında miqrasiya kimi həssas və qlobal proseslər mühüm rol oynayır. Bu baxımdan, məqalə müasir beynəlxalq münasibətlər tarixində zəif öyrənilən, əhalinin "mütərəddid", yaxud "rəqqas formalı" miqrasiyasının nəzəri aspektlərinə və praktik əhəmiyyətinə həsr olunmuşdur. Bu məqsədlə yerli və xarici mütəxəssislərin əsərlərinə müraciət olunaraq, faktoloji materiallar əsasında qeyd olunan miqrasiya növünün ümumi mənzərəsi təhlil edilmişdir. Elmi tədqiqat işində miqrantların yaxın məntəqələr arasında müntəzəm hərəkətliliyi və şəhər aqlomerasiyasında, eləcə də qəsəbə və kəndlərdə proseslərin davam etdiyi göstərilmişdir. Mövcud sahədə regional və beynəlxalq təcrübənin öyrənilməsi, tətbiq olunmasının əhəmiyyəti, sosial-iqtisadi faydaları geniş şərh olunmuşdur. Xüsusilə inkişaf etmiş bəzi Qərbi Avropa dövlətlərinin adları çəkilərək, onların "rəqqas formalı" miqrasiya sahəsində əldə etdikləri uğurlara diqqət yetirilmişdir. Tədqiq olunan miqrasiya forması ilə yanaşı, digər 12 miqrasiya növünün adları qeyd olunaraq araşdırmada elmi-nəzəri əhəmiyyəti əsaslandırılmışdır. Həmçinin, Azərbaycan Respublikasının miqrasiya siyasəti sahəsində qazandığı mütərəqqi təcrübəyə də toxunulmuşdur.

**Açar sözlər:** miqrasiya, tarix, regional, beynəlxalq, miqrant, dövlətlər, sosial, siyasət

## Giriş

Mühacirət, digər adı ilə miqrasiyalar XXI əsr insanının həyatında mühüm rol oynayan hərəkətlilik kimi populyarlığını artırmağa davam edir. Bu baxımdan, beynəlxalq və regional olmaqla, qloballaşan dünyada miqrasiyanın nəzəri aspektləri və praktik (sosial-iqtisadi) əhəmiyyəti aktual olaraq qalır. Bir sıra forma və növləri tədqiqatçılar tərəfindən araşdırılan bu prosesdə məcazi mənada işlənən "mütərəddid", digər adı ilə "rəqqas formalı" miqrasiya insanların müntəzəm qarşılaşdığı və sıxlıqla müşahidə olunan hərəkətlilik kimi diqqət çəkir.

Ərəb dilində "tərəddüd edən" mənasında işlədilən "mütərəddid" miqrasiya və bu prosesdə iştirak edən miqrantların müntəzəm hərəkətliliyi sanki yekdil qərar verəməkdə çətinlik çəkən şəxs kimi gedib yenidən geri qayıdana bənzədilir. İngilis dilində "pendulum migration", rus dilində isə "маятниковая миграция" adlanır və eyni kontekstdə istifadə olunur. Burada söhbət yaxın məntəqələr arasında, hər gün miqrantların evdən çıxıb işə getməsi və geri qayıtması, nəticə etibarilə bunun intensiv xarakter almasından gedir. Yəni daimi gediş və qayıdış "tərəddüd edənlə" yanaşı, həmçinin "rəqs edən" insana da bənzədilmişdir.

Miqrasiyanın mövcud növü müasir beynəlxalq münasibətlər tarixində, eləcə də regional və dövlətdaxili sosial-iqtisadi, siyasi proseslərdə zəif tədqiq olunan istiqamətlərdən biri olub, müasir insanın həyatında az əhəmiyyət daşımır. Qeyd edilən miqrasiya növünə yaxın olan digər formalar – "qərarsız", "get-gəl", "kəfkirli" miqrasiyalar da eyni mahiyyət kəsb edir, gündəlik gediş-gəlişlərlə müşahidə olunur. Göründüyü kimi, göstərilən terminlər "mütərddid", yəni "rəqqas formalı" miqrasiyanın qeyd olunan sinonimlərini əhatə edir. Burada "kəfkirli" saat kəfkirinə bənzədilir və davamlı hərəkətdədir, gündəlik işə gediş və geri dönüşü simvolizə edir. Ümumilikdə "mütərəddid" miqrasiya növü sərhədlər arasında da baş verməkdədir. Hər gün işə gediş və qayıdış uzunmüddətli olsa da, bəzi hallarda həftəlik də baş verə bilər.

Hər gün yenilənən, innovativ xarakter daşıyan qlobal prosesdə qeyd olunan miqrasiya növü bununla məhdudlaşmır. Həmçinin, miqrasiya proseslərində regional və beynəlxalq hərəkətlilik müşahidə edilir. Bu hərəkətlilik və sıxlığı tədqiq etmək, ölçmək üçün digər miqrasiya formalarını da nəzərdən keçirmək tədqiqat işinin elmi-nəzəri, eləcə də praktik əhəmiyyətinin dəyərləndirilməsində faydalı ola bilər.

Bu məqsədlə miqrasiya növlərinin aşağıdakı kimi sistemləşdirilməsi geniş yayılmışdır:

- daxili;
- xarici;
- biristiqamətli (geri dönməyi nəzərdə tutmayan);
- daimi yaşayış yerinə emiqrasiya;
- müvəqqəti (qayıdışı nəzərdə tutan);
- uzunmüddətli (6 aydan çox müddətdə davam edən);
- mövsümi;
- köçərilik və ziyarət məqsədli;
- epizodik;
- tranzit (sərhədyanı);
- məcburi (obyektdən asılı olmayan səbəblərdən baş verən miqrasiya);
- əks istiqamətli, dönüş məqsədli miqrasiya (özünün və ya dövlətin təşəbbüsü ilə dönüşü nəzərdə tutan miqrasiya növü) [2, s. 14-15].

Dünyanın dörd bir tərəfində müşahidə edilən miqrasiya müasir dövrdə miqyasını genişləndirmiş, nəzəri və praktik aspektlərinin öyrənilməsi onun növlərinin meydana çıxmasını şərtləndirmişdir. Yuxarıda sadalanan miqrasiya növləri tədqiqat obyektinə çevrilən hazırkı mövzu kimi, praktikada geniş yayılmış və əmək miqrasiyasına qoşulmuş miqrantların

bütün hallarda proseslərdə uzun və qısamüddətli yaxından iştirakı, daimi gediş və qayıdışı nəzərdə tutan "mütərəddid", "rəqqas formalı" miqrasiyanın baş verdiyini təsdiq edir. Haqqında tədqiqat apardığımız miqrasiyanın dövlətlərin daxili siyasətində daha çox rast gəlindiyini göstərməklə, sosial-iqtisadi və milli təhlükəsizlik kimi məsələlər də mövcud şəraitdə elmi diskussiyaya yol açır. Miqrasiyaların çeşidliliyi onların xarakterini üzə çıxarır və nisbətən böyük şəhərlərdə və ya qəsəbələrdə fərqli təzahür etdiyini əks etdirir.

Mövzu ilə bağlı tarixi, sosioloji, siyasi, iqtisadi, hüquqi araşdırmalara XX əsrin ortalarından daha çox müraciət olunmağa başlanılmış, əsasən sovet dövründə məsələyə elmi-nəzəri yanaşma tələb edən tədqiqatlar yerinə yetirilmişdir. Tədqiqatın tarixşünaslığına nəzər salaraq, mövzuya yaxın araşdırma aparan alimlərin gəldikləri qənaətlər və elmi nəticələr "mütərəddid", "rəqqas formalı" miqrasiya proseslərinin göstərilən nəzəri aspektlərinin və praktik əhəmiyyətinin aydınlaşması baxımından mühüm rola malikdir.

"Mütərəddid" əhali miqrasiyasının öyrənilməsinə həsr olunmuş ilk əsərlər sovet dövründə 1960-cı illərin ikinci yarısı, 1970-ci illərin əvvəllərində ortaya çıxmışdır. Beləliklə, "mütərəddid" miqrasiyanın iqtisadi və demoqrafik aspektləri A.G. Vişnevski, M.V.Kurman, V.N.Lixoded, İ.M.Taborisskayanın əsərlərində öz əksini tapmışdır. Nəqliyyat və məskunlaşmanın qarşılıqlı təsirindəki rolu G.A.Goltz və İ.G.Hasdan tərəfindən göstərilmişdir. "Mütərəddid", yaxud "rəqqas formalı" miqrasiyanın coğrafi aspektləri, keçmiş SSRİ-nin şəhər məskunlaşma sisteminin formalaşması prosesləri B.S.Xorev və A.X.Markso tərəfindən araşdırılmışdır [25, s.57]. Göründüyü kimi, yaxın tarixdə mövzu ilə bağlı yerinə yetirilən tədqiqatlar yaşadığımız müasir dövrdə də aktuallığını qorumuş, mövcud sahəyə maraq azalmamışdır. Burada azərbaycanlı alimlərdən M.Sərdarov, F.Abdullayev, E.Nəsibov, A.Aslanova, türk tədqiqatçılardan S.Çağlayan, E.Dağaşan, K.Kolbaşı, eləcə də ingilisdilli gənc tədqiqatçılardan H. Haas, Y.Voloshyna və digərlərinin əsərlərində "mütərəddid", "rəqqas formalı" miqrasiya ilə bağlı qeydlərə rast gəlinir.

Aparılan tədqiqatlarda coğrafi, iqtisadi, demoqrafik, şəhər məskunlaşması və nəqliyyat aspektləri əsas alınmışdır. Sovet məkanında, ardınca postsovet və Müstəqil Dövlətlər Birliyi dövründə, həmçinin regional və beynəlxlaq səviyyədə "mütərəddid" miqrasiya istiqamətində aparılan tədqiqatlar mövcud miqrasiya növü ilə bağlı yeni məlumatların və tədqiqatların yaranmasına müsbət təsir göstərir. Tarixi, sosial-iqtisadi və demoqrafik aspektlərin öyrənilməsi bizə imkan verir ki, "mütərəddid" miqrasiya daha yaxşı anlaşılsın, mövcud kontekstdə müxtəlif sahələri tədqiq edən alimlərin fikirlərinin elmi diskussiya üçün faydalı olması müəyyən edilsin.

## 1. "Mütərəddid" miqrasiyanın məntəqələrarası hərəkətliliyi

### 1.1 Problemlər və təhlil

"Mütərəddid" miqrasiyanın məntəqələrarası hərəkətliliyinin və ya gediş-gəlişlər zamanı əhali sıxlığının ölçülməsi müntəzəm baş verən prosesdə yarana biləcək problemlərin, həmçinin mövzu ilə bağlı digər məsələlərin təhlilinin vacib olduğunu göstərir. Burada nəzəri aspektlər və praktik əhəmiyyətin şəhər, qəsəbə, kənd, yaxud sərhədlərarası hərəkətlilikdə fərqli şəkildə təzahür etdiyi məlum olur. Belə olduğu təqdirdə, miqrasiya proseslərində demoqrafik faktor, yəni əhalinin say tərkibinin nəzərə alınması tədqiqata işıq tutur.

Miqrasiya demoqrafik inkişafın ən vacib amilidir. Müasir dünyada kəmiyyət və

keyfiyyət parametrlərində, habelə miqrasiya axınlarının istiqamətindəki vektorlarda dəyişikliklər, onların yeni növlərinin meydana çıxması (elmi kadrların, korporativ menecerlərin miqrasiyası) müşahidə olunur [22, s.206]. Demoqrafiya və miqrasiya bir-birilə vəhdət təşkil edir. Əhalinin sıxlığı ilə müşahidə olunan gediş və gəlişlər daxili miqrasiya proseslərində "mütərəddid", yəni "rəqqas formalı" miqrasiyanın müsbət inkişaf tendensiyası kimi tədqiqatçıların diqqətindən yayınmır. Burada həm kəmiyyət, həm də keyfiyyət mövcuddur. Keyfiyyət kəmiyyətdən hər zaman öndə gəlməklə miqrasiya növlərinin meydana çıxmasına kömək edir. Əhalinin say tərkibinin öyrənilməsi paralel olraq iş yerləri arasında intensiv hal alan hərəkətin sürətini müəyyənləşdirir.

"Mütərəddid" əmək miqrasiyası əhalinin bir bölgədən digərinə gündəlik gediş-gəlişini təmsil etməklə, hazırda meqapolislərin, ona bitişik ərazi ilə birlikdə böyük şəhərlərin iqtisadiyyatında mühüm rol oynayır ki, bu da mövcud tədqiqatın aktuallığını göstərir [28, s.99]. Dünyanın bütün şəhərlərində, xüsusilə böyük paytaxtlarda "mütərəddid" miqrasiya yaşanır. Şəhərlərə bitişik ərazi və qəsəbələrdə də nisbətən zəif proseslər davam edir və bu hal hər gün gediş və gəlişlərlə, izdihamla müşahidə olunur.

Tədqiqat işində təklif olunan yanaşmanın əsası, bütövlükdə əmək ehtiyatlarının hərəkətliliyi və xüsusilə "rəqqas formalı" miqrasiyanın üç əsas amil ilə müəyyən edildiyi fərziyyəsidir: işçilərin gəlir səviyyəsi (əmək haqqı); yaşayış dəyəri; yaşayış və iş yerləri arasında səyahət xərcləri [29, s.151]. Hər üç amil "mütərəddid", yəni "rəqqas formalı" miqrasiyanın sürətlənməsində mühüm rol oynayan detallardır. Burada hərəkətliliyin gündəlik və qısa məsafələr arasında baş verməsi prosesin məsuliyyətini və infrastruktur əhəmiyyətini artırır. Əməkçi miqrantların gəlir səviyyəsinin ölçülməsi, həyatına verilən dəyər və səyahət xərclərinin hesablanması kimi sosial-iqtisadi faktorlar əslində dövlətlərin iqtisadi siyasətində yer alan əsas məqamlardan biri kimi ölkələrə görə dəyişir və hər dəfə yeni tədqiqatların aparılmasını zəruri edir.

Məlum olduğu kimi, miqrasiya müxtəlif elmlər tərəfindən qəbul olunur. Onun yalnız iqtisadi səbəblərlə deyil, həm də insanlara xas olan tələbat, maraq və səylərlə də sıx bağlı olduğu aşkar olunur [8, s.6]. Müxtəlif səbəblər insanların miqrasiya proseslərinə qatılaraq, həyat şəraitinin yaxşılaşmasına xidmət etməklə, sosial təminatının yüksəlməsinə əlverişli şərait yaradır. Mövcud miqrasiyanın elmi-nəzəri əsaslarının işlənib hazırlanması bu baxımdan diqqət çəkir. İnsanların gündəlik rastlaşdıqları əmək miqrasiyası Azərbaycan tarixşünaslığında az müraciət olunan "mütərəddid", yaxud "rəqqas formalı" miqrasiyanın öyrənilməsini zəruri edir. Hər gün yüz minlərlə insanın yaxından iştirak etdiyi həmin miqrasiya növü miqrant hüquqlarının müdafiəsi və dövlətlərin sosial-iqtisadi siyasətinin miqrasiya proseslərinə müsbət təsirini və inkişaf dinamikasının tədqiqini aktuallaşdırır.

## 1.2 Prosesdə şəhər və qəsəbələrin iştirakı, infrastruktur vasitələr

Prosesdə əsasən böyük şəhərlər, qəsəbələr və ya kəndlərin iştirakı nəqliyyat vasitələrinin hərəkəti ilə birbaşa bağlıdır. Bu, onu göstərir ki, "rəqqas formalı" miqrasiya həyat tərzi kimi miqrantların sosial-iqtisadi təminatının qarantına çevrilmişdir. Şəhər və qəsəbələr arasında hərəkətliliyin ölçülməsində "məntəqələrarası məsafələr"lə yanaşı digər məsələlər – böyük sənaye şəhərlərinin, qəsəbə və kəndlərin yaxınlığı, infrastrukturun əlverişli olub-olmaması, iqlim şəraiti, hətta miqrantların aldıqları məvacib ümumi prosesə müsbət, yaxud mənfi təsir göstərən amillərdir.

Miqrasiya, sözün geniş mənasında, həm ölkə daxilində, həm də xaricində insanların hər hansı bir hərəkəti ilə əlaqələndirilir. Bu konsepsiyanın daha dar mənasında “mütərəddid”, “rəqqas formalı” miqrasiya böyük şəhərlərin şəhər zonalarına yaxşı məlumdur. Bu tip miqrasiya insanların bir yaşayış məntəqəsindən digərinə, bir qayda olaraq, iş və ya təhsil almaq və geri qayıtmaq üçün müntəzəm hərəkətdir. Bu məcburi proses şəhər və qəsəbə arasındakı fərqin hər zamankından daha çox hiss olunduğu vaxt, urbanizasiya dövründə inkişaf edir. Son illərdə nəqliyyat infrastrukturunun inkişafı və avtomobilizasiya “rəqqas formalı” miqrasiyanın sürətlə genişlənməsinə kömək edir [23, s.186]. Ölkənin daxilində olduğu kimi xaricində də müşahidə edilən sosial-iqtisadi proseslərdə “rəqqas formalı” miqrasiyanın daha çox meqapolislərdə hiss olunması iş yerlərinin həmin məkanlarda daha geniş yayılması ilə izah olunur. Burada böyük qəsəbələr də miqrantları özünə cəlb edir. Müntəzəm hərəkətlilik özü ilə yanaşı problemlər də gətirə bilər. Bunların başında dayanan başlıca amil nəqliyyat vasitələrindən istifadə ilə bağlıdır. İctimai və özəl nəqliyyat sisteminin mövcud miqrasiya proseslərində yaxından iştirakı problemin tədqiq olunmasında az əhəmiyyət daşımır. Məcburi və ya insanların qazanc üçün məcbur olduqları gediş və gəlişlər böyük şəhərlərdə iqtisadi inkişafın göstəricisi kimi mövzuya marağı bir qədər də artırmış olur.

Daxili miqrasiya prosesi dedikdə, insanların eyni ölkənin hüdudları daxilində bir ərazidən digər əraziyə köçməsi başa düşülür. Bu miqrasiyanın kənd (kənd-şəhər), şəhər (şəhər-kənd), şəhərlərarası (şəhər-şəhər) və kəndlərarası (kənd-kənd) istiqamətləri fərqləndirilir [6, s.9]. Bu baxımdan, ölkə sərhədləri daxilində müşahidə olunan “rəqqas formalı” miqrasiyanın geniş sosial imkanları var. Kənd və şəhər, yaxud kənd və qəsəbə arasında baş verən “mütərəddid” miqrasiya populyarlıq və demoqrafik baxımdan fərqli yanaşmalar tələb edir. Bu, xarici, beynəlxalq miqrasiya amilinə nisbətlə daha geniş yayılmış və daha əlçatan proses kimi insanların həyatında vacib yer tutur. Xarici miqrasiyada insanlar ölkə sərhədlərini aşaraq hər gün yeni problemlərlə qarşılaşa bilər, tərəddüd edən insana bənzər bu miqrasiya növü maddi baxımdan yüksək gəlirlərin əldə olunmasına müsbət təsir göstərmək iqtidarındadır.

Hər bir şəhər şəhərətrafı yaşayış məntəqələri ilə əhatə olunmuşdur, onların arasında daimi qarşılıqlı rabitə mövcuddur. Bu qarşılıqlı əlaqənin vacib amillərindən biri insanların yaşayış məntəqələri arasında hərəkət etməsidir. Bu hərəkətlər həm mərkəzdənqaçma, həm də mərkəzəqaçma aspektlərinə malikdir [16, s.22]. Miqrantın yaşayış yeri ilə iş yeri arasında məsafənin ölçülməsi şəhər aqlomerasiyasında vacib rol oynayır. Adətən, mərkəzə üz tutmağa meyilli olan iş axtaranlar hər iki hal ilə qarşılaşmış olurlar. Burada nəqliyyat vasitələrinin əlçatan olması, ictimai və özəl nəqliyyatın fəaliyyəti də müntəzəm miqrasiya proseslərinə təsir edən mühüm amillərdən biridir.

Hal-hazırda şəhərlərin böyüməsi prosesi və onsuz da geniş olan meqapolislərin inkişafı müşahidə olunur. Bu səbəbdən, şəhər aqlomerasiyasının formalaşması və inkişafına təsir göstərən amillərdən biri “rəqqas formalı” miqrasiyanın populyarlaşması ilə bağlıdır [20, s.25]. Bəzən insanlar fərqində olmadan “rəqqas formalı” miqrasiya proseslərinə qoşulur, haqqında məlumatlarlı olmasa da, qazanclarından məmnun qaldıqları halda hərəkətliliyi artırmış olurlar, beləliklə də, “qərarsız qalan” insana bənzər gediş-gəlişlər sürətlənmiş olur. Proses şəhərlərin hər gün böyüməsi, dolub-boşalması, şəhər aqlomerasiyasının inkişafı və tədricən formalaşması ilə nəticələnir.

Yaşayış məntəqələri arasında qarşı-

lıqlı əlaqələrin yüksək intensivliyi, xarici sərhədləri və daxili quruluşu, buna görə də sosial məkanın birliyi ilə xarakterizə olunan məskunlaşma forması kimi şəhər aqlomerasiyalarının tədqiqi, bir qayda olaraq, yaşayış məntəqələrinin aqlomerasiyaya daxil olma meyarlarının müəyyənləşdirilməsi probleminə təsir göstərir [21, s. 205].

"Rəqqas formalı", yaxud "mütərəddid" miqrasiya proseslərində həssas məqamlardan biri yaşayış məntəqələri arasında mövcud olan məsafələrin ölçülməsi və intensivliyi ilə bağlıdır. Bu səbəbdən şəhər məskunlaşmasında şəhər aqlomerasiyasının formalaşma imkanlarının nəzərdən keçirilməsi tədqiqat işində diqqət yetirilən vacib detallardan biridir. Bütün hallarda insan və nəqliyyat axınları, hərəkətliliyin sıxlaşması məsələyə müsbət və mənfi çalarlar qatmış olur.

## 2. Təcrübələr və nəzəriyyələr

### 2.1 Regional və beynəlxalq təcrübənin öyrənilməsi

Ümumilikdə mövcud sahədə regional və beynəlxalq təcrübələrin öyrənilməsi miqrasiya idarəçiliyinin tənzimlənməsi, qanunvericiliyin təkmilləşməsi baxımından zəruridir. Həmin sahədə əsasən iqtisadi və demokratik tərəqqi yolu keçmiş dövlətlərin miqrasiya siyasəti, daxildə proseslərin nizamlanmasında əldə olunan müsbət nəticələr pozitiv nümunə təşkil edə bilər. Konkret olaraq Almaniya, İsveçrə, Norveç və digər Qərbi Avropa dövlətlərinin innovativ miqrasiya idarəçiliyi sahəsində qazandığı mütərəqqi təcrübə miqrasiyanın "mütərəddid", "rəqqas" formasının tənzimlənməsində inkişaf etmiş miqrasiya qanunvericiliklərinə diqqət yetirilməsini vacib edir.

Miqrasiya proseslərinin tənzimlənməsində beynəlxalq təcrübənin öyrənilməsi və ondan istifadə olunması ölkə daxilində miqrasiya qaydalarının beynəlxalq standartlara uyğun təkmilləşdirilməsini, iki və çoxtərəfli əsaslarda beynəlxalq müqavilələrin bağlanmasını, digər ölkələrlə qarşılıqlı şəkildə miqrasiya siyasətinin uzlaşdırılmasını şərtləndirir [5, s.185]. Miqrasiya beynəlxalq hərəkətlilik və bundan irəli gələn qlobal proses olduğu üçün beynəlxalq nəzəri aspektlərinin öyrənilməsi, həmçinin mübadiləsi illər ötdükcə daha da aktuallaşır. Burada beynəlxalq təcrübə əsasən inkişaf etmiş dövlətlərin gündəlik, sosial-siyasi həyatında və ya qanunvericilik əsasında öyrənilməsinin nə qədər vacib olduğunu göstərir. Qarşılıqlı təcrübə proqramlarının işlənib hazırlanması, müqavilələrin bağlanması miqrasiya sahəsində əməkdaşlıq üçün yeni üfüqlər açmış olur. Bu baxımdan, "mütərəddid" miqrasiya sahəsində əməkdaşlıq əlqələrinin yaradılması mövzunun həyatın bütün sahələrdə diqqət mərkəzində olduğunu deməyə əsas verir. Təhlükəsiz və innovativ miqrasiya idarəçiliyinə nail olmaq üçün diplomatik münasibətlərdə miqrasiyanın istənilən sahəsi ilə bağlı uzlaşma əldə etmək olar. Bu, "mütərəddid", "rəqqas formalı" miqrasiya proseslərinin idarə olunmasında da mümkündür.

Beynəlxalq miqrasiyanın əsasında iqtisadi, milli-mədəni və sosial amillər durur. İqtisadi amillər dedikdə, daha yüksək əməkhaqqı, həyat şəraiti, yaşayış səviyyəsi və s. nəzərdə tutulur [1, s.21]. "Rəqqas formalı" miqrasiya növündə sosial-iqtisadi amillər daxili proseslərdə olduğu kimi beynəlxalq aləmdə də diqqət çəkən mühüm məqamlardan biridir. Xarici təcrübənin öyrənilməsi və idarəçiliyi sahəsində həyata keçirilən əməkdaşlıq əlaqələri, imzalanan sənədlər dialoq və müzakirələr zamanı yeni yolların yaranması, eləcə də dövlətlərarası münasibətlərin tənzimlənməsi kimi vacib məqamlar da üzə çıxır.

Beynəlxalq statistikada mövsümi miqrantlara "qısamüddətli immiqrantlar

və emiqrantlar", "miqrant-mövsümi isçi" və s. terminləri uyğundur. Mütərəddid (kəfkirli) miqrasiya (məkik, sərhədyanı) bir ölkədən digərinə və əksinə gündəlik, nadir hallarda həftəlik gedib-gəlməni əks etdirir [4, s. 178]. Miqrasiya ilə bağlı beynəlxalq statistik göstəricilər, immiqrant və emiqrantların proseslərdə iştirakı mövsümi və daimi olmaqla müxtəlif mərhələlər şəklində izah oluna bilər. Həmçinin, az təsadüf olunan həftəlik əmək miqrasiyaları sosial sferanın genişlənməsində az əhəmiyyət daşımır. Burada mütərəddid miqrasiyanın eynisi olan "kəfkirli" miqrasiya tədqiqatlarda az rast gəlinən məqamlardandır.

Qloballaşma şəraitində miqrasiyanın miqyasında əhəmiyyətli artım olmuşdur və nəticədə miqrasiya proseslərinin yeni formaları yaranmışdır. İqtisadi amillərin miqrasiya axınlarını əvvəlcədən müəyyən etməsinə baxmayaraq, qloballaşma şəraitində miqrasiyanın sosial amillərinin əhəmiyyəti artır. Qlobal miqrasiyalar müasir dünya dövlətlərinin sosial-iqtisadi və demoqrafik inkişafında mühüm amilə çevrilmişdir [9, s.140]. XXI əsrdə hələ də davam etməkdə olan qlobal dəyişikliklərin miqrasiyalara təsiri qaçılmazdır. Bir sıra səbəblərdən genişlənən və getdikcə intensivləşən əmək miqrasiyasının və onun tərkib hissəsi olan "rəqqas formalı" miqrasiyanın gətirdiyi sosial-iqtisadi üstünlüklər onu deməyə əsas verir ki, həmin proses gündəlik olduğu üçün daha çox müzakirələrə səbəb yaradır. Beynəlxalq və regional təşkilatların qloballaşma və miqrasiya potensialının yüksəlməsi ilə bağlı məsələlərə birmənalı yanaşmaması isə mövcud sahədə fikir ayrılıqlarının yaranmasına səbəb yaratmaqla, paralel olaraq sosial üstünlüyünün əsas alındığını bəyan edir.

Yeni minilliyin başlanğıcında beynəlxalq inkişaf agentlikləri və hökumətlər inkişafı təşviq etmək üçün kasıb ölkələrdə miqrasiya və pul köçürmələri potensialını kəşf etdilər [15, s.8]. Miqrasiya və pul köçürmələri beynəlxalq, həmçinin regional səviyyədə aparılan tədqiqatlarda ön sıralarda gəlir. Pul köçürmələrinə təşviq, onlayn qaydaların tətbiq olunması əmək miqrasiyasının genişlənməsinə müsbət təsir göstərir. Burada miqrasiyanın "rəqqas" formasının iştirakı məsələsi də az əhəmiyyət daşımır. Həm daxildə bölgələr arasında, həm də xaricdə ölkələr arasında baş tutan valyuta mübadiləsi bu baxımdan miqrasiyaların bütün növlərində populyarlıq qazanmışdır.

Beynəlxalq əmək miqrasiyasının artması ilə sosial müavinətlərin köçürülməsinin mümkünlüyü məsələsi bütün dünyada getdikcə daha çox əhəmiyyət kəsb edir və BMT-nin Davamlı İnkişaf Məqsədləri arasında performans göstəricilərindən biri olaraq tanınır [13, s.525]. Əmək miqrasiyası və əməkçi miqrantlar məsələsinə beynəlxalq təşkilatların hesabatlarında geniş yer verilir. Burada BMT ilk sırada gəlir və ona bağlı olaraq fəaliyyət göstərən beynəlxalq, regional miqrasiya qurumları müntəzəm miqrasiya prosesi, gediş-gəlişli gündəlik işlərdə çalışan insanların sosial müavinətlərinin köçürülməsi kimi problemləri də gündəmə gətirməyə davam edirlər.

### 2.2 Prosesdə miqrasiya-miqrant münasibətləri

Miqrasiya-miqrant münasibətləri tədqiqatın yerinə yetirilməsində əsas aspektlərdən biri kimi "mütərəddid" miqrasiya proseslərinin nəzəri təhlilinin əhəmiyyətinə diqqət çəkir. Bu baxımdan, qeyd olunan "miqrasiya və miqrant münasibətləri" mürəkkəb və başa düşülməsi çətin, açıq bir reallıqdır. Bununla birlikdə, müasir dövrdə baş verən qloballaşma fenomeni bu qarşılıqlı münasibətlərə də təsir edir və onları daha da inkişaf etdirir. Sözügedən mürəkkəb quruluş miqrasiya tədqiqatları üçün ən böyük maneədir. Bu

məqam həm də dəqiq analiz əldə etmək üçün, təhlil edilməsi lazım olan miqrasiya ilə miqrantlar arasında fərq qoyaraq tədqiqatları özəlləşdirməkdir [11, s. 68]. Miqrasiya və bu proseslərdə iştirak edən miqrantların istər xarici ölkələrdə, istərsə də daxildə bölgələrarası "rəqqas formalı" miqrasiyada iştirakı müsbət dəyərləndirilir. Lakin burada problemlərin yaranması və onların həlli yollarının tapılması kimi məsələlər, tarixi və sosioloji aspektdən yanaşılan mövzunun müasir dünyada daha aktual səsləndiyini əks etdirir. Mövcud miqrasiya proseslərində iştirak edən miqrantların hüquqlarının qorunması ümumi qaydalara daxil olmaqla insan üzərində məsuliyyət yaratmış olur. Miqrasiya yarandığı gündən mürəkkəb quruluş kimi tanınmış və xüsusilə onun "rəqqas" formasının öyrənilməsinin əhəmiyyətini artırmışdır.

Miqrasiya sosial varlığın bir çox aspektlərinə birbaşa təsir etdiyi kimi, bu da öz mürəkkəb dinamikasını inkişaf etdirən bir prosesdir. Beləliklə, miqrasiya tədqiqatları mahiyyət etibarilə fənlərarası xarakter daşıyır. Sosiologiya, ədəbiyyat, siyasi elm, tarix, iqtisadiyyat, coğrafiya, demoqrafiya, psixologiya və hüquq kimi elmlər miqrasiya ilə əlaqəli sahələrdir [12, s.738]. Geniş mənada miqrasiya demək olar ki, əksər elm sahələrini əhatə etməklə miqrasiya-miqrant münasibətlərinin müzakirəsinə yol açır. Lakin tarixi keçmişdə, yaxud yaxın tarixdə baş verən miqrasiya prosesləri və onun "rəqqas" formasının öyrənilməsi konkret sahəyə aid olmaqla məsələyə individual yanaşma tələb etmək iqtidarındadır. İnsan sosial və tarixi məlumatları mənimsəmiş varlıq olaraq, davamlı yer dəyişir, yüksək təmin olunmuş həyat uğrunda mübarizə aparır. Miqyasından asılı olmayaraq insanlar müntəzəm miqrasiya etməyə meyillidirlər. Bu, ölkənin daxilində olduğu kimi, xaricində də müşahidə olunur və miqrasiya-miqrant münasibətlərinin öyrənilməsində rol oynayır.

Məlumdur ki, əhali içərisində baş verən demoqrafik proseslərin və miqrasiyanın kortəbii şəkil alması böyük problemlərlə (aclıq, "demoqrafik partlayış" və s.) müşayiət olunur. Bunların idarə edilə bilməsi demoqrafik proseslərin tənzimlənməsi, müvafiq əhali siyasətinin hazırlanmasının əhəmiyyətini daha da artırmışdır [3, s.3-4]. Əhalinin sıxlığı ilə müşühidə olunan və demoqrafik baxımdan tənzimlənməsində fasilələr yaranan, yaxud idarə olunması məhdudlaşan miqrasiya proseslərində həyata keçirilən siyasət düzgün qurulmalıdır. Qeyd olunan məsələ miqrasiya-miqrant münasibətləri ilə birbaşa bağlı olub analitik təhlil tələb edən mühüm amildir. Belə olduğu halda, neqativ halların tez bir zamanda aradan qaldırılmasına, aclıq və demoqrafik aşınma kimi ciddi problemlərin tənzimlənməsinə nail olmaq mümkündür.

Qərarsız (gəl-get) miqrasiya insanların gündəlik və ya həftəlik olaraq hərəkət etdikləri və yaşayış məntəqələrinə (müxtəlif yaşayış məntəqələri arasında) getdikləri və qayıtdıqları proseslərə aiddir. Şəhər və kənd əhalisinin əksəriyyətini əhatə edən bu miqrasiya forması da son yarım əsrdə olduqca sıxlaşmışdır. BMT-nin statistik qaydalarına görə, yeni gəldikləri yerdə 6 aydan çox yaşayan insanlar miqrant olaraq qəbul edilirlər. Tədqiqatçıların əksəriyyətinin qənaətinə görə, turistlərin, tətilə çıxanların, ziyarət edənlərin və digər məqsədli səfərlərin miqrasiyaya daxil edilməsi mübahisəlidir. Çünki bu vəziyyətdə söhbət daimi yaşayış yerinin dəyişdirilməsindən getmir. "Gəl-get" miqrasiyası həm də ölkə iqtisadiyyatının ən müxtəlif peşələri, ixtisasları və əmək ehtiyatları hesabına tələbatın ödənilməsi arasında tarazlığın təmin edilməsində mühüm rol oynayır [10, s.25]. Adları çəkilən sahələr miqrasiya-miqrant əlaqələrinin qurulması və inkişafı baxımından fayda verə biləcək

nəzəri aspektlərin müəyyən olunmasına əhəmiyyətli təsir göstərir. Bu səbəbdən əmək miqrasiyasında "rəqqas" növünün geniş imkanları və prosesin gündəlik, müntəzəm və hərəkətli şəkildə baş verməsi, şəhər və kəndlərdə sıxlaşma probleminin həllinə diqqət çəkir. Burada müxtəlif kateqoriyadan olan insanların iştirakı tədqiqatın maraq dairəsini bir qədər də artırmış olur. Onların arasında yuxarıda qeyd olunan kəsimlərin miqrant hesab olunması kimi məsələlər isə fərqli tədqiqatın mövzusu kimi qarşımıza çıxır. Son illər "qərarsız", digər adıyla "rəqqas formalı" miqrasiya növünün araşdırılması zamanı yaşayış məntəqələri arasında sıxlığın artmasına gətirib çıxaran bəzi məqamlar tədqiqatçıların diqqətindən yayınmamışdır. Bu isə öz növbəsində miqrasiya-miqrant münasibətlərinin tənzimlənməsində mürəkəb vəziyyətin hər an yarana biləcəyindən xəbər verir. Əhali sayının yüksəlməsi, nəticədə demoqrafik inkişafın genişlənməsi, sözügedən miqrasiya proseslərində təmsil olunanların azalmasına yox, əksinə çoxalmasına şərait yaratmışdır. İqtisadi inkişafın gətirdiyi müsbət məqamlardan biri kimi "rəqqas formalı" miqrasiya proseslərində insanların iştirak səviyyəsi də xeyli artmışdır.

Qeyd etmək lazımdır ki, miqrasiya prosesinin, xüsusilə daxili miqrasiyanın tədqiq edilməsinə dair ümumi qəbul edilmiş vahid metodoloji üsul yoxdur. Burada müxtəlif metodlardan – beynəlxalq təcrübədə metodologiyanın hazırlanmasında insanların hərəkətliliyi, ev təsərrüfatları, kommunal xidmətlərə dair göstəricilər (işıq, qaz, su abonentləri və s.), nəqliyyat vasitələrində istifadə olunan kart, talon və s. dən istifadə olunur [7, s.209]. Demək olar ki, ictimai elmlər sahəsində tədqiqat üsulları vahid metodologiyaya əsaslanmır. Bizim tədqiq etdiyimiz mövzu daha çox tarix və sosiologiya yönümlü olduğu üçün burada yaxın tarixdə baş verən miqrasiya prosesləri, dövlətlərin miqrasiya siyasəti, miqrasiyaların sosial-iqtisadi, nəzəri aspektlərinin ölçülməsi kimi məsələlər ön plana çıxır.

Sadalanan məqamlar miqrasiya-miqrant münasibətlərinə də təsirsiz ötüşmür. Elmi-nəzəri metod həyata keçirilən tədqiqatın əsas qayəsi olub, müasir dövrdə miqrasiyanın "rəqqas" formasının araşdırılmasının əhəmiyyət kəsb etdiyini deməyə əsas verir. Belə olduğu təqdirdə, miqrasiya-miqrant münasibətlərinin müsbət inkişaf dinamikası müəyyənləşmiş olur. Dövlət müstəqilliyinin bərpasından ötən 30 ildən çox vaxt ərzində Azərbaycanda formalaşan miqrasiya qanunvericiliyi mövcud sahədə həyata keçirilən siyasətin düzgün qurulduğunu əks etdirir və problemə elmi-analitik yanaşmanın zəruri olduğunu təsdiq edir. Hərəkətlilik, infrastruktur şəraitin üstünlüyü, xərclər və s. sosial məsələlər "rəqqas" miqrasiya növünün regionda geniş əks-səda tapdığını göstərir və qeyd olunan münasibətləri tənzimləyir.

Daxili miqrasiya hərəkətləri müasir Azərbaycan Respublikasının siyasi və sosial həyatına təsir edən ən mühüm amillərdən biridir. [14, s. 467]. Azərbaycan dövlətinin miqrasiya sahəsində əldə etdiyi müsbət nümunələr daxili miqrasiya proseslərinin yüksələn xətlə inkişafı ilə bağlıdır. Təkmilləşməkdə olan və mütərəqqi təcrübəyə əsaslanan miqrasiya qanunvericiliyi emiqrasiya və immiqrasiyaların, eləcə də paytaxt Bakıda "rəqqas formalı" miqrasiyanın sosial və ictimai-siyasi həyata pozitiv təsir göstərdiyini əks etdirir.

Miqrasiya Azərbaycanda 44 günlük Vətən müharibəsindən sonra yeni tərəqqi fazasına keçid almış, mövcud sahədə beynəlxalq əməkdaşlıq əlaqələri genişlənmişdir. Nəticədə miqrasiya-miqrant münasibətləri pozitiv inkişaf yolu tutmuş və milli təcrübə xarici ölkələrin diqqətini çəkmişdir.

Yaşayış yerindən kənarda, gündəlik

yaşayış yerinə qayıtmaqla məşğul olmağı əhatə edən "mütərəddid" gündəlik əmək miqrasiyası, şəhərdə işləyən şəhərətrafı sakinlər, rayon mərkəzlərində əmək fəaliyyəti ilə məşğul olan kənd sakinləri və s. üçün ən xarakterikdir [17, s. 153]. Bu faktor miqrasiya-miqrant münasibətlərinin öyrənilməsində nəzəri əhəmiyyət kəsb edir. Şəhərətrafı, qəsəbə və kəndlərdən hər gün eyni qısa məsafələrdə işə gələn və geri qayıdan miqrantların hərəkəti, bəzi hallarda sıxlığın bəlli saatlarda tıxaclara səbəb yaradacaq qədər yüksəlməsi, artıq həyatın bir parçası, həyat tərzi kimi qiymətləndirilə bilər. Bu xarakterik hərəkətlilik insanların sosiallaşmasına müsbət təsir göstərir və mövcud münasibətlərin möhkəmlənməsinə gətirib çıxarır.

Xarici mənbələrdə cazibə modeli "mütərəddid" miqrasiyasının qiymətləndirilməsi metodlarından biri hesab olunur, burada parametrlər iki yaşayış məntəqəsi arasındakı məsafə, onlarda yaşayan əhalinin sayı və bu yaşayış məntəqələrinin iqtisadiyyatındakı əmək haqqının miqdarıdır [19, s. 632-633]. Burada cazibə modeli dedikdə, insanların bəlli miqdarda, diqqət çəkəcək maaşla təminatının cazib görünməsi, eləcə də qısa məsafədə gediş-gəlişlərin adi hal alması ilə izah oluna bilər. Həmin metod miqrasiya-miqrant münasibətlərinə pozitiv təsir göstərmək, insanlara seçim etmək imkanı verməklə, davamlı diqqət çəkir və təmin olunmuş həyat uğrunda mübarizədə "mütərəddid" və ya "rəqqas formalı" miqrasiya növünün sosial faydalı olduğunu göstərir.

Vətəndaşların əmək fəaliyyəti ilə əlaqəli yaşayış məntəqələri arasında müntəzəm hərəkəti ("mütərəddid" əmək miqrasiyası) yerli və regional əmək bazarlarında əmək ehtiyatlarının yenidən bölüşdürülməsinə səbəb olur. Əmək miqrasiyası mürəkkəb bir sosial-iqtisadi prosesdir, öyrənilməsi fənlərarası yanaşma tələb edir [18, s.86]. Əmək ehtiyatlarının bölünməsi məsələsi miqrantlar arasında rəqabər mühiti formalaşdırmışdır. Buna isə "mütərəddid" miqrasiya formasında tez-tez rast gəlinir. Belə olduğu təqdirdə, əmək miqrasiyası həm mürəkkəb, həm də anlaşılması mümkün olan proses kimi sosial əhəmiyyətini hər gün bir qədər də artırmış olur. Şərh olunan istiqamətlər, heç şübhəsiz, miqrasiya-miqrant münasibətlərində öz əksini tapır.

Tələb və təklif nəzəriyyəsi, əsasən əmək haqqı fərqliliyinin təsiri ilə vasitəçilik nəzəriyyəsi miqrasiyanın öyrənilməsində klassik bir ənənədir. Klassik yanaşma artan iqtisadiyyatda "mütərəddid" əmək miqrasiyasının, ümumiyyətlə, daxili miqrasiya kimi, işçi qüvvəsinə tələb və təklifdəki coğrafi fərqlərdən qaynaqlandığını göstərir [24, s.41]. Burada coğrafi fərqlər müxtəlif cür təzahür edir. Əslində problemə klassik məntiqlə yanaşma əmək haqqı fərqliliyindən irəli gələn vasitəçilik nəzəriyyəsinin öyrənilməsini zəruri edir. Həmçinin, artan iqtisadi tələblər və sosial dəyişikliklər "rəqqas formalı" miqrasiyanın gündəlik miqrant həyatında başlıca rol oynadığını göstərir. Bu isə təhlili gərəkən miqrasiya-miqrant münasibətlərinin tənzimlənməsi yollarını üzə çıxarır.

"Mütərəddid" əmək miqrantları işçilərin olduqca həssas bir kateqoriyasıdır, çünki hərəkətlərinin xüsusiyyətləri ilə əlaqədar onlara xüsusi zəmanət və əmək hüquqlarının qorunmasını təmin edə biləcək xüsusi normativ hüquqi aktlar yoxdur [26, s. 53]. Gündəlik qazanc əldə etmək üçün hər gün eyni yolla məsafə qət edərək geri qayıtmaq miqrantları həssas davranmağa sövq edir. Həmin məqam tədqiq olunan miqrasiya-miqrant münasibətlərində daha tez nəzərə çarpır. Bu, diqqətin cəmləşməsi baxımından insanın nə istədiyini bilməsi, eləcə də bu yolda yarana biləcək sosial problemlərin həlli yollarının tapılması kimi anlaşıla bilər. "Rəqqas formalı" miqrasiya ilə bağlı

hüquqi baxımdan konkret qanunların olmaması prosesdə iştirak edən miqrantların sosial müdafiəsinin təmin olunmaması kimi mənfi tendensiyaları da bərabərində gətirmiş olur. Həmçinin, belə həssas kateqoriyaya daxil olan insanların psixoloji dəstəklərinin məhdud olması da onların həssaslığını bir qədər qabarıq göstərir. Nəticədə hər iki tərəf – miqrasiya və miqrant münasibətləri zəifləmiş olur.

## Nəticə

Miqrasiya proseslərinin intensiv hal aldığı XXI əsr mövcud sahədə reallıqların gətirdiyi bəzi məsələlərin təhlilini vacib etmişdir. Regional, beynəlxalq və dövlətlərin sərhədləri daxilində baş verən miqrasiya və onun nəticələri müsbət, həmçinin mənfi tendensiyalarla müşahidə olunur. Tədqiq olunan mövzu isə miqrasiyanın sadəcə bir probleminin araşdırılmasına, əhalinin "mütərəddid", yəni "rəqqas formalı" miqrasiyada iştirakı və faktoloji materiallar əsasında analitik təhlilinin aparılmasına həsr olunmuşdur.

Bir qədər  də dəqiq ifadə etsək, tədqiqat işi "rəqqas formalı" əmək miqrasiyasından bəhs edir. Bununla yanaşı, əhalinin bir hissəsinin – "mütərəddid" əmək miqrantlarının iş və yaşayış yerləri arasında, bir-birindən xeyli məsafədə və müxtəlif təsərrüfat subyektlərində (bölgələr, şəhərlər, qəsəbələr, obyektlər və s.) gündəlik servis hərəkəti kimi başa düşülür [27, s. 63]. Məsafələrin uzun və qısa olması bu prosesdə iştirak edən miqrantların hərəkətliliyinin müəyyən olunmasında böyük rola malikdir. Bu, özünü qazanılan əmək haqlarında da göstərməklə əhalinin "mütərəddid" miqrasiyada yaxından iştirakına maneə yaratmır. Əksinə dünyanın hər yerində, hər gün yüzminlərlə insan məntəqələrarası məsafələrlə işə gedir və geri qayıdır, aktiv miqrasiya proseslərinə təkan verirlər. Miqrantların hərəkətində böyük şəhərlərin, bölgə, qəsəbə və kəndlərin coğrafi göstəriciləri, nəqliyyat vasitələrinin rahat və problemsiz irəliləməsi və s. məsələlər sonda mövzu ilə bağlı nəticəyə gəlməyə əsas verir.

Bu baxımdan, tədqiqatçılar "rəqqas" formasına bənzər miqrasiyanı bütövlükdə "ərazi-əhali hərəkəti fenomeni" kimi şərh edirlər. Bu, sabit xarakter daşıyır və miqrantların yaşayış yerinin dəyişilməsi ilə əlaqəli deyil [30, s.58]. Elm və texnologiyaların sürətlə genişləndiyi XXI əsrdə təməlində tarixi proseslər dayanan sosial-iqtisadi faktorlar miqrasiyanın "mütərəddid", "rəqqas" formasının intensiv hal aldığını göstərir. Mövcud miqrasiyanın təhlilində ilk anlaşılan məsələ ərazi, əhali və hərəkət məhfumlarıdır. Həmin prosesi canlı tutan hər gün baş verən hərəkətlilik və dinamik xarakter daşımasıdır. Bu səbəbdən təbii şəraitdə baş verən reallıq sabit şəkildə öz varlığını davam etdirir. Gediş-gəlişlər sırasında əhalinin sıxlığı isə aydan-aya dəyişir, gəlirlərin azalması və ya yüksəlməsi ilə nəticələnir.

Həyatın bütün sahələrində çatışmazlıqlar olduğu kimi belə həssas mövzuda da miqrantlar gündəlik problemlərlə qarşılaşmalı olurlar. Lakin "mütərəddid" miqrasiya ilə bağlı qanunların olmaması, əksinə ümumilikdə miqrasiya qanunvericiliyinin inkişaf etdirilməsi Azərbaycan daxil olmaqla sosial-iqtisadi, hüquqi-demokratik tərəqqi yolu tutmuş dövlətlərin miqrasiya siyasətinin təkmilləşməsinə maneə yaratmır. Həmin miqrasiya formasının inkişafında əməkçi miqrantlar kütləvi hərəkət etdiyi üçün nizamlanmasında da maraqlı olub, prosesin axarının sabit qalmasına cəhd etməli və milli təhlükəsizliyə fərd olaraq öz dəstəklərini ifadə etməlidirlər. Əslində milli təhlükəsizliyin qorunması hər birimizin vətəndaş olaraq konstitusion öhdəliklərimizdən biridir.

Məqalədə təhlil edilən müsbət məqamları, tədqiqat işinin elmi yeniliyini və nəticəsini aşağıdakı kimi konkret müddəalarla göstərmək olar:

❑ XXI əsrdə sərhədləri aşan miqrasiya və onun inkişaf dinamikasında əhəmiyyət daşıyan nəzəri aspektlər əhalinin "mütərəddid" miqrasıyada iştirak edərək həyat uğrunda mübarizəsinin davam etdiyini əks etdirir;

❑ Miqrasiya proseslərinin inkişafı, müsbət və mənfi çalarları ilə bağlı aparılan araşdırmalar müasir dövrdə hərəkətliliyin yüksəlməsindən xəbər verir;

❑ Bu səbəbdən miqrasiyanın bütün forma və növləri problemin araşdırılmasının aktual olduğunu təsdiq edir;

❑ "Mütərəddid", yaxud "rəqqas formalı" miqrasiyanın insan həyatında oynadığı rol, nəzəri aspektlərinin təhlili və praktik əhəmiyyətinin üzə çıxarılması mövzunun gələcək prioritetlərinin müəyyən olunmasında mühüm yer tutur;

❑ Regional, beynəlxalq və dövlətlərin sərhədləri daxilində hər gün baş verən "rəqqas formalı" miqrasiya müsbət inkişafa səbəb yaratmaqla yanaşı, özü ilə bərabər bəzi problemlər də gətirir;

❑ Belə olduğu təqdirdə coğrafi, hərəkətlilik, sıxlıq, nəqliyyat və infrastruktur kimi məsələlərin nizamlanması mövcud miqrasiya prosesinin sürətlənməsinə gətirib çıxarar;

❑ Müasir beynəlxalq münasibətlər tarixində miqrasiyanın əhəmiyyətli parçası kimi qarşımıza çıxan "mütərəddid", "rəqqas formalı" miqrasiya tədqiqatçıların üzərində az çalışdığı mövzulardan biri kimi populyarlığını davam etdirir;

❑ Prosesdə şəhər, qəsəbə və kəndlərin iştirakı, nəqliyyat vasitələrinin dəyərləndirilməsi – hərəkətliliyin və məntəqələrarası məsafələrin öçülməsinin tədqiqatda bir metod olduğunu əks etdirir;

❑ Digər adları ilə "qərarsız", "get-gəl", "kəfkirli" olub eyni mahiyyət daşıyan mövcud miqrasiya tədqiqatçıların diqqətini çəkir və gələcəkdə yeni əsərlərin yazılacağını göstərir;

❑ Yerli və xarici tədqiqatçıların əsərlərində mövzu ilə bağlı və ya mövzuya yaxın məsələlər tədqiqat obyektinə çevrilən miqrasiya növünün müasir çağırışlar etdiyini bəyan edir;

❑ Mövzu ilə bağlı Azərbaycan Respublikasının miqrasiya siyasətində müşahidə olunan mütərəqqi idarəçilik sistemi bu baxımdan tədqiqata işıq tutan məqamlardan biridir;

❑ Bununla yanaşı, qonşu ölkələrin mövcud sahədə, xüsusilə miqrasiya idarəçiliyində innovativ nəticələr qazanan Qərbi Avropanın öndə gələn dövlətlərinin müsbət nəticələri tədqiqatın nəzəri aspektlərinin təhlilində vacib əhəmiyyət daşıyır.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

**Azərbaycan dilində:**

1. Abdullayev F.N. XXI əsrin geosiyasətində yeni paradiqma: Miqrasiya (mahiyyəti, çağırışlar, təhdidlər). Bakı: Elm, 2016, 416 s.
2. Aslanova A.F. Azərbaycanda miqrasiya proseslərinin iqtisadi-demoqrafik aspektləri / iqt. üzrə fəls. dok. diss. Bakı, 2017, 148 s.
3. Həsənova L.L. Azərbaycan əhalisi XX yüzilliyin ikinci yarısında (sovet siyahıyaalmaları əsasında). Bakı: BDU, 2003, 302 s.
4. İzahlı statistika terminləri lüğəti / redaktor-əlaqələndirici A.H.Mansurov. Bakı: Səda, 2010, 720 s.
5. Quliyeva S.Z. Azərbaycanda miqrasiyanın səbəb və istiqamətləri (XIX-XX əsrlər)

// Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası. № 2, 2010, s. 181-187.

6. Qəribova E., Rüstəmova R. Azərbaycanda daxili miqrasiya və urbanizasiyanın sosial aspektləri. Analitik hesabat // "Azərbaycan barometri", № 2(6), Fevral 2020, 72 s.

7. Qəribova E. Azərbaycanda urbanizasiya və daxili miqrasiya prosesinin kəsişməsinin sosial və demoqrafik mənzərəsi // "Sosial tədqiqatlar" elmi-analitik jurnal, № 1, 2021, s. 209-220.

8. "Sovetlər dönəmində miqrasiya problemi təhlükəli, yasaq məsələ sayılıb". Hüquqi İslahatlara Yardım Mərkəzinin rəhbəri Fətəli Abdullayev: "Bəşər tarixi "Böyük insan köçü" kimi tanınan hadisələrlə zəngindir" // "525-ci qəzet", 15 aprel 2009, s. 6.

9. Yaqubova N. Miqrasiya prosesləri qloballaşma şəraitində // "Sivilizasiya" jurnalı, № 1, 2014, s. 135-145.

**Türk dilində:**

10. Abdulayev F.N. Modern dönemde uluslararası göç ve göç politikası. İstanbul: Karmen Matbaacılık, 2015, 246 s.

11. Çağlayan S. Göç kuramları, göç ve göçmen ilişkisi // Muğla Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi (İLKE). Güz 2006, Sayı 17, s. 67-91.

12. Dağaşan E., Aydın S. Geçmişten günümüze göç / editör O.Köse. Samsun: İlkadım, 2017, 1456 s.

13. Kolbaşı K.M. Ulusötesi hayatlar: Hollandada yaşayan türk vatandaşlarının sosyal güvenligi // Türkiyat Araştırmaları Enstitüsü Dergisi. TAED-72, 2021, s. 523-539.

14. Yusifsoy A., Özsüer E. Azerbaycan'da İç Göçe Maruz Kalmış İnsanların Geri Dönüş Motivasyonunun Değerlendirilmesi // VAKANÜVİS – Uluslararası Tarih Araştırmaları Dergisi. Yıl 7, Sayı 1, Bahar 2022, s. 467-510.

**İngilis dilində:**

15. Haas H. The Migration and Development Pendulum: A Critical View on Research and Policy // International Migration Vol. 50 (3) 2012, p. 8-25.

16. Voloshyna Y. Theoretical and methodical bases of pendulum migrations and analysis of the sources of intra-regional flows of population movements (for example, transcarpathion region, Ukraine) // International Journal – VALLIS AUREA. Volume 1, № 2. Croatia, December 2015, p. 21-31.

**Rus dilində:**

17. Акишина М.Л., Фанненштиль А.А. Формирование балансов трудовых ресурсов сельской местности в условиях роста маятниковой трудовой миграции // Вестник Алтайского государственного аграрного университета № 11 (109), 2013, с. 152-156.

18. Бугаев М.А. Маятниковые миграции на рынке труда Санкт-Петербурга и Ленинградской области // Вестник Санкт-Петербургского Университета. Сер. 5, Вып. 4., 2015, с. 86-116.

19. Бедрина Е.Б., Козлова О.А., Ишуков А.А. Методические вопросы оценки маятниковой миграции населения // Ars Administrandi (Искусство управления). 2018. Том 10, № 4, с. 631-648.

20. Дорофеева Л.А., Касьянова Е.А. Маятниковая миграция населения в Красноярской городской агломерации (на примере населенных пунктов Емельяновского района) // Известия Иркутского государственного университета.

Серия «Науки о Земле». 2017. Т. 20, с. 25-42.

21. Дьячкова П.А., Мосиенко Н.Л. Анализ маятниковых миграций в городской агломерации: социо-логические опросы и большие данные // “Мир экономики и управления”, Т. 21, № 4, 2021, с. 205-228.

22. Забродская Н.Г., Хацкевич Г.А., Петриковец Т.А. Маятниковая миграция и развитие белорусских агломераций // Бизнес. Инновации. Экономика. № 5, 2021, с. 205-214.

23. Комарова А.Д. Маятниковые миграции населения и стратегия устойчивого развития периферийных пригородных районов г. Хабаровска // “Инновации и инвестиции” № 1, 2022, с. 186-195.

24. Мальцева Е.С. Региональный рынок труда и проблема маятниковой трудовой миграции // Вестник Череповецкого государственного университета № 3, Т. 1, 2012, с. 41-44.

25. Михалев Н.А. Маятниковая миграция в городах РСФСР по данным Всесоюзной переписи населения 1970 г.: размеры, потоки, структура // Вестник Томского государственного университета. История, № 80, 2022, с. 56-65.

26. Соколова А.А. Масштабы маятниковой трудовой миграции в регионах России // “Проблемы развития территории”. Т. 27, № 4, 2023, с. 52-70.

27. Шитова Ю.Ю. Маятниковая трудовая миграция в Московской области: методический и прикладной анализ // Экономический журнал ВШЭ, № 1, 2006, с. 63-79.

28. Шитова Ю.Ю. Влияние рынка жилья на маятниковую трудовую миграцию в Московской агломерации // ЭНСР № 4 (47) 2009, с. 99-107.

29. Шитова Ю.Ю., Шитова Ю.А. Анализ долгосрочной динамики факторов, определяющих маятниковую трудовую миграцию в Подмосковье // “Труд и занятость”, № 4 (157), 2016, с. 151-162.

30. Шкарет А.А. Социологический подход к изучению состояния маятниковой миграции на территории города Белгорода и соседних районов // Научный результат. Технологии бизнеса и сервиса. Т.6, № 3, 2020, с. 57-68.

**Agil Ahmadov**

## THEORETİCAL ASPECTS OF PENDULUM MİGRATİON

### Abstract

Migration, as a sensitive and global phenomenon, plays a critical role in shaping the domestic and foreign policies of states and safeguarding their national security. This article explores the theoretical dimensions and practical significance of "pendulum migration," a relatively understudied topic in the history of modern international relations. Drawing on the works of domestic and international scholars, the study provides an analysis of this specific migration pattern using empirical data.

The research highlights the regular mobility of migrants between neighboring settlements, urban agglomerations, towns, and villages. It also examines regional and international experiences, emphasizing their relevance and socio-economic benefits. Special attention is given to the achievements of several highly developed Western European countries in managing pendulum migration.

Additionally, the article identifies 12 other forms of migration, discussing their theoretical and scientific importance. The progressive experience of the Republic of Azerbaijan in migration policy is also briefly addressed, showcasing its contributions to this field.

**Keywords:** migration, history, regional, international, migration, state, social, policy

**Агиль Ахмедов**

## ТЕОРЕТИЧЕСКИЕ АСПЕКТЫ МАЯТНИКОВОЙ МИГРАЦИИ НАСЕЛЕНИЯ

### Резюме

Миграция является важным процессом как во внутренней, так и во внешней политике государств и играет значительную роль в обеспечении национальной безопасности. Статья отражает теоретические аспекты и практическое значение малоизученной в контексте современных международных отношений формы миграции населения — маятниковой миграции.

Для достижения поставленной цели, опираясь на работы отечественных и зарубежных специалистов, а также фактологические материалы, был проведен анализ общей картины данного типа миграции. В научно-исследовательской работе показана регулярная мобильность мигрантов между близлежащими населенными пунктами, а также динамика миграционных процессов в городских агломерациях и сельских поселениях.

Изучение регионального и международного опыта в данной области, а также значение его применения и социально-экономические выгоды были широко обсуждены. В частности, были приведены примеры из опыта наиболее развитых западноевропейских стран, которым уделено внимание в контексте маятниковой миграции. Наряду с рассматриваемым типом миграции, в статье также упоминаются еще 12 видов миграций, научно-теоретическая значимость которых обоснована в исследовании. В кратком изложении также представлен прогрессивный опыт, приобретенный Азербайджанской Республикой в области миграционной политики.

**Ключевые слова:** миграция, история, региональная миграция, международная миграция, мигрант, государственная политика, социальная политика

# SOSİAL-İQTİSADİ TƏDQİQATLAR

# SOCIO-ECONOMIC RESEARCH

# İŞĞALDAN AZAD EDİLƏN REGİONLARDA MÜŞTƏRƏK BİZNESİN İNKİŞAF PERSPEKTİVLƏRİ

**Maşallah SƏFƏROV**
*Bakı Dövlət Universitetinin doktorantı*
*(Bakı, Azərbaycan)*

*E-mail: masallah.safarov.roman@bsu.edu.az*
*ORCID: 0000-0001-5718-9754*
*UOT/UDC: 33*

**Xülasə.** Azərbaycan Respublikası Prezidentinin 02 fevral 2021-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2030: sosial iqtisadi inkişafa dair” Milli Prioritetlərdə qeyd olunmuş 5 əsas məsələdən biri də işğaldan azad edilmiş regionlara qayıdışın stimullaşdırılması, həmin ərazilərdə milli iqtisadiyyatın sahəvi inkişaf potensialının reallaşdırılmasından ibarətdir. Qeyd olunmalıdır ki, 44 günlük Vətən müharibəsinin zəfərlə başa çatmasından dərhal sonra Qarabağ regionunda bərpa və quruculuq işləri başlanmışdır. Perspektiv köçün təmin edilməsi və sahibkarlığın inkişaf etdirilməsi məqsədilə yol-infrastruktur layihələri reallaşdırılmış, telekommunikasiya xətlərinin bərpasına yer verilmişdir.

Məqalədə müştərək biznesin mahiyyəti açıqlanmaqla işğaldan azad edilən ərazilərdə müştərək biznesin inkişaf prioritetləri, hansı təsərrüfat sahələrinin müştərək biznesə cəlb edilə bilməsi məsələləri, eyni zamanda alternativ və innovativ maliyyə mənbələrinin həmin ərazilərdə müştərək biznesə cəlb edilməsi yolları araşdırılmış, müştərək sahibkarlıq fəaliyyətinin həmin ərazilərdə inkişafının PESTLE analizi aparılmışdır.

**Açar sözlər:** sahibkarlıq fəaliyyəti, müştərək, milli iqtisadiyyat, işğaldan azad edilmiş ərazilər, alternativ maliyyələşmə

## Giriş

İşğaldan azad olunmuş Qarabağ regionuna vətəndaşların köçürülməsi hələ 2018-ci ilin may ayından etibarən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə olan köçlə start götürmüşdür. 2016-cı il Aprel döyüşlərinin məntiqi davamı olan 44 günlük Vətən müharibəsi başa çatdıqdan sonra da Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının dirçəldilməsi üçün Azərbaycan dövləti böyükmiqyaslı bərpa-tikinti işlərinə start vermişdir. Heç bir xarici maliyyə vəsaitlərini cəlb etmədən və beynəlxalq maliyyə institutlarından borc almadan reallaşdırılmaqda olan yenidənqurma layihələri üçün dövlət büdcəsindən təkcə 2021-ci ildə 2,2 mld. manat vəsait ayrılmışdır. 2022-ci ildə bu vəsait 2,7 mld. manat, 2023-cü ildə isə 4,8 mld. manat olmuşdur [2, 3, 4]. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin illik hesabatına əsasən, 2021-ci ildə dövlət büdcəsindən ayrılmış vəsaitin 99 %-ə qədəri (2,178 mld. manat) aidiyyəti üzrə icra edilmişdir. Belə ki, postkonflikt dövründə 1,6 mld. manat vəsait avtomobil yollarının layihələndirilməsi, tikintisi, bərpası, 261,1 mln. manat vəsait isə dəmir yolu xətlərinin bərpası və tikintisi üçün xərclənmişdir [7, s.37].

İşğaldan azad edilmiş regionların sosial-iqtisadi cəhətdən dirçəldilməsi və oraya yeni nəfəsin gətirilməsi üçün dövlətimizin qarşısında duran aktual məsələlərdən biri həmin ərazilərin minalardan təmizlənməsi olmuşdur. Məhz bununla əlaqədar olaraq 2021-ci ildə dövlət büdcəsindən ayrılmış 97,6 mln. manat vəsait ilkin xərc kateqoriyası kimi həmin ərazilərin minalardan təmizlənməsi üçün aidiyyəti üzrə istifadə edilmişdir. Habelə kadastr xidməti və məhsuldar torpaqların qiymətləndirilməsi üçün 67,2 mln. manat vəsait xərclənmişdir [7, s.37]. 2021-ci ilin sadalanan xərcləri ilə müqayisədə 2023-cü ilin müvafiq transfertləri təqribən iki dəfə artırılmışdır ki, bunun da əsasını yol-infrastruktur layihələrinin icrası, şəhərsalma və abadlaşdırma işlərinin sürətləndirilməsi, alternativ avtomobil yollarının salınması, "Ağıllı kənd" layihələrinin genişləndirilməsi və məşğulluğun təmin edilməsi, demoqrafik balansın yaradılması istiqamətində biznes subyektlərinin çoxaldılması üçün stimullaşdırma tədbirlərinə yönləndirilmişdir [7, s.37].

Qeyd olunduğu kimi, işğaldan azad edilmiş regionlarda, o cümlədən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında sosial-iqtisadi həyatın dirçəldilməsi fonunda özəl sahibkarlıq fəaliyyətinin əvəzsiz rolu olacaqdır. Tədqiqat işinin predmetinə müvafiq olaraq işğaldan azad edilmiş regionlarda sahibkarlıq mühitinin formalaşması ilə müştərək (ortaqlı) biznesin inkişafına da əlverişli şərait yaranacaqdır. Yuxarıda qeyd edilmiş statistik göstəricilər və eyni zamanda proqnozlaşdırılmış fəaliyyətlər məşğulluğun artırılması, işsizliyin azaldılması və həmin ərazilərdə müştərək biznes subyektlərinin perspektivlərinin yüksəldilməsi çərçivəsində aparılmış tədqiqat işinin aktuallığını göstərir.

## Müştərək biznes strukturları

Müştərək biznesdən danışılarkən ilk növbədə "müştərək müəssisə" anlayışına diqqət yetirmək lazımdır. Ölkəmizdə və Qərb ədəbiyyatlarında bu tip müəssisələrin (joint ventures) xarakteristikası müxtəlif meyarlar üzrə müəyyənləşdirilmişdir. Belə ki, müştərək müəssisə dedikdə, beynəlxalq biznes əlaqələrinin çoxtərəfli istiqamətlərə daxil olan, təsərrüfatın təşkilinin spesifik hüquqi forması başa düşülür və o, aşağıdakı xüsusiyyətlərə malikdir [7, s.101]:

1. Müştərək müəssisələr iki və daha çox təsərrüfat subyektinin aktivlərinin müəyyən qədər bölüşdürülməsi yolu ilə və ya müəssisədə payçı olan hər kəsin

kapital qoyuluşu etməsi ilə yaradılır;

2. Bu tip müəssisələr istehsal, məhsul (iş, xidmət) satışı, maliyyə, elmi-tədqiqat işlərinin aparılması sahəsində fəaliyyət göstərə bilər;

3. Tərəfdaşlar səlahiyyətə malik olmaqla həm də müəssisənin idarə edilməsində əhəmiyyətli dərəcədə məsuliyyət daşıyırlar;

4. Nizamnamə kapitalının qoyuluşu uzunmüddətli dövr üçün nəzərdə tutulur;

5. Müştərək sahibkarlıq fəaliyyəti tərəfdaşların məsuliyyətlərinin və səlahiyyətlərinin bölüşdürülməsi ilə birgə hər bir iştirakçının fəaliyyətinin yalnız bir hissəsini özündə ehtiva edir;

6. Müəssisənin mənfəətində və zərərində tərəfdaşların payı müəssisədə iştirak payına mütənasib şəkildə bölüşdürülür [7, s.101].

Müştərək müəssisələrin yaranması və formalaşması tarixi çox qədim keçmişə malik olsa da, onların tərifi və mənalandırılması ilə bağlı yekdil fikir mövcud deyildir. Ümumiyyətlə, "müştərək müəssisə" anlayışı ilk dəfə XIX əsrdə Qərb iqtisadçıları tərəfindən elmə gətirilmişdir, XX əsrdən başlayaraq elmi əsərlərdə geniş şəkildə istifadə edilməyə başlanmışdır [1, s.2]. Bununla belə, müştərək müəssisələrin aşağıdakı əsas təriflərini qeyd edərək onların məzmununu daha da aça bilərik.

- Müştərək müəssisə investisiya yatırımında iştirak edən yerli və xarici biznes subyektləri arasında bağlanmış saziş əsasında aparılan ticarət, görülən iş və göstərilən xidmətlərin məcmusunu əhatə edir ki, bu da milli iqtisadiyyatın inkişafına zəmin yaradır;

- Müştərək müəssisələr nizamnamə kapitalları yerli və beynəlxalq kapitalın iştirakı ilə yaranan və ya formalaşan təsərrüfat subyektləridir;

- Müştərək müəssisələr idarəetmə forması ortaqlığa əsaslanan, birgə maliyyələşmə mexanizmi əsasında fəaliyyət göstərən, mənfəət və zərərin iştirakçılar arasında bölüşdürülməsini nəzərdə tutan təsərrüfat subyektidir [7, s.103].

- Dar mənada (funksional olaraq) müştərək müəssisə dedikdə, iki və daha artıq ölkənin tərəfdaş şirkətlərinin yatırdıqları investisiyaya və sazişlərə müvafiq olaraq planlaşdırılan, təşkil edilən, yaradılan və nəzarət edilən hüquqi müstəqil təsərrüfat subyekti başa düşülür.

Onu da qeyd etməliyik ki, müştərək müəssisələr birzavodlu (fabrikli) və ya çoxzavodlu ola bilər [7, s.103]. Birzavodlu müəssisələr qrupuna kiçik, orta və iri sahibkarlıq subyektlərini daxil ediriksə, çoxzavodlu müştərək müəssisələr qrupuna isə trestlər, konsernlər, konqlomeratlar və s.-ni aid edə bilərik. Müştərək müəssisələrin sosial-iqtisadi məzmununu ifadə edərkən tərəfdaşların texnoloji və emosional əməkdaşlığı məsələlərini də vurğulamaq yerinə düşərdi. Çünki müştərək müəssisədə pay ortaqlığı iştirakçılarının yumşaq və sərt bacarıqları bazar iqtisadiyyatında rəqabətqabiliyyətliliyin və "sağ qalmağın" vacib şərtlərindən biridir və müştərək müəssisələrdə tərəfdaşlıq əlaqələrinin bu istiqamətləri düzgün icra edilməlidir.

Xarici investisiyaların milli iqtisadiyyata cəlb edilməsini, eyni zamanda ölkədə müştərək (ortaqlı) biznes mühitinin stimullaşdırılmasını şərtləndirən amilləri amerikalı iqtisadçı S.Kuznets aşağıdakı şəkildə təsbit etmişdir:

1. Maliyyə vəsaitlərinə qənaətin həcminin az olması milli iqtisadiyyata əlavə xarici investisiyaların cəlb edilməsini şərtləndirir. Belə ki, inkişaf etməkdə olan ölkələrdə qənaətə meyil o qədər aşağı səviyyədədir ki, iqtisadi inkişaf və iqtisadi artıma təkan verə biləcək fondların yaradılması prosesi ləngiyir;

2. İnkişaf etməkdə olan ölkələrdə istehlak məhsulları istehsalına sərf edilən resurslar (istehsal amilləri) cəmiyyətin məhsuldar istehsalına sərf edilən resurs-

lardan qat-qat azdır. Başqa sözlə, istehsal amillərinə real qənaətə meyillilik cəmiyyətin nümayəndələri arasında aşağı səviyyədədir. Bu baxımdan da məhsuldar istehsala (iqtisadiyyatın real sektoru üçün) yatırılan investisiyanın böyük hissəsi xarici maliyyə vəsaitləri hesabına təmin edilir;

3. Bəzi inkişaf etməkdə olan dövlətlərdə xarici resursların cəlb edilməsi üçün xarici valyuta ehtiyatlarının azlığı müşahidə edilir. Bu baxımdan həmin aktivlərin əldə edilməsi üçün xarici portfel investisiyalara önəm duyulur [7, s.106].

Yuxarıda sadalanan faktorların fonunda belə nəticəyə gəlmək olar ki, ölkədə xarici investisiyaların payının artması, bununla da müştərək biznesin formalaşmasının əsas səbəblərini qısa şəkildə istehlaka meyillilik, iqtisadiyyatın real sektoruna yerli yatırımın az olması (ÜDM-in azlığı) və xarici dönərli valyutaya ehtiyac kimi qiymətləndirə bilərik.

İşğaldan azad edilmiş regionlarda müştərək biznesin formalaşdırılmasının zəruri şərtlərindən biri həmin ərazilərə xarici investisiyaların cəlb edilməsidir. İngilis iqtisadçısı K.Leyton öz əsərlərində vurğulayır ki, bazar iqtisadiyyatına yenicə daxil olmuş və ya keçid iqtisadi sistemində fəaliyyət göstərən inkişaf etməkdə olan ölkələr beynəlxalq əmək bölgüsündə iştirak etmək istəyirlərsə, xarici iqtisadi əlaqələrdə onların geniş surətdə iştirakı vacibdir [7, s.105]. Azərbaycan dövlətinin müstəqillik qazandıqdan sonra beynəlxalq maliyyə institutları ilə birgə əməkdaşlığı nəticəsində icra etdiyi müxtəlif irihəcmli layihələrin əsasında da bu tip əlaqələr durur. Məsələn, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının böyük həcmdə yaşıl enerji resursları mövcuddur. Belə ki, hesablamalara görə, işğaldan azad edilmiş regionlarda alternativ enerji resurslarının həcmi 4500 meqavatdan çoxdur. Bununla əlaqədar olaraq müxtəlif transmilli korporasiyalar, o cümlədən İngiltərənin BP şirkəti Cəbrayıl-Zəngilan ərazisində günəş enerjisindən istifadə ilə bağlı layihə təklifi formasını aidiyyəti qurumlara təqdim etmişdir və Azərbaycan Respublikası Energetika Nazirliyi ilə BP arasında bu mövzuda müzakirələr müsbət istiqamətdə davam etməkdədir [9, s.4].

Qarabağda investisiya layihələrinin reallaşdırılması prosesinda yaxından iştirak edən ölkələrdən biri kimi qardaş Türkiyənin “Ziraat Bank” şirkəti artıq Şuşa şəhərində filial açılışı ilə əlaqədar ölkəmizin bank sektoru nümayəndələri ilə razılığa gəlmişdir [9, s.11]. O cümlədən TÜMKİAD-ın (Tüm Kalkınma ve Girişimci İş İnsanları Derneği) İdarə Heyətinin sədri regionda tekstil sahəsinin inkişaf etdirilməsi çərçivəsində 50 milyon dollar investisiya yatırmağı planlaşdırdığını da açıqlamışdır [9, s.11].

Qarabağ regionunda müştərək biznesin inkişaf prioritetlərindən biri də sənaye sahələrinin fasiləsiz fəaliyyətinin təmin edilməsi, ənənəvi sahələrin iqtisadi həyata geri qaytarılmasıdır. Belə ki, “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair” Milli Prioritetlərdə işğaldan azad edilmiş regionlarda sənaye parklarının, iri müəssisələrin yaradılması da iqtisadi canlanmanın mühüm təkanverici elementi sayıla bilər. Digər tərəfdən, ölkəmizdə qeyri-neft sektorunun potensialının 50%-ə çatdırılması üçün sənaye sahələrinin inkişafında Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əlverişli relyefi, zəngin faydalı qazıntı yataqları mövcuddur [9, s.5]. Bu yataqların istismarı, hasilat və emal sənayesinin fəaliyyətinin bərpası regionda iqtisadi canlanmaya və eyni zamanda müştərək müəssisələrin də yaradılmasına səbəb olacaqdır. 1988-ci ilin rəsmi statistik məlumatlarına əsasən, Azərbaycan SSR-in sənaye məhsulları istehsalının 4,8 %-i məhz Mərkəzi Qarabağ (həmin dövr üçün) iqtisadi rayonunun payına düş-

müşdür. Belə ki, I Qarabağ müharibəsinə qədər adambaşına düşən sənaye məhsuluna görə Bakı-Sumqayıt və Gəncə-Qazax iqtisadi rayonlarından sonra 3-cü yerdə qərarlaşan Mərkəzi Qarabağ iqtisadi rayonunda aparıcı sənaye sahələri, əsasən, elektrotexnika, ipəkçilik, üzümçülük və ağac emalı sahələri olmuşdur [14]. Hətta işğal dövrünə qədər iqtisadi rayonun əsas mərkəzi olan Xənkəndidə (45%-ə qədər) kəlağayı ipəyinin toxunma zavodları mövcud idi. Eyni zamanda regionun yerli əhəmiyyətli istehsal sahələri, o cümlədən maşınqayırma və tikinti materialları hasilatı və emalı da mühüm yer tutmuşdur. Postkonflikt dövründə həmin ərazilərin təbii iqlim şəraiti və relyefini, təbii ehtiyatlarını nəzərə alaraq yuxarıda sadalanmış sahələrin yenidən canlanmasına nail olmaq mümkündür.

Bununla bağlı olaraq 2021-ci ildə tərkibində bir neçə MMC-ni, o cümlədən AMEA-nın (indi Elm və Təhsil Nazirliyinin nəzdində fəaliyyət göstərən) İdarəetmə Sistemləri İnstitutunu birləşdirən müştərək müəssisə olan “Böyük Qayıdış” konsorsiumu həmin ərazilərdə kənd təsərrüfatının mövcud vəziyyətinin təhlilinin aparılması və görüləcək işlərin strateji baxımdan qiymətləndirilməsi istiqamətində mühüm addımlar atmışdır [10]. “Böyük Qayıdış” konsorsiumu eyni zamanda Füzuli rayonunun Horadiz qəsəbəsində salınacaq “Ağıllı kənd” layihəsinin icrasını da üzərinə götürmüşdür. Sənaye parklarının yaradılması, elmi-texniki yeniliklərin tətbiqini nəzərdə tutan layihədə həm də ölkə üzrə demoqrafik disbalansın aradan qaldırılması üçün böyük zəmin yaranmışdır.

Qarabağ regionunda turizmin inkişafı üçün də böyük şərait mövcuddur. Kiçik Qafqaz sıra dağlarının mövcudluğu, əlverişli iqlimi və əsrarəngiz təbiəti ilə göz oxşayan regionun turizm potensialı maksimum dərəcədə istifadə edilməlidir. Qeyd olunan ərazilərin dəniz səviyyəsindən 1000-2000 metr yüksəklikdə olması, mülayim-soyuq iqlimin, dağətəyi ərazilərdə isə nisbətən isti iqlimin mövcudluğu, mövsümi yağıntıların 500-900 mm-ə qədər olması bu regionu dağ və ekoturizmin inkişafı baxımından digər iqtisadi rayonlardan fərqləndirir [8, s.4]. Bundan əlavə, kurort-sağlamlıq turizminin inkişafı da istisna edilmir.

Ekoturizmin inkişaf etdirilməsinin əsas meyarlarından biri kimi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında təbii göllərin mövcudluğudur. Həmin ərazilərdə yerləşən 7 gölün (Böyük Alagöl, Kiçik Alagöl, Qaragöl, Zalxagöl, İşıqlı Qaragöl, Canlı göl, Tərtər çayının qolu sayılan Torağaçayda Qaragöl) susuz qalmış yaşıllıqların yenidən dirçəldilməsində istifadə edilməsi, şirin su ehtiyatlarının qarşılanması baxımından önəmi danılmazdır [6, s.15]. 1976-cı ildə Tərtər çayı üzərində inşa edilmiş Sərsəng su anbarının tutumunun 560 mln. kub metr olmasını və 90-cı illərə qədər 79 min ha-dan çox ərazini su ilə təmin etməsini nəzərə alaraq işğal dövründən sonrakı dağıntıların bərpası da dövlətimizin kənd təsərrüfatı və turizm sektorlarının yenidən şəkilləndirilməsi baxımından əsas prioritet məsələlərindən biri sayılır [8, s.3]

COVID-19 pandemiyasının ölkəmizdə təsərrüfatın bütün sahələri kimi turizm sektoruna da mənfi təsir etməsi bu sahəyə yatırılan investisiyaların azalmasına səbəb olmuşdur. Məsələn, qəbul edilmiş və göndərilmiş turistlər üzrə 2019-cu illə müqayisədə 2020-ci ildə 58,9 %-ə qədər azalma olmuşdur ki, bu da turizm və ümumilikdə ictimai iaşə obyektlərinin fəaliyyətinin stimullaşdırılması istiqamətində 821 milyon manat yatırım deməkdir [14]. Postpandemiya və postkonflikt dövründə işğaldan azad edilmiş regionlarda turizmin inkişafı üçün “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair” Milli Prioritetlərdə də qeyd olunmuş reinteqrasiya və

davamlı məskunlaşma məsələlərinin ön plana çıxması həmin ərazilərə yaxın və uzaq perspektivdə böyük yatırımların olacağından xəbər verir.

Ümumilikdə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının dirçəldilməsində, orada sahibkarlıq mühitinin formalaşmasında, reinteqrasiya prosesinin yenidən şəkilləndirilməsində vergi, sosial ödəniş güzəştlərinin və azadolmalarının tətbiqi də əsas motiv kimi qeyd edilə bilər. Belə ki, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) həmin ərazilər üzrə strateji planına müvafiq olaraq Agentlik rəsmi şəkildə fərdi sahibkarlara və hüquqi şəxslərə birgə fəaliyyət üzrə əməkdaşlıq təklif etmişdir. Təklifin əhatə etdiyi biznes predmetləri hotel, ictimai iaşə, aptek, avtomobil servis mərkəzləri, avtoyuma mərkəzləri, çamaşırxana və quru təmizləmə, təmizlik və yükdaşıma xidmətləri, inşaat malları mağazası və s. yönündə olmuşdur [12].

Yuxarıda qeyd etdiyimiz azadolma və güzəştlərin işğaldan azad edilmiş regionlarda müştərək biznesi stimullaşdırmaqla xarici investorların, TMK-lərin fəal şəkildə təsərrüfat prosesinə cəlb edilmələrinə imkan verəcəyi istisna edilmir. Belə ki, postkonflikt dövründə Vergi Məcəlləsinə edilən əlavə və dəyişikliklər fonunda "İşğaldan azad edilmiş ərazilərdə tətbiq edilən vergitutma xüsusiyyətləri" başlıqlı XIX fəsildə azadolmanın şamil olunduğu fəaliyyət istiqamətləri öz əksini tapmışdır. Həmin fəslin 227-ci maddəsində vergiyə cəlb edilməyən gəlirlərin, renta və dividentlərin hansı müddətə bu güzəştlərə daxil edilməsi də qeyd edilmişdir:

- İşğaldan azad edilmiş ərazinin rezidentləri 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətində mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergidən azaddırlar.
- ƏDV-nin məqsədləri üçün qeydiyyatda olan rezidentlər siyahısı təsdiq edilmiş iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə xammal və materialların idxalına görə 2023-cü il yanvarın 1-dən etibarən 10 (on) il müddətində ƏDV-dən azaddırlar.
- İşğaldan azad edilmiş ərazinin rezidenti olan hüquqi şəxslərin səhmdarlarının (payçılarının) dividend gəlirləri 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətində vergidən azaddır [12].

Beləliklə, işğaldan azad edilmiş regionlarda təsərrüfatın müxtəlif sahələrinin inkişafı üçün dövlət tərəfindən stimullaşdırıcı tədbirlərin görülməsi də investisiyaların artımına, həmin ərazilərdə şərikli biznesin yaradılması və inkişafına öz töhfəsini verəcəkdir. Eyni zamanda ölkəmizdə maliyyə bazarlarının inklüziv inkişafı və innovativ məhsulların inteqrasiyası üçün 31 yanvar 2024-cü ildə Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən qəbul edilmiş "Xüsusi tənzimləmə rejiminin tətbiq edilməsi Qaydası" ölkədə hələlik pilot layihə kimi alternativ maliyyələşmə mənbələrinə çıxışın təmin edilməsində aparıcı rola malik olacaqdır. Belə ki, həmin Qayda Mərkəzi Bankın İdarə Heyəti tərəfindən təsdiq edilmiş "2024-2026-cı illərdə maliyyə sektorunun inkişaf Strategiyası" əsasında iştirakçıların Mərkəzi Banka innovativ məhsullar təqdim etməsinə, onu reallaşdırmasına və maliyyə institutlarının şəffaf şəkildə fəaliyyətinə təkan verəcəkdir. Bununla da ölkə ərazisində, o cümlədən işğaldan azad edilmiş regionlarda alternativ maliyyə məhsullarının tətbiqi investisiya layihələrinə əlçatanlığı təmin edəcəkdir.

Strategiyada ərizəçilər tərəfindən təqdim edilə biləcək innovativ maliyyə məhsullarından biri də İslam maliyyə aləti sayılan sukuk (İslam qiymətli kağızı) öz əksini tapmışdır [13]. Sukuk alətinin əsasını şərikli maliyyə prinsipləri ilə qiymətli kağızın emissiyası, alınıb-satılması təşkil edir. Sukuk fərdi, yaxud

Diaqram 1.
**Sorğu iştirakçılarının cins və yaş müxtəlifliyi**




ümumi kapitalda iştiraka dair pay sənədidir [15]. Sukuk ilə əldə edilən pay gəlirləri digər ənənəvi qiymətli kağızlardan (məsələn, istiqraz, səhm) fərqli olaraq yalnız İslam hüququ ilə təsbitini tapmış məhsullar (real sektor) üzərindən əldə edilə bilər. Həmçinin sukuk innovativ məhsul olmaqla iştirakçılıq baxımından səhmə, gəlirgətirmə baxımından isə istiqraza bənzəyir. İşğaldan azad edilmiş regionlarda bu tip innovativ maliyyə alətlərinin tətbiqi gələcəkdə alternativ bazara çıxış imkanları üçün böyük rol oynayacaqdır.

Tədqiqat işimizlə əlaqədar olaraq “İşğaldan azad edilmiş regionlarda müştərək müəssisələrin fəaliyyət perspektivləri” adı altında sorğu keçirilmiş, sorğuya 70 nəfər tədqiqatçı, tələbə və müəllim cəlb edilmişdir. Onlayn şəkildə icra edilən sorğuda nisbətən kişi respondentlərin sayı çox olmaqla, ortalama yaş 30 olaraq müəyyən edilmişdir.

Sorğuda 2 əsas məsələ – müştərək müəssisələr barədə iştirakçıların məlumatlılığı və təsəvvürü, müştərək müəssisələrin və müştərək biznesin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında hansı təsərrüfat sahələri üçün əlverişli ola bilməsi məsələləri diqqətə alınmışdır. Sorğuda iştirak edənlərin əksəriyyəti (73,2 %) müştərək biznesi “iki və daha artıq şəxsin bilik və bacarıqlarını, maliyyə imkanlarını bir araya gətirərək qurduqları biznes” kimi qiymətləndirmişlər. Qarabağ regionunda müştərək biznesin əsasən hansı sahədə formalaşa və inkişaf etdirilə bilməsi ilə bağlı sualımıza sorğu iştirakçılarının böyük hissəsi “kənd təsərrüfatı"nı və "turizmi” qeyd etmişlər. Qeyd edildiyi kimi, ölkəmizin dağlıq və dağətəyi regionlarında, xüsusilə işğaldan azad edilmiş regionlarda adıçəkilən sahələrin inkişaf perspektivləri daha yüksəkdir:

Diaqram 2.
**Qarabağ regionunda müştərək biznes əsasən hansı sahədə formalaşdırıla və inkişaf etdirilə bilər?**




Diaqram 4.
**İşğaldan azad edilmiş regionlarda kənd təsərrüfatının hansı sahələrinin inkişafı daha əlverişlidir?**




Tədqiqat işimizdə qeyd edildiyi ki, Qarabağda biznes mühitinin yenidən şəkillǝndirilməsi və reinteqrasiyanın sürətləndirilməsi üçün vacib şərtlərdən biri də dövlətin daraldıcı fiskal siyasət yeridərək azadolma və güzəştlər tətbiq etməsidir. Sorğu iştirakçılarından 47 nəfərin fikrincə, Qarabağ regionunda iqtisadiyyatın çiçəklənməsi üçün dövlət qurumlarının, agentliklərin fəal iştirakı, yeni qanun layihələrinin, pilot layihələrin icrası önəmlidir. Aşağıdakı qrafikdən də göründüyü kimi, regionda müştərək biznes mühitinin formalaşdırılması üçün bankların güzəştli, faizsiz kreditlərinin də prioritet ola biləcəyini düşünən şəxslər çoxluq təşkil edir.

Sorğu iştirakçılarına ünvanlanan suallardan biri də regionda kənd təsərrüfatı sahələrindən hansıların inkişaf etdirilə bilməsi ilə bağlıdır. Respondentlərin 42 nəfəri meyvə-tərəvəzçilik təsərrüfatının və 52 nəfəri isə heyvandarlıq təsərrüfatının kənd təsərrüfatında önəmli yerə malik olduğunu qeyd etmişlər. Bundan əlavə, texniki bitkiçilik və meşə təsərrüfatı sahələri də sorğu iştirakçılarının rəyləri sırasında üst sıralarda yer tutur:

Diaqram 3.
**Qarabağ regionunda müştərək biznesin inkişafını aşağıdakılardan hansı stimullaşdıra bilər?**



## Metodologiya

İşğaldan azad edilmiş regionlarda müştərək biznes fəaliyyəti ilə məşğul olacaq şəxslərin, investorların qarşılaşa biləcəkləri mənfi və müsbət amillərin nəzərə alınması üçün tərəfimizdən PESTLE (Political, Economic, Social, Technical, Legal, Ecological) analizi aparılmışdır. Analizin nəticəsinin ətraflı izahına tədqiqat işimizin "Nəticə" bölməsində yer ayrılmışdır.

**Cədvəl 1. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında fəaliyyət göstərəcək birgə müəssisələrin qarşılaşa biləcəyi mənfi və müsbət amillər:**

| ÜSTÜNLÜKLƏR | ÇATIŞMAZLIQLAR |
|---|---|
| **Siyasi (political)** | |
| **1. Türk dünyasını birləşdirən nəqliyyat yolunun (Zəngəzur dəhlizi) üzərində yerləşməklə TMK-ların fəaliyyətinə əlverişli şəraitin yaranması;**<br>**2. Ermənistanla sülh sazişinin reallaşması inkanları ilə yaxın perspektivdə Qərbə çıxışı olan layihələrin daha qısa məsafədə və az xərclə reallaşdırıla bilməsi ehtimalı.** | 1. Qərb qonşumuzun revanşist addımlarını dəstəkləyən vətəndaş cəmiyyəti;<br>2. Sülh sazişindən boyunqaçırma hallarının mövcudluğu; |
| **İqtisadi (economic)** | |
| **1. Yerli və xarici investorların birgə fəaliyyəti çərçivəsində birgə müəssisələrin yaradılması;**<br>**2. Türkiyənin aparıcı texnoparkı sayılan GOSB ilə Azərbaycan İnnovasiyalar Agentliyinin Qarabağda böyük texnologiyalar parkının yaradılmasına dair memorandumun imzalanması.** | 1. İnvestisiya layihələrinin reallaşdırılması üçün istifadə olunacaq istehsal amillərinin, o cümlədən təbii sərvətlərin işğal dövründə ermənilər və havadarları tərəfindən əlverişsiz istifadəsi və talan edilməsi;<br>2. Ənənəvi istehsal sahələrinin yenidən bərpa olunması prosesinin uzun vaxt çəkə bilməsi ehtimalı. |
| **Sosial (social)** | |
| **1. Füzuli və Zəngilan rayonlarına mütəmadi olaraq sakinlərin köçürülməsi ilə iqtisadi həyatın bərpasına töhfənin verilməsi;**<br>**2. Dövlət Məşğulluq Agentliyinin və DOST mərkəzlərinin rayon nümayəndəliklərinin yaradılması ilə sahibkarlığın və məşğulluğun stimullaşdırılması.** | 1. Regionda etnik ermənilərin “Azərbaycançılıq” ideologiyası barədə maarifləndirilməmələri;<br>2. Demoqrafik disbalansla əlaqədar olaraq iqtisadi fəal əhalinin azlığı |

| Texnoloji (technical) | |
|---|---|
| 1. **Regionda "Ağıllı şəhər", "Ağıllı kənd" layhələrinin icrası ilə müasir texnologiyalardan istifadə, beynəlxalq təcrübənin tətbiqi prosesinin sürətlənməsi;**<br>2. **Minalarla çirklədilmiş torpaqların təmizlənməsinə yeni müasir texnologiyaların cəlb edilməsi** | 1. Texnoloji yeniliklərin tətbiq dairəsinin və hədəf kütlənin hələ də müəyyənləşdirilməməsi;<br>2. "Ağıllı şəhər", "Ağıllı kənd" layihələrinin ölkəmizdə yeni olması ilə əlaqədar qarşıya çıxa biləcək boşluqların olması |
| **Hüquqi (legal)** | |
| 1. **Yeni fəaliyyətə başlayan biznes subyektləri üçün müəyyən vergi güzəştlərinin və azadolmaların qərara alınması;**<br>2. **Mərkəzi Bankın İdarə Heyətinin innovativ məhsulların tətbiq edilməsi ilə bağlı Qərarı** | 1. İşğal dövründən bu yana regionda hər hansı hüquqi prosedurların, məhkəmə və mediasiya prosesləri təcrübəsinin formalaşmaması;<br>2. Hüquqi bazanın formalaşdırılmasında müəyyən fasilələrin olması (bu, daha çox siyasi qeyri-müəyyənliklərlə bağlıdır) |
| **Ekoloji (ecological)** | |
| 1. **Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yerləşdikləri relyef, təbii iqlim şəraitinin birgə sahibkarlıq üçün əlverişli olması;**<br>2. **Regionda 7 əsas gölün, su anbarlarının, çoxlu çayların, o cümlədən təbii qazıntı yataqlarının mövcudluğu.** | 1. 30 illik işğal dövründə erməni quldurları tərəfindən ərazilərimizin minalarla çirkləndirilməsi;<br>2. İşğal dövründə məskunlaşma məkanlarının dağıdılması, su anbarlarının, tranzit çaylarının çirkləndirilməsi, ağacların kəsilməsi və faydalı qazıntı yataqlarının istehsalat etikasına əməl olunmadan istismarı. |

**Mənbə: Müəllif tərəfindən tərtib edilmişdir**

PESTLE analizindən göründüyü kimi, digər bütün faktorlar, əsasən, iqtisadi, siyasi və hüquqi məsələlərin həllini şərtləndirir. Bu baxımdan investisiya layihələrinin reallaşdırılmasında diqqətə alınacaq əsas amillər iqtisadi, siyasi və hüquqi amillərdir. Yəni bu 3 amilin müsbət tərəfləri ön plana çıxarmaqla mənfi tərəflərin həlli istiqamətində mühüm nəticələr əldə olunmalıdır.

## Nəticə

30 illik işğaldan sonra ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası onu deməyə əsas verir ki, ölkəmizin siyasi iradəsi, dövlət başçısının uğurlu strateji gedişləri, xalq olaraq dövlətlə bütünləşməyimiz və milli şüurun oyanması iqtisadi artımın kəmiyyət və keyfiyyət göstəricilərinə də öz töhfəsini vermişdir. İşğaldan azad edilmiş regionlara yeni alternativ yolların çəkilməsi, köhnə magistral və dəmir yollarının bərpası, sürətləndirilmiş yenidənqurma işləri, Füzuli, Ağdam rayonlarında hava limanlarının tikintisi ondan xəbər verir ki, yaxın gələcəkdə dövlət institutlarının fəaliyyətinin təmin edilməsi ilə birgə özəl sektorun iştirakçıları da iqtisadiyyatın dirçəlməsində mühüm pay sahibi olacaqlar.

Məqaləmizin əsas hissəsindən də göründüyü kimi, bu iştirakın əsas motivləri biznes şüuruna malik əhalinin olması, dövlət-özəl sahibkar tərəfdaşlığının (DÖST) çoxşaxəli inkişafı, beynəlxalq təcrübənin regiona inteqrasiya edilməsindən ibarətdir. Eyni zamanda tədqiqatımız çərçivəsində sorğuya cəlb edilmiş respondentlərin böyük əksəriyyətinin həmin ərazilərdə kənd təsərrüfatı, turizm və dağ-mədən sənayesi kimi sahələrin inkişafını qeyd etmələri intellektual kütlə tərəfindən orada ənənəvi istehsalın davam etdirilməsinə üstünlüyün verilməsi deməkdir.

Qeyd olunan regionlarda həmçinin yeni maliyyə alətlərinin, o cümlədən Mərkəzi Bankın təsbit etdiyi sukuk (İslami bondlar) alətindən istifadənin, törəmə qiymətli kağızlarla investorların cəlb edilməsinin də regionun çiçəklənməsinə öz töhfəsini verəcəyini güman edirik.

PESTLE analizinin şərhinə gəlincə, Qarabağda yerli və xarici investorlar yatırım edərkən aşağıdakı üstünlükləri dəyərləndirməlidirlər:

- Biznes subyektlərinin gəlirlərinin (mənfəətlərinin) 01 yanvar 2023-cü il tarixindən 10 il müddətinə mənfəət vergisindən, o cümlədən torpaq vergisi və sadələşdirilmiş vergidən azad olması;
- Müştərək biznesin yaradılmasında turizm, tikinti, dağ-mədən sənayesi və kənd təsərrüfatı sahələrinin prioritet qəbul edilməsi, bununla əlaqəli olaraq beynəlxalq şirkətlərin (Türkiyə, İtaliya, İspaniya, Pakistan, BB və s.) birgə biznesə dəstək vermələri;
- Ölkəmizdə yeni və alternativ maliyyələşmə mənbəyi olaraq İslam maliyyə mənbələrindən istifadəni stimullaşdıran qanun layihələrinin icrası (Mərkəzi Bankın qərara aldığı “Xüsusi tənzimləmə rejiminin tətbiq edilməsi Qaydası”, Sahibkarlığın İnkişafı Fondunun və KOBİA-nın İslam İnkişaf Bankı ilə əməkdaşlığı və s.);
- Ağıllı şəhərlərin yaradılması istiqamətində beynəlxalq tərəfdaşlığın dövlət tərəfindən dəstəklənməsi;
- Region sakinlərinin köçürülməsi prosesi ilə paralel olaraq dövlət məşğulluq orqanlarının işsizliyin qarşısının alınması və məşğulluq dərəcəsinin artırılması istiqamətində fəaliyyətləri;

PESTLE təhlilinin mənfi tərəfləri nəzərə alınmaqla aşağıdakı məsələlər həll edilməlidir:

- Ölkəmizin vətəndaş cəmiyyəti, qeyri-hökumət təşkilatları ilə Ermənistanın müvafiq qurumları əlaqələndirilərək kompromisə gəlinməli, region əhalisinin nümayəndələri arasında sülhün bərqərar olunması üçün müəyyən təkliflər paketi hazırlanmalıdır;
- İnvestisiya layihələrinin predmeti sayıla biləcək təbii sərvətlərin nomenklaturaları yenidən təhlil edilməli, nəticə isə ölçüləbilən olmalıdır;
- Qarabağda yaşayan etnik ermənilər arasında “Azərbaycançılıq” təfəkkürünün formalaşması istiqamətində maarifləndirici tədbirlər həyata keçirilməlidir;
- Qarabağda turizmin inkişaf etdirilməsi üçün tarixi memarlıq abidələrinin, qədim mağaraların bərpa olunması va-

cib şərtlərdən biridir. Belə ki, əsrarəngiz təbiəti ilə fərqlənən bu bölgəyə xarici turistlərin axını həm də orada yeni hotel və digər ictimai iaşə obyektlərinin tikintisini, investisiya yatırılmasını sürətləndirəcəkdir;

- Regionda demoqrafik disbalansın aradan qaldırılması və iqtisadi fəal əhalinin sayının artırılması üçün görülməli olan mühüm işlərdən biri də sənaye parklarının, sənaye subyektlərinin sayının artırılması, o cümlədən istehsalat-təcrübə müəssisələrinin tikintisidir. Beləliklə, gələcəkdə Qarabağda orta ixtisas və ali məktəblərdə oxuyan tələbələrin real vaxt şəraitində istehsalat təcrübələrinə cəlb edilməsi regionun təsərrüfat həyatında ciddi müsbət dəyişikliklərə gətirib çıxara-

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

**Azərbaycan dilində:**

1. Abbasov S. Müştərək sahibkarlıq beynəlxalq biznesin təşkilinin forması kimi. // “Azərbaycanın vergi xəbərləri, Bakı, 2011, s. 75-88

2. “Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanunu. - https://e-qanun.az/framework/46590

3. “Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanunu. - https://e-qanun.az/framework/48723

4. “Azərbaycan Respublikasının 2023-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanunu. - https://president.az/az/articles/view/58483

5. Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin icrasına dair illik hesabat, AR Maliyyə Nazirliyi, Bakı, 2022

6. Qubadlı Ç. Qubadlının təbiəti erməni işğalından əvvəl və sonra. Bakı, 2007, -48 s.

7. Quliyev T.Ə., Əliyev T.N., Atakişiyev M.C., Şahbazov K.A. Biznesin təşkili və idarə edilməsi, dərslik, UNEC, Bakı, 2011, -464 səh.

8. Musayev A. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında turizmin perspektivli investisiya imkanları. // “Elm və innovativ texnologiyalar” jurnalı, Bakı, 2022, s. 58-77

9. Səfərli E., Hüseynov Q. İşğaldan azad edilmiş ərazilərdə davamlı inkişaf məqsədli investisiya ehtiyaclarının analizi. // IV İqtisadiyyat və İdarəetmə Sahəsində Tədqiqatçıların Beynəlxalq Elmi Konfransının materilları, Bakı, 2022, s.10-23

10. İşğaldan azad edilmiş ərazilərin bərpa edilməsi üçün investisiya imkanları müzakirə olunub. /30.08.2021/ - https://science.gov.az/az/news/open/17837

11. Qarabağda biznes qurmaq istəyənlərə müraciət edildi. /26.12.2023/ - https://report.az/biznes-xeberleri/qarabagda-biznes-qurmaq-isteyenlere-muraciet-edildi/

12. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. - https://www.taxes.gov.az/az/page/ar-vergi-mecellesi

13. 2024-2026-cı illərdə maliyyə sektorunun inkişaf Strategiyası. /Azərbaycan Respublikasının Mərkəzi Bankı, 26 yanvar 2024/ - https://www.cbar.az/pages/strategy?language=az&fbclid=IwZXh0bgNhZW0CMTAAAR3U7LZaanOtRJkQD2eI4E0ard7Hm0BsVThkaQ7bIN5VQbRRtlCnXIfpNLU_aem_AUIRhcCZEBtVMAY35hwITPsCnRcmKl-TI5CjkebjYpca2Fia8Bn83r1vq7sCriEz6J4oqaYmL3kKEvxdIUoD_DIx

14. https://www.stat.gov.az/source/industry/ //Dövlət Statistika Komitəsinin sənaye sahələrinin iqtisadi rayonlar üzrə inkişafı statistikası /14.04.2024/

**İngilis dilində:**

15. Mabid Ali Al-Jarhi, Munawar Iqbal. Islamic Banking: answers to some frequently asked questions // Islamic Development Bank, Jeddah, 2001, - 83 p.

**Mashallah Safarov**

# DEVELOPMENT PERSPECTİVES OF JOİNT BUSİNESS İN REGİONS LİBERATED FROM ARMENİAN OCCUPATİON


## Abstract

One of the five main issues outlined in the “Azerbaijan 2030: National Priorities for Socio-economic Development,” approved by the President of the Republic of Azerbaijan Ilham Aliyev on February 2, 2021, is the promotion of resettlement in the regions liberated from occupation and the realization of their sectoral development potential within the national economy. It is important to note that restoration and construction efforts began in the Karabakh region immediately after the victorious conclusion of the 44-day Patriotic War (Second Karabakh War). Road infrastructure projects have been implemented to support migration and entrepreneurship, while telecommunication lines have been restored.

This article explores the concept of joint business, outlines the development priorities for joint business ventures in the liberated territories, and identifies which economic sectors can be involved in joint business. Additionally, it examines ways to attract alternative sources of financing for joint business in these regions and presents a PESTEL analysis of the development of joint entrepreneurial activities in these areas.


**Keywords:** entrepreneurship, joint ventures, national economy, liberated territories, alternative financing

**Машаллах Сафаров**

# ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ СОВМЕСТНЫХ ПРЕДПРИЯТИЙ В РЕГИОНАХ, ОСВОБОЖДЕННЫХ ОТ АРМЯНСКОЙ ОККУПАЦИИ


## Резюме

Одним из пяти основных вопросов, обозначенных в «Национальных приоритетах социально-экономического развития: Азербайджан 2030», утвержденных распоряжением Президента Азербайджанской Республики Ильхамом Алиевым от 2 февраля 2021 года, является стимулирование возвращения переселенцев в регионы, освобожденные от Армянской оккупации, и реализация отраслевого потенциала развития национальной экономики в этих областях.

Важно отметить, что восстановительные работы в Карабахском регионе начались сразу после победоносной 44-дневной Отечественной войны. Для обеспечения перспективной миграции и развития предпринимательства были реализованы проекты по улучшению дорожной инфраструктуры, восстановлены линии связи. В статье рассмотрены перспективы создания совместных предприятий (СП), приоритеты его развития на территориях, освобожденных от оккупации, определены экономические секторы, которые могут быть вовлечены в совместный бизнес, а также пути привлечения альтернативных источников финансирования и исследованы способы его реализации. Также проведен PESTEL-анализ развития совместной предпринимательской деятельности в этих регионах.


**Ключевые слова:** предпринимательство, совместное предприятие (СП), народное хозяйство, освобожденные территории, альтернативное финансирование

# AZƏRBAYCANIN TİKİNTİ SEKTORUNUN EKONOMETRİK TƏHLİLİ

**Gülnar ORUCOVA**
*UNEC Zaqatala filialının müəllimi*
*E-mail: alisgenderovgulnar@gmail.com*

**Ülkər İSFƏNDİYAROVA**
*UNEC Zaqatala filialının müəllimi*
*E-mail: ulkar-isfendiyarova@unec.edu.az*

**Pərvanə İSMAYILOVA**
*UNEC Zaqatala filialının baş müəllimi*
*E-mail: parvana-ismayilova@unec.edu.az*
*(Zaqatala, Azərbaycan)*

**Xülasə.** Məqalədə Azərbaycan Respublikasında yaşayış binalarının tikintisi sektorunun göstəricilərinə təsir göstərən amillər arasında asılılığın kəmiyyətcə qiymətləndirilməsi məsələləri araşdırılır. Tədqiqatın məqsədi əhalinin gəlirlərinin, əsas kapitala qoyulan investisiyaların və ölkədə nikahların sayının istifadəyə verilmiş yaşayış binalarına təsirinin ekonometrik modellərini hazırlamaqdır.

Məqalədə tikinti sektorunun iqtisadi xüsusiyyətləri təhlil edilir və bu sahənin mürəkkəb iqtisadi-kibernetik sistem olduğu qənaətinə gəlinir.

Tədqiqat üçün məlumat bazası kimi tikinti sektorunun göstəricilərinin zaman sıraları və nikahların statistikasından istifadə edilmişdir. Zaman sıralı verilənlər analizinin əsas xüsusiyyəti ondan ibarətdir ki, qiymətləndirmə aparılmamışdan əvvəl dəyişənlərin hər birinin stasionarlığı yoxlanılmalı və alınan nəticələrə uyğun təhlil metodu seçilməlidir. Dəyişənlərin stasionarlığını yoxlamaq üçün vahid kök testlərindən biri olan genişləndirilmiş Dikki-Fuller (Dickey-Fuller) testi həyata keçirilmişdir. Alınan nəticələr tədqiqata cəlb olunmuş zaman sıralarının birinci tərtib fərqlərə görə I(1) TC stasionarlığını təsdiq edir. Eyni zamanda aparılmış qrafik təhlil trendin mövcud olduğunu da göstərir.

Reqressiya təhlili nəticəsində bu zaman sıraları əsasında istismara verilmiş mənzillərin reqressorlardan korrelyasiya asılılığı öyrənilmiş və çoxdəyişənli reqressiya modeli qurulmuşdur. Modellərə "@TREND" və laq dəyişənləri daxil edilmişdir. Qurulmuş modelin adekvatlığını yoxlamaq üçün müxtəlif testlərdən istifadə edilmişdir. Ardıcıl korrelyasiya probleminin yoxlanılması üçün korrelloqram, homoskedastiklik üçün ARCH və normal paylanma üçün Jarque-Bera testlərindən istifadə edilmişdir.

Qurulmuş model mənzil və əmək bazarlarının real şərtlərini adekvat qiymətləndirmək və proqnozlaşdırmada istifadə etmək üçün əlverişlidir.

**Açar sözlər:** tikinti sektoru, ekonometrik modelləşdirmə, zaman sıraları, stasionarlıq, kompüter proqram paketləri, avtokorrelyasiya

## Giriş

Ölkənin sosial-iqtisadi vəziyyəti və inkişafı vektorunun komponentləri içərisində əmək bazarı və tikinti sektoru əhalinin sosial durumuna bilavasitə təsir edən komponentlər kimi diqqəti cəlb edir. Belə ki, əmək bazarının vəziyyəti əhalinin minimal həyat şəraitinin təmin edilməsinin xarakteristikası kimi çıxış edirsə, onların mənzillərlə təmin edilməsi gələcəyə inamlarının göstəricisinə çevrilir. Ölkə əhalisinin mənzillərə olan tələbinin ödənilməsi səviyyəsi əhali artımına, cəmiyyətdə sosial rifaha bilavasitə təsir edir. Ümumilikdə, tikinti sektorunun vəziyyəti və bu sektorda intensiv inkişaf trendinin mövcudluğu ölkənin iqtisadi durumunun və gələcək inkişaf perspektivlərinin, son nəticədə isə iqtisadi artımın sintez olunmuş göstəricisi rolunu oynaya bilər [6].

Ölkəmizdə son illərdə müşahidə olunan davamlı iqtisadi artım, ölkə iqtisadiyyatının inkişafına və digər ölkələrdə baş verən siyasi, iqtisadi problemlərdən gələn təsirlərin neytrallaşdırılmasına yönəldilmiş kompleks tədbirlərin həyata keçirilməsi tikinti sektorunun inkişafına əlverişli şərait yaratmışdır. Nəticədə ölkədə vacib infrastruktur layihələrin reallaşdırılmasına başlanılmış, sosial mənzillərin inşasına start verilmiş və bu sektorda qeyri-dövlət müəssisələrinin xüsusi çəkisi artmışdır. Belə ki, son dövrlərdə ölkəmizdə tikinti-inşaat işlərinin 90%-ə yaxın bir hissəsini özəl müəssisələr həyata keçirirlər.

Tikinti-inşaat sektorunda müşahidə edilən dinamik inkişaf bu sektorla birbaşa bağlı olan əmək bazarında da maliyyə böhranının əmələ gətirdiyi gərginliyi azaltmağa, məcmu əmək təklifi ilə tələbi arasında yaranmış disproporsiyanı qismən də olsa aradan qaldırmağa imkan yaratmışdır. Belə ki, bu sektorda həm Bakıda, həm də regional səviyyədə əhəmiyyətli sayda yeni iş yerləri açılmışdır [8].

Hazırda Azərbaycan hökuməti inşaat sektorunun canlanması və əhalinin mənzil təminatını artırmaq məqsədilə yeni stimullaşdırıcı addımlar atmaqdadır. Ölkənin tikinti sektorunun dinamik inkişafını qoruyub saxlamaq uçün bir sıra layihələr həyata keçirilir. Buna Mənzil İnşaat Dövlət Agentliyinin "Sosial evlər" layihəsini misal göstərə bilərik. Layihə çərçivəsində xüsusi ayrılmış ərazilərdə şəhərcik yaradılacaq. Bu şəhərciklərdə xüsusi layihələr üzrə hündürmərtəbəli yaşayış binalarının, məktəb, uşaq bağçası və müxtəlif infrastrukturların yaradılması nəzərdə tutulur. Bu mənzillər adından göründüyü kimi maddi imkanları az olan ailələr üçün nəzərdə tutulacaq. Vətəndaşlara güzəştli şərtlər ilə uzunmüddətli kreditlər veriləcək.

Uyğun qiymətə mənzil təminatı layihələri həyata keçirilərək əhalinin sosial durumunun tənzimlənməsini və ən əsası daşınmaz əmlak bazarındakı sabitliyi təmin edəcək. Bununla yanaşı, tikinti sektoruna yerli və xarici investisiyaların cəlb olunmasına şərait yaradılacaq [8].

Bu tip layihələrin ölkənin regionlarında da həyata keçirilməsi nəzərdə tutulur. Əsas məqsəd əhalinin sıx yerləşdiyi və tələbatın yüksək olduğu yerlərdə aztəminatlı ailələrin mənzil ilə təmin olunmasıdır.

Tikinti sektoru ölkəmizin surətlə inkişaf edən sahələrindən biridir. Aşağıdakı qrafikdə 2001-2023-cü illərdə tikinti sahəsində yaranmış əlavə dəyər, cari qiymətlərlə (mln manatla) əks olunmuşdur:

**Qrafik 1.**




**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Qrafikdən göründüyü kimi, 2000-2014-cü illərdə tikinti-inşaat sektorunda yaranan əlavə dəyərin miqdarı kifayət qədər yüksək artım tempində olmuşdur. Lakin son illər ərzində müəyyən dalğalanmalar müşahidə edilir.

Tikinti sektoruna mürəkkəb qarşılıqlı əlaqələrə malik kibernetik sistem kimi yanaşsaq, bu sektorun fəaliyyətinin nəticələrinə bilavasitə təsir edən faktorları müəyyən edərək, bu faktorları əks etdirən dəyişənlər arasındakı əlaqələrin kəmiyyətcə qiymətləndirilməsi və ekonometrik tədqiqi məsələsini qoymaq olar.

## Zaman sıralarının stasionarlığının yoxlanılması

Ölkənin tikinti sektoru üzrə ekonometrik tədqiqatlar cədvəl 1–də əks olunmuş statistik məlumatlar bazasında bir neçə mərhələdə aparılmışdır [6; 12; 23]:

**Cədvəl 1. Tikinti sektorunun statistikası**

| İllər | Yaşayış evlərinin istifadəyə verilməsi ümumi sahə (min kv. m) CRB | Əhalinin gəlirləri (mln. manatla) İNC | Bütün maliyyə mənbələri Hesabına əsas kapitala vestisiyalar (mln. manatla) İNVEST | Nigahların sayı (nəfər) MRS |
|---|---|---|---|---|
| **2000** | 487 | 4047.3 | 967.8 | 39611 |
| **2001** | 560 | 4301.6 | 1170.8 | 41861 |
| **2002** | 803 | 5018.6 | 2107.0 | 41661 |
| **2003** | 1339 | 5738.1 | 3783.4 | 56091 |
| **2004** | 1359 | 6595.1 | 4922.8 | 62177 |
| **2005** | 1593 | 8063.6 | 5769.9 | 71643 |
| **2006** | 1583 | 10198.5 | 6234.5 | 79443 |

| | | | | |
|---|---|---|---|---|
| **2007** | 1616 | 14558.2 | 7471.2 | 81758 |
| **2008** | 1845 | 20735.4 | 9994.4 | 79964 |
| **2009** | 1501 | 22601.1 | 7725.0 | 78072 |
| **2010** | 2049 | 25607.0 | 9905.7 | 79172 |
| **2011** | 2033 | 30524.6 | 12799.0 | 88145 |
| **2012** | 2147 | 34769.5 | 15402.3 | 79065 |
| **2013** | 2403 | 37562.0 | 17850.8 | 86852 |
| **2014** | 2197 | 39472.2 | 17618.6 | 84912 |
| **2015** | 1932 | 41744.8 | 15957.0 | 68773 |
| **2016** | 2121 | 45395.1 | 15772.8 | 66771 |
| **2017** | 2017 | 49187.9 | 17430.3 | 62923 |
| **2018** | 2250 | 53103.7 | 17244.9 | 62484 |
| **2019** | 9469 | 56769.0 | 18539.5 | 63869 |
| **2020** | 5224 | 55726.1 | 17226.1 | 35348 |
| **2021** | 2077 | 57206.8 | 16815.4 | 56314 |
| **2022** | 2816 | 69163 | 17878.2 | 61939 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi [23]

Ekonometrik tədqiqatlar nəzəriyyəsinə görə, zaman sıralarının stasionarlığının yoxlanılması məsələsi bu təhlilin mühüm mərhələsidir. Proqnozlaşdırmada zaman sıralarından istifadənin əsaslandığı əsas fərziyyə ondan ibarətdir ki, tədqiq olunan sistemin reaksiyasına təsir edən amillər keçmişdə və indiki dövrdə müəyyən şəkildə hərəkət etmiş və gələcəkdə oxşar şəkildə hərəkət edəcəyi gözlənilir. Buna görə də, zaman sıralarının təhlilinin əsas məqsədi sistemin gələcək davranışını proqnozlaşdırmaq və rasional idarəetmə qərarlarını hazırlamaq üçün bu təsir edən amilləri qiymətləndirmək və təcrid etməkdir. Zaman sıralarının stasionarlığı qrafik analiz, korreloqram testləri və vahid kök testləri ilə yoxlanılır.

Məlum olduğu kimi, iqtisadi göstəricilərin zaman sıraları öz xarakterinə görə determinik zaman trendinin mövcudluğuna görə artıq qeyri-stasionardır [9; 14; 17].

**Böhran əlaqələri PR-i:** Fəlakət zamanı böhran kommunikasiyaları insanı, brendi və ya təşkilatı müdafiə edir və qoruyur. Bir şəxsin və ya şirkətin reputasiyasına təhlükə yarada biləcək hər hansı bir vəziyyət böhran hesab olunur. Effektiv böhran kommunikasiyaları vasitəsilə təşkilatlar böhranı əhatə edən hekayəni idarə edə bilirlər. Məqsəd böhranı aradan qaldırmaq üçün hansı tədbirlərin görüldüyünü göstərmək üçün etibarlı və aktual məlumatları ictimaiyyətə çat-

dırmaqdır. Böhran kommunikasiyalarını tələb edə biləcək hallara aşağıdakılar daxildir:

- Fəlakətli hadisələr
- Kiberhücumlar
- Şirkət mübahisələri
- Qüsurlu məhsullar
- Reputasiyaya xələl gətirmək potensialı olan hər hansı başqa hadisə.

**Sosial media PR-i:** Sosial media PR-i müasir kommunikasiya mənzərəsində mühüm rol oynayır, təşkilatlara öz auditoriyası ilə birbaşa əlaqə qurmaq, vaxtında məlumat paylaşmaq və onlayn mövcudluğunu formalaşdırmaq imkanı verir. Bu, daim dəyişən sosial media mənzərəsinə uyğunlaşma və həssaslıq tələb edən ictimai münasibətlərin dinamik və inkişaf edən aspektidir. Sosial media PR-i yerləşdirmədən bir neçə dəqiqə sonra bütün dünyada yeni məhsulları və şirkət xəbərlərini tanıtmaq üçün mükəmməl versiyadır. Müəssisələr sosial mediada hədəf auditoriyası ilə qarşılıqlı əlaqə quraraq, markanın tanınmasını, legitimliyini və müştəri əlaqəsini artıra bilər. [4]

Həmçinin PR növləri öz məqsədinə görə də müxtəlif sahələrə ayrılır.

**İctimaiyyəti məlumatlandırma və maarifləndirmə:** PR-in əsas növlərindən biri ictimaiyyəti məlumatlandırmaq və maarifləndirməkdir. Bu növ PR-in məqsədi təşkilatın fəaliyyəti, məhsulları, xidmətləri və ya ictimaiyyət üçün əhəmiyyətli olan digər məlumatları düzgün və vaxtında çatdırmaqdır. Məlumatlandırma və maarifləndirmə strategiyaları təşkilatın etibarının artırılmasına və onun cəmiyyətə töhfələrinin vurğulanmasına kömək edir. Xüsusilə qeyri-hökumət təşkilatları və dövlət qurumları bu növ PR-dən daha çox istifadə edirlər, çünki onların əsas məqsədi insanları sosial və ya ictimai problemlər haqqında məlumatlandırmaq və onları maarifləndirməkdir. Təşkilatlar maarifləndirici kampaniyalar vasitəsilə auditoriyaya yeni ideyalar, dəyərlər və davranış modelləri təklif edə bilər.

**İctimaiyyətin inandırılması və mövqe dəyişikliyi:** PR-in növbəti əsas məqsədi auditoriyanın mövqeyini dəyişdirmək və onları müəyyən bir istiqamətə yönləndirməkdir. Bu, xüsusilə marketinq PR-də geniş istifadə olunur. Burada əsas məqsəd müəyyən məhsul və ya xidməti auditoriyaya tanıtmaq və onları həmin məhsul və ya xidməti almağa inandırmaqdır. Eyni zamanda, siyasi PR də bu sahəyə aiddir, çünki siyasi partiyalar və liderlər ictimaiyyəti müəyyən bir namizədə və ya siyasi ideyaya dəstək verməyə inandırmaq məqsədilə PR kampaniyalarından istifadə edirlər. Bu növ PR-də əsasən emosional təsir, araşdırmalarla dəstəklənmiş faktlar və tanınmış şəxslərin tövsiyələrindən istifadə edilir.

**Təşkilatın nüfuzunun artırılması və imicinin formalaşdırılması:** PR-in başqa bir məqsədi təşkilatın və ya şəxsiyyətin ictimai nüfuzunun artırılması və imicinin möhkəmləndirilməsidir. Bu növ PR strategiyaları, adətən, uzunmüddətli olur və təşkilatın cəmiyyətdə necə qəbul edildiyinə diqqət yetirir. Məsələn, brendlər özlərinin müsbət sosial məsuliyyət imicini formalaşdırmaq üçün müxtəlif sosial layihələrdə iştirak edə bilərlər. Eyni zamanda, şirkətlər korporativ sosial məsuliyyət (KSM) kampaniyaları vasitəsilə ictimaiyyətin gözündə nüfuzlarını artırmağa çalışırlar. KSM çərçivəsində ekoloji və sosial problemlərin həlli, humanitar yardımlar və ya könüllülük fəaliyyəti kimi tədbirlər həyata keçirilə bilər.

**Münaqişələrin idarə edilməsi və böhran vəziyyətlərinin həlli:** PR-in daha bir növü təşkilatın münaqişəli vəziyyətlərdə nüfuzunu qorumaq və böhranları idarə etmək üçün istifadə olunur. Böhran vəziyyətlərində PR-in əsas məqsədi yaranmış problemləri həll etmək, ictimaiyyəti düzgün məlumatlandırmaq və təşkilatın nüfuzunu qorumaqdır. Bu növ PR

tez və effektiv fəaliyyət tələb edir, çünki gecikmiş və ya yanlış addımlar təşkilatın imicinə ciddi zərər vura bilər. Məsələn, məhsul keyfiyyəti ilə bağlı şikayətlər və ya qanun pozuntuları ilə bağlı ittihamlar zamanı təşkilatlar böhran PR strategiyalarından istifadə edərək problemləri aradan qaldırmağa və ictimaiyyətin inamını bərpa etməyə çalışırlar. Bu mərhələdə təşkilatların böhrana vaxtında və şəffaflıqla yanaşması əsas rol oynayır.

Bu fərqli PR növləri təşkilatların öz auditoriyaları ilə ünsiyyət qurmaq, çətinlikləri həll etmək və ictimai qavrayışı formalaşdırmaq üçün istifadə etdiyi müxtəlif strategiyaları təmsil edir.

## 2. Müasir marketinq strategiyasında ictimaiyyətlə əlaqələrin vacibliyi

İctimaiyyətlə əlaqələr (PR) müasir marketinq strategiyalarında çox mühüm rol oynayır və müştərilərlə, maraqlı tərəflərlə və ümumi ictimaiyyətlə müsbət ictimai imicin formalaşdırılması, etibarın artırılması və uzunmüddətli əlaqələrin qurulması üçün vacib bir vasitə kimi çıxış edir. Bu günün çox rəqabətli və sürətli inkişaf edən bazarında, brendlərin istehlakçıların diqqətini çəkmək uğrunda daim mübarizə apardığı bir dövrdə PR ənənəvi reklamlardan daha autentik və təsirli bir ünsiyyət vasitəsi təmin edir. Hədəf auditoriyaya uyğun hekayələr yaratmaq və ictimai narahatlıqları ünvanlamaqla, PR brendin imicini formalaşdırmağa kömək edir və onu daha əlaqəli və etibarlı edir. Bundan əlavə, PR təşkilatlarla onların icmaları arasında körpü rolunu oynayır və bu, bazar dəyişikliklərinə və istehlakçı gözləntilərinə uyğunlaşmaq üçün mühüm olan dialoq və rəy mübadiləsinə imkan verir. Bu, xüsusilə rəqəmsal dövrdə önəmlidir, çünki məlumatlar sürətlə yayılır və brendlər həm müsbət, həm də mənfi reklamı real vaxtda idarə etməyə hazır olmalıdır. Effektiv PR kampaniyaları bir şirkətin reputasiyasını yüksəldə, media təmsilçiliyini artıra və ümumi brend məlumatlılığını gücləndirə bilər ki, bu da nəticə olaraq müştəri sədaqətinin artmasına və biznesin böyüməsinə səbəb ola bilər. PR-i marketinq strategiyalarına inteqrasiya etməklə, şirkətlər daha hərtərəfli yanaşma təmin edə, korporativ kimliklərini auditoriyalarının dəyərləri və maraqları ilə uyğunlaşdıra və eyni zamanda potensial riskləri qabaqcıl ünsiyyət vasitəsilə azaltmış olurlar. Ənənəvi reklam üsullarının effektivliyi azaldıqca, təşkilatlar öz auditoriyaları ilə orijinal və cəlbedici ünsiyyətə ehtiyac olduğunu daha çox dərk edirlər. Müasir marketinq strategiyalarının formalaşdırılmasında ictimaiyyətlə əlaqələrin əsas rolunu, bu iki fənn arasında qarşılıqlı əlaqəni və onların brend uğurunda kollektiv təsirini araşdırmaq önəmlidir. Biristiqamətli kommunikasiya və idarə olunan mesajlaşmanın üstünlük təşkil etdiyi ənənəvi marketinq paradiqması dərin transformasiyaya məruz qalmışdır [6].

Rəqəmsal əsrdə istehlakçılar artıq informasiyanın passiv alıcısı deyil, dinamik söhbətin fəal iştirakçılarıdır. Bu dəyişiklik brendlərin öz auditoriyasına yanaşma tərzini əsaslı şəkildə dəyişdirərək daha interaktiv və orijinal yanaşma tələb edir. İctimaiyyətlə əlaqələr təşkilatlar və onların səhmdarları arasında körpü rolunu oynayan bu yeni paradiqmada kritik oyunçu kimi meydana çıxır. Ənənəvi modeldə marketinq səyləri ilk növbədə televiziya, radio və çap mediası kimi kanallar vasitəsilə diqqətlə hazırlanmış mesajların yayılmasına yönəldilmişdir. Bununla belə, internetin və sosial medianın yaranması istehlakçılara informasiyaya misli görünməmiş çıxış imkanı və fikirlərini bildirmək üçün platforma verib. Nəticədə, brendlər orijinallığın və şəffaflığın müzakirə

oluna bilməyəcəyi bir mühitdə işləyirlər. Əlaqələrin qurulmasına və ikitərəfli ünsiyyətin inkişafına əsas diqqət yetirməklə ictimaiyyətlə əlaqələrə daxil olun. PR mütəxəssisləri auditoriya ilə əlaqə saxlamağın, onların rəylərini dinləmənin və söhbətlərdə fəal iştirak etməyin vacibliyini dərk edirlər. Bu proaktiv yanaşma seçdikləri brendlərlə mənalı əlaqələr axtaran müasir istehlakçıların gözləntiləri ilə üst-üstə düşür. Üstəlik, inkişaf edən paradiqma marketinqdə hekayənin əhəmiyyətini vurğulayır. Bir brendin sadəcə öz məhsul və ya xidmətlərini nümayiş etdirməsi artıq kifayət deyil; istehlakçılar öz dəyərləri və istəkləri ilə səsləşən povestlərə can atırlar. PR cəlbedici hekayələr hazırlamaqda təcrübəsi ilə təşkilatlara tranzaksiyadan kənara çıxan bir brend hekayəsini formalaşdırmaqda kömək etmək üçün əvəzolunmaz bir aktivə çevrilir. Bu inkişaf edən paradiqmada marketinq və İctimaiyyətlə Əlaqələrin yaxınlaşması inteqrasiya olunmuş kommunikasiya strategiyalarının yüksəlişində aydın görünür. Təşkilatlar marketinq, PR və digər kommunikasiya intizamları arasındakı sərhədlərin bulanıq olduğu bir mənzərədə gizli yanaşmaların artıq effektiv olmadığını başa düşürlər. Marketinq və PR elementlərini mükəmməl şəkildə birləşdirən inteqrasiya olunmuş kampaniyalar bütöv və ardıcıl brend təcrübəsini təmin edərək normaya çevrilir. İnkişaf edən marketinq paradiqması ənənəvi, birtərəfli kommunikasiya modellərindən uzaqlaşmağı zəruri edir. İstehlakçılar indi şəffaflıq və həqiqilik gözləyirlər. Münasibətlərin qurulmasına, hekayələrin hazırlanmasına və müasir kommunikasiya kanallarının mürəkkəbliklərində naviqasiyaya yönəlmiş ictimaiyyətlə əlaqələr müasir dövr üçün uğurlu marketinq strategiyalarının formalaşdırılmasında əvəzsiz komponent kimi ortaya çıxır. Marketinq və PR arasındakı bu simbiotik əlaqə sadəcə mövcud tendensiyalara cavab deyil; dinamik bazarda rezonans və aktuallıq axtaran təşkilatlar üçün strateji vacib şərtdir [2, s.122].

PR-in əhəmiyyətini dərk etmək üçün bir neçə real iş və misal üzərindən araşdırma aparmaq olar. Bir çox tanınmış brend PR strategiyalarının köməyi ilə böhranların öhdəsindən gəlib və öz mövqelərini daha da gücləndirib. Məsələn, 2010-cu ildə BP şirkətində baş verən neft sızması hadisəsi böyük bir ekoloji fəlakətə səbəb oldu və şirkətin ictimai imici ciddi şəkildə zərər gördü. Bu hadisədən sonra BP üçün ictimaiyyətlə əlaqələr daha böyük önəm daşımağa başladı. Şirkət yalnız maliyyə və texniki problemlərlə deyil, həm də zədələnmiş ictimai etibarı bərpa etməklə məşğul oldu. Burada PR-in məqsədi böhranı idarə etmək və ictimaiyyətə hadisə ilə bağlı düzgün məlumat vermək idi. BP PR strategiyalarından istifadə edərək, hadisəni minimal itki ilə idarə etməyə çalışdı, ekologiyaya verdiyi zərərləri azaltmaq üçün fəaliyyətlərini göstərdi və zərərçəkənlərə dəstək olmaq üçün müxtəlif tədbirlər həyata keçirdi. Şirkət həmçinin uzunmüddətli kampaniyalarla yenidən öz imicini bərpa etməyə çalışdı [11]. PR strategiyalarının brendin mövqeyini və etibarını gücləndirdiyinin digər bir real nümunəsi isə Nike şirkəti ilə bağlıdır. 1990-cı illərdə Nike uşaq əməyindən istifadə etməkdə ittiham edildiyi üçün ciddi ictimai təzyiqlərlə üzləşdi. Şirkətin PR şöbəsi bu böhranı həll etmək üçün strategiyalar hazırladı. Nike şəffaflığı artırmaq və işçi hüquqlarını qorumaq məqsədilə bir sıra dəyişikliklərə getdi. PR strategiyaları çərçivəsində Nike, işçi şəraitinin yaxşılaşdırılması ilə bağlı tədbirlər gördüyünü göstərdi və bu sahədə aparıcı rol oynamağa çalışdı. Nəticədə şirkət öz imicini xeyli yaxşılaşdırdı və hazırda sosial məsuliyyətə xüsusi diqqət yetirən brendlərdən biri

kimi tanınır. Digər bir maraqlı misal isə Starbucks ilə bağlıdır. Starbucks brendi, yalnız məhsulları ilə deyil, həm də sosial məsuliyyət sahəsində gördüyü işlərlə tanınır. PR strategiyaları vasitəsilə Starbucks ekoloji və sosial məsuliyyət məsələlərinə ciddi yanaşdığını göstərdi. Şirkət müntəzəm olaraq ekologiya, ədalətli ticarət və işçi hüquqları sahəsində yeni təşəbbüslərlə çıxış edir. Starbucks-un PR strategiyaları ictimaiyyətlə əlaqələrində brendin şəffaflıq, dürüstlük və sosial məsuliyyət məsələlərinə verdiyi əhəmiyyəti göstərməklə onu daha çox istehlakçıların rəğbətini qazanan bir marka halına gətirdi. [12]

Müasir marketinq strategiyalarında PR yalnız böhran zamanı istifadə edilmir. Uğurlu kampaniyalar və yeni məhsulların təqdimatı zamanı da PR mühüm rol oynayır. Məsələn, Apple brendi hər bir yeni məhsulun təqdimatında PR strategiyasından geniş şəkildə istifadə edir. Şirkət, məhsul təqdimatlarını yalnız reklamla deyil, həm də PR vasitəsilə idarə edir. Məhsulların təqdimatından əvvəl və sonra keçirilən tədbirlər, media ilə əməkdaşlıq və s. PR vasitəsilə Apple-ın brend imicini daha da gücləndirir və istehlakçılara innovativ və qabaqcıl texnologiyaları təqdim edir. PR-in effektivliyi yalnız böyük brendlər üçün deyil, kiçik və orta müəssisələr üçün də əhəmiyyətlidir. Məsələn, yerli bir restoran, müştəri məmnuniyyəti və ictimaiyyətlə müsbət əlaqələr vasitəsilə uğurlu PR kampaniyaları həyata keçirə bilər. Xüsusilə sosial media platformalarının geniş yayılması PR strategiyalarının daha əlçatan və təsirli olmasına imkan yaradır. Sosial media vasitəsilə kiçik müəssisələr öz məhsullarını və xidmətlərini daha geniş kütlələrə çatdırmaq imkanı əldə edir. Həmçinin, müştəri rəyləri və ictimaiyyətlə qarşılıqlı əlaqə qurmaq üçün PR vasitələri kiçik müəssisələrə müsbət brend imici formalaşdırmaq üçün əvəzsiz imkanlar yaradır. PR strategiyaları yalnız reklamdan ibarət deyil. Müasir dövrdə PR brendlərin cəmiyyətdə hansı mövqedə durduğunu və hansı dəyərləri təmsil etdiyini göstərmək üçün istifadə olunan bir vasitədir. İstehlakçılar artıq yalnız məhsulun keyfiyyətinə deyil, həm də onun arxasında duran şirkətin sosial məsuliyyətinə və dəyərlərinə də önəm verirlər. Məsələn, Coca-Cola şirkəti müntəzəm olaraq ekoloji məsuliyyət layihələrində iştirak edir və bu fəaliyyətlərini geniş şəkildə PR vasitəsilə ictimaiyyətə çatdırır. Şirkət bu təşəbbüslərlə yalnız öz məhsullarının tanıtımını həyata keçirmir, həm də ekoloji məsuliyyətə sadiqliyini göstərir, bu da istehlakçıların nəzərində müsbət imic yaradır. [8]

**Brendinqin inkişafı:** Müasir biznesin şiddətli rəqabət mənzərəsində brendin etibarlılığı uğurun təməl daşı kimi dayanır. İctimaiyyətlə əlaqələr brendin etibarlılığını yaratmaq və artırmaq üçün bir sıra strateji alətlərdən istifadə edərək bu arenada mərkəzi yer tutur. Etibarlılıq sadəcə bir söz deyil; bu, istehlakçı inamının, sədaqətinin formalaşdığı və uzunmüddətli münasibətlərin qurulduğu təməldir. Öz mahiyyətində brendin etibarlılığı istehlakçının gözündə etibarlı, etibarlı və orijinal kimi qəbul olunmaqdır. Məlumatın bol olduğu, lakin diqqətin tez keçdiyi bir dünyada bu etimadın yaradılması və qorunub saxlanılması böyük bir problemdir. Rezonans doğuran hekayələr, həqiqəti əks etdirən mesajlar və araşdırmaya tab gətirən münasibətlər yaratmaq üçün öz təcrübəsindən istifadə edərək, PR addım atdığı yerdir. Strateji hekayələr PR-in brend etibarını yaratmaq üçün yanaşmasının əsasını təşkil edir. Diqqətlə qurulmuş hekayələr vasitəsilə təşkilatlar öz auditoriyaları ilə daha dərin, emosional səviyyədə əlaqə saxlaya bilərlər. Bu hekayələr bir məhsulun xüsusiyyətləri və faydalarından

kənara çıxır; onlar brendin dəyərini, missiyasını və dünyada etmək istədiyi müsbət təsiri əhatə edir. Brendin humanistləşdirilməsi ilə PR etibarlılığın əsasını qoyaraq, əlaqəli və orijinal bir şəxsiyyət yaradır. PR-in digər əsas aspekti olan media əlaqələri brendin etibarlılığının artırılmasında mühüm rol oynayır. İstər ənənəvi satış məntəqələri, istərsə də rəqəmsal platformalar vasitəsilə müsbət media əhatəsinin təmin edilməsi üçüncü tərəfin təsdiqini təmin edir. Nüfuzlu mənbələr brendi və ya onun təşəbbüslərini təsdiqlədikdə, bu, özünü tanıtmaqdan kənara çıxan etibarlılıq qatını əlavə edir. PR mütəxəssisləri jurnalistlər və təsir edənlərlə əlaqələr qurur, brendin medianın gözündə müsbət mövqe tutmasını təmin edir. İnformasiya şəffaflığı əsrində istehlakçılar bunun fərqindədirlər və həqiqiliyə dəyər verirlər. PR ünsiyyət səylərini təşkilati dəyərlərlə uyğunlaşdırır, ictimaiyyətə çatdırılan mesajların brendin hərəkətləri ilə uyğun olmasını təmin edir. Orijinallıq yalnız marketinq şüarı deyil; bu, şəffaflığa, etik təcrübələrə və həqiqi əlaqəyə sadiqlikdir. PR strategiyaları bu orijinallığı gücləndirmək üçün nəzərdə tutulmuşdur, markanın dedikləri ilə onun etdikləri arasında uyğunluq yaradır. Bundan əlavə, PR-in rolu brendin etibarlılığının qorunmasında mühüm komponent olan böhran kommunikasiyasına qədər uzanır. Heç bir təşkilat problemlərdən sığortalanmayıb və brendin böhranları necə idarə etməsi onun necə qəbul olunduğuna dərindən təsir edir. Çətin dövrlərdə operativ, şəffaf və orijinal cavab verməklə, PR mütəxəssisləri brendin etibarlılığını qorumağa və ya hətta bərpa etməyə töhfə verirlər. Brendin etibarlılığını artırmaq köməkçi məqsəd deyil, müasir marketinqdə strateji imperativdir. Strateji hekayələr, media əlaqələri, orijinallıq və böhran idarəçiliyinə diqqət yetirən ictimaiyyətlə əlaqələr bu etibarlılığın yaradılmasında və qorunmasında əsas rol oynayır. İstehlakçının nəzərində etibarlı brend sadəcə məhsul və ya xidmət deyil, o, seçimlər dənizində etibarlı müttəfiqdir və PR bu səyahətə rəhbərlik edən kompasdır.

## NƏTİCƏ

Demək olar ki, hər bir şirkət marketinq büdcəsini formalaşdırdıqda ictimaiyyətlə əlaqələr, markanın təşviqi strategiyasını digərlərindən fərqləndirmək üçün açıq seçimə çevrilir. Hekayə və ya bəzi faydalı məlumatların əlavə edilməsi brendə marketinq məlumatlarının qarışıqlığını aradan qaldırmağa kömək edir və bu yolla PR öz funksiyasını yerinə yetirir. İctimaiyyətlə əlaqələr şirkətə əlavə dəyər qatır və istehlakçılarla markaya maraq yaradan və onu istehlakçıların aid edə biləcəyi sosial bir əmtəə halına gətirən şəkildə əlaqə qurur. Marketoloqlar getdikcə daha çox marka dəyəri yaratmaq, brendin canlılığını qorumaq və marka etibarını yaratmaq üçün PR-ə üstünlük verməyə başlayıblar. Bütün bu səbəbləri nəzərə alaraq firmaların öz imiclərini qoruması üçün ictimaiyyətlə əlaqələr bölməsində nələrə diqqət etməli olduqlarını, apardıqları siyasətdə nələrə üstünlük verməli olduqlarını, firmanın imicinin formalaşmasında hansı faktorların ön plana çıxdığını və bu faktorlardan necə düzgün istifadə etməli olduqlarını araşdırmaq olduqca mühim ehtiyaca çevrilib.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:

1. Black Sam. Introduction to Public Relations. 1989, pp. 32-58
2. Cutlip, Scott M. The Unseen Power: Public Relations, A History. // - 1994, pp. 120-142
3. Glen M. Broom and others. Cutlip and Center's Effective Public Relations. 2019, pp. 45-67
4. Grunig, James E and others. Models of Public Relations and Communication. 2008, pp. 89-104
5. Grunig, James E. Managing Public Relations. 1984, pp. 112-138
6. Harlow, Rex F. Public Relations: Definitions and Trends. 1976, pp. 13-29
7. Heath, Robert L. and Coombs, W. Timothy. Today's Public Relations: An Introduction. 2006, pp. 66-84
8. Isaacson, Walter. Steve Jobs. // - Simon & Schuster, 2011, pp. 223-255.
9. Maines David R. The Social Construction of Meaning. 2000, pp. 203-218
10. McNamara Robert. Edward Bernays, Father of Public Relations and Propaganda. 2021, pp. 54-73
11. Smith, N. Craig, and Ashford, E. BP and the Deepwater Horizon Disaster of 2010. INSEAD Case Study, 2012, pp. 15-38.
12. Starbucks Corporation. Global Social Impact Report. 2019, pp. 45-67.
13. Vitale, Joe. There's a Customer Born Every Minute: P.T. Barnum's Secrets to Business Success. 1998, pp. 76-95

**Muslimat Allahverdiyeva,**
**Elshan Jabrayilzada**

## ROLE OF PUBLİC RELATİONS İN SHAPİNG A COMPANY'S IMAGE

### Abstract

This research focuses on the increasing importance of public relations (PR) for companies in an era where constant and uninterrupted communication with consumers is facilitated by the internet. Consumers frequently interact with companies by reacting to advertisements, sharing opinions about products, and addressing complaints or needs to company representatives. These dynamics compel companies to prioritize effective public relations and maintain strong customer communication to protect and enhance their corporate image. The primary aim of this research is to explore the heightened significance of PR in the modern business environment.

Qualitative methods were employed to perform a theoretical analysis of the collected information. This analysis draws on specialized literature, professional research platforms, and academic articles in the fields of marketing and sociology. Furthermore, historical and contemporary company policies and actions were examined to provide practical insights into real-life situations and challenges.

The findings of this research provide companies with actionable insights into strengthening their public relations strategies. Key recommendations include identifying critical elements for protecting and enhancing corporate image, prioritizing

relevant aspects of PR policies, and effectively leveraging these factors to improve customer engagement and brand loyalty. These considerations are essential for modern businesses aiming to maintain a competitive edge.

Public relations play a pivotal role in raising brand awareness and fostering consumer loyalty. Incorporating PR into a company's overarching strategy is essential for maintaining performance standards, building trust, and enhancing reliability in the marketplace.

**Keywords:** public relations, PR, marketing, company image, brand

**Муслимат Аллахвердиева,**
**Эльшан Джабраилзаде**

## РОЛЬ СВЯЗЕЙ С ОБЩЕСТВЕННОСТЬЮ В ФОРМИРОВАНИИ ИМИДЖА КОМПАНИИ

### Резюме

В современном мире коммуникация между людьми и компаниями все чаще осуществляется онлайн. Люди реагируют на рекламу, оценивают ее, делятся мнением о продуктах и выражают недовольство или потребности, обращаясь к представителям компаний. Эти процессы требуют от организаций высокого уровня взаимодействия с общественностью и тщательного управления клиентским опытом (CX), чтобы сохранять и укреплять свой имидж. В этой связи возрастает значимость связей с общественностью как ключевого элемента корпоративной стратегии.

Для анализа данного феномена проведено теоретическое исследование с использованием качественных методов. Информация была собрана на основе специализированной литературы, профессиональных онлайн-ресурсов и научных статей в области маркетинга и социологии. Также были проанализированы исторические и современные примеры взаимодействия компаний в сфере связей с общественностью, что позволило рассмотреть проблему в прикладном контексте.

Результаты исследования подчеркивают важность приоритетного внимания к связям с общественностью в корпоративной политике. Определены ключевые факторы, влияющие на формирование имиджа, и предложены подходы к их эффективному использованию. Эффективная коммуникация с клиентами рассматриваются как инструмент укрепления доверия и повышения приверженности бренду.

Повышение осведомлённости о компании через связи с общественностью стало неотъемлемой частью стратегий, направленных на улучшение производительности и надежности в глазах потребителей...

**Ключевые слова:** связи с общественностью, PR, маркетинг, имидж компании, бренд

# İNNOVASİYALAR ÜÇÜN ƏLVERİŞLİ İNVESTİSİYA MÜHİTİNİN YARADILMASI

**Rafiq RZAYEV,**
*AR ETN İqtisadiyyat İnstitutunun İnnovativ iqtisadiyyat və rəqəmsal transformasiya şöbəsinin böyük elmi işçisi (Bakı, Azərbaycan)*

*E-mail: rafiqrzayev74@mail.ru*
*ORCID: 0009-0001-1483-6963*

**Xülasə.** Məqalədə innovasiyalar üçün əlverişli investisiya mühitinin, innovasiya-investisiya mühitinin yaradılması yolları araşdırılır. Əlverişli investisiya mühitini yaradan maddi və qeyri-maddi amillər, habelə innovasiya-investisiya mühitinin effektiv formalaşdırılması təhlil edilir. Bu mühitin uğurlu olması, onun sərmayə cəlbediciliyinin artması üçün hansı məsələlərə xüsusi olaraq önəm verilməsi oxucuların diqqətinə çatdırılır. Vurğulanır ki, innovasiya-investisiya mühitinin effektiv qurulması iqtisadi inkişafı sürətləndirir, yeni iş yerlərinin yaranmasına və ölkənin rəqabət qabiliyyətinin artmasına kömək edir. Məqalədə, həmçinin, Azərbaycanda innovasiya-investisiya mühiti və onun qiymətləndirilməsi təhlil edilir. Bu qiymətləndirmənin iqtisadi göstəricilər, texnoloji potensial, hüquqi çərçivə, maliyyə imkanları, işgüzar mühit və digər meyarlar əsasında həyata keçirildiyi bildirilir. Bundan əlavə, innovasiya-investisiya mühitinin qiymətləndirilməsi üçün istifadə edilən bir sıra beynəlxalq indekslər nəzərdən keçirilir və Azərbaycanın bu indekslər üzrə bəzi göstəriciləri təqdim olunur. Məqalənin sonunda bu sahədə mövcud olan müsbət hallarla yanaşı, problemlərdən də söz açılır və onların aradan qaldırılması üçün bəzi təkliflər irəli sürülür.

**Açar sözlər:** innovasiya-investisiya mühiti, sərmayə cəlbediciliyi, investorlar, qiymətləndirmə, vergi siyasəti, innovativ layihələr, amillər, beynəlxalq indekslər

## GİRİŞ

İnvestisiyalar iqtisadiyyatın müxtəlif sahələrinə, infrastruktura, sosial proqramlara, ətraf mühitin mühafizəsinə həm ölkə daxilində, həm də xaricdə uzunmüddətli kapital qoyuluşudur. Müasir bazar iqtisadiyyatında investisiyaların əhəmiyyətli hissəsi maliyyə investisiyalarıdır ki, onlar həm makro, həm də mikro səviyyədə mühüm əhəmiyyət kəsb edirlər. Bütövlükdə onlar ölkənin və ya ayrı-ayrı təsərrüfat subyektinin gələcəyini müəyyən edir, iqtisadi inkişafın hərəkətverici qüvvəsi rolunu oynayırlar. İnvestisiya fəaliyyəti artıqda iqtisadiyyatın sürətli inkişafı təmin olunur, müəssisələr müasirləşir, yeni istehsal sahələri təşəkkül tapır.

Bir sözlə, investisiya qoyuluşunu ölkə iqtisadiyyatının hərtərəfli inkişafının vacib şərtlərindən hesab etmək olar. Belə olan halda, təbii ki, hər bir dövlətin milli iqtisadiyyatının yüksək inkişaf dinamikası və təhlükəsizliyi üçün ilkin şərtlərdən biri iqtisadiyyatın müxtəlif sahələrinə qoyulan investisiyaların artırılmasıdır. İnvestisiya fəallığının sabit, sürətli artımı milli iqtisadiyyatın yüksəlişini mahiyyətcə təmin etməyə, müəssisələri modernləşdirməyə və mövcud istehsal sahələrini təkmilləşdirməyə, habelə əmtəə və xidmətlərin inkişafına imkan verir. İqtisadi siyasətin başlıca istiqamətlərindən biri olaraq investisiya üzrə aparılan uğurlu siyasət əldə edilən nailiyyətlərin əsasını təşkil edir. Makroiqtisadi stabilliyin, iqtisadi tərəqqinin və təhlükəsizliyin, həmçinin milli iqtisadiyyatın rəqabət qabiliyyətinin təmin olunmasında, ölkə əhalisinin yaşayış səviyyəsinin yüksəldilməsində və digər bir sıra problemlərin həll edilməsində ölkədəki investisiya qoyuluşu sahəsindəki vəziyyət və bu sərmayələrin innovasiya yönümlü olması əhəmiyyətli amillərdir [9]. Bu baxımdan innovasiyalar üçün əlverişli investisiya mühitinin, innovasiya-investisiya mühitinin yaradılması önəmlidir. Belə ki, texnoloji yeniliklərin inkişaf etdirilməsində və investisiya resurslarının səmərəli istifadəsində mühüm olan bu mühiti ölkədə və ya regionda innovasiyaların dəstəklənməsi, yeni texnologiyaların tətbiqi və iş dünyasına sərmayələrin cəlb edilməsi üçün iqtisadi sistemin vacib göstəricisi hesab etmək olar.

## 1. Əlverişli investisiya mühitini yaradan amillər

İqtisadiyyatın real sektorunda innovasiyalar üçün əlverişli investisiya mühitinin yaradılması zərurəti modernləşmə proseslərinin həyata keçirilməsində prioritet məsələdir. Ümumiyyətlə, mikrosəviyyədə maddi və qeyri-maddi amillərə əsaslanan əlverişli investisiya mühiti çox vacibdir. Bu amillərə ümumi nəzər yetirək:

**Maddi amillər**

❖ Ölkənin və ya regionun coğrafi mövqeyi, xammal və satış bazarlarının əlçatanlığı hər bir investor üçün vacibdir: investisiya üçün ölkəni, yaxud regionu müəyyən etməzdən əvvəl məhz bu amil xüsusi olaraq araşdırılıb öyrənilir.

❖ Nəqliyyat əlçatanlığı – bölgədə yüksək keyfiyyətli yolların, dəmir yolu əlaqələrinin və hava xidmətlərinin olması.

❖ Regionun infrastrukturunun yaxşılaşdırılmasının planlaşdırılması.

❖ İnvestisiya üçün hazır obyektlərin, yaxud enerji və su təchizatı ilə təmin olunmuş müvafiq təyinatlı torpaqların olması.

❖ İxtisaslı əmək resurslarının mövcudluğu: kapital qoyuluşu etməzdən əvvəl investor ixtisaslı əmək resurslarının mövcud olub-olmadığını bilməlidir.

❖ Preferensiyaların mövcudluğu: vergi güzəştləri, dövlət zəmanətləri, bələdiyyə obyektlərinin icarəyə verilməsi imkanı və s.

**Qeyri-maddi amillər**

❖ Ölkənin və ya regionun işgüzar nüfuzu: artıq həyata keçirilmiş uğurlu investisiya layihələrinin olması.

❖ İnvestisiyanın cəlb edilməsi üzrə mövcud siyasətin şəffaflığı: ölkənin və ya regionun beynəlxalq bazarda tutduğu mövqe.

❖ Əlçatan informasiya dəstəyinin, yeni informasiya baxımından dəstəklənmək üçün müəyyən resursların mövcudluğu.

❖ Potensial investorlara fərdi yanaşma: biznes assosiasiyaları ilə dialoq üçün müvafiq dövlət orqanlarının mövcudluğu.

❖ Mərkəzi hakimiyyət orqanları ilə yerli idarəetmə arasında əlaqələr: "mərkəz"lə region arasında müsbət münasibətlər.

❖ Ərazi üzrə regional inkişaf strategiyası: hər şeyin nəzərə alındığı məqsədyönlü investisiya proqramları və s.

## 2. İnnovasiya-investisiya mühitinin effektiv formalaşdırılması

Gələcək dövrdə ən müasir texnoloji sahələri və innovasiyaları dəstəkləyən rəqəmsal cəmiyyət inkişafın aparıcı qüvvəsinə çevriləcəkdir. Ölkəni rəqabətdə irəli aparmaq üçün cəmiyyətin yaradıcılığını və innovativliyini stimullaşdıran ekosistem qurulmalıdır [7]. Yeni dövrdə qurulacaq ekosistem (müvafiq təşviqlər, inkubasiya və akselerasiya mərkəzləri, dövlət-özəl əməkdaşlığı əsasında maliyyələşmə modelləri, ,vençur və kraudfandinq institutları və s.) iqtisadiyyatın texnoloji tutumluluğunun artırılmasına yönləndirilməlidir [2]. Dünyada gedən sürətli texnoloji tərəqqiyə çevik uyğunlaşmaq, iqtisadiyyatda yeniliklərin yaradılmasını və tətbiqini stimullaşdırmaq üçün əlverişli olan şərait və imkanları əhatə edən innovasiya-investisiya mühiti özündə bir sıra komponentləri birləşdirir. Bu tərkibə innovasiyaların sürətli inkişafı üçün əhəmiyyətli olan müasir texnoloji infrastruktur, maliyyə mənbələri, hüquqi qoruma mexanizmləri, yüksək təhsilli, bacarıqlı işçi qüvvəsi, dövlət dəstəyi və təşviqləri, əməkdaşlıq imkanları və s. daxildir. Bu komponentlərdən asılı olaraq, ölkənin və ya regionun innovasiya-investisiya mühiti formalaşır. Mühitin əlverişli olması investorların cəlb edilməsində, həmçinin innovativ məhsul və xidmətlərin bazara çıxarılmasında əhəmiyyətli rol oynayır [4]. Ümumiyyətlə isə innovasiya-investisiya mühitinin uğurlu olması üçün, əsasən, aşağıda haqqında bəhs edəcəyimiz amillər vacib şərt kimi qəbul olunur:

❖ Qanunvericilik və tənzimləmə bazasının, dəstəkləyici infrastrukturun mövcudluğu.

Dövlətin dəstəkləyici siyasət və qanunvericiliyi bu mühitin uğurlu inkişafı üçün əhəmiyyətlidir. Hüquqi çərçivə innovativ şirkətlərin qorunmasını təmin etməli və investisiya üçün əlverişli şərait yaratmalıdır. Elm və texnologiya parkları, startap inkubatorları, akseleratorlar kimi strukturların inkişafı innovasiya üçün vacib hesab olunur. Bu cür qurumlar yeni ideyaları dəstəkləyir, gənc müəssisələrə maliyyə və texniki məsləhətlər təqdim edir.

❖ Maliyyələşmə, maliyyə resurslarına çıxış.

İnnovasiya mühitində investisiya fondları, vençur kapitalı, dövlət qrantları və ya digər maliyyə alətlərinə çıxışın geniş olması startapların və texnologiyaların inkişafına təkan verir. Startaplar və innovativ şirkətlər üçün geniş maliyyələşmə imkanları, o cümlədən, qeyd etdiyimiz kimi, vençur kapitalı, biznes mələkləri və dövlət dəstəyi ilə maliyyələşmə bu iqtisadi sistemin yüksəlişini stimullaşdırır.

❖ Rəqabətli və şəffaf tənzimləmə mühiti.

Dövlətin innovasiya və investisiyalar-

la bağlı qanunvericiliyi sadə, şəffaf və rəqabətədavamlı olmalıdır. Bu, investorların hüquqlarını qorumaqla yanaşı, yeni ideyaların inkişafını asanlaşdırır. Həmçinin rəqabətqabiliyyətli bazara çıxış innovativ şirkətlərin genişlənməsinə və beynəlxalq səviyyədə inkişaf etməsinə şərait yaradır.

❖ İnsan kapitalı, kadr potensialı və təhsil.

Yüksək təhsilli, bacarıqlı işçi qüvvəsi innovasiyaların yaranmasında əsas rol oynayır. Universitetlər və elmi-tədqiqat institutları bu prosesdə mühüm amildir, çünki onlar yeni biliklərin mənbəyi kimi çıxış edirlər. Ümumiyyətlə, innovasiya-investisiya mühiti təcrübəli və yüksək ixtisaslı mütəxəssislərin yetişdirilməsi üçün əlverişli olmalıdır. Bu, universitetlərin, tədqiqat mərkəzlərinin və iş dünyasının qarşılıqlı əməkdaşlığı ilə mümkündür. Ali təhsil müəssisələri, tədqiqat mərkəzləri və laboratoriyalar texnoloji yeniliklərin inkişafına dəstək verməli və ixtisaslı mütəxəssislərin hazırlanmasını təmin etməlidir.

❖ Beynəlxalq əlaqələr və əməkdaşlıq.

İnnovasiya-investisiya mühitində beynəlxalq əməkdaşlığın geniş şəkildə aparılması əhəmiyyətlidir. Xarici investisiyalar, beynəlxalq tərəfdaşlarla əlaqələrin qurulması,texnologiya transferi, təcrübə və bilik mübadiləsi mühitin qlobal səviyyədə inkişafını sürətləndirə bilər.

❖ Texnoparklar və inkubatorlar.

Bu strukturlar innovativ ideyaların praktiki tətbiqini asanlaşdırır. Startapların və yeni texnologiyaların sınaqdan keçirilməsi, təkmilləşdirilməsi üçün texniki və maliyyə dəstəyi təmin edir.

Beləliklə, yuxarıda sadalanan amillər nəzərə alınmaqla, innovasiya-investisiya mühitinin effektiv qurulması iqtisadi inkişafı sürətləndirir, yeni iş yerlərinin yaranmasına və ölkənin rəqabət qabiliyyətinin artmasına kömək edir.

## 3. İnnovasiya-investisiya mühitində sərmayə cəlbediciliyinin artırılması

İnnovasiya-investisiya mühitində fəallığın təmin olunması üçün sərmayə cəlbediciliyinin artırılması vacib hesab edilir. İnvestorlar üçün, adətən, iqtisadi mühitin, hüquqi çərçivənin, vergi siyasətinin, siyasi sabitliyin, potensial gəlirlilik göstəricilərinin və bir sıra digər amillərin qiymətləndirilməsi ilə şərtlənən sərmayə cəlbediciliyi aşağıdakı faktorlardan asılı ola bilər [6]:

❖ *İqtisadi sabitlik* – investorlar sabit iqtisadiyyata malik ölkələrdə sərmayə qoymağa üstünlük verirlər. Güclü iqtisadi inkişaf və aşağı inflyasiya investisiya üçün əlverişli mühit yaradır.

❖ *Siyasi sabitlik* – siyasi mühitin sabitliyi ölkədə gözlənilməz qanun dəyişikliklərinin və ya vergi tələblərinin olmamasını təmin edir.

❖ *Vergi və tənzimləmə mühiti* – aşağı vergi dərəcələri və rahat tənzimləmə siyasəti investorların cəlb edilməsində əhəmiyyətli rol oynayır.

❖ *İnfrastruktur* – keyfiyyətli nəqliyyat, enerji və telekommunikasiya infrastrukturu da investorların diqqətini çəkir.

❖ *Əmək bazarı və insan kapitalı* – yüksək təhsil səviyyəsi və ixtisaslı işçi qüvvəsi olan ölkələr və sahələr daha çox investor cəlb edə bilir.

❖ *Resurslar və bazar potensialı* – təbii resursların mövcudluğu və ya böyük istehlak bazarı investisiya cəlbediciliyini artıran faktorlardır.

Ölkənin və ya regionun ümumi investisiya cəlbediciliyini müəyyən edən bu faktorlar siyahısına maliyyə nəticələrinin səviyyəsini, məhsulların rəqabət qabiliyyətini, investisiyaların risklilik dərəcəsini və innovasiyaların gücləndirilməsi potensialını da əlavə etmək olar.

İnnovasiya-investisiya mühitində sərmayə cəlbediciliyinin artımı həm də innovativ layihələrə olan investisiya cəlbediciliyinin vəziyyətindən asılıdır. İnno-

vativ layihələrin investisiya cəlbediciliyi isə layihələrin texnoloji, maliyyə və sosial cəhətdən dəyər yaratma potensialına, həmçinin, bazar tələbatına cavab verib-vermədiyinə bağlıdır. İnnovativ layihələr, adətən, texnologiya və ya proses baxımından yeni və fərqli bir yanaşma təklif edir. Bu layihələr bazarda rəqiblərdən üstün olmağa, xərcləri azaltmağa, yaxud məhsul və xidmətlərin keyfiyyətini artırmağa imkan verir. Texnoloji üstünlük investorların diqqətini cəlb edən əsas amillərdən biridir [8]. Bununla yanaşı, layihənin bazar tələbinə uyğunluğu da çox vacibdir. Yəni layihənin bazarda həqiqi ehtiyacları qarşılayıb-qarşılamadığı və gələcəkdə böyük bir bazar payına sahib olma potensialı olub-olmadığı yoxlanılmalıdır. İnvestorlar layihənin uzunmüddətli perspektivini və böyümə potensialını qiymətləndirirlər. Bir məqamı da xüsusi vurğulamaq lazımdır ki, investisiya qoyuluşunun geridönüş müddəti, mənfəət nisbəti və maliyyə dayanıqlığı innovativ layihələrin cəlbediciliyini müəyyən edən əsas göstəricilərdir. Potensial investorlar layihənin gəlir gətirəcəyinə və risklərinin idarə oluna biləcəyinə əmin olmaq istəyirlər. Bu baxımdan layihəni həyata keçirən komandanın təcrübəsi və bacarıqları da böyük əhəmiyyət daşıyır. Güclü və peşəkar komanda layihənin uğur qazanma ehtimalını artırır və investorların inamını yüksəldir. Lakin etiraf etmək lazımdır ki, istənilən halda innovativ layihələrdə risklər daha yüksək olur, çünki bu cür layihələr, adətən, yeni və sınanmamış sahələrdə həyata keçirilir. Buna görə də investorlar layihənin risk idarəetmə strategiyalarını, bazar, texnoloji və hüquqi risklərin necə idarə olunacağını ciddi şəkildə araşdırırlar. Onu da qeyd edək ki, bir çox ölkələrdə dövlət tərəfindən innovativ layihələrə verilən dəstək, qanunvericilik təşviqləri və xüsusi proqramlar layihənin investisiya cəlbediciliyini artırır [5]. Vergi güzəştləri, subsidiyalar və digər dövlət yardımları investorlar üçün əlavə motivasiya olur. Beləliklə, üzərində dayandığımız bu faktorlar nəzərə alındıqda investorlar layihələrin potensialını daha asan qiymətləndirə və qərar verə bilərlər.

## 4. Azərbaycanda innovasiya-investisiya mühiti və onun qiymətləndirilməsi

İnnovasiya-investisiya mühitinin qiymətləndirilməsi bir ölkənin və ya sektorun investorlar üçün nə dərəcədə əlverişli olduğunu müəyyən etmək üçün aparılan bir prosesdir. Bu qiymətləndirmə investisiya qərarlarının verilməsində əsaslı rol oynayır və müxtəlif iqtisadi, siyasi və sosial amillərə əsaslanır. İqtisadiyyatın və biznes sektorunun inkişafını təmin edən vacib bir proses olan innovasiya-investisiya mühitinin qiymətləndirilməsi yuxarıda haqqında danışdığımız bir sıra müxtəlif amillər - iqtisadi göstəricilər, texnoloji potensial, hüquqi çərçivə, maliyyə imkanları, işgüzar mühit və digər meyarlar əsasında həyata keçirilir. Bu qiymətləndirmə nəticəsində investorlar hansı ölkəyə, regiona və ya sektora sərmayə qoymaq barədə daha dəqiq qərarlar qəbul edə bilirlər.

Azərbaycanda innovasiya-investisiya mühiti və onun qiymətləndirilməsi son illərdə iqtisadi islahatlar və rəqəmsal texnologiyaların inkişafı kontekstində diqqət mərkəzindədir. Hökumət innovasiyaların inkişafına və investisiyaların cəlbinə xüsusi diqqət ayırır. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi və İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi kimi qurumlar bu sahədə fəaliyyət göstərir. "Startap" layihələrinin dəstəklənməsi, vergi güzəştləri, texnoloji parkların yaradılması və maliyyə resurslarının təmin edilməsi ilə əlaqədar dövlət təşəbbüsləri də bu siyasətin bir hissəsidir. Ölkəmizdə, həmçinin, innovasiya fəaliyyətini dəstək-

ləyən müxtəlif texnoparklar da mövcuddur. Yüksək Texnologiyalar Parkı və Sumqayıt Kimya Sənaye Parkı innovasiya əsaslı layihələrin həyata keçirilməsinə dəstək göstərən əsas texnoparklardır. Bu mərkəzlər şirkətlərə lazımi infrastruktur, laboratoriyalar və digər resurslar təqdim edir. Azərbaycanda innovasiyaların inkişafında əsas rol oynayan insan kapitalının formalaşmasına da xüsusi diqqət yetirilir. Ölkəmizdə innovasiya yönümlü təhsil proqramları, universitetlərdə texnologiya üzrə ixtisaslar və təlim mərkəzləri inkişaf edir. Xüsusilə Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) və Bakı Ali Neft Məktəbi (BANM) kimi ali təhsil ocaqları innovasiya və texnologiya sahəsində tədris və tədqiqat işləri aparır. Rəqəmsallaşma da respublikamızda iqtisadi inkişafın əsas istiqamətlərindən biridir. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi rəqəmsal transformasiya proqramlarını həyata keçirir. "Azərkosmos", "Bakcell" və bu kimi şirkətlər informasiya texnologiyaları və telekommunikasiya sahəsində əhəmiyyətli layihələr reallaşdırırlar. Rəqəmsal həllərin yayılması və yüksək sürətli internet infrastrukturunun inkişafı da innovasiya mühitinə töhfə verir. Azərbaycanın beynəlxalq təşkilatlarla əməkdaşlığı və xarici investorlar üçün yaradılan şərait də innovasiya-investisiya mühitinə müsbət təsir göstərir. Asiya İnkişaf Bankı və Dünya Bankı kimi qurumlar Azərbaycanda bir sıra layihələri dəstəkləyir. Xarici investorlar üçün hüquqi və vergi güzəştləri investisiya qoyuluşları üçün əlverişli şərait təmin edir.

Qeyd edək ki, dünyada, o cümlədən Azərbaycanda innovasiya-investisiya mühitinin qiymətləndirilməsi üçün bir sıra beynəlxalq indekslərdən istifadə etmək mümkündür. Bu indekslər ölkənin innovasiya potensialını, investisiya cəlbediciliyini və ümumi biznes mühitini qiymətləndirməkdə faydalıdır. Aşağıdakı indekslər Azərbaycanda bu sahənin qiymətləndirilməsi üçün uyğun ola bilər:

*Global Innovation Index (GII)* - Qlobal İnnovasiya İndeksi. Bu indeks ölkələrin innovasiya imkanlarını və nəticələrini qiymətləndirir. Təhsil, tədqiqat, infrastruktur, biznes mühiti və innovasiya nəticələri kimi müxtəlif meyarlar əsasında hesablanır.

*World Bank Doing Business Index (DBI)* - Dünya Bankının Biznesin Aparılması İndeksi. Bu indeks ölkədəki biznes mühitinin nə dərəcədə əlverişli olduğunu qiymətləndirir. Məsələn, şirkətlərin qeydiyyatı, kreditlərə çıxış, vergi sistemləri və investorların qorunması kimi amillər bu indeksdə əks olunur.

*Global Competitiveness Index (GCI)* - Qlobal Rəqabətlilik İndeksi. Dünya İqtisadi Forumunun təqdim etdiyi bu indeks ölkələrin iqtisadi inkişaf potensialını və rəqabətqabiliyyətliyini qiymətləndirir. İnnovasiya qabiliyyəti və texnoloji inkişaf burada əsas rola malikdir.

*Economic Freedom Index (EFI)* - İqtisadi Azadlıq İndeksi. Bu indeks ölkədə iqtisadi azadlıq səviyyəsini, mülkiyyət hüquqlarının qorunmasını, tənzimləmə yükünü və investisiya azadlığını qiymətləndirir.

*Human Development Index (HDI)* - İnsan İnkişafı İndeksi. Bu indeks ölkədəki sosial və iqtisadi inkişaf səviyyəsini qiymətləndirir. Təhsil və sağlamlıq sahələrində innovasiyaların həyata keçirilməsi baxımından faydalı ola bilər.

Bu indekslərdən istifadə etməklə, Azərbaycanda innovasiya-investisiya mühitinin ümumi vəziyyətini dəyərləndirmək və inkişaf etdirilməsi üçün potensial sahələri müəyyənləşdirmək olar.

Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan Qlobal İnnovasiya İndeksi (QİI) 2024-də 95-ci yerdə qərarlaşsa da, bir sıra göstəricilər üzrə mövqeyini yüksəldib. “Biznes mühiti” alt indikatorunda ölkəmizin 2 pillə irəliləməsi (15-ci yer) Azərbaycanda innovasiyalar və bizne-

sin inkişafı üçün əlverişli mühitin olduğunun göstəricisidir. Ölkəmiz bir çox region dövlətlərini qabaqlayaraq “biznes siyasətinin sabitliyi” alt-indikatorunda da 3 pillə (19-cu yer) irəliləyib. “Biznesin inkişafı” indikatoruna görə Azərbaycan 67-ci pillədə yer alır. Universitet-sənaye əməkdaşlığında elmi-tədqiqat və inkişaf (30-cu yer), klaster inkişafı (29-cu yer) göstəriciləri üzrə ölkəmiz Cənubi Qafqazda liderdir. Bu göstəricilər elmi və özəl sektor arasında güclü qarşılıqlı əlaqəni əks etdirir ki, bu da tədqiqat və innovasiyaların stimullaşdırılması üçün vacibdir. Hökumət sənaye klasterlərinin yaradılmasını və Azərbaycanın 2030-cu ilədək olan gündəliyinin əsas elementi olan elmi-tədqiqat və inkişaf əməkdaşlığını təşviq edir. Hesabatdan göründüyü kimi ölkəmizdə həyata keçirilən islahatlar biznes və investisiya mühitinə müsbət təsir göstərib. Biznes mühiti getdikcə yaxşılaşır və güclü innovasiya bazası yaradılır. Bu fonda startaplar və yüksək texnologiyalı sektorlar üçün maliyyələşdirmə mexanizmlərinin tətbiqi, kommersiyalaşdırma və texnologiya transferinin artırılması, tədqiqatları iqtisadi nəticələrə çevirən mexanizmlərin gücləndirilməsi, rəqəmsal infrastruktur, yüksək texnologiyalı sənaye və innovasiyaların dəstəklənməsinin davam etdirilməsi aktuallaşır. Azərbaycan, həmçinin, “Bilik və texnoloji nəticələr” indikatoru üzrə patent alt indikatorunda da (50-ci yer) irəliləyib. QİI ekspertlərinin fikrincə, innovasiya fəaliyyətinin bu mühüm göstəricisi üzrə 13 pillə irəliləyiş əldə olunub ki, bu nəticə Cənubi Qafqaz regionunda ən yüksək göstəricidir [1].

Beynəlxalq səviyyəli başqa bir fakta da nəzər yetirək. Belə ki, Dünya İqtisadi Forumunun “IDEA: Azərbaycanın rəqəmsal iqtisadiyyatına investisiya” hesabatına əsasən, Azərbaycan startaplar və innovasiyalar üçün əlverişli mühitin yaradılmasında mühüm irəliləyiş əldə edib. Hesabata görə irəliləyiş biznesin inkişafına dəstək və innovasiyaların təşviqinə yönəlmiş çoxsaylı institutlar və proqramların yaradılmasında (məsələn, irimiqyaslı tədbirlər, texnoparklar və biznes inkubatorların inkişafı) öz əksini tapıb. Sənəddə bildirilir ki, Azərbaycan rəqəmsal inkişafın təşviqində və qlobal rəqabət qabiliyyətinin artırılmasında birbaşa xarici investisiyaların rolunu həlledici hesab edir. Azərbaycan hökuməti 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası vasitəsilə xarici investisiyaların cəlb edilməsinə, islahatların həyata keçirilməsinə və özəl sektorun stimullaşdırılmasına xüsusi diqqət yetirir [3].

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Beləliklə, yuxarıda təhlil edilən məsələlər, nəzərdən keçirilən amillər və göstəricilər Azərbaycanda innovasiya-investisiya mühitinin ümumi mənzərəsini əks etdirir. Bu sahədə istiqamət müsbət olsa da, düşünürük ki, hökumət və işgüzar sektor arasındakı əməkdaşlıq, təlim proqramlarının inkişafı və startapların dəstəklənməsi mühitin daha da inkişaf etdirilməsinə töhfə verə bilər. Belə ki, müsbət hallarla yanaşı, ölkəmizdə innovasiya-investisiya mühitində bir sıra problemlər də mövcuddur və onlar da ölkənin texnoloji inkişafını, xarici investisiya cəlbetmə potensialını məhdudlaşdırır. Bu problemlər arasında bürokratik maneələr, innovativ təşəbbüslər üçün maliyyə resurslarının məhdudluğu, ixtisaslı kadr çatışmazlığı, beynəlxalq əlaqələrin zəif inkişafı, patent və müəllif hüquqlarının qorunması ilə bağlı məsələlər yer alır. Həmçinin Azərbaycanda innovasiya mədəniyyəti də hələ yetərincə inkişaf etməyib. Çox sayda müəssisə və fərdlər innovasiyaya, texnoloji yeniliklərə açıq deyillər. Bu da ölkədə innovativ düşüncə və tətbiqetmənin yayılmasını ləngidir. İnnovasiya fəa-

liyyətinə yetərincə maraq göstərilmədiyi üçün yeni texnologiyaların tətbiqi prosesində çətinliklər yaşanır. Bu problemlər innovasiya-investisiya mühitinin inkişafına əngəl törədən əsas amillərdir və onların aradan qaldırılması üçün həm dövlət, həm də özəl sektor tərəfindən ciddi addımların atılması zəruridir.

- Startaplar və texnologiya şirkətləri üçün əlverişli hüquqi mühit yaratmaq, xüsusilə vergi güzəştləri, patent və intellektual mülkiyyət hüquqları ilə bağlı qanunvericiliyi sadələşdirmək investorların inamını artırar;
- Bir çox məsələlərdə böyük önəm daşıyan maliyyə dəstəyi və onun mexanizmlərinin genişləndirilməsi yenə də aktualdır. Bu, qrant proqramları, aşağı faizli kreditlər və startap inkubatorları kimi təşviqlərlə həyata keçirilə bilər;
- Azərbaycanda innovasiya və texnologiya üzrə fəaliyyət göstərən, habelə gənc təşəbbüskarların ideyalarını reallaşdırmaları üçün dəstək verə bilən inkubatorlar, akseleratorlar və texnoparkların inkişafı və genişləndirilməsi vacibdir;
- Xarici innovasiya və investisiya fondları ilə əlaqələri möhkəmləndirərək nəticədə Azərbaycan startaplarının beynəlxalq arenada tanıdılması və onların qlobal investisiya şəbəkələrinə çıxışının təmin edilməsi investorlar üçün cazibədar mühit yarada bilər;
- Əsasən texnologiya sahəsində yüksəkixtisaslı mütəxəssislərin hazırlanması üçün universitetlərdə təhsil proqramlarının yenilənməsi və praktiki təlimlərə yönəlik kursların, həmçinin, texnoloji biliklərin inkişafına istiqamətlənmiş konfrans və seminarların artırılması ümumi işə töhfə verə bilər;
- Azərbaycanda yerli risk kapitalı fondlarının yaradılması innovasiya və startapların maliyyələşdirilməsi üçün çox önəmlidir. Belə ki, bu fondlar investorlar üçün layihələrin ilkin mərhələsində daha təhlükəsiz və cazibədar şərait yaradar;
- Startap və innovasiya sektorundakı bəzi inzibati maneələrin azaldılması, o cümlədən bizneslərin qeydiyyat proseslərinin sadələşdirilməsi və əməliyyatların sürətləndirilməsi bu sahənin daha sürətli böyüməsinə kömək edə bilər;
- Müvafiq sahələr üzrə müəssisələrin tədqiqat və inkişaf fəaliyyətlərini təşviq etmək üçün əlavə vergi güzəştləri və dövlət dəstəyi proqramlarının təqdim olunması texnoloji inkişafı sürətləndirər.

Azərbaycanda innovasiya-investisiya mühitini inkişaf etdirmək üçün yuxarıda sadalanan addımları atmaq mümkündür. Bu addımlar həm yerli startapların və innovativ layihələrin inkişafına təkan verə, həm də xarici investorları cəlb edə bilər.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

**Azərbaycan dilində:**

1. Azərbaycan "Qlobal İnnovasiya İndeksi"ndə biznes mühiti üzrə 15-ci yerə qalxıb. - https://report.az/biznes-xeberleri/qlobal-innovasiya-indeksi-2024-derc-olunub28092024/
2. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. - https://president.az/az/articles/view/50474
3. Azərbaycan startap və innovasiyalar üçün əlverişli mühitin yaradılmasında irəliləyiş əldə edib. - https://azertag.az/xeber/azerbaycan_startap_ve_innovasiyalar_uchun_elverisli_muhitin_yaradilmasinda_irelileyis_elde_edib-3053010
4. Əzizova G.A. Dövlətin investisiya-innovasiya siyasəti. Bakı: "İqtisad Universiteti" nəşriyyatı, 2012, 212 s.
5. "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu. - https://e-qanun.az/framework/50048
6. Musayev A. İnnovasiya iqtisadiyyatı və vergi stimullaşdırılması. Bakı: 2014.

**İngilis dilində:**

7. Eunika Mercier-Laurent. Innovation ecosystems. ISTE Ltd and John Wiley. 2011.
8. Martin Andersson, Börje Johansson, Charlie Karlsson, Hans Lööf. Innovation and Growth: From R&D Strategies of Innovating Firms to Economy-Wide Technological Change. Oxford University Press, 2012.
9. Paul J.J.Welfens. Innovations in Macroeconomics. 3rd ed. Springer-Verlag Berlin, 2011.

**Rafig Rzayev**

## ESTABLİSHMENT OF FAVORABLE ENVİRONMENT FOR INNOVATİON AND INVESTMENT

### Abstract

The article explores the creation of a favorable environment for innovation and investment. It examines both tangible and intangible factors that contribute to an attractive investment climate, as well as the effective development of such an environment. The article emphasizes key issues critical to the success of this environment and enhancing its investment appeal. It highlights the importance of a well-established innovation and investment environment in accelerating economic growth, generating new jobs, and improving national competitiveness.

Additionally, the article analyzes the innovation and investment environment in Azerbaijan, providing an assessment based on various economic indicators, technological capabilities, the legislative framework, financial resources, business climate, and other relevant criteria. The article also considers several international indices used to evaluate innovation and investment environments, presenting

Azerbaijan's performance on these indices. Finally, while acknowledging the positive developments in this area, the article identifies challenges and proposes recommendations for addressing them.

**Keywords:** innovation and investment environment, investment attractiveness, investors, assessment, tax policy, innovation projects, factors, international indices

**Рафиг Рзаев**

## СОЗДАНИЕ БЛАГОПРИЯТНОЙ ИНВЕСТИЦИОННОЙ СРЕДЫ ДЛЯ ИННОВАЦИЙ

### РЕЗЮМЕ

В статье рассматриваются пути создания благоприятной инновационно-инвестиционной среды. Анализируются как материальные, так и нематериальные факторы, способствующие формированию эффективной инновационно-инвестиционной среды. Особое внимание уделяется вопросам, которые играют ключевую роль для успешности данной среды и повышения её инвестиционной привлекательности. Подчеркивается, что эффективное создание подобной среды ускоряет экономическое развитие, способствует созданию новых рабочих мест и повышению конкурентоспособности страны.

Кроме того, в статье анализируется инновационно-инвестиционная среда в Азербайджане, а также проводится ее оценка на основе экономических показателей, технологического потенциала, законодательной базы, финансовых возможностей, бизнес-среды и других критериев. Рассматриваются международные индексы, используемые для оценки инновационно-инвестиционной среды, и приводятся показатели Азербайджана по этим индексам. Помимо положительных аспектов в этой области, выделяются проблемы и предложены меры для их решения.

**Ключевые слова:** инновационно-инвестиционная среда, инвестиционная привлекательность, инвесторы, оценка, налоговая политика, инновационные проекты, факторы, международные индексы

# SOSİAL MEDİA, İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ MƏSƏLƏLƏRİ

# SOCIAL MEDIA, INFORMATION SECURITY ISSUES

# TÜRKİYƏ-AZƏRBAYCAN ORTAQ MEDİA PLATFORMASININ YARADILMASINI ZƏRURİ EDƏN AMİLLƏR

**Pərvanə İBRAHİMOVA**
*Bakı Dövlət Universiteti, Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrası,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent*
*(Bakı, Azərbaycan)*

*E-mail: pervanei@mail.ru*
*ORCID: 0000-0002-3611-0362*
*UOT 070*
*UOT 32*
*UOT 32:316.77*
*UOT 327*

**Xülasə:** Türk dövlətlərinin regional və qlobal miqyasda bir güc kimi meydana çıxmasının simvoluna çevrilmiş İkinci Qarabağ zəfəri türk dünyasında yeni dövrün başlanğıcının əsasını qoymuşdur. Qələbədən sonra türk dövlətləri siyasi, iqtisadi və mədəni əməkdaşlığın genişləndirilməsi istiqamətində mühüm addımlar atmış, Türk Dövlətləri Təşkilatı çərçivəsində və mövcud əməkdaşlıq platformaları vasitəsilə keçirilən diplomatik görüşlər intensiv xarakter almaqla yanaşı, media və kommunikasiya sahəsində yeni yanaşmaları şərtləndirmişdir. Məqalədə İkinci Qarabağ müharibəsindən əvvəl Azərbaycan və Türkiyənin təşəbbüsü ilə təsis edilən Ortaq Media Platformasının yaranma məqsədi, fəaliyyət istiqamətləri, türk dünyasının media sektoruna verəcəyi yeniliklər təhlil edilmişdir. Tədqiqatda habelə türkdilli dövlətlərin media subyektləri arasında məzmun paylaşma və həmin ölkələrin mədəniyyətlərini, tarixlərini və mövcud inkişaflarını qarşılıqlı şəkildə tanıtmaq məqsədi daşıyan ortaq yayım layihələrindən, sosial media və rəqəmsal platformaların türk xalqları arasında birbaşa ünsiyyəti və qarşılıqlı əlaqəni asanlaşdırmaqla media əməkdaşlığının yeni miqyasda davam etdirilməsinə verəcəyi töhfələrdən bəhs edilmişdir. Məqalədə birgə fəaliyyətin formaları və xarakterik xüsusiyyətləri təhlilə cəlb edilmiş, türk dövlətlərinin media və kommunikasiya sahəsində həyata keçirdikləri birgə layihələr ətraflı şəkildə araşdırılmışdır.

**Açar sözlər:** türk dövlətləri, Türkiyə-Azərbaycan Ortaq Media Platforması, media, vahid informasiya məkanı

## GİRİŞ

İkinci Qarabağ müharibəsi türk dövlətləri arasında media əməkdaşlığının vacibliyini və zəruriliyini bir daha ortaya qoymuşdur. Müharibə dövründə və ondan sonra media qurumları arasında informasiya və xəbər mübadiləsi sürətlənmiş, birgə yayım layihələri və məzmun istehsalı ilə bağlı yeni təşəbbüslər həyata keçirilmişdir. Bu proses həm də türk dövlətlərinin media sektorlarında əməkdaşlığın dərinləşdirilməsi üçün yeni mexanizmlərin hazırlanmasına zəmin yaratmış, vahid yayım standartlarının yaradılması, media sahəsində kadrların hazırlanması üçün əməkdaşlıq və qarşılıqlı səfərlər, texnoloji infrastrukturların gücləndirilməsi və rəqəmsal media sahəsində əməkdaşlığın genişləndirilməsi kimi məsələlər ön plana çıxmışdır.

İkinci Qarabağ müharibəsindən sonra türk dövlətləri arasında media əməkdaşlığının genişlənməsi regional və beynəlxalq səviyyədə daha səmərəli kommunikasiya strategiyasının hazırlanmasına imkan vermişdir. Bu əməkdaşlıq sayəsində türk dünyasının ortaq səsi beynəlxalq platformalarda daha güclü rezonans doğurmuş, regional məsələlərlə bağlı ortaq münasibət və strategiyalar daha təsirli şəkildə təqdim edilmişdir. Bu amillər türk dövlətlərinin mədəni və strateji inteqrasiyasını daha da gücləndirmiş, media və kommunikasiya sahəsində qurulan əməkdaşlığın əhəmiyyətini və təsirini artırmışdır.

## 1. Türk dövlətlərinin vahid informasiya məkanı: Türkiyə-Azərbaycan Ortaq Media Platforması

Türk dövlətləri vahid informasiya sferasının yaradılması istiqamətində Azərbaycan və Türkiyə hər zaman xüsusi təşəbbüs göstərmişdir. Türkdilli Xəbər Agentlikləri Birliyinin (TKA) yaradılması, Türkdilli Ölkələrin və Toplumların Media Forumlarının keçirilməsi bu ölkələrin informasiya resurslarının vahid şəbəkədə birləşməsi və xəbərlərinin mərkəzi platformada yayımlanması, ölkələr arasında daha sıx və dərin əlaqələrin qurulması baxımından böyük əhəmiyyət kəsb etmişdir. Bu sahənin inkişafı istiqamətində sistemli işlərin aparılması media sahəsində əlaqələrin genişlənməsinə mühüm töhfə verməklə yanaşı, dövrün tələblərinə uyğun olaraq yeni platformaların yarama zərurətini ortaya çıxarmışdır. 2020-ci ilin sentyabrın 7-də təsis edilən və həmin ilin dekabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə imzalanan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında media sahəsində strateji əməkdaşlıq haqqında” Anlaşma Memorandumu ilə rəsmiləşdirilən Ortaq Media Platforması iki ölkə arasında media əməkdaşlığını strateji səviyyəyə qaldıraraq birgə xəbər yayımını, proqram dəyişikliklərini və informasiya axınını asanlaşdıran struktur yaratmışdır. Platforma hər iki ölkənin media qurumlarının qarşılıqlı məzmun paylaşmasına və birgə layihələr hazırlamasına şərait yaratmaqla ortaq informasiya məkanının əsaslarını qoymuşdur. Bu əməkdaşlıq iki ölkə arasında əlaqələri gücləndirməklə yanaşı, digər türk dövlətləri arasında oxşar işbirliklərinin inkişafına təkan vermiş, türk mediasının qlobal informasiya məkanına inteqrasiyasını təşviq etməklə yanaşı, medianın üzləşdiyi çətinliklərin öhdəsindən gəlmək, müasir texnoloji inkişafın gətirdiyi yeniliklərə uyğunlaşmaq istiqamətində mühüm addımların atılmasına zəmin yaratmışdır. Ortaq Media Platforması ümumi mədəni dəyərlərin və tarixi irsin qorunması və təbliğində, regional və beynəlxalq məsələlərdə vahid mövqeyin gücləndirilməsində mühüm rol oynamışdır. Türkiyə və Azərbaycanın

media sektorundakı inteqrasiyası hər iki ölkəyə beynəlxalq arenada öz səslərini effektiv şəkildə eşitdirməyə imkan vermiş, yumşaq güc imkanlarını artırmış, bununla belə, xalqlar arasında bilik və mədəniyyət mübadiləsini təşviq etməklə, qarşılıqlı anlaşma və həmrəyliyi dərinləşdirmişdir.

Türkiyə-Azərbaycan Ortaq Media Paltformasının yaradılması istiqamətində ilk addım 2020-ci il sentyabrın 7-də atılmışdır. Həmin tarixdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin rəhbərlik etdiyi nümayəndə heyətinin iki ölkə arasında birgə media platforması yaratmaq, xəbər, mütəxəssis və fikir mübadiləsini həyata keçirmək məqsədi ilə Türkiyəyə səfəri baş tutmuşdur. Birgə toplantıda çıxış edən Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsinin rəhbəri Fahrettin Altun Türkiyə-Azərbaycan Media Platformasının yaradılması üçün razılığa gəldiklərini açıqlamışdır [3].

Müxtəlif media subyektləri və media ekspertləri Türkiyə-Azərbaycan Ortaq Media Platforması haqqında razılığın əldə olunmasını media qurumları arasında əlaqələrin möhkəmlənməsinə, hər iki ölkənin üzləşdiyi qərəzli təbliğat və informasiyaya qarşı effektiv, çevik və operativ reaksiya verilməsinə, ictimaiyyətin düzgün və vaxtında məlumatlandırılmasına töhfə verəcək mühüm hadisə olaraq dəyərləndirmişdir. Bununla bərabər, Ortaq Media Platformasının strateji əhəmiyyətinə diqqət çəkilərək medianın cəmiyyəti istiqamətləndirmək və maarifləndirmək imkanları, hər iki ölkənin üzləşdiyi manipulyasiya xarakterli təbliğat və dezinformasiya kampaniyalarına qarşı faktların müdafiəsi və mənfi təsəvvürlərin neytrallaşdırılmasının vacibliyi, informasiya çirkliliyi ilə mübarizə ümumi yanaşma olaraq nəzərdən keçirilmişdir. Bu razılaşmanın əldə olunması informasiya müharibələrinə qarşı çıxmaq və iki ölkənin milli maraqlarını qorumaq üçün atılan strateji addım hesab olunmuşdur. Belə ki, Türkiyə-Azərbaycan Ortaq Media Platforması təkcə iki ölkə arasında əlaqələri gücləndirmək deyil, həm də regional və beynəlxalq səviyyədə baş verən hadisələrə koordinasiyalı reaksiya mexanizmi yaratmaq məqsədi daşımışdır [16].

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında münasibətlərdə strateji istiqamət olan media sektorunda əməkdaşlığın dərinləşdirilməsi məqsədi daşıyan Türkiyə-Azərbaycan Ortaq Media Platforması 2021-ci il fevralın 1-də Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin birinci hissəsinin dördüncü bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edilmişdir. Prezident İlham Əliyev 2021-ci il fevralın 18-də anlaşma memorandumunun təsdiq edilməsi barədə Qanunu imzalamış, Prezident Rəcəb Tayyib Ərdoğan isə 2021-ci il martın 20-də müvafiq qərarı təsdiqləmişdir. Anlaşma memorandumu rəsmi media qurumları arasında ortaq fəaliyyətin həyata keçirilməsini, beynəlxalq platformalarda rast gələnən dezinformasiyaya qarşı birgə mübarizə aparılmasını və dünya ictimaiyyətinin düzgün məlumatlandırılmasını, televiziya və kino sahələrində əməkdaşlığı, müxtəlif media və sənaye nümayəndələri arasında əməkdaşlığın qurulmasını, peşə hazırlığı və mübadilə proqramlarının təşkilini və eyni zamanda iki ölkənin fikir liderləri arasında səmərəli ünsiyyət körpüsü yaradılmasını hədəfləmişdir [7]. Memorandumun təsdiqindən sonra müəyyən edilmiş məqsədlərə çatmaq və hərtərəfli plan hazırlamaq üçün Türkiyə ilə Azərbaycan arasında Birgə

İşçi Komissiyasının yaradılması nəzərdə tutulmuşdur [20].

Türkiyə-Azərbaycan Ortaq Media Platforması ilə bağlı materialların təhlili, mütəxəssis rəylərinin ümumiləşdirilməsinə görə, yeni resurs qarşılıqlı anlaşmanın və regional əməkdaşlığın gücləndirilməsi istiqamətində mühüm addım və hər iki ölkənin strateji tərəfdaşlığının təzahürü kimi qiymətləndirilmişdir. Milli Məclisin deputatı Hikmət Babaoğlunun da qeyd etdyi kimi bu platforma hər iki dövlətin, əslində isə vahid millətin maraqlarını nəzərə alan uzunmüddətli planlaşdırma nəticəsində ortaya çıxmışdır. Babaoğluna görə, bu strateji birləşmə, informasiya və mədəniyyətin qlobal səviyyədə səmərəli yayılmasını təmin etməklə iki qardaş ölkənin öz maraqlarını beynəlxalq arenada daha güclü şəkildə təmsil etmələrinə şərait yaratmışdır. Xüsusən də Azərbaycan mediasının ənənəvi olaraq rus, türk mediasının isə ingilis və fransız media mühitində güclü nüfuza malik olduğu nəzərə alınarsa, bu birləşmə hər iki ölkənin informasiya maraqlarını geniş platformada təmsil etmək imkanlarını artırmışdır [21]. Milli Məclisin deputatı Arzu Nağıyev iki ölkə arasında əlaqələrin daha da inkişaf etdirilməsi və cari problemlərin həlli yollarının tapılmasında platformanın mərkəzi rol oynayadığını ifadə etmiş və onu əməkdaşlığı daha da gücləndirən, qarşılıqlı anlaşma və ümumi maraqları möhkəmləndirən mühüm vasitə olaraq dəyərləndirmişdir [3]. Milli Məclisin deputatı Zahid Oruc sənədin iki ölkənin media sahəsində əlaqələrini inkişaf etdirməyə xidmət etdiyini bildirmiş, onu dezinformasiyaya qarşı birgə mübarizə üçün yaxşı platforma hesab etmişdir: “Azərbaycan müstəqillik əldə etdikdən sonra həm Ümummilli lider Heydər Əliyevin, həm də Prezident İlham Əliyevin dövründə Azərbaycan və Türkiyə arasında istisadi, siyasi və hərbi sahədə əməkdaşlıq inkişaf etdirilib. İndiki saziş də bu istiqamətdə yeni addımdır. Bu sənəd milli informasiya məkanını qorumaqla yanaşı, beynəlxalq standartların öyrənilməsinə xidmət edəcək” [15]. Əməkdar jurnalist Faiq Hüsiyev isə platformanın gələcəkdə Mərkəzi Asiya ölkələri və rusdilli regionlarla əməkdaşlığı genişləndirmək potensialına malik olduğunu qeyd etmişdir. O, bu genişlənmənin türk dövlətlərinin qlobal informasiya sahəsində daha güclü birlik yaratmasına imkan verəcəyini vurğulamışdır [17].

Türkiyə ilə Azərbaycan arasında yaradılmış Ortaq Media Platforması türk dövlətləri arasında media əməkdaşlığının dərinləşə və genişləndirilə biləcəyinə dair model təşkil etmişdir. Bu nümunə digər türk dövlətlərini media və kommunikasiya sahəsində əməkdaşlığa ruhlandırmış, regional inteqrasiyanı gücləndirəcək daha çox təşəbbüslərin həyata keçirilməsinə zəmin yaratmışdır. Bu kontekstdə həyata keçirilən mühüm fəaliyyətlərdən biri də 2021-ci il aprelin 9-da Bakıda baş tutmuşdur. Həmin tarixdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) informasiya və media üzrə məsul nazirlərinin və yüksək vəzifəli rəsmilərinin 3-cü toplantısına hazırlıq məqsədilə işçi qrupunun 8-ci iclası keçirilmişdir. İclasda Türkiyə, Qırğızıstan, Özbəkistan, Qazaxıstan və Macarıstandan yüksək səviyyəli rəsmilər iştirak etmişdir. İclasın gündəliyinə yerli və beynəlxalq məlumatlılığın artırılması, 2021-2022-ci illər üçün Fəaliyyət Planının icrası, tarixi və mədəni layihələr, film çəkilişləri, media mütəxəssisləri üçün təlim kursları və mübadilə proqramları kimi müxtəlif mövzular daxil edilmişdir [13]. İclasdan bir gün sonra Türk Şurası informasiya və media üzrə məsul rəsmilərinin üçüncü toplantısı baş tutmuşdur. Toplantıda Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin qeyd etdiyi kimi, 44 günlük Zəfər

savaşında Türk Şurası Azərbaycana öz dəstəyini açıq şəkildə göstərmişdir. Toplantıda media əməkdaşlığının əsaslarının qoyulmasının və dezinformasiya ilə mübarizənin vacibliyi vurğulanmış, eyni zamanda sosial mediada saxta xəbərlərin yayılmasının çağımızın mühüm problemlərindən biri olduğu və Türk Şurası çərçivəsində bu məsələdə birgə fəaliyyət göstərməyin xüsusi əhəmiyyət kəsb etdiyi qeyd olunmuşdur. Toplantıda müzakirə olunan digər mühüm məsələlərdən biri də media sahəsində əməkdaşlığın zəruri hüquqi bazasının müəyyənləşdirilməsi və qəbul edilən müvafiq sənədlərin praktikada genişləndirilməsi ilə bağlı olmuşdur. Toplantıda dezinformasiyaya qarşı mübarizədə türk dövlətlərinin ortaq media platforması vasitəsilə vahid səy göstərməli olduğu vurğulanmış, bunun türk dünyasının ortaq tarixi və mədəni dəyərlərinə əsaslanaraq qlobal çağırış və təhdidlərə qarşı durmaq imkanlarını artıracağı qeyd edilmişdir. Bu toplantı türk dövlətləri arasında birgə fəaliyyət planlarının həyata keçirilməsi, bilik və təcrübə mübadiləsinin asanlaşdırılması ilə yanaşı, mədəni-tarixi layihələrin həyata keçirilməsi, ümumi dəyərlərin qorunması və inkişafı baxımından da mühüm əhəmiyyət kəsb etmişdir [10].

Türk dövlətləri arasında media və informasiya sahəsində əməkdaşlığın inkişaf etdirilməsi və gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərdən biri də 2021-ci il sentyabrın 15-də Qazaxıstanın paytaxtı Nur-Sultanda baş tutan “Türkdilli ölkələrdə media. Yeni reallıqlar şəraitində əməkdaşlığın inkişafı” adlı dəyirmi masa olmuşdur. Beynəlxalq Türk Akademiyasının XVII Avrasiya Media Forumunun təşkilat komitəsi ilə birlikdə həyata keçirilən görüşdə informasiya və kommunikasiya sahəsində daha səmərəli əməkdaşlıq və koordinasiyanı təmin etmək üçün türk dövlətləri arasında ortaq media platformasının yaradılması təklifi irəli sürülmüş və Türkiyə-Azərbaycan Ortaq Media Platforması buna ən yaxşı nümunə olaraq göstərilmişdir. Görüşdə media və kommunikasiya texnologiyaları sahəsində qarşılıqlı dəstəyin və inteqrasiyanın təşviq edilməsinin vacibliyi qeyd olunmuş, bu prosesin türk dövlətlərinə ortaq mədəni və tarixi dəyərlərinə əsaslanaraq daha güclü regional və beynəlxalq əlaqələr qurmağa imkan verəcəyi vurğulanmışdır. Görüşdə, həmçinin media sahəsində ortaq xəbər strategiyalarının hazırlanması, təlim və mübadilə proqramlarının təşkili kimi addımların atılması media əməkdaşlığının konkret yolları kimi qiymətləndirilmişdir. Görüşdə, eyni zamanda informasiya təhlükəsizliyi və yeni media trendləri kimi mühüm məsələlər ətrafında müzakirələr aparılmış, mədəni və tarixi irsin qorunmasına və beynəlxalq arenada səmərəli təmsil olunmasına imkan verəcək addımlar üzə çıxarılmışdır. Görüş, ümumiyyətlə, media sektoru üçün mövcud çağırışlar və imkanlar haqqında dərin dialoq təmin etməklə, türk dövlətləri arasında daha güclü media əməkdaşlığı və inteqrasiyası istiqamətində mühüm addım hesab olunmuşdur [12].

Türkiyə-Azərbaycan Ortaq Media Platformasının ilk iclası 2021-ci il oktyabrın 22-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) İstanbulda keçirilən mediaforumu çərçivəsində gerçəkləşmişdir. “Bir millət, iki dövlət” yanaşması konteksində təşkil olunan bu görüş iki ölkənin media və kommunikasiya sektorlarında əməkdaşlığın artırılması istiqamətində mühüm addım hesab olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsinin rəhbəri Fahrettin Altunun rəhbərlik etdiyi iclasda ənənəvi və rəqəmsal media, strateji kommuni-

kasiya və ictimai diplomatiya, dezinformasiya ilə mübarizə kimi məsələlərdə əməkdaşlıq və koordinasiyanın gücləndirilməsinin vacibliyi müzakirə edilmişdir. İclasda Ortaq Media Platformasının strukturu və fəaliyyəti ilə bağlı “xalq diplomatiyası”, “beynəlxalq media”, “strateji kommunikasiya”, “təhsil”, “qanunvericilik və tənzimləmə”, “rəqəmsallaşma və beynəlmiləlləşmə” komitələrinin yaradıldığı açıqlanmış, eyni zamanda Qarabağın işğaldan azad edilməsi prosesində media və kommunikasiya sahəsində əməkdaşlığın əhəmiyyəti vurğulanaraq xalq diplomatiyası vasitəsilə dezinformasiyaya qarşı mübarizədə səmərəli strategiyaların işlənib hazırlandığı bildirilmişdir [14]. Mediaforum çərçivəsində türkdilli dövlətlərin media qurumlarının rəhbər və təmsilçiləri, sosial media ekspertləri bir araya gələrək media əməkdaşlığının gücləndirilməsi, sosial media platformalarının tənzimlənməsi və media qurumları arasında texniki harmoniyanın təmin edilməsi kimi mühüm məsələləri müzakirə etmişlər. Nur-Sultanda olduğu kimi, burada da Türkiyə ilə Azərbaycan arasında yaradılmış ortaq media platformasının uğurları əsasında Türk Dövlətləri Media Platformasının yaradılması və hərtərəfli əməkdaşlığa keçid ideyası dəstəklənmişdir. Forum iştirakçılarına görə, Türkiyə və Azərbaycanın 44 günlük Vətən müharibəsi zamanı qurduğu ortaq media platforması dezinformasiya kampaniyalarına qarşı effektiv mübarizə nümayiş etdirərək dünya ictimaiyyətinin həqiqəti görməsinə şərait yaratmışdır. Bu platforma informasiya müharibəsində mühüm qələbə qazanaraq Azərbaycanın işğal altında olan torpaqlarını azad etmək uğrunda apardığı mübarizəyə mühüm dəstək vermişdir [9].

2022-ci il mayın 14-də İstanbulda keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) media və informasiya üzrə məsul nazirlərinin və yüksəkvəzifəli rəsmilərinin 4-cü toplantısı da türk dünyasının media və kommunikasiya sahələrində əməkdaşlığın gücləndirilməsi və mövcud problemlərin ortaq həlli yollarının tapılması istiqamətində mühüm addım olmuşdur. Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsinin ev sahibliyi ilə baş tutan tədbirdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Azərbaycan-Türkiyə Media Platformasının fəaliyyətinin daha da genişləndirilməsi istiqamətində Azərbaycan tərəfinin bütün təkliflərə açıq olduğunu, TDT-yə daxil digər qardaş və dost ölkələrlə də informasiya və media sahəsində əməkdaşlığın inkişaf etdirilməsində maraqlı olduğunu bildirmişdir [11]. Toplantıda diqqət mərkəzində olan məsələlərdən biri də sosial mediada dezinformasiyaya qarşı mübarizə olmuş və türk dünyasının saxta informasiyalara qarşı birgə fəaliyyət göstərməsinin vacibliyi vurğulanmışdır. Bu kontekstdə Qarabağ müharibəsi zamanı sosial mediada nümayiş olunan həmrəyliyin və informasiya cəbhəsindəki mübarizənin qələbəyə töhfəsinə diqqət çəkilmişdir. Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsinin rəhbəri Fahrettin Altun bildirmişdir ki, sosial mediada dezinformasiya ilə mübarizə toplantının əsas mövzularındandır. Bu çağırışla birgə mübarizə və onun qarşısının alınması hər birimiz üçün çox vacibdir. Bundan əlavə, toplantıda televiziya və kino sahəsində birgə layihələrin hazırlanması, Türkiyənin kommunikasiya modelinin türk dünyasına inteqrasiyası kimi məsələlər də gündəmə gətirilmişdir. Media və informasiya texnologiyaları sahəsində əməkdaşlığın təkcə regional deyil, həm də qlobal səviyyədə vacibliyini qeyd edən görüş iştirakçıları “Türk Dünyasına Baxış 2040” sənədinin qəbulunu bu aspektdən yüksək dəyərləndirmişdir [11].

## 2. Türk dövlətlərinin media və kommunikasiya siyasətinin genişləndirilməsi istiqamətində növbəti mərhələ: qarşılıqlı səfərlər, birgə layihələr

Türk dövlətlərinin media və kommunikasiya sahəsində əməkdaşlığı müəyyən təşkilatların fəaliyyət çərçivələri ilə yanaşı, həm də ayrı-ayrılıqda, ikitərəfli və çoxtərəfli görüşlər şəklində davam etdirilmişdir. 2022-ci il iyunun 17-də Bakıda Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin (MEDİA) icraçı direktoru Əhməd İsmayılov və Qazaxıstan Respublikası İnformasiya Komitəsinin sədri Kanat İskakov arasında iki ölkə arasında media sahəsində əməkdaşlığın gücləndirilməsi məqsədi ilə görüş keçirilmişdir. MEDİA-nın icraçı direktoru ölkələr arasında media sahəsində effektiv əməkdaşlığın qurulduğunu, xüsusən də Türk Dövlətləri Təşkilatı çərçivəsində ortaq dəyərlərə söykənən əlaqələrin inkişaf etdirilməsinin ciddi perspektivləri olduğunu bildirmişdir. Kanat İskakov isə Qazaxıstanda media qanunvericiliyinin yenilənməsi istiqamətində görülən işlər barəsində məlumat vermiş, Azərbaycanın "Media haqqında" qanununun nümunə olaraq öyrənilməsinin əhəmiyyətini vurğulamışdır. Görüşdə, həmçinin iki ölkənin informasiya sahəsində əməkdaşlığının dərinləşdirilməsi, media qurumları arasında daha səmərəli əməkdaşlıq platformasının yaradılması kimi məsələlər müzakirə edilmişdir [4]. Azərbaycan və Qazaxıstan rəsmiləri arasında keçirilən görüş iki ölkənin media və informasiya sahəsində qarşılıqlı əlaqələrin inkişafı istiqamətində konkret addımlar atmaq üçün mühüm imkanlar yaratmaqla yanaşı, həm də türk dünyasının digər ölkələri ilə oxşar əməkdaşlığın inkişafında nümunə olmuşdur.

Türk dövlətlərinin media və kommunikasiya siyasətinin genişləndirilməsi istiqamətində növbəti mərhələ 2023-cü il aprelin 24-də Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi və ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun Türk Dövlətləri Təşkilatına üzv ölkələrin jurnalistləri və media mütəxəssisləri üçün birgə təşkil etdiyi təlim proqramı vasitəsilə reallaşmışdır. Türk Dövlətləri Təşkilatına üzv ölkələrdə media ekspertlərinin bilik və bacarıqlarını təkmilləşdirmək, həmçinin çoxtərəfli əlaqələri gücləndirmək məqsədi daşıyan proqramın açılış mərasimində Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov qeyd etmişdir ki, "Azərbaycan Türk Dövlətləri Təşkilatı çərçivəsində media sahəsində əlaqələrin gücləndirilməsinə töhfə verməkdədir və hazırkı layihə media sahəsində əməkdaşlığın inkişaf etdirilməsi, təcrübə mübadiləsinin aparılması, müxtəlif ortaq platformalar vasitəsilə ölkələrimiz haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında xüsusi rol oynayacaqdır" [6]. Jurnalistika və media ekspertizası sahəsində aktual problemləri, müasir qlobal media trendlərini, media-kommunikasiya strategiyalarını, onlayn mediada saxta xəbərləri, dezinformasiya və nifrət nitqi kimi kritik məsələləri əhatə edən proqram Türk Dövlətləri Təşkilatına üzv ölkələrin media mütəxəssislərinin peşəkar inkişafını təmin etməklə yanaşı, həm də bu ölkələrin media sektorlarını bir-birinə yaxınlaşdıran körpü rolunu oynamışdır.

"Trend" Beynəlxalq İnformasiya Agentliyi (BİA) və Türkiyənin "Albayrak" Media Qrupunun ortaq layihəsi olan "Türk Dünyası" (Turkic.World) media platformasının fəaliyyəti əməkdaşlığın növbəti uğurlu mərhələsi olmuşdur. Platformanın yeni ofisinin açılışı mərasimində qurum mərkəzinin Bakıda yerləşməsi, Qazaxıstan və Qırğızıstanın dövlət xəbər agentliklərinin layihəyə cəlb olunması türk dünyasının birliyinə və ortaq dəyərlərinə sadiqliyin

göstəricisi olaraq dəyərləndirilmişdir. Mədəni, sosial və iqtisadi əməkdaşlığı inkişaf etdirmək, dünya miqyasında ümumi tarixi və mədəni irsi təbliğ etmək və cari problemlər barədə məlumatlılığı artırmaq məqsədilə yaradılan bu platformanın Bakıda yeni ofisinin açılması bu məqsədlərə çatmaqda mühüm mərhələ kimi qiymətləndirilmişdir [18]. İstanbulda “Trend” Beynəlxalq İnformasiya Agentliyi (BİA) və Türkiyənin “Dəmirörən” İnformasiya Agentliyinin (DHA) birgə təşəbbüsü olan “www.dhapress.com” media platformasının istifadəyə verilməsi iki qardaş ölkənin informasiya və kommunikasiya sahəsində daha da yaxınlaşmasının rəmzi olmaqla Azərbaycan və Türkiyə arasında media əməkdaşlığına yeni rəng qatmışdır. Ölkələr arasında onsuz da möhkəm olan əlaqələr bu platformanın yaradılması ilə daha da möhkəmlənmiş, media və kommunikasiya sahəsində yeni birgə layihələrə yol açmışdır. Yeni platforma Azərbaycan və Türkiyə daxilində, eləcə də türk dünyasında və beynəlxalq ictimaiyyətdə doğru və etibarlı xəbərlərin yayılmasında, məlumat axınının təmin edilməsində mühüm mənbə olma potensialına sahib ola biləcək bir platforma olaraq dəyərləndirilmişdir. “www.dhapress.com” iki qardaş ölkənin media əməkdaşlığını daha da gücləndirəcək və iki ölkənin ortaq dəyərlərinin, mədəniyyətinin və tarixinin dünya miqyasında təbliğinə töhfə verəcək bir təşəbbüs kimi ön plana çıxmışdır [5]. 2023-cü il oktyabrın 17-də Qırğızıstanın paytaxtı Bişkekdə Türk Dövlətləri Təşkilatına üzv ölkələrin media və informasiya üzrə məsul nazirlərinin və yüksək vəzifəli rəsmilərinin 5-ci toplantısı keçirilmişdir. Qırğızıstanın mədəniyyət, informasiya, idman və gənclər siyasəti naziri Altinbek Maksutovun moderatorluğu ilə keçirilən toplantıda türk dövlətləri arasında media və informasiya sahəsində ortaq maraqların qorunması və dəstəklənməsi üçün strateji yanaşmanın vacibliyi qeyd olunmuşdur. Toplantıda dezinformasiyaya qarşı mübarizədə türk dünyasının birgə fəaliyyət göstərməsinin zəruriliyi vurğulanmış, həmçinin media sahəsində əməkdaşlığı nəzərdə tutan sənədlərin imzalanması, təcrübə mübadiləsi və media mütəxəssisləri arasında həmrəyliyin artırılması kimi məsələlər müzakirə edilmişdir. Toplantıda çıxış edən Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov türkdilli ölkələrə dair məlumatların beynəlxalq auditoriyaya operativ və düzgün formada çatdırılması üçün türk dünyasının jurnalistləri arasında həmrəyliyə ehtiyac olduğunu qeyd etmiş, türk dövlətlərinin yerləşdiyi coğrafiyanın həqiqətlərinin işıqlandırılması və obyektiv informasiya təminatının həyata keçirilməsi üçün peşəkarlığın və sayıqlığın artırılmasının vacibliyini diqqətə çatdırmış, toplantını türk dünyasında media və informasiya sahəsində əməkdaşlığın gücləndirilməsi istiqamətində atılan mühüm addım kimi xarakterizə etmişdir [8]. Toplantı çərçivəsində ənənəvi mövzularla yanaşı, süni intellekt və hibrid müharibələrin üstünlükləri və mənfi cəhətləri kimi aktual məsələlər müzakirə olunmuşdur. Belə ki, “ChatGPT süni intellekt tətbiqi timsalında süni intellektin üstünlükləri və çatışmazlıqları” adlı sessiyada süni intellektin media sektoruna təsiri və potensial faydaları, “Hibrid müharibələr təhlükəsizlik kimi” adlı sessiyada isə mövcud təhlükələr və media sektorunun həmin təhlükələrə qarşı edə biləcəyi tədbirlər müzakirə edilmişdir. Toplantı ümumilikdə, TDT-yə üzv ölkələrin media və informasiya sahəsində əməkdaşlığı gücləndirmək, birgə layihələr həyata keçirmək və regional kommunikasiyanı artırmaq əzminin göstəricisi olaraq xarakterizə edilmişdir. Media sektorunda informasiya və texnologiya paylaşımını təşviq etmək, mövcud təhdidlərə qarşı ortaq strategiyalar hazırlamaq və beynəlxalq miqyasda daha effektiv ün-

siyyət qurmaq üçün atılan addımlar türk dünyasının birliyini və həmrəyliyini daha da gücləndirmişdir [19]. Bu kontekstdə 2023-cü il noyabrın 6-da Anadolu Agentliyi (AA) tərəfindən İstanbulda təşkil edilən "Türkiyə Xəbər Agentlikləri Media Zirvəsi: mediada birlik və gələcəyə baxış" proqramı türk dövlətlərinin media agentlikləri arasında yeni birliyin qurulmasında mühüm dönüş nöqtəsi olmuş və Türk Xəbər Agentlikləri Birliyi yaradılmışdır. Təşkilatın ilk ümumi iclasında AzərTAC-ın Qlobal kommunikasiyalar və informasiya şöbəsinin rəhbəri Elşən Şahbalayev birliyin baş katibi, Anadolu Agentliyinin idarə heyətinin sədri və baş direktoru Sərdar Karagöz isə birliyin ilk dövr üçün prezidenti seçilmişdir. Karagöz bu yeni vəzifədə birliyi güclü və funksional hala gətirməyi hədəflədiyini bildirərək, onun təkcə yaradılmasının deyil, həm də səmərəli fəaliyyət göstərməsinin vacibliyini vurğulamışdır. İclasın əsas gündəliyi dezinformasiya ilə mübarizə, məzmun və qarşılıqlı təcrübə mübadiləsi kimi məsələlərdə əməkdaşlıq yollarını araşdırmaq olmuş və Karagöz Anadolu Agentliyinin dünya səviyyəsində istehsal etdiyi geniş məzmun portfelinin digər xəbər agentlikləri ilə paylaşılmasının və əməkdaşlıq vasitəsilə keyfiyyətinin artırılmasının vacibliyini qeyd etmişdir. Bundan əlavə, iclasda birlik daxilində ən yaxşı xəbərlərə mükafatların verilməsi, internet saytının yaradılması və loqo dizaynı kimi korporativ imicin formalaşdırılması səyləri müzakirə edilmişdir. İclasdan sonra isə Anadolu Agentliyi ilə Azərbaycan Dövlət İnformasiya Agentliyi (AzərTAC), eyni zamanda Qırğızıstan Milli Xəbər Agentliyi (Kabar) arasında əməkdaşlıq protokolları imzalanmışdır [1].

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin 2024-cü il martın 11-də Azərbaycana rəsmi səfəri iki ölkə arasında münasibətlərin və əməkdaşlığın inkişafında yeni səhifə açmışdır. Səfər zamanı prezidentlər arasında mühüm razılaşmalar əldə olunmuş, iki ölkə arasında bir sıra yeni əməkdaşlıq sazişləri imzalanmışdır. İmzalanan sənədlərdə kiçik və orta sahibkarlığın inkişafı, enerji sektorunda strateji əməkdaşlıq, investisiya holdinqləri arasında strateji tərəfdaşlıq, mədəniyyət və təhsil sahəsində əməkdaşlıq sazişləri kimi müxtəlif məsələlər öz əksini tapmışdır. Həmin sənədlər arasında xüsusilə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov və Qazaxıstan Respublikasının Prezident yanında Mərkəzi Kommunikasiyalar Xidmətinin direktoru Askar Umarov arasında "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi və Qazaxıstan Respublikasının Prezidenti yanında "Mərkəzi Kommunikasiyalar Xidməti" Respublika Dövlət Müəssisəsi arasında Əməkdaşlığa dair Memorandum"nun imzalanması media sahəsində əməkdaşlığın artırılması və medianın inkişafına töhfə vermək məqsədilə diqqət çəkmişdir. Bu saziş informasiya mübadiləsini asanlaşdırmaq, media sektorunda təlim və təcrübə mübadiləsini təşviq etmək və iki ölkənin media qurumları arasında daha sıx əməkdaşlıq qurmaq məqsədi daşımışdır. Bu sazişlər iki ölkə arasındakı əlaqələrin təkcə iqtisadi və strateji ölçülərlə məhdudlaşmadığını, həm də mədəniyyət, təhsil, media kimi müxtəlif sahələrdə dərinləşdiyinin bir göstəricisi olmuşdur [2].

## NƏTİCƏ

İkinci Qarabağ müharibəsi və ondan sonrakı proseslər türk dövlətlərinin media sektorlarında əməkdaşlığın dərinləşdirilməsi üçün yeni mexanizmlərin hazırlanmasına yol açmışdır. Türkiyə-Azərbaycan Ortaq Media Platforması iki ölkə arasında media əməkdaşlığını strateji səviyyəyə çıxararaq, birgə xəbər yayımını və məlumat axınını asanlaşdıran bir struktur yaratmışdır. Bu platforma hər

iki ölkənin media qurumlarının qarşılıqlı məzmun paylaşmasına və birgə layihələr hazırlamasına imkan verməklə ortaq informasiya məkanının əsasını qoymuş,informasiya-kommunikasiya texnologiyalarının inkişafı və sosial medianın təsirini nəzərə alaraq, ortaq dəyərlərin, tarix və mədəniyyətin beynəlxalq səviyyədə daha səmərəli şəkildə təbliğinə imkan yaratmışdır. Ortaq Media Platforması iki ölkə arasında əlaqələri gücləndirməklə yanaşı, digər türk dövlətləri arasında da oxşar əməkdaşlığın inkişafına təkan vermiş, türk dünyasının ortaq səsinin beynəlxalq platformalarda daha güclü əks-səda doğurmasına, regional məsələlərlə bağlı birgə yanaşma və strategiyaların daha effektiv şəkildə təqdim olunmasına şərait yaratmışdır. Azərbaycan və Türkiyənin öncüllük etdiyi, digər türk dövlətlərinin iştirakı ilə inkişaf etdirilən bu əməkdaşlıq media və kommunikasiya sahəsində ortaq dəyər və məqsədlər ətrafında birləşərək, türk dünyasının qlobal arenada daha güclü birlik və həmrəylik nümayiş etdirməsinə imkan vermişdir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1. APA. (2023). "İstanbulda Türk Xəbər Agentlikləri Birliyi yaradılıb. URL: https://apa.az/media/istanbulda-turk-xeber-agentlikleri-birliyi-yaradilib-794220

2. APA. (2024). "Azərbaycan-Qazaxıstan sənədlərinin imzalanması mərasimi olub". URL: https://apa.az/resmi-xeber/azerbaycan-qazaxistan-senedlerinin-imzalanmasi-merasimi-olub-yenilenib-foto-828333

3. Aslan, A. (2020). "Azərbaycan-Türkiyə media platformunun perspektivləri–Ortaq dil, yeni üzvlər, koordinasiya mərkəzi...". URL: https://modern.az/news/255049/

4. AZƏRTAC. (2022). "MEDİA-da Qazaxıstan Respublikasının İnformasiya Komitəsinin sədri ilə görüş keçirilib". URL: https://azertag.az/xeber/media_da_qazaxistan_respublikasinin_informasiya_komitesinin_sedri_ile_gorus_kechirilib-2182676

5. AZƏRTAC. (2023). "İstanbulda "Trend" BİA və DHA-nın birgə layihəsinin təqdimatı olub". URL: https://azertag.az/xeber/istanbulda_trend_bia_ve_dha_nin_birge_layihesinin_teqdimati_olub-2786437

6. AZƏRTAC. (2023). "Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin media mütəxəssisləri üçün silsilə təlimlərə start verilib". URL: https://azertag.az/xeber/turk_dovletleri_teskilatina_uzv_dovletlerin_media_mutexessisleri_uchun_silsile_telimlere_start_verilib-2584697

7. E-qanun.az. (2021). "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında media sahəsində strateji əməkdaşlıq haqqında" Anlaşma Memorandumunun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu". URL: https://e-qanun.az/framework/46888. 2021

8. Quluzadə, N. (2023). "TDT ölkələrinin media və informasiya üzrə məsul şəxslərinin 5-ci toplantısı keçirilib". URL: https://report.az/media-xeber/tdt-olkeleri-media-sahesinde-emekdasliq-uzre-bir-sira-senedler-imzalayib/

9. Liftiyeva, N. (2021). "Türkdilli dövlətlərin vahid media platforması nə vəd edir?". URL: https://www.musavat.com/news/turkdilli-dovletlerin-vahid-media-platformasi-ne-ved-edir_840064.html

10. Medeniyyet. az. (2021). "Bakıda Türk Şurası ölkələrinin informasiya və media üzrə məsul rəsmilərinin toplantısı keçirilib". URL: https://medeniyyet.az/page/

news/56811/Bakida-Turk-Surasi-olkelerinin-informasiya-ve-media-uzre-mesul-resmilerinin-toplantisi-kecirilib.html?lang=az

11. Məlikova, G. (2022). "İstanbulda Türk Dövlətləri Təşkilatının media və informasiya üzrə məsul şəxslərin 4-cü toplantısı keçirilib". URL: https://azertag.az/xeber/istanbulda_turk_dovletleri_teskilatinin_media_ve_informasiya_uzre_mesul_sexslerin_4_cu_toplantisi_kechirilib_video-2134742

12. Modern. az. (2021). "Türk dünyasında vahid informasiya məkanının yaradılması perspektivləri". URL: https://modern.az/aktual/307538/turk-dunyasinda-vahid-informasiya-mekaninin-yaradilmasi-perspektivleri/

13. Modern.az. (2021). "Türk dövlətlərin informasiya və media nazirləri Bakıda toplaşdılar". URL: https://modern.az/az/news/285268/turk-dovletlerin-informasiya-ve-media-nazirleri-bakida-toplasdilar-foto

14. Modern.az. (2021). "Türkiyə-Azərbaycan Ortaq Media Platformasının ilk iclası". URL: https://modern.az/news/313072/

15. Oruc, Z. (2021). "Bu sənəd beynəlxalq standartların öyrənilməsinə xidmət edəcək". URL: https://publika.az/news/nida_xeber/344937.html

16. Orucova, N. (2020). "Türkiyə-Azərbaycan Media Platforması: Geniş fikir, təcrübə mübadiləsi". URL: https://ikisahil.az/post/167133-turkiye-azerbaycan-media-platformasi-genish-fikir-tecrube-mubadilesi

17. Rəhimov, A. (2021). "Media platforması sayəsində ortaq türk dili ərsəyə gələ bilər". URL: https://bizim.media/az/cemiyyet/9189/

18. "Respublika" qəzeti. (2023). "Bakıda "Türk Dünyası" media platforması ofisinin açılışı olub". URL: https://respublika-news.az/news/bakida-turk-dunyasi-media-platformasi-ofisinin-acilisi-olub

19. TRT Azerbaycan. (2024). "TDT ölkələri media sahəsində əməkdaşlıqlarını artıracaqlar". - https://www.trt.net.tr/azerbaycan/aktual/2023/10/17/tdt-olk-l-ri-media-sah-sind-m-kdasliqlarini-artiracaqlar-2052069

20. Trend.az. (2021). "Azərbaycan-Türkiyə Birgə Media Platforması yaradılıb". URL: https://az.trend.az/azerbaijan/politics/3373730.html

21. Yeniazaerbaycan.com. (2020). "Türkiyə-Azərbaycan media platformasının yaradılması strateji əhəmiyyətli bir qərardır". URL: https://www.yeniazerbaycan.com/Siyaset_e55099_az.html

**Parvana Ibrahimova**

## FACTORS UNDERPINNING CREATION OF TURKISH-AZERBAIJANI JOINT MEDIA PLATFORM

### Abstract

The victory in the Patriotic War (Second Karabakh War), symbolizing the emergence of Turkic-speaking states as both regional and global powers, marked the beginning of a new era in the Turkic world. Following this victory, Turkic-speaking countries have taken significant steps to expand political, economic, and cultural cooperation. Diplomatic meetings, held within the framework of the Organization of Turkic States and existing cooperation platforms, have intensified, prompting new approaches in media and communication.

This article analyzes the objectives behind the creation of the Turkish-Azerbaijani Joint Media Platform, initially established by Azerbaijan and Türkiye prior to the Second Karabakh War. It examines the platform's activities and its anticipated contributions to the media landscape of the Turkic world. The study discusses joint broadcasting projects aimed at sharing content among the media sectors of Turkic-speaking countries and fostering mutual promotion of their cultures, histories, and contemporary developments. Furthermore, the role of social media and digital platforms in enhancing media cooperation is explored, emphasizing how they facilitate direct communication and interaction among Turkic-speaking peoples.

The article also delves into the forms and characteristics of collaborative media efforts, providing a detailed examination of joint projects implemented by Turkic-speaking countries in the field of media and communication.

**Keywords:** Turkic-speaking countries, Türkiye-Azerbaijan Joint Media Platform, media, unified information space

**Парвана Ибрагимова**

## ФАКТОРЫ, ОБУСЛАВЛИВАЮЩИЕ НЕОБХОДИМОСТЬ СОЗДАНИЯ СОВМЕСТНОЙ ТУРЕЦКО-АЗЕРБАЙДЖАНСКОЙ МЕДИАПЛАТФОРМЫ

### Резюме

Победа в 44-дневной Отечественной войне (Вторая Карабахская война), ставшая символом усиления роли тюркоязычных государств как региональной и мировой силы, ознаменовала начало новой эпохи в тюркском мире. Вслед за этой победой тюркоязычные страны предприняли значительные шаги по расширению политического, экономического и культурного сотрудничества. Интенсификация дипломатических встреч в рамках Организации тюркских государств (ОТГ) и существующих платформ сотрудничества привела к разработке новых подходов в области средств массовой информации и коммуникации.

В статье анализируется цель создания совместной медиаплатформы, инициированной Азербайджаном и Турцией перед Второй Карабахской войной, её направления деятельности и инновации, которые она может внести в медиа-сектор тюркского мира. Особое внимание уделяется совместным вещательным проектам, ориентированным на обмен контентом между медиаструктурами тюркоязычных стран, а также на продвижение их культуры, истории и актуальных событий. Также рассматривается роль социальных сетей и цифровых платформ, способствующих укреплению сотрудничества между СМИ, упрощению прямого общения и укреплению взаимодействия между народами тюркоязычных стран.

В исследовании проанализированы формы и характерные особенности совместной деятельности в сфере медиа, а также детально изучены реализуемые проекты тюркоязычных стран в области коммуникации и средств массовой информации.

**Ключевые слова:** тюркоязычные страны, совместная турецко-азербайджанская медиаплатформа, СМИ, единое информационное пространство

# BOLQARISTAN TÜRKLƏRİNİN MƏTBUATI MİLLİ MÜBARİZƏNİN APARICI VASİTƏSİ KİMİ (1944-2010-cu illər)

**Sabir MƏMMƏDLİ,**
*BDU, Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrası, siyasi elmlər doktoru, professor*
*(Bakı, Azərbaycan)*

*E-mail: sabir.rm@mail. ru*
*ORCID ID: 0000-0001-9176-2569*
*UOT 070*
*UOT 32*
*UOT 323.1*

**Xülasə.** Məqalədə geniş faktoqrafik materiallar əasında Bolqarıstan türklərinin milli ideallar uğrunda mübarizəsi əks olunur. 1944-cü ildə ölkədə “Dimitrov konstitusiyası"na uyğun olaraq bir müddət bəzi demokratik prinsiplər hökm sürmüşdür. Türk ziyalıları mövcud şəraiti milli məktəblərin açılması, ana dilinin inkişafı, doğma dildə radioyayımın təşkili üçün istifadə etmişlər. “Vatan”, “İşık”, “Dostluk” nəşrləri meydana gəlmişdir. Müəllif qeyd edir ki, 1958-ci ildən başlayaraq Bolqarıstan hökuməti türk əhalisinə qarşı məhdudiyyətlər tətbiq etməyə başlamış, milli təsisatları bağlamış və türkləri “bolqarlaşdırmağa” çalışmışdır. Məqalədə “Rodop mücadilesi”, “Tuna dergisi”, “Halk davası” və digər mətbuat orqanları timsalında Bolqarıstan türklərinin mətbuatının milli dəyərlər uğrunda mübarizəsi əks olunmuşdur.

Xüsusi olaraq vurğulanır ki, 1980-ci illərin sonlarında sosialist sistemi iflasa uğradıqdan sonra Bolqarıstan türklərinin milli dirçəlişi özünü göstərməyə başlamışdır. Milli hərəkat formalaşmış, çox sayda müstəqil, demokratik mətbuat orqanları meydana gəlmişdir. Bolqarıstan türklərinin “Hak və özgürlük” hərəkatı ölkə parlamentində təmsil olunur, onun nümayəndələri koalisyon hökumətdə fəaliyyət göstərir və milli maraqlara xidmət edirlər.

**Açar söslər:** Bolqarıstan türkləri, mətbuat, milli mübarizə, qəzet, ana dili

## Giriş

Türklər hazırkı Bolqarıstan ərazilərində XIV əsrdən yerləşməyə başlamışlar. Balkanların Osmanlı imperiyasının tərkibinə daxil edilməsindən sonra şəhər və bölgə mərkəzlərində türklərin sayı getdikcə artmışdır. Beş əsrdən artıq bir dövr, yəni 1396-1908-ci illər ərzində Bolqarıstan Osmanlı imperiyasının tərkibində olmuşdur. Rus-türk müharibələri və Bolqarıstanın öz müstəqilliyini elan etməsi nəticəsində türk əhalisinin xeyli hissəsi Türkiyəyə köç etmişdir. Miqrasiya prosesi mövcud siyasi, iqtisadi və sosial durumla bağlı olmuş və bir neçə dalğa şəklində baş vermişdir. 2001-ci ildə keçirilmiş siyahıyaalmanın nəticələrinə görə, Bolqarıstanda 746.664 türk millətindən olan vətəndaş yaşayır [8].

Bolqarıstan türkləri olduqca zəngin bir mədəniyyət mirasına sahibdirlər. Müxtəlif dövrlərdə nəşr olunan qəzet və dərgilər bu mədəniyyət mirasının əhəmiyyətli bir hissəsini təşkil edir. Bolqarıstan türklərinin ilk mətbu orqanının nəşri Osmanlı imperiyası dövrünə, 1865-ci ilə təsadüf edir. Həmin dövrdən başlayaraq bu günümüzə qədər türk ziyalıları saysız-hesabsız qəzet və jurnal nəşr etdirib böyük bir tarixi salnamə yaratmışlar. Tarixin bütün keçməkeşli yollarına, qarşılaşdıqları çətinliklərə və məhrumiyyətlərə baxmayaraq Bolqarıstan türkləri, tədqiqatçıların hesablamalarına görə, yalnız 1880-1960-cı illər ərzində 186 qəzet və 36 jurnal nəşr etdirmişlər [2].

Türk ziyalıları həmişə hesab etmişlər ki, qəzet cəmiyyət üçün maarifləndirici və təşkilatlandırıcı bir vasitə olmaqla yanaşı həm də işıq daşıyan, əhalini ürəkləndirən sönməz bir məşhəldir. Onu da nəzərə almaq lazımdır ki, qəzet və jurnallar yalnız ölkənin paytaxtı Sofiyada deyil, həm də müxtəlif şəhərlərdə və bölgələrdə nəşr olunmuşdur. Yalnız Kırcalı bölgəsində türk ziyalıları 1880-1970-ci illər ərzində 16 qəzet və 3 jurnal nəşr etdirməyə müvəffəq olmuşlar [2].

## Əsas hissə

### 1. 1947-ci konstitusiyası əsasında türk mətbuatının dirçəlişi

1944-cü ildə sovet qoşunlarının Bolqarıstana daxil olması ilə əlaqədar olaraq ölkədə sovet hakimiyyəti qurulmuşdur. “Dimitrov konstitusiyası"na uyğun olaraq etnik azlıqların hüquqları müdafiə olunur, onlara ana dilində təhsil almaq, milli mədəniyyətlərini inkişaf etdirmək hüququ elan olunmuşdu. Bolqarıstanda ilkin vaxtlar bir neçə yüz türk məktəbi, gimnaziyaları fəaliyyət göstərirdi. Ölkədə türk dilində radioyayım da təşkil olunmuşdur.

Köklü dəyişikliklər türk mətbuatında da müşahidə olunurdu. Yeni rejimin mahiyyətinə uyğun olaraq türk dilində nəşr olunan xeyli sayda qəzet və jurnallar meydana gəldi. 1945-1985-ci illər arası onların sayı 39-a çatmışdır. Bu nəşrlərin hamısı latın qrafikası əsasında çap olunurdu. Nəzərə almaq lazımdır ki, ölkədə yayımlanan bütün nəşrlər dövlətin nəzarəti altında idi və kommunist ideologiyasına xidmət edirdi [9].

Kommunist dönəmində türk dilində fəaliyyətə başlayan ilk nəşr Vətən Cəbhəsi komitəsinin orqanı olan “Vatan” qəzeti idi. Bu qəzetin yalnız bir nömrəsi işıq üzü görmüşdü, onun əvəzinə 1945-ci ildən “İşık” qəzeti yayımlanmağa başlamışdır. 1947-ci ildə başqa bir türk qəzeti – “Dostluk” öz nəşrinə başlamışdır. Bu nəşr əslində Qızıl Ordu tərəfindən çıxarılan “Drujba” qəzetinin türk dilinə tərcüməsi idi. “Dostluk” qəzetinin redaktoru A.Kərim adlı azərbaycanlı idi [5].

Qeyd olunan “İşık” qəzeti Bolqarıstan Kommunist Partiyasının mətbu orqanı kimi fəaliyyətini uzun müddət davam etdirmişdir. Sonrakı illər ərzində bu qə-

zet iki dildə (türk və bolqar) çap olunmuş, hətta iki adda çıxmışdır: "Yeni işık" – "Nova svetlina". Qəzetin türkcə olan nəşri 1985-ci ilə qədər öz fəaliyyətini davam etdirmişdir.

Uzunömürlü qəzetlər sırasında 1948-ci ildən öz fəaliyyətinə başlamış "Halk gencliği" nəşri də olmuşdur. "Halk gencliği" Dimitrovçu Kommunist Gənclər Birliyi Mərkəzi Komitəsinin mətbu orqanı idi, həftədə bir dəfə yayımlanırdı, 1970-ci ildə "Yeni işık" qəzeti ilə birləşdirmək bəhanəsini ilə hakimiyyət orqanları onu bağlamışlar.

Türk əhalisi arasında marksizm ideologiyasını yaymaq və yaşatmaq məqsədilə Kommunist Partiyası ilk növbədə yeni nəslin nümayəndələrini öz təsiri altına salmağa çalışırdı. Bunun üçün "Eylülcü çocuk" qəzetini nəşr etdirməyə başlamışdılar. Bu qəzet 1946-1960-cı illərdə yayımlanmışdır. Eyni məqsədə xidmət edən bir jurnal – "Piyoner" də nəşr olunurdu. Amma onun ömrü çox qısa olmuşdur. Jurnal 1959-cu ildə işıq üzü görsə də, cəmi bir ildən sonra bağlanmışdır. "Eylülcü çocuk" qəzetinin və "Piyoner" jurnalının nəşrinin dayandırılması əslində Bolqarıstanda bütün türk məktəblərinin bağlanması ilə birbaşa əlaqədar idi. Hələ bundan bir müddət əvvəl tədrisi türk dilində aparan bütün liseylər və institutlar bağlanmışdır.

1960-cı ildə hakimiyyət dairələri söz vermişdilər ki, "Eylülcü çocuk" bağlandıqdan sonra onun funksiyası "Halk gencliği"nə veriləcəkdir. "Halk gencliği" qəzetinə "Filiz" başlıqlı səhifə əlavə olunmuşdur. 1968-ci ildə "Filiz" ayrıca qəzet kimi fəaliyyətini davam etdirmişdir. Ayda iki nömrəsi çapdan çıxırdı. Həmin ilin sonunda "Filiz"in də nəşri dayandırılmışdır.

1954-cü ildə ölkənin paytaxtı Sofyada türk dilində "Yeni Hayat" adlı bir jurnal işıq üzü görmüşdür. Jurnal sosial, siyasi, ədəbi və incəsənət xarakterli bir nəşr idi. Bir neçə ildən sonra bu jurnalda xüsusi olaraq ədəbiyyat bölməsi fəaliyyətə başlamış, amma qısa müddətdən sonra bu hissə jurnal səhifələrindən çıxarılmışdır. Sonralar "Yeni hayat"ın "Şafak" başlıqlı ədəbiyyat və incəsənət əlavəsi buraxılmışdır. Burada kommunist ideologiyasına uyğun ədəbiyyat və sənət əsərləri çap olunmuşdur.

"Yeni Hayat" jurnalının ayrıca uşaqlar üçün səhifəsi də var idi – "Çocuklara ait sayfa". 1976-cı ildən bu səhifəyə "Arıcılık" adı verilmiş, amma sonralar yalnız bolqar dilində çap olunurdu.

## 2. Bolqarıstan türkləri kommunistlərin etnosid siyasətinə qarşı mübarizədə

1958-ci ildə Bolqarıstan Kommunist Partiyası türk əhalisinə qarşı yönəlmiş bir sıra xüsusi qərarlar qəbul etmişdir. Bu qərarların mahiyyətində türklərin təhsil almalarına, milli mədəniyyətlərinin inkişafına, sosial həyat quruculuğuna məhdudiyyətlərin tətbiqi məsələləri öz əksini tapmışdır [4]. Ölkədə bütün türk məktəbləri bağlanmış və bununla yanaşı, Bolqarıstan hökuməti yazıçılar və qəzet, jurnal redaktorları qarşısında xüsusi tələb qoymuşdur ki, mətbuatda və yaradıcılıq prosesində saysız-hesabsız türk sözləri bolqar və rus sözləri ilə əvəz edilsin. Bunun üçün hətta əvəzlənəcək sözlərin siyahısı hazırlanmışdır. Həmin qaydaları pozan yazıçı və redaktorlar çəzalandırılır və bütün materiallara qarşı sərt senzura tətbiq edilirdi [7].

Bolqarıstan kommunistləri faktiki olaraq türk əhalisini "bolqarlaşdırmaq" məqsədini güdürdü. Bu siyasi xətt getdikcə sərtləşmiş və 1971-ci il konstitusiyasının qeyri-demokratik maddələri ilə qanuniləşdirilmişdir. Bolqarıstanda yaşayan bütün etnik azlıqların hüquqları tamamilə tapdalanmışdır. Bu azmış kimi 1984-cü ildə bolqar hökuməti məcburi şəkildə türk vətəndaşlarının adlarının dəyişdirilməsi və onların məcburi

qaydada bolqar ad və soyad almaları haqqında qərar qəbul etmişdir [11]. Bu qeyri-insani fəaliyyət türk əhalisi arasında böyük narazılıq doğurmuşdur. Yüz minlərlə Bolqarıstan türkü ölkədən köç etməyə məcbur olmuş və bunun nəticəsində 300 000 - 400 000 türk vətəndaşı sərhəd qapılarına axışmış və Türkiyədə sığınacaq tapmışdır.

Hökumət türk dilindən ictimai yerlərdə istifadə edilməsinə qadağa qoymuş, bu qaydanı pozanlara qarşı böyük məbləğdə cərimə tətbiq etmişdir. Ölkə üzrə milli türk adət-ənənələri tamamilə yasaqlanmış, dini ibadət qadağan edilmişdir.

Bolqarıstanın kommunist hakimiyyəti hər fürsətdən istifadə edərək türk əhalisinin assimilyasiya olmasına çalışır, milli kimliyini unutdurmaq üçün bütün vasitələrdən istifadə edirdi. Bu məqsədlə xüsusi tələblər əsasında mətbuatda və bütövlükdə çap məhsullarında türk sözləri bolqar ifadələri ilə əvəz olunur, türk əhalisinə ana dilindən istifadə edilməsinə maneələr yaradılırdı. “Yeni hayat - Nov jivot” jurnalında dərc olunan materialların 70 faizi bolqar dilində, 30 faizi türkcə verilirdi. Bolqarlaşdırma siyasətinin nəticəsi olaraq bu jurnal 1985-ci ildən tamamilə bolqar dilində çap olunurdu, üstəlik hər nömrəsində bolqar olmanın nə qədər böyük şərəf olduğu təbliğ olunurdu.

Bolqarıstanda kommunistlərin hakimiyyətdə olduğu dövrdə (1944-1990) türk əhalisinə qarşı assimilyasiya siyasəti bütün ölkə üzrə durmadan həyata keçirilirdi. Bölgə mərkəzlərində nəşr olunan qəzet və jurnallar hökumətin bu əməllərini yerlərdə davam etdirirdi.

Qeyd etmək lazımdır ki, kommunistlərin hakimiyyətə gəldikləri ilk dövrlərdə bəzi rayon mərkəzlərində bolqar dilində çıxan qəzetlərin bir neçə səhifəsi türkcə çap olunurdu. Zaman keçdikcə bunların bəziləri ayrıca olaraq türk dilində nəşr olunan qəzetlərə çevrimişdi. Bunlardan Şumnuda “Kolarovgrat savaşı” (1951-1956), Rusçukda “Tuna gerçegi” (1955-1959), Varnada “Stalin bayrağı” (1956-1959), Hasköydə “Rodop mücadilesi” kimi qəzetləri qeyd etmək olar. Bu qəzetlərin türk dilində nəşr olunması haqqında qərarı Bolqarıstan KP Siyasi Bürosu tərəfindən 1954-cü ildə verilmişdir. Qeyd olunan qəzetlər sonrakı illərdə hakim partiyanın siyasi şərtlərinə uyğun olaraq müxtəlif adlarla nəşr olunmuşdur.

Bununla belə, həmin yerli qəzetlər də uzunömürlü olmamışdı. Türk məktəblərinin bağlanması ilə yanaşı, əksər qəzetlərin də nəşrinə son verilmişdir. 1960-cı ildə Bolqarıstan hökumətinin türk vətəndaşlarının adlarının dəyişdirilməsi haqqında qərarı türk əhalisinin durumunu çətinləşdirmiş və bu vəziyyət yerli əhalinin sərt təpkisinə, etirazına səbəb olmuşdur. Onlar Türkiyə səfirliyinə ərizə ilə müraciət etmiş, kütləvi şəkildə Bolqarıstandan köçmək istədiklərini bildirmişdilər. İlkin vaxtlar Kommunist Partiyasının rəhbərliyi türk əhalisinin ciddi etirazı qarşısında geri çəkilməyə məcbur olmuş və qəbul etdiyi qərarı ləğv etmişdir. Mətbuata qarşı az da olsa mülayim münasibət bəslənmişdir. Qəzet və jurnallarda bolqar kəlmələrindən və sözlərindən istifadə etmək təzyiqi aradan qaldırılmışdır. Hökumət hətta türk dilində təhsilin bərpa edilməsi vədini də verməli olmuşdur.

Əvvəllər nəşri dayandırılmış bəzi qəzetlər 1964-1965-ci illərdə yenidən yayımlanmağa başlamışdır: Əskicumədə “Kommunizm bayrağı” (1964), Silistrədə “Ziya” (1965), Razqradda “Dostluq”, Varnada “Halk davası” (1965), Kolarovqradda “Kolarovqrat savaşı” (1966) və s. Kırcalıda çap olunmağa başlayan “Yeni həyat” qəzeti 1974-cü ilədək varlığını qoruyub saxlamışdır.

Amma kommunist rəhbərliyinin türk əhalisinə qarşı göstərdiyi bu mülayimləşmə siyasəti çox qısa vaxt ərzində özünü göstərmişdir. 1970-ci illərin əvvəllərindən başlayaraq Bolqarıstanda

türk vətəndaşlarını öz adlarını dəyişdirməyə yenidən məcbur etməyə başladılar [14]. Türk əhalisinin etirazına cavab olaraq hökumət qüvvələri amansız davrandılar və nəticədə qanlı hadisələr baş verdi. Belene ölüm düşərgəsi, həbsxanalar türk əsilli insanlarla aşıb-daşırdı. Yarı türkcə - yarı bolqarca nəşr olunan "Yeni ışık" (Nova svetlina") qəzetindən və "Yeni hayat" ("Nov jivot" jurnalından başqa bütün türk mətbuat orqanlarının fəaliyyəti dayandılımışdır. 1985-ci ildən sonra qeyd olunan bu nəşrlərin türkcə çıxan səhifələri də ləğv edilmişdir, onlar artıq yalnız bolqar dilində çap olunurdu.

### 3. Sosialist sisteminin iflası və Bolqarıstan türklərinin milli dirçəlişi

1980-ci illərin sonlarında Şərqi Avropa ölkələrində müşahidə olunan ictimai-siyasi dəyişikliklər Bolqarıstan türklərinin həyatına birbaşa təsir etməyə başlamışdır. Sovet İttifaqında başlamış "yenidənqurma" siyasəti nəticəsində kommunist rejimlərinin dayaqları sarsılmış və bu ölkələr öz mahiyyətini azad dünyaya açmağa məcbur olmuşlar. Türkiyə hökuməti Bolqarıstanda türklərin üzləşdiyi faciəvi məhrumiyyətlərlə əlaqədar BMT, Avropa Şurası, İslam Konfransı Təşkilatı və Avropa Parlamentində ardıcıl olaraq məsələlər qaldırmış və onların müzakirəsinə nail olmuşdur. Nəticədə NATO və ABŞ Bolqarıstanda türklərin dözülməz vəziyyətinə dair siyasi bəyanat qəbul etməli olmuşdular və yaranmış vəziyyəti qeyri-insani şərait kimi dəyərləndirib, kütləvi şəkildə insan hüquqlarının pozulmasının qarşısının alınmasına səsləmişdir.

1989-cu ildə Bolqarıstanda kommunist rejimi devrilmiş və qısa müddət ərzində xüsusi qərarla türklərin əvvəlki ad və soyadlarının qəbul edilməsinə icazə verilmişdir. Bir il ərzində 600.000 Bolqarıstan türkü bu məsələ ilə əlaqədar hökumət idarələrinə müraciət etmişdir [12]. Türkiyəyə mühacirət etmiş türklərin 150.000-dən çox hissəsi geriyə dönmüşdür. 1991-ci il konstitusiyasına uyğun olaraq türklərə və başqa milli azlıqlara geniş hüquqlar verilmiş və öz milli mədəniyyətlərini inkişaf etdirmək üçün zəmanət verilmişdir.

Bolqarıstanın Sovet İttifaqının təsir dairəsindən çıxmasından sonra ölkədə köklü demokratikləşmə prosesi müşahidə olunurdu və bunun önündə, sözsüz ki, media və jurnalistika gedirdi. Bolqarıstan türklərinin yaratdığı "Hüquq və azadlıqlar uğrunda hərəkat"ın [6] mətbuat orqanı kimi "Hak ve özgürlük" qəzeti nəşr olunmağa başlamışdır. Qəzetin nümunə olaraq çap olunan nüsxəsi 1990-cı ilin dekabr ayında işıq üzü görmüşdür. Qəzetdə "Demokratiya və milli vəzifələr" başlıqlı Əhməd Doğanın məqaləsi dərc olunmuşdur.

Sistemli olaraq "Hak ve özgürlük" qəzeti 1991-ci ilin fevral ayından nəşr olunmağa başlamışdır. Qəzet 16 səhifədə türk dilində çıxırdı. Bu nəşr "Prava i svobidi" başlığı ilə bolqar dilində də yayımlanırdı. "Hak və özgürlük" sonralar 8 səhifə həcmində öz nəşrini davam etdirdi, amma maliyyə çətinlikləri ilə əlaqədar ilk dəfə 1994-cü ildə, sonra isə 1996-cı ildə bir müddət öz nəşrini dayandırmalı olmuşdur. Sonralar nəşrini bərpa etsə də, qəzet 1998-ci ildə öz yayımını tamamən dayandırmışdır [5].

"Hak ve özgürlük" qəzeti Bolqarıstan türklərini maraqlandıran bütün ciddi iqtisadi, siyasi, sosial problemləri işıqlandırır, oxucuları daxili və xarici xəbərlərlə tanış edir, etnik azlıqların hüquqlarını müdafiə edirdi. Qəzet türk əhalisinin din, dil, təhsil, adət-ənənə, ibadət, bütövlükdə mədəni və ictimai problemlərini müzakirəyə çıxarır və onların həllinin vacibliyini vurğulayırdı. Eyni zamanda qəzet oxucularını Türkiyədə və bütün türk dünyasında baş verən hadisələrlə tanış edir,

onlarda həmrəylik hissi formalaşdırmağa çalışırdı.

Demokratik hərəkat dalğasında Bolqarıstan türklərinin ana dilində təhsil almaq hüququnun gerçəkləşdirilməsi məsələsi ictimai gündəmə gətirilmişdi. Aparıcı türk siyasətçiləri bolqar məktəblərində oxuyan türk uşaqlarının ayrıca bir fənn kimi ana dili dərsinin tədris proqramına salınmasına çalışırdılar. Məlum olduğu kimi 1959/60-cı tədris ilindən başlayaraq Bolqarıstanda türk dilində olan bütün məktəblər bağlanmış və bundan sonra heç bir türk məktəbi açılmamışdır.

"Hüquq və azadlıqlar uğrunda hərəkat"ın təmsilçiləri ilk növbədə türk dilinin tədrisi məsələsini ölkə parlamentinin gündəminə daşıya bildilər və nəticə olaraq bəzi məktəblərdə sərbəst seçmə fənn kimi türk dilinin tədris olunması hüququna nail oldular. Bu partiyanın təşkilatçılığı və rəhbərliyi ilə hər bir sinif üçün türk dili dərsliyi hazırlanmışdır.

Atılan addımları daha da inkişaf etdirmək üçün yeni demokratik şəraitə uyğun olaraq bir uşaq və yeniyetmə qəzetinin yaradılmasına böyük ehtiyac duyulurdu. "Hak ve özgürlük" qəzetinin beşinci sayından başlayaraq ona əlavə kimi "Filiz" səhifəsi çap olunmağa başladı, sonralar isə eyni adda müstəqil uşaq qəzeti kimi öz yayımını davam etdirmişdir. "Filiz" qəzeti müstəqil olaraq öz fəaliyyətinə 1992-ci ildən başlamışdır. Maliyyə çətinliyi ucbatından qəzetin nəşrinə bəzən ara verilmişdir, amma 1996-cı ilin dekabr ayından "Filiz" ayda iki dəfə çıxmaqla öz nəşrini indiyədək davam etdirir. Hazırda bu qəzet "Filiz Vəkfi"nin nəşri kimi yayımlanmakdadır.

Ölkənin siyasi həyatında baş verən dəyişikliklərlə ayaqlaşmağa çalışan qəzetlərdən biri də "Işık-Svetlina" oldu. Qəzet 1991-ci ilin əvvəllərindən çıxmağa başlamışdır. Nəşr türk əhalisinin hüquqlarını müdafiə edir, ciddi siyasi məsələləri gündəmə daşıyırdı. Nəzərə almaq lazımdır ki, eyni adda əvvəllər də belə bir qəzet nəşr olunurdu. Oxucuların böyük hissəsi yeni "Işık-Svetlina"nı əvvəlkinin davamçısı hesab edirdi, halbuki, bunların arasında heç bir bağlantı yox idi və tamamilə fərqli nəşrər idi. Amma oxucular bu yeni nəşrə heç cür alışa bilmədilər. Onların etimadını qazanmaq məqsədilə "Işık-Svetlina" adını dəyişməli oldu, amma heç bir müsbət nəticə əldə edilmədi və nəticədə bağlandı. Bu nəşrlə müqayisədə "Hak ve özgürlük" qəzeti daha oxunaqlı və nüfuzlu mətbu orqan hesab olunurdu.

"İşık-Svetlina" qəzeti bağlandıqdan sonra 1992-ci ilin aprel ayından "Güven-Doveriye" qəzeti çıxmağa başladı. Bu qəzet bir müddət "İşık-Svetlina" nəşrinin türkcə-bolqarca çap olunan yazılarına bənzər tərtibat formasından istifadə etdi. "Güvən-Doveriye" parallel olaraq həm də uşaqlar üçün "Cırcır-Şturets" əlavəsini nəşr etdirdi. Həmin əlavə də iki dildə yayımlanırdı. 1996-cı ildə qəzetin nəşri dayanmışdır.

Bolqarıstanda 1994-cü ildə uşaqlar üçün "Balon" adlı jurnal nəşr olunmağa başlamışdır. Aylıq jurnal olmasına baxmayaraq bu nəşr bəzən öz dövriliyini qorumaqda çətinlik çəkirdi. İlkin sayları 32 səhifədə çap olunurdu, sonralar jurnalın həcmi hətta 48 səhifəyə çatmışdı. On ildən artıq bir müddətdə nəşr olunan bu jurnalın naşiri Kazım Memiş olmuşdur. Sonralar jurnal öz yayımını dayandırmışdır. Bundan sonra Kazım Memiş gənclər üçün "Gönül" adlı bir jurnal da nəşr etməyə başlamışdır, amma təəssüflər olsun ki, bu nəşrin ömrü uzun olmamışdır.

1995-ci ilin iyun ayından başlayaraq Bolqarıstanın paytaxtı Sofyada 48 səhifəlik maarifləndirici jurnal olan "Ümit" işıq üzü gördü. Jurnal başlığında "aylıq mədəni və təhsil jurnalı" ifadəsi ilə çap olunurdu. "Ümit" jurnalının birinci sayında vurğulanırdı ki, bu nəşr Balkan Təhsil və Mədəniyyət Vəkfi tərəfindən

yayımlanır. Həm vəkfin, həm də jurnalın əsas məqsədi "yeddidən yetmişə qədər olan insanlarımız arasında təhsil vəzifəsini yürütmək, mədəni dəyərləri yaymaq olacaqdır… Amacımız son 50 ilin mənəvi həyatımıza gətirdiyi təxribatı aradan qaldırmaq, insanlara öz kimliyini, mənliyini tapmaqda yardımçı olmaq, totalitarizmin, materializmin yaratdığı boşluğu doldurmaq, unudulmuş, aşınmaya məruz qalmış inanclarımızı canlandırmaq və təzələyib düşüncələrdə yerləşdirməkdir. "Ümit" jurnalı tamamilə tərəfsiz, bütün partiyalardan eyni məsafədə olmaqla yanaşı, bütün ideoloji istiqamətlərdən kənar aylıq bir mədəniyyət dərgisi olacakdır. Dedi-qodudan, dağıdıcılıq fikirlərindən, bölücülükdən uzaq olacağıq. Əksinə birləşdirici, toparlayıcı olmağa çalışacağıq… Belə məqsədlərlə və gözəl niyyətlərlə yola çıxan jurnalımız oxucular tərəfindən sevinclə qarşılanmağına inanırıq" [5]. Araşdırmaçıların qeyd etdiyi kimi, "Ümit" öz yolunu tapmış bir jurnal idi.

Türkiyədə yerləşən "Zaman" qəzeti bir çox ölkələrdə olduğu kimi Bolqarıstanda da yayımlanırdı. Qəzet 1992-ci ilin dekabr ayından Sofyada çıxmağa başlamışdır. Bu qəzet türk dilində nəşr olunan başqa mətbu orqanları çıxmadığı vaxtlarda və həmçinin ucuz olduğu üçün geniş oxucu auditoriyası əldə edə bilmişdir. "Zaman-Bolqarıstan" qəzeti yerli əhaliyə türk dünyasında baş verən hadisələr haqqında ardıcıl olaraq məlumat verir və bütövlükdə milli təəssübkeşlik problemlərinə dair materiallarla çıxış edirdi. Qəzet həftədə bir dəfə - cümə axşamı çıxırdı.

"Müslümanlar" qəzeti Bolqarıstan Respublikası Başmüftiliyinin mətbu orqanı olaraq 1990-cı ildən türk və bolqar dilində nəşr olunurdu. 1995-ci ildə ölkədə ikinci Başmüftilik İdarəsinin yaranması ilə əlaqədar cəmiyyətdə ictimai dartışma müşahidə olunmuşdur. Keçmiş Bolqarıstan Sosialist Partiyasının hakimiyyətə gəlməsi ilə əlaqədar Nedin Gencev özünü Ali Dini Şuranın rəhbəri və Başmüfti elan etmişdi. Maraqlıdır ki, "Müslümanlar" qəzeti eyni adla iki Başmüftilik tərəfindən iki fərqli nəşr kimi yayımlanırdı. Əvvəlki Başmüftilik qəzeti "qara" "Müslümanlar", yeni Başmüftilik isə "yaşıl" "Müslümanlar" adlandırırdı. Hər iki nəşr heç bir maliyyə sıxıntısı olmadan çap olunurdu.

2000-ci ildə tanınmış Bolqarıstan türk ziyalısı, şairi, publisisti və tədqiqatçısı Səbri Alagöz "Kaynak" adlı gözəl bir jurnal təsis etmişdir. Jurnalın əsas qayəsi türk tarixini, mədəniyyətini, ədəbiyyatını və incəsənitini təbliğ etmək idi. Sabri Alagöz jurnalın vəzifələrini bu cür dilə gətirmişdir: "Bolqarıstan türkləri böyük tarixi dəyərlərə sahibdirlər, onların keçmişini, bugününü və sabahını dərk etmək üçün, bundan zövq almaq niyyətilə… oxucularımıza "Kaynak" adı verdiyimiz jurnalın birinci sayını təqdim edirik. Jurnalımızın yeganə məqsədi xalqımızın içinə getmək, ana dilimizi, mədəniyyətimizi Sizə təqdim etməkdir. Çünki varlığımızın özünü yaşadan öz mədəniyyətimizdir. Öz mədəniyyətindən qopan nə millətinə, nə də dövlətinə yararlı ola bilər. O, yox olub getməyə, tarixdən silinməyə məhkumdur". "Kaynak" jurnalı iki aydan-bir işıq üzü görürdü və tədqiqatçılar üçün həqiqətən bir qaynaq rolu oynayırdı. Amma maddi sıxıntılar ucbatından "Kaynak" jurnalının dövriyyəsi heç də stabil olmamışdır.

XXI əsrin əvvəllərində türklərin sıx yaşadığı bölgə mərkəzlərində də dərgilər nəşr olunurdu. Bunlardan biri Razqrat şəhərində Dəliorman ədəbiyyat dərnəyinin dəstəyi ilə çap olunan "Hoşgörü" jurnalı idi. Dərgi 32 səhifə həcmində, üç ayda-bir çıxırdı və oxucuları mühüm xəbərlər, jurnalist araşdırmaları və ətraflı təhlillərlə təmin edirdi.

Şumnu şəhərində də bir jurnal nəşr

olunurdu. Bu "Mozaik" jurnalı idi. Üz qabığında qeyd olunurdu ki, Şumnu Mədəniyyət Evi tərəfindən yayımlanır, uşaq və gənclər üçün nəzərdə tutulub, mədəniyyət, sənət və təhsil problemlərini əhatə edir. "Mozaik" jurnalının redaktoru və məsul katibi Nurten Rəmzi olmuşdur. Jurnal 32 səhifədə çıxır və hər səhifəsində rəngli rəsmlər, fotolar və reklam materialları yerləşdirilirdi.

Türk əhalisinin ən sıx yaşadığı bölgələrdən biri olan Kırcalıda 2006-cı ildən "Bulgarıstan Türklerinin Sesi Kırcaalı Haber" adında qəzet nəşr olunmağa başlamışdır. Eyni zamanda buradan "Kırcaalı haber" adlı elektron qəzet də (www.kircaalihaber.com) internet vasitəsilə hazırda yayımlanmaqda və operativ şəkildə oxuculara yetişməkdədir [3].

Qeyd etmək lazımdır ki, ölkədə İnternet üzərindən həm də "Ses", "Yeni hayat", "Ardinonun səsi" qəzetləri yayımlanmaqdadır. "Bolqaristan Havadis" (www.bulgaristanhavadis.com) xəbər portalı da uğurla fəaliyyət göstərir.

Nəzərə almaq lazımdır ki, Bolqarıstanın müxtəlif bölgələrindən internet şəbəkəsindən istifadə etməklə xeyli sayda informasiya saytları, xəbər portalları məlumat və müxtəlif materiallar yaymaqdadırlar (bnr.bg/tr; haberbg.blogspot.bg; dombira.eu; ajansbg.blogspot.com; bizimgazete.bg; bnt.bg; haber.bg; umitdergisi.com; grandmufti.bg/tr; mestanlihaber.com; thaber.bg; arda-tuna.com; bghaber.org; pomak.eu; pomaknews.com; 24kircaali.blogspot.bg). Belə saytların və elektron qəzetlərin sayı sürətlə dəyişməkdədir. Onlar haqqında ilkin məlumatı Türkiyənin Bursa şəhərində yerləşən Balkan türkləri köçkün və qaçqın dərnəkləri federasiyasının saytından əldə etmək olar (www.balgoc.org.tr ).

Bolqarıstanda 1990-cı ildən sonra başlanmış demokratiyaya keçid dövründə türk dilində xeyli sayda qəzet və jurnallar nəşr olunmuşdur. Ancaq bunlardan yalnız "Filiz", "Zaman-Bolqaristan" kimi qəzetlər, "Ümit" və "Müslümanlar" kimi jurnallar istisna olmaqla yerdə qalan nəşrlər çox tez-tez maliyyə çətinlikləri ilə üzləşmiş və dövriliyini pozmalı olmuşlar. Bununla belə, aydın şəkildə görünür ki, hakimiyyət orqanlarının türk mətbuat vasitələri üzərində olan əvvəlki basqısı aradan qaldırılmışdır.

Ümumiyyətlə, 1990-cı ildən sonra Bolqarıstan hakim dairələrinin yerli türk əhalisinə qarşı olan münasibətlərinin kökündən dəyişməsi ölkədə gedən demokratikləşmə prosesinin nəticəsində mümkün olmuşdur. Bu vəziyyət eyni zamanda Bolqarıstan-Türkiyə münasibətlərinin yeni mərhələyə daxil olmasına, ölkənin NATO və Avropa təşkilatlarına inteqrasiyasına şərait yaratmışdır. 2007-ci ildə Bolqarıstan həm də Avropa İttifaqına üzv olmuş və bunun nəticəsində türk əhalisinin hüquqlarına hörmət edəcəyinə beynəlxalq zəmanəti vermişdir [10].

Ölkənin Avropa İttifaqına üzv olması Bolqarıstan türkləri üçün "qızıl əsrin" başlanqıcı mənasına gəlmişdir. Türklər ölkənin ictimai-siyasi həyatında fəal rol oynayır, siyasi partiya və hərəkatların sırasında birləşirlər. Hazırda Bolqarıstan türklərinin aparıcı siyasi təşkilatı, sözsüz ki, 1990-ci ildə elan olunmuş "Hüquq və azadlıqlar uğrunda hərəkat"dır. Bu təşkilata keçmiş dissident, böyük intellektual Əhməd Doğan rəhbərlik edir.

"Hüquq və azadlıqlar uğrunda hərəkat" qısa müddət ərzində həqiqətən türk əhalisinin siyasi dayağına çevrilə bilmişdir. Hərəkat mərkəzçi liberal ideologiyasına sahibdir və ilk günlərdən başlayaraq Bolqarıstanın Avropa İttifaqına inteqrasiya olması uğrunda geniş fəaliyyət göstərmişdir [1].

Təşkilat ölkədə keçirilən bütün parlament seçkilərində fəal iştirak edir və ardıcıl olaraq partiya qrupu ilə parlamentdə təmsil olunur. "Hüquq və azadlıqlar uğrunda hərəkat"ın nümayəndələri Bolqa-

rıstanda koalisiya şəklində formalaşmış hökumətlərin tərkibinə daxil olmuş, bir neçə nazir vəzifəsi tutmuşlar [13]. Bolqarıstanın Avropa İttifaqına üzv olmasından sonra bu təşkilatın nümayəndələri artıq Avropa Parlamentində də fəaliyyət göstərirlər.

"Hüquq və azadlıqlar uğrunda hərəkat"ın rəhbərliyi ilə türk əhalisinin nümayəndələri Bolqarıstanda yerli özünüidarə orqanlarında da geniş şəkildə təmsil olunurlar. 2001-2005-ci illər ərzində 27 şəhərin meri və 654 kənd bələdiyyəsinin sədri vəzifəsinə bu təşkilatın üzvləri seçilə bilmişdilər [1].

Qeyd olunduğu kimi "Hüquq və azadlıqlar uğrunda hərəkat"ın mətbu orqanı olan "Hak ve özgürlük" qəzeti öz fəaliyyətini 1998-ci ildə maliyyə çətinliyi ucbatından dayandırmış və uzun müddət ərzində bu siyasi təşkilatın ayrıca nəşri olmamışdır. Bu boşluğu doldurmaq məqsədilə 2011-ci ildə təşkilat nümayəndələri "Toplum" adlı qəzet nəşr etməyə başlamışdı. Qəzetin əsas vəzifəsi siyasi təşkilatın məqsəd və məramlarını əhaliyə çatdırmaqdir.

24 səhifəlik bu qəzetin yarısı türkcə, yarısı isə bolqar dilində çap olunur. Nəşrin redaktoru Salina Elindir. Partiya yetkililəri xüsusi olaraq vurğulamışlar ki, qəzet siyasi təşkilatın bütün tədbirlərini işıqlandıracaq və müxtəlif məsələlərə dair mövqeyini geniş şəkildə əhaliyə çatdıracaqdır [2].

## Nəticə

Bolqarıstanda türk dilində yayımlanan mətbuat orqanları bu toplumun, türk millətinin hayqıran səsi, görən gözü, eşidən qulağı, danışan dili olmuşdur. Müxtəlif dönəmlərdə, ən çətin vaxtlarda mətbuat orqanları Bolqarıstan türklərinin hüquqlarını müdafiə etmiş, onları maarifləndirmiş, təşkilatlandırmış, mütərəqqi ideyalar ətrafında birləşdirib vahid amal uğrunda mübarizəyə səsləmişdir. Elə vaxtlar olmuşdur ki, türk mətbuatı susdurulmuşdur, amma o, yenə də daxilən güc toplayıb imkan yarandığı an yenidən səhnəyə çıxıb öz mütərəqqi missiyasını həyata keçirməyə çalışmışdır. Hazırda Bolqarıstan Avropa İttifaqının üzvü olaraq demokratik yol seçib inkişaf etməkdədir, türk mətbuatının qarşısında geniş imkanlar açılıb. Amma, bununla belə, hələ həllini gözləyən bir çox məsələlər var ki, araşdırmaçılar onları aşağıdakı kimi qruplaşdırırlar:

- 1959-1960-cı illərdə türk məktəblərinin bağlanması nəticəsində, hətta sonralar türk uşaqlarına sərbəst seçmə fənn kimi ana dili dərslərinin tədris edilməsinə icazə verilsə də, türkcə oxuyub-yazanların sayının getdikcə azalmasına səbəb olmuş, bu isə türk dilində nəşr olunan və yayımlanan media vasitələrinə marağı azaltmışdır. Türk ziyalıları ümumiyyətlə ona çalışırlar ki, dövlət məktəblərində türk şagirdlərinə ana dili mütləq ayrıca fənn kimi tədris edilsin. Ana dilində tədris görməyən insanlar türk dilində çıxan mətbuat orqanalarına abunəçi olmur, daimi oxucular siyahısına düşmürlər;
- bu problem öz növbəsində başqa bir məsələni də gündəmə daşıyır – daima türk dilində yazıb-yaradan ziyalıların sayı getdikcə azalır. Bu ziyalılar əsasən yaşlı nəslin nümayəndələridir. Onların da sayı gündən-günə azalır, toplumdan qopub, əriyib getməkdədir;
- böyuk həvəslə qəzet və jurnal nəşr etməyə başlayan ziyalılar ciddi maliyyə problemləri ilə qarşılaşırlar;
- çapdan çıxmış mətbuat orqanlarının yayımı və oxuculara çatdırılması ayrıca böyük bir problemdir, çünki bu məsələnin həlli böyük maliyyə vəsaiti tələb edir;
- öz növbəsində onu da vurğulamaq lazımdır ki, maliyyə problemləri içində yaşayan türk əhalisi sistemli şəkildə qəzet və jurnalları əldə edə və onlara abunə ola bilmir;

❍ yayımlanan qəzet və jurnalların tirajı aşağıdır. Bir çox mətbuat orqanları ümumiyyətlə öz tirajları haqqında bilgi vermir. Üstəlik ayrı-ayrı bölgələrdə nəşr olunan media vasitələri haqqında geniş türk ictimaiyyətinin xəbəri olmur. Ona görə də mətbuat orqanları öz oxucularını tapa bilmir, nəticədə qəzet və jurnalların tirajı artmır, onların yalnız bir neçə nömrəsi çap olunur, sonra isə səhnədən çıxır.

1992-ci ildə Bolqarıstan hökuməti həm də türk dilində radioyayımın təşkili haqqında qərar qəbul etmişdir. İlkin vaxtlarda efir vaxtı yalnız 30 dəqiqəlik yayımla məhdudlaşırdı. Ölkədə demokratikləşmə prosesinin güclənməsi nəticəsində 1998-ci ildə parlament səviyyəsində türk dilində televiziya yayımının müddətsiz olması haqqında qərar qəbul edilmişdir.

Bununla belə, indiyədək elektron media vasitələrinin də problemləri tam həll olunmayıb. Türk dilində yayımlanan radio və televiziya proqramlarının çoxunda ilk növbədə Türkiyə yenilikləri verilir. Bu o deməkdir ki, həmin redaksiyaların özlərinin efir məhsulu azlıq təşkil edir və onların müxbir məntəqələrinin sayı yetərli deyil [4].

Amma bütün bu çətinliklərə baxmayaraq Bolqarıstandakı türk ziyalıları bütün varlıqları ilə türk millətinə xidmət edirlər; hazırda ali təhsil müəssisələrində oxuyan gənclərin sayı artmaqdadır, onlar türk media əməkdaşlarının sıralarını genişləndirəcək, xalqın mədəni, sosial, iqtisadi inkişafına çalışacaq və türk toplumun hüquqlarını daima müdafiə edəcəklər.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


**Türk dilində:**

1. Hak ve Özgürlükler Hareketi - https://tr.wikipedia.org/wiki/Hak_ve_Özgürlükler_Hareketi
2. Hak ve Özgürlükler Hareketi Toplum adlı gazete çıkarıyor. - https://www.kircaalihaber.com/?pid=3&id_news=6480
3. Kırcaali Haber Gazetesi - Bulgaristan Türklerinin Sesi. - http://www.kircaalihaber.com/
4. Mehmet Ç. Yüzyıl Bulgaristan Türkleri: Antoloji. Istanbul, Yaylacık Matbaası, 1988, s.68-69.
5. Yenisoy H. Bulgaristan’da Türkçe Basın (1865-2010). - http://www.kircaalihaber.com/?pid=8&id_aktualno=296%20class=

**İngilis dilində:**

6. Doğan A. “Speech Delivered at Thirthy Sixth National Assembly” in The Spirit and Image of European Dimensions: Selected Speeches of Ahmet Doğan, 1991-2008. Sofia, 2008.
7. Eminov A. The Nation-State and Minority Languages: Turkish in Bulgaria. Wayne, Nebraska, Wayne State College, 2003
8. Kutlay M. Europeanization of Minority Rights in Bulgaria: Turks of Bulgaria as a Case Study. - http://etd.lib.metu.edu.tr/upload/12616121/index.pdf
9. Petkova L. The Etnich Turk in Bulgaria: Social Integration and Impact on Bulgarian-Turkish relations, 1947-2000 // Journal Global Review of Ethnopolitics. Volume

1, no. 4, 2002, p.42-59.

10. Turan Omer. Turks in Balkans. The Turks. Ankara, Yeni Turkiye publications, 2002

**Rus dilində:**

11. Свистунова И.А. Турция и Болгария: проблемы и перспективы современных взаимоотношений // Международная политика. 2016, с.87-102.

**Bolqar dilində:**

12. Кънев К. Законодателство и политика към етническите и религиозните алцинства в България. // Кръстева А. (съст.) Общности и идентичности в България. София, 1998, с.67-117.

13. Народно Събрание на Република България - http://www.parliament.bg

14. Стоянов В. Турското население в България между полюсите на етническата политика // The Turkish Population in Bulgaria between the Poles of Ethnic Policy. Sofia, 1998

**Sabir Mammadli**

## BULGARIAN TURKS' PRESS AS CRUCIAL INSTRUMENT IN NATIONAL STRUGGLE (1944-2010)

### Abstract

This article, based on extensive factographic materials, examines the struggle of Bulgarian Turks for their national ideals from 1944 to 2010. In 1944, certain democratic principles were introduced in Bulgaria under the Dimitrov Constitution, enabling Turkic intellectuals to establish national schools, develop their native language, and organize broadcasts in Turkish. Publications such as Vatan, Ishık, and Dostluk emerged during this period. However, since 1958, the Bulgarian government began imposing restrictions on the Turkish population, obstructing national education, and implementing policies aimed at bulgarizing the Turks.

The article highlights the role of Turkic press outlets, including Rodop Mucadilesi, Tuna Dergisi, and Halk Davası, which advocated for national values and resisted these policies. Particular attention is given to the late 1980s, a period marked by the collapse of the socialist system and the national revival of Bulgarian Turks. This era saw the formation of a national movement, the emergence of numerous independent democratic press outlets, and the establishment of the Movement for Rights and Freedoms (MRF), which continues to represent the Turkish population in Bulgaria's parliament and coalition government.

**Keywords:** Bulgarian Turks, press, national struggle, newspaper, native language

**Сабир Меммедли**

# ПРЕССА БОЛГАРСКИХ ТУРКОВ КАК СРЕДСТВО НАЦИОНАЛЬНОЙ БОРЬБЫ (1944-2010)

**Резюме**

В статье на основе обширного фактографического материала отражается борьба турок Болгарии за национальные идеалы. В 1944 году в стране в соответствии с «конституцией Димитрова» некоторое время применялись демократические принципы, позволявшие турецкой интеллигенции открывать национальные школы, развивать родной язык, организовывать радиовещания на турецком языке. В этот период появились такие печатные издания, как «Vatan», «İşık», «Dostluk». Однако с 1958 года правительство Болгарии начало вводить ограничения в отношении турецкого населения, препятствовать национальному образованию и стремиться к «болгаризации» турок (Возродительный процесс).

На основе деятельности таких изданий, как «Rodop mücadelesi», «Tuna dergisi», «Halk davası» и других, в статье исследуется борьба турецкой прессы за национальные ценности. Особо подчеркивается, что в конце 1980-х годов, в период краха социалистической системы, начался процесс национального возрождения турок Болгарии. Сформировалось национальное движение, появились многочисленные независимые демократические органы печати. Движение турок Болгарии «За права и свободы» было представлено в парламенте страны, а его представители вошли в состав коалиционного правительства, активно служа национальным интересам.

**Ключевые слова:** турки Болгарии, пресса, национальная борьба, газета, родной язык

# DƏYİŞƏN MEDIA MÜHİTİNDƏ YENİ MEYİLLƏR

**Fidan ƏLİYEVA**
*Bakı Dövlət Universitetinin doktorantı, Azərbaycan Dövlət İqtisad Universitetinin müəllimi*
*(Bakı, Azərbaycan)*

*E-mail: aliyevaa.fidan94@gmail.com*
*ORCİD:https://orcid.org/my-orcid?orcid=0009-0006-0196-9157*
*RESEARCHGATE:*
*https://www.researchgate.net/profile/Fidan-Aliyeva-12*
*WEBOFSCIENCE:*
*https://www.webofscience.com/wos/author/record/JOK-8508-2023*

**Xülasə.** Sosial media fərdlər və qruplararası münasibətlərə əsaslanan, özündə sosial təcrübələri ehtiva edən ünsiyyət sferasıdır. Texnoloji vasitələrin getdikcə artması ilə bu sahəyə daxil olmaq xeyli asanlaşmış oldu. Qarşılıqlı təsir, açıqlıq, iştirak və icma qurmaq kimi xüsusiyyətlərə malik olan sosial media effektivlik səviyyəsinə görə çox mühim bir sahədir. Bu həqiqətin işığında tədqiqatın əsas məqsədi sosial media platformasının istifadə sahələlərini ortaya çıxarmaq və geniş diapazonda gündən-günə böyüyən sosial media fenomenini hərtərəfli izah etməkdir. Məqalə həmçinin müəyyən mənada bu mövzunu öyrənməkdə maraqlı olan tədqiqatçılara nəzəri təlimat vermək məqsədi daşıyır.

**Açar sözlər:** sosial media, rəqəmsal media, veb 2.0, sosial şəbəkələr, informasiya texnologiyaları, ictimai sfera

## Giriş

Texnologiya sahəsində inkişaf və xüsusən də internetdən aktiv istifadə olunması nəticəsində XXI əsrin informasiya cəmiyyətində qarşılıqlı əlaqə virtual formaya çevrilmişdir. Bu məsələni yaradan və populyarlaşdıran amil, heç şübhəsiz, sosial media oldu. XX əsrin sonlarında sosial media sadə törəmələri ilə bazara çıxsa da, XXI əsrin əvvəllərində daha dəqiq xüsusiyyətlər qazanaraq gələcəkdə gündəlik həyatımızın bir hissəsinə çevrilən bir platforma oldu. Yeni virtual media bir çox sahələrə xidmət etdiyindən qurumlar, fərdlər və cəmiyyətlər arasında ənənəvi həyat təcrübəsi dəyişir. Xüsusilə, sosial medianın əsas elementi olan ünsiyyət prosesi dəyişikliklərə məruz qalaraq, fərqli bir müstəviyə keçid edir.

Müxtəlif variant və formalarda ortaya çıxan sosial media gün keçdikcə yeni keyfiyyətlər əldə edir və əhatə dairəsini genişləndirir. Sosial media bir çox insanlar üçün tanış və dominant sahə olmasına baxmayaraq, bu anlayışın daha dərin mahiyyəti ilə bağlı “korluq” mövcuddur. Bu araşdırmada sosial media anlayışı hərtərəfli qiymətləndirilərkən, qarşılıqlı əlaqə yaratmağa imkan verən xidmət və proqramlar toplusu kimi xarakterizə olunur və onun ideoloji təhlükəsinə diqqət yetirilir.

## 1. Klassik ünsiyyətdən yeni ünsiyyətə keçid

Teleqrafla başlayan rabitə prosesi film, telefon, radio və televiziyanın həyatımıza daxil olunması ilə bir tərəfdən bu proses həm dəyişdi, digər tərəfdən sərhədlər yox oldu. 3G texnologiyasının, smartfonların və planşetlərin ortaya çıxması ilə ünsiyyət prosesi sürətləndi və ənənəvi medianın ünsiyyət, təhsil, əyləncə kimi əsas funksiyalarına əlavə olunan yeni media növü - sosial media həyatımıza daxil oldu.

Yeni media forması olan sosial media veb (www) texnologiyalarının inkişafı ilə sıx bağlıdır [4,s.7]. 1990-cı ildə “World Wide Web” (Ümumdünya Şəbəkəsinin) ortaya çıxması ilə internet bütün dünyanı əhatə edən xüsusiyyət qazanmışdır. Veb 1.0 olaraq da adlandırılan bu proqram Cenevrədəki Avropa Nüvə Tədqiqatları Mərkəzində (CERN) işləyən Berners-Li tərəfindən kəşf edilmişdir. Berners-Li internetə qoşulmuş istənilən kompüterdən məlumat əldə etməyə imkan verən hipermətn ötürmə protokolu (http), hipermətn işarələmə dili (html) və vahid resurs yükləyicisi (Uniform Resource Loader URL) kimi proqramları müəyyən edərək tətbiq etmişdir [13, s.46-47].

Veb 1.0 istifadəçilərin yalnız statik səhifələrdəki mətnləri oxuya bildiyi, istifadəçilər arasında az qarşılıqlı əlaqəyə imkan verən, lakin internet saytı və istifadəçi arasında qarşılıqlı əlaqəyə açıq olmayan, informasiya axınının sənədlərlə təmin olunduğu şəbəkədir [29, s.896]. Veb-sayt idarəçisinin əsas vəzifəsi məzmunun və istifadəçilərin yenilənməsidir. Əvvəlki texnologiyalarla müqayisədə mühim addım olan veb 1.0 internetin dünya miqyasında yayılmasında və kompüterləşmədə təsirli olmuş [12, s.64-65] və bu vəziyyət 2005-ci ilə qədər davam etmişdir [29, s.896].

2004-cü ildə Tim O'Reyli və “Media Live International” şirkətinin qatıldığı konfransda veb texnologiyalarının ikinci versiyası olan veb 2.0 texnologiyası ilk dəfə konsepsiya şəklində qeyd olundu [36, s1]. O'Reyli bildirdi ki, veb 2.0 kompüter sənayesində internetə keçiddir və yeni bir mühit olan internetdə mövcud qaydaları qavramaq cəhdidir. Daha çox insanın tətbiqlərdən istifadə etməsi daha böyük imkanlar verən şəbəkə effektindən, yəni kollektiv intellektdən

faydalanmaq ən mühim qayda hesab olunur [35]. Veb 1.0-ın yuxarı versiyası olan veb 2.0 texnologiyası insanı mərkəzləşdirir, sosiallaşmağa, əməkdaşlığa imkan verir, daha çox qarşılıqlı əlaqəyə əsaslanır, eyni anda həm istehsalçı, həm də istifadəçi kimi birgə məzmun istehsalına şərait yaradır. Məhz bu xüsusiyyətlərinə görə veb 2.0 sosial şəbəkə də adlanır [27, s.197].

Yeni texnologiyalar vasitəsilə insanların qarşılıqlı əlaqədə olması və bir araya gəlməsi kimi fəaliyyətlər sosial media və veb 2.0 anlayışlarının birgə mövcudluğuna əsaslanır [25, s.6]. Sosial media və veb 2.0 konsepsiyalarını geniş şəkildə araşdıran A.Kaplan və M.Henlayn görə, sosial media veb 2.0 ideoloji və texnoloji əsasları olan, istifadəçilərə məzmun yaratmağa, məlumat göndərməyə və qəbul etməyə imkan verən internet əsaslı proqramlardır.

Texnoloji tərəqqi nəticəsində ortaya çıxan sosial media elektron ünsiyyət formalarını, sosial şəbəkə platformalarını və veb saytları asanlaşdıran interaktiv media texnologiyası hesab olunur. Bu yolla fərdlər elektron cihazlardan istifadə edərək məlumatlar, ideyalar, şəxsi mesajlar və digər məzmun formalarını paylaşaraq virtual icmalar yaradırlar [22, s.243]. Yəni sosial media istifadəçilərə məlumat yaratmaq və onu ictimaiyyətlə paylaşmağa imkan verən rəqəmsal texnologiyadır.

Sosial media istifadəçilər tərəfindən məzmunun yaradılmasına, mübadiləsinə və yaradılan məzmunun dünyanın hər yerindən digər istifadəçilərə yayılmasına - bir sözlə, sosial şəbəkələrdə iştirak etməyə imkan verir [11, s.213].

Klassik mediadan fərqli olaraq sosial media özünü ifadə etmək və təqdim etmək, habelə biznesin təşviq edilməsi kimi innovativ xüsusiyyətlərə malikdir [7, s.4]. XXI əsrdə kommersiya, əyləncə və təhsil fəaliyyətlərinin əsas komponenti kimi qəbul edilən sosial medianın yaranması və inkişafı ənənəvi mediadan istifadənin get-gedə azalması ilə əlaqələndirilir [37].

“Ənənəvi media” internet və rəqəmsal medianın (rəqəmsal media rəqəmsal elektronika cihazlarından istifadə etməklə internet üzərindən mətn, audio, video və qrafiklərin ötürüldüyü bütün rabitə vasitələrinə aiddir) [33,s.71] yaranmasından əvvəl kütləvi kommunikasiya formalarına, o cümlədən qəzetlər, jurnallar, kitablar və s. kimi çap mediası və televiziya, radio kimi yayım vasitələrinə [38] istinad edir.

Sosial medianı ənənəvi kommunikasiya vasitələrindən fərqləndirən əsas məqam onun qarşılıqlı əlaqələr ətrafında qurulmasıdır. Bu virtual mühitə daxil olan insanlar birtərəfli ünsiyyətdən daha çox başqaları ilə də qarşılıqlı əlaqə qurmaq istəyirlər. Ənənəvi ünsiyyət mühitində fərdlər qəbuledici mövqedən çıxış edərək kommunikasiya prosesinə məhdud miqyasda müdaxilə edə bilirlər. Bundan fərqli olaraq, internet üzərindən qarşılıqlı əlaqədə istifadəçinin ünsiyyət prosesində üstünlüyü ortaya çıxır [3, s.132]. Birtərəfli ünsiyyətə əsaslanan ənənəvi mediadan fərqli olaraq sosial mediada ünsiyyət prosesi ikitərəflidir [38]. Yəni əgər birincidə məlumat göndərəndən alıcıya ötürülür və heç bir əks əlaqəyə əsaslanmırsa, ikincidə alıcı göndərənə rəy bilidirə bilir.

1995-ci ildən internetdən istifadə genişləndikdən sonra dünyada istifadə olunan media növlərinin əksəriyyəti yeni mediada birləşməyə başladı. Bu cür inklüzivliyin əsas üstünlüyü ondan ibarətdir ki, yeni media vasitələrinin yayılması və nəşri bir tərəfdən demokratik şəkildə həyata keçirilir, digər tərəfdən isə informasiya axtarışında təhlükəsizlik, nəşrlərin məzmununa sürətli və interaktiv şəkildə çıxış təmin edilir. Buna baxmayaraq, sosial medianın populyar-

laşması ənənəvi medianı təhlükə altına qoydu [32, s.14].

Beləliklə, rəqəmsal texnologiyaların təsiri ilə ənənəvi media orqanları öz vəzifələrini yerinə yetirmək üçün yeni texnologiyalardan istifadə etməyə başladılar. Eyni zamanda, onların auditoriyası əllərində olan resurslardan istifadə edərək bu yeni media mühitində iştirak etdi və dəyişikliklərə uyğunlaşmış oldu. Yəni bloq yazan və öz rəylərini tvit etməklə ortaya çıxan auditoriya ənənəvi media orqanlarını texnoloji və mədəni inqilaba məcbur etdi [18, s.151].

## 2. Sosial media anlayışı

Elmi ədəbiyyatda sosial medianın dəqiq tərifi olmasa da, bir çox tədqiqatçı tərəfindən fərqli təriflərə rast gəlinir. Ən sadə şəkildə sosial media paylaşma və şəxsi şərhlər kimi fəaliyyətlərə əsaslanaraq istifadəçilərin bir-biri ilə onlayn formada qarşılıqlı əlaqəsinə, məlumat, düşüncə, maraq və biliklərini paylaşmalarına imkan verən sosial şəbəkə saytları kimi izah edilə bilər [4, s.60]. Sosial medianın bu xüsusiyyəti şəxsiyyətlərarası münasibətlərdə real ölçüləri virtuala gətirən prosesə də uyğun gəlir. Sosial nəzəriyyənin mühim simalarından biri olan Jan Bodriyar hələ sosial medianın istifadəsinin geniş vüsət almadığı vaxtlarda reallığını itirmiş sosial həyatın virtuala çevrilməsi ilə bağlı prosesə işarə etmişdi [9, s.10]. Bodriyarın sosial mediaya uyğun gələn tərifində sosial həyatdakı təcrübələrin virtual platformaya köçürülməsi prosesinin ön plana çıxdığı açıqlanır. Bundan başqa, obyekin özündən çox, subyektə əsaslanan təriflər də mövcuddur. A.Kaplan və M.Henlaynın sosial media anlayışında sosial medianın daha çox istifadəçi yönümlü olduğu bildilir. Yəni sosial media istifadəçilərin yaratdıqları məzmun ilə formalaşan və bu məzmunların yayıldığı mühit kimi müəyyən edilir [21, s.60]. L.Safkoya görə, interaktiv media vasitəsilə məlumat və ideyaların paylaşması üçün həyata keçirilən fəaliyyətlər veb əsaslı tətbiqlər kimi müəyyən olunan sosial medianı ifadə edir [25, s.6-7]. Yenə L.Safko və D.Breykə görə, bu ünsiyyət prosesində açar söz əməkdaşlıq (collaboration) olub, sosial media ekosistemində Myspace, Facebook kimi sosial şəbəkələr, foto, audio və video paylaşımları, mikrobloqlar, məzmundan asılı olmayaraq hədəf auditoriyası ilə əlaqə qurmaq üçün istifadə edilən vikipediya, slayd paylaşımları kimi veb əsaslı tətbiqlərlə həyata keçirilən nəşrlər, radio kimi əyləncə və təhsilə yönəlmiş yayım proqramları, istifadəçilərin özlərini simulyasiya mühitinin bir parçası kimi hiss etdikləri virtual dünyalar, oyunlar, bloqlar, forumlar kimi məzmun yaratma saytları, Yahoo, Survey monkey kimi demək olar ki, bütün kateqoriyaları bir araya gətirən proqramları (productivity applications), RSS və Google kimi axtarış sistemləri ilə aparılan internet araşdırmaları, mobil mühitlər və İ chat, Skype fərdlərarası ünsiyyət mühitləri də daxil olmaqla on beş əsas kateqoriyanı qeyd etmək mümkündür [25, s.21]. Media və kommunikasiya üzrə aparıcı nəzəriyyəçilərdən biri olan K.Fuchs bildirir ki, sosial media anlayışı bloqları, mikrobloqları və sosial şəbəkələri bir dam altında toplamaq üçün yaradılıb [19, s.35]. Beləliklə, bu təriflərdən belə nəticəyə gəlmək olar ki, sosial media bu sahədəki insanlar tərəfindən idarə olunan və özündə bir çox faktı ehtiva edə bilən bir vasitədir.

A.Meyfild bildirir ki, yeni növ onlayn şəbəkələr qrupu olan sosial media bir sıra xüsusiyyətlərə malikdir. Birincisi, maraqlı olan hər kəsin töhfələrini və rəylərini həvəsləndirən iştirakdır. İkincisi, məlumat paylaşmağa və şərh verməyə imkan verən açıqlıqdır. Üçüncüsü,

ənənəvi mediada axın tək bir mərkəzdən izləyicilərə doğru olmasından fərqli olaraq, sosial mediada axın qarşılıqlı formadadır. Dördüncü xüsusiyyət, fərdlərin tez bir vaxtda bir araya gəlməsinə və səmərəli ünsiyyət qurmasına imkan verən icma qurmaqdır. Bu icmalar fotoşəkil, siyasi mövzu, televiziya proqramı və s. ortaq maraqlarını bölüşə bilərlər. Sonuncu xüsusiyyət olan əlaqə digət saytlara, resurslara və insanlara çıxışı təmin edir [27, s.5].

Hazırkı dövrdə xüsusilə 12-17 yaşlar arasındakı nəslin 93%-nin onlayn media ilə təmasda olması və hətta onların 63%-nin hər gün onlayn olması [19] faktı sosial medianın hədəf auditoriyasına çatma gücünün nə qədər böyük olduğunu göstərir. Bu baxımdan demək olar ki, sosial media sadəcə fərdi və ya təşkilati ünsiyyətlə məhdudlaşmır, bu həm də sosial dəyişikliklər üçün bir kanal kimi müəyyən olunur. Buna ən bariz nümunə 2010-cu ildə baş vermiş "Ərəb baharı"dır. Ərəb coğrafiyasında internetin və sosial medianın sürətlə yayılması xalqın üzləşdiyi sosial problemləri çatdırmaqla bu coğrafiyada dəyişiklik və transformasiya hərəkatlarının sürətlənməsinə səbəb oldu. Sosial medianın bu qədər inanılmaz sürəti və əhatə dairəsinin çox geniş olması ədəbiyyata "Tvitter inqilabı" kimi anlayışı daxil etmişdir. Bu baxımdan belə nəticəyə gəlmək olar ki, sosial media böhran vəziyyəti üçün "ideal" vasitə kimi çıxış edir. Çünki sosial mediada əsas amil olan "sürət" yaxşı və ya pis xəbərlərin yayılmasında vasitəçilik edir. Amerikalı media nəzəriyyəçisi N.Postmanın yanaşması ilə tefeqrafla başlayan ünsiyyət prosesi sosial mediada saniyəlik səviyyəyə çatır və hətta sosial media "uşaqlığın yox olmasına" töhfə verən televiziya dövrünü belə geridə qoyur.

Sosial media istər birbaşa, istərsə də dolayı yolla olsun dəyişiklik prosesinin amili kimi çıxış edir. Sosial media sayəsində anlayışlar, istehsal və istehlak nümunələri, fərdi, sosial-iqtisadi həyatda transformasiyaların sürəti dəyişir. Sosial media istifadəçisinin demoqrafik xüsusiyyətlərindən əlaqə məlumatlarına qədər bütün məlumatlarını könüllü şəkildə paylaşması ilə sadəcə marketinq anlayışı deyil, eləcə də təhlükəsizlik və azadlıq anlayışları da yeni məzmun kəsb edir.

Yeni kommunikasiya texnologiyalarının təsirinə diqqət yetirərkən Marşal Makluhanın "yeni media hər şeyi dəyişdirir" tezisindən ilhamlanmamaq mümkün deyil. Bu dəyişiklik prosesini idarə edə bilənlər də sosial-iqtisadi həyatın iştirakçısına çevrilir. İnsan virtual bir mühitdə yaşadığı zaman təbiəti dəyişir, xüsusi kimliyi ümumi bütövlüyə qarışaraq kütləyə çevrilir [28, s.92]. Makluhanın bu yanaşması sosial media vasitəsilə daha dolğun ifadə olunur.

Virtual media və rəqəmsal media kimi tanınan sosial medianın əsas elementi olan ünsiyyət prosesi fərdilikdən daha çox sosial ünsiyyətə əsaslanır və bu da sosial medianın müxtəlif fikirlərin bir araya gəlməsi üçün uyğun mühit yaratmasına səbəb olur. Microsoft şirkətinin fərdi kompüterləri populyarlaşdırmaq strategiyası elə məhz çox sayda insanın bu mühitlə əlaqə saxlamasına və qarşılıqlı əlaqədə olmasına imkan verir [2]. Beləliklə, yeni rəqəmsal media fərdlərin şüurunu dəyişdirməklə vahid mərkəzli mədəniyyətin əsas müəyyənedicisi kimi "kommunikasiya kapitalizminin" qurulmasına vasitəçilik etdi [6]. Feysbukda 50 milyondan çox qeydiyyatdan keçmiş biznesin olması və müəssisələrin 88%-dən çoxunun Tvitterdən marketinq məqsədləri üçün istifadə etməsi göstərir ki, sosial media təkcə fərdi miqyasda deyil, həmçinin biznes fəaliyyəti üçün də zəruridir [24, s.14].

### 3. Sosial media dəyişiklik prosesinin amili kimi

Yaranmış yeni vəziyyət belə bir sualı da doğurur: bütün bunlar yeni münasibətlərin formalaşmasına töhfə verir, yoxsa fərdləri cəmiyyət və real dünya ilə münasibətlərini pozaraq təcrid edir?

Sosial şəbəkələrdə öz profilləri ilə mövcud olan fərdlər ümumi maraqları və müdafiə etdikləri dəyərlər kontekstində ünsiyyət quraraq dost dairəsini genişləndirirlər. Fərdlərin ifadə formalarının zəngin olduğu belə bir mühitdə real həyatda sahib olmadığımız imkanlar təqdim olunduğundan sosial şəbəkələr gündəlik həyatın ayrılmaz hissəsinə çevrilmişdir.

Sosial media istifadəçilərin şəbəkə texnologiyalarından istifadə edərək qarşılıqlı əlaqə yaratmağa imkan verən xidmət və proqramlar toplusu kimi xarakterizə olunur. Sosial media elə bir platformadır ki, insanlar burada fikir və təcrübələrini paylaşır. Bir sıra media nəzəriyyəçilərinin yanaşmasına diqqət yetirdikdə media bir güc kimi və ya gücə sahib olanların əlində silah kimi dəyərləndirilir, onun ideoloji təhlükəsi dərk olunur. Məsələn, Makluhanın və Bodriyarın texnoloji determinizm yanaşması, Makluhanın "alət mesajdır", "qlobal kənd" kimi ifadələri, Bodriyarın medianı elektron virusları yayan vasitə kimi qiymətləndirməsi, Althusserin də medianı dövlətin ideoloji vasitələrindən biri kimi müəyyənləşdirməsi medianın gücünü təsdiq edir.

Sosial media ilə cəmiyyətlərarası ünsiyyət prosesinin sürətlənməsi insanların internetdə qruplar yaratmasına və birlikdə hərəkət etməsinə imkan verib. Bununla da fərdilikdən inteqrasiyaya keçid olunması ilə bağlı sosial elmlərdə yeni bir təsəvvür formalaşmışdır. Digər tərəfdən, sosial şəbəkələrin verdiyi imkanlarla fərd reallıqdan kənara çıxaraq öz məkanını yaratdığı virtual aləmdə var olmağa çalışır.

Müasirliyin fərdiliyi ön plana çıxarması ilə sosial rollarda müəyyən dəyişikliklər özünü göstərdi. Berrtrand Russel bildirir ki, həddindən artıq fərdiyyətçiliyin yüksəlməsi cəmiyyətdə şiddətli qarşıdurmaya səbəb olur və insanları şüursuz şəkildə maraqlarına uyğun özünə cəlb edir [3, s.41].

İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı ilə sosial münasibətlərdə transformasiya icmaların xarakterini dəyişdirərək sosial şəbəkələrdə virtual icmaların yaranmasına səbəb oldu. "Postmodern qəbilə" kimi virtual icmalar [1, s.192] sosial şəbəkələrin verdiyi imkanlarla internetin yaratdığı geniş bir ərazidə formalaşır. Virtual icmaların formalaşması real icmaların bir araya gəlməsi ilə müqayisədə çox asandır [15, s.28].

İnformasiya əsrində dominant olan funksiyaların və proseslərin şəbəkələr ətrafında baş verməsilə Manuel Kastelsin vurğuladığı "şəbəkə cəmiyyəti" termini formalaşmışdır. Bu şəbəkə cəmiyyəti həm sosial təşkilatın formalarını, həm də istehsal, təcrübə, güc və mədəniyyət proseslərinin fəaliyyətini və nəticələrini ciddi şəkildə dəyişdirir [12]. Bir sözlə, şəbəkə cəmiyyəti sosiumun bütün səviyyələrini əhatə edir.

Sosial media ictimai hərəkatların formalaşmasında və davam etməsində yönləndirici amil kimi çıxış edə bilir [31]. Digər tərəfdən, sosial medianı yeni ictimai sferadan daha çox, mövcud ictimai sferanı zəiflədən amil kimi qiymətləndirən yanaşma da mövcuddur.

Bodriyar yeni virtual dövr üçün xarakterik olan insan modelini üç əsas məqamda tənqid edib: epistemoloji, ontoloji və etik [8, s.67]. Xüsusilə, etika nöqteyi-nəzərindən istifadəçi, şəbəkə virtual aləmin üzvü kimi öz ehtiyacları ilə dəyərlərini ayırd edə bilməyən passiv varlıq kimi tənqid olunur. Bu nöqte-

yi-nəzərdən, formalaşan sosial media tənqidi sosial media şəbəkələrini sosial əlaqələri pozan və sosiallaşmağa mənfi təsir göstərən amil kimi qiymətləndirir. Bəzi tədqiqatçılar bildirirlər ki, sosial medianın bu inkişafı fonunda hazırkı yaşadığımız dövr postmodern deyil, daha çox posthumanitar dövr kimi xarakterizə olunur. Posthumanitar dövrdə əsas müəyyənedici amil kimi çıxış edən insan klassik anlayışlardan kənarda davranış modelini mənimsəyir və texnoloji istifadə yolu ilə özünü təqdim edir.

Sosial media vasitəsilə sosiallaşmağa çalışan insanlar get-gedə antisosial varlığa çevrilir. Xüsusilə, bu virtual mühitdə sosiallaşma zərurəti davamlı olaraq paylaşma və şərh mexanizmlərinə əsaslandığından istifadəçilərdə bu davranışlar zaman keçdikdə vərdiş halını alır. Bununla yanaşı, ortaya çıxan digər təhlükəli hal insanların sosial media aludəçiliyidir. Psixoloqlar tərəfindən Fomo (Fear of Missing Out) adlandırılan sosial media aludəçiliyi insanın gələcəyini təhdid edən xəstəlik hesab olunur. İnsanlar davamlı olaraq şərh yazmaq, yerini bildirmək, foto və məlumat paylaşmaq, başqalarından razılıq almaq və bəyənilmək istəyirlər.

Sosial medianın insan-cəmiyyət münasibətlərini dəyişdirməsi ilə bağlı tənqidləri nəzərə alaraq belə bir nəticəyə gəlmək olar ki, Hannah Arendtin “Vita Activa” konsepsiyasının mahiyyəti zəifləyir. Bu konsepsiyada insan fəaliyyətinin üç əsas növü - əmək, iş və hərəkət müəyyən edilir və bu fəaliyyətlərin hər birinin cəmiyyətə təsiri araşdırılır. Arendtin fikrincə, bu fəaliyyətlər insanın dünyada varlığını və ictimai sfera ilə qarşılıqlı əlaqəsini müəyyən edir. Sosial medianın “Vita Activa”-nın mahiyyətini zəiflətməsi iddiası rəqəmsal medianın fərdlərin ictimai sferadakakı qarşılıqlı əlaqələrinə və siyasi hərəkətlərinə necə təsir etməsinə dair tənqidi yanaşmadır. Texnologiya vasitəsilə insana yanaşmasını ifadə edən Arendt bildirir: “Bir dünya qurmaq üçün deyil, öz həyati prosesinin tələb etdiyi işi asanlaşdırmaq üçün alət və avadanlıqlardan istifadə edən “animal laborans” [16. s.114]. Bu gün sosial medianın gətirdiyi yeni ictimai quruluşun əlamətlərini o zamandan bəri dilə gətirən Arendt bu günun şərtlərinə görə, xüsusilə ictimai və xüsusi sferaya diqqət yetirərək xəbərdarlıqlar edib. Sosial media tənqidçiləri də məhz bu əsasda yanaşma ortaya qoyublar.

## Nəticə

Rabitə texnologiyaları ilə bağlı ədəbiyyata nəzər saldıqda, tədqiqatların məzmununun dəyişmə sürəti diqqəti çəkən ilk məqamdır. 1960-cı illlərdən etibarən kommunikasiya texnologiyalarının sosioloji təsirlərinə daha çox yer verilib. Mediada baş verən dəyişikliklər bir tərəfdən ədəbiyyat mövzusu olan texnoloji yeniliklərdə davamlılığı təmin edərkən, digər tərəfdən də tədqiqat mövzuları baxımından çox geniş miqyas almasına imkan yaratdı. Marşal Makluhanın diqqət mərkəzində olan televiziya, bir neçə onilliklər ərzində yenilik və sosial dəyişiklik missiyasını geridə qoyaraq, rabitə texnologiyalarında innovasiyalar sosial media və şəbəkə platformaları kimi müxtəlif kontekstlərdə ortaya çıxdı.

Veb 1.0 texnologiyasının yuxarı versiyası olan Veb 2.0-ın həyatımıza daxil olması ilə ikitərəfli məlumat mübadiləsinin mümkün olduğu bir media sistemi yaranmışdır. Bu yeni texnologiya insanı mərkəzləşdirir, sosiallaşmağa, əməkdaşlığa imkan verir, həmçinin az nəzarət daha çox qarşılıqlı əlaqəyə əsaslanır, eyni anda həm istehsalçı, həm də istifadəçi kimi birgə məzmun istehsalına şərait yaradır. Rəqəmsal texnologiyalar vasitəsilə insanların qarşılıqlı əlaqədə

olması və bir araya gəlməsi sosial media və veb 2.0 anlayışlarının birgə mövcudluğuna əsaslanır.

İctimai həyata birbaşa qarışan və ona təsir edən bu platforma bir çox araşdırmaların mövzusu olub. Sosial şəbəkələrdən başlayaraq, bloqlar, podkastlar, forumlar, video, foto paylaşma saytları, mikrobloqlar və vikipediya kimi istifadə sahələrinə malik olan sosial media insanların sosial həyatının bir hissəsinə çevrilib. Bütün bu istifadə sahələri ilə kommunikasiya daha sürətli və asan olur. Digər tərəfdən, tənqidi yanaşmada sosial media ictimai sferanı zəiflədən, yəni sosial əlaqələri pozan və sosiallaşmağa mənfi təsir göstərdiyi amil kimi vurğulanır. Bəzi tədqiqatçılar bildirirlər ki, bu inkişaflar fonunda hazırkı yaşadığımız dövr postmodern deyil, daha çox posthumanitar dövr kimi xarakterizə olunur. Posthumanitar dövrdə əsas müəyyənedici amil kimi çıxış edən insan klassik anlayışlardan kənarda davranış modelini mənimsəyir və texnoloji istifadə yolu ilə özünü təqdim edir.

Nəticədə sosial media yarandığı vaxtdan bu günə qədər sosial həyata həm böyük töhfələr verən, həm də mənfi cəhətləri olan bir platformadır. Üstünlükləri və mənfi cəhətləri ilə sosial həyatımıza daxil olan və onun ayrılmaz hissəsi olan sosila media durmadan inkişaf edir. Tətbiqlərin yenilənməsi inkişaf vəziyyətinin qorunmasında əsas amil kimi çıxış edir. Sosial media sahəsi gündən-günə özünü yeniləyəcək və mövcud sosial ehtiyaclara, meyillərə uyğunlaşaraq mütləq şəkildə həyatımızda yer alacaqdır. Belə bir qarşısıalınmaz mənsubiyyətin içərisində sosial medianın elə xüsusiyyətləri ön planda tutulub istifadə olununmalıdır ki, onlar bizim imkanlarımızı daha da təkmilləşdirsin, həm fərdi, həm də sosial baxımdan daha çox töhfə versin.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

**Türk dilində:**

1. Gülbin Özdamar Akarçay, (2015). Sanal ve gerçek bir toplum. Toplum ve Bilim dergisi, sayı 135. s.92.

2. Güzel, C. (2020). Sosyal medyanın neliği, gelişimi ve kullanım alanları üzerine kuramsal bir inceleme. // Sosyolojik Düşün, 5 (2), 93-112. DOI: 10.37991/sosdus.834698

3. Nilüfer Timisi (2003). Yeni İletişim Teknolileri ve Demokrasi. Ankara: Dost

4. Özdemir, Sami Sonat, ÖZDEMİR, Meltem, POLAT, Eray ve AKSOY, Ramazan (2014). "Sosyal Medya Kavramı ve Sosyal Ağ Sitelerinde Yer Alan Online Reklam Uygulamalarının İncelenmesi". // Ejovoc Electronic Journal of Vocational Colleges, 4(4): 58-64.

5. Selim Tuncer, "Sosyal Medyanın Gelişimi", Sosyal Medya, Ed.: F. Zeynep Özata, Anadolu Üniversitesi Yay., Ankara, 2013, s. 7.

6. Yengin, D. (2014). Yeni medya ve dokunmatik toplum. 2. Baskı. İstanbul: Derin Yayınları

**İngilis dilində:**

7. Asp, T. E. (2018). "Propagation of traditional media publications". Oslo, Norway: Dalarna University Press.

8. Baudrıllard, J. In the Shadow of the Silent Majorities: Or, the End of the Social and Other Essays (Semiotext(e) / Foreign Agents) Paperback – 6 Jan. 1983

9. Baudrillard, J. (1994). Simulacra and Simulation. Translated by Sheila Faria

Glaser., USA: The University of Michigan Press.

10. Boyd, D.M. (2008). American Teen Sociality in Networked Publics.

11. Boyd, D.; Ellison, N. (2007). "Social Network Sites: Definition, History, and Scholarship". Journal of Computer-Mediated Communication. 13 (1): 210–30.

12. Castells, M. (2013a Castells, M., 2010. The Information Age: Economy, Society and Culture Volume 1: The Rise of the Network Society. 2nd ed. Oxford: Wiley Blackwell.

13. Castells, M. The Internet Galaxy. 2001. USA, by Oxford University Press Inch, New York p.310

14. Castells, M. The Rise of Network Society. 1996. Great Britain by T.J. International Limited, Podstow, Cornwall. p.580

15. Poster- Clay Shirky, Here Comes Everybody: The Power of Organizing Without Organizations

16. Hannah Arendt . (2013). The Human Condition. Library of Congress Cataloging-in-Publication Data Arendt, Hannah.İntroduction by Margaret Canovan. — 2nd ed. p. cm. Originally published: Chicago : University of Chicago Press, 1958.

17. Hermida, A. (2014). “Tell Everyone: Why We Share and Why It Matters”. DoubleDay: Canada

18. Fuchs, Christian (2014). Social Media. A Critical Introduction. London: Sage

19. http//isites.harvard.edu/fs/docs/icb.topic786630.files/Teens%20Social%20 Media&20and%20Health%-20%NYPH%20Dept%20Pew%20Internet.pdf

20. Kaplan, Andreas M. and HAENLEIN, Michael (2010). “Users Of The World, Unite! The Challenges and Opportunities Of Social Media”. Business Horizons, 53(1): 59-68.

21. Kietzmann, J.; Hermkens, K. (2011). "Social media? Get serious! Understanding the functional building blocks of social media". Business Horizons. 54 (3): 241–251.

22. Kirscherbaum, A. (2004). Generic Sources of Disaster Communities: A Social Network Approach, International Journal of Sociology and Social Policy, Vol. 24, No. 10/11

23. Lister, M. (2021). 40 Essential social media marketing statistics for 2018. 15 Ocak 2022 tarihinde https://www.wordstream.com/blog/ws/2017/01/05/social-media marketing-statistics adresinden erişildi

24. Lon Safko, David K.Brake, The Social Media Bible, USA, new jersey: John Wiley&Sons, Inc., 2009, ss.6-7

25. Marwan Walid Al-Quran. 2022, Technium: Romanian Journal of Applied Sciences and Technology 16.p

26. Mayfield, A. (2008). What is Social Media? Ebook: icrossing

27. N. Postman. The Disappearance of Childhood, Knopf Doubleday Publishing Group, 1994. 192 p.

28. Nupur Choudhury, “World Wide Web and Its Journey from Web 1.0 to Web 4.0”, International Journal of Computer Science and Information Technologies, Vol. 5 (6), 2014, p. 8096-80100.

29. Obar, J.; Wildman, S. (2015). "Social media definition and the governance challenge: An introduction to the special issue". Telecommunications Policy. 39 (9): 745–750

30. Olga Bailey, Bart Cammaerts and Nico Carpentier. Understanding Alternative Media. Published by Open University Press. December, 2007. 192 pp.

31. Rajendran, LI & Thesinghraja, P. (2014). “The Impact of New Media on Tra-

ditional Media". Middle East Journal of Scientific Research 22 (4): 609-616

32. Rayburn, D. (2012). "Streaming and Digital Media: Understanding Business andTechnology". Taylor & Francis.

33. Russell, B: "A History of Western Philosophy", page xi. Simon & Schuster, Inc., 1972

34. Tim O'Reilly, "Web 2.0 Compact Definition: Trying Again",

35. Tim O'Reilly, "What is Web 2.0 Design Patterns and Business Models for The Next Generation of Software", 2005, s. 1,

36. Turner, J. (2022). "The 7 Main Ways Technology Impacts Your Daily Life". Available at: https://tech.co/vpn/main-ways-technology-impacts-daily-life

37. Valencia, J. (2022). "What Is Traditional Media? A Comprehensive Introduction". Available at: https://letter.ly/what-is-traditional-media/

**Fidan Aliyeva**

**EMERGING TRENDS IN TRANSFORMING MEDIA LANDSCAPE**

**Abstract**

Social media is a communication sphere that facilitates interactions between individuals and groups, encompassing a wide range of social experiences. With the advancement of technological tools, entry into this space has become increasingly accessible. Social media's characteristics, such as interactivity, openness, participation, and community building, make it a crucial area in terms of effectiveness. In light of these developments, the primary objective of this research is to explore the various uses of social media platforms and to provide a comprehensive analysis of the growing social media phenomenon. The article also aims to offer theoretical guidance for researchers interested in studying this field.

**Key words:** social media, digital media, Web 2.0, social networks, information technology, public sphere

**Фидан АЛИЕВА**

**НОВЫЕ ТЕНДЕНЦИИ В МЕНЯЮЩЕЙСЯ МЕДИАСРЕДЕ**

**Резюме**

Социальные сети — это сфера общения, включающая в себя социальный опыт, основанный на отношениях между отдельными людьми и группами. С ростом количества технологических инструментов войти в эту область стало гораздо проще. Благодаря таким характеристикам, как взаимодействие, открытость, участие и создание сообщества, социальные сети являются важной областью эффективности. В свете этого факта основная цель исследования — выявить области использования платформы социальных сетей и всесторонне объяснить феномен социальных сетей, который растет с каждым днем в широком диапазоне. Статья также призвана предоставить некоторые теоретические рекомендации исследователям, заинтересованным в изучении этой темы.

**Ключевые слова:** социальные сети, цифровые медиа, Web 2.0, социальные сети, информационные технологии, публичная сфера

# YENİ NƏŞRLƏR, RƏYLƏR

# NEW PUBLICATIONS, REVIEWS

# SOSİAL OPTİKADA YENİ HƏDƏF

**A.K. Məmmədov və M.E.Qorlaçın**

*“Sosial qarşılıqlı əlaqələr sistemində qoxular”*
*/Moskva: Max Press,*
*2023. – 232 s./ kitabına*
*RƏY*

Olduqca maraqlı və qeyri-adi araşdırmanın müəlliflərindən biri həmyerlimiz, sosiologiya elmləri doktoru, professor Məmmədov Ağamalı Qulam oğlu dövrümüzün məşhur sosioloqu, Hirşa indeksi – 43 olan yüksək elmi reytinqli alim, 50-dən çox kitabın müəllifi, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin “Kommunikasiya sistemlərinin sosiologiyası” kafedrasının müdiridir.

Sosiologiya bir elm sahəsi kimi tədqiqat predmetinin əhatə dairəsinə görə, demək olar ki, hiperbolizasiya ittihamlarından çəkinmədən, sosiumun, ayrı-ayrılıqda hər bir fərdin həyati fəaliyyətinin bütün sahələrinə nüfuz edərək, həm şəxsiyyətin, həm də onu əhatə edən ətraf aləmin inkişafını təmin edən proseslərə nüfuz edir. Bu baxımdan, qoxu kimi bir fenomenin sosioloji parametrləri ilə bağlı məsələlərin öyrənilməsinə müraciət aktual görünür.

Qeyd etmək lazımdır ki, qoxu yalnız fiziologiya sahəsinə aid bir hadisə olmayıb, eyni zamanda cəmiyyətin təbəqələşməsi sistemində, fərdin bu və ya digər sosial təbəqəyə və ya sinfə aid edilməsindən asılı olan sosial-mədəni bir hadisədir.

İstehlak cəmiyyəti fərd qarşısında bir çox tələblər qoymaqla, xüsusi mədəni təbəqə formalaşdırır, fərdin mövcudluğu bu təbəqə çərçivəsində reallaşır. Fərdin cəmiyyətin imtiyazlı təbəqələrinə aid edilməsi üçün xüsusi maddi rifah səviyyəsi və karyera nərdivanının müəyyən pillələrinin dəf edilməsi tələb olunur, burada xarici görünüşə, geyimə xüsusi tələblər qoyulur, eyni zamanda, qoxu kimi bir parametrə böyük önəm verilir.

Bu səbəbdən sosiologiyanın indiyədək tədqiq olunmamış sahəsinə aid məsələləri mümkün qədər əsaslı şəkildə nəzərdən keçirmək məqsədi daşıyan resenziyalı dərsliyin nəşri, zənnimizcə, qanunauyğundur. Eyni zamanda materialın tələbə gənclər üçün əlçatanlığının təhlili, mətnin terminoloji zənginliyi baxımından təqdimat dilinin (terminlərin çoxluğu mətnin məzmununa kölgə salmırmı) dəyərləndirilməsi də zəruridir. Həmçinin materialın ifadə məntiqində sadədən mürəkkəbə prinsipinə riayət olunub-olunmamasını anlamaq da, fikrimizcə, zəruridir.

Dərsliyə nəzər saldıqda onun məzmunu haqqında ümumi təsəvvür yaradan üç fəsildən: “Fəsil 1. Qoxuların təsnifatı və ölçülməsi”, “Fəsil 2. Olfaktör xüsusiyyətləri” və “Fəsil 3. Sosiomədəni təcrübə” ibarət olduğunu görürük. Təkcə bu başlıqlar həm qoxuların ictimai əhəmiyyəti ilə bağlı məsələlərin əhatə dairəsinin genişliyini, həm də araşdırılan problemlərin dərinliyini və rəngarəngliyini nümayiş etdirdiyi üçün oxucuların diqqətini cəlb edir.

“Ön söz”ə müraciət edək. Müəlliflər qoxunun tədqiqini sosial praktika ilə əlaqələndirərək çox maraqlı bir fikir irəli sürürlər: “İctimai münasibətlərin mahiyyətini tədqiq etməklə, insanın bütün bioloji funksiyalarını tədricən mədəni sosial təcrübə mənbəyinə çevirdiyini müşahi-

də etmək olar” [s.6]. Bununla sosioloji bilik nöqteyi-nəzərindən qoxu hissi kimi bioloji funksiyaya müraciət etməyin qanunauyğunluğu əsaslandırılır.

Daha sonra müəlliflər dərslikdə bizim nöqteyi-nəzərimizdən materialın orijinal təqdimat tərzini əsaslandırırlar: “Sosiologiyada yeni bir istiqamətin - “qoxular sosiologiyası” təliminin formalaşdırılması vəzifəsini həyata keçirmək üçün biz qoxu kimi bir efemer maddənin insanlara təsiri məsələsinə həyatlarını həsr etmiş bu sahədə çalışan digər müəlliflərə və mütəxəssislərə olan maksimum sayda istinadları olan bir mətn hazırlamağa çalışmışıq” [s. 8].

Bu baxımdan deyə bilərik ki, bu mövqe oxucuda müsbət təəssürat yaradır: son instansiyada həqiqət yoxdur, oxucu dialoqa, hətta polemikaya dəvət olunur, müəlliflər disputa açıqdır.

“Ön söz”də deyilir: “Qoxu fenomeninin sosioloji tədqiqinin gətirdiyi ən mühüm sosial təcrübə insanın davranışını və mövcudluq şəraitini tənzimləyən ictimai narrativlərin yaradılmasına imkan yaradan qoxuların verbal əlaqələndirilməsidir” [s. 10].

Göründüyü kimi, məsələyə bu tərz yanaşma oxucuya düşünmək üçün geniş imkanlar verməklə yanaşı, qoxu kimi bir fenomenin sosiologiya elminin, habelə elmi biliyin digər sahələrinin, o cümlədən mədəniyyətşünaslığın tədqiqat obyekti kimi gələcək perspektivlərini müəyyənləşdirir.

Kitabda “Ön söz” elə qurulmuşdur ki, oxucu şəksiz-şübhəsiz olaraq yuxarıda qeyd olunan məsələnin öyrənilməsinin aspektlərini, bu sahədə hansı yanaşmaların mövcudluğunu, qoxunun sosioloji aspekti haqqında biliklər sayəsində praktiki olaraq nə əldə edə biləcəyini özü üçün açmaq istəyir.

“Qoxuların təsnifatı və ölçülməsi” adlı birinci fəsil oxucunu maraqlı və maarifləndirici məsələlərlə, qoxuların müxtəlif fərdlər və bütövlükdə cəmiyyət tərəfindən qəbul edilməsi, müxtəlif dövrlərdə qoxular haqqında təsəvvürlərlə, qoxuların təsnifatının tarixi, qrafik nəzəriyyələri, həmçinin stereokimyəvi və hətta informasiya nəzəriyyələri ilə tanış edir.

Eləcə də birinci fəsildə “qoxuların qəbulunun bəzi xüsusiyyətləri”nə və bu fenomenin sosioloji parametrik ölçülməsinə həsr olunmuş paraqraflar yer almışdır. Qoxuların ölçülməsinin müxtəlif hədləri, yəni zövqün, intensivliyin və taksisin hədləri göstərilmişdir.

Birinci paraqrafda, məsələn, “qavrayış” və “təqdimat” kimi anlayışların məzmunu “...elmi iş üçün” açılır [s.12]. Bu fenomen haqqında maraqlı və maarifləndirici məlumatlar verilir, məsələn, bu ifadədə olduğu kimi: “Müvafiq əməliyyatı - qoxu qəbulunu həyata keçirmək üçün bədən birbaşa tənəffüs yollarından kənarda yerləşən xüsusi boşluqdan istifadə edir” [s.15]. Bununla da oxucu çox adamın zərrə qədər də təsəvvürünün olmadığı insan bədəninin sirlərini öyrənir.

“Təsnifatın tarixi nəzəriyyələri” adlanan ikinci paraqrafda belə bir paradoksal ifadəyə rast gəlirik: “...bütün mövcud qoxu təsnifat sistemləri subyektivlikdən əziyyət çəkir” [s.18]. Obyektivliyə iddialı olan elm isə burada tədqiq olunan fenomen haqqında qeyri-obyektiv, şəxsi fikirlərlə kifayətlənmək məcburiyyətində qalır. İlk baxışdan elmdə qəbuledilməz hal kimi görünsə də, məsələnin daha dərindən öyrənilməsindən sonra oxucu qoxuların təsnifatına bu cür yanaşmanın əsaslandırılmasının doğruluğunu dərk edir.

Biz bir çox belə maraqlı, daxili ziddiyyətlərlə zəngin, lakin eyni zamanda qoxu fenomeni ilə bağlı yeganə mümkün təsəvvürləri nəzərdən keçirdiyimiz dərslikdə kifayət qədər görürük.

“İnformasiya nəzəriyyəsi” adlanan birinci fəslin beşinci paraqrafındakı

daha bir paradoksu nümunə çəkək: “Görmək, toxunmaq və qoxulamaq mümkün olmayan istənilən şey antrop dünyada mövcud deyil və deməli, çətin ki, abstrakt konsepsiyaların: radiasiya, Antarktida, sferik Yer, İblis, Pokemon, xoşbəxtlik, İlon Mask və s. dilindən başqa demək olar ki, heç bir yerdə yoxdur” [s. 28].

Qarşımızdakı kitabın dərslik olmasına rəğmən, müəlliflərin mühüm nəzəri prinsipləri məharətlə açmaq bacarığı predmetin öyrənilməsini asanlaşdırır, maraqlı və cəlbedici edir.

“Qoxuların qavranılmasının bəzi xüsusiyyətləri haqqında” adlanan altıncı paraqrafda “insanın statusu, qoxunun mənbəyi və onun yayılma mühiti arasında tarazlıq konsepsiyası” diqqətlə əsaslandırılmışdır [s.31], bu isə öz növbəsində qoxunun sosioloji parametrlərinə yanaşmaların anlaşılmasına kömək edir.

Qoxuların qəbulunda bu şərtlər inandırıcı şəkildə fərdin bu və ya digər sosial qrupa aid olub-olmamasının müəyyənləşdirilməsinə yardımçı olur.

Bu paraqrafda verilən məlumatlar oxucunun dünyagörüşünü genişləndirir, əvvəllər aldığı biliklərini dəqiqləşdirir, ətraf mühitin adət edilmiş hadisələrinə yeni, xüsusi baxış bucağından nəzər salmaqda kömək edir.

Növbəti “Sosioloji parametrik ölçmə” adlanan yeddinci paraqraf üç yarımparaqrafa bölünür: “1.7.1. Zövq şkalası”, “1.7.2.İntensivlik şkalası” və “1.7.3.Taksisin şkalası” - burada qoxular maraqlı şəkildə təsnifləşdirilir və bununla yanaşı, müəyyən xüsusiyyətlər üçün seçim meyarlarının çox fundamental sosial-mədəni əsaslandırılması aparılır.

Müəlliflər paraqrafın sonunda belə qənaətə gəlirlər: “Beləliklə, konkret qoxunun qiymətləndirilməsi üçün təqdim edilmiş hər üç təsvir edilmiş hədd (şkala), şəhər infrastrukturunun obyektinə məxsus, əmtəəyə, assosiasiya edilmiş hadisəyə olfaktor stimulların və sosiomədəni klasterlərin sınaqdan keçirilmiş qruplarına aid sosial relativizm meyillərinin müəyyən edilməsinə yönəldilmişdir” [s.57]. Qeyd etmək lazımdır ki, sosiologiyada mədəni parametrlərin əhəmiyyətindən müəlliflərin digər əsərlərində də bəhs edilir.

Hər bir fəslin sonunda özünə nəzarət üçün verilən sualların siyahısı dərsliyə aid olduqca vacib müsbət əlamətlərdəndir. Bu, oxucuya bütün terminlərin mənimsənilib-mənimlənilmədiyini, nümunələrin və təsniflərin yadda qalıb-qalmadığını, materialın sonrakı öyrənilməsi üçün əsasın formalaşıb-formalaşmadığını anlamağa imkan verir.

“Olfaktorun xüsusiyyətləri” adlanan fəsildə qoxu sosiologiyasının predmeti və obyekti haqqında hərtərəfli elmi biliyin mənimsənilməsində zəruri olan mühüm elmi məlumatlar yer almışdır.

Paraqrafların təxribat xarakterli başlıqları diqqəti cəlb edir, lakin bu bölmələrin özlərində insanların ən sadə, deyə bilərik ki, gündəlik fəaliyyətləri haqqında təsəvvür yaradan məlumatlar təqdim edilir.

“Feromonlar” adlanan üçüncü paraqraf aşğıdakı yarımparaqraflara bölünür: “2.3.1. Dövrlərin sinxronlaşdırılması”, “2.3.2. Yaxın qohumlar arasında cinsi əlaqənin qarşısının alınması”, “2.3.3. Seksual cazibədarlıq”, “2.3.4. Seksual fəallıq”, “2.3.5. Rəqabət və təcavüz” və s. Göründüyü kimi, oxucular üçün bu adlar şokedici təsəvvür yaradır. Ancaq düşüncəli oxucu təqdim olunan materialın mahiyyətini araşdırır və məlum olur ki, bu hadisələr həqiqətən də qoxulardan çox təsirlənir və qoxuların bəzən şüuraltı səviyyədə insanların bir çox fizioloji və psixoloji proseslərinə necə təsir etməsindən asılıdır.

İkinci fəsildə qoxular və stress arasındakı əlaqə kimi insan üçün zəruri

olan bir məqamdan bəhs edilir. Üçüncü paraqrafın "6.Psixososial stressin tənzimlənməsi" adlanan yarımparaqrafında nəzərdən keçirilən dərsliyin müəllifləri yazır: "Beləliklə, qoxu həmişə öz-özünə deyil, başqa siqnalların mövcudluğunda, əsas stressorun markerinə çevrilir, keçmiş kritik vəziyyətin mənzərəsini tamamlayır, şüursuzları mümkün təkrarlanma əlamətləri ilə təmin edir" [s.105].

Bu hadisələrin qarşılıqlı təsir mexanizmləri təfərrüatlı və əsaslı şəkildə yenilənir, təhlil edilən qarşılıqlı əlaqənin vahid görünüşünü yaradır: hemosensor.

Bu fəsildə həmçinin qoxularla bağlı cinslər arasında hemosensor ünsiyyət, repellentlər, cəmiyyətdə iyerarxiya, həmçinin müəyyən qoxuların sakrallaşdırılması (və müvafiq olaraq müəyyən bir ətir yayan maddələrin) məsələləri müzakirə olunur.

İkinci fəsil, birinci fəsil kimi, oxucunun təqdim olunan materialı nə dərəcədə mənimsədiyini müəyyənləşdirə biləcəyi yoxlama suallarının siyahısı ilə bitir.

Nəzərdən keçirilən dərsliyin üçüncü fəslində narkomaniyanın, toksikomaniyanın mühüm problemləri, bu problemlərin qoxu fenomeni ilə bağlılığı nöqteyi-nəzərindən tədqiqata cəlb edilmişdir.

Bu fəsil "Sosiomədəni təcrübə" adlanır və bu paraqraflara bölünür: "3.1. Qida və ədviyyatlar: ayin və maskalanma", "3.2. Burun sui-istifadəsi", "3.3. Siqaret çəkmək", "3.4. Sağlamlıq və qoxular", "3.5. Bədii reallıq". Bu paraqraflarda qoxularla bağlı mədəni parametrlər araşdırılır, müxtəlif tarixi dövrlərdə insanların müxtəlif nəsillərinin əxlaq və adət-ənənələrini əks etdirən əsaslı faktlar maraqlı şəkildə təhlil edilir.

"Qoxunun sosiologiyası" adlanan bu fəsildə müəlliflər tərəfindən gətirilən faktlar çox maraqlı olduğundan, oxucunun diqqətini daima gərginlikdə saxlayır, təxəyyülünün qanadlanmasına imkan yaradır, oxucuda təsvir edilən hadisələr haqqında yeni məlumatların əldə edilməsinə maraq oyadır.

Məsələn, "2.3. Reflektor gücləndirmə" bölməsinin "Endorfinlər – həzzverici maddə kimi" yarımbölməsində maraqlı bir fikir ifadə edilmişdir: "Axı, tiryək fəal vətəndaşı qayğıkeş istehlakçıya çevirən mükəmməl balastdır" [s.171]. Göründüyü kimi, bu (və buna bənzər) ifadələr oxucunu düşünməyə, insanın əldə etdiyi biliyi reallıqda onun ətrafında gördükləri ilə əlaqələndirməyə, həm fərdi, həm də cəmiyyəti nizamsızlaşdıran problemin həlli yollarını axtarmağa vadar edir.

Dərslikdə bədii ədəbiyyatda qoxuların təsirinin yer aldığı paraqraflar xüsusi maraq doğurur. Burada səthi də olsa bir məsələni qeyd etmək lazımdır: bir çox paraqrafların epiqrafları həm klassik, həm də az tanınmış şairlərin şeirlərindən parçalardır. Bu sətirlərdə istənilən şəkildə ətirlər təsvir edilir ki, bu da ciddi, akademik material təqdim etməzdən əvvəl poetik müqəddimə kimi oxucunun diqqətini özünə çəkir.

Üçüncü fəslin "5. Bədii reallıq" adlanan üçüncü paraqrafına keçək. Bu paraqraf: "5.1. Nəyinsə qoxuları", "5.2. Xoşagələn/xoşagəlməz", "5.3. Çürümə metafora kimi", "5.4.Qoxu yaddaşın tətikləyicisi kimi", "5.5.Məkanın olfaktor nişanlanması" və digər yarımparaqraflara bölünür.

Yuxarıda qeyd etdiyimiz kimi, bədii ədəbiyyatda müxtəlif qoxularla bağlı situasiyaların təsvirinə dəfələrlə müraciət edildiyini öyrənmək çox maraqlıdır. Bu təsvirlər həm şeirə, həm də nəsrə aiddir. Yazıçılar və şairlər bu məsələyə yaradıcılıqla yanaşmış, ətirlərlə bağlı həm müsbət, həm də mənfi məqamları bədii formada təsvir etmişlər.

"5.6. Qavrayışın və xolistik təfəkkürün bütövlüyü" adlı paraqrafda müəyyən

bir nəticəni yekunlaşdıran mühüm və maraqlı bir ifadə ilə qarşılaşırıq: "Beləliklə, qoxular müəllifin fikrini çatdırmaq üçün suqqestiv gərginlik yaratmaqda, personajların xarakterinin açılmasında, qəhrəmanların görünən obrazının, onların sosial mənsubiyyətinin və xarakterinin yaradılmasında iştirak etməkdə mühüm rol oynayır. Qoxular müəlliflər tərəfindən təlqinedici gərginlik yaratmaqda, varlığın "burada və indi" tanınması və təsviri vasitəsi kimi, eləcə də qavrayış və təxəyyülün məkan və zaman daxilində hərəkət vasitəsi kimi xidmət edir" [s.199].

Kitabın "Son söz" hissəsində problemin sonrakı öyrənilməsi üçün yeni vəzifələr müəyyənləşdirilir: "Normaların işlənib hazırlanması və etik hədlərin müəyyən edilməsi qoxu sosiologiyasının qarşısında duran vəzifədir" [s.209]. Bu, qoxu sosiologiyasının elmi biliklər sistemində inkişaf perspektivlərini aydınlaşdırır və sosiologiyanın bu sahəsinin gələcək səmərəli inkişafında nikbinlik yaradır.

"Sosial qarşılıqlı əlaqələr sistemində qoxular" dərsliyinin məzmununun təhlili, tədqiqatın obyektinin və predmetinin öyrənilməsinə dərin və hərtərəfli yanaşmanın olmasını, materialın yüksək elmi səviyyədə təqdim edilməsini göstərir, bütün terminlər şərhlərlə izah edildiyindən və dəqiq şəkildə müəyyənləşdirildiyindən onun tələbələr tərəfindən asan qavranılmasına imkan verir. Hətta tarixi faktların verildiyi yerlərdə belə materialın yüksək dərəcədə aktuallığını saxlamasını qeyd etmək lazımdır.

Nəzərdən keçirilən dərsliyin müəllifləri qoxunun sosial təbiətinin öyrənilməsində klassik ənənələrə (G.Zimmeldən başlayaraq) istinad edir, eyni zamanda, heç şübhəsiz ki, qoxunun sosioloji və mədəni aspektlərinin öyrənilməsinə zamanın rakursundan yanaşaraq bir çox yeniliklər əlavə edirlər.

Qeyd etmək lazımdır ki, dərslik materialın tələbələr üçün əlçatan olması ilə seçilir, mətnin böyük terminoloji zənginliyinə baxmayaraq (terminlərin bolluğu qoxuların sosioloji parametrləri ilə bağlı qeyd olunan müddəaların mənasına kölgə salmır) kitabın dilini elmi populyar kimi müəyyənləşdirmək olar.

Təsdiq etmək olar ki, dərsliyin müəllifləri materialın təqdim edilməsinin məntiqinə uyun olaraq sadədən mürəkkəbə prinsipinə kifayət qədər ciddi şəkildə riayət ediblər.

Kitab sosioloqlar, politoloqlar, filoloqlar, filosoflar, tarixçilər və mədəniyyət ekspertləri də daxil olmaqla geniş oxucu kütləsi üçün maraqlı ola bilər.

**Ariz GÖZƏLOV,**
*fəlsəfə doktoru, Rusiya Elmlər Akademiyasının Federal Elmi-Tədqiqat Sosioloji Mərkəzinin Sosiologiya İnstitutunun aparıcı elmi işçisi, Rusiya EA Fəlsəfə Cəmiyyətinin "Mədəniyyətlərin dialoqu: fəlsəfə və dünyagörüş problemləri" tədqiqat qrupunun rəhbəri (Moskva, Rusiya)*

# BEYNƏLXALQ TƏDBİRLƏR, ELMİ ƏMƏKDAŞLIQ

# INTERNATIONAL EVENTS, SCIENTIFIC COOPERATION

# COP29 ÇƏRÇİVƏSİNDƏ AZƏRBAYCAN VƏ QƏTƏRİN BİRGƏ FƏALİYYƏTİNƏ HƏSR OLUNMUŞ TƏDBİR KEÇİRİLİB

20 noyabr 2024-cü il tarixində COP29 konfransının 10-cu günündə Bakı Olimpiya Stadionunda yerləşən Qətər pavilyonunda Qətər Milli İnsan Haqları Komitəsi və Qətər Dövlətinin Ətraf Mühit və İqlim Dəyişlikliyi Nazirliyinin təşkilatçılığı, Azərbaycan Respublikasının Ombudsman Aparatı, Sosial Tədqiqatlar Mərkəzi və Azərbaycan Demokratiya və İnsan Haqları Komitəsinin dəstəyi ilə tədbir keçirilib.




Tədbirdə Qətər Dövlətinin ətraf mühit və iqlim dəyişlikliyi naziri Dr. Abdullah bin Abdulaziz bin Turki Al Subaie, Qətər Milli İnsan Haqları Komitəsinin rəhbəri Məryəm bint Abdullah Al Atiyya, Azərbaycan Respublikasının Ombudsmanı Səbinə Əliyeva, Sosial Tədqiqatlar Mərkəzi İdarə Heyətinin sədri, millət vəkili Zahid Oruc, Azərbaycan Demokratiya və İnsan Haqları Komitəsinin rəhbəri, hüquq müdafiəçisi Əhməd Şahidov, media nümayəndələri və vətəndaş cəmiyyətinin təmsilçiləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Qətər Milli İnsan Haqları Komitəsinin rəhbəri Məryəm bint Abdullah Al Atiyya iqlim dəyişikliyi məsələsinə diqqət çəkərək, Qədər Dövlətinin bu sahədə həyata keçirdiyi layihələr barədə məlumat verib və milli insan haqları institutlarının birgə fəaliyyətinin zəruriliyini vurğulayıb .

Daha sonra çıxış edən Azərbaycan Respublikasının Ombudsmanı Səbinə Əliyeva Azərbaycanın ev sahibliyi ilə keçirilən COP29 konfransının əhəmiyyətinə toxunaraq, bütün dünyanın üzləşdiyi iqlim dəyişikliyi məsələsinin məhz Bakıda müzakirə edildiyini və mühüm qərarlar qəbul edildiyini qeyd edib. Ombudsman Səbinə Əliyeva Azərbaycanın üzləşdiyi 30 illik işğal dönəmində flora və faunaya vurulan ziyan barədə məlumat verib, Qarabağda ermənilər tərəfindən törədilən ekosid cinayətlərinin bütün bəşəriyyətə qarşı törədildiyini qeyd edib və Azərbaycanın bütün dünyada iqlim dəyişikliyi ilə bağlı qlobal təşəbbüslərlə çıxış etdiyini bildirib.

Sosial Tədqiqatlar Mərkəzi (STM)

İdarə Heyətinin sədri, millət vəkili Zahid Oruc qeyd edib ki, "Azərbaycanda keçirilən qlobal iqlim sammiti çərçivəsində ölkəmizə təşrif buyuran yüksək dövlət nümayəndə heyətləri, dünya miqyaslı layihələrə müəlliflik edən kompaniyalar və qurumların 10 gün ərzində Bakıda, Olimpiya meydanında bir-birindən rəngarəng, maraqlı tədbirləri planetar miqyaslı ideyaların, baxışların, konseptlərin bankını yaratdı. İqlim layihəsi ətrafında Bakı razılaşmalarının nəticəsindən asılı olmayaraq, hazırda əldə olunan ən böyük nailiyyət fərqli qitə, mədəniyyət və dinlərin vahid bir Evdə - Azərbaycanda bir araya gəlməsidir. Bizim ölkəmiz qlobal tədbiri parçalanmaya, qütbləşməyə və savaşlara deyil, məhz barışa və sülhə çağırış platformasına çevirdi.

Qətərin Milli İnsan Hüquqları təşkilatı dünyanın bir çox ölkələrində ekoloji hüquqların qorunması işinə misilsiz töhfələr verir və prosesi qlobal hərəkata çevirməyə çalışır. Azərbaycan iqlim siyasətinə sağlam və bəşəri dəyərlərdən çıxış edərək kömək göstərən dövlətlərin, təşkilatların apardığı siyasəti alqışlayır. İqlim diplomatiyası və ambisiyası pərdəsi arxasında dünya siyasi ekologiyasını nüvə savaşı həddinə gətirən, CO2 emissiyasını dünyaya ən çox yayan, istiləşməyə və çirklənməyə dair öhdəliklərini yerinə yetirməyən, əksinə Paris Sazişinin ziddinə gedərək, sıfır emissiyalı texnologiyaların 3-cü ölkələrə satılmasına hər vəchlə məhdudiyyətlər qoyan dövlətlər siyasi hüquqları necə istismar edirsə, ekologiya hərəkatlarını da o cür qlobal hökmranlıq və sömürgəçilik alətinə çevirirlər. Norveç Neft Fonduna 1,8 trilyon dollar aktiv toplanıb. Ölkənin baş naziri əslində BMT-ni boykot edərək, Azərbaycana gəlmirsə, ilk növbədə, Yerin canından sıxıb çıxardıqları trilyon dollarlıq sərvətlərin bəşəriyyətə məxsusluğunu unutmamalıdır.

XX əsr neft-qaz resursları uğrunda savaş əsri kimi xarakterizə olunur. Təəssüflər olsun ki, XXI yüzil də alternativ enerji mənbələri, resurslarının əldə olunması naminə əsl yaşıl imperializmə çevrilir. Biz COP hərəkatının təməlində siyasi-ideoloji fərqləri və digər ayırıcı, bölücü əlamətləri bir kənara qoyaraq, bəşəriyyət naminə birləşməyin tələb olunduğunu hamıya xatırlada bildik. Ən böyük nəticələrdən biri də bu oldu.

Azərbaycan lideri İlham Əliyevin qlobal təşəbbüsləri Qarabağ qələbəsini ədalətin təntənəsinə çevirib onu iqlim siyasətində də davam etdirmək idi. Biz Cənubi Qafqazın təhlükəsizliyini onun zəngin təbiətini və havasını qorumağın tərkib hissəsi kimi görürük. Rusiya-Ukrayna, Yaxın Şərq və digər aktiv 57 münaqişəni durdurmadan iqlim dəyişikliklərinin qarşısını almaq mümkün deyil.

Dünyanı gözəllik xilas edəcək deyənlər indi insanlararası, millətlərarası münasibətlərin ekologiyasından planetar iqlimin sağlamlaşdırılmasına keçməyi son şans hesab edirlər. İnanırıq ki, Bakı iqlim olimpiadası məşəli öz əlində daim qoruyub saxlayacaq".

Sonra çıxış edən Azərbaycan Demokratiya və İnsan Haqları İnstitutunun rəhbəri, hüquq müdafiəçisi Əhməd Şahidov iqlim dəyişikliyi üzrə beynəlxalq əməkdaşlığın zəruriliyinə diqqət çəkərək, ölkələr arasında qarşılıqlı əməkdaşlığın vacib olduğunu və bu baxımdan Azərbaycan və Qətər milli isan haqları qurumları arasında həm yerli səviyyədə, həm də beynəlxalq platformalarda əməkdaşlığın prioritetlərini qeyd edib.

Daha sonra panel çıxışları dinlənib, iqlim dəyişikliyi və insan haqları mövzusunda məruzələr edilib. Çıxış edənlər Azərbaycanın COP29 konfransına ev sahibliyini uğurlu adlandırıb və Bakıda mühüm qərarların qəbul edildiyini bildiriblər.

STM İdarə Heyəti sədrinin müavini, professor Tahirə Allahyarova panel müzakirədə geniş təqdimatla çıxış edib. O, məruzəsində iqlim dəyişikliyinin səbəb olduğu miqrasiya problemləri haqqında ətraflı məlumat verib, mövzu ilə bağlı müzakirə iştirakçılarının suallarını cavablandırıb.




# SOSİAL TƏDQİQATLAR MƏRKƏZİNDƏ "COP29 - YAŞIL STRATEGİYA, İQLİM DƏYİŞİKLİYİ VƏ SOSİAL ELMLƏR: ÇAĞIRIŞLAR, VƏZİFƏLƏR" MÖVZUSUNDA DƏYİRMİ MASA KEÇİRİLİB

22 oktyabr 2024-cü il tarixində Sosial Tədqiqatlar Mərkəzi (STM) və AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun birgə təşkilatçılığı ilə "COP29 - yaşıl strategiya, iqlim dəyişikliyi və sosial elmlər: çağırışlar, vəzifələr" mövzusunda dəyirmi masa keçirilib.

Tədbiri giriş nitqləri ilə STM İdarə Heyətinin sədri, millət vəkili Zahid Oruc və AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru, professor İlham Məmmədzadə açıb.

STM rəhbəri Zahid Oruc "COP29: Qlobal iqlim böhranının həlli yönündə Azərbaycanda sosial elmlərin interdisiplinar əməkdaşlıq məsələləri" mövzusunda etdiyi çıxışında qeyd edib ki, iqlim dəyişikliyinin aparıcı səbəbləri sırasında insan amili, başqa sözlə, sosial amillər durur. Bu baxımdan qlobal iqlim böhranından çıxış yolunun axtarılmasında da ictimai elmlərin qarşılıqlı əməkdaşlığı, birgə tədqiqatların təşkili böyük səmərə verə bilər. İqtisadi artımın karbon emissiyalarına, urbanizasiyaya, mal və xidmətlərin istehlak modellərinə, demoqrafik tendensiyalara, qlobal bərabərsizliyə, ekoloji mühitin çirklənməsinə qarşılıqlı təsirinin öyrənilməsi iqlim dəyişikliyi ilə mübarizədə həlledici sahəyə çevrilir.

AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru, professor İlham Məmmədzadə "COP29: Yaşıl enerjiyə keçid və ekoloji sosiologiyanın problemləri" mövzusunda çıxış edərək, insan və təbiət münasibətlərinin elmi və praktiki problemlərini tədqiq edən ayrıca elm sahələrinin yaranma tarixinə toxunub. Qeyd edib ki, XX əsrdən etibarən insanların antropogen və texnogen fəaliyyətinin təsiri nəticəsində ətraf mühitin, təbii sərvətlərin, biosferin, ekosistemlərin, flora və faunanın normal ahənginin pozulması baş verib. Beləliklə, ciddi ekoloji disbalansın yaranması ekoloji problemlərin daha da kəskinləşməsi fonunda ötən əsrdən etibarən sosial ekologiyanın yaranıb inkişaf etməsinə diqqəti cəlb edib. Natiq daha sonra sosial ekologiya elmi çərçivəsində bəşəriyyətin qlobal problemləri kontekstində cəmiyyət, təbiət və insan arasında spesifik əlaqələri empirik tədqiq edən, nəzəri cəhətdən ümumiləşdirən, sosiologiyanın metodlarını tətbiq etməklə daha dərin tədqiqatlar aparmağa imkan verən ekoloji sosiologiya elminin də yarandığını vurğulayıb.

Dəyirmi masada COP29 Təşkilat Komitəsinin üzvü, "Sağlamlığa Xidmət" İctimai Birliyinin icraçı direktoru, millət vəkili Pərvanə Vəliyeva, Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri, millət vəkili Sadiq Qurbanov, COP29 Təşkilat Komitəsinin üzvü, Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva və başqaları məruzə ilə çıxış ediblər.

Millət vəkili Pərvanə Vəliyeva COP29, vətəndaş cəmiyyəti, insan hüquqları və ətraf mühitlə bağlı çıxışında bir sıra vacib məqamlara toxunub. O, vətəndaş cəmiyyəti və icma təşkilatların COP29 prosesinin daha inklüziv olmasında, effektiv və ədalətli qərarların qəbul edilməsinin təşviqində mühüm rol oynamasının önəmini vurğulayıb. Ölkəmizin və BMT-nin vətəndaş cəmiyyətinin COP29 Təşkilat Komitəsində təmsil olunaraq maraqlarını ön plana çıxarmaq, iqlim dəyişikliyindən ən çox təsirlənənlərin ehtiyaclarının dinlənilməsini və həll olunmasını təmin etmək yönündə qətiyyətli olduğunu bildirib. Vətəndaş cəmiyyəti olaraq bütün maraqlı tərəflərin COP29 konfransının ölkədə və regionda sağlam ekosistemin yaradılmasına böyük töhfə verəcəyinə əminliyini ifadə edib.

Sosial Tədqiqatlar Mərkəzi İdarə Heyətinin üzvü, professor Tahirə Allahyarova "İqlim geosiyasəti" - Azərbaycanın yaşıl keçidlə bağlı qlobal təşəbbüslərinə qarşı kampaniyanın pərdəarxası" mövzusunda etdiyi çıxışında bəlli xarici mənbələrdən qaynaqlanan dezinformasiya hücumlarına toxunub. Prosesin arxasında başlıca qüvvə kimi revanşist erməni diasporu və havadar ölkələrin durmasını diqqətə çatdırıb.

Mövzu ətrafında çıxışlarda iqlim böhranının həllində elmi-tədqiqat əsaslı çıxış yollarının müəyyən edilməsi, yaşıl strategiya və iqlim dəyişikliyinin idarə edilməsi üçün sosial elmlərin vəzifələri və töhfələri, yeni sosial-iqtisadi "yaşıl paradiqmanın" siyasi, hüquqi və praktiki əsasları, burada tədqiqat və əməkdaşlığın önəmli rolu, tədqiqatların effektiv iqlim fəaliyyətinin alternativi olmayan təməli olması, iqlim dəyişikliyinin azaldılması yönündə milli strategiyalar və proqramların hazırlanması və müzakirəsi üçün STM-də növbəti tədbirlərin təşkili və s. məsələlərə toxunulub.

Tədbir iştirakçıları iqlim dəyişikliyi sahəsində Azərbaycanın qlobal təşəbbüslərinin həyata keçirilməsi və dünyaya çatdırılması üçün dövlət qurumlarının, vətəndaş cəmiyyətinin, elmi ictimaiyyətin sıx əməkdaşlığının formalaşdırılması yönündə səylərin ortaya qoyulacağına, ölkəmizdə iqlim siyasətinin, təbiətin qorunmasının, dekarbonizasiya siyasətinin təkmilləşdirilməsi üçün birgə və faydalı layihələrin həyata keçiriləcəyinə əminliyini bildiriblər.

# SOSİAL TƏDQİQATLAR MƏRKƏZİNİN NÜMAYƏNDƏSİ XXV ÜMUMDÜNYA FƏLSƏFƏ KONQRESİNDƏ MƏRUZƏÇİ VƏ DƏYİRMİ MASA TƏŞKİLATÇISI KİMİ İŞTİRAK EDİB

01-08 avqust 2024-cü il tarixlərində İtaliyanın paytaxtı Roma şəhərində 25-ci Ümumdünya Fəlsəfə Konqresi (The 25th World Congress of Philosophy (WCP)) keçirilib. Konqresdə dünyanın 120 ölkəsindən 5000 nəfər alim və tədqiqatçı iştirak edib. 1900-cü ildən başlayaraq 5 ildən bir təşkil edilən Ümumdünya Fəlsəfə Konqresi (ÜFK) sonuncu dəfə 2018-ci ildə Pekində keçirilib. Builki Konqres pandemiya səbəbindən 6 illik fasilədən sonra baş tutub.

Konqresin təşkilatçıları "Beynəlxalq Fəlsəfə Cəmiyyətləri Federasiyası, İtaliya Fəlsəfə Cəmiyyəti, dünyanın ən qədim və Avropanın ən böyük universitetlərindən biri olan Roma La Sapienza Universiteti olub. ÜFK-nin rəsmi açılış mərasimi eramızın 212-ci ilində inşa edilən tarixi abidə - Terme di Karakallada (Terme di Caracalla) baş tutub. Roma şəhərinin meri, Sapienza Universitetinin rektoru, Dünya Fəlsəfə Konqresinin və İtaliya bölməsinin prezidentləri açılış nitqləri ilə çıxış edib. Natiqlər müasir qlobal çağırışların həllində, insan amilinin dərk edilməsində sosial elmlərin, fəlsəfənin əhəmiyyətini, bu sahədə çalışanların daha fəal və məsuliyyətli olmasını vurğulayıb.

Konqresə təqdim edilən məqalələrin təkcə proqramı 554 səhifədir.[1] Əsas şüarı "Sərhədləri aşan fəlsəfə" ("Philosophy Across Boundaries") olan Konqres tədqiqatçılar üçün həm qlobal, həm də lokal coğrafiyalarda ən müxtəlif: ictimai, siyasi, sosial, mədəni-mənəvi, tarixi, hüquqi, süni intellekt, ekoloji etika və s. mövzularda müzakirələr və fikir mübadiləsi aparmaq üçün platforma olub. Bununla da dövlətlər, elm sahələri, mədəniyyətlər, insan və təbiət, indi və gələcək, real və virtual aləmlər və s. arasında sərhədlərin aşılması, ortaq nöqtələrin aşkarlanması və gələcək ssenarilərin tapılmasına cəhdlər əsas məqsədlərdən olub.

2 simpozium və 89 sessiyada məruzələrin edildiyi, interaktiv seminarlar və əməkdaşlıq dialoqlarının, dəyirmi masaların keçirildiyi Konqresdə əsas müzakirə mövzularından biri qlobal iqlim böhranı, ətraf mühitlə bağlı vəziyyət, ekoloji mədəniyyət və s. olub.

Azərbaycanı bu mötəbər elmi tədbirdə Sosial Tədqiqatlar Mərkəzi (STM) İdarə Heyətinin üzvü, professor Tahirə Allahyarova təmsil edib. T.Allahyarova iqlim və ekologiya ilə bağlı sessiyada ayrıca məruzəçi, habelə 2 dəyirmi masada təşkilatçı və çıxışçı olub. Konqresin "14. Ətraf Mühit Fəlsəfəsi və Davamlı İnkişaf" (14. Environmental Philosophy and Sustainability) adlı sessiyasında T.Allahyarovanın "Qlobal iqlim böhranının sosial və fəlsəfi əsasları" (Philosophical and social aspects of the global climate crisis) mövzusunda məruzəsi təqdim edilib. Məruzədə qeyd edilir ki, qloballaşma prosesləri nəticəsində dünya iqtisadi, geosiyasi,texnoloji parametrlər üzrə vahid məkana çevrilsə də, bəşəriyyətin siyasi, ideoloji, ekoloji müstəvilərdə proseslərə baxışının,

[1] https://wcprome2024.com/wp-content/uploads/2024/08/Full-Programme_WCP_rev09.pdf

dünyagörüş sistemlərinin parçalanmış vəziyyətdə qalması paradoksal vəziyyət yaradıb. Problemlərin kökü onların həllinə yanaşmada - qlobal tam təşkil edən dünyanın düşüncə və dünyagörüş sistemində əsrlər boyu formalaşan pərakəndəlik, parçalanma olmasındadır. Ötən tarixi dövrlərin təcrübəsi insanların, xalqların, dövlətlərin, cəmiyyət və təbiətin qarşıdurma məntiqi və şəraitində yaşamasını şərtləndirib ki, bu da bəşər tarixində görünməmiş böhranlara səbəb olub. Bu baxımdan, son onilliklərdə iqlim və ekoloji problemlərin həllinə yanaşmada ortaya çıxan çoxsaylı - istər ekoloji, fəlsəfi ideya və nəzəriyyələr, istərsə də bəşəriyyətin dünyagörüşündə əsasən Şərq düşüncə irsinə xas olan dünyanın vəhdəti fəlsəfəsinin real həyat fəlsəfəsinə, qəbul edilən siyasi qərarların əsas prinsipinə çevrilməsi yönündə Konqresin üzərinə böyük məsuliyyət düşür. Çıxışdan sonra iştirakçıların verdiyi sualllar cavablandırılıb.

Kanadanın Qlobal Tədqiqatlar Mərkəzinin və Viktoriya Universitetinin Fəlsəfə və Ətraf Mühit Tədqiqatları Mərkəzinin professoru Tomas Heyd ekoloji fəlsəfə, fəlsəfə tarixi və tarixə qədərki təbiət estetikası sahəsində çalışdığını bildirərək, təbii resurslarla zəngin ölkə kimi Azərbaycanda, məsələn, bp, yaxud Exon Mobile və s. beynəlxalq şirkətlərin fəaliyyətində məruzədə vurğulanan prinsiplərin reallaşdırılması mexanizminin necə olması ilə bağlı sualı maraq doğurub. Tomas Heydə verilən cavabda bu və s. şirkətlərin fəaliyyətində geniş ekoloji siyasətin, yaşıl layihələrin həyata keçirilməsi, ümumilikdə Azərbaycanın iqlim, dekarbonizasiya və yaşıl iqtisadiyyatın inkişafı yönündə ölkədaxili və qlobal təşəbbüslərilə bağlı qısa məlumat verilib.

Cənubi Afrika, Yohannesburqdakı Şimal Qərb Universitetindən (North West University NWU) fəlsəfə doktoru, xanım Yolandi M. Koetser iqlim və ekoloji böhranın həlli yönündə nə kimi təhsil proqamlarının olması ilə bağlı sualı da, müvafiq olaraq, ölkəmizdə mövcud olan ekoloji təhsil sistemi, iqlim mövzusunda maarifləndirmə və görülən işlərlə bağlı cavablandırılıb.

Sonda "Ətraf mühit fəlsəfəsi və davamlı inkişaf" sessiyasının iştirakçıları STM təmsilçisinin təşəbbüsü ilə ölkəmizdə keçirlən qlobal tədbir - COP29-la bağlı dəyirmi masaya dəvət edilib.

STM-in təşəbbüsü ilə Konqres çərçivəsində "COP29 konfransının Azərbaycanda ekoloji fəlsəfənin və davamlı inkişafın daha da təkmilləşdirilməsinə gözlənilən müsbət təsiri" ("Expected positive impact of COP29 conference on further improvement of environmental philosophy and sustainable development in Azerbaijan") mövzusunda dəyirmi masa keçirilib. Konqresin rəsmi proqramında yerləşdirilən, La Sapienza Universitetinin "YurisPrudensiya"-Hüquq fakültəsinin korpusunda, A2T auditoriyasında keçirilən dəyirmi masada iqlim və ətraf mühit profilli tədqiqatçılar: Noriko Haşimoto (Yaponiya), Nikola Zengiaro (İtaliya), İrene Bugallo (Argentina), Karen Joisten (Almaniya), Joisten Renner Kim (Kanada), Angela Miçelis (Italiya), Trung Do (Vyetnam), Hans Jonas Jelson Oliviera (Braziliya), habelə Azərbaycan daxil olmaqla, türkdilli dövlətləri təmsil edən tədqiqatçılar iştirak edib.

Dəyirmi masada Azərbaycanda keçiriləcək qlobal COP29 tədbirinə hazırlıq, onun əhəmiyyəti, Azərbaycanın qlobal iqlim dəyişikliyi siyasətinə töhfə olacaq təşəbbüsləri, xüsusilə də ölkəmizdə bu konfransla bağlı cəmiyyətdə, özəlliklə gənclər arasında ekoloji mühitin qorunmasına yönəlik səylərin sosial hərəkat miqyasını alması, təbiətə münasibət və davamlı inkişafın daha da yaxşılaşmasına təkan verməsi əsas mövzu olub. Dəyirmi masa gedişində verilən suallardan - bir çox tədqiqatçıların COP qlobal iqlim platforması haqqında, xüsusilə də




COP29-la bağlı təsəvvürlərinin kifayət qədər geniş olmadığı məlum olub. İştirakçı qonaqların COP qlobal iqlim sammitləri ilə bağlı prosesləri yaxından izləmələri üçün, noyabr ayında keçiriləcək tərəflər konfransında iştirak etməyi arzu edənlərin nə qədər olması ilə bağlı Azərbaycan nümayəndəsi tərəfindən verilən sual onların COP29-la bağlı təqdimata marağını, daha çox məlumat almaq üçün fəallaşdığını göstərib.

ÜFK-nin 124 illik tarixində ilk dəfə türk dövlətlərinin, əsasən də Özbəkistan və Azərbaycanın alim və tədqiqatçılarının təşəbbüsü ilə "Türk xalqlarının fəlsəfi irsi" (Workshop on Philosophical Heritage of the Turkic peoples - Invited Session) mövzusunda dəyirmi masa keçirilib. Tədbirdə dekolonizasiya aspektində müxtəlif (qeyri-Qərb) xalqların düşüncə və mədəni irsinə münasibət, dünyaya türk elmi-fəlsəfi baxışı ilə bağlı dərin elmi əhəmiyyətli müzakirələr baş tutub.

Dəyirmi masada Özbəkistan, Azərbaycan, Almaniya, Qazaxıstan, Qırğızıstan və Tacikistandan olan alim-tədqiqatçılar: N.Şermuhəmmədova, T.Allahyarova, A.Rettova, A.Əsədov, R.Nazariyev, A.Zagikizi, J.Bokoşov, N.Nishanova, O.Muhammadiyeva, C.Kodirov, U.Karabayev, A.Əsədova, G. Ruzmatova, T.İbaydullaev, E.Nuriddinov, B.Bilegenova, M.Raximov, M.Sabirova və başqaları məruzələrlə çıxış edib. Məruzələrdə türk dünyası ictimai-siyasi fikir tarixinin, düşüncə irsinin dünya fonunda inkişafı, yenidən dəyərləndirilməsi, tanıdılması, ümumtürk elmi-fəlsəfi, humanitar, sosioloji terminologiyasının formalaşdırılması, tədqiqi və tədrisinin metodoloji məsələlərinə toxunulub. "Qərb fəlsəfəsi" anlayışı kimi "Türkdillli ölkələrin türk fəlsəfəsi" anlayışının definisiyası, dünyaya təqdimi ilə bağlı mövcud reallıq və perspektivlər müzakirə edilib. Tədbirdə həmçinin türkdilli məkanda bəşər mədəniyyətinə əvəzsiz töhfə verən mədəni-mənəvi irsin lokal miqyasdan qlobal miqyasa çıxarılması, dünya xalqlarının düşüncə irsinə münasibətdə formala-

şan "Avropamərkəzçilik" yanaşmasının ənənəyə çevrilməsinin nəticələri, milli sosial-fəlsəfi məktəblərin dünyaya tanıdılması, bu irsin inkişafı və yayılmasında mövcud olan boşluqlar, qeyri-Qərb coğrafiyada fəlsəfi fikrə birtərəfli yanaşmalarla bağlı maraqlı müzakirələr baş tutub.

Professor T.Allahyarova "Türk xalqlarının fəlsəfi fikir tarixinin öyrənilməsinə metodoloji yanaşmalar: Türk sivilizasiyasının fəlsəfi irsinin özünəməxsusluğu məsələləri, problemlər və bəzi təkliflər" mövzusunda təqdimatla çıxış edib. Türkdilli ölkələrin ortaq elmi, mədəni və mənəvi əsaslarının qorunması və inkişafı ilk növbədə əməkdaşlıq fəlsəfəsinin müəyyənləşdirilməsini gündəmə gətirir.

Türk xalqlarının elmi, sosial-fəlsəfi irsinin qorunması və inkişaf etdirilməsinə metodoloji yanaşmalar, bu irsin tədqiqi və tədrisi məsələləri, müasir türk dünyası ziyalılarının görkəmli nümayəndələrinin tanıdılması və s. bağlı təkliflər bildirilib.

Almaniyanın Bayroyt Universitetinin (University of Bayreuth) professoru Alena Rettovanın dəyirmi masanın mövzusu aspektində "Dekolonizasiya və xalqların irsi" ilə bağlı təqdimatı böyük maraq doğurub. Alena Rettova 15 il Londonun Şərq və Afrika Tədqiqatları Universitetində (SOAS University of London (School of Oriental and African Studies),[2] 2020-ci ildən Bayroyt Universitetinin fəlsəfə, almanşünaslıq və afrikaşünaslıq üzrə professor vəzifəsində çalışıb, habelə Praqadakı Çarlz Universitetində fəlsəfə doktoru elmi dərəcələrini alıb.[3] A.Rettova sosial elmlərə "Afrika qitəsinin ictimai-siyasi fikir və mənəvi irsinə, Qərb dünyasının kolonializm-müstəmləkəçilik dövründə tətbiq edilən birtərəfli yanaşmalar, bu xalqların "düşüncəsinin geri qalması və onların modernləşdirilərək inkişaf etdirilməsi", elmi akademik deyil, "ekzotik" bir irs kimi təqdimatı, avropamərkəzçilik və kolonializm arasında sıx bağların olmasını, hazırda bu yanaşmanın dekolonizasiya istiqamətində dəyişdirilməsinin vacbliyini ifadə edən "Afrofon yanaşma", tənqid və təhlillər sahəsində geniş tədqiqatlar aparır.

Məruzəçi vurğuladı ki, onun çalışdığı London Universiteti hazırda qədim yunan filosoflarını "kabinet filosofları" hesab edərək tədris proqramından çıxarıb və əvəzinə Afrika və Şərq xalqlarının ideya-fəlsəfi, mənəvi irsinin tədqiqini daxil edib. Afrika və başqa coğrafiyalardakı irsin kifayət ədər öyrənilməməsinin birtərəfli yanaşma olduğu etiraf edilib.

Dəyirmi masadan sonra "Dekolonizasiya və dünya xalqlarının sosial-fəlsəfi irsinə avropamərkəzçi yanaşmanın nəticələri" mövzusunda prof. A.Rettova ilə aparılan ayrıca müzakirədə Azərbaycanın BMT səviyyəsində dekolonizasiya probleminin həllinə verdiyi töhfələr, "Bakı Təşəbbüs Qrupu"nun təsis edilməsi və onun tarixi fəaliyyəti ilə bağlı məlumat verib. Habelə, bu istiqamətdə STM və Bayroyt Universiteti arasında əməkdaşlıq məsələlərinə də toxunulub.

İnkişafının "qızıl dövr" sayılan orta əsrlərdə Şərq-islam bölgəsində elmi, ictimai-siyasi fikir tarixinin, habelə, onun ən zəngin tərkib hissələrindən olan Azərbaycanda sosial-fəlsəfi ideyaların avropamərkəzçilik prizmasında fəlsəfə deyil, sadəcə "din fəlsəfəsi" adlandırılması, bu irsin nəhəng sosial-elmi, mənəvi, etik əhəmiyyətinin qəbul edilməməsi xatırladıldı. Şərq-Türk-İslam bölgəsi irsinin Qərb yanaşmasında sadəcə "lokal", Qərbin öz irsinin isə "qlobal, universal" statuslu dəyərləndirmələrinə kolonializmin bilavasitə təsiri, hazırda bu sahədə də "dekolonizasiya" proseslərinə ehtiyac olduğu vurğulandı.

---

[2] https://www.soas.ac.uk/about/alena-rettova
[3] https://www.afrikanistik.uni-bayreuth.de/en/Fol03---Team/Fol00---Current-Staff/team/Prof_Dr_Alena-Rettova/index.php



SAPIENZA UNIVERSITÀ DI ROMA

Sfi Società Filosofica Italiana

**CERTIFICATE OF ATTENDANCE**

*This is to certify that*

Tahira Allahyarova

*has attended*

*the*

*25th World Congress of Philosophy*

*"Philosophy across Boundaries"*

*held at*

*Sapienza University in Rome, Italy*

*August 1-8, 2024*

*Luca Maria Scarantino*
President
of the International Federation of Philosophical Societies – FISP

*Emidio Spinelli*
Sapienza Università di Roma
President
of the Società Filosofica Italiana - SFI

XXV WORLD CONGRESS OF PHILOSOPHY ROME 2024

Prof. A.Rettovanın Afrika qitəsində Şərq fəlsəfi fikir tarixi aspektində islam fəlsəfəsini, sufizm təlimlərini, sosial fəlsəfəni tədqiq etməsi nəzərə alınaraq, mümkün birgə layihələrlə bağlı təkliflərin müzakirə edilməsi qərara alındı. Çalışdığı Universitetlə STM arasında qonaq elmi işçi mübadiləsi imkanlarının nəzərdən keçiriləcəyi bildirildi.

Ümumilikdə konqres qarşılıqlı elmi əməkdaşlıq və elmi mübadilə istiqamətində mühüm əhəmiyyət kəsb etdi. Belə ki, konqresdə keçirilən rəsmi sessiyalarla yanaşı, iştirakçıları əməkdaşlıq və qarşılıqlı elmi fikir mübadiləsinə təşviq edən toplantılarda xaricdəki sosial tədqiqatlar sahəsində çalışan həmkarlarla faydalı əlaqələr yaratmaq, akademik məşğulluq yönündə mübadilə proqramları ilə bağlı müzakirələr aparıldı. Müasir mürəkkəb dövrdə sosial elmlərin cəmiyyətdə davamlı aktuallığı, bu sahədə dialoq ehtiyacının zəruriliyi vurğulandı, məsləhətləşmələrin davam etdirilməsi qərara alındı.

Növbəti konqresin keçirilməsi yönündə səsvermə prosesində nominant ölkələr (BƏƏ, Yaponiya və s.) arasında Yaponiya səs çoxluğu ilə 2028-ci ildə ÜFK-yə ev sahibliyi edəcək ölkə adını qazandı. Seçimlərdə iştirak edən Yaponiya Fəlsəfə Assosiasiyasının prezidenti, Tokio Universitetinin humanitar və sosial elmlər fakültəsinin dekanı, professor Noburu Notomi iştirakçıları növbəti - 26-cı Tokio ÜFK-yə dəvət etdi. O, müasir dünyanın getdikcə artan problemlərinin həllində sosial elmlərin mühüm rolunu vurğuladı. Bu istiqamətdə dekanı olduğu fakültənin fəaliyyətinə toxundu

Yekun olaraq qeyd edə bilərik ki, konqresdə MDB məkanından ən çox təmsil olunan Orta Asiya ölkələrinin alim və tədqiqatçıları idi. Azərbaycanda ictimai- humanitar elm sahəsinə gerçək maraqlarını ifadə edən, Orta Asiyadan olan türk dövlətləri alimlərinin beynəlxalq tədbirlərdə iştirak üçün şəbəkələşmə yönündə faydalı əməkdaşlıq qurduqları məlum oldu və bu təqdirəlayiq idi. Azərbaycan bu ölkələrlə müqayisədə daha az iştirakçı sayına malik idi. AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutundan konqresə 4 alim qatılmışdı. Bununla yanaşı, onlar da konqresin müxtəlif sessiyalarında Azərbaycanı layiqli şəkildə təmsil etdilər.

## QEYD ÜÇÜN

# QEYD ÜÇÜN

SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

Azərbaycan Respublikası, AZ 1073, Bakı şəhəri, Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küç., 18

Telefon: (+994 12) 510 70 78; (+994 12) 510 23 75; (+994 12) 510 70 69

info@stm.az     www. stm.az